# YÜKSƏK MƏDƏNİYYƏTLİ İNSAN



Fuad Məmmədov

**Fuad Məmmədov**

# YÜKSƏK MƏDƏNİYYƏTLİ İNSAN

*«Əgər dünya mədəniyyəti müdafiə etsə,
mədəniyyət dünyanı xilas edər»*

**Bakı - 2025**

Elmi redaktor və ön sözün müəllifi – akademik Engel Tahirov

Redaksiya heyəti:

Fəlsəfə elmləri doktoru, professor R.Y. Əliyev; hüquq elmləri doktoru, professor M.V. Andreyev; fəlsəfə elmləri doktoru, professor O.N. Astafyev; professor, Azərbaycanın xalq şairi, Beynəlxalq Elmlər Akademiyasının akademiki N.Ə. Həsənzadə; filologiya elmləri doktoru, professor, AMEA-nın akademiki N.Q. Cəfərov; tarix elmləri namizədi, dosent N.A. Ko - çalayev; sənətşünaslıq üzrə elmlər doktoru, professor, AMEA-nın müxbir üzvü R.A. Məmmədova; siyasi elmlər doktoru, professor, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki Y.N. Sayamov; fəlsəfə elmləri namizədi, dosent, Moskva Dağ-Mədən Akademiyasının akademiki Q.N. Seyidova; fəlsəfə elmləri doktoru, professor M.A. Süleymanlı; fəlsəfə elmləri doktoru, professor, Rusiya Təhsil Akademiyasının akademiki Süheyl Fərəh; tarix elmləri doktoru, professor, akademik E.R. Tahirov; filologiya elmləri doktoru, professor, Dünya Söz Akademiyasının akademiki Xeyrəddin İvgin; professor, AMEA-nın akademiki, Azərbaycanın xalq rəssamı O.Q. Eldarov; iqtisad elmləri doktoru, professor, Rusiya Təbiət Elmləri Akademiyasının akademiki Y.V. Yakovets; fəlsəfə elmləri namizədi, dosent A.N. Yanıkina.

Tərcüməçi: Pərvin İbrahimova
Dizayner: Emin Talışxanov

F.T. Məmmədov. **«YÜKSƏK MƏDƏNİYYƏTLİ İNSAN».** Bakı, “OL” MMC 2025 – 300 s.

ISBN 978-9952-8552-1-0

© Fuad Məmmədov, 2025
© “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyası, 2025
© YUNESKO-nun Sülh Mədəniyyəti İnstitutu, 2025
© Beynəlxalq Humanitar “Avropa-Asiya” Akademiyası, 2025
© “OL” MMC, 2025

*Monoqrafiya davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafın məqsədi, bərpa olunan strateji resursu və başlıca hərəkətverici qüvvəsi olan yüksək mədəniyyətli vətəndaşların Azərbaycan Respublikasında və xarici ölkələrdə formalaşmasına və inkişaf etdirilməsinə dəstək məqsədi ilə hazırlanmışdır.*

*Monoqrafiya mədəniyyət, sivilizasiya və kulturologiya, mədəni dəyərlər və mədəni genezis, habelə intellektual, etik, hüquqi, idarəetmə, siyasi, ekoloji, dini mədəniyyətin mahiyyəti və xüsusiyyətləri, o cümlədən əmək mədəniyyəti, peşə etikası və məsuliyyət mədəniyyəti haqqında elmi bilikləri ehtiva edir. Kitabda kulturologiyanın həyatqabiliyyətli cəmiyyətin və güclü dövlətin inkişafında, təhsil sisteminin təkmilləşdirilməsində, daimi dəyişikliklər və zamanın çağırışları ilə şərtlənən davamlı kulturoloji transformasiyaların həyata keçirilməsində yaradıcı rolu təsvir edilir.*

*Kitab kulturoloji təhsil və maarifləndirmə sistemində insan potensialının nüvəsini təşkil edən məmurlar, müəllimlər, jurnalistlər, hüquqşünaslar, diplomatlar, ailə başçıları, uşaq bağçalarının tərbiyəçiləri, qadınlar və gənclər, muzey və kitabxana işçiləri və digər mütəxəssislər üçün ustad dərsləri və təlimlər zamanı istifadə üçün nəzərdə tutulub. Monoqrafiyanın ehtiva etdiyi universal kulturoloji biliklər mədəni və siyasi elitalar, alimlər, pedaqoqlar və maarifçilər, mühəndislər və ixtiraçılar, incəsənət və ədəbiyyat xadimləri üçün xüsusən istedadlı gənclərin və uşaqların hazırlanması, habelə vətəndaşların və yaşlı nəslin nümayəndələrinin özünütəhsili baxımından maraq kəsb edə bilər.*

*Xoşbəxtlik, mədəni insan, mədəniyyətin effektivliyi, meritokratik tərbiyə formulları, ailə mədəniyyətinin mahiyyəti və qaydaları, insanlararası və beynəlxalq münasibətlər, idarəetmə uğurları, dövlətin rəqabət qabiliyyəti, sosial-mədəni siyasətin xüsusiyyətləri və digərləri haqqında materiallar təlim, tərbiyə və maarifləndirmə proseslərində praktiki baxımdan faydalı ola bilər.*

*Siyasətçilər, məmurlar və iş adamları üçün dövlət idarəçiliyinin uğurlu strategiyaları və texnologiyaları, idarəetmənin elmi prinsipləri və təşkilati mədəniyyətin növləri, iqtisadi inkişafın idarə edilməsi mədəniyyəti, Qərb və Şərq ölkələrində formalaşmış liderlik və özünüidarəetmə mədəniyyəti kimi amillər peşəkar maraq kəsb edə bilər. Kitabın ehtiva etdiyi dövlət mədəniyyəti və dövlət idarəçiliyi sahəsində xarici ölkələrin sistemləşdirilmiş təcrübəsi haqqında məlumatlar məmurlar və dövlət qulluqçuları üçün maraqlı olacaq, onlar milli idarəetmənin səmərəliliyini artırmaq üçün səmərəli ola biləcək innovativ metodologiya, texnologiya və üsullarla tanış olacaqlar. Müəllifin işləyib hazırladığı sistemli yanaşmaya əsaslanan universal "kulturoloji piramida" metodu insan inkişafının, effektiv sosial, dövlət və qlobal idarəetmənin mürəkkəb problemlərinin həllində istifadə edilə bilər.*

*Kitabda açıqlanan özünüidarəetmə mədəniyyətinin xüsusiyyətləri hər bir insana özünü və həyatını təkmilləşdirməyə, düşüncə və hislərini idarə etməyə, emosional intellekti inkişaf etdirməyə, çətinliklərin öhdəsindən gəlməyə, sağlamlığını qorumağa və vaxtı rasional idarə etməyə kömək etmək üçün nəzərdə tutulmuşdur.*

*Oxucu həyat fəaliyyətini Azərbaycan xalqının və bütün bəşəriyyətin mədəniyyətinin inkişafına xidmətə həsr etmiş orta əsrlərin məşhur ruhi mədəniyyət yaradıcıları - Nizami Gəncəvinin və İmadəddin Nəsiminin kulturoloji portretləri ilə tanış olmaq imkanı əldə edəcək.*

*Kitab Sülh Mədəniyyəti İnstitutunun (YUNESKO) Elmi Şurası, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının rəyasət heyəti və Beynəlxalq Humanitar "Avropa-Asiya" Akademiyasının rəyasət heyəti tərəfindən ali təhsil müəssisələrində tədris vəsaiti kimi tövsiyə olunub.*

Kulturologiya – „müdriklik haqqında elm"dir. O, dünya mədəniyyətinin minilliklərlə inkişafı nəticəsində, bəşəriyyətin yaratdığı universal kulturoloji biliklərin və müdrikliyin işığında müxtəlif millətlər və dinlərin nümayəndələri olan insanlara baxış edir.

Fuad Məmmədov

## MÜNDƏRİCAT

**Ön söz** ........ 9
**Giriş** ........ 12

**I FƏSİL. MƏDƏNİYYƏT VƏ SİVİLİZASİYA HAQQINDA ANLAYIŞLAR**

Mədəniyyət haqqında anlayış ........ 21
Sivilizasiya haqqında anlayış ........ 23
Ruhi mədəniyyətin iki qanadı ........ 30
Mədəni inkişafın obyektiv-tarixi amilləri ........ 31
Kulturogenez ........ 32
Mədəni dəyərlər ........ 33
Mədəniyyətin yaradıcıları və cəmiyyətin kütləvi mədəniyyəti ........ 34
Mədəniyyətin "Şaqulisi" və "Üfüqisi" ........ 35
Ruhi mədəniyyətin strateji flaqmanları ........ 36
İqtisadiyyat və səhiyyə mədəniyyətin sosial institutları kimi ........ 39
İntellektual mədəniyyət ........ 40
Etik mədəniyyət ........ 42
Hüquqi mədəniyyət ........ 43
Siyasi mədəniyyət ........ 45
Dini mədəniyyət ........ 47
Ekoloji mədəniyyət ........ 49
Əmək mədəniyyəti ........ 51
Peşəkar etika ........ 52
Məsuliyyət mədəniyyəti ........ 53
Ailə mədəniyyəti ........ 54
İnsan münasibətləri mədəniyyəti ........ 70
Beynəlxalq münasibətlər mədəniyyəti ........ 83
Sosial-mədəni siyasət ........ 89

**II FƏSİL. KULTUROLOGİYA MƏDƏNİYYƏT HAQQINDA ELM KİMİ**

Kulturologiya haqqında anlayış ........ 95
Lesli Alvin Uaytın mədəniyyət konsepsiyası ........ 97
Abraham Maslounun mədəniyyət və insan konsepsiyası ........ 100

**III FƏSİL. KULTUROLOGİYANIN METODOLOGİYASI**

Tərəfimizdən tətbiq edilmiş metodoloji innovasiyalar ...................... 102
Əsas tədqiqat metodları və prinsipləri .............................................. 105
"Kulturoloji piramida" universal metodu .......................................... 106
İnsanın özünüinkişafının kulturoloji metodologiyası ........................ 107

**IV FƏSİL. İDARƏETMƏ MƏDƏNİYYƏTİ**

İdarəetmə mədəniyyəti haqqında anlayış .......................................... 110
Dövlət idarəetməsinin üç mərkəzi problemi ..................................... 113
İdarəetmənin elmi prinsipləri ........................................................... 113
Təşkilati mədəniyyətin növləri .......................................................... 114
Dövlət idarəçiliyinin əsas funksiyaları .............................................. 116
Dövlət idarəetməsinin strategiyası və texnologiyaları ...................... 118
Dövlət idarəetməsinin təşkili, qiymətləndirilməsi və təkmilləşdirilməsi .. 124
İqtisadiyyatın inkişafının idarə edilməsi mədəniyyəti ....................... 135
Liderlik mədəniyyəti ......................................................................... 139
Özünüidarə mədəniyyəti .................................................................... 162

**V FƏSİL. KULTUROLOJİ FORMULLAR**

Yüksək mədəniyyətli insan formulu .................................................. 193
Mədəniyyətin effektivliyi düsturu .................................................... 194
Xoşbəxtlik düsturu ........................................................................... 194
Liderin idarəçiliyinin uğur formulu ................................................. 196
Dövlətin rəqabətqabiliyyətliliyi formulu ......................................... 197
Meritokratik tərbiyə və idarəetmə formulu ...................................... 197

**VI FƏSİL. KULTUROLOJİ MƏQALƏLƏR VƏ MƏRUZƏLƏR**

"Həyat qabiliyyətli cəmiyyət və güclü dövlətin inkişafında kulturologiyanın rolu" ................................................................. 199
Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsinin kulturoloji konsepsiyası.................................................................. 223
"Azərbaycanın davamlı milli inkişafının "yeni erası" və yeni prioritetləri haqqında" ................................................................... 229
Ekoloji mədəniyyət və ahəngdar insan inkişafı imkanları ................ 253

Dünya humanizmi güzgüsündə İmadəddin Nəsiminin
kulturoloji portreti........................................................................ 263
"Nizami Gəncəvi ruhi mədəniyyətin böyük yaradıcısı kimi" ............ 275
Nəticə ............................................................................................ 287
İstifadə olunmuş və tövsiyə edilən ədəbiyyat .................................... 289
Redaksiya heyətinin üzvləri haqqında məlumat ................................ 296

## Kulturoloji Poema

"Yaxşı kitabın ərsəyə gəlməsi əlamətdar hadisədir". Yerdə qalan hadisələr klassik ingilis filosofu D. Sviftin dəqiq dediyi kimi, sadəcə məsələdir. Professor, Beynəlxalq Humanitar "Avropa-Asiya" Akademiyasının akademiki Fuad Məmmədovun "Yüksək mədəniyyətli insan" monoqrafiyasının işıq üzü görməsi, əlbəttə, tarixin gedişatını dəyişdirmədi və Yerin oxu da bu səbəbdən heç yarım dərəcə yerini dəyişmədi. Amma onun ərsəyə gəlməsinin əlamətdar hadisə olması bir faktdır.

Qeyd edim ki, bu fundamental əsər nə bundan əvvəl, nə də bundan sonra meydana çıxa bilərdi. O, Planetin indiki vəziyyətində, onun geosiyasi və tarixi tavadaşlarının qırılma nöqtəsində, bəşəriyyətin böyük bir dövrünün sonlanmasının simptomları ciddi hiss olunduğu, mövcudluq böhranının, ideya yetimliyinin yetişdiyi, perspektivlərin və tarixi ümidlərin söndüyü vaxtda ortaya çıxa bilərdi və çıxmalı idi. Bu taleyüklü zaman keçidində dünya öz nəzərini mədəniyyət fenomeninə yönəldir ki, Lesli Uaytın uzaqgörənliklə dediyi kimi, "onun əhəmiyyətini vaxt keçdikcə Günəş sisteminin kəşfi ilə bir tuturlar". Apokalipsisin ayaq səsləri, vicdanın səsi dünya vətəndaşını mədəniyyət fenomenini yenidən açıqlamaq cəhdinə deyil, dağılmaqda olan Homo sapiens ruhi bünövrəsinə kərpic qoymağın zəruriliyinə təşviq etdi. Fuad Məmmədov bəşəriyyətin vəziyyətinə kulturoloji ölçmədə diaqnoz qoyur.

Sivilizasiyanın ilkin təzahürlərinin meydana çıxmasından müasir dövrə qədər keçən üç yüz minillik boyu insan, insan cəmiyyəti, xeyirxah məqsədlər naminə mədəniyyətin müqəddəs enerjisini amansızcasına sormaqla, insanın kök kodunu pozaraq, böhranın son həddinə dirəyib. Mədəniyyət insan nəslinin İmperatriçası taxtından endirilib. İnsan onun sirlərinə, qüdrətinə, məişətin bütün sahələrində mövcud olma qabiliyyətinə, həm maddi, həm də ruhi aləmdə müəyyənedici-qanunverici missiyasına vaqif ola bilməmişdir.

Hazırkı böhranın təzahürlərini sadalayaq: müasir sivilizasiyanın sistemli böhranı; cəmiyyətin rifahının və keyfiyyət vəziyyətinin ən mühüm meyarı kimi mənəviyyatlılıq səviyyəsinin ümumi enməsi; bütün Planeti əhatə edən müharibələr, inqilablar və üsyanlar mərhələsinə daxil olma; qəddarlığın sülhsevərlik üzərində qələbəsi (sülhsevərlik səviyyəsi 24% enib); saysız-hesabsız problemlərin həm miqyasının artması, həm də onların mürəkkəbləşməsi. Nəhayət, nüvə silahının qara buludları – razılığa gəlmə, konsensusa nail olma və uzlaşma mədəniyyətinin toxumlarının Dünya həyatının kasasından itirilməsinin nəticəsidir. Nəticədə inkişafın, bəşəriyyətin təkamülü vektorunun yollarında azma mümkün fəlakətin

siqnalıdır. Bütün bunlar həyatın mövcudluğunun əsas qanununun (konstitusiyasının): ruhun bədənə (şüurun materiyaya), mədəniyyətin iqtisadiyyata nəzərən ilkinliyi qanununun pozulmasına görə ödənilən bədəldir.

Məhz bu kontekstdə kulturologiyanın patriarxı Fuad Məmmədov Mədəniyyətə (sadə-formal və ya dekorativ-folklor mənasında deyil) ona xas olan bəşəriyyətin "ruhi ulu anası" təbii-tarixi rolunun qaytarılması probleminin nə qədər ciddi olmasını müəyyən edir.

Bəşəriyyətin gedişatı şəraitində mədəniyyətin məna kodunun açılması ilə kim məşğul olacaq? Hal-hazırda yeni mədəniyyət siyasətinin fəlsəfəsinin, konsepsiyasının, strategiyasının subyekti və yaradıcısı, bu siyasətin icraçısı kimdir? Prezident, parlament, bəlkə hökumət? Bəs ictimai məişət kimi həssas sahədə fikirləri, obrazları və təsəvvürləri kim doğurur, onların nitqlərinin, sərəncam və qanunların mətnlərini kim hazırlayır? Eyni zamanda məhz onlar xalqların, ölkələrin, sivilizasiyaların tarixi inkişafının prioritetlərini, mahiyyətini və xarakterini qabaqcadan müəyyən edirlər. Qeyd olunan parametrlər zəncirinin bütün həlqələrinə bir-bir nəzər salaraq, yeganə düzgün cavabı almış oluruq: onların çıxış nöqtəsi və "ilkin hərəkətvericisi" Yüksək mədəniyyətli şəxsiyyətdir. Antik dövrdə Protaqor belə deyirdi: "İnsan hər şeyin ölçüsüdür". Yalnız tərbiyəli, təhsilli, intellektual və məlumatlı deyil, həm də seçilmiş xüsusiyyətləri – etika, əxlaq, mənəviyyat kimi bir sıra dünyəvi kodekslərin elementlərini özündə cəmləşdirən yeni növ insan. O, yeni Nuh gəmisinin (indi böhran vəziyyətindədir) memarı, doğulan eranın bənnası olmalıdır. Bircə sual var: hansı eranın?

"Rəqəmsal", yoxsa "hərfi", texnogen, ya humanitar? Bir məsələyə şübhə yoxdur: "zamanın qırılma" mərhələsində elə bir dünya yaradılmalıdır ki, "mədəniyyət bu epoxanın eksperimentinə cavab verməli, yüksək mədəniyyətli insan isə – öz xalqının, ölkəsinin, bütövlükdə dünyanın məsuliyyətini öz çiyinlərinə götürməlidir".

Müəllifin fikri aforizm dəyərindədir: "Dünyanı yüksək mədəniyyətli insanın gözəlliyi xilas edəcək!". Bu fikirdən praqmatik-strateji məqsəd doğur: yüksək mədəniyyətli – siyasi, intellektual, ruhi elitanın formalaşdırılması. Belə elita rəqəmsal eranın əsas vəzifəsinin həllində - "insanda insanlığın qorunub saxlanmasında" (Diogenin "insan axtarıram" kredosunu xatırlayaq) iştirak edə bilər. Kulturoloji səriştə qarşıdan gələn epoxanın statusunun rəmzidir.

Kitabın – mədəniyyət haqqında ensiklopediyanın müəllifi cəmiyyətin daha həssas təbəqəsi olan gənclərə müraciət etməyə bilməzdi. Bundan başqa, bütün kitab gənclik haqqında şah əsərdir. "Arzu", "sevgi", "xoşbəxtlik", "ailə" kimi ali anlayışlardan mədəniyyət kontekstində istifadə etmək məharəti olan, eyni zamanda onlara "yol açmağı", "yetişməyi" bacaran professor F. Məmmədovun istedadına heyran qalmamaq mümkün deyil. Keçmiş komsomol lideri, gənclər hərəkatının öndəri, xalqının vətənpərvər oğlu məhz gənc – yüksək mədəniyyətli insanlar nəsli ilə birgə, təkcə öz xalqının deyil, dünya xalqlarının, bütün bəşəriyyətin bu günü ilə gələcəyini məqsədyönlülüklə və cəsarətlə birləşdirir. O da təsadüfi deyil ki, ən uca intellektual-kulturoloji məxluq, onun başlıca ruhi abidəsi bəşəriyyətin əbədi

gəncliyini təmsil edən ilahi quş – "Simurqun" adı ilə adlanmışdır. O, mütləq "Məmmədovun melodiyası" lirik adı ilə "Tarix səhifəsinə" düşəcəkdir. Bu melodiya poeziyanın günəşi Nizami Gəncəvinin yaradıcılıq ruhuna həmahəngdir.

Beləliklə, kulturologiya elminin ağsaqqalı Fuad Məmmədovun mərhələli-nəticəvi, fəlsəfi baxımdan konseptual, kosmoloji dünyagörüşü yaradıcılığına ilkin və qiymətləndirici xüsusiyyətlər verməyə çalışaq. Əziz oxucu, əlinizdə tutduğunuz kitabın tizfəhmliyi, tələb edilənliyi ondadır ki, o, "Kayros zamanı"nın çağırışlarına cavab, yol göstərən mayak və "dəyər nişanlarının" dəyişdirilməsi yoludur. Ağlın və şüurun yenilənmə fəlsəfəsi və texnologiyası, mental azadlığın qorunması üsulu və strategiyası, milli və dini identikliyi, şəxsiyyətin xüsusiyyəti.

Bu kitab gələcəyə baxışdır. Dünyanın üfüqlərindəki qara buludları dağıdaraq, əfsanəvi Dankonun qəhrəmanlığını təkrarlayaraq, müəllif bəşəriyyətin labirintdən qurtulması üçün yol xəritəsini cızmışdır. Prometeyin məşəlini götürərək, ruhi İntibahın, Mədəniyyətin hökmranlığı erasının gəlişini sürətləndirdi.

Bu kitabda nəinki bunlar, Azərbaycanın vətənpərvər oğlunun ağıl və vicdanı şövqləndirən qaynar fikirlər axını var. Minilliklər boyu Kainat qarşısında imtahandan çıxmış, qismində dünya mədəniyyətinin mərkəzinin nişanəsi kimi müqəddəs "Omfalos" daşının və mənəvi təmizliyin çəki daşı, etalonu kimi üzərində tarixin sərhədləri boyu "Şərq-Qərb" koordinatlarında dalğaların axdığı ilahi Xəzər dənizinin qoruyucu mələyi qismində qəbul edilə bilər.

Bilirəm ki, Fuad Məmmədov mənəviyyat şairlərinin irsinin bilicisi və çılğın pərəstişkarıdır. "Yüksək mədəniyyətli insan" kitabı bunun sübutudur: kitabda onlarla böyük mütəfəkkirlərə, şeiriyyatın ilham mənbələrinə, dövrlərin "ikona"larına "səcdə edilir". Rəsul Həmzətovu xatırlamaq yerinə düşər. "Eşitmişəm ki, peyğəmbərin elə bir vaxtı var ki, Tanrı onu eşidir... Bu vaxt məni də çox şeydən – mənasız tələskənlikdə yanan hər şeydən xilas edərdi. Hər bir insan gərək öz Müqəddəs vaxtını əldə etsin...".

Fuad Teyyub oğlu Məmmədov öz müqəddəs vaxtını tapıb. Əcdadlarının çağırışını, təlaşlı torpağın, əbədi qayaların tərpənişinin səsini eşidərək, sanki dualar edib Tanrıya xitab edərək bizə, Yerin sakinlərinə müdriklik kitabı, mənəviyyat, insanlıq dərslərinin külliyyatını hədiyyə edib. Onun nəsihəti belədir: "Mədəniyyəti – Ruhaniyyət Günəşini qoruyun".

Sərkərdə ruhlu, ilahi düşüncəli, şövqün dahisi, əziz qardaşım, Herakl miqyaslı qoçaqlıq nümunən üçün çox sağ ol.

**Tahirov Engel Rizakoviç,**
*YUNESKO-nun Sülh Mədəniyyəti İnstitutunun rektoru,*
*Beynəlxalq Humanitar "Avropa-Asiya" Akademiyasının prezidenti,*
*Rusiya BMT-yə Dəstək Assosiasiyasının üzvü,*
*Ümumdünya Sülh Federasiyasının (UPF) sülh səfiri,*
*"Simurq" AMA-nın mədəniyyət səfiri, "Böyük Volqa Yolu"*
*BİT-nin idarə heyətinin sədri, akademik*

## Giriş

*"Bu gün bütün bəşəriyyət, bütün xalqlar və millətlər yaxşı başa düşürlər ki, insanların ən böyük mənəvi dəyərləri olmaqla, mədəniyyət, elm və təhsil davamlı inkişafı təmin edən ən mühüm amillərdən biridir... Azərbaycanın hər bir vətəndaşı... böyük tarixi keçmişə, zəngin mədəniyyətə, yüksək mənəviyyata malik ölkəmizin həm keçmişinə, həm indisinə, həm də gələcəyinə böyük məsuliyyət hissi ilə yanaşmalıdır...".*

**Heydər Əliyev**

Yüksək mədəniyyətli insan təkcə Azərbaycan cəmiyyətinin və dövlətinin deyil, bütövlükdə mütərəqqi bəşəriyyətin deyərdim ən nəcib, ağıllı və humanist məqsədidir. Zamanın çox vaxt mədəni dəyərlərin tənəzzülü ilə müşayiət olunan daimi dəyişiklikləri və çağırışları şəraitində bu məqsədə doğru ardıcıl hərəkət bütün dünyanın siyasi və mədəni elitalarının öz xalqlarının yüksək ruhi mədəniyyətinin inkişafı problemlərinə xüsusi diqqət ayırmasının vacibliyini şərtləndirir.

İnsanın əsas dəyər meyarı milliyyəti, etnik mənsubiyyəti, doğulduğu yer, yaşadığı yer, cinsi, yaşı, hətta peşəsi deyil, yalnız onun yüksək ruhi - əqli və mənəvi mədəniyyətidir. Hər bir ölkənin ziyalıları bunu bilərək elm, təhsil və maarifləndirmə, habelə incəsənət və ədəbiyyatın köməyi ilə öz xalqının yüksək ruhi mədəniyyətinin inkişafına xidmət etməyi mənəvi və vətənpərvərlik borcu saymalıdır.

Şəxsiyyətin yüksək ruhi mədəniyyəti onun layiqli, firavan və xoşbəxt həyatının əsası, öz potensialını reallaşdırmaq və cəmiyyətdə layiqli yer tutmaq imkanıdır. O, mənəvi və fiziki sağlamlığa, insanın özünü təkmilləşdirməsinə, möhkəm və firavan ailənin qurulmasına, ətrafdakıların sevgisini və hörmətini qazanmağa yol açır.

Bununla yanaşı, yüksək mədəniyyətli, ləyaqətli insan – hər bir xalqın milli sərvəti, cəmiyyətin və dövlətin strateji bərpa olunan resursu, davamlı və təhlükəsiz milli inkişafı təmin edən əsas hərəkətverici qüvvəsidir. Bu, mədəniyyətlərin səmərəli dialoqunun, onların qarşılıqlı anlaşmasının və yaxınlaşmasının, beynəlxalq mədəni identikliyin formalaşmasının, xalqların həmrəyliyinin və əməkdaşlığının açarıdır.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin vəsiyyətinə, milli inkişafın tələbatları və zamanın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasında bu gün ruhi mədəniyyətin inkişafında yeni mərhələ başlayır. Davamlı və təhlükəsiz inkişafın təmin olunması üçün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında, respublikanın birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın başçılıq etiyi Heydər Əliyev Fondunun fəal iştirakı ilə, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən yeni sosial-mədəni strategiyanın formalaşdırılması və reallaşdırılması yönündə genişmiqyaslı iş aparılır. Ciddi in-

novativ proqramlar və layihələr sırasında o, həm də davamlı mütərəqqi kulturoloji islahatların keçirilməsini, intellektual mədəniyyətin prioritet inkişafını, icbari kulturoloji təhsilin, maarifləndirmənin və kulturoloji ekspertizanın və digər mədəni innovasiyaların tətbiqini nəzərdə tutur. Eyni zamanda milli və dünya mədəniyyətinin nailiyyətləri, dünyanın aparıcı ölkələrinin elm və təhsilinin, istehsal və idarəetməsinin mütərəqqi texnologiyaları və inkişaf tendensiyaları, habelə Azərbaycanın milli mədəniyyətinin və mədəni irsinin, ədəbiyyat və incəsənətinin ənənəvi dəyərləri, mədəniyyət haqqında elmin nailiyyətləri və onun insan inkişafı problemlərinin təhlilinə sistemli yanaşmaya əsaslanan əvəzolunmaz metodoloji imkanları nəzərə alınır və onlardan yaradıcı şəkildə istifadə edilir.

Azərbaycan xalqının milli inkişaf strategiyası ruhi mədəniyyətin gələcək inkişafına, ictimai əməyin məhsuldarlığına və həyat keyfiyyətinə, cəmiyyətin yaradıcılığına və sosial-siyasi sabitliyinə yönəlib. O, milli mədəniyyətin intellektuallaşdırılmasını və modernləşdirilməsini, mədəni irsin qorunub saxlanılmasını və xalqın kulturogenez proseslərinin daha da təkmilləşdirilməsini, dünya mədəniyyətinin inkişafını, Azərbaycan dövlətinin həyat qabiliyyətinin davamlılığının və rəqabət qabiliyyətinin təmin edilməsini, onun xarici ölkələrlə və xalqlarla səmərəli əməkdaşlığını nəzərdə tutur.

Yeni strategiya əmək və idarəetmə mədəniyyəti, yüksək ixtisaslı mütəxəssislərin, şəxsiyyətlərin və müxtəlif səviyyəli liderlərin hazırlanması, insan kapitalının nüvəsini təşkil edən yüksək mədəniyyətli vətəndaşların yeni nəslinin yetişdirilməsi ilə bağlı milli vəzifələrin daha effektiv həlli üçün dövlət strukturlarının kollektivlərinin, qeyri-hökumət təşkilatlarının və KİV-in səylərinin birləşdirilməsini nəzərdə tutur.

Milli mədəniyyətin strukturu, funksiyaları, formaları və texnologiyaları onun mahiyyətinin və missiyasının yeni anlamına uyğun olaraq təkmilləşir. Strategiya dünya mədəniyyəti və sivilizasiyasının inkişaf qanunları, Azərbaycanın milli maraqları ilə şərtləndirilib, elmi xarakter daşıyır.

Bəşəriyyətin mədəniyyət tarixini bilməmək onun inkişaf qanunauyğunluqlarının başa düşülməməsinə və konkret dövrün şərtləri və çağırışları ilə şərtləndirilmiş zəruri prioritetlərin yanlış seçilməsinə gətirib çıxarır. Qədim yunan sivilizasiyasının real həyat şəraitində elmi yanaşmanın inkişafını biz filosofların – Esxil, Platon, Ksenofan və Demokritin konsepsiyalarında görürük. Bu yanaşmaların müqayisəli kulturoloji təhlili belə bir tarixi qanunauyğunluğu göstərdi ki, ona əsasən, sosial-mədəni tərəqqinin hərəkətverici qüvvəsi – cəmiyyətin inkişaf tələbatları ilə müəyyən edilən insanın intellektual yaradıcılıq prosesidir. Azərbaycanın yeni sosial-mədəni inkişaf strategiyası ictimai şüurda Azərbaycan xalqının mütərəqqi inkişafı və həyat qabiliyyətinin, dövlətin təhlükəsizliyinin və rəqabətqabiliyyətliliyinin əsas şərti kimi elm, təhsil və maarifin artan dəyərinin başa düşülməsini, onlara olan yüksək tələbatın təmin edilməsini nəzərdə tutur.

Eyni zamanda, bilik və yaradıcılıq, xeyir, humanizm, etika və ədalət kimi yüksək intellektual və mənəvi dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsi

ilə yanaşı, bu prosesdə Azərbaycan vətəndaşlarının vətənpərvərlik və həm milli, həm də ümumbəşəri dəyərlərə əsaslanan mədəni identikliyinin formalaşmasına lazımi diqqət ayrılır. Bu vəzifələr bütün bəşəriyyətin mühafizəsi və davamlı inkişafı strategiyası çərçivəsində, beynəlxalq sosial-mədəni əməkdaşlığın vəzifələri ilə sıx əlaqədə nəzərdən keçirilir.

Mədəniyyət haqqında elm olan kulturologiya zamanın çağırışlarını düzgün başa düşməkdə və insan, sosial, dövlət və beynəlxalq inkişafın mürəkkəb problemlərinin effektiv həllində əvəzsiz rol oynayır. Kulturologiya – "müdriklik haqqında elm"dir. O, dünyanın fərqli millətlərindən və dinlərindən olan insanlara dünya mədəniyyətinin minillik inkişafı dövründə bəşəriyyətin yaratdığı universal biliklər və müdriklik bəxş edir. Mədəniyyət fenomeninin sosial sistem kimi düzgün dərk edilməsi, mədəniyyət haqqında elmin dəyişdirici imkanlarından yaradıcı şəkildə istifadə edilməsi, idarəetmə strategiyalarının, məqsədlərinin və texnologiyalarının elmi əsaslandırılmış seçimi cəmiyyətin, dövlətin və bütün bəşəriyyətin davamlı inkişafına aparan etibarlı yoldur.

Kulturologiya ruhi mədəniyyətin tarixinin və müasir inkişaf problemlərinin təhlilində sistemli yanaşmadan istifadə edərək, sosial-mədəni tərəqqini təmin edən, təsdiqlənmiş qərarlar qəbul etməyə kömək edən dialektik dəyişikliklər şəraitində cəmiyyətin müxtəlif sahələrində fəaliyyət texnologiyalarının və idarəetmə mədəniyyətinin təkmilləşməsi üçün daim yeni imkanlar axtarışındadır.

Məsələn, milli maraqlar nöqteyi-nəzərindən, hər bir dövlət cəmiyyətin rifahının və həyat keyfiyyətinin yüksəlişi ilə sıx bağlı olan beynəlxalq rəqabətqabiliyyətliliyinin yüksəldilməsində maraqlıdır. Dövlət idarəçiliyinə sivilizasiyanın inkişafının tarixi təcrübəsinə əsaslanan sistemli kulturoloji yanaşma göstərir ki, müasir dövlətin rəqabətqabiliyyətliliyinin və təhlükəsiz inkişafının əsas şərtləri: intellektual mədəniyyətin qabaqcıl inkişafı, əmək mədəniyyətinin yüksək səviyyəsi, dövlət idarəetmə mədəniyyətinin yüksək səviyyəsidir. Bu kulturoloji postulatların xüsusi dövlət proqramları və layihələrində istifadəsi dövlətin vaxtında düzgün qoyulmuş hədəflərinə uyğun olaraq inkişafının yüksək dinamikasını təmin edir. Bu vəzifələrin həlli üçün strateji resurs müvafiq səviyyədə elmi biliklərə, bacarıqlara, mütəşəkkilliyə, mənəviyyata və yaradıcılıq enerjisinə malik yüksək mədəniyyətli insandır.

Nizami Gəncəvi deyirdi: "Elm kainat qədər sonsuzdur". Ruhi mədəniyyətin inkişafının hərəkətverici qüvvəsi yeni elmi biliklərdir. Onlar bütöv mədəniyyət sistemi labirintlərinin gizlinlərinə nüfuz etməyə imkan yaradır.

Bunun üçün Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi mühüm metodoloji əhəmiyyətə malikdir. Kulturoloji tədqiqatlarda Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsinin prinsiplərindən istifadə edilməsi mədəniyyət hadisələri arasında struktur əlaqələrinin ilk baxışda görünməyən fəzalarına fikrən nüfuz etməyə və onlarda yeni elmi biliklərə aparan məntiqi mahiyyəti, xüsusiyyətləri və qanunauyğunluqları görməyə imkan yaradır.

Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi təkcə insan mədəniyyətinin çox

sayda müxtəlif növlərini deyil, həm də bir insanın davranışlarının, həyatının, fikirlərinin, baxışlarının, tərzinin fərqli tərəflərini əks etdirən, kulturoloji baxımdan müxtəlif mədəniyyət dərəcələrini görməyə imkan verir. O, insanın vəziyyətinin çox variantının olduğunu, onun mədəniyyətinin həyatın daimi dialektik dəyişiklikləri ilə şərtlənən təzahürlərinin çoxcəhətliliyini izah edir.

Vaxt kimi dəyərli və əvəzolunmaz resurs həyat şərtlərindən, sosial mühitdən və dövlətin siyasi rejimindən asılı olaraq insanın həyat fəaliyyətində çox şeyi dəyişdirə bilər. İnsan müxtəlif vəziyyətlərdə öz mədəni dəyərlərindən, elmi biliklərindən asılı olaraq özünü müxtəlif cür apara bilər. Burada psixologiya, xasiyyət, intellekt, mənəviyyat, iradə gücü, iman da rol oynayır. İnsanın dəqiq yaş aralığını deyil, onun həyatının vahid dövrünü nəzərdə tutan "gənc insan" paradiqmasını götürsək, bu anlayışın nə qədər çox sayda müxtəlif mənalar və parametrlər ehtiva etdiyini görərik. Gənc insan həyatının illər, aylar, günlər, saatlar və dəqiqələr kimi bölünən müxtəlif dövrlərində fərqli ola bilər. Onun bilikləri, dəyərləri, əqidələri, dünyagörüşü istiqamətləri, həyat şərtləri, sağlamlığı, imkanları, nailiyyətləri, sosial vəziyyəti müxtəlif cür ola bilər.

Eyni şeyi təbiətdə də görə bilərik. "Gündüz və gecə" paradiqması çərçivəsində Günəşin vəziyyətindəki dəyişikliklərə baxmaq kifayətdir. Günəşin səmada müxtəlif mövqeləri, cürbəcür rəng, işıq və qaranlıq göstəriciləri, enerji dəyişiklikləri ilə fərqlənən çox sayda vəziyyətini görmək üçün onun çıxmasına və ya batmasına baxmaq kifayətdir.

Həyatın özü kimi, Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi də göstərir ki, rasional təfəkkürə və düzgün məntiqə əsaslanan kiçik kulturoloji innovasiyalar bəzən istehsalın və idarəetmənin səmərəliliyini əhəmiyyətli dərəcədə yüksəldə, cəmiyyət həyatına və beynəlxalq münasibətlərə mütərəqqi dəyişikliklər gətirə bilər. Belə ki, bizə görə, bu gün dövlət idarəçiliyinin səmərəliliyinin yüksəldilməsinin strateji vacib milli və beynəlxalq vəzifələrindən biri ruhi mədəniyyətin inkişafını idarə edən universal kulturoloji postulatların seçilməsi və təkmilləşdirilməsidir. Təşkilatın, cəmiyyətin, dövlətin və bütün bəşəriyyətin davamlı inkişafının belə postulatları qismində: rəqabət və manipulyasiyadan – həmrəylik və əməkdaşlığa; ziddiyyətlərdən – ahəngə və maraqların razılaşdırılmasına; vəzifə hakimiyyətindən – biliklər və etika hakimiyyətinə; səriştəsiz idarəetmədən – peşəkarlığa və məsuliyyətə keçidin məqsədəuyğunluğunu nəzərdən keçirmək olar. Zənn edilir ki, dünya sivilizasiyasındakı böhranlı hadisələr şəraitində bu postulatların müxtəlif ölkələrdə istifadəsi həm bütün səviyyələrdə idarəetmə mədəniyyətinin yüksəldilməsi maraqlarına, həm də müxtəlif dövlətlərin siyasi mədəniyyət maraqlarının yaxınlaşdırılmasına xidmət edəcəkdir.

Yeni strategiya kulturoloji elmin, təhsilin və maarifləndirmənin böyük dəyişdirici imkanlarından təkcə təhlükəsiz milli inkişaf deyil, həm də beynəlxalq inkişaf maraqları naminə istifadə etmək üçün perspektiv açır. Strateji xarakterli kulturoloji tədqiqatların inkişafı, cəmiyyətin həyat fəaliyyətinin müxtəlif sahələri üçün ekspert-kulturoloqların hazırlanması, dövlət idarəçiliyində sistemli kulturoloji

yanaşmadan istifadə edilməsi – Azərbaycan Respublikasının davamlı və rəqabətqabiliyyətli inkişafının məqsədi və bərpa olunan strateji resursu kimi yüksək mədəniyyətli vətəndaşların yetişdirilməsi və inkişafı prosesinin səmərəliliyini ciddi dərəcədə artırmağa imkan yaradır. Eyni zamanda o, yüksək effektivliyə malik kulturoloji metodologiyadan təkcə cəmiyyətin innovativ təşkilati strukturlarının yaradılması üçün deyil, həm də ölkə vətəndaşlarında universal kulturoloji təfəkkürün və həyatın tələbatlarından irəli gələn praktiki əhəmiyyətli problemlərin həllinə sistemli yanaşmanın inkişafı üçün istifadə etməyə kömək edəcək.

Ölkənin elmi əsaslandırılmış sosial-mədəni strategiyası mədəni inkişafa əsaslanan dünya sivilizasiyasının mənzərəsini görmək və Azərbaycanın yaxın perspektivdə dünya arenasında rəqabətqabiliyyətliliyə nail olması üçün qabaqcıl ölkələrin intellektual mədəniyyətinin inkişafı templərini heç olmasa bir qədər keçməli olduğunu anlamaq imkanı verir. Bu çox ciddi və məsuliyyətli vəzifə olub, yalnız müvafiq dövlət proqramlarından deyil, əsas etibarilə, yüksək mədəniyyətli vətəndaşların keyfiyyətindən və kəmiyyətindən də asılıdır. Bununla belə, əsas şərt əmək və idarəetmə mədəniyyəti səviyyəsinə görə qabaqcıl dünya ölkələrindən geri qalmamaq olmalıdır, çünki yeni çağırışlar şəraitində vaxtın və inkişaf templərinin itirilməsi aktuallığın və əhəmiyyətin, təşkilati, informativ, əmək və maddi resursların itirilməsi deməkdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında sosial-mədəni inkişaf üzrə yeni dövlət strategiyasının reallaşdırılması aşağıdakıları həyata keçirməyə imkan verir:

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ölkənin sosial-mədəni inkişafı proseslərinin koordinasiyasını, ardıcıl innovativ kulturoloji islahatların həyata keçirilməsini həvalə etməklə, onun status rolunun yüksəldilməsi haqqında məsələyə baxılması.

- mədəniyyəti iqtisadiyyat üzərində "üstqurum" kimi anlayan mücərrəd təfəkkürün köhnəlmiş anlayışlarının və stereotiplərinin yenidən nəzərdən keçirilməsi və onun bütöv sosial sistem kimi elmi anlamının cəmiyyətin və dövlətin praktiki fəaliyyətinin əsası qəbul edilməsi.
- mədəniyyətin həyat qabiliyyətini təmin edən innovativ sistem və struktur islahatlarının keçirilməsi, cəmiyyətin və dövlətin tərəqqisi ilə təhlükəsizliyini təmin edən elm, təhsil və maarif kimi mədəniyyətin strateji əhəmiyyətli sosial institutlarının tarixi missiyasının və ictimai dəyərinin yüksəldilməsi.
- dövlətin intellektual və iqtisadi potensialının sürətli inkişafı üçün zəruri olan intellektual, etik, hüquqi və idarəetmə mədəniyyətinə, zamanın çağırışlarına cavab verən yeni prioritetləri dəqiq müəyyən etməklə, sosial-mədəniyyət siyasətini mükəmməlləşdirmək.
- kulturologiyanın Azərbaycanda elm və tədris fənni kimi dövlət tərəfindən institusionallaşmasını təmin etmək, ekspert-kulturoloqların xüsusi hazırlığı və onlardan dövlət quruculuğu və idarəetmənin müxtəlif sahələrində məhsuldar istifadə edilməsi üçün şərait yaratmaq.

- ailədə və cəmiyyətdə meritokratik tərbiyə və idarəetmə mədəniyyətini təkmilləşdirmək.
- bütün səviyyələrdən olan məmurların daimi kulturoloji hazırlığı və yenidən hazırlığının təmin edilməsi, onlar tərəfindən milli və dünya mədəniyyətinin inkişaf tarixinin, nəzəriyyəsinin və təcrübəsinin dərindən öyrənilməsi, habelə əhalinin müxtəlif təbəqələrinin sistemli şəkildə kulturoloji maarifləndirilməsi.

Aydın olur ki, mədəniyyət haqqında elmin dövlət quruculuğu və idarəçiliyi üçün əvəzolunmaz əhəmiyyəti kulturologiyanın Azərbaycanda elm və tədris fənni kimi ardıcıl institusionallaşmasını, ekspert-kulturoloqların hazırlığı üçün əlverişli şəraitin yaradılmasını, icbari kulturoloji təhsil və maarifləndirmənin tətbiqini, ölkə əhalisi arasında universal kulturoloji biliklərin yayılmasını tələb edir.

Respublikanın ali və orta məktəblərində, uşaq bağçalarında, kadrların yenidən hazırlığı sistemində icbari kulturoloji təhsilin tətbiqi Azərbaycan cəmiyyətində intellektual, məişət, istehsal, idarəetmə, hüquqi, şəxsiyyətlərarası, millətlərarası, dinlərarası, siyasi, sosial və vətəndaş mədəniyyətinin yüksək standartlarının yayılmasına kömək edəcək.

Məmurlar, müəllimlər, mütəxəssislər, jurnalistlər, habelə gənclər, uşaqlar və əhalinin digər kateqoriyaları üçün xüsusi kulturoloji ustad dərsləri, elmi və maarifləndirici oxunuşlar, mühazirələr, məşğələlər və təlimlər mütəxəssislərin səriştəlilik, peşəkarlıq, etik və hüquqi mədəniyyət səviyyəsinin yüksəlməsinə, həmçinin gənclərin sosiallaşmasına imkan yaradacaq.

Əhalinin müxtəlif kateqoriyalarının kulturoloji maarifləndirilməsi ictimai istehsalda yüksək elmi biliklər və bacarıqlar, mütəşəkkillik və məsuliyyət səviyyəsini, əhalinin ümumi mədəniyyət səviyyəsinin artırılmasını təmin edəcək. O, cəmiyyətin müxtəlif sahələrində əmək və idarəetmə mədəniyyətinin keyfiyyətinin, milli maraqlar platformasında insanların və kollektivlərin fəaliyyət proseslərinin ahənginin yüksəldilməsinə kömək edəcək.

Universal kulturoloji biliklərin yayılması istər-istəməz əməyin məhsuldarlıq səviyyəsinin artmasına gətirib çıxaracaq, insan və beynəlxalq münasibətlər mədəniyyətinin, Azərbaycan cəmiyyətinin sosial, iqtisadi, dövlət və məişət həyatının bütün sahələrində vətəndaşlarımızın məsuliyyət mədəniyyətinin inkişafına yeni təkan verəcək.

Bu monoqrafiya Azərbaycan Respublikasının sosial-mədəni inkişafının yeni dövlət strategiyasının reallaşmasına vətəndaş dəstəyi missiyası çərçivəsində Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi sayəsində "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası tərəfindən hazırlanmışdır. İşin məqsədi – məmurlara və dövlət qulluqçularına, alim və pedaqoqlara, müəllim və tərbiyəçilərə, hüquqşünaslara, jurnalistlərə, həkimlərə, mühəndislərə, qeyri-hökumət təşkilatlarının, yaradıcı və peşəkar birliklərin rəhbərlərinə, habelə çoxsaylı vətəndaşlara yüksək mədəniyyətli insanların formalaşdırılması və özünüinkişafı, həmçinin şəxsiyyətlərin və bütün səviyyələrdən olan liderlərinin təkmilləşdirilməsi üçün zəruri olan

universal kulturoloji bilikləri və mədəniyyətin mahiyyəti və kulturologiyanın dəyişdirici imkanları haqqında xüsusi elmi bilikləri ötürməkdir.

Müasir cəmiyyətlərin inkişafının bərpa olunan strateji resursu kimi yüksək mədəniyyətli insanların yetişdirilməsinin dövlət əhəmiyyəti və beynəlxalq rolunun elmi əsaslandırılması məqsədilə monoqrafiyanın müəllifi tərəfindən Heydər Əliyev, Konfutsi, Əl-Fərabi, İbn Rüşd, Nizami Gəncəvi, Nəsirəddin Tusi, İbn Xəldun, İmadəddin Nəsimi, Napoleon Bonapart, Mirzə Şəfi Vazeh, Vilhelm Ostvald, Henrix Rikkert, Maks Veber, Lesli Alvin Uayt, Osvald Şpenqler, Hüseyn Cavid, Karl Yaspers, Arnold Toynbi, İenaq Saburo, Pitirim Sorokin, Piter Druker, Abraham Maslou və bir çox başqa alimlərin, mütəfəkkirlərin və dövlət xadimlərinin əsərlərinin təhlili aparılmışdır.

"Simurq" adı bizim tərəfimizdən təsadüfi seçilməmişdir. Məlum olduğu kimi, "Simurq" Azərbaycan mifologiyasında qədim xeyir, yenidən həyata gəlmə, fədakarlıq və mücahidlik simvoludur. O, Müqəddəs Səmadan və ya Müqəddəs Dağdan "Həyat ağacı"nın pöhrələrini ilk dəfə Yer kürəsinə gətirən, böyük qartalabənzər quş haqqında qədim Avrasiya əsatiri ilə sıx bağlıdır. "Simurq" həm Şərqdə, həm də Qərbdə yeni, əbədi həyatın ümumdünya simvolu kimi qəbul edilmiş, qədim Azərbaycanda tanrıların mərhəmət və ölkənin tərəqqi rəmzi olan səkkizguşəli ulduzun mənaca sinonimlərindən biridir. Əfsanəvi "Simurq" quşu daha çox uzaqgörən ədalət və xoşbəxtlik quşu, ayrı-ayrı insanların və onların qruplarının xeyirxah himayədarı kimi başa düşülür. Avestada "Saena" adlanan "Simurq" bütün quşların şahı, ilahi qartal, mifik varlıqdır ki, Nizami Gəncəvi öz əsərlərində onu "Anka" adlandırır. Avestaya görə, Simurq öz ibadətçisinin evini lütflə (xvarna ilə) əhatə edir. Bu quş dünyanın bütün toxumlarının böyüdüyü Həyat ağacının altında oturur, yağışın və küləyin daşıdığı bu toxumları qanad çırparaq bütün dünyaya səpələyir. Sonrakı əfsanələrdə artıq Simurq Həyat ağacının simvolu kimi görünür. Simurq İranın, Azərbaycanın irandilli və türkdilli xalqlarının, habelə Orta Asiya və Volqaboyu xalqlarının mifologiyasında yer alır. Simurq Sasanilər sülaləsinin rəmzi idi. Bu quşa Bizans imperiyasının, Gürcüstanın və fars çarlığının mədəni təsir dairəsində yerləşən başqa ölkələrin ikonoqrafiyasında rast gəlinir. Qədim rus büdpərəst tanrısı Simarqlın adı "Simurq"un skif-sarmat versiyasına gedib çıxır. "Müvəqqəti illər povestinə" görə, onun bütü Perun və digər tanrılarla bərabər Rus çarlığının xrintianlığı qəbul etməsi ərəfəsində "büdpərəstlik islahatı" çərçivəsində Kiyevdə qoyulmuşdu.

Artıq 35 ilə yaxındır ki, 1989-cu ildən başlayaraq "Simurq" AMA elm, təhsil və maarifləndirmənin köməyi ilə Azərbaycan xalqının ruhi mədəniyyətinin inkişafına xidmət edir. Yarandığı ilk günlərdən təşkilatın başlıca missiyası Azərbaycan xalqının ümumi mədəniyyət səviyyəsinin artırılmasında, yüksək mədəniyyətli insanların yetişdirilməsi və inkişaf etdirilməsində dövlətə yardım etməkdir. Bu illər ərzində Assosiasiya tərəfindən yüzlərlə kulturoloji seminarlar, konfraslar, ustad dərsləri və təlimlər, televiziya və radio verilişləri təşkil edilmiş və keçirilmiş, onlarla konsepsiya işlənib hazırlanmış, ölkədə və xaricdə onlarla monoqrafiya və

kitablar, yüzlərlə elmi və elmi-maarifləndirici məqalələr dərc edilmişdir. Nazirliklərdə, agentliklərdə, ali məktəblərdə, elmi müəssisələrdə, məktəblərdə, muzeylərdə, kitabxanalarda, qeyri-hökumət təşkilatlarında səyyar mühazirələr, ustad dərsləri, məruzələr, elmi oxunuşlar və təlimlər təşkil edilmişdir. Onların çoxu Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinin binasında, Politologiya və Sosial İdarəetmə İnstitutunda, "İrşad" otelində, Qərb Universitetində, Azərbaycan Universitetində, Atatürk Mərkəzində, Ensiklopediya Mərkəzində, "Asan xidmət" Dövlət Agentliyində və Bakının, Sabirabadın, Qusarın digər obyektlərində keçirilmişdir. Bir sıra kulturoloji məruzələr, açıq mühazirələr və ustad dərsləri RF Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasında, Kazan Federal Universitetində, Lomonosov adına MDU-da, Brüssel Müstəqil Universitetində (Belçika), Brahma Kumaris Ümumdünya Ruhani Universitetində (Hindistan), Fırat Universitetində (Türkiyə) və xarici ölkələrin çoxsaylı digər müəssisələrində baş tutmuşdur.

"Simurq" AMA hələ 1989-cu ildə təşəkkül tapmağa başladığı dövrdən sistemli tədqiqatları ilə Azərbaycan elmində yeni istiqamətin – XX əsrin ortalarında Amerika antropoloqu, professor Lesli Alvin Uaytın innovativ yaradıcılığı sayəsində meydana çıxan kulturologiyanın əsasını qoymuşdur. Onun kulturologiyanın inkişafındakı xidmətləri altı beynəlxalq akademiya tərəfindən qiymətləndirilib. "Simurq" AMA-nın Kosta-Rika Mədəniyyət Nazirliyində və SSRİ-nin San-Xose səfirliyindəki kulturoloji təqdimatları 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bu uzaq Mərkəzi Amerika dövləti tərəfindən tanınmasında mühüm rol oynadı.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu kitab yüksək ruhi mədəniyyəti bütün dünyada xoşbəxtliyin, humanizmin və harmoniyanın əsası, insanın və bəşəriyyətin davamlı və təhlükəsiz inkişafının açarı hesab edən Azərbaycan Respublikası vətəndaşları ilə yanaşı, başqa dünya ölkələrinin vətəndaşları, planetin bütün insanları üçün faydalı olacaqdır.

**Fuad Məmmədov**

*kulturoloq, professor, tarix elmləri doktoru,*

*Monoqrafiyanın nəşr edilməsinə qrant dəstəyi verdiyi üçün Azərbaycan Respublikasnın Mədəniyyət Nazirliyinə dərin minnətdarlığımı bildirirəm.*

*Monoqrafiyanın elmi redaktoru akademik Engel Tahirova, beynəlxalq rəyasət heyətinin üzvlərinə, tərcüməçi Pərvin xanım İbrahimovaya və dizayner Emin Talışxanova ürəkdən təşəkkür edirəm.*

*Kitabın Azərbaycan dilində nəşr edilməsi ilə bağlı dəyərli məsləhətlərinə görə akademik Nizami Cəfərova, Azərbaycanın əməkdar müəllimi, dosent Firdovsiyyə xanım Əhmədovaya, professor Mübariz Süleymanlıya və "Simurq" AMA-nın vitse-prezidenti Svetlana xanım Bayramovaya səmimi minnətdarlığımı bildirirəm.*

# I FƏSİL

# MƏDƏNİYYƏT VƏ SİVİLİZASİYA HAQQINDA ANLAYIŞ

## Mədəniyyət haqqında anlayış

Bu gün XXI əsrin əsas elmi paradiqmasına çevrilən mədəniyyət haqqında, elmin nailiyyətləri və geniş metodoloji imkanları əsasında sosial-mədəni inkişaf strategiyasının qurulması son dərəcə vacibdir. Azərbaycan Respublikasının milli inkişaf maraqları mədəniyyətin obyektiv reallığa zidd olan, köhnəlmiş, cəmiyyətin fəaliyyət sahələrindən biri və ya "iqtisadiyyat üzərində üstqurum", başlıca olaraq, adət-ənənələri, etik davranış normalarını, ədəbiyyatı, incəsənəti və mədəni irsi əks etdirən dar mənada başa düşülən anlayışından imtina etməyi tələb edir.

Mədəniyyətin mahiyyətini, onun strukturlarını, funksiyalarını, obyektiv-tarixi inkişaf amillərini, qanunauyğunluqlarını, texnologiyalarını və imkanlarını, mədəni insan formullarını düzgün başa düşmədən sosial-mədəni tərəqqinin səmərəliliyi, həyat qabiliyyətli cəmiyyətin və güclü dövlətin formalaşması haqqında danışmaq çətindir. Mədəniyyətin sosial fenomen kimi düzgün dərk edilməsi insan və cəmiyyətin davamlı və təhlükəsiz inkişafı, həyat keyfiyyətinin yaxşılaşması üçün böyük imkanlar açır.

Elmi anlamda mədəniyyət – insanın ağlı, qəlbi və əməyi ilə yaradılan, yaradıcı prosesi, onun ruhi (əqli və mənəvi) və maddi dəyərlər və normalar şəklində olan nəticələrini, habelə onların istehsalı, saxlanması, istifadəsi və gələcək nəsillərə ötürülməsi texnologiyalarını ehtiva edən, daim inkişafda olan bütöv sosial sistemdir. O, təbii-coğrafi şərait, mədəniyyətin genetik kodu, sosial mühit, tarixi şərait və mədəni mübadilə ilə şərtləndirilmiş insan inkişafının tələbatlarına müvafiq olaraq ahəngdar balanlaşdırılmış bütöv sosial orqanizmdir. Eyni zamanda mədəniyyətin hər bir sahəsinin onun inkişaf səviyyəsini və keyfiyyətini ifadə edən "kontekstual mədəniyyəti" vardır. Mədəniyyəti elmi anlamda dərk etmədən onun insan inkişafı üçün böyük dəyişdirici imkanlarını görmək və onlardan istifadə etmək çətindir.

Mədəniyyət bütöv sosial sistem kimi özündə aşağıdakıları: təhsil (təlim və tərbiyə) və maarifləndirmə, elm və texnologiyalar, ədəbiyyat və incəsənət, həyat tərzi və həyat təminatı sistemləri, mənəvi dəyərlər, etik və hüquqi normalar, əmək mədəniyyəti, təşkilat və idarəetmə, iqtisadiyyat və maliyyə, səhiyyə və ekologiya,

din, idman, insan münasibətləri və beynəlxalq münasibətlər, informasiya və KİV, maddi mədəniyyət predmetləri və abidələri, insanın həyat fəaliyyətinin digər sahələrini, texnologiyalarını və nəticələrini ehtiva edir.

Mədəniyyətin hər bir sahəsinin öz mahiyyəti, xüsusiyyətləri, strukturu, missiyası, funksiyaları, məqsədləri, tarixi, enerjisi, inkişaf vektoru və nəticələri var ki, onlar insanın həyat fəaliyyətinin, cəmiyyətin və dövlətin həyat qabiliyyətinin qorunub saxlanılmasına və daha da yaxşılaşdırılmasına xidmət edir. Bu sistemin əsas hərəkətverici qüvvələri təhsil və maarifləndirmə, elm və texnologiyalardır. Dövlət idarəçiliyinin mədəniyyəti inkişaf etdirmək vəzifəsi milli maraqlara və zamanın çağırışlarına uyğun olaraq ölkənin sosial-iqtisadi inkişafının rəqabətqabiliyyətliliyini və xalqın yüksək rifahını təmin edən intellektual, etik, hüquqi və idarəetmə mədəniyyətinin prioritet inkişafı şəraitində onun bütün sahələrinin qarşılıqlı, ahəngdar inkişafının, təkmilləşməsinin və koordinasiyasının təmin edilməsindən ibarətdir.

Mədəniyyətin düzgün başa düşülməsi onun inkişaf mənzərəsini və dinamikasını görməyə, onun sosial institutlarının və sahələrinin qarşılıqlı inkişafını ahəngləşdirməyə, istiqamətləndirməyə, təshih etməyə və əlaqələndirməyə kömək edir ki, burada əsas məqsəd onların hər birinin faydalı iş əmsalının və bütövlükdə mədəniyyət sisteminin sinergetikasının davamlı artırılmasıdır. Bununla bir yerdə, o, bütöv mədəniyyət sisteminin enerjisini texnoloji baxımdan - dəyişən milli tələbatlara, cəmiyyətin və dövlətin davamlı və təhlükəsiz inkişafı məqsədlərinə və maraqlarına cavab verən nəticələr əldə etməyə istiqamətləndirmək imkanı verir.

Sivilizasiya çərçivəsində insanların keyfiyyətləri və hərəkətləri ilə şərtlənmiş, bir-birinə əks olan iki sosial proses var: yaradıcı təbiətə malik mədəniyyət və destruktiv, dağıdıcı xarakterə malik antimədəniyyət. Sivilizasiyanın yaradıcı prosesi kimi mədəniyyətin əsas göstəriciləri bilik, xeyir, əmək, inkişaf və rifahdır. Antimədəniyyət şər, kasıblıq, zəiflik və destruktivliyin mənbələri olan cəhalət və yüksək eqoizmlə bağlıdır.

Bəşəriyyətin mədəniyyətinin inkişafı prosesi ağıllı insanın (Homo sapiens) Yer kürəsində ilk addımlarından başlayır. Yəqin ki, ağıllı insanın mədəniyyətinin ilk təzahürlərindən biri müəyyən səslər çıxarmaqla yanaşı, qazılmış işarələr və təsvirlərin köməyi ilə fikirlərini başqa insanlara çatdırmaq olmuşdur. Bu, hələ insanların ünsiyyət üçün dillər yaratmadığı uzaq minilliklərdə baş vermişdir.

Mədəniyyət biliklərdən başlayır. Bu, bilik, xeyir, əmək, inkişaf və rifahdır. Cəhalət isə şər, kasıblıq və zəiflikdir. Mədəniyyət insan ağlının və ruhunun inkişafı, cəmiyyətin mütərəqqi sosial transformasiyaları sayəsində cəhaləti aradan qaldırmağa kömək edir və bəşəriyyəti xaosdan nizama doğru aparır. Qədim zamanlardan bu günümüzə qədər mədəniyyətin inkişafının motivasiyası əsasında daim insan həyatının qorunması və yaxşılaşdırılması barədə qayğı, ədalət, həqiqət, sevgi, gözəllik və nizam dəyərləri durur.

Mədəniyyət – insanın dəyərinin başlıca meyarı, onun həyat qabiliyyətinin formalaşmasının, zamanın tələblərinə və çağırışlarına cavab verə bilmək bacarığı-

nın açarıdır. Mədəniyyətin dəyəri insanın əqli, peşəkar və mənəvi baxımdan özünütəkmilləşdirməsi, cəhaləti və yüksək eqoizmi aradan qaldırmaq, özünü və onu əhatə edən dünyanı yaxşıya doğru dəyişmək qabiliyyəti ilə şərtlənib. İnsanın dəyərinin əsl meyarı onun irqi, milliyyəti, etnosu, dini, cinsi, yaşı, doğulduğu yer, yaşadığı yer, peşəsi deyil, şəxsiyyətin yüksək ruhi – əqli və mənəvi mədəniyyətidir. Yüksək mədəniyyətli insan xeyir, bilik, yaradıcılıq, vətənpərvərlik, sosial ədalət və insan həmrəyliyi prinsiplərinə əsaslanaraq təkcə özü üçün deyil, həm də başqa insanların xeyrinə layiqli həyata can atır. Bunu bilən və ölkəsinin gələcəyi barədə düşünən hər bir hökumət öz vətəndaşlarının intellektual və mənəvi mədəniyyətinin daim təkmilləşdirilməsini, yüksək mədəniyyətli insanların davamlı şəkildə "istehsalını" prioritet milli vəzifəsi kimi müəyyən etməlidir.

Ruhi mədəniyyətin inkişafı nəticəsində elmi, maarifləndirici, mənəvi, maddi, bədii, etik, estetik, idarəçilik, istehsalat, tibbi, ekoloji, ailə, məişət, kommunikasiya və digər dəyərlər və normalar əmələ gəlir, şəxsiyyətin və cəmiyyətin inkişafını, insan kapitalının formalaşmasını tənzimləyən həyat fəaliyyəti texnologiyaları yaradılır və təkmilləşdirilir.

Milli mədəniyyətin bütöv sosial sistem kimi səmərəli idarə edilməsi dövlətin strateji məqsədlərinə nail olmağa yönəlmiş insanın həyat fəaliyyətinin müxtəlif sahələrinin elmi əsaslandırılmış, ahəngdar inkişafının təmin edilməsini nəzərdə tutur.

## Sivilizasiya haqqında anlayış

Sivilizasiya birdən-birə meydana gəlməyib. İlk sivilizasiyalar yaranana qədər bəşəriyyətin mədəni təşəkkülündə vəhşilik və barbarlıq dövrləri olub. Yaranması eramızdan əvvəl dördüncü minilliyin sonuna aid edilən ilk sivilizasiyaların başlıca əlamətləri - əvvəlcə Şumerdə və Misirdə, daha sonralar isə Çində, Hindistanda və başqa ölkələrdə meydana çıxan şəhərlər, memarlıq abidələri və ədəbiyyat nümunələri idi.

Sivilizasiyanın yaranması şəhər həyat tərzinin, dövlətçiliyin və dövlət idarəetməsinin meydana gəlməsi, təhsilin, elmi biliklərin və texnologiyaların, ictimai münasibətlərin, mütəşəkkil maddi istehsalatın və pul dövriyyəsinin, hüquq və beynəlxalq münasibətlər institutlarının inkişafı ilə bağlı olan mədəniyyətin müəyyən bir tarixi mərhələnin başlanması demək idi.

Sivilizasiyanın mədəniyyətdən əsas fərqi ondadır ki, sivilizasiya çərçivəsində özündə mütərəqqi yaradıcı proses və onun nəticələrini ehtiva edən mədəniyyətlə yanaşı, antimədəniyyət adlandırılan destruktiv, dağıdıcı proseslər də olub və hazırda da vardır.

Romalılar "sivilizasiya" termini ilə öz inkişaf səviyyəsinə görə barbarların primitiv inkişaf səviyyəsini və həyat tərzini üstələyən şəhər həyat tərzini ifadə edirdilər. Yaradıcı və qurucu prosesi ifadə edən "mədəniyyət" anlayışından fərqli

olaraq, “sivilizasiya” anlayışı bəşər tarixinin müxtəlif dövrlərində ona xas olan mənfi, dağıdıcı prosesləri dialektik olaraq özündə birləşdirən tarixi sosial-mədəni birliyi göstərir. Ötən minilliklərdə sivilizasiyanın zirvələrinə aparan çətin yolu qan selləri ilə boyamış zorakılıq, qəddarlıq və dağıntılar, “antimədəniyyət”in təzahürləri kimi, müasir sivilizasiyalı dünyada da yer almışlar. Bununla yanaşı, cəmiyyətin keyfiyyət vəziyyətini və ona daxil olan mədəniyyətlərin tarixi inkişafının qeyri-bərabərliyini əks etdirən sivilizasiya, tərəqqi yolu ilə davamlı irəliləyişin ümumi tendensiyalarına malik bəşəriyyətin mədəni inkişaf prosesinin ümumdünya tarixi vəhdətini təsdiqləyir.

“Sivilizasiya” sözünün kökü latın mənşəlidir, “civis” – vətəndaşlıq, şəhər əhalisi, vətəndaşlar, cəmiyyət mənasını ifadə edir. O, Avropa elmi və ədəbiyyatının istifadəsinə yalnız XVIII əsrdə daxil olmuşdur və ilk əvvəl mədəni inkişafın ümumi səviyyəsini ifadə edirdi. Bu anlayışa, əhəmiyyətli dərəcədə davranış, ədəb, nəzakət normaları da daxil edilirdi ki, bu, günümüzdə “sivil insan” ifadəsində də qismən saxlanılmışdır. İ. Kant, O. Şpenqler, A. Toynbi, M. Veber, F. Koneçnı, L. Qumilyov, L. Meçnikov və digər alimlər sivilizasiyanın mahiyyətini, onun mədəniyyətdən əsas fərqlərini göstərməyə cəhd edərək, müxtəlif cür nəzərdən keçirirdilər.

Bu anlayışın yayılmasında və təsdiq edilməsində fransız tarixçisi F.Gizonun əsərləri, həmçinin ingilis tarixçisi Q. Boklun Avropada, Fransada və İngiltərədə sivilizasiyanın tarixinə həsr etdiyi əsərlər böyük rol oynamışdır. XIX əsrin əvvəlində F. Gizo tərəfindən, bütövlükdə bəşəriyyətin sosial-mədəni nailiyyətlərinin cəmi kimi vahid ümumbəşəri sivilizasiyanın və ayrı-ayrı xalqların, ölkələrin və ya regionların etno-milli nailiyyətlərini və xüsusiyyətlərini əks etdirən lokal sivilizasiyaların real həyatda eyni zamanda mövcud olduğunu göstərmək məqsədi daşıyan, sivilizasiyanın “etno-tarixi” konsepsiyası formalaşdırıldı. XX əsrdə üç əsas: unitar, mərhələli, lokal-tarixi yanaşma qəbul edildi. Bu dövrdə sivilizasiyanın “etnoqrafik” konsepsiyası formalaşdırılmağa başlandı ki, onun mahiyyəti hər bir xalqın öz sivilizasiyasına malik olması haqqında təsəvvürlərdən ibarət idi.

Çoxsaylı sivilizasiya konsepsiyaları arasında ən diqqətəlayiq olanı Karl Yaspersin “məhvər sivilizasiyalar” konsepsiyasıdır ki, burada o, arxaik dövrün mifoloji təfəkkürünü əvəz edib, fəlsəfənin üstünlüyünə əsaslanan yüksək ruhi mədəniyyətli “məhvər sivilizasiyaların” yaranma tarixini b.e.ə. I minilliyin ortalarından hesablanmasını təklif edir.

Şərq və Qərb özünün mədəni inkişaf xüsusiyyətlərinə malikdir. Şərqdə mədəniyyət simvolu – ənənəvi mədəniyyət, ruhi inkişafın əsası (Hegelə görə) – din, Şərq sivilizasiyanın əsası – dövlətdir. Şərq ənənəvi-mühafizəkar mədəniyyət təməllərinin ilk dəfə formalaşdığı dünya sivilizasiyasının və insan mədəniyyətinin beşiyi hesab edilir. Sosial və dini normalar, əxlaqi və hüquqi standartlar çox vaxt padşahın, fironun və ya imperatorun şəxsiyyətində cəmləşirdi. Bununla yanaşı, kollektivçi və əsasən, ənənəvi və dini mədəniyyətin xarakterik olduğu Şərqdə əksər hallarda mənəvi (ailə), bədii, ekoloji, həmçinin sosial-iqtisadi və sahibkarlıq dəyərlərinə üstünlük verilir. Qərbdə mədəniyyət simvolu – yenilikçi mədəniyyət,

ruhi inkişafın əsası – fəlsəfə, Qərb sivilizasiyasının əsası – insandır. Qərb ölkələrində etik mədəniyyətin prioritet dəyərləri – şəxsiyyətə hörmət, məsuliyyət və dürüstlük, Şərq ölkələrində – böyüklərə hörmət, sədaqət və dözümdür. Fərdiyyətçiliyin, yenilikçiliyin və dünyəvi mədəniyyətin xas olduğu Qərbdə, bir qayda olaraq, intellektual, texnoloji, hüquqi, etik, siyasi, sosial-iqtisadi və ekoloji dəyərlərə üstünlük verilir. İnsana yönəldilmiş Qərb mədəniyyətinin ardıcıl inkişafının nəticəsi müstəqil şəxsiyyətin və demokratiyanın formalaşması, ən mühüm nailiyyəti isə insanın inkişafına, texnoloji və sənaye tərəqqisinə imkan yaradan elmin mədəniyyətin müstəqil sosial institutu kimi təşəkkül tapmasıdır. Bəşəriyyətin müasir inkişaf dövrü qanunauyğunluqlarından biri ondan ibarətdir ki, Qərb ilə Şərq arasındakı mədəni mübadilənin daimi dialektik prosesi, dünya mədəniyyəti və sivilizasiyasının demokratikləşməsi və qloballaşması müxtəlif ölkələrin, xalqların və fərdlərin mədəni paradiqmalarının dəyişməsinə səbəb olur.

Dünya sivilizasiyası üçün mədəni inkişafın həm zaman, həm də məkan baxımından təbii qeyri-bərabərliyi səciyyəvidir. Bəşəriyyətin sosial-mədəni inkişafının tarixi prosesi dialektik ziddiyyətlə fərqlənərək, mədəni tərəqqi və mədəni tənəzzül hadisələrinin məcmusunu təcəssüm etdirir ki, onların birləşməsi konkret cəmiyyətin və ya sivilizasiyanın proqressiv inkişaf templərini müəyyən edir. Mədəni tərəqqi daha az mükəmməllikdən daha artıq mükəmməlliyə doğru inkişaf prosesini əks etdirir. Mədəni tərəqqinin səviyyəsi yaradılan mədəni dəyərlərin keyfiyyəti və kəmiyyəti, onların cəmiyyətdə yayılma miqyası və mənimsənilmə dərinliyi ilə ölçülür. Tərəqqinin vəziyyəti ilə həm bütövlükdə mədəniyyət sistemi, həm də onun ayrı-ayrı altsistemləri xarakterizə oluna bilər. Bütövlükdə, mədəniyyətin tərəqqisi, onun ayrı-ayrı sahələrinin geriləməsi, hətta tənəzzülü ilə müşayiət oluna bilər ki, bu, həmin prosesin dialektik xarakteri ilə izah olunur. Tarixən mədəni tərəqqi ilk növbədə insanın intellektual fəaliyyətinin inkişafında və onun nəticələrinin istehsal qüvvələrinin inkişafı üçün istifadə olunmasında görünürdü. Bu, insanın effektiv enerji mənbələrinin: insan enerjisindən – heyvan enerjisinə, su enerjisinə, külək enerjisinə, faydalı qazıntıların enerjisinə, atom enerjisinə, günəş enerjisinə qədər axtarışlarındakı tarixi nailiyyətləri nümunəsində daha aydın izlənilir. Mədəni tənəzzül yuxarıdan aşağıya enmə, geriləmə, təşkilatçılıq səviyyəsinin aşağı düşməsi, öz dövrünü keçirmiş forma və strukturlara qayıdış prosesi kimi xarakterizə olunur. Mədəni tənəzzülün klassik nümunəsi kimi, Hindistanda harappa və Yunanıstanda krito-miken yazı sistemlərinin itməsi ilə müşayiət olunan qədim sivilizasiyaların süqutunu göstərmək olar. Bu şəraitdə müəyyən mədəni varisliyin qorunub saxlanılması üçün əlverişli mühiti xüsusi davamlılıq və regenerasiya qabiliyyətinə malik olan icmalar yaradırdı.

Mədəni inkişafın qeyri-bərabərliyi ayrı-ayrı insanların, həyat fəaliyyətinin ayrıca sahələrinin, şəhərlərin və kəndlərin, xalqların və dövlətlərin müxtəlif inkişaf səviyyəsində öz əksini tapır. O, demək olar ki, bütün – fərdi, yerli, regional, milli, beynəlxalq səviyyələrdə mövcuddur. İnsanın mədəni qeyri-bərabərliyi – onun həyat fəaliyyətinin müxtəlif sahələrində (təhsil, elm, incəsənət, ustalıq, etika,

dillər bilməsi və s.) insanın bilik, bacarıq, mütəşəkkillik və mənəviyyat səviyyəsi ilə bağlı olan sosial ölçüdür. Ölkənin mədəni qeyri-bərabərliyi – kəndlərin, regionların, şəhərlərin, habelə fərdlərin sosial-mədəni inkişafının müxtəlif səviyyələri ilə bağlı olan sosio-coğrafi ölçüdür. Dünya birliyinin mədəni qeyri-bərabərliyi – qitələrin, regionların, ölkələrin, xalqların, millətlərin etnosların sosial-mədəni inkişafının müxtəlif səviyyələri ilə bağlı olan sosio-coğrafi ölçüdür.

Milli mədəniyyətlərin inkişaf səviyyəsinin qiymətləndirilməsi üçün "aşağı mədəniyyətlilik həddi" anlayışından da istifadə olunur. Bu, insanın həyata, onun gündəlik formalarına seyrçi-passiv adaptasiyasıdır. Lakin mədəniyyətin əsl mahiyyəti insanın həyat, inkişaf və sosial tərəqqi naminə yaradıcı qabiliyyətlərini reallaşdıran yaradıcı fəaliyyətindədir. Yaradıcı fəaliyyət və mədəni mübadilə olmasa, mədəniyyət tənəzzül edər və məhv olar.

Dünya sivilizasiyasının tarixində vaxtaşırı olaraq "mədəniyyət böhranları" baş vermişdir və onlar bu gün də baş verməkdədir. Bu, sosial-mədəni inkişafın davamlı formalarının dağılmasına gətirib çıxaran sərt dönüşlərdir və mənəvi, intellektual, bədii və digər dəyərlərin tənəzzülü, adətlərin və həyat səviyyəsinin zəifləməsi ilə təhsildə, iqtisadiyyatda və insan münasibətləri mədəniyyətində depressiyalarla müşayiət olunur. Mənfi istiqamətdə dəyişən ictimai inkişaf şəraiti mədəni dəyərlər və həyat reallıqları arasında ziddiyyətə, millətin yaradıcı ruhunun zəifləməsinə gətirib çıxarır. Mədəniyyət böhranlarını dəf etmək üçün ölçülüb-biçilmiş siyasət, ardıcıl innovativ kulturoloji islahatlar və yüksək idarəetmə mədəniyyəti lazımdır.

Qeyri-bərabər inkişafın antonimi ahəngdar inkişafdır. İnsanlar, xalqlar və onların mədəniyyətləri arasındakı təbii fərqlərdən də istifadə etməklə, məhz ahəngdar inkişafa can atmaq gərəkdir. Ahəngdar inkişaf mədəni tərəqqi və sosial-mədəni inqilablar olmadan mümkün deyil.

Mədəni tərəqqi ideyaları antik dövrün Avropa tarixi konsepsiyalarında müxtəlif cür əks olunmuşdur. Birinci yanaşma bizim eradan əvvəl birinci minilliyin əvvəllərinə aiddir, ibtidai demokratizmin hüquq qaydalarının dağılması şəraitində qədim yunan mifoloji təfəkkürü üçün bəşəriyyətin mədəni inkişafının yaxşıdan pisə doğru enməsi haqqında təsəvvür xarakterik idi. Belə ki, Gesiod bəşəriyyət tarixini bir-birini ardıcıl əvəz edən beş dövrə bölür: qızıl, gümüş, mis, qəhrəmanlıq və dəmir dövrləri. Gesiodun təsəvvürünə görə bu, insanların mənəviyyatının tədricən pozulduğu, yoldan çıxdığı və daha da pis olduğu, tərzinə görə əks işarəli təkamül idi.

İkinci yanaşma birinci minilliyin ortalarında Yunanıstanda stsientist (elmi) təfəkkürün inkişafı ilə əlaqədardır ki, onun çərçivəsində əvvəlki bədbin mənzərə bəşəriyyətin birbaşa təkamül prinsipi üzrə qurulmuş nöqteyi-nəzərlə əvəz olunur. Bu fəlsəfi baxışı biz Esxilin "Zəncirlənmiş Prometey" əsərində tapırıq. Burada ibtidai primitivizmdən Prometeyin bəşər övladını öyrətdiyi sənətlər və elmlərə doğru inkişaf yolu salınır. Əsərdə mədəni dəyişikliklərin yaradıcısı ilahi mənşəli mədəni qəhrəmandır. Biz insan mədəniyyətinin təkamülünün belə qavranılması-

na Protaqorun "İnsan cəmiyyətinin ilkin vəziyyəti haqqında" əsərində şərh olunan Platonun fəlsəfəsində də rast gəlirik. Həmin fəlsəfədə bütün mədəni nemətlər tanrıların və qəhrəmanların bəxşişi kimi nəzərdən keçirilir.

Üçüncü yanaşma da eramızdan əvvəl birinci minilliyin ortalarına təsadüf edir, mədəni tərəqqini insanın özünün yaradıcılığı kimi nəzərdən keçirən əks baxışları nümayiş etdirir. E.ə. V əsrin əvvəllində Ksenofan təsdiqləyirdi ki, "tanrılar insanlara hər şeyi əvvəldən aşkar etməmişlər, amma insanlar tədricən axtararaq daha yaxşı olanı tapırlar". Bu fikir qədim dünyanın böyük materialisti, atomistika nəzəriyyəsinin banisi, qədim yunan filosofu Demokrit tərəfindən inkişaf etdirilmişdir. Demokrit ümumi kosmik və bəşəriyyət tarixini nəzərdən keçirərək, ehtiyacı, zərurəti, tələbatı cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi hesab edirdi.

Qeyri-bərabər inkişafın arasıkəsilməz dialektik prosesini təcəssüm etdirən bəşəriyyətin mədəni təşəkkülü prosesində zaman-zaman öz mahiyyətinə, əhəmiyyətinə və bəşəriyyətin tarixi taleyinə təsirinə görə müxtəlif olan sosial-mədəni inqilablar baş verir. Qlobal (epoxal), regional və ya lokal xarakter daşıyan bu inqilablar hər şeydən əvvəl, ideoloji, maarifçi və texnoloji səciyyə daşıyan vəzifələr qoyur və həll edir. Onlara aiddir: milli maraqlara, zamanın tələblərinə cavab verən və dünya mədəniyyətinin təcrübəsini, elmin, texnikanın və texnologiyanın tərəqqisini mütləq şəkildə nəzərə alan yeni ideologiyanın yaranması; iqtisadi inkişafı və bütün cəmiyyətin rifahını təmin edən dövlət idarəçiliyinin yeni formaları; təlimdə, tərbiyədə və xalq kütlələrinin maarifləndirilməsində şəxsiyyətin elmi dünyagörüşünün formalaşmasına səbəb olan yeniliklər və s. Bu vəzifələrin yerinə yetirilməsi dövlət tərəfindən müvafiq hüquqi sənədlər, təşkilati tədbirlər və maliyyə şəraiti ilə təmin edilir. Sosial-mədəni inqilabların əsas xüsusiyyəti odur ki, onların hamısı bu və ya digər formada insan şüurunun, intellektinin inkişaf məhsuludur, insan dühasının nailiyyətləridir.

Dünya mədəniyyəti və sivilizasiyasının inkişaf tarixində bu və ya digər intellektual və mənəvi yeniliklərə əsaslanan paleolit, aqrar, intellektual, dini-ruhani, elmi, sənaye, elmi-texniki və digər inqilablar məlumdur.

50-40 min il bundan əvvəl olan paleolit inqilab antropogenezdən sosiogenezə keçid və "Homo Sapiens" tipli insanın yaranması ilə xarakterizə olunur.

E.ə. 8-5-ci minilliklərdə baş vermiş aqrar (neolitik) inqilabın bir sıra fərqləndirici əlamətləri var idi. Onlara aiddir: qida məhsullarının istehsalı və yığıcılıqdan istehsal iqtisadiyyatına keçid; təsərrüfat və sosial təşkilatçılıq və idarəetmə təcrübəsinin toplanması; sosial institut olan elmin ilk rüşeymlərinin formalaşması; sosial-siyasi şəraitin dəyişməsini əks etdirən yeni ideoloji qanunların yaradılması; mədəniyyətin epoxal tipini parlaq ifadə edən və bəşəriyyətin inkişafında tarixi baxımdan qanunauyğun, keyfiyyətcə yeni mərhələnin – sivilizasiyanın yaranmasına gətirib çıxaran aktiv kulturogenez prosesinin başlanğıcı.

E.ə. IV-III minilliklərin qlobal sosial-mədəni inqilabı tarixən öz dövrünü keçirmiş ibtidai icma quruluşundan bəşəriyyətin ilk sivilizasiyalarının yaranmasına keçidə – Şumerdə, Misirdə, Çində, Hindistanda və dünya mədəniyyətinin qızıl

fonduna daxil olmuş digər sivilizasiyalarda yazı sistemlərinin meydana çıxmasına gətirib çıxardı. O, informasiyanın və yazının (ilk intellektual (informasiya) inqilab) inkişafı və yayılması, mədəniyyətin sinifli cəmiyyət və dövlət kimi sosial institutlarının meydana gəlməsi, hakimiyyətin institutlaşdırılması və sosial iyerarxiyaya əsaslanan dövlət idarəçilik sistemlərinin yaradılması ilə müşayiət olunurdu. Bu inqilabi prosesdə: təhsilin (təlim və tərbiyənin) təşkili, hüquqi sistemlərin və dini dünyagörüşü qanunlarının yaradılması, elmin rüşeymləri, incəsənət, dini ayin, tibbi fəaliyyət, xarici siyasət və s. institutların yaradılması baş verirdi. Onun əsas göstəriciləri aşağıdakılar idi: metallurgiya, tikinti, istilik texnikası, dulusçuluq istehsalında və iqtisadiyyatın digər sahələrində texnoloji tərəqqinin tətbiqi; ictimai istehsalın təşkili və idarə edilməsinin gələcək inkişafı – kooperasiya, əmək bölgüsü və ixtisaslaşma; daxili və beynəlxalq əlaqələrin hər şeydən əvvəl, çarxlı miniklər və gəmiqayırma hesabına əsaslı surətdə yaxşılaşdırılması. İlk sivilizasiyaların yaranmasına gətirib çıxaran qlobal inqilab üçün həm də bunlar xarakterik idi: bir-birinin ardınca baş verən əmək bölgüsü – əqli əməyin fiziki əməkdən, sənətin əkinçilikdən ayrılması; mübadilə və ticarətin genişlənməsi; təcrübənin toplanması, möhkəmləndirilməsi və ötürülməsi, onun fərdidən sosiala çevrilməsi; yenilikçi mədəniyyətin mühafizəkar mədəniyyət üzərində üstünlük qazanması.

E.ə. II minilliyin sonunda baş verən ilk dini-ruhani inqilabların simvolları – Mərkəzi Asiyada, İranda və Qafqazda zərdüştlüyün təşəkkül tapması; Misirdə Axnatonun dini islahatı; Babilistanda arxaik dini təsəvvürlərin kökündən dəyişməsinə və yeni dini sistemlərə keçid etməyə səbəb olan təkallahlılığın meydana çıxması idi.

Kitabın kəşfi ilə əlaqədar ikinci informasiya inqilabı əvvəlcə Çində, təqribən e.ə. 1300-cü ildə baş vermişdir.

E.ə. 1-ci minilliyin əvvəllərinə aid edilən dəmir inqilabı bəşəriyyət tərəfindən dəmirin kəşfinə və istifadəsinə gətirib çıxarmışdır.

I minilliyin ortalarına aid olan intellektual inqilab arxaik dövrün mifoloji təfəkkürünü əvəzləyən, fəlsəfənin üstünlüyünə əsaslanan ruhi mədəniyyətin yüksək səviyyəsinin təşəkkül tapmasına imkan yaratmışdır.

E.ə I minilliyin ortalarından eramızın I minilliyinə qədərki dövrü əhatə edən, iudaizm, buddizm, xristianlıq və islamın yaranması ilə nəticələnən dini-ruhani inqilablar, dünya xalqlarının əksəriyyətinin monoteizmə qəti surətdə keçidini ifadə etmişdir.

Orta əsrlərdə Çində işlədilən qurğunun yaradıcılıqla istifadəsi əsasında XV əsrdə Almaniyada kitab çapı sahəsində baş vermiş inqilab (üçüncü informasiya inqilabı) xüsusi diqqətə layiqdir. İohann Quttenberq tərəfindən əl çapı dəzgahı və punsonun ixtirası və praktikada tətbiqi kitabların mətbəə nəşrini və və tirajlanmasını mümkün etdi. Bu tarixi əhəmiyyətli mədəni inqilab kütlələrin maarifləndirilməsinə, təhsilin, elmin, dinin və incəsənətin inkişafına imkan yaratdı.

XVII əsrdə Avropada elmi inqilab elmin sosial institut kimi təşəkkül tapması-

na və gerçəklik haqqında obyektiv biliklərin istehsalı və nəzəri cəhətdən sistemləşdirilməsi ilə məşğul olan müasir elmin əsaslarının yaranmasına gətirib çıxardı. O, elmin strukturunun, dərk etmə prinsipləri, kateqoriyaları, metod və təşkili formalarının dəyişdirilməsinin əsasını qoydu.

XVII-XX əsrlərdə Avropada və Asiyadakı sosial-mədəni (burjua-demokratik) inqilablar müasir dünyanın ən mühüm siyasi institutu olan demokratiyanın əsaslarını qoydu.

XVIII əsrin sonunda İngiltərədə buxar mühərriklərinin ixtirası ilə əlaqədar olan sənaye inqilabı bütün dünyada elmi-texniki tərəqqi üçün böyük imkanlar açdı.

XIX əsrin sonu-XX əsrin əvvəlində təbiətşünaslıq elmində inqilab nüvə fizikası sahəsindəki kəşflərlə bağlı olub, bəşəriyyətin mikroaləm haqqındakı təsəvvürlərini dəyişmiş, təbiətin insan mənafeyi naminə dərk edilməsi və dəyişdirilməsinin böyük imkanlarını aşkara çıxarmış, sosial-iqtisadi həyatda əsaslı keyfiyyət dəyişikliklərinin başlanğıcına gətirib çıxarmışdır.

SSRİ-də XX əsrin 20-30-cu illərində yer alan mədəni inqilab keçmiş Sovet İttifaqı respublikalarında əhalinin savadsızlığının aradan qaldırılması, ziyalı kadrların hazırlanması, elmin, ali təhsilin və incəsənətin güclü potensialının formalaşdırılması ilə nəticələnmişdir.

XX əsrin 50-ci illərinin ortalarında olan elmi-texniki inqilab, istehsal qüvvələrinin keyfiyyətcə dəyişdirilməsində elmin aparıcı amilə çevrilməsinə səbəb olmuşdur.

XX əsrin ikinci yarısında baş vermiş texnoloji inqilab yüksək texnologiyaların yaradılmasında fundamental tədqiqatların rolunun artmasını şərtləndirmişdir.

XX əsrin ikinci yarısının dördüncü informasiya inqilabı elmi əməyin və bəşəriyyətin sosial həyatının kompyuterləşməsinə gətirib çıxardı, sənaye cəmiyyətindən informasiya cəmiyyətinə və ya “biliklər cəmiyyətinə” keçidi ifadə etdi.

XX-XXI əsrlərin qlobal sosial-mədəni inqilabı yeni elmi kəşflərin artımı, idarəetmənin yüksək texnologiyalarının və metodlarının yaradılması və təkmilləşdirilməsi, müxtəlif xalqların mədəniyyətlərinin və sivilizasiyalarının qarşılıqlı təsiri və sintezinin artması ilə səciyyələnir. O, iqtisadiyyatda, siyasətdə, təhsildə, incəsənətdə, ticarətdə inteqrasiya prosesləri, dünya mədəniyyətinin vahid informasiya-mədəni məkanının formalaşması, mədəni müxtəlifliyin qorunub saxlanılması və yeni translokal mədəniyyətlərin yaranması, lokal və qlobal problemlərin həllində beynəlxalq əməkdaşlığın artması ilə müşayiət olunur.

İntellektual və mənəvi tərəqqiyə əsaslanan sosial-mədəni nailiyyətlər mədəniyyətlərin yeni tarixi növlərinin formalaşmasına təsir göstərirdi, onların tərkibində isə öz növbəsində, dünya mədəniyyəti və sivilizasiyasının gələcək tərəqqisi üçün ilkin şərtlər formalaşırdı.

## Ruhi mədəniyyətin iki qanadı




Beləliklə, sivilizasiya çərçivəsində biz həm yaradıcı prosesi və onun müsbət nəticələrini təcəssüm etdirən mədəniyyəti, həm də destruktiv proses kimi antimədəniyyəti görürük. Mahiyyət etibarı ilə, mədəniyyət – bilik, xeyir, əmək, inkişaf və rifahdır, cəhalət isə – şər, kasıblıq və zəiflikdir.

Mədəniyyəti obrazlı şəkildə quş formasında təsəvvür etmək olar. Quşun bir qanadı mənəvi mədəniyyətdir. O, sevgi, dostluq, nəciblik, cəsarət, qəhrəmanlıq, vicdan, namus, ləyaqət, səxavət, ədalət, həqiqətə bağlılıq, mərhəmət, nəzakət, humanizm, vətənpərvərlik, iman və s. kimi gözəl insani keyfiyyətləri təmsil edir. Mənəvi mədəniyyətin mənbəyi düzgün tərbiyə və insan mədəniyyətinin genetik kodudur.

Lakin intellektual mədəniyyətə, zəruri biliklərə malik olmayan ən gözəl mənəviyyatlı insanı belə mədəni adlandırmaq olmaz. Bu insan mənəviyyatlıdır. Belə insan təhsilsiz, cahil olduqda düzgün qərarlar qəbul edə, hadisələri və insanları düzgün şərh edə bilməz. Bu səbəbdən, o, zəifdir və destruktiv qüvvələrin əlində alətə çevrilə bilər.

Quşun ikinci qanadı intellektual mədəniyyətdir. İntellektual mədəniyyətin mənbəyi mədəniyyətin elm, təhsil və maarifləndirmə kimi strateji flaqmanlarıdır. Amma əgər yaxşı təhsil almış insan mənəviyyata – humanizmə, vicdana və vətənpərvərliyə sahib deyilsə, o mədəni adlandırıla bilməz. Bu, sivil insandır. O, yüksək eqolu olarsa, cəmiyyət üçün ədalətsiz və təhlükəli, destruktiv başlanğıcın daşıyıcısı ola bilər.

Quşun rahat uça bilməsi və öz yaradıcı hədəflərinə çatması üçün onun hər iki qanadı ahəngdar şəkildə inkişaf etmiş və tarazlaşmış olmalıdır. Çünki bir qanadı olan quş uça bilməz. Eyni zamanda mədəniyyətin hər iki qanadı irsi yolla alınmış mədəniyyətin genetik kodundan da müəyyən dərəcədə asılıdır.

Beləcə, biz zəruri bilik, bacarıq, mütəşəkkillik, mənəviyyat səviyyəsinə və yaradıcı fəaliyyətə malik olan yüksək mədəniyyətli insan anlayışına gəlirik.

## Mədəniyyətin inkişafının obyektiv-tarixi amilləri

Mədəniyyətin inkişafı – əsasən bir sıra daxili və xarici amillərdən asılı olan mürəkkəb tarixi prosesdir. Bunlar – təbiət, iqlim, ətraf mühit, qida, ənənəvi təsəvvürlər, əhalinin psixoloji, intellektual, emosional xüsusiyyətləri, dini inanclar, dövrün xarakteri, inkişaf motivasiyası, qonşuların təsiri, həyatın, ekologiyanın, siyasətin dəyişilməsi və s.-dir.

Bir çox daimi və dəyişən şərtlərin təhlili əsasında tərəfimizdən beş əsas amil ayrılmışdır:

1. Təbii-coğrafi şərait.
2. Mədəniyyətin genetik kodu (anadangəlmə mədəni keyfiyyətlər).
3. Sosial mühit.[1]
4. Tarixi şərait.
5. Mədəni mübadilə.

Beş amilin hamısı son dərəcə vacibdir. Belə ki, iqlim şəraitindən asılı olaraq, insanın xasiyyəti və qabiliyyətləri ilə bağlı müəyyən xüsusiyyətlər əmələ gəlir. Məsələn, uzaq şimal və uzaq cənub ölkələrində təbii şəraitə görə, inkişafın ilk mərhələlərində intellektual mədəniyyət yavaş inkişaf edirdi. Yer kürəsinin əlverişli təbii şəraiti ilə seçilən orta zonasında (xüsusən, allüvial çay vadilərində) mədəni tərəqqinin templəri əvvəldən daha yüksək idi. Çünki buradakı şərait əqli əməyin fiziki əməkdən erkən ayrılmasına səbəb olmuşdu. Bununla yanaşı, "ifrat zərurət lazımi effekti doğurur" məntiqinə əsasən, əqli qabiliyyətlərin inkişafını sağ qalmaq naminə tələb edən sərt şəraitli yerlərlə müqayisədə, planetin orta zonasında mədəni inkişaf əhəmiyyətli dərəcədə sürətlə gedirdi. Bu, bir sıra ada dövlətlərinin, ilk növbədə, İngiltərə və Yaponiyanın misalında daha yaxşı görünür. Sözsüz ki, müəyyən sosial-tarixi və siyasi şəraitdə əmələ gələn millətin genetik kodu bu inkişafda həlledici rola malik idi. Ölkənin sosial-mədəni, o cümlədən siyasi inkişafının mütərəqqi dəyişikliklərinin onsuz mümkün olmadığı tarixi şəraitlə də vəziyyət analojidir. Həm insan, həm də ayrı-ayrı ölkələr səviyyəsində mədəni mübadilə olmadan sosial-mədəni inkişafın qeyri-bərabərliyi qarşılıqlı anlaşmada, milli mədəniyyətlərin və vahid dünya sivilizasiyasının inkişafında və harmonizasiyasında dəfedilməz maneə ola bilərdi.

Beş amilin hamısının müstəsna əhəmiyyətini nəzərə alsaq, onların arasında müəyyənedici amil yəqin ki, daha çox dövlətin siyasi rejimindən və ailənin, kollektivin, cəmiyyətin ahəngdar qarşılıqlı təsirindən asılı olan sosial mühitdir. Hər nə qədər mədəniyyətin genetik kodu mühüm rol oynasa da, tarix göstərir ki, insanın və cəmiyyətin sosial-mədəni inkişafı üçün daha əlverişli olan – şəxsiyyətin formalaşması və onun qabiliyyət və nailiyyətlərindən fərdlərin, cəmiyyətin və dövlətin rifahı məqsədi ilə istifadəsi üçün bərabər hüquq və imkanlar yaratmağa

---

[1] Sosial mühit üç səviyyədə formalaşır: ailə, kollektiv və cəmiyyət. O, dövlətin siyasi rejimindən, sosial-mədəni siyasətin düzgünlüyündən və elmin, təlim və tərbiyənin səviyyəsindən asılıdır.

kömək edən demokratik quruluşdur. Eyni zamanda, tərəqqinin əsas göstəricisi və cəmiyyətin sosial mühitinin inkişafının hərəkətverici qüvvəsi ruhi mədəniyyətin elm, təhsil və maarifləndirmə kimi strateji flaqmanlarının inkişaf keyfiyyətidir.

Dövlətin siyasi rejimi və dövlət idarəçiliyi mədəniyyəti ilə şərtlənən sosial mühitin əhəmiyyəti haqqında Almaniya Federativ və Demokratik Respublikaları və bir sıra digər ölkələrin nailiyyətlərinin, sosial üstünlüklərinin, rifah səviyyəsinin və həyat keyfiyyətinin müqayisəli təhlili əsasında fikir söyləmək olar. Eyni genetik kodun fərqli ideologiyalarda və siyasi sistemlərdə inkişaf imkanlarının və fəaliyyət nəticələrinin fərqli olduğunu görürük. Sözsüz ki, bu xüsusiyyətlər ruhi mədəniyyətin inkişafı, ələlxüsus, elmi-texniki tərəqqi və informasiya mədəniyyətinin imkanları nəticəsində müəyyən dərəcədə dəyişir. Bu mühakiməni mütləqləşdirməyərək qeyd edək ki, təsəvvür etdiyimiz üzrə, Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsinə müraciət etmək həyat fəaliyyəti mədəniyyətinin hər bir konkret hadisəsinin və bütövlükdə, onun təkmilləşməsi imkanlarının dərk edilməsinə, obyektiv qiymətləndirilməsinə kömək edir.

## Kulturogenez

Hər bir milli mədəniyyətin inkişafı əsasən, öz kökləri ilə əsrlərin dərinliyinə, ilkin icma dövrünə gedib çıxan kulturogenez prosesləri ilə şərtlənib.

Kulturogenez nəsillərin həyat fəaliyyəti ideyaları və üsullarının varisliyinə əsaslanan mədəni irsin mədəni yeniliklər və innovasiyalarla sintezi prosesidir. Ənənəvi və yenilikçi mədəniyyət bu prosesdə mühüm rol oynayır.

Kulturogenezi yeniliklərin, innovasiya mənbələrinin və onların təzahür sahələrinin üç əsas növü üzrə nəzərdən keçirmək qəbul edilmişdir.

*Yeniliklərin üç əsas tipi aşağıdakılardır:*

- ✓ daxili səbəblərdən törəyən transformasiya (mutasiya);
- ✓ stimullaşdırılmış transformasiya;
- ✓ bilavasitə mənimsəmə.

*İnnovasiyaların üç əsas mənbəyi bunlardır:*

- ✓ konvergent inkişaf (mədəniyyətlərin uyğunluğu, yaxınlaşması);
- ✓ diffuziya (mədəniyyətlərin bir-birinə nüfuz etməsi);
- ✓ mədəniyyətlərin mənşə vahidliyi.

*İnnovasiyaların təzahürünün üç əsas sahəsi bunlardır:*

- ✓ texnologiya;
- ✓ adi şüur mədəniyyəti;
- ✓ ideologiya.

## Mədəni dəyərlər

Mədəni dəyərlər insanın və cəmiyyətin həyat fəaliyyətini tənzimləyən, dövlət siyasətinin ideoloji əsasını təşkil edən sabit mədəni oriyentirləri ifadə edir. Mədəni dəyərlər ruhi həyatın müxtəlif hadisələri, amilləri və proseslərinə insanın münasibətini ifadə etməklə, əsasən, insanın təfəkkürünü, davranış motivasiyasını və insanın, cəmiyyətin və dövlətin həyat yolunu təyin edir.

Mədəniyyətə təsir edən dəyişikliklər, hər şeydən əvvəl, dəyərlər – ideallar, etika, təhsil sistemi, sosial, istehsal və məişət normativləri, hüquq, incəsənət sahəsində, habelə ruhi mədəniyyətin maddi təcəssümündə baş verir.

Mədəni dəyərlər mədəni norma və qaydalardan onunla fərqlənir ki, birincilər üstün tutma xarakteri daşıdığı halda, ikincilər – sosial göstəriş gücünə malikdir və normativ sənədlərlə tənzimlənən sosial zəruri fəaliyyətlər tələb edir.

Mədəni dəyərlər təfəkkürə, psixologiyaya, dünyagörüşünə, intellektə, motivlərə, davranışa, adətlərə, xarakterə, taleyə təsir göstərir. Müxtəlif insanlar eyni mədəni dəyərlərə müxtəlif dərəcədə üstünlük verirlər. İnsanın mədəni potensialının inkişafında intellektual və mənəvi dəyərlər, o cümlədən sevgi, zəhmətkeşlik, namus, dürüstlük, səxavət və s. mühüm rol oynayır. Cəmiyyətin nailiyyətlərinin qiymətləndirilməsinin ölçüsü – hər şeydən əvvəl, ölkənin intellektual potensialı ilə müəyyən edilən həyat səviyyəsi və insana humanist münasibətdir. İbn Sinaya görə, cəmiyyətin rifahına elmi biliklərə əsaslanan düzgün, xoşməramlı siyasətlə nail olmaq olar.

Mədəni dəyərlər sistemi milli, etnik, ideoloji, intellektual, mənəvi, estetik, siyasi, dini, bədii, hüquqi, maddi və digər dəyərləri özündə cəmləşdirir.

İnsan həyatı prosesində, ələlxüsus, sosial-mədəni mühitin dəyişilməsi şəraitində çox vaxt dəyərlər dialektik baxımdan yenidən qiymətləndirilir. İnsanın bilik və təcrübəsinin inkişafı, mədəniyyətinin artması ilə dünyaya yeni baxış, özünü və onu əhatə edən gerçəkliyi dərk etmək və təkmilləşdirmək üçün yeni imkanlar yaranır.

Mədəni dəyərlərin formalaşması üç səviyyədə baş verir: fərdi, sosial və dövlət:

1. Mədəni oriyentirlər və ideya, predmetlər aləmində, həyat tərzi və fəaliyyət növləri arasında üstün tutduqlarının seçimi əsasında şəxsiyyətin fərdi mədəni mühitinin formalaşması;
2. İnsanların tələbatları və qabiliyyətləri ilə şərtləndirilmiş ruhi və maddi dəyərlər və normalar şəklində ideyaların və predmetlərin yaradılması yolu ilə cəmiyyətin mədəni mühitinin formalaşması. Bunlar elmi əsərlər, fəlsəfi sistemlər, etik görüşlər, hüquqi normalar, bədii əsərlər, istehsalat avadanlığı, məişət predmetləri və mədəniyyət ilə sivilizasiyanın digər komponentləridir;
3. Dövlətin, özündə millətin və bütün bəşəriyyətin ən mühüm elmi, mənəvi və texnoloji nailiyyətlərini birləşdirən, cəmiyyətin sosial-mədəni tərəqqisini və təhlükəsizliyini təmin edən strateji əhəmiyyətli mədəni dəyərlərinin yaradılması.

Mədəni dəyərlərin iyerarxiyası aşağıdakıları əhatə edir: çox vaxt ümumbəşəri dəyərlərlə üst-üstə düşən ümumsosial dəyərlər; müəyyən siniflərlə bağlı olan və sinif ideologiyasının əsasını təşkil edən sinif dəyərləri; mədəniyyət sahəsində bəzi sosial-tipik üstünlükləri əks etdirən lokal-qrup dəyərləri (ailə dəyərləri də daxil olmaqla); ətraf sosial mühitdən olan ayrı-ayrı şəxsiyyətlər tərəfindən seçilmiş ideyaları və predmetləri əks etdirən və ya onlar tərəfindən fərdi qaydada yaradılan fərdi-şəxsi dəyərlər.

Ümumsosial dəyərlərə ümumbəşəri dəyərlərlə yanaşı, milli mədəni dəyərlər də daxil edilə bilər. Ümumbəşəri dəyərlər – həyat və sevgi, humanizm, insan ləyaqəti və insan həmrəyliyi, azadlıq və bərabərlik dəyərləridir. Milli (etnik) dəyərlərə aiddir: işarə sistemi (dil); ruhi və maddi dəyərlər sistemi; həyat tərzi – adətlər, ənənələr, məişət; milli geyim; milli mətbəx; milli bayramlar; etiqadlar, dini inanclar; milli psixologiya; milli xarakter; milli özünüdərk; milli mentalitet; xarakter; ənənəvi davranış normativləri; milli dünyagörüşü; milli ideologiya; sosial etika; reallığın ruhi cəhətdən qavranılmasında toplanmış təcrübə; milli incəsənət; milli folklor; mədəni irs. İntellektual, etik, hüquqi, estetik, sahibkarlıq, idarəetmə mədəniyyəti və s. milli özünəməxsusluğu ilə seçilə bilər.

## Mədəniyyətin yaradıcıları və cəmiyyətin kütləvi mədəniyyəti

Mədəniyyətin formalaşdırılması və yaradılması prosesində mədəni elita nümayəndələrinin – mədəniyyətin yaradıcılarının xüsusi rolu vardır. Onlar tanınmış alimlər və pedaqoqlar, maarifçilər, mütərəqqi siyasətçilər və dövlət xadimləri, yazıçılar, memarlar, heykəltaraşlar, rəssamlar, bəstəkarlar və digər ədəbiyyat, incəsənət xadimləri, ixtiraçılar, mühəndislər, iqtisadiyyatçılar, həkimlər, diplomatlar, din xadimləri, mədəniyyətin müxtəlif sahələrinin məşhur mütəxəssisləridirlər.

Bununla belə, cəmiyyətin ruhi mədəniyyətinin yaradılması mexanizmi iki "təbəqənin" qarşılıqlı təsiri nəticəsində əmələ gəlir – xalqın ("alt təbəqə") adi şüuru və ziyalılar ("üst qat") tərəfindən həyata keçirilən peşəkar "ruhi istehsal". Mədəni elita ilə yanaşı, adi vətəndaşlar da xalqın mədəniyyətinin inkişafında iştirak edirlər. Xalqın adi şüuru həm də onun maraq və tələbatlarını ifadə edən dilləri, dəyər oriyentirlərini, əxlaq normalarını, görüşləri və idealları yaradır. Mədəniyyətin bu kateqoriyaları çox vaxt ideoloji doktrinaları, bədii obrazları və ya elmi nəzəriyyələri zənginləşdirmək rolu oynayır.

Amma mədəniyyətin kreativ proses kimi inkişafının əsas hərəkətverici qüvvəsi, yaradıcıları ziyalılar – zəruri intellektual və mənəvi potensiala, texnoloji, idarəetmə, hüquqi, etik və bədii mədəniyyətə sahib yüksək mədəniyyətli insanlardır. Hər bir ölkədə yüksək mədəniyyətli insanların faizi nə qədər çox olsa, xalqın, cəmiyyətin və dövlətin mütərəqqi, davamlı və təhlükəsiz inkişaf üçün zəruri olan yaradıcı potensialı da bir o qədər yüksək olar.

Ruhi mədəniyyətin yaradıcılarına intellektual, etik, idarəetmə, hüquqi, texnoloji, tibbi, bədii, estetik, ekoloji, diplomatik, dini mədəniyyətin yüksək normaları xasdır.

Hər bir cəmiyyətdə mədəni elitadan fərqli olaraq, kütləvi istehlakçıya yönəlmiş, əsasən, əyləncə, istehlak və kommersiya xarakteri ilə səciyyələnən kütləvi mədəniyyət mövcuddur. Kütləvi informasiya vasitələri burada mühüm rol oynayır. Təəssüf ki, kütləvi mədəniyyət seyrçi mədəniyyətin xas olduğu daşıyıcılarının təhsil səviyyəsinin yetərincə olmaması səbəbindən ruhi mədəniyyətin yüksək intellektual və mənəvi standartlarından uzaqdır. Bir qayda olaraq, o, insanın yüksək həyat fəaliyyəti mədəniyyəti, tarix, milli və dünya mədəniyyətinin nailiyyətləri haqqında məhdud təsəvvürə malik istehlakçıların adi təfəkkürünə və sadə zövqlərinə hesablanmış ruhi və maddi dəyərlərin yayılmasına kömək edir.

Sənaye cəmiyyətindən "biliklər cəmiyyətinə" keçid, informasiya texnologiyalarının və elektron ünsiyyət vasitələrinin inkişafı şəraitində getdikcə daha az adam tarixdən, insanın həyat fəaliyyətinin qanunauyğunluqlarından və zamanın sınağından çıxmış müdrik qaydalardan bəhs edən kitablar oxuyur. Bu prosesin nəticəsi onların dünyagörüşünün məhdudluğu, dünyaya birölçülü baxışı, yüksək mədəniyyətin tənəzzülü ilə yanaşı, ümumi mədəniyyət səviyyəsinin və xalqın həyat immunitetinin aşağı düşməsi, həyatın çətinlikləri və müasir sivilizasiyanın destruktiv hadisələri qarşısında onun zəifliyidir. Belə şəraitdə kütləvi mədəniyyət bütün dünyada daha çox informasiya yaradıcılarının maraqları naminə cahil insanların – kütləvi mədəniyyət daşıyıcılarının şüurunun manipulyasiya edilməsi üçün universal alətə çevrilir ki, bu da müxtəlif cəmiyyətlərin və dövlətlərin sosial-siyasi sabitliyinə müəyyən təhdidlər yaradır. Bu vəziyyəti aradan qaldırmaq və hər bir ölkənin mədəni və istehsal potensialını artırmaq üçün yalnız bir yol var – bu, davamlı və təhlükəsiz inkişafın bərpa olunan strateji resursu və əsas hərəkətverici qüvvəsi olan yüksək mədəniyyətli insanların formalaşdırılması və inkişaf etdirilməsidir.

## Mədəniyyətin «Şaqulisi» və «Üfüqisi»

Sosial-mədəni inkişaf proseslərini anlamaq və səmərəli idarə etmək üçün onları mədəniyyətin "şaqulisi" və "üfüqisi" prizmasından nəzərdən keçirmək lazımdır.

Mədəniyyətin "şaqulisi" irəliyə hərəkət enerjisini, yeni və qeyri-adi olanı, gələcəyə intellektual və mənəvi, yaradıcı keçidi təmsil edir. Mədəniyyətin "şaqulisi"nin hərəkətverici qüvvəsi yenilikçi ruha malik alimlər, pedaqoqlar, maarifçilər, ədəbiyyat və incəsənət xadimləri və insanla onu əhatə edən reallığı müsbət yönə dəyişmək və təkmilləşdirmək marağında olan "yaradıcı ziyalıların" digər nümayəndələridir.

Mədəniyyətin "üfüqisi" – ziyalıların yaradıcı olmayan, nisbətən mühafizəkar hissəsi, eləcə də xalq mədəniyyəti, əsasən adi şüurun, mədəni nailiyyətlərin passiv seyrinin və islehlakının səciyyəvi olduğu cəmiyyətin bir hissəsidir.

Məlum olduğu kimi, yeni ideya bir-birinin ardınca üç mərhələdən keçir: a) inkar, b) şübhə, c) təsdiq. Kvant mexanikasının yaradıcılarından biri, Nobel mükafatı laureatı Nils Bora görə, ictimai şüura yeni bir şeyin daxil edilməsi aşağıdakı psixoloji pillələr üzrə baş verir: 1. "Bu ola bilməz" 2. "Bəlkə də bunda həqiqət var" 3. "Bu, şübhəsiz, doğrudur". "Şaquli" bu pillələrdən keçərək tədricən "üfüqiyə" çevrilir. Amma cəmiyyətdə mövcud olan ənənəvi düşüncə stereotipləri səbəbindən, bir qayda olaraq, yeni bir şey (xüsusən ənənəvi cəmiyyətlərdə) müasirləri tərəfindən layiqincə qiymətləndirilmir, dərhal ona güclü müqavimət göstərilir.

Qərarların razılaşdırılması və onların praktiki həyata keçirilməsinə vaxtın səmərəsiz itirilməsi, dünya təcrübəsində daha elmtutumlu texnologiyaların yaranması ilə əlaqədar, mütərəqqi yeniliklərin aktuallığının itirilməsinə gətirib çıxara bilər. Gözlənilən nəticələri verməyən maliyyə, xammal, enerji, əmək, və idarəçilik resurslarının sərfiyyatı ilə bağlı böyük iqtisadi və siyasi itkilər bunun nəticəsi ola bilər.

Mədəniyyətin "şaqulisi" və "üfüqisi" problemi ölkənin mütərəqqi inkişafının mədəni texnologiyası kimi "şaqulinin" "üfüqiyə" çevrilmə templəri haqqında məsələni kəskin şəkildə ortaya qoyur. Söhbət aşağı təhsilli insanların mədəni potensialını artırmağa imkan yaradan elitanın və kütlələrin intellektual mədəniyyət səviyyələri arasındakı uçurumun azaldılmasından gedir. Mədəniyyətin "şaqulisi"nin "üfüqisi"nə çevrilməsinin effektiv sosial texnologiyasının ən parlaq nümunələrindən biri 1867-1868-ci illərdə Yaponiyada "yuxarıdan" həyata keçirilən, "Meydzi maarifçi hakimiyyəti" adını almış Meydzi mədəni inqilabıdır. Bu mədəni inqilab nəticəsində bir neçə onillik ərzində feodal-avtoritar Yaponiya kasıb samuray ölkəsindən inkişaf etmiş, varlı dövlətə çevrilmiş, artıq 1919-cu ildə dünyanın sənaye cəhətdən ən çox inkişaf etmiş beş ölkəsindən biri kimi beynəlxalq səviyyədə tanınmışdır. Ölkədə köhnə, feodal (piramidaşəkilli) sistemdən – yeni, demokratik (rombşəkilli) sistemə keçid prosesi başlandı. İkinci dünya müharibəsindən sonra düzgün sosial-mədəni siyasət sayəsində intensiv inkişaf edən Yaponiyada geniş şəkildə cəmiyyətin demokratikləşməsi həyata keçirildi, intellektual mədəniyyət və onun inkişafı ilə əlaqəli olan, ümumilikdə, cəmiyyətin sosial strukturunda orta sinfin üstünlüyünə, vətəndaşların yüksək rifahına və həyat keyfiyyətinə nail olmağa kömək edən yüksək rəqabətqabiliyyətli texnologiyaların istehsalatda və idarəetmədə prioriteti təmin edildi.

## Ruhi mədəniyyətin strateji flaqmanları

Ruhi mədəniyyətin strateji flaqmanları elm, təhsil və maarifləndirmədir. Hələ ilk sivilizasiyalar dövründən formalaşmağa başlayan bu ən mühüm sosial institutlar bəşəriyyətin mütərəqqi inkişafının əsasında dururlar. Onlar insan və onu əhatə edən təbiət haqqında yoxlanılmış bilikləri hasil etməyə və yaymağa imkan verir, insanın təyinatını, onun missiyasını, həyatının mənasını və məqsədlərini

düzgün dərk etməyə, inkişaf qanunauyğunluqlarını anlamağa, insanın həyat fəaliyyətinin tələbatlarına müvafiq texnologiyaların hazırlanmasına kömək edir.

Elm – təbiətin və cəmiyyətin inkişaf tarixi, müasir vəziyyəti və inkişaf qanunauyğunluqları, eləcə də həyat fəaliyyətinin təkmilləşməsi üçün onun həyat keyfiyyətinin yaxşılaşmasına təsir göstərən texnoloji imkanları haqqında obyektiv, həqiqi biliklərin yaradılması və sistemləşdirilməsi məqsədilə reallığı dərk etməyə yönəlmiş yaradıcı fəaliyyətdir. O, faktların daimi olaraq toplanmasını, emalını və ümumiləşdirilməsini, onların müntəzəm şəkildə yenilənməsini, sistemləşdirilməsini və tənqidi təhlilini nəzərdə tutur.

Elmin ən mühüm missiyası – yeni elmi həqiqətlərin axtarışı və mütərəqqi texnologiyaların və ahəngdar insan inkişafı modellərinin işlənib hazırlanmasına kömək edən biliklərin istehsalıdır. Albert Sent-Dyerdiyə istinad edərək demək olar ki, tədqiqat aparmaq – sənə qədər başqalarının gördüyünü görmək, bununla belə, heç kimin sezmədiyini sezməkdir.

Dünya və Kainat haqqında sonsuz biliklər yalnız təbiətin və cəmiyyətin həyat hadisələri və qanunlarını anlamağa kömək edən və insanı müdrikliyə aparan elmə məlumdur. Elmi tədqiqatların nəticələrindən cəmiyyətin ruhi və maddi mədəniyyətinin, insanların intellektual və mənəvi mədəniyyətinin mütərəqqi inkişafı, dövlətin davamlı sosial-mədəni və iqtisadi inkişafı üçün elmi cəhətdən əsaslandırılmış konsepsiyaların və strategiyaların işlənib hazırlanması məqsədilə istifadə edilir.

Təbiətin, insanın və cəmiyyətin elmi cəhətdən dərk edilməsi yaşadığımız dünyanı anlamaq və insanın həyat fəaliyyətini təkmilləşdirmək məqədilə həyata keçirilir. Alimlər elmi biliklərin əvəzedilməz "yaradıcı istehsalı" ilə məşğul olaraq onları bütün bəşəriyyətin sərvətinə çevirməklə, insanların ruhi mədəniyyətinin inkişafına xidmət üçün təqdim edirlər. Elmin qüvvətini və üstünlüyünü, eləcə də alimin cəmiyyətdə ən yüksək sosial statusunu qeyd edən Nizami Gəncəvi hələ XII əsrdə elmi cəmiyyətin və dövlətin həyat qabiliyyətinin başlıca şərti hesab edirdi. Elmin Kainat qədər sonsuz olduğunu vurğulayaraq, öz oğluna da elmlə məşğul olmağı tövsiyə edirdi.

Elmi biliklər, elmi kəşflər və elmi inqilablar insanlar qarşısında insanın həyat fəaliyyətinin qorunması və yaxşılaşdırılmasının sonsuz imkanlarını açaraq dünyanı və insanın özünü əsaslı şəkildə dəyişdirdi.

Təhsil – mədəniyyətin topladığı biliklərin insan tərəfindən mənimsənilməsi prosesi, şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafına, insan və onun yaradıcılıq qabiliyyətlərinin daimi təkmilləşməsinə, insanların dünyagörüşünün inkişafına, erudisiyasının artmasına, görüş sahəsinin genişlənməsinə aparan yoldur. Bu, əmək və idarəetmə mədəniyyətinin formalaşması və inkişafının, insan və cəmiyyətin həyat keyfiyyətinin yüksəlməsinin zəruri əsasıdır. Onu insan həyatının fundamenti, onun təlim və tərbiyəsi sistemi, insanın uğurlu həyat fəaliyyəti üçün yeni imkanlar pəncərəsi açan intellektual və mənəvi mədəniyyətinin formalaşması, xarakterinin təşəkkülü və fiziki qabiliyyətlərinin inkişafı prosesi kimi də xarakterizə etmək olar.

Təhsil – şəxsiyyətin mədəniyyətinin, onun xasiyyətinin və əqidəsinin, vərdişlərinin və praktiki fəaliyyət texnologiyalarının formalaşması prosesidir. O, insanın özünüdərkinə və özünütərbiyəsinə, onun təbii bacarıq və istedadlarının kəşf edilməsinə və reallaşdırılmasına təkan verir, çətin həyati vəziyyətlərdə düzgün qərarlar qəbul etməsinə, öz müşahidələrini düzgün şərh etməsinə kömək edir.

Ailədə, məktəbdə və cəmiyyətdə alınan təhsil mədəniyyətin irsiyyət yolu ilə ötürülən genetik kodundan daha vacibdir, çünki uşağın təlim və tərbiyəsindən başlanan əlverişli sosial mühit olmadıqda insan insan ola bilməz.

Müasir, sürətlə dəyişən dünyada təhsilin əhəmiyyəti getdikcə artır. Məlum olduğu üzrə, belə bir fikir mövcuddur ki, şüurun biliklərlə müntəzəm olaraq zənginləşməsi yaşlı vaxtda yaddaşın qorunmasına kömək edərək beynin aktivliyinin yüksək səviyyədə saxlanmasına səbəb olur və hətta Altsheymer və Parkinson xəstəliklərinin riskini azaldır.

"Təhsil" anlayışını yekunlaşdıraraq demək olar ki, bu, insana sağlam, uğurlu və xoşbəxt olmaq üçün nəyi necə etməli olduğu haqqında bilikləri açan, həyatın ali məqsədlərinə aparan intellektual və mənəvi yolu işıqlandıran mənbədir. Yaxşı təhsil – elmi biliklərə, bacarıqlara, mütəşəkkilliyə, mənəviyyata malik yüksək mədəniyyətli insan olmaq, peşəkar səriştə qazanmaq və cəmiyyətin xeyrinə yaradıcı fəaliyyətlə məşğul olmaq imkanıdır. O, bəşəriyyətin çoxsaylı nəsillərinin topladığı sosial-mədəni inkişaf təcrübəsinin yeni nəsillərə ötürülməsini nəzərdə tutur.

Daimi dəyişikliklər və zamanın çağırışları şəraitində hər bir insan üçün zəruri olan universal kulturoloji biliklər, cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində yüksək mədəniyyətli, layiqli insanların, şəxsiyyətlərin və liderlərin formalaşdırılması və inkişaf etdirilməsi üçün xüsusi əhəmiyyətə malikdir. Bu səbəbdən, Azərbaycan cəmiyyətinin bütün sosial kateqoriyaları üçün əlavə kulturoloji təhsil və maarifləndirmənin icbari olması məqsədəuyğundur.

İnsanın dar sahədə ixtisaslaşması, müasir kulturoloji metodologiya, qanunauyğunluqlar və idarəetmə texnologiyaları, insan inkişafının vahid mənzərəsində yeni imkanlar "pəncərəsi" açan sistemli kulturoloji təhlilin metodları haqqında elmi biliklərə sahib olmaması çox zaman aktual sosial, siyasi, istehsal, idarəetmə və digər problemlərin əsassız birölçülü qavranılmasına və bu şəkildə həll edilməsinə gətirib çıxarır. O həmçinin mədəni dəyərlər sistemini, ləyaqəti, dünyagörüşü istiqamətləri, vətənpərvərliyi, əqidə və davranışı diqqətdən kənarda saxlayır, amma onlarsız mütəxəssislərin, məmurların və siyasətçilərin vətəndaş mövqeyi dövlətin milli maraqlarına zidd ola bilər. Mənəviyyatın – vicdan, xeyir, humanizm, sevgi, dostluq, nəcib xasiyyət, namus, ədalət və imanın tərbiyəsi vicdanlı əmək vasitəsi ilə mədəniyyətin nəcib niyyətlərini və enerjisini Azərbaycanda davamlı inkişaf məqsədlərinə, insanlara və ölkəmizə xidmətə yönləndirməyə imkan verən təlim və maarifləndirmə ilə müşayiət olunmalıdır.

Maarifləndirmə – cəhalətin aradan qaldırılması və insanların ümumi mədəniyyət səviyyəsinin yüksəldilməsi məqsədi ilə cəmiyyətdə universal elmi biliklərin yayılmasıdır. Maarifləndirmə ideyaları İngiltərənin maarifçiləri – alimləri, filo-

sofları, mütəfəkkirləri və yazıçıları tərəfindən yaradılıb. Bu ideyaların əsasında rasionalizm – insanların düşüncə və davranışlarında idrakın üstünlüyü, qələbəsi ideyası dururdu. Amma bu ideyalar praktiki baxımdan Fransada daha geniş şəkildə inkişaf etdirildi. "Maarif" termini alman klassik fəlsəfəsinin banisi İmmanuil Kanta məxsusdur.

XVII-XVIII əsrlərin sonlarında Avropada və Şimali Amerikada maarifləndirmə – ziyalıların rasionalizm, humanizm və azadfikirliliklə seçilən, xalqın intellektual və mənəvi mədəniyyətinin, cəmiyyətin elmi, fəlsəfi və ictimai fikrinin inkişafına yönəlmiş yaradıcı fəaliyyəti idi. Onun yaradıcı nəticəsi cəmiyyətdə elmi bilik idealının yayılması, orta əsrlərə aid qeyri-insani ideyaların, kütlələrin cəhalətinin və xürafatlarının aradan qaldırılması oldu.

İdraka və elmə vurğu edən və insanlara "biliklər işığı" bəxş edən maarifləndirmə insanın rifahını və insan həyatını cəmiyyətin və dövlətin başlıca dəyəri kimi müəyyən etdi. İdrak və elm güc kimi nəzərdən keçirilirdi, çünki onların köməyi ilə bəşəriyyət Kainatı dərk edir, öz həyatını qoruyur və yaxşılaşdırır. Ağıllı insanın məqsədləri bilik, azadlıq və xoşbəxtlik hesab olunurdu. Bu ideyanın mərkəzində elmi biliklərə əsaslanan yüksək mədəniyyətli insan dururdu. İslahatçılığın və humanizmin sevincini daşıyan bu hərəkat idrakı bütün mövhumatlardan, elmi isə – kor-koranə inamdan üstün tuturdu, inanırdı ki, bu prinsiplərə sadiqlik bəşəriyyəti böyük tərəqqiyə və xoşbəxtliyə aparacaq. Elmin üstünlüyünə və elmi biliklərin dəyərinə əsaslanan prinsiplər "İdrak əsri" və "İşıq əsri"ndə yaradılıb, onlar kulturologiya elminin missiyasına çox yaxın olub, müasir dünyanın konstitusiyalı demokratiyalarında təcəssüm tapıblar.

Maarifləndirmə dəyərləri hazırda bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edir. Bu gün dünya sivilizasiyasında yüksək mədəniyyətin geriləməsi ilə müşayiət olunan mədəni turbulentlik şəraitində müxtəlif ölkələrin cəmiyyətinin kulturoloji maarifləndirilməsi problemlərinə dövlət marağını artırmaq son dərəcə vacibdir.

## İqtisadiyyat və səhiyyə mədəniyyətin sosial institutları kimi

Mədəniyyətin bütöv sosial sistem kimi elmi anlayışı, mədəniyyətin "ikinci, süni təbiət", inkişafın göstəricisi, vasitəsi və məqsədi kimi qavranılması onun sosial institutlarını, o cümlədən iqtisadiyyatı yeni nəzərlə görməyə və qiymətləndirməyə imkan verir. Kulturologiya elminin nailiyyətləri sayəsində bu gün mədəniyyəti statik hadisə, iqtisadiyyat üzərində üstqurum kimi nəzərdən keçirməyə haqqımız yoxdur. Əslində, iqtisadiyyat elmi və praktiki fəaliyyətin vəhdəti olaraq, ruhi və maddi mədəniyyətin bütöv sisteminin bir hissəsidir. O, insanın həyati tələbatlarının ödənilməsinə yönəlmiş intellektual əməyin nəticələrinin maddiləşməsi prosesini təcəssüm etdirir.

Mədəniyyəti bütöv sosial sistem kimi görmə sovet dövrünün təfəkkür stereotiplərindən imtina edib, iqtisadiyyatı mədəniyyətin əsas komponentlərindən biri

kimi anlamağa imkan yaradır. Bunun üçün iqtisadiyyatın formalaşması prosesinə insanın fəaliyyət sahəsi kimi diqqət yetirmək kifayətdir. Kulturoloji ölçmədə bu, pilləli prosesdir ki, burada: ideya, elmi tədqiqatlar, texnologiyalar, istehsal, hazır məhsul sxemi üzrə intellektual əməyin ardıcıl olaraq maddi istehsala çevrildiyi izlənilir. Bu prosesin həyata keçirilməsi aşağıdakı resursların mövcudluğunu nəzərdə tutur: elmi biliklər, texnologiyalar, insan kapitalı, xammal, materiallar, texnika və avadanlıq, enerji, menecment, istehsal tikintiləri, maliyyə kapitalı (investisiyalar). Eyni zamanda yüksək intellektual mədəniyyətə əsaslanan rəqabətqabiliyyətli elmi biliklərin istehsalı (fundamental və tətbiqi tədqiqatlar) yüksək texnologiyaların effektivliyini, valyuta gəlirlərinin səviyyəsini və ölkənin həqiqi müstəqilliyini təmin etməyə imkan verir.

Analoji şəkildə səhiyyə də cəmiyyətin bütöv mədəniyyət sisteminin ayrılmaz hissəsidir. Sözügedən elmi biliklər və praktiki fəaliyyət sistemi xoşbəxt həyat, əmək fəaliyyəti, cəmiyyətin və dövlətin davamlı inkişafı üçün zəruri olan insan sağlamlığına dəstəyi təmin edir.

## İntellektual mədəniyyət

İntellektual mədəniyyət – insanın əqli inkişafının onun bacarıqları, istedadı, təhsili və vicdanlı əməyi ilə şərtləndirilmiş keyfiyyət nəticəsidir. İnsanın intellektual mədəniyyətinin inkişafının fundamenti elm, təhsil və maarifləndirmə, habelə özünütəhsil və mədəniyyətin genetik kodudur. İntellektual mədəniyyətin göstəriciləri elmi biliklər, düşüncə və davranış mədəniyyəti, zehni əmək mədəniyyəti, mürəkkəb problemlərin başa düşülməsi və onların düzgün həlli, insanın peşəkar nailiyyətləridir.

Şəxsiyyətin intellektual mədəniyyətinin ən mühüm göstəricisi onun kreativliyidir. Bu, mütərəqqi baxış və təsəvvürün orijinallığı, standart ideyalardan, qaydalardan və şablonlardan uzaq durmaq bacarığı, çoxlarının görmədiyi yeni inkişaf imkanlarını görmək qabiliyyətidir. Kreativlik – süni intellekt üçün əlçatmaz bir şeydir.

İntellektual mədəniyyət yalnız elmi yaradıcılığın, təhsilin, iqtisadi və kənd təsərrüfatı istehsalının, təsviri incəsənətin, mühəndis əməyinin deyil, həmçinin incəsənət, ədəbiyyat, təbabət, hüquq və insanın digər sahələrdəki fəaliyyətinin də əsasında durur. O, insanın şəxsi həyatının və xoşbəxtliyinin açarıdır. Şəxsiyyətin dəyər oriyentirlərinin formalaşması, kommunikasiya mədəniyyəti və insanların bir-birini başa düşməsi daha çox intellektual mədəniyyət səviyyəsindən asılıdır. Vətəndaşların özünüinkişafı, özünütəhsili və özünütəkmilləşdirməsi intellektual mədəniy-yətin inkişafı üçün mühüm əhəmiyyətə malikdir.

Müasir dünyada yüksək intellektual mədəniyyətli insanlar üçün sistemli kulturoloji təfəkkür, tənqidi təhlil və mürəkkəb yaradıcılıq problemlərin və praktiki vəzifələrin həllinə sistemli kulturoloji yanaşma səciyyəvidir.

İntellektual mədəniyyət şəxsiyyətlərin və liderlərin formalaşmasının mühüm amilidir. O, insanın intellektual bacarıqlarının təkmilləşməsinə, elmi dünyagörüşünün formalaşmasına, yaradıcı təfəkkürün inkişafına və insanın yaradıcılıq qabiliyyətlərinin aşkar edilməsinə imkan verir. Bu mədəniyyət rəhbərlərin güclü məntiqini və yüksək kreativliyini, məqsədləri düzgün formalaşdırmaq, yüksək nəticələrə çatmaq üçün innovativ texnologiyalar yaratmaq və onları reallaşdırmaq bacarığını nəzərdə tutur.

Texniki personalın biliklər, məsuliyyət səviyyəsinin və əmək məhsuldarlığının zehni əmək işçiləri səviyyəsinə qədər fasiləsiz yüksəlişi, intellektual mədəniyyətlə şərtləndirilmiş innovativ fəaliyyətin həyata keçirilməsi aparıcı dünya ölkələrinin iqtisadiyyatının müxtəlif sahələrinin ən vacib vəzifəsidir. Xatırladaq ki, Frederik Teylor fiziki əməyin məhsuldarlığının artmasının əsasında elementar hərəkətlər ardıcıllığından ibarət ustalığın deyil, biliyin dayandığını hesab edirdi. Piter Druker isə vurğulayırdı ki, zehni əməklə məşğul olan insanlar iqtisadi təşəbbüslərin əsas kapitalıdır.

Dünya miqyasında artan rəqabət şəraitində insanların intellektual mədəniyyətinin qabaqlayıcı inkişafına olan tələbatını qiymətləndirmək çətindir. Qabaqcıl dünya ölkələrində yeni elmi biliklərin yüksək artım templəri üçüncü dünya ölkələrində intellektual mədəniyyətin prioritet inkişafını tələb edir. Qabaqcıl və üçüncü dünya ölkələrinin elmi və sosial-iqtisadi nailiyyətlərini müqayisə etsək, ikincilər tərəfindən birincilərin səviyyəsinə yaxınlaşmaq üçün intellektual mədəniyyətin qabaqlayıcı inkişafı sahəsində təxirə salınmadan nə qədər böyük iş görmələrinin lazım olduğunu anlamaq çətin deyil. İntellektual mədəniyyəti olmayan insana xeyri şərdən ayırmaq, onu əhatə edən obyektiv aləmi düzgün qavramaq, fəaliyyət məqədləri və prioritetləri seçmək, mənəviyyat və etika normalarını başa düşmək və onlara riayət etmək, bütün həyati vəziyyətlərdə ağlabatan həllər tapmaq çətindir. Yüksək mənəvi mədəniyyətli insanlar öz potensiallarından təkcə şəxsi maraqları üçün deyil, ictimai rifaha xidmət etmək yolu ilə milli inkişaf maraqları üçün də rasional istifadə imkanına malikdirlər.

Beləliklə, qloballaşma şəraitində cəmiyyətin intellektual səviyyəsinin artırılması zamanın tələbidir. İnsanın həyat fəaliyyətinin müxtəlif sənayelərinin və sahələrinin əsas kapitalı kimi zehni əməklə məşğul olan insanlara, yüksək intellektual mədəniyyətli mütəxəssislərə tələbat artmaqda davam edəcək.

Nəzərdən keçirilən məsələlər Azərbaycan cəmiyyətinin və dövlətinin həyat qabiliyyətinin və rəqabətqabiliyyətliliyinin yüksəldilməsi amili kimi icbari kulturoloji təhsilin və maarifləndirmənin vasitəsi ilə mütəxəssislərin və bütün xalqın intellektual mədəniyyətinin qabaqlayıcı inkişafının strateji əhəmiyyətini anlamağımıza kömək edir.

## Etik mədəniyyət

Etik mədəniyyət ("ethos"– yunan dilindən tərcümədə əxlaq, xarakter, adət mənasını verir) cəmiyyətin sosial-mədəni inkişafının və dövlətin təhlükəsizliyinin ən vacib şərtidir. Etik mədəniyyətin əsasında insanların tələbatları, maraqları, bilikləri və xarakteri ilə şərtləndirilmiş dəyərlər sistemi durur. Etik mədəniyyət şüur və biliyin məcmusunu, lazım olanın dərk edilməsini, dəyərlər sistemi, əxlaqi davranış və münasibətləri, insanların mənəvi həyatını və fəaliyyətini ifadə edir. O, insan və cəmiyyətin mənəvi inkişafdakı keyfiyyəti və nailiyyətlərinin səviyyəsidir. İctimai şüur forması olan etik mədəniyyət əsas etibarilə, vətəndaşların anadangəlmə keyfiyyətlərindən, təlim və tərbiyəsindən, bütövlükdə cəmiyyətin maddi rifahından asılıdır. Etik mədəniyyət – düşüncə və davranışın mütəhərrik kateqoriyası olub, ictimai quruluşun, rəsmi ideologiyanın, sinfi maraqlar və dəyərlərin, maddi və sosial-siyasi həyat şəraitinin dəyişməsindən asılı olaraq, zaman və məkan daxilində dəyişir. O, çoxsaylı nəsillərin dini və dünyəvi təcrübəsini, tarixi tələbatları və insanların həyati maraqlarını, mənəvi inkişafı müəyyən edən və tənzimləyən obyektiv qanunauyğunluqları əks etdirir. Etik mədəniyyət quldarlıq, feodal, kapitalist və sosialist cəmiyyətlərdə ayrı-ayrı sosium və fərdlər üçün müxtəlifdir.

Etikanın elm olaraq vəzifəsi insanların əxlaqi baxımdan təkmilləşməsinə, Xeyri və Şəri düzgün anlamasına, şəxsiyyətin mənəvi seçiminin təyininə dəstək olmaq üçün insanın və cəmiyyətin mənəviyyat problemlərinin öyrənilməsidir. Etika reallıq haqqında düzgün təfəkkür və təsəvvürlərin, onlarla şərtləndirilmiş, həyatda və fəaliyyətdə müsbət nəticələrə nail olmağa təkan verən düzgün niyyətlərin və hərəkətlərin formalaşmasına kömək edir.

Etik mədəniyyətin dünyagörüşü dəyəri ondan ibarətdir ki, o, lazımi olan haqqında, insanın təyinatı və onun həyatının mənası haqqında aksioloji ideyalar, insanların ailədə, kollektivdə və cəmiyyətdə davranış prinsipləri və normalarını formalaşdırır. Xeyir və Şərin dəyər meyarları kontekstində "necə davranmalı?" sualına cavab axtararkən bəzi nəzəriyyələr insan təbiətini lazımınca qiymətləndirməyərək əxlaqın sosial xarakterindən, digərləri – əxlaqın ictimai şüurun forması olduğunu unudaraq, "insan təbiətinin" dəyişilməzliyindən çıxış edirlər. Etikanı fərdlərin xoş məramı, tələbat və istəkləri arasında ahəngə nail olma vasitəsi kimi nəzərdən keçirən Kant, mənəviyyatın qorunması üçün Allahın varlığının və ruhun ölməzliyinin qəbul edilməsini zəruri sayırdı.

Etika dini və dünyəvi səciyyə daşıya bilər. Dini etika ilahi hökmlərlə şərtləndirilmiş ali apriori prinsiplərə əsaslanır. Dünyəvi etika – insanların sosial mənşəyindən, dindarlıq dərəcəsindən, sinif, qrup və şəxsi maraqlarından, həyat tərzindən və dəyərlər sistemindən asılı olan tarixi hadisədir.

Mahiyyət etibarilə, etika – əxlaq, onun mənşəyi və inkişafı, insanın davranış qaydaları və normaları, insanların ailəyə, bir-birinə, cəmiyyətə, vətəninə, dövlətinə, bəşəriyyətə münasibətdə öhdəlikləri haqqında təlimdir. Onu iki əsas ölçüdə

nəzərdən keçirmək qəbul olunur: insanın müəyyən davranış normaları və qaydalarının kodeksini təqdim edən normativ etika kimi və əxlaqın fəlsəfi nəzəriyyəsini təcəssüm etdirən metaetika. Bütün şəraitlər üçün məcburi olan, əbədi həqiqətlərin məcmusu kimi əxlaq tarixən aşağıdakılarla əlaqələndirilirdi:

- Antik cəmiyyətdə – insanların ruhi və cismani həzzə təbii can atması ilə (Epikür); hissən qavranılmaz "rifah" ideyası ilə (Platon); təlim və adətlə şərtlənən "intellektual" və iradəyə əsaslanan "vətəndaş xeyirxahlığı" ilə (Aristotel).
- Feodal cəmiyyətdə – Allaha sevgi və ilahi iradə ilə.
- İntibah və Maarif dövründə – insanın və insan ağlının başlıca dəyər kimi qəbul edilməsi ilə.
- Burjua cəmiyyətində – azadlıq və bərabərlik ideyaları ilə.
- Sosialist cəmiyyətdə – sosial ədalət ideyaları ilə.
- Kapitalist (demokratik) cəmiyyətdə – insan iradəsinin müstəqilliyi ideyası ilə.

## Hüquqi mədəniyyət

Mədəni insanın əsas keyfiyyətlərindən biri olan mütəşəkkilik şəxsiyyətin hüquqi mədəniyyətinin müəyyən səviyyəsini, onun qaydaya, intizama, hüquqa, məsuliyyətə, qanunun aliliyinə tərəfdarlığını nəzərdə tutur. Şəxsiyyətin hüquqi mədəniyyətinin səviyyəsi üç əsas: hüquqi biliklər və informasiyalarla şərtlənən intellektual; hüquqi əqidələrdə təcəssüm olunan emosional-psixoloji; biliklərə, əqidələrə və mövcud qanunlara əsaslanan davranışda ifadə olunan davranış göstəriciləri ilə ölçülür.

Hüquq cəmiyyət mədəniyyətinin ən mühüm sosial institutlarından biridir. O, şəxsi və ictimai həyat fəaliyyətinin qaydaya salınmasında insanların iradəsi, maraqları və tələbatları ilə əlaqəlidir. Hüquq özündə sosial ədalətə can atma və ümidi, hüquq və azadlıqların müdafiəsini, zəmanət verilən əməyin, davamlı və təhlükəsiz inkişafın təmin olunmasını təcəssüm etdirir. Müasir demokratik dövlətdə hüquq insanın şüuru, davranışı, fəaliyyəti, sosial münasibətlərinin ayrılmaz hissəsidir. Hüquq düşüncəsində və ya dövlət hakimiyyəti aktı kimi qüvvədə olan qanunda ifadə edilib-edilməməsindən asılı olmayaraq, hüquq insanlar arasında, onların cəmiyyətə mənsub olduqlarını təsdiqləyən və onların həmrəyliyinə və əməkdaşlığına kömək edən əlaqələndirici həlqədir.

Hüquq mədəniyyəti – insanların cəmiyyətdəki həyat fəaliyyətinin sosial-hüquqi tənzimlənməsi funksiyasını yerinə yetirən normalar, dəyərlər, hüquqi institutlar, proseslər və formaların məcmusudur. O, azadlığının, hüquqlarının və məsuliyyətinin vəhdətini, sosial müdafiəni və şəxsiyyətin ləyaqətinə hörməti təmin edir. Cəmiyyətin hüquq mədəniyyəti ümumi sosial mədəniyyətin bir hissəsi olub, ümumbəşəri və milli dəyərləri özündə təcəssüm etdirir. O, şəxsiyyətin keyfiyyətli hüquq vəziyyətini, həmçinin cəmiyyətin və dövlətin mütəşəkkillik səviyyəsini əks etdirir. Hüquqi və etik mədəniyyət bir medalın iki tərəfi kimi,

şəxsiyyətlərarası, ictimai və beynəlxalq münasibətlərdə çox böyük rol oynayır. Hüquq bu və ya digər davranış normalarını təyin edir və dövlət idarəçiliyinin əsasıdır, əxlaq isə insanın vicdanı ilə nəzarət edilən mənəvi seçimi müəyyən edir.

Hüquq mədəniyyəti qanunların müvafiq keyfiyyətini, sosial hüquq qaydasının sabitliyini, vətəndaşların dövlət və cəmiyyət qarşısında öz hüquq və vəzifələrini bilməsini, xalqın dəyər təsisatı kimi, onların hüquqa və qanuna hörmətini, savadlı və hüquqi cəhətdən əsaslandırılmış tərzdə danışmaq qabiliyyətini nəzərdə tutur. O həmçinin azadlığı, digər insanlara hörməti, öz sözləri, əməlləri və üzərinə götürdüyü öhdəliklərə görə şəxsi məsuliyyəti, insanlarda qanunilik və ədalət hissinin tərbiyə edilməsini də əhatə edir. Bu prosesdə peşəkar hüquq təhsili ilə yanaşı, kütləvi informasiya vasitələri və bədii ədəbiyyat da əhəmiyyətli rol oynayır.

Cəmiyyətin hüquq mədəniyyətinin əsas komponentləri bunlardır: dövlət qanunlarını ifadə edən normalar sistemi olan hüquq; hüquqla tənzimlənən ictimai münasibətlər sistemi olan hüquq münasibətləri; hüquqi nəzarəti, hüquqların tənzimlənməsini və icrasını təmin edən dövlət orqanları və ictimai təşkilatlar sistemi olan hüquq idarələri; hüquqi gerçəkliyin ruhi əks etmə sistemi kimi hüquq düşüncəsi; həm qanunauyğun, həm də qanuna zidd davranış; qanunyaradıcı fəaliyyət; hüquq elmi; hüquq tətbiqi fəaliyyəti; qanunilik; hüquq qaydası.

Cəmiyyətin hüquq mədəniyyəti səviyyəsinin ənənəvi göstəriciləri bunlardır: qanunvericiliyin sosial cəhətdən əsaslandırılması, normativ aktların məzmununun milli mədəniyyətin adətlərinə, xalqın psixologiyasına, xarakterinə və ideallarına, habelə cəmiyyətin inkişaf tələbatlarına, mütərəqqi nailiyyətlərinə, dünya inkişafının qanunauyğunluqlarına və tendensiyalarına uyğunluğu; qanunların reallaşmasının hüquqi mexanizmlərinin işlənməsini nəzərdə tutan qanunvericiliyin təkmil olması; hüquqi termin və təriflərin aydınlığı, boşluqların olmaması, qanunların yanlış şərh olunmasını istisna etmək üçün onun məzmunu ilə hərfi mənasının üst-üstə düşməsi; qüvvədə olan qanunların təyinatının real gözlənilən sosial nəticələrə uyğunluğunu nəzərdə tutan effektiv qanunvericilik; qanunların real icrasına əhalinin şüurlu hazırlığı.

Demokratik ölkələrdə dövlət və hüquq münasibətlərində prioritet olan hüquqdur. Qanunun aliliyi hər kəs, ilk növbədə, dövlət orqanları üçün başlıca prinsipdir. Hüquq, onunla bağlı normalar şəxsiyyətin yüksək hüquqi statusunun, insanın ayrılmaz hüquqlarının, dövlət və sosial idarəetmənin demokratik metodlarının həyata keçirilməsinin zəmanətidir. Demokratik cəmiyyətdə hüquq mədəniyyətinin əlamətlərinə, hüquqi münasibətlərdə olan subyektlərin hüquq və vəzifələrinin ekvivalentliyi və tarazlığı kimi, bərabərliyi, azadlığı və ədaləti aid edirlər.

Demokratik cəmiyyətdə hüquq mədəniyyətinin effektivliyi aşağıdakı şərtlərdən asılıdır:

- ❑ Hakimiyyətin müxtəlif şaxələrinin qarşılıqlı nəzarətini nəzərdə tutuan demokratik sistemin mövcudluğu ilə.
- ❑ Hakimiyyət və cəmiyyət arasındakı münasibətləri tənzimləyən və aşağıdakı funksiyaları yerinə yetirən ombudsman institutunun mövcudluğu ilə:

- vətəndaşların hüquqların müdafiəsi, onların şikayət və ərizələrinə baxılması;
- illik və xüsusi hesabatların hazırlanması;
- insanların hüquqlarının müdafiəsi üzrə qanunvericiliyin təkmilləşdirilməsinə yardım;
- hüquqi maarifləndirmə və vətəndaş təhsilinin inkişafına dəstək.

Demokratiya dəyərlərinə və prinsiplərinə əsaslanan səmərəli sosial və dövlət idarəçiliyini təmin edən hüquqi, etik və idarəçilik vəzifələri arasında aşağıdakıları qeyd etmək lazımdır:

✓ vətəndaşlar və qanunun aliliyini təmin etmək iqtidarı olan vəzifəli şəxslər tərəfindən qanunvericiliyin və qanunların icrası mədəniyyətinin daim təkmilləşdirilməsi;

✓ baza siyasi və inzibati sənədlərin şəffaflığı və idarəçilik sistemində onlardan düzgün istifadə edilməsi;

✓ vətəndaşların ədalət hüquqlarının müdafiəsi, vəzifəli şəxslər tərəfindən hakimiyyətdən sui-istifadənin, qohumbazlıq, monopolizm və korrupsiya hallarının qarşısının alınması, bölgü münasibətləri mədəniyyətinin inkişafı;

✓ ombudsman institutunun köməyi ilə ölkə vətəndaşları, eləcə də dövlət strukturları ilə vətəndaşlar arasında yaranan ziddiyyətlərin, konfliktlərin və mübahisələrin yüksək hüquqi və etik tənzimlənməsi mədəniyyəti;

✓ dövlət quruculuğu və idarəçiliyi proseslərinin səmərəliliyinin ictimai monitorinq proqramlarının işlənib hazırlanması və reallaşdırılması;

✓ demokratiya, sülh və vətəndaş cəmiyyəti, hüquq, etik, idarəetmə, istehsal və məişət mədəniyyəti problemləri üzrə məmurlar və əhali üçün daim fəaliyyət göstərən kulturoloji maarifləndirmənin təşkili.

Bütövlükdə cəmiyyət mədəniyyəti kimi, hüquq mədəniyyəti də qiymətləndirmə prinsipləri və meyarlarından asılı olaraq, yüksək, orta və aşağı hüquq mədəniyyəti kimi təfsir edilə bilər. Yüksək hüquq mədəniyyəti – hüququn, ədalətin və hüquqi göstərişlərin faydalılığının məntiqə uyğunluğunu və zəruriliyini dərk etməyə, hüquqi biliklərin əqidələrə çevrilməsinə imkan yaradır. Hüquqi intizam vətəndaşların hüquqi əqidələrinin rəsmi hüquq normalarına eyniyyətini tələb edir.

Cəmiyyətin hüquq sistemi, bir çox cəhətdən siyasi-hüquqi fikrin inkişaf səviyyəsindən və hüquq elminin, dövlət və hüquq nəzəriyyəsinin dəyişən daxili və xarici tələbatlara adekvat yaradıcı nailiyyətlərindən, eləcə də əhalinin hüquq təhsili və maarifləndirilməsi səviyyəsindən asılıdır.

## Siyasi mədəniyyət

Müasir kulturologiyanın elmi maraq obyektlərindən biri cəmiyyətin və dövlətin siyasi mədəniyyətidir. Elmi biliklər və metodlar, dövlət quruculuğu və idarəçiliyi təcrübəsi və texnologiyaları, siyasi həyatı tənzimləyən və dövlət hakimiyyətinin səmərəli işləməsini təmin edən institutlar sisteminin fəaliyyəti,

dövlət müəssisələri, siyasi partiyalar və ictimai təşkilatların fəaliyyətinə təsir göstərən ziddiyyətlər və dəyişikliklər sistemli kulturoloji təhlilin diqqət mərkəzində olan məsələlərdir.

Siyasi mədəniyyət – müəyyən məqsədlərə nail olmaq üçün sosial qruplar, millətlər və dövlətlər arasındakı münasibətlərin tənzimlənməsinə yönəldilmiş xüsusi elmi biliklər, texnologiyalar və fəaliyyətdir. O, vətəndaşların siyasi bilik, bacarıq, mütəşəkkillik, etika, fəaliyyət və hərəkətlərinin qiymətləndirmə keyfiyyətini, habelə siyasi münasibətləri və siyasi həyatı tənzimləyən siyasi dəyərlərin, normaların və ənənələrin məcmusunu əks etdirir. Siyasi mədəniyyət mühüm sosial-siyasi funksiyaları yerinə yetirən dövlət, konstitusiya, ölkənin qanunları, siyasi partiyalar, ictimai təşkilatlar kimi daim inkişaf etməkdə olan institutların fəaliyyətində özünü göstərir. Onun tətbiq sahələri arasında millətlər, etnoslar, dini konfessiyalar, “maraq qrupları”, beynəlxalq ictimaiyyət də var.

Dövlət institutlarını, siyasi partiyaları və ictimai təşkilatları ehtiva edən cəmiyyətin siyasi sistemi dövlət hakimiyyətinin fəaliyyətini təmin edir və ölkənin siyasi həyatını tənzimləyir. Cəmiyyətin siyasi mədəniyyəti dövlət Konstitusiyası və milli qanunvericilikdə möhkəmləndirilmiş hüquq normaları çərçivəsində, habelə milli və ümumbəşəri mədəniyyətin dəyərlər sisteminə, beynəlxalq hüquqa və beynəlxalq hüquqi aktlara uyğun olaraq inkişaf edir. Siyasi mədəniyyət onun daşıyıcıları rolunda çıxış edən insanların siyasi tələbatları və maraqlarının müəyyən dərəcədə ümumiliyini, onların siyasi hakimiyyətin mövcud mexanizminə münasibətini nəzərdə tutur. Cəmiyyətin siyasi mədəniyyəti əsas etibarilə, ümummədəni keyfiyyətlərlə, cəmiyyət və dövlət qarşısında duran vəzifələrin həllində vətəndaşların siyasi mövqeyi, təşəbbüsü və fəallığı, müstəqilliyi, məsuliyyəti və mobilliyi ilə, onların öz davranışını könüllü olaraq demokratik dövlətin siyasi norma və institutlarına tabe etmə bacarığı və istəyi ilə müəyyən edilir. İnsan münasibətlərinin siyasi xarakterinin əsasında fərdi, ictimai, milli, dövlət, partiya, kommersiya, iqtisadi, dini, qrup və digər maraqlar durur.

Dövlətin siyasi mədəniyyəti dövlət hakimiyyətinin həyata keçirilməsinin sabitliyi və səmərəliliyini, qanunvericiliyin və dövlət idarəetmə aparatının daim təkmilləşməsini, düzgün siyasi qərarların qəbulu və onların cəmiyyətin həyat fəaliyyətinin müxtəlif sahələrində vaxtında tətbiqini, xalqın özünüidarə mədəniyyətinin inkişafını, cəmiyyətin davamlı inkişafı, təhlükəsizliyi və tərəqqisinin zəmanəti kimi dövlətin möhkəmləndirilməsini nəzərdə tutur. Onun mərkəzi problemi – dövlət quruculuğu və idarəçiliyinin məqsədləri, fəaliyyətinin, elmi və ideoloji əsaslarının, forma və texnologiyalarının məzmununun müəyyən olunması ilə əlaqəli dövlət hakimiyyəti quruluşu, daxili və xarici siyasətin, xarici ölkələrlə beynəlxalq münasibətlərin həyata keçirilməsidir. Cəmiyyətin inkişaf tələbatlarına, daxili və xarici dəyişikliklərə, dünya mədəniyyəti və sivilizasiyasının çağırışlarına uyğun olaraq, demokratik dövlət, milli maraqların təmin olunmasına yönəlmiş dövlət və ictimai işlərin idarə edilməsinə vətəndaşların geniş surətdə cəlb edilməsini, dövlət quruculuğu və idarəçiliyi proseslərində həmkarlar

ittifaqları və qeyri-hökumət təşkilatlarının rolunun artırılmasını nəzərdə tutur.

Dövlətin siyasi institutlarının əsas funksiyaları bunlardır: tərbiyəvi, tənzimləyici və qoruyucu. Tərbiyəvi funksiya dövlət və sosial idarəetmə prosesində iştirak edən vətəndaşların siyasi mədəniyyət və siyasi şüurunun, səriştəliliyinin lazımi səviyyəsinin formalaşdırılmasını nəzərdə tutur. Tənzimləyici funksiya idarəetmə orqanlarının fəaliyyətinin monitorinqi yolu ilə vətəndaşların siyasi prosesə müsbət təsirinin təmin edilməsini nəzərdə tutur. Qoruyucu funksiya cəmiyyət tərəfindən dəstəklənən dövlət quruluşunun siyasi dəyərlərinin qorunmasını nəzərdə tutur.

## Dini mədəniyyət

İnsanların dini mədəniyyətinin mahiyyətinin, xüsusiyyətlərinin, tarixi və problemlərinin düzgün başa düşülməsi davamlı və təhlükəsiz insan inkişafı üçün müstəsna əhəmiyyətə malikdir. Din – təbii-coğrafi şərait, bu və ya digər xalqın həyati ehtiyacları, dünyagörüşü, təfəkkür səviyyəsi və mədəni dəyərləri ilə şərtlənmiş etno-tarixi ənənədir. Bir sıra müasir dinlərin müqayisəli təhlili göstərir ki, onların nüvəsi iman, sevgi, xeyir, insan həmrəyliyi, mərhəmət, insaf, ədalət, Tanrı və bəşəriyyət qarşısındakı xidmətlərə görə daha yaxşı həyata ümid etmə kimi kateqoriyalar və dəyərlərdir.

Din – bəşəriyyətin ruhi mədəniyyət fenomenidir. O hələ ilk cəmiyytlərin və sivilizasiyaların formalaşdığı dövrdə dövlət quruculuğu və idarəçiliyinin fundamental əsası olan ən qədim ideologiyadır. Dünya dini mədəniyyətinə tarixən mədəni müxtəliflik xasdır. O, politeizm və monoteizmin müxtəlif növlərini, həmçinin panteizm və deizmi özündə birləşdirir. Dinlərin inkişafı ona zidd olan ateizmlə də müşayiət olunurdu. Elm və həyat yeni nailiyyətlər və kəşflərlə bizim dini mədəniyyət sahəsində dünyagörüşümüzü də daim zənginləşdirir.

Dini mədəniyyətin mahiyyət və xüsusiyyətləri haqqında bilik etnik və milli mədəniyyətlərin, insanların psixologiyasının izahını verir. Bu kulturoloji bilikdə dövlət və sosial idarəçiliyin həm subyekti, həm də obyekti olan insanın motivləri, xarakteri, davranışı, mədəniyyəti, həmçinin ailənin idarə edilməsi məsələləri ilə bağlı bir çox suallara cavab vardır. Müasir dinlərin humanist fəlsəfəsinin əsaslarını bilmək şəxsiyyətin yüksək özünüidarə mədəniyyətinin formalaşması üçün də vacibdir. Bununla yanaşı, insanların dini mədəniyyəti haqqında obyektiv bilik həm milli dövlətlər miqyasında, həm də beynəlxalq mədəni məkanda da fərqli millətdən və dindən olan insanların qarşılıqlı anlaşması, hörməti və əməkdaşlığı üçün zəruridir.

Müxtəlif tarixi dövrlərdə dinin formaları və ona münasibət birmənalı olmamışdır. Təbiət qaunlarını, o cümlədən insan bədəninin və ruhunun təbiətini, həyatın hal və hadisələrinin təbii səbəblərini bilməmək qədim insanlarda qorxu və sabaha inamsızlıq doğururdu. Sinifli cəmiyyətdən əvvəlki cəmiyyətlərdə dinin əsas formaları – totemizm, cadugərliyə inam, fetişizm, təbiətə sitayiş, animizm,

əcdadlara sitayiş idi. Totemizm – bir tərəfdən insanlar qrupu, digər tərəfdən, müəyyən bitki, heyvan növü və ya təbiət hadisəsi arasında sirli yaxınlıq əlaqələrinə inamdır. Cadugərliyə inam – müəyyən əməllər, ovsunlar yolu ilə hansısa bir təbiət hadisəsinə və ya insana təsir etməyin mümkün olması haqqında təsəvvürdür. Fetişizm – fövqəltəbii xüsusiyyətlərə malik olduğuna inanılan cansız maddi predmetlərə pərəstişdir. Təbiətə sitayiş – Günəşə, Aya, Yerə və başqa planetlərə, həmçinin dağlara, çaylara, suya oda və s. pərəstişdir. Animizm – ruhların varlığına və ya təbiətdəki bütün varlıqların ruhunun olmasına inamdır. Əcdadlara sitayiş – guya yaşayan nəsillərin həyatına təsir göstərən ölmüş əcdadların ruhuna pərəstişdir.

Sinifli cəmiyyətlərin meydana gəlməsi ilə inancların formaları dəyişməyə başladı. Zehni əməklə məşğul olan insanların bir hissəsi (kahinlər) əvvəlcə, Ali Şüur tərəfindən müəyyən edilmiş ilahi həqiqətin və ilahi hikmətin, həyatın mənasının, təbiətin və həyatın əbədi qanunlarının axtarışı ilə məşğul olmağa başladılar. Bu axtarışların gedişində cəmiyyətin etiqada olan təbii ehtiyaclarını əks etdirən sosial dünyagörüşü formalaşmağa başladı. Mürəkkəb dini təsəvvürlər sistemi – yeni ictimai münasibətləri və sosial təsisatları əks etdirən tanrılar panteonu yarandı. Müxtəlif vaxtlarda və Yer kürəsinin müxtəlif regionlarında insanlara ilahi həqiqəti və ilahi qanunları fərqli dillərdə və fərqli təbii-coğrafi şəraitlərdə çatdıran peyğəmbərlər zühur etmişlər.

Dünya dini mədəniyyəti ilə tanışlıq göstərir ki, müxtəlif dinlər insan şüurunun manipulyasiyası, insanların istismarı və bir-birindən uzaqlaşdırılması üçün deyil, sevgi, qarşılıqlı hörmət və harmoniya prinsipləri əsasında insanların birləşdirilməsi üçün istifadə edilə bilər və istifadə edilməlidir. Reallıq ondan ibarətdir ki, istənilən dini mədəniyyətdə əsas olan imandır, iman isə – hər şeydən əvvəl, insanın apriori mənəvi dəyərləri haqqında təsəvvürləri ilə müəyyən edilən vicdanıdır. İman – şəxsiyyətin xeyir və şər kimi anlayışlara münasibətinin meyarı, həyatda mənəvi seçimi, həmrəyliyə aparan yoldur.

"Razılaşdırılmış ziddiyyət" konsepsiyasının müəllifi Raymond Panikar deyir ki, "razılıq son nəticədə: eyni baxışlara malik olmadan eyni istiqamətdə getməkdir". Bu, yaxşı fikirdir, bir şərtlə ki, fərqli görüşü olanların birlikdə eyni istiqamətdə baxa bilməsi üçün tanrıya güclü, həqiqi məhəbbət bəsləməsi və insanlara xidmət etməsi lazımdır. Göründüyü kimi, yaxınlaşma, birləşmə və münasibətlərin ahəngi prosesinin əsasında həmçinin qarşılıqlı anlayış, ümumbəşəri mədəni dəyərlər, bütün insanları birləşdirən qlobal problemlər, siyasi və iqtisadi təhdidlər də durmalıdır. Belə ki, bu problem və təhdidlərin aradan qaldırılması üçün xalqların, konfessiyaların və dövlətlərin birgə səyi və əməkdaşlığı tələb olunur. Dinlərarası dialoq alimlərin, din xadimlərinin və digər mütəxəssislərin iştirakı ilə sülh, bərabərlik, inam, xürafatlardan imtina, özünütənqid və həmrəylik prinsiplərinin əsasında qurulmalıdır.

Hər bir ölkənin ümumi mədəniyyətinin və bütün dünyanın bəşəri mədəni həmrəyliyinin dəstəklənməsi üçün mədəniyyətləri və müxtəlif dinlərin maraqlarını necə harmonizasiya etmək barədə düşünmək lazımdır. Meri Pet Fişer və Diana Ekə

görə, qarşılıqlı anlayış və plüralizm – dialoqun mümkün olduğu yeganə və alternativsiz mövqedir. Eyni zamanda, Harvard İlahiyyat məktəbinin professoru Diana Ek bir məsələyə diqqət çəkir ki, dinlər arasındakı əlaqəyə üç növ reaksiya var: öz müstəsnalığının dərk edilməsi; vahid dünya dinini yaratmaq cəhdində ifadə olunan iştirakçılıq; və başqalarını başa düşüb onlara hörmət etməklə, öz dini ənənələrinə sadiqliyi ifadə edən "plüralizm".

İman və insan mədəniyyətinin humanist dəyərlərinin prioritetliyinə əsaslanaraq, dinlərin harmonizasiyası olduqca zəruridir, çünki dini müxtəliflik də mədəniyyətlərin müxtəlifliyi kimi, dünya mədəniyyəti və sivilizasiyasının əsas məğzini təşkil edir. Dinlərin harmonizasiyası probleminin mürəkkəbliyi ondan ibarətdir ki, müxtəlif ölkələrin milli-dini institutları təbii olaraq, digər, o cümlədən yeni dinləri ənənəvi mədəni dəyərləri və həyat tərzini, milli özünüdərkin bütövlüyünü və mədəni identikliyi məhv edən amil kimi nəzərdən keçirirlər. Görünür, alimlərin və din xadimlərinin qarşılıqlı anlaşma və qarşılıqlı zənginləşməyə dəstək olan daimi mədəni dialoqu ümumbəşəri mənəvi dəyərlər əsasında bu problemin həllinə kömək edə bilər.

Milliyyətindən və dinindən asılı olmayaraq hər bir mədəni insan pozitiv düşünməli və yaşadığı dünyanı hər gün yaxşıya doğru dəyişməklə, vicdanının tələblərinə uyğun hərəkət etməlidir. Bu həm milli, həm də beynəlxalq səviyyədə inanclılar üçün də, atesitlər üçün də, idarəetmənin həm subyektləri, həm də obyektləri üçün vacibdir. Buna bütün dünyada yüksək mədəniyyətli insanların formalaşdırılmasını tələb edən yüksək ruhi mədəniyyətin inkişafına xidmət etməklə nail olmaq olar.

## Ekoloji mədəniyyət

Ekoloji mədəniyyət bəşəriyyətin həyat fəaliyyətində mühüm rol oynayır. Ekoloji mədəniyyət – insanın rasional həyat fəaliyyətini və onun təbiətlə qarşılıqlı əlaqələrini tənzimləyən dəyərlər, normalar və texnologiyalar sistemi, düşüncə və davranış mədəniyyətidir. O, mahiyyət etibarı ilə, insan və onu əhatə edən aləmin ahəngdar şəkildə mövcud olmalarına imkan yaradan mədəniyyətin bütöv sosial sisteminin ayrılmaz hissəsidir. Bununla yanaşı, ekoloji mədəniyyət kulturologiya çərçivəsində ayrıca fənn kimi nəzərdən keçirilir.

Ekoloji mədəniyyət təbiətin daxili əlaqələri, o cümlədən canlı orqanizmlər və onların yaşayış mühiti arasında qarşılıqlı əlaqələr barədə elm olan ekologiya ilə sıx bağlıdır. Ekologiya yunan dilindən "evin öyrənilməsi" kimi tərcümə olunur. Bu, çox geniş anlayışdır. O, həmçinin qərarların qəbul olunması prosesində ayrı-ayrı şəxslərin və insan qruplarının davranışını təsvir edən qarşılıqlı əlaqələrin etik və deskriptiv prinsiplərini də ehtiva edir.

Planetdə ciddi iqlim dəyişiklikləri ilə əlaqədar aktuallığını saxlayan ekoloji mədəniyyətin müasir inkişafı üçün insanların həyat fəaliyyəti haqqında universal

kulturoloji bilikləri məqsədyönlü şəkildə yaymaq, xalqın, ilk növbədə, uşaqların və gənclərin keyfiyyətli təhsil almasını və maariflənməsini təmin etmək lazımdır. Eyni zamanda, davamlı və təhlükəsiz inkişafa nail olmaq üçün ekoloji mədəniyyətin mahiyyəti, xüsusiyyətləri və dəyəri haqqında bilikləri fəal surətdə yaymaq zəruridir. Zamanın çağırışlarına uyğun olaraq, elm, təhsil və maarifin nailiyyətləri və imkanlarına söykənərək, bütün dünyada ekoloji mədəniyyəti və onunla əlaqəli "yaşıl energetika" və "yaşıl iqtisadiyyatı" inkişaf etdirmək və təkmilləşdirmək lazımdır. Bu qlobal problemin aktuallığı ruhi mədəniyyətin və yüksək mədəniyyətli insanların bütün dünyada inkişaf etdirilməsinin əhəmiyyətini bir daha vurğulayır, çünki ümumi mədəniyyət səviyyəsi yüksək olmasa, istehsal, məişət, sürücülük mədəniyyəti və s. ilə yanaşı, ekoloji mədəniyyət haqqında da danışmaq çətin olar.

İnsanların və xalqların ruhi mədəniyyət səviyyəsi bəşəriyyətin ekoloji problemlərinin müvəffəqiyyətlə həll edilməsi üçün müəyyənedici əhəmiyyətə malikdir. Yüksək mədəniyyətli insanların keyfiyyətindən və kəmiyyətindən, onların bilikləri, bacarıqları, mütəşəkkilliyindən, mənəviyyatı və yaradıcılıq fəaliyyətindən təkcə cəmiyyətin ekoloji mədəniyyətinin vəziyyəti deyil, həm də cəmiyyətin rifahı, elm və təhsilin, texnika və texnologiyanın, əmək mədəniyyətinin, insan münasibətləri və beynəlxalq münasibətlər mədəniyyətinin inkişaf səviyyəsi, istehsal və idarəetmə nəticələri asılıdır. Zəruri peşəkar biliklərə, vərdişlərə və ümumi mədəniyyətə malik yüksək mədəniyyətli insan milli inkişafın bütün problemlərinin, o cümlədən ekologiya sahəsindəki problemlərin müvəffəqiyyətlə həll edilməsinin başlıca amilidir.

İnsan ekoloji sistemin əsas həlqəsidir. O, təbiətin zirvəsi və mədəniyyətin yaradıcısıdır, ətraf aləmin və özünün ağılla dəyişdirilməsi, Yer kürəsinin resurslarından və həyat imkanlarından rasional istifadəyə görə cavabdehdir. O, ekstrasomatik qabiliyyətlərə sahib olmaqla, öz şüuru vasitəsilə təkcə obyektiv aləmi əks etdirmir, həm də öz həyati tələbatlarını, ağlının imkanlarını, topladığı bilikləri və mənəvi dəyərlərini nəzərə alaraq onu yaradır. Şəxsiyyətin kulturoloji mədəniyyəti insanın ətraf təbiətə, özünə və digər insanlara qayğı ilə, rasional və ahəngdar münasibətini nəzərdə tutur.

Ekoloji mədəniyyətin ən mühüm problemi artan əhalinin çoxalan tələbatları ilə Yer kürəsinin təbii ehtiyatlarının məhdud imkanları arasında antoqonist ziddiyyətin aradan qaldırılması qabiliyyətidir. Yeni çağırışlar şəraitində bu problemin həlli ağlabatan elmi prinsiplər və konkret vəziyyətlə şərtləndirilmiş düzgün qərarlar əsasında ekoloji mədəniyyətin daim təkmilləşdirilməsini tələb edir. Ekoloji mədəniyyətin inkişafı daha çox ekoloji təhsil və maarifləndirmənin keyfiyyətindən, təşkilatların rəhbərlərinin, ətraf mühit və ekoloji təhlükəsizlik sahəsinin mütəxəssislərinin hazırlığından asılıdır.

Beləliklə, müxtəlif ölkələrin ekoloji mədəniyyəti, əsasən, şəxsiyyətin və cəmiyyətin ruhi mədəniyyət səviyyəsindən asılıdır. O, insanların elmi bilikləri, mənəvi dəyərləri, şüuru, əqidəsi, dünyagörüşü, peşəkarlıq səriştəsi, məsuliyyəti və

əmək mədəniyyəti ilə müəyyən edilir. Bunu nəzərə alaraq, mədəni elitanın nümayəndələri davamlı inkişafın ən mühüm əsası kimi, cəmiyyətin yüksək ekoloji mədəniyyəti uğrunda mübarizə aparanların ön sırasında durmalıdırlar.

## Əmək mədəniyyəti

Əmək mədəniyyəti – insan fəaliyyətinin müəyyən sahəsində yüksək məhsuldarlıqlı əməyi təmin edən keyfiyyətdir. O, işçinin vicdanlı əməyini, ümumi və peşəkar biliklərini, vərdişlərini, təcrübəsini, mütəşəkkilliyini, səriştəsini nəzərdə tutur.

Əmək mədəniyyəti əsasən, işçilərin istehsalat problemlərini düzgün başa düşməsi və ətraflı düşünməsindən, onların qətiyyətindən və fədakarlığından asılıdır. İnsanın işə marağının olması, öz üstün cəhətlərini və çatızmazlıqlarını obyektiv görə bilməsi, peşəkar etikası, resursların düzgün istifadəsi, komanda işi və səmərəli əməkdaşlıq böyük əhəmiyyəti kəsb edir.

Yüksək əmək mədəniyyətinin təmin edilməsi üçün müasir texnologiya və avadanlıqları; müəssisənin korporativ mədəniyyətini; işçilərin əməyinin düzgün motivasiyasını; əməyin yüksək məhsuldarlığını və effektiv nəticələrini təmin edən kadrların məqsədyönlü şəkildə peşəkar və kulturoloji hazırlığını və yenidən hazırlığını özündə ehtiva edən əlverişli şərtlər olmalıdır.

Beynəlxalq normalara cavab verən yüksək əmək mədəniyyətinin dəstəklənməsi üçün təşkilatın rəhbərinin yüksək idarəetmə mədəniyyəti, insanlarla işləmək bacarığı, onları dinləmək və qiymətləndirmək qabiliyyəti, onların mədəniyyətini və maraqlarını başa düşüb harmonizasiya etməsi, insanlara peşəkar və sosial yardım göstərməsi çox vacibdir.

***Personalın əmək mədəniyyəti qaydaları***

Prinsiplər:

1. İşdə operativlik və şəffaflıq.
2. Kollektiv üzvləri ilə ünsiyyətdə nəzakət.
3. Tapşırılmış işə görə şəxsi məsuliyyət.
4. Komandada işləmək və tərəfdaşlıq münasibətləri qurmaq bacarığı.
5. Loyallıq və qərəzsizlik.
6. Həmkarların qanuni hüquqlarına, maraqlarına və ləyaqətinə hörmət.
7. Korporativ əməyin əlverişliliyi və rahatlığı.

Vəzifələr:

1. Xidməti vəzifələrin vicdanla yerinə yetirilməsi.
2. Biliklərin daim təkmilləşdirilməsi və əmək vərdişlərinin inkişafı.
3. Əməyin məhsuldarlığının və nəticələrinin artırılması.
4. Etik davranış qaydalarına və təşkilatın mədəni kredosuna əməl etmək.
5. Qanunla nəzərdə tutulmuş tələblərin lazımi səviyyədə yerinə yetirilməsi.

6. Təşkilatın imicinin yüksəldilməsi, rəhbərliyin inamının və gözləntilərinin doğruldulması.

7. Korrupsiyanın, mədəniyyətlərin və maraqların münaqişəsinin qarşısının alınması.

8. Müştəriləri təşkilatın xidmətləri və imkanları haqqında məlumatlandırmaq.

9. Tərəfdaşlar və KİV ilə səmərəli iş.

***Kollektivdə ünsiyyət formaları***

İşçilərin bir-biri ilə və tərəfdaşlarla ünsiyyəti üç formada həyata keçirilir:

1. Şifahi: deyilən sözlərin mənası ilə müəyyən edilən təsir – təsirin 10 %-i.
2. Səsli: səsin tembri, melodikliyi, ritmi ilə göstərilən təsir – 30 %.
3. Vizual: baxış, bədənin plastikası və hərəkətləri, üz ifadələri, davranış tərzi, geyimin təsiri – 60 %.

Kollektiv üzvləri bir-birinin mimika və jestlərini, ümumi emosional vəziyyətini "hesaba almaq" üçün zəruri psixoloji hazırlığa malik olmalı, yəni bu və ya digər hərəkətləri bitirmə hazırlığını-hazır olmadığını tam şəkildə çatdıra bildiyi xüsusi qeyri-şifahi dili başa düşməlidir.

***Əmək mədəniyyətinin və kollektivdə ünsiyyətin beynəlxalq normaları***

1. Ustalıq.
2. Erudisiya.
3. Müəssisənin nüfuzu barədə düşünmək.
4. Tərbiyələndirmə işinin vərdişlərinə sahib olmaq.
5. Təbəssümdən istifadə etmək bacarığı.
6. Xeyirxahlıq və səmimilik.
7. Gülərüzlülük və nəzakət.
8. Xoşrəftarlıq və lütfkarlıq.
9. Təmkinlilik və ədəb.
10. Qayğıkeşlik.

Yüksək əmək məhsuldarlığına, vətəndaşların vətənpərvərliyinə, cəmiyyətin sosial mobilliyinə və siyasi sabitliyinə təkan verən meritokratik mədəniyyətin cəmiyyətdə yayılması əmək mədəniyyətinin inkişafı üçün mühüm əhəmiyyətə malikdir.

## Peşəkar etika

Peşəkar etika – insanların əmək fəaliyyəti prosesində onlar arasında münasibətlərin mənəvi xarakterini təmin edən davranış kodeksidir. Peşəkar etikada mütəxəssisin öz peşə borcunu vicdanla yerinə yetirməsi və insanlara vicdanla xidmət etməsinə görə cəmiyyət qarşısında mənəvi, sosial və siyasi məsuliyyət hissi ifadə olunur. O, peşəkar fəaliyyətin bu və ya digər növləri üçün humanist davranı-

şın əxlaqi tələblərin ümumi xarakteri, bəşəriyyətin mənəvi tərəqqisi ilə şərtləndirilmiş xüsusi normalarıdır. Bunlar əməyin spesifikasına uyğun olaraq konkretləşdirilmiş ümumi əxlaq prinsipləridir.

Peşəkar etika xüsusi əxlaqi məsuliyyət və cəmiyyətin sosial-mədəni həyatına daha çox təsir göstərən ruhi mədəniyyət sahələri ilə bağlı bəzi davranış normalarından irəli gələn peşə borcunun zərurəti ilə şərtlənib. Bu, insan inkişafında və ictimai münasibətlərin tənzimlənməsində əsas rol oynayan pedaqoji, elmi, həkimlik, hüquqi, idarəetmə, bədii, jurnalist, parlament və digər fəaliyyət növlərinə aiddir. Məsələn, siyasətçi və məmurun peşəkar etikası qanunların hərfi və ruhuna sədaqəti, vətəninin milli maraqlarına xidməti, dövlətin nüfuzunun möhkəmləndirilməsi, ölkə vətəndaşların sosial tərəqqisinin, həyat keyfiyyətinin və təhlükəsizliyinin təminatını nəzərdə tutur. O, hadisələr, proseslər, faktlar və insanlar haqqında məlumatın obyektivliyinə, habelə ölkə rəhbərliyi tərəfindən qərarların qəbulu zamanı onların şərh edilməsinə, eynilə də, qəbul edilən siyasi və inzibati qərarların sosial nəticələrinə görə məsuliyyəti əhatə edir. Bürokratların peşəkar etikası həmçinin dövlət qulluqçularının fəaliyyətinin tənzimlənməsini təmin edən mənəvi münasibətləri, “şaquli” və “üfüqi” iş əlaqələrini, müxtəlif strukturlar, şöbələr və ayrı-ayrı məmurlar, rəhbərlər və tabeliyində olanlar, fərqli rütbə və ixtisasların nümayəndələri arasındakı qarşılıqlı əlaqəni özündə birləşdirir.

***Peşəkar etika kodeksi***

- Hər bir həmkar və tərəfdaş hiss etməlidir ki, onu görməyə şaddırlar.
- Səmimi baxış, mehriban təbəssüm işgüzar davranışla bir yerdə dostluq əlaqəsi yaradır və işi asanlaşdırır.
- Diqqətlilik – kollektivdə əlverişli əxlaqi-psixoloji ab-havanın əsas şərtlərindən biridir. Diqqətsizlik – insanlar arasındakı münasibətlərdə ən böyük pislikdir.
- İnsana göstərilən laqeyd, etinasız münasibət qədər heç nə onun psixikasını zədələyə, onu pərt edə və amansızlaşdıra bilməz.
- Özünüzü ələ almağı, səbir və dözüm nümayiş etdirməyi bacarın. Özünüzü qoruyun, heç nəyin sizi həddindən artıq qıcıqlandırmasına icazə verməyin.
- Kobudluğa təmkinlə və nəzakətlə cavab verin.

## Məsuliyyət mədəniyyəti

İnsan münasibətlərinin formalaşmasında, müxtəlif mədəniyyətlərin və xarakterlərin qarşılıqlı əlaqəsində şəxsiyyətin ümumi mədəniyyəti ilə müəyyən edilən məsuliyyət mədəniyyəti mühüm rol oynayır. Məsuliyyət siyasi, vətəndaş, sosial, iqtisadi, milli, ailə, dini və s. ola bilər. Məsuliyyətli insan öz düşüncələrini, əməllərini və işlərini mütləq şəkildə şüurunun nəzarəti altında saxlayır. Hər bir insan üçün bəlkə də ən önəmlisi – sosial məsuliyyətdir. Sosial məsuliyyət etika tələblərinin digər insanlara, kollektivin, cəmiyyətin və ya dövlətin maraqlarına münasibətdə

vəzifə hissinin və onun öhdəliklərinin qiymətləndirilməsi əsasında şəxsiyyətin qərar və hərəkətlərini tənzimləmək məqsədi daşıyır. İnsanın məsuliyyəti həm də onun davranışının, fəaliyyət prinsiplərinin, meyarlarının və nəticələrinin fərdlər, kollektiv və ya cəmiyyət tərəfindən ümumi qəbul olunmuş mədəni dəyərlər və ictimaiyyətə faydalı nailiyyətlərin önəmi nöqteyi-nəzərindən qiymətləndirilməsi imkanlarından asılı olaraq formalaşır. Məsuliyyət mədəniyyəti kollektivdə insanların davranış və fəaliyyətini tənzimləyən qarşılıqlı münasibətləri dəstəkləmək imkanı verir. Bu münasibətlər həm etik, həm də hüquqi səciyyə daşıya bilər.

Məsuliyyət mədəniyyəti idarəetmə mədəniyyətinin ən mühüm göstəricilərindən biridir. Dövlət idarəçiliyi sistemində məsuliyyətin yüksək əhəmiyyət daşıması onunla əlaqəlidir ki, böyük səlahiyyətlərə və imkanlara malik, siyasi və ya inzibati qərarlar qəbul edən rəhbərlərin fərdi məsuliyyəti – ayrı-ayrı insanların taleyinə, cəmiyyətin inkişafına və dövlətin təhlükəsizliyinə çox böyük və uzunmüddətli təsir göstərən amildir. Rəhbərlər idarəetmənin inkişafında əldən verilmiş imkanlara, istifadə edilməyən ehtiyatlara və resurslara, cəmiyyətə və dövlətə bərpası mümkün olmayan sosial və siyasi zərər vuran yanlış qərarlara görə bütün məsuliyyəti (həm siyasi, həm də mənəvi) daşıyırlar. Bununla yanaşı, kollegial orqanlarda da verilən tapşırıqların yerinə yetirilməsinə görə fərdi məsuliyyət qaydası müəyyən edilməlidir, hər kəs məhz öz işlərinə görə cavab verməlidir. Məsuliyyətli siyasi iş olan dövlət idarəçilik prosesini yalnız etik mədəniyyətin prinsip və normalarını və ölkənin qüvvədə olan qanunlarını şüurlu şəkildə pozmağa yol verməyən layiqli insanlar apara bilər.

## AİLƏ MƏDƏNİYYƏTİ

Ailə bütün dünyada yüksək mədəniyyətli insanların formalaşdırılmasının birinci və əsas pilləsidir. Yüksək ruhi mədəniyyətə malik şəxsiyyətin və vətəndaşın yetişməsində sosial mühit – məktəb və müəllimlər, ali məktəb və iş kollektivi, cəmiyyət, dövlətin siyasi rejimi böyük rol oynayır. Amma bu prosesdə həlledici rol ailəyə məxsusdur. Ailənin ruhi mədəniyyəti onun üzvlərinin anadangəlmə keyfiyyətlərindən, təhsilliliyindən və yaradıcı əməyindən, onların bilikləri və mənəviyyatından, ağlı və vicdanı, sevgi, iman, bir-birinə və ətrafdakılara münasibətdə xeyirxahlığından ibarətdir.

### *Ailə mədəniyyətinin şəxsiyyət və cəmiyyət üçün əhəmiyyəti haqqında*

İnsan həyatını mühafizə etmək və yaxşılaşdırmağın qeydinə qalaraq, yaradıcı fəaliyyəti nəticəsində alətlər və silah, əkinçilik və maldarlığı yaratdı, odu, istehsalı, dili, ailəni, cəmiyyəti və dövləti “kəşf edib” öz ehtiyacları üçün istifadə etdi.

Mədəni inkişafın tarixi prosesində insan həyatının təşkili, inkişafı və varisliyi üsulu olan *ailənin yaradılması böyük əhəmiyyətə malik idi*. Ailə ilk sivilizasiyaların əsasını qoymuş bəşəriyyətin ilkin dövlətlərinin timsalıdır. İnsanların sosial təcrübəsi nəsildən-nəslə keçərək həyat məktəbi olurdu ki, ondan müxtəlif xalqların və millətlərin nümayəndələri ənənələr, ideologiyalar, dini təsəvvürlər, dəyərlər, həyat fəaliyyəti məqsədləri və texnologiyalarını məsimsəyirdilər. Pifaqor həyatı olimpiya oyunlarında bəzilərinin şöhrət, digərlərinin – gəlir, kimilərinin isə – öz həyatını daha ağıllı qurmaq üçün təcrübə axtardığı, böyük və qələbəlik yığıncaqla müqayisə edirdi. İnsan çox sayda müxtəlif xarakter, adət, tale, qanun, mədəniyyət və sivilizasiyanı təhlil edərək öz idrakını təkmilləşdirir, həyat fəlsəfəsini formalaşdırır, həyat yolunu seçirdi. Mişel Monten deyirdi ki, dünya – insanın özünü tanımaq üçün baxmalı olduğu güzgüdür. Bu yanaşma ailəyə münasibətdə də doğrudur.

Məlum olduğu kimi, mədəniyyətin inkişaf amilləri anadangəlmə mədəni keyfiyyətlər, sosial mühit, təbii-coğrafi şərait, tarixi vəziyyət və mədəni mübadilədir. İnsanın mədəniyyətinin formalaşması anasının bətnində başlayır və ailədə davam edir. *Ailə* – təlim və tərbiyə prosesində uşağın yetişdirildiyi sosial mühitin birinci və bəlkə də ən mühüm pilləsidir. Məhz burada onun gələcək həyatının bünövrəsi qoyulur, dəyərləri və təsəvvürləri, xasiyyəti və idealları, intellektual, etik və estetik mədəniyyətinin əsasları formalaşır. *Ailə* – ilk həyat məktəbi, insan münasibətləri məktəbi, ruhi və maddi mədəniyyət məktəbi, Con Lokkun birinci və ən xoş məziyyət adlandırdığı nəzakət məktəbidir.

*Ailə* – fərqli yaş və cinsdən olan doğma insanların kiçik qrupu, həyati məna daşıyan şəxsiyyətlərarası ünsiyyətin baş verdiyi "kiçik kollektiv"dir. Bu, ruhən yaxın, doğma, vahid dünyagörüşü və ali məqsədlərlə birləşmiş, öz həyatlarının övladları və nəvələri tərəfindən davam etdirilməsi, onların rifahı və ən yaxşı gələcəyi qayğısı ilə motivləşmiş insanların sevgi, dostluq, həmrəylik və birgə dərk edilən həyat məbədidir. Uşaq ailədə ilk addımlarını atır, nitqə yiyələnir, başlanğıc biliklər və davranış qaydalarını mənimsəyir, ilk həyat dərslərini alır.

Ailə – cəmiyyətin və dövlətin ən vacib sosial dəyəridir. O, insanın yetişməsi və inkişafı proseslərinin baş verdiyi, başqa insanların həyatının asılı olacağı gələcək liderlərin və cəmiyyətin vətəndaşlarının formalaşdığı kiçik və böyük insan aləmidir. Ailə nəsildən-nəslə ötürülən "yazılmamış" qanunları, hökm və göstərişləri "translyasiya" edir, onların həyatda qalmasını, şəxsiyyətin psixologiyasının və davranışının formalaşmasına təsir gücünü təmin edir. Anadangəlmə keyfiyyətlərin və qazanılmış biliklərin, tərbiyə və yaradıcı əməyin nəticəsi olan şəxsiyyətin ruhi mədəniyyətinin əsası məhz ailədə qoyulur. Dövlətin həyat qabiliyyəti bir çox cəhətdən ailə mədəniyyətindən – onun üzvlərinin təhsil səviyyəsi və etik mədəniyyəti, yaradıcı fəaliyyəti və rifahından asılıdır. Bu ən dəyərli sosial kapital özündə elm və mənəviyyat, ağıl və vicdan, sevgi, iman və xeyirxahlıq, yaradıcılıq və vətəndaşların rifahını təcəssüm etdirməklə, sosial müsibət və sosial qeyri-sabitliyin aradan qaldırılmasında əvəzolunmaz vasitədir. Ailə mədəniyyəti

valideynlərin şəxsiyyət mədəniyyətindən, onların bilik, bacarıq, mütəşəkkillik səviyyəsindən, həyat fəlsəfəsindən, mənəviyyatından və yaradıcı fəaliyyətindən asılı olduğu kimi, adətlərdən, ənənələrdən, milli psixologiyadan, xalqın dinlərindən də asılıdır.

Necə xoşbəxt olmaq olar? İnsan üçün həyatda bəlkə də ən vacib şey xoşbəxtlik və ilk növbədə ailə xoşbəxtliyidir. Xoşbəxt ailəni dostluq və sevgi hissi olmadan təsəvvür etmək çətindir. Ailə üzvləri yaxşı münasibətlərin, qarşılıqlı anlayışın və ahəngdar inkişafın formalaşdırılması üçün ilkin zəmin hazırlayırlar. Həqiqi dostluq və əsl məhəbbət kimi, ailə xoşbəxtliyini də pul ilə almaq mümkün deyil. Onu ancaq yaratmaq, özünün və ailə üzvlərinin birgə əməyi ilə qurmaq, ağıl və qəlb, ruhi mədəniyyət, sevgi ilə qazanmaq olar. Övladlarını, yaxınlarını xoşbəxt etmədən, ailə həyatında ruhi harmoniyaya nail olmadan insan özü xoşbəxt ola bilməz.

*Ailə*, bir sistem kimi, münasibətlərin geniş spektri ilə bağlıdır. Bu, valideynlər arasında münasibətlər, uşaqlar arasında münasibətlər, valideynlər ilə uşaqlar arasında münasibətlər, bir ailə çərçivəsindəki müxtəlif nəslin nümayəndələri (ömür uzunluğundan asılı olaraq bura ulu baba və ulu nənələr də daxildir) arasında münasibətlərdir. Daha geniş kontekstdə bu həm də ailənin qohumlarla münasibətidir. Ailənin və onu təşkil edən şəxsiyyətlərin qarşılıqlı əlaqələri mürəkkəb bir sistemdir, onu dərk etmədən ailə münasibətlərini idarə etmək mümkün deyil. Ailə bağlarını möhkəmləndirən amillər sırasında mədəni dəyərlər sisteminin varisliyini, ailənin mənası və məqsədləri, uşaqların tərbiyəsinə yanaşmalar, həyat yoldaşlarının rolu, məsuliyyəti və vəzifələri haqqında baxışların və təsəvvürlərin üst-üstə düşməsi, həyat yoldaşlarının emosional uyğunluğunu və s. sadalamaq olar. Hər bir mədəni ailə dəyərlər və insan həyatının mənası, əcdadlarının nailiyyətləri və cəmiyyət qarşısında xidmətləri, özünün tarixi missiyası, məqsədləri, imkanları və gözləntiləri, uğurlu keçmişi, övladlarının və yeni nəsillərin layiqli gələcəyi haqqında dəqiq təsəvvürə malik olmalıdır. Müasir ailənin rifahı bir çox cəhətdən ailənin xarici mühitlə – yaşadığı və çoxsaylı görünməz tellərlə bağlandığı cəmiyyətlə qarşılıqlı əlaqəsindən asılıdır. Ailə beynəlxalq münasibətlərin qeyri-formal subyekti kimi millətin və yaşadığı dövlətin imicinə təsir göstərir. O, üzvlərinin sosial-siyasi fəallıq səviyyəsindən asılı olaraq, xalqların qarşılıqlı anlaşması, həmrəyliyi və əməkdaşlığının artması üçün əlverişli xarici mühitin formalaşmasına kömək edərək, beynəlxalq münasibətlər mədəniyyətinə də təsir göstərə bilər.

### *Ailənin davranış mədəniyyəti və etik kodeksi*

Məlum olduğu kimi, insanın ailədəki davranış mədəniyyəti onun intellektual və mənəvi mədəniyyəti, onun reallığa münasibəti sistemi, hər şeydən əvvəl, ətrafdakı insanlara münasibəti ilə müəyyən olunur. Ailə – insan qəlbinin qorunub saxlandığı ocaqdır. Ona görə məhz ailədə qarşılıqlı anlaşma, ailənin hər bir üzvü-

nü narahat edən problemlərin müzakirəsi və həlli çox vacibdir. O zaman bizi başa düşən başqa insanlar, dostlar, qohumlar axtarmağa ehtiyac olmayacaq, ailədən uzaqlaşmaq üçün zəmin yaranmayacaq.

Ailədə davranış şəxsiyyətin daxili mədəniyyətini, onun xasiyyətini, temperamentini, tələbatlarını, istəklərini, dünyagörüşünü, etik prinsiplərini, emosiya və hislərini, əhval-ruhiyyəsini əks etdirir. Bu münasibətin meyarı sevgi, insanlıq, humanizmdir. Mədəni insan pis əhval-ruhiyyəsini nümayiş etdirməməli, ailə üzvlərini öz qayğıları və əndişələri ilə yükləməməli və ya tez-tez dəyişən emosiyaları ilə yormamalıdır. O, təkcə hərəkətlərinə deyil, həm də ailə üzvlərinə və özünə böyük təsir göstərən sözlərinə fikir verməlidir. Xeyir söz və xeyir əməl, səmimiyyət, valideynləri, qardaşları, bacıları, övladları və ailənin digər üzvlərini dinləmək bacarığı müsbət ailə münasibətlərini formalaşdırmağın ən yaxşı üsuludur. Eyni zamanda etik normaları və ailədə davranış qaydalarını bilmək azdır, onlara real həyatda daim əməl etmək lazımdır. Çalışmaq lazımdır ki, bu norma və qaydalar təsadüfi xarakter daşımasın, bütün ailə üzvlərinin həyatına kömək edən şəxsi keyfiyyətlərə çevrilsin.

Ailə üzvlərində çatışmazlıqlar deyil, müsbət cəhətlər axtarmaq və onları stimullaşdırmağa cəhd etmək lazımdır. Doğma insanı başa düşmək və onun haqqında düzgün mühakimə yürütmək üçün onun hərəkətlərinin və ya münasibətinin səbəblərini axtarmaq, davranışında rəhbər tutduğu motivlərə diqqət yetirmək vacibdir. Eyni zamanda özünə də kənardan baxmaq, öz xasiyyətini, vicdanını, dəyərlər sistemini, mühakimələrini, niyyətlərini və əməllərini obyektiv qiymətləndirmək heç də az əhəmiyyət kəsb etmir. Bütövlükdə cəmiyyətdə olduğu kimi, ailədə də insanın hərəkətləri yaxşı düşünülmüş olmalı, ölçü, həssaslıq və müdriklik ilə fərqlənməlidir, çünki onlar müəyyən nəticələrə gətirib çıxarır. Bu səbəbdən cəhd etmək lazımdır ki, onlar həm ailə üzvləri, həm də insanın özü üçün yaxşı nəticələnsin, müsbət əhval-ruhiyyə, sevinc və ilham mənbəyi olsun. Vicdan, sevgi, humanizm, xeyir, borc hissi, ədalət, şərəf kimi mənəvi kateqoriyalar apriori səciyyə daşıyır, vaxt keçdikcə və ya şəraitdən asılı olaraq dəyişmirlər. Onlar insanın daxili əqidəsinə və keyfiyyətlərinə çevrilərək, böhranlı şəraitlərdə və ya çətin vəziyyətlərdə özünü göstərməklə, ailənin ruhi mədəniyyətinin güclü mənəvi amili olurlar.

Beləliklə, ailənin möhkəmliyi və firavanlığı bir çox cəhətdən onun etik mədəniyyətindən, onun üzvlərinin davranış kodeksinin əsaslandığı mənəvi prinsiplərdən və ənənələrdən asılıdır. Yüksək mənəvi prinsiplər əsasında yaşayan Azərbaycan ailəsinin mədəniyyətinin tipik göstəriciləri böyüklərə hörmət, uşaqlara məhəbbət, həmrəylik, qarşılıqlı yardım, sədaqət, səbir, sevgi, dostluq, qonaqpərvərlikdir. *Ailənin etik kodeksi* onun hər bir üzvünə öhdəliklər verir:

1. Ailənin ruhi rahatlığı, maddi rifahı və mənəvi prestijinin dəstəklənməsi üçün zəruri səy göstərmək.
2. Ailənin və şəxsiyyətin yüksək ruhi mədəniyyət prinsiplərinə sadiqliyi tanış olmayan və yad adamlara loyallıqdan üstün tutmaq.

3. Dürüstlük, ədalət və xeyirxahlıq, böyüklərə hörmət və uşaqlara məhəbbət, yaşlılara, uşaqlara və əlillərə qayğı kimi keyfiyyətləri nəzərdə tutan yüksək mənəvi prinsiplərə əməl etmək.

4. Ailənin maraqlarının prioritetliyini yadda saxlayaraq, öz maraqlarını ailənin maraqları ilə ahəngdar birləşdirmək.

5. Ailə üzvləri və dostların etibarını yüksək qiymətləndirmək və doğrultmaq.

6. Daim sevgi, dostluq və sədaqət, inam və səbir, hörmət, məsuliyyət və dürüstlük, ailə üzvlərinin sağlamlığına qayğı göstərmək.

7. Özünü təkmilləşdirməyə, çatışmazlıqlarını müsbət keyfiyyətlərə dəyişməyə can atmaq, özündə müsbət xasiyyət formalaşdırmaq, güzəştə getmək bacarığı, vicdan, əxlaq, dürüstlük kimi keyfiyyətləri tərbiyə etmək.

8. Daim öz hərəkətlərini şüuru vasitəsilə nəzarətdə saxlamaq – ətrafdakılara pislik etməmək, ailədə sağlam və sevindirici psixoloji atmosferin formalaşmasına yardım göstərmək.

9. Qonşular, iş yoldaşları, tanışlar və dostlarla mehriban münasibət qurmaq.

10. Qanunun aliliyinə riayət etmək, cəmiyyət üzvlərinə və legitim hakimiyyətə hörmətlə yanaşmaq, dövlət rəmzlərinə hörmət etmək.

Hər bir ailənin etik kodeksi ideal halda təkcə ailə dəyərlərini deyil, həm də milli və ümumbəşəri mədəni dəyərləri əks etdirməli, özündə bəşəriyyətin vətənpərvər və humanist ideallarını uyğunlaşdırmalıdır.

### *Ər-arvadın qarşılıqlı münasibətlər mədəniyyəti haqqında*

Uşaqların tərbiyəsi üçün ər-arvadın ailədəki davranışı başlıca əhəmiyyətə malikdir. Ailə xoşbəxtliyi və nikahın davamlılığının vacib şərti ər-arvadın mədəni və psixoloji uyğunluğu, bir-birinin xasiyyətinə bələd olma, qarşılıqlı anlaşma, sevgi, onlar arasında mənəvi münasibətləri tənzimləyən yüksək ünsiyyət mədəniyyətidir. Ailə həyatında hər şey qarşılıqlı münasibətlər üzərində qurulur. Ailədə psixoloji ab-hava ondan asılıdır. İnsan hisləri və münasibətlərinin ahəngi ailə xoşbəxtliyinin əsası olduğu halda, mədəni uyğunsuzluq ailədə anlaşılmazlığın, ixtilafın, bəzən isə onun dağılmasının səbəbidir. Belə uyğunsuzluğun aradan qaldırıla bilən səbəblərindən biri öz günahsızlığı barədə şişirdilmiş təsəvvür ola bilər. Fransız yazıçısı Andre Morua qeyd edirdi ki, “hər kəs əmindir ki, başqaları onu mühakimə edərkən səhv edir və özü başqalarını mühakimə edərkən səhv etmir”. Münasibətlər bayram əhval-ruhiyyəsi daşımalı, məhəbbət, qarşılıqlı hörmət, inam, dostluq üzərində qurulmalı, soyuqluqdan və qıcıqlanmadan uzaq olmalıdır. Pozitiv ailə etikasını nümayiş etdirən diqqət, qayğı, razılıq və qarşılıqlı dəstək olmadan ər-arvadın məhəbbətini və bir-birinə bağlılığını təsəvvür etmək çətindir. Pol Holbax deyirdi ki, ətrafdakıların bağlılığını, məhəbbət və hörmətini, köməyini öz mənəvi münasibəti, onların rifahı naminə qayğısı ilə qazanmaq lazımdır. Ər-arvadın yüksək mədəniyyəti, birmənalı qiymətləndirmənin çətin olduğu məhəbbət

və qısqanclıq kimi ikili, ambivalent (nəyəsə ikitərəfli münasibət) kateqoriyaları tənzimləməyə imkan verir.

Ailə münasibətlərində daimi qarşılıqlı qiymətləndirmələr böyük rol oynayır. Ər-arvad arasındakı münasibətlər, əsas etibarilə, qarşılıqlı keyfiyyət qiymətləndirməsinin ədalətliliyi, səmimiliyi və nəzakətindən, bir-birinin əhəmiyyətinin və nailiyyətlərinin etirafından asılıdır. Əgər ər və arvad bir-birinin tələblərini, gözləntilərini, arzu və ümidlərini başa düşmür və ya lazımi qədər qiymətləndirmirlərsə, qarşılıqlı narazılıq, laqeydlik, soyuqluq və hətta ayrılmaq riski yaradırlar.

Şübhəsiz, ər-arvad arasında şəxsiyyətlərarası ahəngə nail olmaq üçün şəxsiyyətin *temperament* kimi anadangəlmə xüsusiyyətini də nəzərə almaq lazımdır. Müxtəlif temperamentli insanlarda xarakter xüsusiyyətləri özünü fərqli şəkildə göstərir. Temperamentə və xarakterə bələd olma anlaşılmazlıqlardan və ixtilaflardan xilas olmağa kömək edir. Orqanizmin xüsusiyyətlərindən, ali sinir sisteminin fəaliyyətindən asılı olaraq, insanları şərti şəkildə fleqmatiklərə, melanxoliklərə, xoleriklərə və sanqviniklərə ayırırlar. Real həyatda, bir qayda olaraq, onlardan birinin üstünlüyü ilə müxtəlif növlərin birləşməsi müşahidə edilir. Psixoloq V.S. Merlin temperament xüsusiyyətlərinin insanın psixi həyat dinamikasına təsirini göstərərək, iki çayın – sakit düzənlik və sürətli dağ çayının obrazlı müqayisəsini verir. Bu iki fərqli (bununla belə, xaraktercə eyni) çayın bir-birinə qarışması burulğanlar və şəlalələr əmələ gətirərək müxtəlif cür nəticələnə bilər, çünki onların hər biri öz dəyərini və özünəməxsusluğunu qorumağa çalışır.

Ər-arvadın bir-birindən daxili narazılığının, mümkün qarşılıqlı münaqişələrin aradan qaldırılmasına öz rollarını düzgün dərk etməsi, yoldaşının niyyətləri, planları və işləri haqqında məlumatlı olması, maraqlarının harmonizasiyası kömək edir. Ailə üzvlərinin psixologiyasını, xarakter xüsusiyyətlərini, hislərini və ideallarını yaxşı bilmə, onların daxili aləmini görmə – münaqişələrdən yaxa qurtarmağa və xilasedici qarşılıqlı anlaşmaya nail olmağa kömək edər.

Möhkəm və firavan ailənin vacib şərti – səmimiyyət, diqqət, qayğı, razılıq, qarşılıqlı dəstək və ər-arvadın sevgi və qarşılıqlı bağlılığını təsdiqləyən digər amillərdir. Onlar yaxşı qarşılıqlı münasibətlərin, qarşılıqlı anlaşma və əməkdaşlığın formalaşdırılması üçün zəmin yaradırlar. İnsanın başqa insana əsl münasibətini sözlərinə görə yox, davranışına, işlərinə, əməllərinə, konkret hərəkətlərinə və real nəticələrə görə müəyyənləşdirmək olar. İnsanın davranışında həmişə ölçü hissi və nəzakət olmalıdır. Ailədə yaxşı münasibətlərin saxlanması üçün ağlabatan dərəcədə fədakarlıqlar da lazımdır.

### *Uşaqların təhsili – təlim və tərbiyəsi haqqında*

Uşağın mədəniyyətinin təhsil (təlim və tərbiyə) əsasında formalaşdırılması ailədə başlayır. Uşağın anadangəlmə mədəni keyfiyyətləri bir neçə nəslin düzgün təhsili ənənələrinə əsaslanan uzunmüddətli təkamülün nəticəsidir. Bu keyfiyyətlər

vaxt keçdikcə genetik səviyyəyə keçir və insanın müəyyən qabiliyyətlərində, psixologiyasında, mədəni keyfiyyətlərində və sosial etikasında ifadə olunur.

Düzgün tərbiyə – doğmalara hörmət, dürüstlük, təvazökarlıq, qarşılıqlı yardım hissi, şərlə barışmazlıq, ailənin digər üzvlərinin zərərinə azadlıqdan sui-istifadə edilməsinin və şəxsi münasibətlərdə humanizm prinsiplərinin pozulmasının qəbuledilməzliyini nəzərdə tutur. Ailə uşaqlara etimad göstərməli, onların həyat fəaliyyətinə nəzarəti həyata keçirməli, uşaqlarda gözəllik hissini və insanlara sevgini, yüksək etik mədəniyyəti, məntiqi təfəkkürü, hadisələri, faktları və insanları tənqidi təhlil etmək qabiliyyətini formalaşdırmalıdır.

Erkən yaşlarından uşaqlarda böyüklərə hörməti, uşaqlara məhəbbəti, əməyə sevgini, qonaqpərvərliyi, şəxsiyyətə hörməti, dürüstlüyü, intellektual, mənəvi və peşəkar təkmilləşməyə daimi ehtiyacı, məsuliyyət mədəniyyətini, vaxtı səmərəli idarə etmək bacarığını formalaşdırmaq lazımdır.

Ailənin strateji məqsədlərindən biri – uşaqların hər bir millətin insan kapitalını təşkil edən, yaxşı biliklərə və pozitiv mənəviyyata malik alicənab, yüksək mədəniyyətli şəxsiyyətlər və layiqli vətəndaşlar kimi təşəkkülü və inkişafını təmin edən təlim-tərbiyəsidir. Hələ XI əsrdə Təbəristan mütəfəkkiri Key Kavus müsəlman əsilzadə mədəniyyətinin tanınmış abidəsi olan "Qabusnamə" əsərində belə yazırdı: "Böyüklük ağılda və bilikdədir... nəsildə və əsildə deyil...şəxsi ad-san irsən keçəndən daha yaxşıdır...hörmət ağıla və təhsilə görədir, əsilə-nəsilə görə deyil". Uşaqlarda ruhi əsilzadəlik və alicənablıq tərbiyə edərək, onları milli və ümumbəşəri dəyərlərə cəlb edərək, onlarda daim özünü təkmilləşdirməyə həvəs formalaşdıraraq, biz onları "yüksək mənəvi mədəniyyət məbədinə" aparır, şüurunu idarə etməyə, özünəinamlı və cəmiyyətə yararlı, müstəqil şəxsiyyətlər olmasına kömək edirik. Lev Tolstoy uşaqlara münasibətdə valideynlərin doğruluğunu, dürüstlüyünü və səmimiliyini yüksək qiymətləndirir, bu mənəvi mövqeyi yeganə düzgün tərbiyə üsulu hesab edirdi.

Ailənin təlim və tərbiyəsi uşağın şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Uşaq körpə yaşlarından ailəsinin sosial-mədəni mühitində olur, ondan mədəni ənənələr, ünsiyyət və davranış üsulları, baxışlar və düşüncə stereotipləri, düşüncələr, təsəvvürlər, böyüklərin təlqinləri və əxlaq normalarını mənimsəyir. Uşaq həyatının ilk addımlarından, hələ bunu dərk etmədən, təqlid yolu ilə böyüklərin həyat fəaliyyəti nümunələrini, ailədə bünövrəsi qoyulmuş dəyərləri və yazılmamış qanunları, onların təcrübəsini, tərzlərini və texnologiyalarını mənimsəyir. Beləliklə, ailə bilərəkdən və bilmədən uşaqlarda valideynlərinin davranış və münasibət nümunələrinin formalaşmasına səbəb olur. Yaş artdıqca bu proses tədricən genişlənir, makro – və mikromühit səviyyəsində, yəni ailədə, məktəbəqədər müəssisələrdə, müxtəlif səviyyəli məktəblərdə təlim vasitəsilə insanı əhatə edən aləm haqqında yeni biliklərin şüurlu surətdə mənimsənilməsinə keçir. Bununla bərabər, uşağın davranışına, insanları qiymətləndirməsinə, ətrafdakılara münasibətdə mövqeyini seçməsinə anadangəlmə mədəni keyfiyyətlər ciddi təsir göstərir.

Uşaqların təhsilinə yalnız Qərbdə deyil, Şərqdə də həmişə böyük diqqət ayrılıb. Yüksək mədəniyyətli insanların formalaşdırılması üçün nəcib tərbiyənin yüksək dəyərini qeyd edən Key Kavus bilikləri “qazanılmış nəciblik” adlandıraraq, onlara xüsusi əhəmiyyət verirdi. O, ruhi mədəniyyətin hər iki qanadının ahəngdar inkişafında uşaqların təlim və tərbiyəsinin əvəzolunmaz rolunu dərk edərək, vurğulayırdı: “...əgər ağac əyri bitib və budaqları əyri boy atıbsa, onu ancaq mişarlamaq və yonmaqla düzəltmək olar”. Key Kavus orta əsrlər cəmiyyətində yüksək ruhi mədəniyyətə lazımınca qiymət verilmədiyini müşahidə edərək yazırdı: “Bəxtinin dönüklüyündə bizi danlayanlara de: məgər tale qiyməti yüksək olandan başqa kimsə ilə çarpışırmı? ... göydə ulduzlar var, onların sayı-hesabı yoxdur, amma tutulma yalnız günəşdə və ayda olur!”

Görkəmli tarixi şəxsiyyətlərin, dünya mədəniyyəti və sivilizasiyasının klassiklərinin, eləcə də tanınmış müasir mütəxəssislərin konsepsiya və yanaşmaları *ailə mədəniyyəti* məsələlərini başa düşməyə kömək edir, onların əsərlərində ailənin təşkili və idarə edilməsi üçün metodoloji baxımdan vacib prinsiplər yer alır. Məhəmməd Nəsrəddin Tusiyə görə, ailənin qurulması əməklə, ictimai-iqtisadi amillərlə sıx bağlıdır. Onun strukturu beş sütun əsasında formalaşır: ata, ana, uşaqlar, xidmətçilər, azuqə. Eyni zamanda Tusi ailə üzvləri arasında ahəngdar münasibəti ailənin başlıca mahiyyəti və əsası hesab edir, ailənin təminatı və idarə edilməsini isə insanı sağaldan həkimliklə müqayisə edərək, ona görə məsuliyyəti ailə başçısının daşıdığını vurğulayırdı. Ailə mədəniyyəti ailənin maraqlarının onun ayrı-ayrı üzvlərinin maraqlarından üstün olmasını, düzgün əmək bölgüsünü, möhkəm nizam-intizamı, maddi rifahı, etibarlı yuvanın varlığını nəzərdə tutur. Ailə idarəetməsində ən vacib iqtisadi məsələlər – halal əməklə qazanılmış gəlirlər, pul yığmaq, istehsal hesabına mülkiyyətin qorunması, düzgün istehlak və xərclərdir.

Orta əsrlər feodal cəmiyyətinin reallıqları ondan ibarət idi ki, istedadlı şəxsiyyətlərin və onların ailələrinin rifahı bütövlükdə və tamamilə biliklərindən, bacarıqlarından və vətəni qarşısındakı şəxsi xidmətlərindən deyil, hakimiyyətin onlara münasibətindən asılı idi. Cordano Bruno, Rocer Bekon, Kopernik, Qaliley və bir çox başqa orta əsr alimlərinin taleyini xatırlamaq kifayətdir. Analoji vəziyyət müsəlman Şərqində də mövcud idi. A.Y. Krımski qeyd edir ki, XI əsrdə həmin regionda yaşayan məşhur şəxsiyyətlərin rifahı əvvəlcə Qəznəvi, sonra isə Səlcuq hakimiyyətinin onlara münasibətindən asılı olmuşdur. Müasir demokratik cəmiyyətlərdə şəxsiyyətin və ailənin rifahı ən çox insanın mədəniyyətindən, biliklərindən, bacarıqlarından, onun cəmiyyət və dövlət üçün tələb edilənlik və faydalılıq dərəcəsindən asılıdır. Demokratiya mədəniyyəti şəraitində vəzifə hakimiyyəti deyil, şəxsiyyətin mədəniyyəti və onun biliklərinin hakimiyyəti həlledici rol oynayır.

Nəsrəddin Tusi uşaqların düzgün təminatı və tərbiyəsini ailənin başlıca vəzifəsi hesab edir. Dahi humanist *uşaqlara* böyük həssaslıq və diqqət göstərməyi, pis hərəkətlərinin vaxtında qarşısını almağı və pozitiv hərəkətləri təşviq edərək, sonuncuları ənənəyə çevirməyə cəhd etməyi məsləhət görürdü. O hesab edir ki, insanın taleyi onun südəmər dövründən başlayaraq, uşaqlıqda aldığı tərbiyədən

çox asılıdır. Tusinin qənaətinə görə, uşağın təşəbbüsünü məhdudlaşdırmadan, hər şeydən əvvəl, uşaqlarda xasiyyətin nəcibliyini formalaşdırmağa imkan verən həya hissini təbiyə etmək, həmçinin uşağın istedadının erkən aşkar edilməsi və inkişafına xüsusi diqqət yetirmək lazımdır. Uşaqlara ilk növbədə insan cəmiyyətində yaşamaq üçün tələb olunan ən vacib dəyərləri öyrətmək lazımdır. Bunlar ünsiyyət mədəniyyəti, dostluq, sevgi, səmimiyyət, xeyirxahlıq, qarşılıqlı yardım, valideynlərə, qohumlara, dostlara və qonşulara hörmətdir.

Alim uşaqları pis təsirdən, onların tərbiyəsinə zərər vura biləcək mədəniyyətsiz insanlarla ünsiyyətdən, əşyaçılıq, avaraçılıq, veyillik və acgözlülük, aldatma və həqiqəti gizlətmə meyillərindən qorumağı, onları bahalı geyimlər, layiq olmadıqları tərif və pul mükafatları ilə ərköyünləşdirməməyi zəruri hesab edir. Bu məqsədlə uşağa hər şeyi: insanlar arasında, yaşıdları ilə, böyüklərlə özünü necə aparmağı, nə vaxt və necə danışmaq lazım olduğunu izah etmək lazımdır. Uşaqların tərbiyəçilərini düzgün – ağıllı, əxlaqlı, nəzakətli, ədalətli, etika normalarını və uşaq psixologiyasının xüsusiyyətlərini bilən insanlar arasından seçmək də vacibdir. Bu tələblərə uyğun gəlməyən tərbiyəçi uşağı mənən şikəst edə bilər. Tusi uşaqlara erkən yaşlardan əməyə, doğruluğa, biliyə və faydalı peşələrə, xeyirxahlığa və başqalarına köməyə sevgi, yalana, böhtana, tənbəlliyə, caniliyə, başqasının kədərinə laqeydliyə, eqoizmə, özündən müştəbehliyə və lovğalığa nifrət aşılamağı məsləhət görür. Uşaqlarda intellektual mədəniyyətə, gerçəkliyi anlamağa kömək edən məntiqi təfəkkürə marağı mümkün olduğu qədər tez aşılamağı, onlara diqqət və mehribanlıq göstərməyi, uşaqlarda nəciblik və səmimiliyi, müdrikliyə və yaxşılığa can atmaq həvəsini tərbiyə etməyi, onlara yüksək mədəniyyətin və layiqli davranışın üstünlüklərini izah etməyi də tövsiyə edir.

Tusi deyir ki, valideynlər tərbiyədə səhvlərə, əvvəldən yaxşı olan cəhətlərin pozulmasına yol verməməyə, övladlarının yaradıcı qabiliyyətlərini və mənəvi keyfiyyətlərini aşkara çıxarıb effektiv inkişaf etdirməyə çalışmalıdırlar, çünki onların şəxsiyyət kimi yetişməsi, özünü təkmilləşdirməsi və xoşbəxtliyə nail olması imkanları bundan asılı olacaqdır. Uşaqların tərbiyəsindəki səhvlərin qarşısını almaq bu səhvləri düzəltməkdən daha asandır, çünki onlar əldən verilmiş imkanların dönməzliyinə səbəb ola bilər. Uşağın tərbiyəsini onun əsassız tələblərinə göz yummaqla başlı-başına buraxmaq olmaz. Nəcib xasiyyətli, ədalətli, zəhmətkeş, yaradıcı təbiətli, humanist və möhkəm iradəli gələcək şəxsiyyətin pozitiv bünövrəsini qoyaraq uşağın enerjisini lazımi məcraya yönləndirmək lazımdır.

Uşaq tərbiyəsinin zəruri şərti mənəvi əqidələrin, normaların, prinsiplərin və ideallarін, vərdişlərin və tələbatların düzgün formalaşdırılmasıdır. Ailə tərbiyəsi prosesində uşaqları, əsasını ruhi qəhrəmanlığın, bəşəriyyətin əqli və mənəvi inkişafının təşkil etdiyi məhsuldar təfəkkürə, etik davranışa və yaradıcı fəaliyyətə yönləndirmək, onlar tərəfindən yüksək mədəniyyət ideallarının həyata keçirilməsinə imkan yaratmaq zəruridir. Bu kontekstdə nəzərə almaq lazımdır ki, müasir uşaqların düşüncə mədəniyyətinə və hər bir millətin genefondunun formalaşmasına filmlər, oyuncaqlar və uşaq ədəbiyyatı böyük təsir göstərir. Bu səbəbdən,

filmlərin, oyuncaqların və uşaq kitablarının uşaqların şüuruna təsirini nəzarətdə saxlamaq və sınaqdan keçirmək vacibdir.

Tərbiyə həm ailənin dəyər və məqsədləri ilə, həm də ictimai münasibətlərin xarakteri və onlara müvafiq, cəmiyyətin məqsədləri və dövlətin siyasi rejimi ilə əlaqəli ideologiya ilə müəyyən olunur. Bunu nəzərə alaraq, uşaqların tərbiyəsini insanların ayrı-ayrı ailələrin prinsiplərindən və dəyərlərindən asılı olmadan yaranan sosial praktikası ilə uyğunlaşdırmaq lazımdır. Dəyərlərin və mədəniyyətlərin toqquşmasından qaçmaq üçün ailədə şəxsiyyətin tərbiyəsi yaşadığı cəmiyyətə müəyyən adaptasiyasını, öz hisləri və şəxsi əqidələri mədəniyyətindən imtina etmədən ləyaqətli yaşamağa imkan yaradan "şüurlu konformizmi" də nəzərdə tutmalıdır.

Məlumdur ki, binanı tikməyə divarlardan və ya damdan yox, bünövrədən başlayırlar. Mədəniyyət erkən uşaqlıqdan formalaşır. Məhz uşağın şüurunun təşəkkül tapdığı bu dövrdə onu əməyə və özünüidarəyə, başqa insanlara mehribanlığa və hörmətə, dürüstlüyə və xeyirxahlığa öyrətmək lazımdır. Cami deyirdi: "Qəlbin yaxşılığa yönəlməzsə sən, heç kəsi mühakimə edə bilməzsən". Uşaqları tərbiyə edərkən vacibdir ki, konkret nümunələrlə pozitiv və ya neqativ davranışın ya da hərəkətin onların maraqlarına cavab verəcəyinə, yoxsa onlar üçün təhlükə yaradacağına inandırasınız. Məcburetmə və hədə deyil, yalnız düzgün izah etmə və inandırma uşağın uğurlu inkişafının, onda pozitiv təfəkkür və xarakterin, fəal həyat mövqeyinin tənzimçisi ola bilər. Uşaq vaxtı mənimsənilmiş stereotiplər, anlayışlar, "tabu" (qadağa), qiymətləndirmələr, münasibətlər və istiqamətlər bir qayda olaraq, ətraf aləmdəki hadisələrin, halların və insanların ya "düzgün və lazımi", ya da "yanlış və yolverilməz" kimi "görülməsi"nin əsas meyarıdır. Çox vaxt məhz onlar digər insanlara, "yad" mədəniyyətlərin, millətlərin və ya dinlərin nümayəndələrinə münasibətdə mühakimələrin, qənaətlərin qeyri-obyektivliyinə səbəb olurlar.

Uşaqların tərbiyə mədəniyyətindən təkcə onların şəxsi taleyi deyil, cəmiyyətin, millətin, dövlətin və bütün bəşəriyyətin sosial rifahı da asılıdır. Alimlər zənn edirlər ki, valideynlər artıq uşağın üç yaşından başlayaraq onu yaxşı başa düşməli, onun sərbəstliyini və məsuliyyətini həvəsləndirməli, dəyişən tələbatlarını nəzərə almalı və xasiyyətində mənfi cəhətlərin inkişafının qarşısını alaraq, maraqlarını təmin etməlidirlər. Russo uşaq tərbiyəsinə yanaşma ilə bağlı deyirdi: "Əgər siz uşaqlarda dəcəllik hissini öldürsəniz, heç vaxt müdrik insan yetişdirə bilməyəcəksiniz". Bir qayda olaraq, uşaqlara hədsiz öyüd-nəsihət vermək əks nəticəyə gətirib çıxara bilər. Uşaqlar qıcığa emosional baxımdan öyrəşir və tədricən hansı məna daşımasından asılı olmayaraq, böyüklərin sözlərinə diqqət yetirməyərək onları qəbul etmirlər. Artıq bu yaşda uşaqla ünsiyyət zamanı insan münasibətləri mədəniyyətinin məşhur etik-psixoloji yanaşmalarından istifadə etmək, onun "dünyagörüşünü" daim dərinləşdirərək, genişləndirərək və korrektə edərək, onların dilində danışmaq lazımdır. Bəzən uşaq qəbul edilmək, tərif qazanmaq üçün (əgər yaxşı hərəkətlər edərkən buna nail ola bilmirsə) və ya "biabır olmamaq" üçün "xilas olmaq xətrinə" yalana əl ata bilər. Əgər bu tendensiya vaxtında

sezilməsə, o, vərdişə çevrilə bilər. Yalanın üstünü açmaq və ifşa etməkdənsə, yalanı və onun insanın nüfuzuna mənfi təsirini əxlaqi cəhətdən izah etmək daha yaxşı olar. Eyni zamanda uşağa özünü təsdiq etməsində və onun pozitiv əməllərinin və şəxsiyyətinin qiymətləndirilməsi yolu ilə düzgün şəkildə qəbul olunmasında kömək etmək faydalı ola bilər. Cuma və Zelda Siqal beş yaşından başlayaraq uşaqları optimizmə öyrətməyi tövsiyə edirlər. Onlar inanırlar ki, valideynlər özlərinin keçmiş pozitiv təcrübəsi haqqında övladlarına danışmalıdırlar. Bu, balacalara özündə nikbin xarakter formalaşdırmağa və müxtəlif həyat vəziyyətlərində özününəzarət hissini yetişdirməyə kömək edəcək.

Uşaqların tərbiyə edilməsi – səbir, təcrübə və pedaqoji vərdişlər tələb edən mürəkkəb prosesdir. Məsələn, pedaqogika təsdiq edir ki, uşağın yalan deməyinin səbəbi onda təxəyyül obrazları ilə gerçək obrazların qarışması və ya böyüklərin öz yönləndirici sualı və intonasiyası ilə fərqində olmadan uşağı təsdiqləyici cavaba istiqamətləndirməsidir ki, bu da "təlqin olunmuş yalan" adlanır. Uşağa daim və məqsədyönlü şəkildə müsbət keyfiyyətlər aşılayaraq onları inkişaf etdirmək, eyni zamanda onu bir qayda olaraq daha tez və asan bərqərar olan mənfi keyfiyyətlərdən qorumaq gərəkdir. Valideynlər övladları ilə daha çox oynamalı, onlarla uşağın öz dilində danışmalı, gözəl və faydalı şeylərə sevgi aşılamalı, hədə və cəzalardan deyil, sosial və psixoloji rolları mənimsəməyə kömək edən həyat hadisələri və qanunlarının mənalarını başa salmaq metodikasından istifadə etməlidirlər. Yeniyetmələrlə ünsiyyətdə etibar, ədalət, dostluq və qayğını nəzərdə tutan, əməkdaşlığa və həmrəyliyə əsaslanan yanaşma tələb olunur. Onlara böyük insan kimi davranmaq, bu zaman düzgün seçim etmələrinə kömək etmək üçün təlim, nəsihət və rəhbərlik metodlarından istifadə etmək lazımdır. Nəsillər arasındakı mədəni-psixoloji uyğunsuzluğu da nəzərə alaraq, yeniyetmələrlə özü ilə tən insan kimi danışmalı, onları manipulyasiya etməməli, əməkdaşlıq etməli, dərdinə şərik olmalı, üzləşdiyi çətinliklərin öhdəsindən gəlməkdə əlindən gələn yardımı göstərməlidir.

Ailədə uşaqların tərbiyəsi, əmək kollektivində olduğu kimi, müxtəlif üslublar vasitəsilə həyata keçirilə bilər – demokratik, avtoritar və liberal. Demokratik üslub daha məqsədəuyğun hesab edilir. Avtoritar və liberal üslublar səmərəli sayılmır. Ünsiyyətdə avtoritarlıq mövqeyi dialoqa kömək etmir və ya onu sadəcə, mümkünsüz edir. O, şübhə və tənqidə dözmür, başqa fikir və ya yeni yanaşma tərəfdarını "düşmən obraz" olaraq görməklə, qüsursuz həqiqət kimi öz fikrinin "nüfuzuna" söykənir. Valideynlərin avtoritar rəhbərlik üslübunun ehtiyatında valideyn nüfuzunun – "təzyiq göstərmə nüfuzu" (səlahiyyətin, şöhrətin və ya biliyin gücünün könüllü tanınması), "məsafə saxlama nüfuzu" (rəhbərin tabeliyində olanlarla məsafə saxlamaqla onlara təsir göstərdiyinə inamı), "təkəbbür nüfuzu" (şöhrətpərəstlik, dikbaşlıq, lovğalıq), "pedantlıq (xırdaçılıq) nüfuzu" (gərəksiz rəsmiyyətçilik), "nəsihətçilik nüfuzu" (boş, faydasız uzunçuluq) kimi növləri var. Avtoritar üslub, bir qayda olaraq, uşaqlarda təşəbbüssüzlük, acıqlılıq, qəddarlıq, səmimiyyətsizlik formalaşdırır. Françeska Petrarka deyirdi: "Uşaqlarınızın göz

yaşlarını qoruyun ki, onları qəbrinizin üstündə axıda bilsinlər”. Liberal üslubun ehtiyatında çox vaxt “sevgi nüfuzu”, “xeyixahlıq nüfuzu”, “dostluq nüfuzu” və “ələ alma nüfuzu” istifadə edilir. Uşağın qabiliyyətlərinin ideallaşdırılması ilə bağlı olan liberal üslub uşağın ərköyünlüyünə, eqoizminə, məsuliyyətsizliyinə gətirib çıxarır. O, ətrafdakılara münasibətdə özünün müstəsnalığına və səhvsizliyinə inamın, özündən razılığın və təkəbbürün formalaşmasına səbəb olur. Bu kimi tərbiyənin doğurduğu iddialılıq və hövsələsizlik çox vaxt belə uşaqların kollektivdə yaşıdları tərəfindən qəbul edilməməsinə gətirib çıxarır.

Valideynlər və övladlar arasındakı münasibətlər bəzən mürəkkəb xarakter daşıyır, çünki uşaqların öz dünyagörüşü var. Mütəxəssislər hesab edirlər ki, uşağın özünütəsdiqi, onların “mən”inin təşəkkülü uşaqlıqdan, böyüklərin qiymətləndirməsinin təsiri altında formalaşsa da, valideynlər və övladlar arasında tam açıq münasibət nadir hallarda olur. Hər bir uşaq, onu mühitin psixoloji təsirlərindən qismən müstəqil edən, özünə xas baxışları, münasibətləri, mənəvi tələbləri, qiymətləndirmələri, şəxsi qənaətləri ilə potensial şəxsiyyətdir. Tərbiyənin xeyirxah məqsədləri və onların həyata keçirilməsinin qeyri-məhsuldar praktikası arasında olan uyğunsuzluqdan xilas olmaq üçün daim özününəzarəti və tərbiyə prosesinin şüurlu monitorinqini həyata keçirmək lazımdır. Uşaqların formalaşdırılması amillərinin aşağıda nəzərdən keçirilən təhlili bu reallığı dərk etməyə imkan yaradır.

Bütün dövrlərin və xalqların müdriklərinin məsləhətlərini nəzərə alaraq, gələcək peşəsindən asılı olmayaraq, uşaqlara erkən yaşlardan öyrədilməsi məqsədəuyğundur:

- nəcibliyə və kamilliyə can atmaq, xeyirxah və ədalətli olmaq;
- elmi biliklərə yiyələnməyə can atmaq;
- böyüklərlə və müdrik insanlarla məsləhətləşmək;
- öz yaxşı cəhətlərini göstərmək lazım olan yerdə utancaqlıq etməmək;
- hər faydanın əsasının elm, təhsil və mənəviyyatda olduğunu yadda saxlamaq;
- öz bədəninin tənbəlliyini dəf etməyi öyrənmək;
- gözəl və aydın danışmağı öyrənmək;
- başqasının əməyini və hüquqlarını qiymətləndirmək;
- inamını və ümidini itirməmək;
- dünyanın daim dəyişdiyini yadda saxlamaq;
- heç kimə başqalarının yanında məsləhət verməmək;
- axmaqların mübahisəsini sükutla kəsmək.

Ən yaxşı ailə dəyərlərinin irsinin qorunması və inkişaf etdirilməsi valideynlərin məsuliyyətli vəzifəsidir. Ata və ana valideynlik borcunu yerinə yetirərək, “baba və nənələrə” hörmət və qayğı göstərərək, onlara minnətdarlıq hislərini ifadə edərək, övladlarını da öz valideynlərinə münasibətin şəxsi nümunəsi əsasında tərbiyə etməli, beləliklə də, yüksək ailə mədəniyyətinin varisliyini qoruyub saxlamalıdırlar. Fales vurğulayırdı: “Yadda saxlayın ki, siz öz valideynlərinizlə necə davranırsınızsa, övladlarınız da sizinlə o cür davranacaqlar”. Sokrat isə qeyd edirdi ki, valideynlərə münasibətdə hörmətsizlik və nankorluq cəmiyyət tərəfindən insana qarşı hörmətin itirilməsinə və nifrətə səbəb olur.

Əgər birinci tərbiyəçi ailədirsə, ikinci – həyatın özüdür. Ailədə tərbiyə düzgün olmasa, həyat kifayət qədər ağrılı ola biləcək düzəlişlərini edəcək. Ailə uşağa yaxşı təhsil – insanın tamdəyərli həyat fəaliyyəti, cəmiyyətə lazımlı şəxsiyyət olması və ətrafdakı insanlar tərəfindən sevgi və hörmət qazanması üçün zəruri olan təlim və tərbiyə verməlidir. Valideynlər onlarla fəxr etmək istəyən övladlarının gözləntilərini doğrultmalıdırlar. Bununla əlaqədar olaraq, tərbiyənin mühüm qaydalarından birini yadda saxlamaq və ona əməl etmək vacibdir. Bu ondan ibarətdir ki, valideynlər gərək heç bir halda uşaqların yanında mübahisə etməsinlər. Həyat göstərir ki, valideynlər öz övladlarını mədəni həyatdan kənarda qoymamaq üçün ayrıca kulturoloji hazırlıq keçməlidirlər.

### *Ailənin idarə edilməsi mədəniyyətinin mahiyyəti və prinsipləri haqqında*

Ailə səviyyəsində biz cəmiyyətdəki idarəetmə proseslərini, lakin bir qədər yumşaq, spesifik formada görürük. Ailə üçün idarəetmənin hüquqi formaları deyil, daha çox mənəvi-etik formaları səciyyəvidir. Ailənin həyat fəaliyyətinin idarə edilməsi, onun tələbatlarının ödənilməsi və inkişafının strateji planlaşdırılması, ailə münasibətləri mədəniyyətinin, onun üzvlərinin mənəvi sağlamlığının formalaşdırılması və qorunması, uşaqların maddi təminatı və ruhi inkişafı, onların əməyə və yüksək mənəvi dəyərlərə cəlb edilməsi, uşaqların müstəqil həyata hazırlanması xeyli biliklər, enerji, təcrübə, səbir, müdriklik tələb edir. Konstruktiv və dayanıqlı həyat fəlsəfəsinə malik şəxsiyyət özünün inkişafı və təkmilləşməsi prosesində öz davranış və fəaliyyətini idarə etməklə kifayətlənməyərək, ailəsinə, doğmalarına və yaxınlarına yaxşı təsir göstərir, onlarla münasibət mədəniyyətini inkişaf etdirir və etdirməlidir. U. Rocers deyirdi: “Elə yaşayın ki, ev tutuquşunuzu şəhərin baş xəbərçisinə satmağa utanmayasınız”.

Möhkəm və firavan ailənin formalaşması prosesinin *idarə edilməsinin əsas alətləri* – həyat fəaliyyəti məqsədlərinin və səmərəli texnologiyalarının düzgün müəyyən edilməsi, uşaqların layiqincə tərbiyə edilməsi və onlara həyat fəlsəfəsinin, reallıqlarının və qanunlarının izah edilməsi, planlaşdırma, məsuliyyət, xidmətlərin qiymətləndirilməsi, etibar, nəcib və ləyaqətli həyat tərzinə görə daim mənəvi mükafatlandırma, diqqətin məziyyətə köklənməsi, düzgün motivasiya, ruhlandırma, uşaqların qabiliyyətlərinə, cəmiyyətdə özünütəsdiq və özünüreallaşdırma imkanlarına cavab verən peşə seçimində yardımdır.

Firavan ailənin qurulmasında və inkişafındakı uğurlar, əsasən, ailə başçısının onun inkişafını strateji baxımdan düzgün idarə etmək, ümumi məqsəd, prinsiplər, ailə etikası, ideologiya və gələcək gözləntisi ilə ailə üzvlərini birləşdirmək, ailə üzvlərinin maraqlarını vahid ailə mədəniyyəti çərçivəsində uyğunlaşdırmaq, onların inkişafı və yaradıcı fəaliyyəti üçün şərait yaratmaq bacarığından asılıdır. Firavan ailənin qurulması üçün ilhamverici modellərdən biri A. Maslounun insanın harmoniyası, təhlükəsizliyi, qabiliyyətlərin maksimum inkişaf imkanları və

özünüreallaşdırma prinsipləri üzərində qurulan – "ideal cəmiyyət" modelidir. O, insanın şüurunun humanist yolla dəyişdirilməsi və mədəniyyətin sosial institutlarını yenidən təşkil etməklə onun pozitiv dəyişdirilməsini nəzərdə tutur. Özünü qorumağa, təhlükəsizlik və sülhə, sevgi və birlik, özünütəsdiqə və qəbul edilməyə, yaradıcılıq vasitəsi ilə özünü aktuallaşdırmağa və təkmilləşdirməyə olan xüsusi tələbatlar, həmçinin fizioloji tələbatlar ailənin idarə edilməsi üçün aktualdır. Ailədə bunlara sevgi və bağlılıq, qan qohumluğu və valideynlər, övladlar, qardaşlar və bacılar, nəvələr, nənələr və babalar qarşısında borc hissi ilə müəyyən edilən xüsusi ailə tələbatları da əlavə edilir.

Ailə mədəniyyəti və onun idarə edilməsi məsələləri şəxsiyyətin özünüidarə mədəniyyəti, onun əsas qaydaları və məntiqi ilə ayrılmaz surətdə bağlıdır. Burada həm də biologiya, fiziologiya, antropologiya, psixologiya, tibb, ekologiya, fiziki tərbiyə, düzgün qidalanma, etika, hüquq, insan münasibətləri mədəniyyəti, din və insan fəaliyyətinin digər sahələrinin bilikləri; məqsədin düzgün müəyyən edilməsi və həyat prinsiplərinin düzgün seçilməsi; biliklər, təcrübə və müsbət iradəyə əsaslanan müdrikliyə can atma; öz təfəkkürünə, niyyətlərinə və davranışına şüur vasitəsilə nəzarət edilməsi; seçilmiş prinsiplərin, insanın düzgün həyat tərzinin və yüksək davranış mədəniyyətinin həm ailədə, həm də ondan kənarda həyata keçirilməsini təmin edən möhkəm iradə zəruridir. Eyni zamanda onun özünəməxsusluğu da var. Ailənin idarə edilməsi üçün onun hər bir üzvünün xarakterinin fərdi keyfiyyətlərini nəzərə almaq, bütöv sosial mikrosistem kimi, ailədə psixoloji uyğunluq və harmoniyaya nail olaraq, onların münasibətlərini tənzimləmək bacarığı mühüm əhəmiyyətə malikdir. Ailənin idarə edilməsində idarəetmə elminin strategiya və texnologiya, psixologiya, sosiologiya və estetika kimi ümumi prinsiplərini də müşahidə etmək olar. Burada həmçinin təşkilatçılıq mədəniyyətinin müxtəlif növlərinin – hakimiyyət mədəniyyəti, rol mədəniyyəti, vəzifə mədəniyyəti, şəxsiyyət mədəniyyətinin birləşmələrinə rast gəlmək, "qərarların qəbulu" proseslərini, "danışıq prosesinin", "innovasiya fəaliyyətinin" elementlərini, nəhayət, ailə quruluşunun despotikdən tutmuş demokratikə qədər müxtəlif növlərini aşkar etmək olar. Ailənin idarə edilməsi mədəniyyətində bütövlükdə həyat fəaliyyəti ilə müqayisədə daha çox, bütün müxtəliflikləri ilə həyatın özü ön plana çıxır. Ailədə və əmək kollektivindəki münasibətlərin xarakteri fərqli olsa da, idarəetmə üslubu eyni ola bilər, bu, əsasən, liderin – "kiçik orkestr"in dirijoru rolunu icra edən ailə başçısının xasiyyətindən asılıdır.

Şübhəsiz, ailənin idarə edilməsi mədəniyyətinin prioriteti – milli və dünya mədəniyyəti və sivilizasiyasının ən mühüm nailiyyətlərinin mənimsənilməsini, müstəqillik, məsuliyyət və yaradıcı fəaliyyəti bacarıqlarını nəzərdə tutan *şəxsiyyət mədəniyyətinin hərtərəfli, ahəngdar formalaşdırılmasıdır*. Ailə tərəfindən tərbiyə edilən şəxsiyyət ictimai faydalı fəaliyyətə yönləndirilməli və məqsədə çatmaq üçün onun intellektual və etik mədəniyyətini xarakterizə edən bilik səviyyəsi ilə ağıllı, dürüst və humanist vasitələr seçməlidir. Yüksək ailə mədəniyyətinin formalaşdırılması sözün və əməlin bir olmasına bağlılığın tərbiyə edilməsini, bilik

və "ikili əxlaq" kimi tanınan davranış arasındakı ziddiyyətin aradan qaldırılmasını, makiavellizm (əxlaq normalarına fikir verməyən, sərt gücə əsaslanan siyasət) prinsiplərindən şüurlu imtinanı nəzərdə tutur. Ailənin idarə edilməsi mədəniyyətində insanın mədəni dəyərlər sistemi, həyat fəlsəfəsi, dünyagörüşü, əqidələri, ailə etikası, sevgi və dostluq böyük rol oynayır.

*Düzgün idarəçiliklə şərtləndirilmiş ailə mədəniyyəti* cəmiyyətdə destruktiv halların və böhranların dəf edilməsi üçün də böyük əhəmiyyətə malikdir. O, biliklərin, informasiya mədəniyyətinin, elmin, texnologiyaların və istehsalın sürətli inkişafının səciyyəvi olduğu, mənəviyyatın qorunmasına və inkişafına bəzən diqqət yetirilmədiyi, mədəniyyətin aşınması, etik dəyərlərin və humanizmin qiymətini itirməsi proseslərinin baş verdiyi texnogen sivilizasiya şəraitində xüsusilə aktualdır. Dünya mədəniyyəti və sivilizasiyasının inkişaf qanunauyğunluqları əsaslı şəkildə göstərir ki, yüksək etik mədəniyyətə etinasızlıq, yüksək eqoizm, tamahkarlıq, ikiüzlülük, lovğalıq, qəddarlıq, zorakılıq, xəyanət və digər mənfi insani keyfiyyətlər sosial və siyasi gərginliklərə və böhranlara səbəb olur.

*Ailənin idarə edilməsi* – təbii və zəruri prosesdir, çünki ailə istənilən digər kollektiv kimi ümumi məqsədlərə çatmaq üçün səylərin və maraqların uzlaşdırılmasını tələb edir. O, müvafiq ideologiya və həyat fəaliyyəti texnologiyalarının hazırlanmasını, vəzifələrin və gözlənilən nəticələrin müəyyən edilməsini, öhdəliklərin bölüşdürülməsini və səlahiyyətlərin verilməsini, ailənin hər bir üzvünün motivasiyasını və qiymətləndirilməsini, məhəbbət və bağlılığın qorunmasını, ailə rifahının möhkəmləndirilməsini nəzərdə tutur. Ailənin inkişafının idarə edilməsi mədəniyyəti yaxşı təhsil, uşaqların peşəkar təlimi və peşəkar inkişafı, ailə münasibətlərinin düzgün formalaşması, ailənin digər insanlarla pozitiv əlaqələrinin qurulması üçün şəraitin yaradılmasını nəzərdə tutur. O, həmçinin həyat fəaliyyətinin fiziki tərbiyə, səhiyyə və ekoloji təhlükəsizlik, əmək və istirahət mədəniyyəti kimi sahələrinin tənzimlənməsinə təkan verməli, əqli və mənəvi mədəniyyətin təkmilləşdirilməsini, etik, estetik mədəniyyətin və beynəlxalq münasibətlər mədəniyyətinin inkişafını təmin etməlidir.

Ailə həyatının tənzimlənməsinin *başlıca prinsipi hüquq deyil, mənəviyyatdır*. Ailə üçün spesifik olan funksiyaların həyata keçirilməsi, təlim və tərbiyə, ailə büdcəsinin idarə edilməsi, həyat fəaliyyəti proqramlarının və layihələrinin reallaşdırılması, bir qayda olaraq, qeyri-rəsmi, qeyri-hüquqi xarakter daşıyır. Ailə mədəniyyətinin psixologiyası onların qan qohumluğu ilə əlaqəsi, bir-birilərinə bağlılığı, borc hissi, ənənələr, bir-birinin və başqa insanların, cəmiyyətin və dövlətin qarşısında əxlaqi məsuliyyətlə şərtlənir.

Ailə həyatının hər bir tarixi dövründə tələbatlar və maraqlar dəyişir, ailə qarşısında duran vəzifələrin başa düşülməsinə və reallaşdırılmasına prinsipial olaraq yeni yanaşmalar tələb edən yeni şərtlər və imkanlar meydana çıxır. Amma bununla belə, mənəvi prinsiplər və ailə ənənələri daim qorunub saxlanılmalıdır. Ailənin inkişafı, rifahı və təhlükəsizliyinə görə məsuliyyət onun idarə edilməsində başlıca rol oynayan ailə başçısının üzərinə düşür. Ailə münasibətlərindəki harmoniya

daha çox ailə başçısının şəxsi mədəniyyət səviyyəsindən – intellektindən, etikasından, məsuliyyətindən, xarizmatik keyfiyyətlərindən asılıdır. Ailə başçısı dostbazlıqdan çəkinməli, qızıl ortanı qorumalı və ifratçılığa varmamalı, ailənin bütün üzvlərinə münasibətdə ədalətli, dürüst və alicənab olmalıdır. O, ailənin həyat fəaliyyəti prosesində dialektik ziddiyyətləri və qabaqcadan görülməyən çətinlikləri aradan qaldıra bilmək üçün təmkinli və səbirli olmalı, anlayış və qayğı, nəzakət göstərməli, ailə üzvlərinin dərdinə şərik olmalı, təbiətcə hərtərəfli olmalı və yumor hissinə malik olmalıdır.

*Ailənin idarə edilməsi mədəniyyətinin universal prinsiplərini rəhbər tutaraq, ailə başçısı borcludur:*

- Ailə üzvlərinin ruhi və maddi tələbatlarının maksimum ödənilməsinə imkan yaratmağa.
- Övladlarına yaxşı təhsil verməyə.
- Ailə üzvlərinin sağlamlığının qorunmasına qayğı göstərməyə.
- Uşaqlarda alicənablıq, mərhəmət, cəmiyyətin rifahı naminə olan biliklərə və vicdanlı əməyə sevgi, insanlara humanist sevgi, vətənpərvərlik və comərdlik, yaradıcılıq başlanğıcı, yüksək etika və həmrəylik hissi tərbiyə etməyə.
- Ailənin vahid ruhi mədəniyyətinin formalaşması məqsədilə ailə üzvlərinin mədəniyyətlərini, xasiyyətlərini və maraqlarını uyğunlaşdırmağa.
- Ən yaxşı ailə ənənələrinin varisliyini təmin etməyə.

Böyük və mehriban ailənin qızıl qaydalarından biri valideynlərin kürəkənlərə və gəlinlərə öz doğma övladları kimi psixoloji münasibət prinsipidir.

*Ailənin idarə edilməsi aşağıdakı həyat şərtlərinin*: uşaqların təlim və tərbiyəsinin; ailə rifahının; sağlamlığın, ailə ideologiyası və ailə etikasının; ailə həmrəyliyinin, sevgi, dostluq və sədaqət hissinin; ailə dəyərlərinin varisliyinin; qonşular, qohumlar, dostlar, iş yoldaşları və bütövlükdə cəmiyyətlə davamlı ahəngdar münasibətlərin qurulması və saxlanmasının *təmin edilməsini nəzərdə tutur*. Ailə başçısı öz səriştəsinə uyğun olaraq, ailənin həyat fəlsəfəsi ilə bağlı həlledici qərarlar qəbul edir, onun həyat tərzini, əsas həyat məqsədlərini və davranış qaydalarını müəyyən edir. Yüksək idarəetmə mədəniyyətinə iddia edən ailə lideri məqsədləri və prioritetləri, ailənin "daxili və xarici siyasətini" düzgün müəyyənləşdirməli, strateji və taktiki vəzifələr qoyaraq onları yerinə yetirməli, ailə üzvlərinin ruhi və maddi tələbatlarının ödənilməsini təmin etməli, onların mədəniyyətlərini və maraqlarını uyğunlaşdırmalı, ailənin hər bir üzvünün ehtiyaclarını və xasiyyətini, gözləntilərini və imkanlarını, xoşbəxtlik anlayışını düzgün bilməlidir.

İdarəetmə mədəniyyəti kontekstində ailənin idarəçiliyinin məqsədləri, vəzifələri və metodlarını aşağıdakı şəkildə qruplaşdırmaq olar. *İdarəetmə məqsədi* – ailənin sosial-mədəni inkişafı, onun həyat fəaliyyətinin saxlanması və daim (arasıkəsilmədən, fasiləsiz) yaxşılaşdırılması, ailənin rifahının və həyat keyfiyyətinin yüksələn xətlə inkişafıdır. *Vəzifələr* – özünün həyatdakı missiyasını düzgün görməyə, məqsədlərə çatmağa, ailə üzvlərinin fiziki və mənəvi sağlamlığının, rifahının və xoşbəxtliyinin, onun sağlam inkişafının təmin edilməsinə, ailənin

mədəni dəyərlərinin qorunmasına və saxlanılmasına yardım etməsidir. Ailə idarəçiliyinin başlıca vəzifələrindən biri daxili ahəngə nail olmaqdır. Ailənin hər bir üzvü özünü idarə etmək, öz münasibətlərini digər ailə üzvləri ilə sevgi və sədaqət, ailənin eyni mədəni dəyərlərinə bağlılıq əsasında uyğunlaşdırmaq bacarığına malik olmalıdır. Ailə başçısı onu əhatə edən ailə üzvlərini kədərləndirməmək üçün şüuru vasitəsilə öz hərəkətlərinə nəzarət etməlidir. O, ailə üzvlərinin düzgün həyat motivasiyasına təkan verməli, uşaqların istedad və bacarıqlarını vaxtında aşkar etməli və onlara həyatda düzgün istiqamət verməli, düzgün peşə seçimində kömək etməli, ailənin hər bir üzvünün şəxsiyyət kimi formalaşmasına can atmalı, övladlarını cəmiyyətin yaradıcı üzvləri kimi tərbiyə etməlidir. *İdarəetmə metodları* – təlim və tərbiyə, öz həyat nümunəsi, yüksək mədəniyyəti, nüfuzu, bilikləri, təcrübəsi, müdrikliyi, məsləhətləri, mənəvi keyfiyyətləri, yaradıcı fəaliyyəti ilə ailə üzvlərinə müsbət təsir göstərmə; tələbkarlıq; ailə üzvlərinin həyati maraqlarının, sabitliyi və təhlükəsizliyinin təmin olunmasına qayğı; ailənin gələcək inkişafının planlaşdırılması və qurulmasıdır.

Kulturoloji "ədalət monitorinqi"ndən istifadə edərək, ailə vaxtaşırı, zamanın çağırışlarından asılı olaraq, öz həyat fəaliyyətinə düzəlişlər etməlidir. Öz mənəvi prinsiplərinə sadiq qalaraq, müasir elmin nailiyyətləri və özünün qabiliyyətləri və imkanlarını nəzərə alaraq o, inkişaf texnologiyalarını müsbət yöndə dəyişməyə və həyat keyfiyyətini yüksəltməyə çalışmalıdır. Bu zaman ailə şüurunu daim təkmilləşdirmək, düşüncələrində, sözlərində və əməllərində daha müdrik və nəcib olmağa səy göstərmək, başqalarının ləyaqətinə hörmət etmək, sevgiyə, kamilliyə və ahəngə can atmaq, öz mənəvi və siyasi məsuliyyət mədəniyyətini inkişaf etdirmək, valideynlər, övladlar, cəmiyyət, vətən və bəşəriyyət qarşısındakı borcunu yerinə yetirmək lazımdır.

## İnsan münasibətləri mədəniyyəti

Dünya sivilizasiyası tarixinin səhifələrini vərəqlədikcə, insan münasibətləri – etik, hüquqi, bölgü, habelə maddi və siyasi maraqlarla, hakimiyyət və var-dövlət hərisliyi ilə motivləşdirilmiş davranış mədəniyyətinin həyatda nə qədər mühüm rol oynadığını görmək çətin deyil. Davranışın əsas motivi kimi insan həyatının qorunması və yaxşılaşdırılması haqqında qayğı çıxış edir. Amma bəzilərinin bu qayğısı müəyyən etik prinsiplərlə şərtlənibsə, digərlərininki sosial ziddiyyətlərə, maraq və dəyər toqquşmalarına, böhranlara və müharibələrə gətirib çıxarır. Özünü qoruma instinkti və maddi maraqlar, hakimiyyət, şöhrət və var-dövlət hərisliyi çox vaxt mənəvi prinsipləri məhv edərək, ədalətsiz siyasətin əsasına çevrilirlər.

Həyat yollar çoxluğudur ki, onların arasından insan özü üçün doğru yolu seçməlidir. Bunu necə etməli? Bunun üçün insan mümkün qədər qısa vaxtda düzgün həyat mədəniyyətinin mahiyyəti və xüsusiyyətlərinin öyrənmə və dərk etmə pillələrini qalxmalı, yetkinliyə, müdrikliyə çatmalı və özündə ruhi yaradıcılıq, ahəng

və kamillik qabiliyyətini yetişdirməlidir. Cəlaləddin Rumi deyirdi: "Müdriklik və bilik yolu yolsuzluqdan ayıra bilmək üçün var. Hər tərəf yol olsaydı, müdriklik gərəksiz, artıq bir şey olardı". İnsanın mədəniyyət dünyası müxtəlif, çoxrəngli, çoxüzlüdür. O, öz fərdi xüsusiyyətlərinə, coğrafi və milli özünəməxsusluğuna görə təkrarolunmaz müxtəlif mədəniyyətlərin böyük çoxluğundan ibarətdir. Bununla belə, insanların mədəniyyətində çoxlu ümumi cəhətlər və qanunauyğunluqlar vardır. Bu qanunauyğunluqları və xüsusiyyətləri bilmə və dərk etmə məhsuldar həyat fəaliyyəti və insan xoşbəxtliyinin əsas şərtlərindən biri olan insan münasibətləri mədəniyyətini müsbət yöndə tənzimləməyə, harmonizasiya etməyə və təkmilləşdirməyə kömək edir.

İnsanın digər insanlarla qarşılıqlı münasibətləri onun şəxsiyyəti, psixoloji xüsusiyyətləri, xasiyyəti haqqında müəyyən təsəvvürlər əsasında qurulur. Əgər bu təsəvvürlər yanlış olarsa, biz insan münasibətləri mədəniyyətinin çox qanunauyğunluqlarını və xüsusiyyətlərini bilmiriksə, qarşılıqlı anlaşa bilərikmi? Axı elə bizim bəlalarımızın çoxu bilgisizliyimizdən və anlamazlığımızdan irəli gəlir. Məsələn, məlumdur ki, sadə təfəkkürə malik, öz nöqsanlarını görmək bacarığı olmayan aşağı mədəniyyətli insanlar adətən, öz dünyagörüşü çərçivəsindən kənara çıxan hər kəsi mühakimə edirlər. Onu da nəzərə almaq lazımdır ki, həyatda çox vaxt insanın ziddiyyəti onun varlığının ziddiyyətindən doğur. Bu və digər reallıqları nəzərə alaraq, hər kəs başqalarına diqqətlə yanaşmağa can atmalı, fikrən özünü başqasının yerində təsəvvür etməli, onun yaxşı keyfiyyətlərini görməli və qiymətləndirməlidir.

İnsan münasibətləri mədəniyyəti – insanın tərbiyəsi, təhsilliliyi, intellekti və xasiyyəti, ailədə, kollektivdə və cəmiyyətdə insanlar arasındakı münasibətləri tənzimləyən mədəni dəyərlər, etik və hüquqi sosial qanunlar və normalar sistemi ilə şərtlənən, insanların davranışında təcəssüm edilən qarşılıqlı insan münasibətləri prosesidir. Bu submədəniyyət şəxsiyyət mədəniyyətinin ən mühüm göstəricisi, idarəetmə mədəniyyəti, qarşılıqlı anlaşma və səmərəli əməkdaşlığın, davamlı həyat fəaliyyəti, sağlamlıq və ailə rifahının vacib şərtidir. O, şəxsiyyətlərarası, ictimai, millətlərarası, konfessiyalararası, beynəlxalq, ailə, işgüzar, peşəkar və digər münasibətlərin geniş spektrini özündə birləşdirir.

İnsan münasibətləri mədəniyyəti müxtəlif sosial-mədəni sistemlərin və qrupların öz mədəni təlimatları, sosial qanunlar, sanksiya və stimullaşdırma sistemlərinə malikdirlər ki, onların vasitəsi ilə fərdlərin və insan birliklərinin davranışını tənzimləməyə çalışırlar. Bunlar həm davranışın müəyyən mənəvi-etik etalonları və nizamlanmış nümunələri, həm də ünsiyyət stereotipləridir. Bununla yanaşı, cəmiyyətin ruhi mədəniyyətinin ayrılmaz hissəsi kimi insan münasibətləri mədəniyyəti bu münasibətlərdə iştirak edən şəxsiyyətlərin fərdi mədəniyyətindən, onların dəyər-dünyagörüşü istiqamətlərindən, hislər mədəniyyətindən, "həyatın daxili qaydaları"ndan asılıdır. İnsan digər insanların arasında yaşayır, işləyir və onlarla ünsiyyətdə olaraq, bu insanlarla intellekt və dərketmə səviyyəsi, öz şəxsi qiymətləndirmələrinin, mühakimələrinin və təsəvvürlərinin obyektivliyi və ya

subyektivliyi ilə sıx bağlı olan münasibətlərlə şərtlənən müəyyən hislər keçirərək və izhar edərək, mütləq onu əhatə edən sosial aləmi dərk edir. İnsan qəlbinin gözəl bilicisi Anton Çexov haqlı olaraq qeyd etmişdir ki, "Biləndə ki, sənin sağalmağını bayram kimi gözləyən adamlar var, o zaman hətta xəstələnmək də xoşdur". İnsan təklikdə, başqa insanların sevgisi, hörməti və dəstəyi olmadan xoşbəxt ola bilərmi? Saxta xeyirxahlıq bizə xoş gələ bilərmi? Məgər mədəni insanlarla ünsiyyət əsl cah-calal deyilmi?

İnsan münasibətlərinin əsas sirləri insanların sözlərinin, əməllərinin, davranışının, fəaliyyətinin və şəxsiyyətinin qarşılıqlı qiymətləndirilməsinin incə psixoloji mexanizmlərindədir. "Qiymətləndirmənin qızıl qaydası" ondan ibarətdir ki, konkret əməl əsasında hansısa xətalar və ya uğursuzluqlara görə şəxsiyyətə ümumi mənfi rəy və xarakteristika vermək lazım deyil, çünki bu, insanlar arasında psixoloji baryerlərin əmələ gəlməsinə gətirib çıxarar. İnsanın, onun qabiliyyət və nailiyyətlərinin obyektiv və xeyirxahlıqla qiymətləndirilməsi, şəxsiyyətin xidmətlərinin qəbul edilməsi və ona minnətdarlığın ifadə edilməsi qarşılıqlı anlaşma, dostluq, məhsuldar əməkdaşlıq və inkişaf üçün əlverişli şərait yaradır. Lakin konkret əməl mənfi rəy də ala bilər. Bu halda həmin rəyi əməli törədən insanın şəxsiyyətinə aid etmək, beləliklə, onun yaxşılaşması, təkmilləşməsi perspektivini "bağlayaraq", insanın öz gücünə və imkanlarına inamı öldürmək lazım deyil. İnsanı müəyyən səhvinə görə məcburiyyətdən tənqid etdikdə belə fikir ayrılığının mahiyyəti haqqında danışmaq lazımdır. Bu zaman "insanı küncə qısmadan", həmsöhbətin əhəmiyyətini qeyd etmək, onun üçün müsbət perspektiv açaraq və müvəffəqiyyətə ümid yaradaraq, qabiliyyətlərinə inam nümayiş etdirmək vacibdir. Məhz belə yanaşma şəxsiyyətlərarası münasibətlər mədəniyyətinin tələblərindən biridir.

S.L. Rubinşteynə görə, insanın psixi simasının təhlil modeli üç əsas suala cavab tapılmasını nəzərdə tutur: insan nə istəyir, o, nə bacarır, o kimdir. Birinci cavab şəxsiyyətin maraqlarını, tələbatlarını, ideallarını, yönəlişliklərini və motivlərini müəyyən etməyə imkan verir. İkinci – onun istedad, qabiliyyət və nailiyyətlərini. Üçüncü – onun xarakterini. Halbuki insanın əhval-ruhiyyəsi bir çox amillərdən – digər insanlar tərəfindən sevgi və hörmətdən, əmək fəaliyyətindən, fiziki əhvalından, ruhi vəziyyətindən, həyat tərzindən, üslubundan, hislərdən, əsasən də, xüsusi enerji doğuran ehtirasdan asılıdır. Pozitiv təfəkkür, çətin vəziyyətlərdə özünü ələ almaq və təmkin, məsuliyyət hissi, şüurunu idarəetmə bacarığı, öz gücünə inam, öz davranışının və xeyirxahlığının düzgünlüyündən arxayınlıq böyük əhəmiyyətə malikdir.

Onore de Balzak qeyd edirdi ki, insan haqqında fikir söyləmək üçün ən azı onun düşüncələri, uğursuzluqları və həyəcanlarından agah olmaq lazımdır. İnsan hislərini həm həyat verən, yaradıcı, həm də dağıdıcı xüsusiyyətlərə malik su və od kimi ünsürlərlə müqayisə etmək olar. Hər şey bu xüsusiyyətlərin necə istifadə olunmasından, bu təbiət hadisələrinin nə dərəcədə ağılla idarə edilməsindən asılıdır. Bu ünsürləri necə idarə etməliyik ki, dağıdıcı yox, yaradıcı məcraya yönləndirək? Milliyyətindən və dinindən asılı olmayaraq, yalnız insanın həqiqi dəyər meyarı olan yüksək ruhi mədəniyyətin köməyi ilə.

İnsan münasibətləri mədəniyyətinin universal əsası və konkret təzahürü şəxsiyyətlərarası münasibətdir. O, düzgün qiymətləndirmə və qəbul edilməni; nəzakəti, ədəbi; şəxsiyyətə hörməti; empatiyanı, başqasının dərdinə şərik olmağı; etibarı; anlaşılmanı; səmimiyyəti; dözümü, təmkini, səbri; psixoloji uyğunluq və ahəngi; şəxsiyyəti ittiham etmədən ziddiyyətləri aradan qaldırmağı; öz fikirlərini düzgün ifadə etmək bacarığını nəzərdə tutur.

Həyatda hər şey dəyişdiyi kimi, insan münasibətləri də dəyişir: onlar ya inkişaf edir və möhkəmlənir, ya da sönüb gedir və bitir. Hər şey insanların mədəniyyətindən, onların qarşılıqlı münasibətlərinin səmimiliyindən, enerji, xoş məram, diqqət, əməkdaşlıq etmək istəyi və ziddiyyətləri aradan qaldırmaq bacarığından asılıdır. İnsanın ailədə və cəmiyyətdə gündəlik davranışında onun şəxsiyyət mədəniyyəti, bilikləri və etikası, tələbatları və maraqları, xarakter xüsusiyyətləri və temperamenti, baxışları, zövqləri, vərdişləri, öz gücünə inam dərəcəsi özünü göstərir. Hələ keçən əsrin əvvəlində Lesli Alvin Uayt belə bir kulturoloji qanunauyğunluq göstərmişdir ki, ona görə, insanın davranışı onun mədəniyyətinin dəyişməsi ilə dəyişir. İnsanın davranış vahidi əməllərdir. Onlar insanın daxili əqidəsinə və keyfiyyətlərinə çevrilərək, böhran şəraiti və ya çətin vəziyyətlərdə özünü açıq şəkildə büruzə verərək, ruhi mədəniyyətin güclü mənəvi amili olurlar. U. Tekkerin məşhur bir fikri var: "Əməl əkin – vərdiş biçərsiniz, vərdiş əkin – xasiyyət biçərsiniz, xasiyyət əkin – tale biçərsiniz".

İnsanın xasiyyəti – şəxsiyyətin bütün psixi və ruhi xassələrinin, fərdi xüsusiyyətlərinin nadir məcmusu – onun davranışında və əməllərində aşkara çıxır. Xasiyyət insanın daxili aləmini, daxili mədəniyyətini əks etdirir. Bu, insanları heyran edə və ya uzaqlaşdıra bilən başlıca keyfiyyətdir. Xasiyyət insanın düşüncələrində, hislərində və hərəkətlərində iz qoyur, şəxsiyyətin tipik, sabit xüsusiyyətlərini və cizgilərini aşkar edir. Xasiyyət insanların ünsiyyət prosesində və müəyyən vaxtda özünü büruzə verir. İmmanuil Kant qeyd edirdi ki, "xasiyyət – prinsiplərə uyğun hərəkət etmək qabiliyyətindən ibarətdir". İnsanın xasiyyətinə bələd olaraq, müəyyən vəziyyətlərdə onun əməllərini qabaqcadan görmək və ya proqnozlaşdırmaq, deməli, onları müəyyən dərəcədə idarə etmək olar. Elə buna görə də, erkən yaşlardan insanın taleyinin bir çox cəhətdən asılı olacağı pozitiv, alicənab xasiyyət formalaşdırmaq bu qədər vacibdir. Hətta bəzi vəhşi heyvanların təlim təcrübəsi göstərir ki, qayğı və mehribanlıq aqressiv xarakteri – pozitivə dəyişə bilər. Nəcib xasiyyət ədalət, məsuliyyət ideallarına, möhkəm mənəvi əqidələrə əsaslanan əxlaqi keyfiyyətləri əks etdirir. O, insanların qarşılıqlı münasibətlərinə aydınlıq gətirir, qarşılıqlı anlaşmağa və ahəngə təkan verir, insanın etibarlılığını təmin edir. Bu cür xasiyyət möhkəm iradə, qəbul edilmiş pinsiplərə uyğun olaraq, öz davranışına nəzarət etmək və onu tənzimləmək bacarığını, başqalarına yardım etməyi nəzərdə tutur. Alicənab insan, bir qayda olaraq, özündə qətiyyət, mərdlik, fədakarlıq, məqsədyönlülük, dözüm, təmkin, səbir, nizam-intizamlılıq, qanunlara itaət, yumor kimi xüsusiyyətləri cəmləşdirir. Həm də xasiyyət və ona xas olan əlamətlər sabit vərdiş və keyfiyyətlər kimi, bütün həyat fəaliyyəti prosesində

formalaşır və inkişaf edir. Mənfəət yönümlü eqoizm və konformizm isə əksinə, etibarsızlıq, təkəbbür, ikili standartlar, məsuliyyətsizlik, xəyanət və münaqişələr doğurur. Eqoistlər deyil, yalnız alicənab və xeyirxah insanlar xoşbəxt ola bilərlər, çünki insanın xoşbəxtliyi ətrafdakılara sevgi və qayğı göstərilməsini nəzərdə tutur.

İnsanın şüurlu həyatının hər bir günü həm anadangəlmə keyfiyyətlər əsasında, həm də təhsil hesabına sosial mühit – ailədə, kollektivdə və cəmiyyətdə formalaşan şəxsiyyət mədəniyyəti "binasına" bir kərpic qoyur. Mədəni inkişafın bu başlıca sosial alətlərinin mühüm vəzifəsi insanın dərk etmə qabiliyyətinin yetişdirilməsidir. Benedikt Spinoza yazırdı ki, dərk etmə – razılığın başlanğıcıdır. İ.V. Höte tamamilə haqlı olaraq qeyd edirdi, "hər kəs başa düşdüyünü eşidir". Buradan aydındır ki, ailədə, kollektivdə və cəmiyyətdə qarşılıqlı anlaşma və və ahəngə nail olmaq üçün insanların başa düşmə səviyyəsinin yüksəldilməsinə yardım etmək nə qədər vacibdir. Anasının səsini eşitməmiş uşaq anadangəlmə kar uşaq kimi lal böyüyür. Buna görə də şəxsiyyətin mədəniyyətinin formalaşmasında təhsilin – təlim və tərbiyənin rolu aparıcıdır. Biliklər və praktiki vərdişlər öyrədilməyən uşağa öz təbii qabiliyyətlərini inkişaf etdirmək, şəxsiyyət və lider olmaq, müdrikliyə və kamilliyə çatmaq çətin olacaq.

Nəzərə almaq lazımdır ki, mədəni insanın davranışı və insanın mədəni davranışı – heç də eyni deyil. Əgər mədəni insan xeyirxahlıq, ziyalılıq, bilik, məsuliyyət və düzgünlüyü təmsil edirsə, insanın mədəni davranışı – yalnız həmin sosial qrupda, ya da cəmiyyətdə qəbul olunmuş normalara və qaydalara zahirən uyğun gələn etiket, davranış və ədalardır. Burada başlıca olan mənəviyyat deyil, xarici əlamətdir. Akademik Dmitri Lixaçov bu barədə demişdir: "Özünü mehriban kimi, səxavətli kimi göstərmək olar, amma ziyalı kimi göstərmək olmaz". "Mədəni davranış" anlayışı ilə xarici ayini insanın qəlbinin mənəvi vəziyyəti kimi imanla əvəz etmə zəruriliyini əsaslandırmış monoteizm tərəfindən məğlub edilən bütpərəstlik dövrünün ayini arasında məna paraleli məlumdur. Monoteizm bütpərəstlik ayini üzərində qələbə çaldı.

Mədəni insanın tələbatları, məqsədləri, maraqları, idealları onun dəyərlər sistemi, həyatın mənasını və məqsədlərə nail olma vasitələrini düzgün dərk etməsi ilə motivləşdirilir. İnsanın motivasiyası bir çox cəhətdən onun daxili aləmi, dəyər-emosional baxımdan dünyaya münasibətindən asılıdır. Etiket qaydalarına formal olaraq əməl edən aşağı mədəniyyətli insanın süni xeyirxahlığı arxasında çox vaxt insanlara etinasızlıq, şəxsiyyətə hörmətsizlik, ədəbsizlik duyulur. Yüksək mədəniyyətli insan öz davranışında xarici qaydalara formal riayət etməyi deyil, özünəhörmət, vicdan tələblərini, onu əhatə edən insanlar, ailə, dostlar, həmkarlar, cəmiyyət qarşısında öz davranışına görə həqiqi mənəvi məsuliyyət hissini rəhbər tutur. Mədəni insan başqa insanlarla münasibətlərini onların sosial mənşəyindən, vəzifəsindən və qohumluq əlaqələrindən asılı olmadan, insani mahiyyətindən, şəxsiyyətin ruhi mədəniyyətindən asılı olaraq,  xeyirxahlıq prinsipləri əsasında qurur. Bu zaman o, digərlərinə münasibətdə öz davranışının düzgünlüyünə daim şübhə edir. Mədəni olmayan insan isə şəraitdən asılı olaraq, xüsusən də ətrafda-

kılara xoş təsir bağışlamaq onun üçün əlverişli olduqda, müəyyən edilmiş qaydalara və normalara zahirən riayət etməyə çalışır.

Şəxsiyyətlərarası – ailə, qonşu, dost, istehsal, işgüzar və digər münasibətlər mədəniyyəti öz konkret ifadəsini insanlar arasındakı ünsiyyət mədəniyyətində tapır. Əsl nəzakət insanlara yaxşı münasibət bəsləməkdir. O, mərifət yaradır və ona səbəb olur. İnsanlar arasında ünsiyyət zamanı "şəxsiyyətlərarası fəzanın fəth edilməsi"nə yalnız yüksək ruhi mədəniyyətə malik insanlar qadirdir. Mədəni insan – heyranedici insandır, heyranedici insan isə həmişə cəzbedici qüvvəyə malik olur. Ünsiyyət prosesində yalnız sözlər deyil, baxışları, mimikanı, intonasiyanı və s. özündə ehtiva etməklə, bütövlükdə kommunikasiya rol oynayır. Ona görə mədəni insan öz yüksək mədəniyyətini kommunikasiyanın bu formalarında da göstərməlidir. O, öz davranışını – üz ifadəsini, danışıq tərzini, tonunu, intonasiyasını, mimikasını "etik nəzarət" altında saxlamalıdır, çünki bütün bunlar ünsiyyətin "psixoloji sahəsini" pozitiv və ya neqativ istiqamətdə formalaşdırır. Nəzakət və təvazökarlıq insanın yüksək ruhi mədəniyyəti və əsl ziyalılığını təsdiqlədiyi halda, nəzakətsizlik – mənasız şöhrətpərəstliyi, borc hissinin olmamasını, səfehlik, təkəbbür, həsəd və digər nöqsan və qüsurları göstərir.

Ünsiyyət mədəniyyəti qarşılıqlı anlaşma, harmoniya və məhsuldar əməkdaşlığa nail olmaq üçün zəruri olan şəxsiyyətlərarası əlaqələrin qanunauyğunluqlarını, insanın psixoloji xüsusiyyətlərini və müxtəlif mədəniyyətlərin xüsusiyyətlərini bilməyi nəzərdə tutur. Ünsiyyətin "bumeranq effekti", "halə effekti" və "kənar effekti" xüsusiyyətləri haqqında da təsəvvürə malik olmaq lazımdır. "Bumeranq effekti" – insana xoşagəlməz informasiya verilirsə və ya xoşuna gəlməyən biri ona təzyiq göstərirsə, onu inandıraraq fikrindən daşındırmaq olmur. "Halə effekti" onunla şərtlənib ki, məhz ilk təəssüratlar pozitiv və ya neqativ aura yaradır. "Kənar effekti" o deməkdir ki, ilk və ya son informasiya həmsöhbətin yadında daha yaxşı qalır və ona daha yaddaqalan təəssürat bəxş etməyə qadirdir. Bu xüsusiyyətləri, həmçinin digər insanın dəyər və motivlərini bilmək insanı başa düşməyin açarıdır. Dəyər yönəlişliklərini və gözləntiləri başa düşmək, etibar və nəzakət, şəxsiyyətə hörmət və empatiya – özünü başqasının yerində hiss etməyi bacarmaq, onun ağrısını və sevincini hiss etmək tərəflərin mümkün qərəzliliyini və aqressivliyini dəf etməyə kömək edir, dostluq və əməkdaşlıq üçün əlverişli şərait yaradır.

Müxtəlif milli, dini, sosial və digər mədəniyyətlərdə eyni bir məişət hadisəsi haqqında müxtəlif təsəvvürlər, tarixi zaman ərzində dəyişilə bilən fərqli etik normalar və adətlər, ünsiyyət qaydaları və etalonları var. Müxtəlif "mədəniyyət dilləri" insanın baxışını, duruşunu, yerişini, hərəkətini müxtəlif cür qiymətləndirir. Belə ki, bəzi mədəniyyətlərdə gözlərə dik baxmaq düzgünlük və səmimiyyət kimi başa düşülürsə, digərlərində bu – böyüklərə qarşı ədəbsizlik və hörmətsizlik kimi qəbul olunur. Çinlilər gözlərini geniş açaraq narazılıqlarını bildirirlər. Afrikanın bəzi xalqlarında gülüş sevincin deyil, təəccüb və çaşqınlığın əlamətidir. Əgər Avropa cəmiyyətində insana tüpürmə nifrəti bildirirsə, Keniya və Tanzaniyada

yaşayan masai qəbiləsinin nümayəndələrində – sevgi və xeyirxahlığın ifadəsidir, Amerika hindularında isə xəstəyə tüpürmə həkimin mərhəmətinin əlamətidir. Ona görə müxtəlif millətlərin, xalqların və dinlərin nümayəndələri üçün universal məna daşıyan dəyərlər, baxışlar, jestlər, hərəkətlər ola bilməz. Bəzi xalqlarda razılıq bildirən təsdiqləyici baş hərəkəti başqalarında razılaşmamaq rəmzi (məsələn, bolqarlarda) ola bilər. Bununla belə, məhz intonasiyanı, duruşu, jestləri ünsiyyət mühitini formalaşdıran, insanın əsl, "pis maskalanmış" emosional münasibəti haqqında informasiya kimi nəzərdən keçirmək olar. Buna əsaslanaraq, ünsiyyət mədəniyyəti şəxsiyyətin milli və ya dini mənsubiyyətindən asılı olmayaraq, ona hörmət əsasında qurulmalıdır.

Ünsiyyət mədəniyyəti  sabit yox, dinamik hadisədir, çünki insanlar arasındakı münasibətlər onların arasında olan əlaqələrin xarakterindən və onların rəftarından asılı olaraq dəyişir. Başqa sözlə desək, ünsiyyət mədəniyyətindən asılı olaraq, insanın davranışı kifayət qədər dəyişkən ola bilər. Amerikalı psixoloq E. Bernin ünsiyyət konsepsiyasına uyğun olaraq, real həyatda (ailədə və ya kollektivdə) mürəkkəb qarşılıqlı təsirə tez-tez rast gəlinir ki, burada şəxsiyyətin mədəniyyəti və xarakterindən asılı olaraq, manipulyasiya, qeyri-bərabər ölçüyə malik rəqabət və ya əməkdaşlıq kimi ünsiyyət formaları üstünlük təşkil edə bilər. Bu zaman manipulyasiya etmə – passiv müqavimətə çevrilə bilər, rəqabətin – konstruktiv yarışdan destruktiv ambisiyalar qarşıdurmasına çevrilmək riski yaranır, xoş məram əsasında qurulan əməkdaşlıq isə qarşılıqlı fayda verən pozitiv münasibətlərin formalaşmasına yardım edir.

Onu da nəzərə almaq lazımdır ki, müəyyən kateqoriyadan olan insanlar başqalarını ələ salmaq üçün onların zəif tərəflərini və uğursuzluqlarını aşkara çıxarmağa və istifadə etməyə can atırlar. Rişxənd çətin ki, pozitiv ünsiyyətə aid olsun. Mark Tven insanın özünə olan inamını sarsmağa çalışanlardan qaçmağı məsləhət görürdü, qeyd edirdi ki, bu xüsusiyyət cılız insanlara xasdır. Böyük insan, əksinə, sizə böyük ola biləcəyiniz hissini aşılayır. Əgər tərəflərdən biri digərini manipulyasiya etməyə çalışırsa, onda qarşılıqlı anlaşma əvəzinə inamsızlıq və soyuqluq əmələ gəlir. Manipulyasiyanın formalarından biri – mənfəətçi davranış niyyətində olan "oyun"dur ki, bu zaman insan heç də nəzərdə tutduğunu təsvir etməyərək, həmsöhbəti üçün müəyyən tələ qurur. Çox vaxt belə tələlər xasiyyətin zəif tərəflərinə hesablanır: xəsislik, qorxaqlıq, əsəbilik, həssaslıq və s. Belə oyunun "qarmağına keçən" qurban, bir qayda olaraq, mənəvi, siyasi və ya maddi itki ilə üzləşir. Ümumilikdə isə "oyunun" nəticəsi kədər və məyusluq, soyuqluq və ya münasibətlərin qırılmasıdır.

Xoş məram üzərində qurulan əməkdaşlıq isə tamamilə əks nəticələr verir. İnsanlar sosial-mədəni fəaliyyət prosesində bir-birinin təsirinə məruz qalırlar. Qərb psixologiyasında "interaksionizm" adlandırılan bu qarşılıqlı təsir, kooperativləşdirilmiş hərəkətlərin birgə proqramlarına hədəflənən razılaşdırılmış şəxsiyyətlərarası qarşılıqlı təsirin səmərəli startegiyasının hazırlanmasına kömək edir. Qarşılıqlı münasibətlər mədəniyyətinin keyfiyyət səviyyəsi nə qədər yüksəkdir-

sə, mədəni uyğunluq prinsipinə əməl edilməsinə əsaslanan birgə fəaliyyətin nəticələri də bir o qədər yaxşı olar. Əlbəttə ki, əməkdaşlığın konstruktiv mövqeyini yaratmaq və bunun üçün lazım olan qarşılıqlı anlaşmaya nail olmaq üçün digər insanın daxili motivlərini anlamaq çox vacibdir. İnsanların qarşılıqlı anlaşma "sahəsi" və keyfiyyəti onların şəxsiyyət mədəniyyətinin keyfiyyət səviyyəsindən asılıdır. Yüksək mədəniyyət prinsipləri və dəyərləri üzərində qurulan ünsiyyət insanı nəcibləşdirir və yüksəldir. Belə ünsiyyət səmimiyyəti, xeyirxahlığı, düzgün seçilmiş tonu, səbri, həmsöhbətini düzgün başa düşməyə qarşılıqlı cəhdi, maraq və gözləntiləri uzlaşdırmaq bacarığını nəzərdə tutur. Əgər ünsiyyətin əsasını kommunikasiyanın bir növü olan, həmsöhbətinin şəxsiyyətinə hörməti və ona münasibətdə səmimiyyəti nəzərdə tutan "aktuallaşdırma" təşkil edərsə, nəticə müsbət olar. Səmimiyyət, təmənnasızlıq, həmrəylik və hörmət uzunmüddətli pozitiv insan münasibətlərinin formalaşdırılması amilləridir. Yaxşı bir ifadəni yada salaq: "Ən böyük hiyləgərlik – səmimilikdir". Yaltaqlıq, məddahlıq və ifrat konformizm, E. Bernin təbirincə, insan münasibətlərinin həqiqi dəyərləri ilə təmin olunmayan "səfehlərin pulu", "xəyali əskinazlardır". İyerarxiya pilləkənində özündən yuxarı pillədə dayanan insanlara hörmət yox, yaltaqlıq edən kəs gec ya da tez onlara xəyanət edəcək, çünki məlum olduğu üzrə, yaltaqlığın o biri üzü satqınlıqdır. O da aydındır ki, zəruri tənqid də nəzakətli və ədalətli olmalı, insanın ləyaqətini alçaltmamalı, onun daha yaxşı olmasına kömək etməlidir. Artur Şopenhauer hesab edirdi ki, "necə ki dərmanın dozası yüksək olanda məqsədə xidmət etmir, məzəmmət və tənqid də ədalət həddini keçəndə – məqsədinə nail olmur". Əməkdaşlıq fəlsəfəsi – zülmü, ədalətsizliyi, ixtilafları və sosial-siyasi kataklizmləri doğuran "hakimiyyət iradəsinin" və təcavüzkarlığın aradan qaldırılması yoludur.

Digər insanlarla ünsiyyətdə ton, üslub, mövqe, ünsiyyət taktikası, həmsöhbətin məqsəd və gözləntilərinin başa düşülməsi, maraqları və mədəniyyəti harmonizasiya etmək bacarığı mühüm əhəmiyyət kəsb edir. Özümüzdə pozitiv ünsiyyət bacarığı formalaşdırmalıyıq ki, həmsöhbətimizə də mənəvi rahatlıq hissi ötürə bilək. Bununla yanaşı, ünsiyyətdə yalnız öz rəylərinə əsasən nəticə çıxarmaq lazım deyil. Bu rəyləri həmsöhbətin rəyləri ilə uyğunlaşdırmaq, onları başa düşməyə çalışmaq vacibdir. Başqalarının fikrinə qulaq asmaq və bu zaman şəxsi özünə inamına zərər yetirmədən, öz davranışına görə məsuliyyət daşımaq lazımdır. İnsanları qiymətləndirərkən həqiqəti təhrif edən, əsassız rəylərdən çəkinmək lazımdır. Biz insan haqqında qeyri-obyektiv təsəvvürə malik olduqda onun sözlərində və davranışında şüurumuzda formalaşmış obrazını təsdiqləyən nələrisə görməyə çalışırıq. Belə yanaşma çox vaxt ünsiyyətə əngəl yaradır, qeyri-səmimilik doğurur və ola bilsin, potensial baxımdan ən sadiq dostları və həmfikirləri itirməyimizə səbəb olur. Qeyd edək ki, "beynimizdə tutduğumuz obrazın" formalaşdırılması metodları tez-tez ayrıca insanlar və ya insan qrupları tərəfindən mümkün ciddi rəqiblərin və ya əleyhdarların nüfuzdan salınması və bərtərəf edilməsi məqsədilə ictimai şüurun manipulyasiyası aləti kimi istifadə olunur.

Ünsiyyət mədəniyyəti qarşılıqlı anlaşmaya nail olmanı nəzərdə tutur ki, onsuz yüksək şəxsiyyətlərarası münasibətlər mədəniyyəti mümkün deyil. Qarşılıqlı anlaşmanın çətinliyi çox vaxt tərəflərin eyni fakt və hadisələri müxtəlif cür şərh etməsinə səbəb olan intellekt və dəyər yönəlişlikləri səviyyəsinin fərqli olmasındadır. Başqasının özünə qarşı olan münasibətin xarakterinin şəxsiyyət tərəfindən qiymətləndirilməsi, onun müraciət etdiyi tonun qəbul edilməsi, onun sözlərinin arxasında duran, bu sözlərin və münasibətin səmimiliyini təsdiqləyən konkret əməllərin və real nəticələrin təhlili böyük rol oynayır. Qarşılıqlı anlaşma mədəniyyətinə o da mühüm təsir göstərir ki, insanların konkret əməllərinə və hərəkətlərinə münasibətdə bizim təsəvvürlərimiz və psixoloji yönəlişliklərimiz, əsasən, həm həyatda, həm də insanların özündə baş verən dəyişikliklər təhlil edilmədən, əvvəlki təcrübə ilə formalaşır. Bunu diqqətə alaraq, hər kəs sözlərinə və hərəkətlərinə şüuru ilə nəzarət və düzəliş etməyin gərəkliliyini dərk etməli, daim özünütəkmilləşdirməyə, səmimi olmağa çalışmalıdır. Mütəxəssislər hesab edirlər ki, ünsiyyətin "qeyri-səmimiliyə" əsaslanan "tülkü" üslubu gizli ziddiyyətlərin düşmənlik və böhran doğuran, geri dönmək mümkün olmayan vəziyyətə çatmasına səbəb olur. Ziddiyyətlərin həll edilməsinin ən yaxşı yolu onların əsl mahiyyətinin və xüsusiyyətlərinin açıq və dürüst müzakirəsi, öz səhvlərini görmək və çəkinmədən etiraf etməkdir. Və burada da məsuliyyət daha yüksək intellektual mədəniyyətli insanların üzərinə düşür, çünki iki dalaşan arasında ən çox günahkar olanı daha ağıllı olandır. Beləliklə, qarşılıqlı anlaşma mədəniyyəti nəzakətli ünsiyyət üzərində qurulur, çünki nəzakətsiz ünsiyyət mütləq münaqişələrə gətirib çıxarır.

Belə hesab olunur ki, münaqişələr, başlıca olaraq, üç əsas səbəbdən baş verir: bu və ya digər faktların başa düşülməsində fikir ayrılıqlarına görə, düşüncələrin uyğunsuzluğuna görə, eyni əməllərə və qərarlara müxtəlif baxışlara görə. Çox vaxt işgüzar, ailə və ya şəxsiyyətlərarası münaqişənin səbəbi şəxsin insanlara, niyyətlərə, planlara və s. "daimi şübhə" hissi olur ki, bu da nəsə etmək istəyinin itməsinə gətirib çıxarır. Mübahisə edən şəxs özünütəsdiq ehtiyacının təmin edilməsinə can ataraq, üç əsas mövqe tuta bilər: "mütləqiyyət", "psevdoloji" ("yalançı") və "yaşlı mövqeyi". "Mütləqiyyət" mövqeyi, konstruktiv diskussiya aparmağı bacarmayan və öz mövqeyini təsdiqləyici arqumentlərin olmamasını qarşı tərəfi əsassız ittiham etmək, damğa vurmaq, bəzən isə onların şəxsi ləyaqətini təhqir etməklə kompensasiya edən avtoritar xarakterli insanlara xasdır. "Psevdoloji mövqe" öz apriori fikrinə məntiq dəlilləri, sağlam düşüncə və faktlarla haqq qazandırmağa çalışır. Yəni söhbət qabaqcadan müəyyən edilmiş fikri nə olursa olsun təsdiqləmək üçün alətlər axtarışından gedir ki, bu da təbii olaraq, diskussiyanın qeyri-konstruktiv formasına, çox vaxt isə həmsöhbətin şəxsiyyətini alçaltmaq cəhdinə gətirib çıxarır. "Yaşlı mövqeyi" öz şəxsiyyət motivlərinin təhlilindən başlayır ki, bu da qarşıdurma üçün subyektiv bəhanələrin yox olmasına kömək edir, diskussiya prosesində qabaqcadan yaranan yanlış fikirdən, antipatiyadan və aqressivlikdən qurtulmağa imkan verir.

Qiymətləndirmə üsullarını və hadisələrin əhəmiyyətlilik dərəcəsini, insanların başqa insanlarla əlaqələrində reallaşdırmağa çalışdığı iddiaları müəyyənləşdirən emosiyalar, psixoloji yönəlişliklər mübahisələrdə mühüm rol oynayır. Obyektiv qiymətləndirmə apara bilməyən insan, əsasında: özünün alicənablığı illüziyası, ikili etika və "hər şey aydındır" psixoloji göstəriş kimi şəxsi sosial-müdafiə reaksiyalarının olduğu öz daxili mövqeyindən çıxış edir. Birinci halda bu, əks nöqteyi-nəzərləri istisna edən özündənrazılıqdır. İkinci halda bu, şəxsi mövqeyinə bəraət qazandırmaq və həmsöhbətə ciddi tələblər irəli sürməkdir. Üçüncü halda – bu, insanın şəxsi təsəvvürləri çərçivəsindən kənara çıxan hər şeyi inkar edən sabit stereotipdir. Belə insana başqalarının davranış motivləri izah edilərkən həqiqətən hər şey aydın olur. Bu perspektivsiz vəziyyətdir ki, ondan çıxış – başqalarını yaxşı yöndə dəyişdirilməsini öz-özünün pozitiv dəyişimindən başlamaq lazım olduğunu dərk etməkdən ibarətdir. Belə yanaşma özünübəraətdən, subyektiv qiymətləndirmələrdən imtinanı və başqa insanın real keyfiyyətlərinin, mövqeləri və yönəlişliklərinin tam qəbul edilməsi, onun motivlərinin və əhval-ruhiyyəsinin mənbələrinin başa düşülməsi prinsipinə əsaslanan "humanist psixologiya"ya yönəlməni nəzərdə tutur. Münaqişəli vəziyyətdə neqativ tənqidə: "Siz nəyi nəzərdə tutursunuz?", "Bununla nə demək istəyirsiniz?", "Sizin üçün nə edə bilərəm?" və s. kimi dostyana suallarla cavab vermək bacarığı ağıllı mövqe hesab olunur.

Bu və ya digər insanlara qarşı qabaqcadan əmələ gəlmiş yanlış fikirlər insan münasibətləri mədəniyyətinə böyük zərər yetirir, çünki onlar bəlkə də dostluq və əməkdaşlıq münasibətləri qura biləcəyimiz şəxsiyyətin keyfiyyət və əlamətlərini görməyə və obyektiv qiymətləndirməyə əngəl yaradır. İnsanların məşhur "biz" və "onlar" formulu üzrə qarşı-qarşıya qoyulması, bir qayda olaraq, "biz"in qədərindən artıq qiymətləndirilməsi, "onların" yetərincə qiymətləndirilməməsi ilə müşayiət olunur. Bu formul eyni bir etnik, sosial və ya dini qrupa aid olan, ümumi baxışlar, adətlər, daxili vəhdət, təfəkkür mədəniyyətinin xüsusiyyətləri ilə birləşdirilmiş insanların davranış stereotiplərinin qanunauyğun nəticəsidir. Qrupun üstünlüyü duyğusuna, etno-milli mövhumatlara və xurafatlara aparan bu yol, insanlar arasında müəyyən sərhəd yaradır, eqoizm, ksenofobiya, milliyyətçilik və faşizm üçün zəmin hazırlayır. Xurafatlardan qurtulmaq üçün mühakimə azadlığına, analitik düşüncəyə malik olmaq, öz davranışını şüurunun nəzarəti altına almaq, öz yönəlişliklərini və düşüncə stereotiplərini, başqa insanlara qarşı münasibətinin inventarizasiyasını və şüurlu seleksiyasını vaxtaşırı tənqidi baxışdan keçirmək lazımdır.

Əgər insan şəxsi fikrinin müdafiəsinə "mülkiyyət növlərindən biri" kimi baxırsa, mübahisə zamanı mövqelərini itirdikcə, qəzəblənəcəkdir. Başa düşülməyə ehtiyac duymayan özündənrazı avtoritar şəxsiyyətlər dominantlıq etməyə meyillidirlər, faktların reallığına və fikirlərin əsaslılığına baxmayaraq, diskussiya və mübahisələrdə üstün gəlməyə, hakim olmağa can atırlar. Onlar elmin nailiyyətlərinə əsaslanan məntiqi arqumentlər əvəzinə, çox vaxt ehkamlar və stereotip təsəvvürlər irəli sürürlər, özünütəsdiq üsulu kimi, müdafiə etdikləri "həqiqətlərin"

“hamıya məlum olmasına” və “qədimliyinə” istinad edirlər. Özünün haqlı olduğunu elmi və məntiqi baxımdan sübut edə bilməmək – yeni qiymətləndirmə və imkanları görmə bacarığına malik, qabaqcıl görüşlər və innovativ yanaşmaların daşıyıcısı rolunda çıxış edən opponentlərinə münasibətdə “düşmən obrazı” yaratmaqla, düşməncəsinə münasibətə və qəzəbə çevrilir. Mübahisəli vəziyyətlərin əksəriyyətində avtoritar şəxsiyyət ümumi məqsədə nail olmağa deyil, özünün “yeganə düzgün olan” mövqeyinin müdafiəsi və təsdiqlənməsi üçün psevdoloji metodlardan istifadə etməyə can atır, bu, bir qayda olaraq, opponentlərin əsassız ittiham edilməsinə gətirib çıxarır. Belə vəziyyətin mahiyyətini başa düşmək üçün – “nüfuzu” həqiqi biliyin başlıca mənbəyi kimi şübhə altına alan XII əsr ingilis alimi və rahibi Rocer Bekonun “biliyin üç mənbəyi” hekayəsini yada salmaq kifayətdir.

Gizli şəxsiyyətlərarası, əmək və ya ailə münaqişələri, bir qayda olaraq, münaqişənin əsl səbəbinin onun üçün bəhanə tapılması asan olan uydurma səbəb üzərinə köçürülməsi ilə səciyyələnir. Belə münaqişələr öz peşəkar səriştəsizliyini, insanlarla işləməkdə bacarıqsızlığını, keyfiyyətli idarəetmə və təşkilatın fəaliyyətində yüksək nəticələri təmin etməkdə qabiliyyətsizliyini “nizam-intizam uğrunda mübarizə” ilə ört-basdır edən bəzi rəhbərlər üçün xarakterikdir. Eyni zamanda konstruktiv fikir mübadiləsi insanın öz nöqteyi-nəzərini təsdiq etmək üçün rəhbər tutduğu dəlilləri və onların arxasındakı motivləri, dəlil və qənaətlərin əsaslandığı real səbəbləri aşkara çıxarmağı nəzərdə tutur. Müzakirə olunan problem və yeni biliyin düzgün anlaşılması və əldə olunması kimi nəzərdən keçirilən həqiqət axtarışı konstruktiv fikir mübadiləsində başlıca məsələ olmalıdır. S.V. Kovalyov tərəfindən münaqişəsiz münasibətlər və firavan ailə münasibətlərinin qurulması üçün şərait formalaşdıran altı sadə prinsip təklif edilib:

1. Həmişə nəzakətli olmaq lazımdır ki, başqalarından da nəzakət gözləyə biləsən;
2. Yaxınlara və ümumilikdə onu əhatə edən insanlara daim diqqət ayırmaq;
3. Başqalarının məziyyətlərinə səmimi qəlbdən heyran olmaq, çünki insanları yaxşılığa doğru dəyişdirməyin ən sadə üsulu onlarla elə davranmaqdır ki, sanki onlar artıq sizin görmək istədiyiniz kimidirlər;
4. Tənqidə aludə olmamaq, çünki insan həmişə özü haqqında yaxşı insan təsəvvürünü başqalarının məzəmmətlərindən qorumağa çalışır;
5. Dərhal başqasını dəyişdirməyə çalışmamaq, çünki hər kəsin özünəməxsus olmaq haqqı var;
6. İstənilən hisləri öldürən deyingənlikdən uzaq durmaq.

Şəxsiyyətlərarası ünsiyyətin qarşılıqlı anlaşma və davranışın uzlaşdırılmasını təmin edən tənzimçiləri qismində davranış və insan münasibətlərinin standartları, stereotipləri və etalonları çıxış edir. Onlar insana psixoloji cəhətdən düzgün diaqnoz qoymağa və düzgün seçim etməyə imkan yaradır. İnsan ünsiyyətinin çoxəsrlik təcrübəsinin toplandığı etalonlar, standartlar və stereotipləri onların əsas tərkib hissələrinin: intellektul, emosional və obrazlı komponentlərin prizmasından nəzərdən keçirmək olar. İntellektual komponent bu və ya digər insanlara, müəyyən etnosların, xalqların, millətlərin nümayəndələrinə münasibətin ifadə

olunduğu "etnik stereotiplərin" dəyər mühakimələri ilə bağlıdır. Qeyri-adekvat düşüncə stereotipləri ilə yüklənməmiş tənqidi təhlil aparmağa imkan verən intellektual mədəniyyət konkret şəraitin və ya insanın xarakterinin müəyyən edilməsi və qiymətləndirilməsinin düzgünlüyünün şərtidir. O, "meşənin dərinliklərini görməyə", ayrıca fərdə etnik və digər stereotip xüsusiyyətləri aid etmədən, onun müsbət cəhətlərini qiymətləndirməyə imkan yaradır. Emosional komponent müəyyən standartda təcəssüm etmiş bu və ya digər hadisə ilə bağlı yaranan hər hansı bir hissi ifadə edir. Bu komponent insanda bu və ya digər psixoloji yönəlişliklər və müəyyən obyektə münasibətlər formalaşdırır. Obrazlı komponent şüurda bu və ya digər insan tipi, etnik və ya milli tip haqqında təsəvvür kimi mövcuddur. Hər üç komponent bir-biri ilə qarşılıqlı əlaqəlidir və Lütfi Zadənin qeyri-səlis məntiq qanunlarına uyğun olaraq bir-birinə qarşılıqlı təsir edir. Bu və ya digər komponentin üstünlüyü yaş, informasiyanın obyektivlik dərəcəsi, analitik təfəkkür, əvvəlcədən formalaşdırılmış "surət" və s. kimi amillərdən asılıdır. Lakin şübhəsiz ki, komponentlərin, stereotiplərin və standartların qarşılıqlı təsir dinamikasında şəxsiyyətin intellektual mədəniyyəti aparıcı rol oynayır. O, emosional və obrazlı komponentlərin formalaşmasını, nəticədə isə bütövlükdə insanın mədəniyyətinin inkişaf səviyyəsini də müəyyən edir.

İnsan münasibətləri mədəniyyətində kütləvi sosial-mədəni hadisələrin psixoloji mexanizmləri müəyyən rol oynayır. Sosial yönəlişliklər olan və özündə çoxəsrlik ünsiyyət təcrübəsini cəmləşdirən ənənə, adət, dəb kimi sosial-psixoloji hadisələr ictimai münasibətlərin tənzimləyiciləri kimi çıxış edirlər. İctimai münasibətlər mədəniyyətində dəb və reklam müəyyən yer tutur. Mədəniyyətindən asılı olaraq, müxtəlif insanlarda müxtəlif davranış alqoritmləri (qaydalar toplusu), bu və ya digər insanlara, hadisələrə, təzahürlərə, faktlara fərqli münasibətlər formalaşa bilər. İnkişaf səviyyəsi, cəmiyyətin ruhi mədəniyyət dəyərləri və siyasətdən asılı olaraq, dəb və reklam insanın həyatında ikili rol oynaya bilər. Əgər dəb intehlak cəmiyyətinə xas olan şəkildə insanı sadəcə digər insanlardan fərqləndirməyib, onun üçün gözəlliyi və faydalılığı ifadə edirsə, konstruktiv səciyyəyə malik ola bilər. Əgər dəb, reklam və KİV ictimai şüuru manipulyasiya etmək funksiyalarını yerinə yetirirsə, şəxsiyyəti simasızlaşdıraraq insana qiymətləndirmənin və münasibətlərin müəyyən normalarını zorla qəbul etdirirsə, onları çətin ki sosial mədəniyyətin pozitiv amilləri kimi nəzərdən keçirmək mümkün olsun. Bu təzahürlərin dolayı yolla təsir etmək xüsusiyyətini, onların əmələ gəlməsi və işləməsinin psixoloji mexanizmlərini başa düşmək ictimai münasibətlər mədəniyyətini tənzimləməyə kömək edir.

Yaratma və dağıtma, şərin dəf edilməsi və xeyrin stimullaşdırılması insanın mədəniyyətindən, dəyərlər sistemindən, dünyagörüşündən, tərbiyəsindən, təsəvvürlərindən, obyektiv informasiyadan və şəxsiyyətin xarakterindən asılıdır. İnsanın və bütün dünyanın xilası – insanların həyat keyfiyyətinə, inkişafına və rifahına təsir göstərən yüksək intellektual və mənəvi mədəniyyətdədir. Ruhi mədəniyyətin yüksəlişi ilə hər bir şəxsiyyət və bütün bəşəriyyət səviyyəsində şərin dəf

edilməsi imkanları artır. Mədəni insan təkcə özü üçün deyil, başqaları üçün də yaşamalı, başqalarına xoşbəxtlik bəxş etməyə can atmalı, insanları qiymətləndirməyi bacarmalı və ona göstərilən yaxşılığa və diqqətə görə minnətdar olmalı, ədəb qaydalarına riayət etməli, yaşlıların insana xas zəifliklərinə qarşı mülayim olmalıdır. Xeyirxahlığa bağlılıq, aydın zəka, dərin elmi biliklər, səlis məntiq, obyektivlik və cəmiyyətin rifahı üçün yaradıcılıq – insana xüsusi ruhi nüfuz və müəyyən dərəcədə təlqinedicilik (insanlara təsir etmə bacarıqları) dərəcəsi bəxş edir.

Müxtəlif insanlar başqasının sevincinə və kədərinə müxtəlif cür reaksiya verirlər. Kimiləri dərdə şərik olur, bəziləri həsəd aparır, inciyir və ya başqasının dərdinə sevinir. Doğru və yanlış, konstruktiv və destruktiv, xeyir və şər arasında seçim şəxsiyyətin mədəniyyətindən asılıdır. Bu seçim həmişə – müxtəlif həyat şəraitlərində, həyatın müxtəlif mərhələlərində mövcuddur. O, insanın intellekti və mənəviyyatı, onun mədəni dəyərlər sistemi, xarakteri və iradəsindən asılıdır.

“Düzlüklə alçaqlıq çarpışan zaman  
Alçaqlıq nədənsə qazanır hər an.  
Çünki alçaqlarçün ən alçaq işlər,  
Alçaqlıq deyildir, hünərdir, hünər”.

Mirzə Şəfi Vazehin bu dahiyanə şeirində şərin dəf edilməsi vasitəsi kimi ruhi mədəniyyətin aparıcı rolunu açıqlayan sosial həyatın ən mühüm qanunauyğunluğu öz əksini tapıb. İnsanı Şərdən necə qorumalı? Yalnız inzibati-hüquqi metodlarla, yalnız törədilən cinayətlərə görə cəza verməklə müasir dünyada şəri dəf etmək olarmı? Çətin ki. Yəqin ki, insanların təfəkkürü, niyyətləri və əməllərinin etik korreksiyası sayəsində şərin təzahürlərini minimuma endirərək, onun qarşısını almaq daha düzgündür. Şərin aradan qaldırılması və insanın xilasında alternativsiz vasitə – insanın düzgün təlim və tərbiyəsi sayəsində formalaşan yüksək ruhi mədəniyyətdir. Məhz keyfiyyətli təhsil sayəsində humanist mədəniyyətin “ilk kərpicləri” qoyulur ki, onlar sonradan insanın “anadangəlmə” mədəni keyfiyyətlərində özünü büruzə verir. Əgər bu anadangəlmə mədəni keyfiyyətlər dövlətin səmərəli siyasəti ilə şərtlənən cəmiyyətin pozitiv sosial-mədəni mühitinin münbit şəraitinə düşərsə, onlar gözlənilən nəticələri yüksək insan mədəniyyəti şəklində mütləq verəcəkdir. Bunlar insanların etnik və ya dini mənsubiyyətindən, təbii-coğrafi şəraitdən və tarixi dövrdən asılı olmayaraq, insanların rifahı, sosial və siyasi təhlükəsizliyi və həyat keyfiyyətinə nail olmaq üçün zəruri zəmin yaradan intellektual və etik mədəniyyət, hüquq mədəniyyəti, şəxsiyyətlərarası mədəniyyət, beynəlxalq münasibətlər mədəniyyəti və cəmiyyətin xeyrinə yaradıcı fəaliyyətdir. Əgər dünya mədəniyyəti qoruyarsa, yalnız yüksək ruhi mədəniyyət dünyanı xilas edə bilər!

Xeyir və Şərin mənəvi kateqoriyaları həyatın özü qədər əbədidir. Onlar insan münasibətləri mədəniyyəti və ya antimədəniyyətinin həyati mühitini qidalandırırlar və toxumunu insanın özü əkdiyi cücərtilər verirlər. Mədəniyyətin inkişaf

prosesini bizim üçün uzun, gözəl və məhsuldar həyatı təmin etməyə qadir olan pozitiv, yaradıcı məcraya yönəltməyi öyrənmək lazımdır. Düzgün seçim etmiş mədəni insan özündə hərtərəflilik, insan ləyaqəti, başqaları qarşısında mənəvi məsuliyyət, səmimiyyət və xeyirxahlıq formalaşdırmağa çalışmalıdır.

## Beynəlxalq münasibətlər mədəniyyəti

Müasir dünya sivilizasiyasının inkişaf proseslərinin tənzimlənməsində və beynəlxalq idarəçilik sisteminin təkmilləşdirilməsində beynəlxalq münasibətlər mədəniyyətinin xüsusi yeri vardır. Beynəlxalq münasibətlər mədəniyyəti – müxtəlif xalqların maraqlarının uzlaşdırılmasına və mədəniyyətlərinin ahəngdarlığına istiqamətlənmiş, müəyyən peşəkar biliklər, dəyərlər, etik və hüquqi normalar, üsullar, proseslər və texnologiyalarda təcəssüm olunan beynəlxalq fəaliyyətdir. O, sosial-mədəni, o cümlədən elmi, maarifləndirici, texnoloji, hüquqi, tibbi, ekoloji, siyasi, ticari-iqtisadi, dini, idman, bədii, diplomatik və digər münasibətlərin geniş spektrini özündə ehtiva edir.

Beynəlxalq münasibətlər mədəniyyəti mədəniyyətlərin dialoqunun, Qərb və Şərq sivilizasiyalarının əməkdaşlığı üçün əlverişli şəraitin formalaşdırılmasının vacib şərtidir. O, yüksək etik və hüquqi mədəniyyəti, ümumbəşəri mədəni dəyərlərin prioritetliyini, universal mənəvi prinsipləri, xoş məramı, insan hüquqlarının müdafiəsini, iştirakçıların qarşılıqlı iqtisadi, siyasi və elmi maraqlarının hesaba alınmasını nəzərdə tutur. Mədəniyyətin bu növü dünya mədəniyyətinin təsis edilməsi və saxlanması, universal həyat tərzi, xalqların və dövlətlərin qarşılıqlı anlaşma, həmrəylik və əməkdaşlığının əsasında dayanan humanizmin təsdiqi üçün zəruri olan qlobal mədəni identikliyin formalaşdırılmasının əsasını təşkil edir.

Beynəlxalq münasibətlər mədəniyyətinin ən mühüm hissəsi beynəlxalq hüquqdur. Beynəlxalq hüquq – sülh və əməkdaşlığın təmin edilməsi məqsədi ilə dövlətlərarası münasibətləri tənzimləyən hüquqi normalar sistemidir. İnsanın və cəmiyyətin həyati maraqlarının müdafiəsində beynəlxalq hüququn əhəmiyyətinin artması getdikcə əhalinin daha geniş təbəqələrinin diqqətini ona cəlb edir. İnsanın bütün hüquqlarının əsasını təhlükəsiz dünyada yaşamaq hüququnun təşkil etdiyi və bir çox digərləri kimi, bu hüququn da yalnız etibarlı beynəlxalq hüquq qaydaları şəraitində təmin edilə biləcəyi dərk edilir. Beynəlxalq hüququn pozitiv imkanlarının reallaşdırılmasında ictimaiyyətin rolu artır. Ətraf mühit hüququ, təhlükəsizlik hüququ, humanitar hüquq, iqtisadi hüquq kimi sahələrdə də ictimaiyyət özünü fəal surətdə göstərir. Beynəlxalq hüquqa təsir göstərən xalq diplomatiyasının da gücü artır.

Yeni siyasi təfəkkürün əks olunduğu müasir beynəlxalq hüququn əsası BMT Nizamnaməsi ilə qoyulub. Beynəlxalq hüququn əsasına əsrlər boyu üstünlük təşkil edən güc hakimiyyəti konsepsiyasından imtina edilməsini və onun hüquq hakimiyyəti ilə əvəzlənməsini nəzərdə tutan əməkdaşlıq prinsipi qoyuldu. Müasir

beynəlxalq hüququn səciyyəvi xüsusiyyəti, onda insan hüquqlarının təsdiq edilməsidir. Nizamnamə başlıca sistemyaradıcı amillər kimi, beynəlxalq hüququn ümumi məqsədlərini və prinsiplərini müəyyən etmişdir. Hüquq, normalar məcmusundan – vahid məqsədlər və prinsiplər əsasında yaradılmış sistemə çevrildi. Beynəlxalq hüququn işləmə mexanizmi əhəmiyyətli dərəcədə dəyişdi. Beynəlxalq təşkilatların təkmil sisteminin yaradılması normayaratma və onları tətbiq etmə proseslərinin institutlaşdırılması ilə nəticələndi.

Müasir beynəlxalq hüquq üçün hüquqi məcburetmə qüvvəsi xarakterikdir. O, beynəlxalq hüququn zəruri keyfiyyəti olub, dövlətlərarası münasibətləri hüquqa xas metodla tənzimləyir. Dövlətlərin razılaşması yalnız ayrıca bir müqaviləyə, ayrıca normaya deyil, həm də bütövlükdə beynəlxalq hüquqa hüquqi məcburetmə qüvvəsi verir. Bu, beynəlxalq hüquq üzrə öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipində öz ifadəsini tapır. Beynəlxalq hüququn hüquqi məcburetmə qüvvəsi problemi bu hüququn təbiəti ilə bağlı olan problemlər sırasına aid edilir. Ona görə də həmin sahədəki əsas konsepsiyalar beynəlxalq hüquqi doktrinanın əsas məktəblərinə uyğun gəlir. Təbii hüquq məktəbinin tərəfdarları beynəlxalq hüququn məcburetmə qüvvəsinin mənbəyini təbiət qanunlarında, insan şüurunda və s. görürlər. Pozitiv məktəbin nümayəndələri onun mənbəyi qismində dövlətlərin sazişini, razılaşmasını göstərirlər. Doktrinada beynəlxalq hüququn məcburetmə qüvvəsinə dair üçüncü əsas istiqaməti nihilistik adlandırmaq olar, belə ki, ona aid olan konsepsiyalar beynəlxalq hüququn hüquqi qüvvəsini bu və ya digər şəkildə inkar edirlər.

Beynəlxalq hüququn BMT Nizamnaməsi ilə müəyyən edilən əsas məqsədləri aşağıdakılardır:

- sülhün və təhlükəsizliyin qorunması;
- dostluq münasibətlərinin inkişafı;
- iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində, insan hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində əməkdaşlığın həyata keçirilməsi;
- ədalətin, müqavilələrdən və beynəlxalq hüququn digər mənbələrindən irəli gələn öhdəliklərə hörmətin bərqərar ola bildiyi şəraitin yaradılması.

Müqavilənin məqsədləri onun reallaşdırılması üzrə görülən tədbirlərin qanuniliyinin meyarıdır.

Beynəlxalq hüququn əsas prinsipləri – beynəlxalq hüququn səciyyəvi xüsusiyyətlərini, habelə başlıca məzmununu əks etdirən və ali hüquqi qüvvəyə malik ümumiləşdirilmiş normalardır. Diplomatik praktikada onları adətən, beynəlxalq münasibətlərin prinsipləri adlandırırlar. Beynəlxalq hüquq çərçivəsində prinsiplərin müxtəlif növləri mövcuddur. Onların arasında ideya prinsipləri mühüm yer tutur. Onlara sülh və əməkdaşlıq, humanizm, demokratiya ideyaları və s. aiddir. Bu prinsiplər BMT Nizamnaməsində təsbit edilmişdir. Onların məzmunu BMT Nizamnəməsinə müvafiq olaraq Baş Assambleya tərəfindən 1970-ci ildə qəbul olunmuş, dostluq münasibətləri və əməkdaşlığa dair Beynəlxalq hüquq prinsipləri haqqında Bəyannamədə, həmçinin 1975-ci ildə keçirilmiş Avropada Təhlü-

kəsizlik və Əməkdaşlıq üzrə Müşavirənin Yekun aktında açıqlanır. Müasir beynəlxalq münasibətlər mədəniyyətinin əsaslandığı etik-hüquqi prinsiplər Helsinki razılaşmalarında da öz əksini tapmışdır.

Müasir beynəlxalq münasibətlər mədəniyyətini müəyyən edən əsas prinsiplər aşağıdakılardır:

1. Güc tətbiq etməmək prinsipi.
2. Mübahisələri dinc yolla həll etmək prinsipi.
3. İnsan hüquqlarına hörmət edilməsi prinsipi.
4. Dövlətlərin suveren bərabərliyi prinsipi.
5. Digər dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi.
6. Dövlətlərin ərazi bütövlüyü prinsipi.
7. Sərhədlərin toxunulmazlığı prinsipi.
8. Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etməsi prinsipi.
9. Əməkdaşlıq prinsipi.
10. Beynəlxalq hüquq üzrə öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi.

Güc tətbiq etməmə prinsipi, gələcək nəsillərin müharibə fəlakətlərindən xilasını silahlı qüvvələrin başqa cür deyil, yalnız ümumi məqsədlərlə tətbiqinə uyğun praktikanın qəbulunu əsas məqsəd kimi müəyyənləşdirən BMT Nizamnaməsində təsis edilmişdir. Nizamnamə yalnız silahlı qüvvələrin tətbiqini deyil, ümumiyyətlə güc tətbiqini qadağan etmişdir. Bundan əlavə, BMT məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güc tətbiqi ilə hədələmək belə qadağandır.

Nizamnamə güc tətbiq etmə və ya güclə hədələmənin mümkünlüyünü yalnız iki halda nəzərdə tutur. Birincisi, sülhə təhdid, sülhün istənilən pozulması və ya təcavüz aktı halında Təhlükəsizlik Şurasının qərarına əsasən. İkincisi, silahlı hücum baş verdiyində, Təhlükəsizlik Şurası beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək üçün zəruri tədbirlər görənə qədər, özünümüdafiə hüququnun həyata keçirilməsi qaydasında.

Mübahisələrin dinc yolla nizamlanması prinsipi tələb edir ki, hər bir dövlət beynəlxalq sülhü, təhlükəsizliyi və ədaləti təhlükəyə məruz qoymamaq üçün digər dövlətlərlə olan beynəlxalq mübahisələrini dinc vasitələrlə həll etsin. Bu prinsip BMT Nizamnaməsinə müvafiq olaraq 1970-ci il tarixli Beynəlxalq hüquq prinsipləri haqqında Bəyannamədə ifadə edilmişdir. Prinsip BMT Nizamnaməsində və beynəlxalq hüquq prinsiplərini şərh edən bütün beynəlxalq aktlarda təsbit edilmişdir. Ona Baş Assambleyanın bir sıra qətnamələri həsr olunmuşdur ki, onların arasında beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsi haqqında 1982-ci il Manil bəyannaməsini  fərqləndirmək olar. Bu prinsipi müəyyən edən ilk çoxtərəfli akt Millətlər Cəmiyyətinin Statutu idi.

İnsan hüquqlarına hörmət edilməsi prinsipi bir sıra beynəlxalq sənədlərdə – BMT Nizamnaməsində, 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və 1966-cı il tarixli iki: “Mülki və siyasi hüquqlar haqqında” və “İqtisadi, sosial və mədəni hüquqlar haqqında” paktda təsbit edilmişdir. Həmçinin konkret aspektlər üzrə bir sıra: “Soyqırım cinayətinin qarşısının alınması və

cəzalandırılması haqqında (1948)", "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında (1966)", "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında (1979)", "Uşaq hüquqları haqqında (1989)" və digər konvensiyalar imzalanıb.

Suveren bərabərlik prinsipi bütün dövlətlər üçün bərabər hüquq və öhdəlikləri, o cümlədən müstəqil şəkildə öz siyasi, sosial, iqtisadi və mədəni sistemini seçmək və inkişaf etdirmək, öz qanunlarını və inzibati qaydalarını müəyyən etmək kimi suveren hüququnu nəzərdə tutur. Bu prinsipə əsasən, bütün dövlətlər bir-birinin suveren bərabərliyinə və özünəməxsusluğuna, digər dövlətlərlə münasibətlərini beynəlxalq hüquqa uyğun olaraq, öz mülahizələrinə görə müəyyən etmək və həyata keçirmək hüququna hörmət etməyə borcludurlar.

Başqa dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi. BMT Nizamnaməsinin heç bir müddəası BMT-yə səlahiyyət vermir ki, hər hansı bir dövlətin əsas etibarı ilə daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə etsin. BMT Nizamnamə qaydasında həlli üçün belə işləri təqdim etməyi üzv dövlətlərdən tələb etmir. BMT Nizamnaməsi əhəmiyyətli məsələlər dairəsi üzrə, məsələn, həyat keyfiyyətinin yüksəldilməsi, əhalinin tam məşğulluğu, insan hüquqlarına hər kəs tərəfindən hörmət edilməsinə yardım kimi sırf daxili xarakterli vəzifələr üçün əməkdaşlığın inkişafını nəzərdə tutur.

Ərazi bütövlüyü prinsipi, dövlətlərin ərazi toxunulmazlığına qarşı güc tətbiqi ilə hədələməkdən və ya güc tətbiqindən çəkinmək öhdəliyi qoyan BMT Nizamnaməsində müəyyən edilib. Ərazi dövlətin maddi əsası, onun mövcudluğunun zəruri şərtidir. Ona görə dövlətlər onun bütövlüyünün təmin edilməsinə xüsusi diqqət ayırırlar. Millətlər Cəmiyyəti Statutu üzv dövlətlərin ərazi bütövlüyünə hörmətlə yanaşmaq və hər cür xarici hücuma qarşı qorumaq öhdəliyi qoymuşdur.

Sərhədlərin toxunulmazlığı prinsipi Beynəlxalq hüquq prinsipləri haqqında Bəyannamədə əks olunub, burada güc tətbiq etməmək prinsipi haqqında bölmədə yazılır: "Hər bir dövlət digər dövlətin mövcud beynəlxalq sərhədlərinin pozulması məqsədi ilə və ya beynəlxalq mübahisələr, o cümlədən dövlət sərhədlərinə dəlalət edən mübahisəli ərazilər barədə münaqişələrin həlli üsulu kimi güc tətbiqi ilə hədələməkdən və ya onun tətbiqindən çəkinməlidir".

Xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etmə prinsipi BMT Nizamnaməsində öz əksini tapıb. Burada Təşkilatın əsas məqsədlərindən biri kimi göstərilir: "xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etmə prinsipinə hörmət əsasında millətlər arasında dostluq münasibətlərini inkişaf etdirmək, habelə dünyada sülhün möhkəmlənməsi üçün digər müvafiq tədbirlər görmək". Prinsipin məzmunu ilk dəfə Beynəlxalq hüquq prinsipləri Bəyannaməsində açıqlanıb: "Bütün xalqların sərbəst şəkildə, xaricdən heç bir müdaxilə olmadan öz siyasi statusunu müəyyən etmək və öz iqtisadi, sosial və mədəni inkişafını həyata keçirmək hüququ var və BMT Nizamnaməsinə uyğun olaraq, hər bir dövlət bu hüquqa hörmətlə yanaşmalıdır".

BMT Nizamnaməsində təcəssüm olunan hərtərəfli əməkdaşlıq ideyasını əks etdirən əməkdaşlıq prinsipi Beynəlxalq hüququn prinsipləri haqqında Bəyanna-

mədə ifadə olunmuşdur. Bu prinsip dövlətlər üzərinə onların siyasi, iqtisadi və sosial sistemlərindəki fərqlərdən asılı olmayaraq, bir-biri ilə əməkdaşlıq etmək öhdəliyi qoyur. Əməkdaşlığın əsas sahələri də müəyyən edilib: sülhün və təhlükəsizliyin dəstəklənməsi; insan hüquqlarına ümumi hörmət; beynəlxalq münasibətlərin iqtisadi, sosial, mədəni, texniki və ticarət sahələrində dövlətlərin suveren bərabərliyi və onların daxili işlərinə qarışmamaq prinsiplərinə müvafiq olaraq həyata keçirilməsi; BMT ilə əməkdaşlıq və onun Nizamnaməsində nəzərdə tutulan tədbirlərin görülməsi; bütün dünyada, xüsusilə də inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafa yardım.

Beynəlxalq hüquq normalarının hüquqi qüvvəsinin tanınması haqqında dövlətlərin razılığını təsbit edən beynəlxalq hüquq üzrə öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi zəruri hüquq kateqoriyasına aiddir. Suveren dövlətlər üçün hüquqi məcburetmə normalarının yaradılmasının yeganə üsulunun onların razılaşması olması haqqında ümumi müddəa bu prinsip üçün öz əhəmiyyətini saxlayır. Bu prinsipsiz beynəlxalq hüquq – hüquq olmazdı, beynəlxalq hüququn hüquqi qüvvəsinin mənbəyi məhz ondadır.

Beynəlxalq hüquq normalar şəklində mövcuddur. Normanın hüquqi məzmunu davranış qaydasıdır. Əgər normalar beynəlxalq hüququn mövcudluğunun zəruri daxili formasını təmsil edirsə, onda onun xarici forması, yəni ifadə üsulu – adət, müqavilə və beynəlxalq təşkilatların normayaratma qərarlarıdır. Beynəlxalq hüquq normalarının mövcudluğunun bu rəsmi-hüquqi forması beynəlxalq hüquq mənbələri adlanır. Müqavilə və adət universal mənbələrdir, onların hüquqi qüvvəsi ümumi beynəlxalq hüquqdan irəli gəlir. Təşkilatların normayaratma qərarları xüsusi mənbələr olub, onların hüquqi qüvvəsi müvafiq təşkilatın təsisedici aktı ilə müəyyən edilir.

Beynəlxalq hüquq siyasi normalara zidd olmamalıdır. Təbiətinə görə siyasi normalar dövlətlərin razılaşdırılmış iradəsini təmsil edir və bu mənada beynəlxalq hüquq normaları ilə eyni xassəyə malikdir. Sonunculardan onunla fərqlənirlər ki, dövlətlər qaydanın məzmununu razılaşdırmaqla ona hüquqi deyil, siyasi məcburetmə qüvvəsi vermişlər. Siyasi normalar aydın ifadə olunmuş, məsələn, bəyannamələrdə, birgə bəyanatlarda, rəsmi məlumatlarda, habelə yazılmamış normalar, siyasi adətlər və necə deyərlər, "oyun qaydaları" şəklində mövcuddur. Siyasi normaların pozulması zamanı sansksiyalar – dövlətlərin və beynəlxalq təşkilatların bu normaların pozulmasına qarşı mənfi reaksiyasının ifadəsidir. Normanı pozan dövlət həmin siyasi sistemdən irəli gələn faydadan məhrum edilə bilər.

Saysız-hesabsız beynəlxalq orqan və təşkilatların yaradılması onların qərarlarında öz əksini tapan və fəaliyyətlərini tənzimləməyə qadir olan çoxlu sayda təşkilati və inzibati normaların meydana çıxmasına səbəb oldu. Bu qəbildən olan normaları qətnamələrdə ifadə olunan və dövlətlərin iştirakı ilə münasibətləri tənzimləmək iqtidarında olan normalardan fərqləndirmək lazımdır. Sonuncular tövsiyə xarakteri daşıyır. Təşkilati normalar – beynəlxalq təşkilatların daxili hüquq normalarıdır.

Dövlətlərin beynəlxalq münasibətlər praktikası prosesində hüquqi qüvvəsi olmayan beynəlxalq normalar – adətlər və ya ənənələr yaranır. Müəyyən bir qayda uzun müddət gözlənilirsə, onda o, adətə və ya ənənəyə çevrilir və bu zaman ona əməl etmək düzgün, ondan kənara çıxmaq isə səhv hesab edilir. Qədim əxlaq qaydası: hamının riayət etdiyi qaydalardan kənara çıxmaq lazım deyil. Hüquqi qüvvəyə malik olan adət beynəlxalq hüququn adi normasına çevrilir.

Beynəlxalq hüquqla yanaşı, beynəlxalq nəzakət də mövcuddur. Bu, beynəlxalq ünsiyyətin iştirakçılarının hüquqi qüvvəyə malik olmayan xeyirxahlıq, ədəb, təmkinlilik, diqqət, qarşılıqlı hörmət qaydalarıdır. Nəzakət qaydalarına əməl edilməməsi adətən etiraz formasında cavab reaksiyasına səbəb ola bilər, amma başqa cavab tədbirləri də tətbiq olunur. Məlumdur ki, retorsiya (cavab reaksiyası) hüquqi çərçivədən kənara çıxmamış olsa da, qərəzkar hərəkətlərə cavab tədbirini ifadə edir.

Beynəlxalq hüququn bir sıra funksiyaları vardır ki, bu funksiyalarda onun ictimai rolu ilə müəyyən olunan sosial mühitə təsirinin əsas istiqamətləri əks olunmuşdur. Beynəlxalq hüququn başlıca sosial funksiyası mövcud beynəlxalq münasibətlər sisteminin möhkəmləndirilməsidir. Başlıca hüquqi funksiyası dövlətlərarası münasibətlərin hüquqi tənzimlənməsindən ibarətdir. Hər iki funksiya sistemdə müəyyən nizamın saxlanmasına yönəldiyi üçün stabilləşdirici və qoruyucu xarakter daşıyır. Beynəlxalq hüquq həm də onun məqsəd və prinsiplərinə zidd gələn yeni münasibətlərin və institutların mövcudluğuna və yaranmasına əks -təsir funksiyasını yerinə  yetirir.  Xalqlar və dövlətlər arasında qarşılıqlı əlaqəni genişləndirmək və dərinləşdirməkdən ibarət olan beynəlmiləlləşdirici funksiya əhəmiyyətlidir. İnformasiya-tərbiyəvi funksiya dövlətlərin toplanmış rasional davranış təcrübəsinin ötürülməsindən, hüququn imkanlarından istifadəyə dair maarif-ləndirmədən, hüquqa və onunla qorunan maraqlara və dəyərlərə hörmət ruhunda tərbiyə etməkdən ibarətdir.

Beynəlxalq hüquq arsenalında beynəlxalq hüquq qaydası, beynəlxalq qanunçuluq, beynəlxalq-hüquqi məsuliyyət, beynəlxalq-hüquqi tənzimləmə kimi anlayışlardan da istifadə olunur.

Beynəlxalq hüquq qaydası – dövlətlər birliyinə beynəlxalq hüququn məqsəd və prinsipləri əsasında struktur sabitlik vermək iqtidarında olan beynəlxalq-hüquqi münasibətlər sistemidir.

Beynəlxalq qanunçuluq – beynəlxalq hüquq üzrə öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipinə əsaslanan və bu prinsipin həyata keçirilməsini təmin edən beynəlxalq münasibətlərin fəaliyyət rejimi sistemidir.

Beynəlxalq-hüquqi məsuliyyət – beynəlxalq hüquqa zidd əməlin doğurduğu məsuliyyətdir ki, onun elementləri bunlardır: subyektiv element (bu və ya digər şəxsin deyil, bütövlükdə dövlətin) – həmin subyektin özlüyündə təqsirinin olması; obyektiv element – subyekt tərəfindən öz beynəlxalq-hüquqi öhdəliklərinin pozulmasıdır.

Beynəlxalq-hüquqi tənzimləmə – beynəlxalq hüququn köməyi ilə dövlətlərin öz qarşılıqlı əlaqələrinə səlahiyyətli təsiridir. Bu tənzimləmə sosial idarəetmənin

bir növünü ifadə edir. Beynəlxalq-hüquqi tənzimləmə sistemi iki altsistemdən ibarətdir: tənzimlənən və tənzimləyici. Birinci, tənzimləmə obyekti olan beynəlxalq münasibətlər sistemidir. Tənzimləyici altsistem – beynəlxalq-hüquqi təsir vasitələri sistemidir. Beynəlxalq-hüquqi tənzimləmə sosial idarəetmənin növü olub, beynəlxalq hüququn subyekt və obyektinin təmsil olunduğu ictimai münasibətlərin idarə olunmasını ifadə edir. Beynəlxalq hüququn subyekti – öz imkanları və hüquqi xüsusiyyətləri sayəsində beynəlxalq hüquq üzrə hüquqlara və öhdəliklərə malik olmağa, bu normaların yaradılmasında və tətbiqində iştirak etməyə qabil müstəqil qurumdur. Bu gün ümumi qəbul olunmuş subyektlər – dövlətlər və hökumətlərarası təşkilatlardır. Müstəqil dövlət yaratmaq uğrunda mübarizə aparan xalqların, millətlərin hüquqi subyektliyi hamı tərəfindən tanınmır. Beynəlxalq hüququn əsas subyekti dövlətdir. Beynəlxalq hüququn obyekti – onun hərəkətinin yönəldiyi, tənzimləyə bildiyi məsələdir. Beynəlxalq hüququn belə obyekti – beynəlxalq, daha dəqiq desək, dövlətlərarası münasibətlərdir. Beynəlxalq münasibətlərin predmetini obyektindən fərqləndirmək lazımdır. Predmet dedikdə tərəflərin hüquq münasibətlərinə daxil olmasına səbəb olan bütün məsələlər başa düşülür. Fəaliyyət və ya fəaliyyətdən çəkinmə, ərazi və s. belə predmet ola bilər. Ərazi müqaviləsi ona heç bir təsir göstərmir. O, həmin əraziyə görə dövlətlərin münasibətlərini müəyyən edir.

Beynəlxalq münasibətlərin tənzimlənməsinin və möhkəmləndirilməsinin başlıca aləti beynəlxalq normativ sistemdir. Müasir zamanın səciyyəvi cəhəti – BMT Nizamnaməsinin məqsəd və prinsipləri əsasında yaradılmış beynəlxalq normativ sistemin mövcuqluğudur. Ona altsistemlər qismində siyasi, hüquqi, əxlaqi və digər beynəlxalq normalar daxildir. Bu cür normativ sistemin olması – beynəlxalq birliyin olduqca yüksək inkişaf səviyyəsinin əlamətidir.

## Sosial-mədəni siyasət

Sosial-mədəni siyasət – intellektual, etik, hüquqi, idarəetmə, istehsal, iqtisadi, bədii, səhiyyə, ekoloji, məişət mədəniyyəti və insanın həyat fəaliyyətinin digər əsas sahələrinin inkişafına yardım yolu ilə xalqın mütərəqqi kulturogenezini, rifahının, həyat keyfiyyətinin yüksəldilməsini, cəmiyyətin və dövlətin davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafını təmin edən universal dövlət siyasətidir. Bu istiqamətlərə həmçinin: mədəni irsin qorunması, istehlak mədəniyyətinin, fiziki tərbiyənin, idman, turizm, kitab nəşri və bütöv mədəniyyət sisteminin digər istiqamətlərinin inkişafı daxildir.

Ölkənin milli maraqlarına uyğun olaraq, sosial-mədəni siyasət müxtəlif dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının vətəndaşların durmadan artan ruhi və maddi tələbatlarının ödənilməsinə yönəlmiş fəaliyyətini koordinasiya edir. O, elmi əsaslar üzərində qurulur və dövlətin etik və hüquq sisteminin effektivliyinin təmin edilməsində, ictimai münasibətlər mədəniyyətinin inkişafında, insan

kapitalının rəqabətqabiliyyətliliyinin artırılmasında, gənc nəslin mənəvi sağlamlığının yaxşılaşdırılmasında, ictimai əməyin məhsuldarlığının yüksəldilməsində mühüm rol oynayır.

Elmin, keyfiyyətli təhsilin, maarifin, incəsənətin və mədəniyyətin digər sahələrinin inkişafı ilə yanaşı, sosial-mədəni siyasətin mühüm vəzifələrinin biri, mədəni elitanın bilikləri və vərdişlərinin kütlələrə ötürülməsinə imkan yaradan universal kulturoloji biliklərin yayılması, əhalinin akkulturasiyası (mədəniyyətlərin qarşılıqlı təsir prosesi, mədəni xüsusiyyətlərin mübadiləsi) və inkulturasiyası (fərd tərəfindən mədəni normalarının mənimsənilməsi), sosial cəhətdən fəal və rəqabətqabiliyyətli insan kapitalının, yüksək səviyyəli insanlararası və beynəlxalq münasibətlər mədəniyyətinin formalaşmasıdır. Sosial-mədəni siyasətin strateji vəzifəsi ölkənin davamlı və təhlükəsiz inkişafının əsasları kimi, cəmiyyətin həyat qabiliyyəti səviyyəsinin və dövlətin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün yeni imkanların yaradılması, xalqın ruhi mədəniyyətinin inkişafı və təkmilləşdirilməsidir.

Sosial-mədəni siyasətin dəyəri onun milli maraqlara və dövlətin dəyişən inkişaf tələbatlarına, dünya sivilizasiyasının çağırışlarına nə dərəcədə cavab verməsi ilə şərtlənir. Onun səmərəliliyi, əsasən, hansı elmi prinsiplər, meyarlar və konsepsiyalar üzərində qurulmasından, mədəniyyət strategiyasının mədəni dəyərlərinin, normalarının və prioritetlərinin seçiminin və sintezinin necə həyata keçirilməsindən asılıdır. Hədəflərin müəyyənləşdirilməsi, milli-mədəni inkişafın kulturoloji texnologiyalarının və mütərəqqi islahatlarının işlənib hazırlanması, dünyanın qabaqcıl ölkələrinin nailiyyətlərindən, lokal və dünya sivilizasiyalarının inkişaf standartlarından, təcrübəsindən və qanunlarından yaradıcılıqla istifadə edilməsi böyük əhəmiyyət kəsb edir.

Dövlətin sosial-mədəni siyasətinin mühüm vəzifələri bunlardır: mütərəqqi sosial-mədəni inkişafın elmi əsaslandırılmış prioritetlərinin müəyyən edilməsi; təhlükəsiz inkişafın bərpa olunan strateji resursu və başlıca hərəkətverici qüvvəsi olan yüksək mədəniyyətli vətəndaşların "istehsalı"; milli mədəniyyətin müxtəlif sahələrində qəbul edilən qərarların və fəaliyyət nəticələrinin kulturoloji ekspertizasının həyata keçirilməsi; ölkə mütəxəssisləri və əhalisinin icbari kulturoloji təhsili və maarifləndirilməsinin daimi sisteminin yaradılması; ekspert-kulturoloqların hazırlığı və yenidən hazırlığı və s.

Sosial-mədəni siyasətin mühüm funksional vəzifələri sırasında milli-mədəni dəyərlər sisteminin qorunması və inkişafını qeyd etmək yerinə düşərdi. Həmin dəyərlər insanların şüuru, psixologiyası, intellekti, dünyagörüşü, motivləri, mənəviyyatı, davranışı, xarakteri və taleyinə güclü surətdə təsir göstərir. Bu sistemin aparıcı həlqəsi, cəmiyyətin nailiyyətləri və həyat səviyyəsinin göstəricisi xalqın intellektual və mənəvi mədəniyyətidir ki, bunları daim inkişaf etdirmək lazımdır.

Demokratik ölkənin sosial-mədəni siyasəti milli ideologiyanın təkmilləşdirilməsi, yüksək sosial həyat keyfiyyətinə nail olma, davamlı sosial-mədəni tərəqqi, dövlətin daxili və xarici təhlükəsizliyi üçün əlverişli şəraitin yaradılması ilə əlaqədardır. O, ruhi və maddi mədəniyyətin bütöv sosial sistemini ifadə edən yara-

dıcı fəaliyyətin müxtəlif sahələrinin bir-birini şərtləndirən inkişafını təmin etmək, insanların həyata passiv uyğunlaşmasının qarşısını almaq, onlarda fəal vətəndaş mövqeyini formalaşdırmağa yardım etmək, həyati tələbatlara və ölkənin milli maraqlarına uyğun olaraq, əhalini gerçəkliyin yaradıcı surətdə dəyişdirilməsinə səfərbər etmək iqtidarındadır. Bunu nəzərə alaraq, məqsədəuyğundur ki, sosial-mədəni siyasətin işlənib hazırlanması və həyata keçirilməsinə məsul dövlət idarəçiliyi orqanı, ilk növbədə, cəmiyyətin və dövlətin dinamik inkişafı naminə sosial-mədəni fəaliyyətin bir çox subyektlərinin səylərini birləşdirməyə yardım edən ideoloji, yaradıcı və koordinasiyaedici funksiyanı yerinə yetirsin. Yeni tarixi şəraitdə bu missiyanın müvəffəqiyyətlə yerinə yetirilməsi mədəniyyətin Sovet dövründən qalma, "cəmiyyətin hissəsi" və "iqtisadiyyat üzərində üstqurum" kimi dar mənada anlaşılmasından imtina ilə şərtlənir. Müstəqil dövlətlərin milli maraqlarına cavab verən innovativ sosial-mədəni siyasətin əsasına arasıkəsilməz yaradıcı proses, insanın ağlı, qəlbi və əməyi ilə yaradılan, daim inkişaf edən bütöv sosial sistem kimi düzgün elmi anlamını qoymaq lazımdır. Belə anlayış və onun əsasında qurulmuş sistemli kulturoloji yanaşma dövlətçilik mədəniyyətinin gələcək inkişaf səviyyəsinin yüksəlməsi və istehsal qüvvələrinin, daxili və xarici siyasətin, həyat tərzi və həyat təminatı sisteminin, ictimai, beynəlxalq münasibətlər və ümumilikdə, milli mədəniyyətin və sivilizasiyanın bütöv sosial sistemini təşkil edən digər fəaliyyət sahələrinin balanslaşdırılmış inkişafına nail olmaq üçün şərait yaradır. O, inkişafa diqqətin artırılması və müxtəlif peşə və fəaliyyət sahəsindən olan insanların bilikləri, bacarıqları, mütəşəkkilliyi, mənəviyyatı və yaradıcı fəaliyyətinin qiymətləndirilməsi hesabına milli mədəniyyətin inkişaf motivasiyası, insan kapitalının əsasını təşkil edən, vətəndaşların əqli və mənəvi mədəniyyətinin tərəqqisi üçün yeni imkanlar açır. Belə yanaşmanın üstünlüyü onun intellektual, mənəvi, bədii, istehsal, məişət, istehlak, səhiyyə, ekoloji, hüquq-mühafizə və hərbi mədəniyyətin, ailə və ictimai mədəniyyətin dinamik qarşılıqlı inkişafının stimullaşdırılmasına, milli irsin qorunması, fiziki tərbiyənin və idmanın, kitab işinin və s. inkişafı üzrə fəaliyyəti yeni səviyyəyə qaldırmağa imkan verməsindədir.

Qloballaşma şəraitində rəqabətqabiliyyətli və təhlükəsiz inkişafın təmin edilməsinin zəruriliyi inkişaf etməkdə olan ölkələrin cəmiyyəti və dövləti qarşısında – dünyanın aparıcı ölkələrinin sosial-mədəni, o cümlədən, iqtisadi səviyyəsinədək yüksəlmək kimi tarixi məqsəd qoydu. Bu strateji məqsədin həyata keçirilməsi üçün kifayət qədər ambisiyalı bir vəzifəni yerinə yetirmək lazımdır: nisbətən qısa tarixi müddətdə intellektual mədəniyyətin inkişaf templəri üzrə dünyanın aparıcı ölkələrini, əmək və idarəetmə mədəniyyəti üzrə bu ölkələrdən geri qalmağa yol verməmək şərti ilə, heç olmasa, müəyyən qədər qabaqlamağa nail olmaq. Bu vəzifənin müvəffəqiyyətlə həlli məmurların və iqtisadiyyatçıların şüurunda inqilabi dəyişikliklər, yüksək əmək mədəniyyəti və idarəetmə mədəniyyətinin, sosial məsuliyyət mədəniyyətinin, vətənə xidmət mədəniyyətinin formalaşmasını tələb edir. O əsasən, cəmiyyətdə intellektual, etik, hüquq və idarəetmə

mədəniyyətinin qabaqlayıcı inkişafı ilə, xalqın sosial-mədəni kodunun oriyentasiyasını daha çox emosionaldan – daha çox rasional həyat fəaliyyəti mədəniyyətinə, seyr etmədən – onu dəyişdirməyə yönəltməklə şərtlənmişdir.

Sosial-mədəni, o cümlədən, iqtisadi problemlərin effektiv həlli, əsasən, ölkənin sosial-mədəni siyasətinin düzgünlüyündən, onun milli inkişafın obyektiv tələbatlarına və zamanın çağırışlarına cavab vermək iqtidarından asılıdır ki, burada da məsuliyyətli rol müasir kulturologiya elminə məxsusdur. Kulturologiya elminin metodologiyası və nailiyyətləri əsasında işlənib hazırlanmış sosial-mədəni siyasət müasir dünya sivilizasiyasında səmərəli iqtisadi və zəngin orta sinifli sabit, rəqabətqabiliyyətli, təhlükəsiz hüquqi dövlətin yaradılmasının zəruri şərtidir. Sosial-mədəni siyasətdə kulturologiyanın elmi metodlarından istifadə mədəniyyətlərin, dinlərin və ölkə vətəndaşlarının maraqlarının harmonizasiyası üçün əlverişli sosial mühitin formalaşmasına imkan verir, ekspert-kulturoloqların, siyasi və təsərrüfat liderlərinin hazırlığı və yenidən hazırlığının uğurlu təşkilinə, gənclərin və uşaqların intellektual inkişafı və mənəvi tərbiyəsinə, xalq kütlələri tərəfindən innovativ mədəniyyətin yüksək səviyyədə mənimsənilməsinə kömək edir.

Sistemli kulturoloji yanaşmaya əsaslanan sosial-mədəni siyasətin əsas vəzifələri belə ifadə oluna bilər:

- Müvafiq səviyyədə elmi biliklər, bacarıqlar, mütəşəkkillik, mənəviyyat səviyyəsinə malik və dövlətin davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafını təmin edən yaradıcı fəaliyyətlə məşğul olan yüksək mədəniyyətli, layiqli vətəndaşların, şəxsiyyətlərin və liderlərin “istehsalına” hədəflənmiş kulturoloji proqramların və layihələrin yaradılması və həyata keçirilməsi. Milli kulturoloji elmi oxunuşlar, tədris və elmi müəssisələr şəbəkəsinin yaradılması. Davamlı şəkildə “Yüksək mədəniyyətli vətəndaş” respublika kulturoloji müsabiqə-lərinin təşkili.
- Ruhi və maddi mədəniyyətin müxtəlif sahələri üçün uşaqların, gənclərin və mütəxəssislərin hazırlığı və tərbiyə edilməsi, onların həyat fəaliyyəti üçün maddi-texniki və sosial şəraitin yaradılması.
- Sistemli kulturoloji yanaşmaya əsaslanan yüksək dövlət idarəçiliyi mədəniyyəti hesabına dövlətin həyat qabiliyyətinin artırılması məqsədilə insan, elmi, maliyyə, iqtisadi, təşkilati, hüquq, informasiya resurslarının qiymətləndirilməsi və səmərəli istifadəsi. Fəaliyyətin effektiv koordinasiyasının təmin edilməsi, statusuna görə müxtəlif sosial-mədəni fəaliyyət subyektlərinin əməkdaşlığı və tərəfdaşlığına yardım.
- İntellektual potensialın – elm, təhsil, yüksək texnologiyalar, ixtiraçılıq, mühəndis fəaliyyətinin qabaqlayıcı inkişafı üçün, həmçinin insanın tələbatlarının daha yaxşı təmin edilməsi və şəxsiyyətin, milli mədəniyyətin daim modernləşməsi ilə şərtlənən potensial imkanlarının sosial baxımdan reallaşdırılması üçün əlverişli şəraitin yaradılması. Milli incəsənətin inkişafı və milli irsin qorunması.
- Mütəxəssislərin peşəkar və etik mədəniyyət səviyyəsinin, həmçinin xalqın

ümumi mədəni səviyyəsinin daim yüksəldilməsi. Bu məqsədlərlə dövlət institutları və xüsusi kulturoloji tədqiqat mərkəzlərinin, təlimlərin təşkil edilməsi, xalq kütlələri tərəfindən innovativ mədəniyyətin yüksək mənimsənimsənilmə səviyyəsini, gənclərin və uşaqların intellektual inkişafı və mənəvi tərbiyəsini təmin edən səmərəli dövlət kulturoloji maarifçilik sisteminin təşkili.

- Yüksək mədəniyyətli insanların və "Biliklər cəmiyyəti"nin inkişaf problemlərinə diqqətin artırılması, peşəkar və etik mədəniyyətin təkmilləşdirilməsi, kütləvi informasiya vasitələri ilə işıqlandırılan materiallarda xalqın intellektual mədəniyyətinin və ənənəvi mənəvi dəyərlərinin inkişafı.
- Milli-mənəvi dəyərlərin və yüksək insan mədəniyyəti normalarının yalnız insanların vətənpərvər ruhda tərbiyəsi sistemində deyil, həm də həyat tərzi və üslubunda, etika, estetika, reklam, dəb, asudə vaxt və əhaliyə xidmət sahəsində yayılması.
- Uşaqların ailə və sosial təhsil sistemində, uşaq ədəbiyyatı və incəsənətində, uşaq təşkilatları və düşərgələrində keçirilən tədbirlər və oyunlarda milli və dünya mədəniyyətinin daha dəyərli nailiyyətlərinin təbliği, bu dəyərlərə hörmət və məhəbbət hissinin formalaşdırılması.
- Milli mədəniyyət yaradıcılarının – alimlər, müəllimlər, həkimlər, incəsənət xadimləri, ilk növbədə, intellektual, tibb, istehsal, etik, bədii, idarəetmə və hüquq mədəniyyətinin inkişafını təmin edən mütəxəssislərin ləyaqətli həyatı və məhsuldar yaradıcılıq fəaliyyəti üçün zəruri olan təşkilati, maddi və mənəvi şəraitin yaxşılaşdırılması.
- Ziyalıların, vətən qarşısında xidmətləri olan, milli maraqlara xidmətdə fədakarlıq göstərən və sosial-mədəni tərəqqini təmin edən bütün vətəndaşların yaradıcı əməyinin motivasiyası; qəhrəmanların xatirəsinin əbədiləşdirilməsi.
- Xarici ölkələr ilə milli mədəniyyətin mütərəqqi kulturogenezinə, beynəlxalq münasibətlər mədəniyyətinin inkişafına və sivilizasiyaların əməkdaşlığına yardım edən mədəniyyət dialoqu və mübadiləsinin həyata keçirilməsi.
- Belə siyasətin (iqtisadiyyatın, bədii ədəbiyyatın və mədəni irsin inkişafının ənənəvi prioritetləri ilə yanaşı) innovativ prioritetləri qismində aşağıda göstərilənlər müəyyən oluna bilər:

1. Elm, təhsil, maarif, informasiyanın qabaqlayıcı inkişafı, yüksək texnologiyaların işlənib hazırlanması ilə əlaqədar olan intellektual mədəniyyət. Müvafiq maddi şəraitdə intellektual mədəniyyət strateji dövlət prioriteti, istehsal qüvvələri inkişafının, təbiətin və cəmiyyətin dəyişdirilməsi, insana lazım olan həyat nemətlərinin yaradılmasının başlıca resursu olur.

2. Milli-mədəni və ümumbəşəri dəyərlərə əsaslanan etik mədəniyyət. Yüksək mənəviyyat, xoş məram, insanlıq olmadan intellektual mədəniyyət, cəmiyyət üçün yalnız yaradıcı deyil, həm də təhlükəli dağıdıcı qüvvə ola bilər. Etik mədəniyyət təkcə insan münasibətlərinin dəyərli tənzimləyicisi deyil, həm də mövcud qanunların icrasını təmin etməklə, hüquq mədəniyyətinin mühüm əsasıdır.

3. Qanunların aliliyi və mükəmməlliyini, vətəndaşların hüquqi savadlılığını,

qanunların icra mədəniyyətini nəzərdə tutan hüquq mədəniyyəti. Hüquq mədəniyyəti insan hüquqlarının müdafiəsini, cəmiyyətin sosial, siyasi və iqtisadi həyatının təhlükəsizliyini təmin edən ictimai münasibətlərin mühüm tənzimləyici amilidir.

4. Peşəkarlıq və idarəetmə etikasının vəhdətini ifadə edən idarəetmə mədəniyyəti. İdarəetmə mədəniyyəti strateji prioritetlərdən biridir. Xalqın rifahı və həyat keyfiyyəti, dövlətin davamlı sosial, siyasi və iqtisadi inkişafı, beynəlxalq nüfuzu və təhlükəsizliyi onun səviyyəsindən asılıdır.

## II FƏSİL

## KULTUROLOGİYA MƏDƏNİYYƏT HAQQINDA ELM KİMİ

### Kulturologiya haqqında anlayış

Azərbaycan xalqının ruhi mədəniyyətinin inkişafı Azərbaycan Respublikasının davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafı üçün yeni imkanlar açan insanın həyat fəaliyyəti proseslərinin təhlilinə mədəniyyət haqqında elmin (kulturologiya) nailiyyətlərinin və onun sistemli və situasiyalı yanaşmaya əsaslanan yaradıcı metodologiyasının geniş şəkildə istifadəsini nəzərdə tutur.

Mədəniyyət haqqında elm insanın yaradıcı həyat fəaliyyətinin mahiyyətini, xüsusiyyətlərini, tarixini, nailiyyətlərini, inkişaf qanunlarını, texnoloji və innovativ dəyişdirici imkanlarını öyrənir. Bu elmin praktiki dəyəri ondan ibarətdir ki, o, tarixin müxtəlif dövrlərində bəşəriyyətin mütərəqqi düşüncəsi ilə qoyulmuş bir çox suallara cavabları ehtiva edir. Kulturologiya dialektik şəkildə dəyişən şəraitdə uğura çatmaq üçün, milli-mədəni inkişaf proseslərini, insanın həyat fəaliyyəti texnologiyalarını, dövlət quruculuğunu və idarəetməsini təkmilləşdirmək üçün “nəyi” və “necə” etmək lazım olduğu barədə suallara cavab verir. Universal kulturoloji biliklər yüksək mədəniyyətli insanların formalaşdırılması və inkişafına, ideologiyanın, intellektual, mənəvi, hüquq, idarəetmə, iqtisadiyyat, səhiyyə, əmək mədəniyyətinin, insan münasibətləri və beynəlxalq münasibətlər mədəniyyətinin təkmilləşməsinə kömək edir. Onların Azərbaycan cəmiyyətində yayılması – yeni, kulturoloji təfəkkürlü siyasətçilərin və dövlət qulluqçularının formalaşmasına, cəmiyyətin və dövlətin inkişafının dialektik ziddiyyətlər enerjisinin milli maraqlara cavab verən mütərəqqi inkişafın yaradıcı məcrasına yönləndirməyə aparan yoldur. Kulturologiya elminin yaradıcı imkanlarından dövlət quruculuğu və idarəetməsi praktikasında geniş istifadə edilməsi Azərbaycan Respublikasının sosial-mütərəqqi inkişafı üçün yeni imkanlar açır.

“Kultura” (mədəniyyət) və “sivilizasiya” sözlərini ilk dəfə qədim romalılar istifadə etmişlər. E.ə. III əsrdə Mark Porsi Katon (Böyük Katon) “kultura” sözü ilə insanın onu əhatə edən təbiəti dəyişdirmək fəaliyyətini ifadə etmişdir. E.ə I əsrdə Mark Tulli Siseron mədəni proses dedikdə insanın özünün dəyişməsi və inkişaf etdirməsi prosesini başa düşməyi təklif edirdi. Həm təbiətin dəyişdirilməsi, həm də insan cəmiyyətinin mütərəqqi inkişafını nəzərdə tutan bu iki antik anlayışı

kulturoloji baxımdan sintez etmək bizi elmi həqiqətə aparar. Eyni zamanda təbiətin və insanın özünün dəyişməsinin əsası biliklərlə zənginləşən insan ağlıdır. Məhz o, insanın və onu əhatə edən aləmin dərk edilməsi, inkişafı və təkmilləşdirilməsinin başlıca hərəkətverici qüvvəsi qismində çıxış edir.

"Mədəniyyət" anlayışının dərk edilməsinə XIX əsrin sonunda ilk dəfə neokantizm məktəbinin nümayəndəsi, alman filosofu, professor Henrix Rikkert müraciət etmişdir. O, mədəniyyəti unikal sosial dəyərlərin və onların vəhdətinin yaradılması prosesi kimi nəzərdən keçirərək, onu nemət adlandırırdı. Eyni zamanda o, mədəniyyət haqqında anlayışı "təbiət haqqında elmlər"dən fərqli olaraq sonradan humanitar elmlər adlandırılan "ruh haqqında elmin" izahını verdiyi idrakla əlaqələndirirdi. Alim hesab edirdi ki, həyatda idealı olmayan insan sözün mənəvi mənasında düzgün yaşaya bilməz.

Henrix Rikkertin ardınca, XX əsrin başlanğıcında Nobel mükafatı laureatı Vilhelm Ostvald sivilizasiyalarda baş verən real prosesləri öyrənəcək mədəniyyət haqqında elmin yaradılmasının zəruriliyi qeyd edirdi. O həm də mədəniyyəti insanın həyat fəaliyyəti və insanın təbii enerjisindən cəmiyyətin inkişafı naminə istifadə edilməsinin ağıllı forması kimi nəzərdən keçirirdi.

Mədəniyyət haqqında elmin əsasları dünyada ilk dəfə XX əsrin birinci yarısında Amerika alimi Lesli Alvin Uayt tərəfindən qoyulmuşdur. Əsərlərində sosial təkamül nəzəriyyəsinin mənbələrini ehtiva edən antik müəlliflərin, habelə Taylor, Morqan, İbn Xəldun, Kant, Herder, Kont və digər alimlərin yanaşmalarına əsaslanaraq, Lesli Uayt ilk dəfə mədəniyyətin rifahın artımının texnoloji amili kimi rolunu açıqladı və göstərdi ki, onun başlıca funksiyası insan həyatının tələbatlarının ödənilməsidir.

Elmi dövriyyəyə ilk dəfə Uayt tərəfindən daxil edilən yeni mədəniyyət anlayışı, onun mədəniyyət haqqında elm üçün "kulturologiya" terminindən istifadə etməyi əsaslandırması, təkamül konsepsiyasının yenidən mənalandırılması və bəşəriyyətin mədəniyyətini bütöv sistem kimi tədqiq etməyə imkan yaradan sistemli yanaşmanın seçilməsi ictimai və humanitar elmlər üçün inqilabi əhəmiyyət daşıyırdı.

Lesli Uaytın əsas ideyalarını inkişaf etdirərək və tamamlayaraq, mədəniyyəti insanın tələbatları prizmasından təhlil edərək, Amerika alimi Abraham Maslou mədəniyyətin mükəmməllik dərəcəsi qismində onun insan tələbatlarını ödəmək və şəxsiyyətin potensial bacarıqlarının sosial baxımdan reallaşdırılması üçün əlverişli şərait yaratmaq qabiliyyətini müəyyən etdi. Maslou tərəfindən işlənib hazırlanmış "ideal cəmiyyət" modeli insan harmoniyası, təhlükəsizlik prinsipləri, mədəniyyətin sosial institutlarının humanist dəyişdirilməsi və insanların şüurunun dəyişməsi ilə qabiliyyətlərinin maksimal inkişafı və özünüreallaşdırması imkanı üzərində qurulub.

Mədəniyyət haqqında elmin meydana çıxması mədəniyyətin düzgün başa düşülməsi və ondakı dəyişdirici imkanlardan insan inkişafının maraqları naminə yaradıcı şəkildə istifadə edilməsi üçün əsas yaratdı. Mədəniyyət ekstrasomatik (üstbioloji) sistem kimi öz prinsiplərinə, məkanda və zamanda fəaliyyət və inki-

şaf qanunauyğunluqlarına malikdir. O, intellektual, mənəvi, sosial və texnoloji altsistemləri ehtiva edən bütöv sistem kimi qeyri-məhdud dəyişdirici potensiala malikdir. Həyat Uaytın kəşflərinin düzgünlüyünü və onun yaratdığı elmin – mürəkkəb elmi və praktiki problemlərin, ənənəvi humanitar və sosial elmlərin imkanları çərçivəsindən kənara çıxan, keyfiyyətcə yeni səviyyədə məntiqi həllinə qabil olan kulturologiyanın yüksək dəyərini təsdiq etdi.

ABŞ-da əsası qoyulmuş və digər ölkələrdə yayılmış kulturologiya Azərbaycanlı alimlərin tədqiqatları sayəsində də müəyyən dərəcədə inkişaf etdirilmişdir. 1990-cı ildə Azərbaycan Milli Elmlər Akademiyası və respublikanın digər təşkilatları ilə birgə Mədəniyyət Nazirliyi tərəfindən təsis edilmiş "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası tərəfindən ilk dəfə Lütfi Zadənin "qeyri-səlis məntiq" nəzəriyyəsindən istifadə edilməklə kulturoloji metodologiya işlənib hazırlanmış, Azərbaycan cəmiyyətinin mütərəqqi inkişafına yardıma istiqamətlənmiş strateji baxımdan vacib innovativ konsepsiyalar, modellər və layihələr, təriflər, formullar və postulatlar ehtiva edən fundamental kulturoloji monoqrafiyalar nəşr edilmişdir.

Lesli Uayt tərəfindən hazırlanmış qanuna ("Uayt qanunu") görə, "insanın mədəniyyətinin dəyişməsi ilə onun davranışı dəyişir". Bu qanuna müraciət edərək, qloballaşma, insan kapitalının nüvəsi, strateji bərpa olunan resurs və davamlı, təhlükəsiz inkişafın başlıca hərəkətverici qüvvəsi olan vətəndaşların təşəkkülü və mədəni təkmilləşməsi şəraitində cəmiyyətin mütərəqqi sosial-mədəni çevrilməsi üçün bu gün kulturologiyanın hərtərəfli inkişafının və institusionallaşmasının nə qədər vacib olduğunu başa düşmək çətin deyil.

Dövlət idarəetməsində sistemli və situasiyalı kulturoloji yanaşmanın tətbiqi dünya siyasətində və iqtisadiyyatında bazar məntiqi və qloballaşmanın dialektikası ilə şərtlənmiş daimi dəyişikliklər şəraitində milli inkişafın mürəkkəb problemlərinin daha uğurlu həll yollarını tapmağa imkan verir.

## Lesli Alvin Uaytın mədəniyyət konsepsiyası

Kulturologiyanın müstəqil elm kimi formalaşması XX əsrin ortalarından başlayır. Ondan əvvəl insanı və insan dünyasını tədqiq edən antropologiyanın, sonra isə XIX əsrin sonunda sosiumun öyrənilməsi nəticəsində yaranan sosiologiyanın daha erkən nailiyyətləri olmuşdur. Buna məkan və zaman daxilində öz xüsusi fəaliyyətinə və inkişaf qanunauyğunluqlarına malik bütöv sistem kimi, bəşəriyyət mədəniyyəti haqqında formalaşan təsəvvürlər də təkan vermişdir.

Mədəniyyət haqqında elm olan kulturologiyanın banisi, haqlı olaraq Amerika antropoloqu Lesli Alvin Uayt hesab edilir. Uaytın 1949-cu ildə çapdan çıxmış "Kulturologiya" kitabı mədəniyyət və onun qeyri-məhdud dəyişdirici imkanları haqqında təsəvvürlərin inkişafında keyfiyyətcə yeni, inqilabi səviyyə idi. O, ictimai elmlərin inkişafına, humanitar biliklərin yeni ənənələrinin təşəkkülünə ciddi töhfə idi.

Uayt mədəniyyətin enerji konsepsiyasını yaratdı ki, bu konsepsiyaya görə, fenomenlərin müəyyən qaydası olan mədəniyyət öz xüsusi prinsiplərinə və qanunlarına əsaslanaraq təsvir edilə bilər. Mədəni elementlərin və ya bütövlükdə mədəni sistemlərin qarşılıqlı təsir prinsiplərini təhlil edərək o, mədəni fenomenlər və sistemlər qanununu ifadə etdi ki, buna uyğun olaraq, insanın mədəniyyəti müxtəlif mədəni ənənələrin vəhdəti kimi şərh edilir. Bu, insan mədəniyyətinin əsas tarixi inkişaf qanunauyğunluqlarını izləməyə imkan verir.

Mədəniyyəti bütöv, mütəşəkkil və inteqrasiya olunmuş sistem kimi nəzərdən keçirərək, Uayt onun qarşılıqlı təsirin qeyri-bərabər qüvvələri ilə bağlı olan, bir-birindən asılı üç altsistemini ayırır: texnoloji, sosial və ideoloji.

- Texnoloji altsistem (ilkin, əsas, baza) insanın ətraf mühitə uyğunlaşması ilə şərtlənir. O, istehsal vasitələri, mövcudluq vasitələri, evlər tikmək üçün materiallar, hücum və müdafiə üçün vasitələri və s. özündə birləşdirir.
- İdeoloji altsistemə – ideyalar, biliklər və etiqadlar daxildir.
- Sosial altsistemə – kollektiv davranış tipləri daxildir.

Mədəniyyətin yüksəlişinin və inkişafının dərk edilməsi üçün açar olan texnoloji subsistemin fəaliyyəti dinamikdir və enerji sərfi ilə bağlıdır, bunun sayəsində mədəniyyəti, materiya və enerji anlayışlarını nəzərə alaraq təsvir etmək olar. Uayta görə, həyat tələbatlarının təmin edilməsi ilə bağlı mədəniyyətin başlıca funksiyası lazım olan enerji miqdarının texnoloji hasili və onun insanın maraqları üçün istifadə edilməsidir.

Uayt mədəniyyətin inkişafının ildə əhalinin adambaşına istehlak olunan enerjinin miqdarı ilə, yaxud bu enerjinin istifadə edildiyi əmək alətlərinin (texnologiyaların – F.M.) effektivliyinin artması ilə düz mütənasib olduğu qanunauyğunluğunu aşkar edir.

Uayt mədəniyyətin inkişaf səviyyəsini xarakterizə edən üç universal amili ayırır:

- ildə adambaşına istifadə olunan enerjinin miqdarı;
- insanın inkişafı məqsədilə enerji əldə etməkdə istifadə olunan texnoloji vasitələrin effektivliyi;
- insanın tələbatlarının təmin edilməsi üçün istehsal predmetləri və xidmətlərinin həcmi.

Bu amillərin təhlili əsasında onun tərəfindən mədəniyyətin rolunu rifahın yüksəldilməsinin texnoloji amili kimi açıqlayan mədəniyyətin təkamül qanunu və ya “Uayt qanunu” hazırlandı. Bu qanuna görə, insanın tələbatlarının ödənilməsi üçün əhalinin adambaşına istehsal olunan malların və xidmətlərin miqdarına əsasən ölçülən mədəniyyətin inkişaf səviyyəsi əhalinin adambaşına istehsal edilən enerji ilə və bu enerjinin istifadə edilməsində işlədilən texnoloji vasitələrin effektivliyi ilə müəyyən edilir.

Uayt tərəfindən mədəniyyətin “yeni dünya”, ekstrosomatik (yəni, insanın bioloji təbiətindən yüksəkdə duran) dünya kimi açıqlanması elmdə əhəmiyyətli addım oldu. O, mədəniyyətin düzgün dərk edilməsi və onun əsasında duran imkanların insanın inkişafı maraqları naminə istifadəsi üçün zəmin yaratdı. Uay-

tın tədqiqatlarının fundamental nəticələrindən biri – mədəniyyətinin dəyişməsi ilə insanın davranışının dəyişilməsi haqqında xülasə idi (B = f (C)).

Lesli Alvin Uayt mədəniyyətin tədqiqi üçün ardıcıl, pilləli inkişaf prinsipinə əsaslanan yeni metodologiya yaratdı. Tarixi, məntiqi və təkamül təhlilinin prinsiplərini rəhbər tutaraq, o, mədəniyyətin bütöv sistem kimi tədqiqində üç prosesi ayırd etdi:

1. Zaman prosesi, tək-tək hadisələrin unikallığı ilə fərqlənən xronoloji ardıcıllıq;
2. Formal proses, burada hadisələr zaman xaricində, struktur və funksional aspektlərdə təqdim edilir;
3. Formal-zaman prosesi, burada hadisələr, onların ümumi xüsusiyyətlərini, universallıqlarını aşkar etməyə imkan verən, proqressiv dəyişən formaların zaman ardıcıllığı şəklində təqdim edilir.

Buna uyğun olaraq o, mədəniyyətin təfsirinin üç üsulunu təklif edir: tarixi, funksional və təkamül.

Uaytın xidmətlərindən biri ondan ibarətdir ki, o, L.H. Morqanın təkamül yanaşmasını inkişaf etdirərək, təkamülçülüyün mədəni diffuziyanı inkar etmədiyini göstərdi. Uayt belə bir obyektiv həqiqəti aşkara çıxardı ki, kulturogenez və mədəni tərəqqi həm kortəbii transformasiyanı, həm həvəsləndirilmiş transformasiyanı, həm də mədəni nailiyyətlərin və texnoloji təcrübənin birbaşa mənimsənilməsini ehtiva edir. Xalqların müxtəlif inkişaf səviyyələri və nailiyyətləri mədəniyyətin mahiyyətinin, strukturunun və dəyişdirici imkanlarının fərqli başa düşülməsi, dünya mədəniyyətinin inkişaf təcrübəsindən yaradıcı şəkildə istifadə etmək bacarığı, habelə dövlətlərin sosial-mədəni strategiyalarının elmi əsaslandırılması ilə şərtləndirilib. Alim inanırdı ki, elm tarixində nə vaxtsa mədəniyyət fenomeninin “kəşfi” Kopernikin heliosentrik nəzəriyyəsi və ya həyatın bütün formalarının hüceyrə əsasının kəşfi kimi yüksək qiymət alacaqdır.

Həyat Uaytın kəşfinin düzgünlüyünü və onun yaratdığı elmin – mürəkkəb elmi və praktik problemlərin, ənənəvi humanitar və sosial elmlərin imkanları çərçivəsindən kənara çıxan, keyfiyyətcə yeni səviyyədə məntiqi həllinə qabil olan kulturologiyanın yüksək dəyərini təsdiq etdi.

Etnologiya, antropologiya, psixologiya və sosiologiya materiallarının məntiqi təhlili və sintezi əsasında, Uayt lokal mədəniyyətlərin müqayisəli təhlilindən – ümumbəşəri mədəniyyətin inkişaf qanunauyğunluqlarının aşkar edilməsinə yol açdı. Amerika aliminin xidmətləri ondan ibarətdir ki, mədəniyyətin yeni anlayışı ilk dəfə onun tərəfindən elmi dövriyyəyə buraxıldı, kulturologiyanın predmet sahəsi müəyyən olundu, mədəniyyət haqqında elm üçün “kulturologiya” termininin istifadəsi əsaslandırıldı, təkamül konsepsiyası yenidən mənalandırıldı və bəşəriyyət mədəniyyətini bütöv sistem kimi tədqiq etməyə imkan verən sistemli yanaşma təklif edildi.

## Abraham Maslounun mədəniyyət və insan konsepsiyası

"Mədəniyyət və insan" humanist konsepsiyasının müəllifi, mədəniyyətin öyrənilməsinin yeni metodu olan transpersonal psixologiyanın banisi, Amerika alimi və psixoanalitiki Abraham Maslou (1908-1970) mədəniyyəti insanın tələbatları prizmasından təhlil edir.

Lesli Uaytın əsas ideyalarını inkişaf etdirərək və tamamlayaraq, A. Maslou mədəniyyətin mükəmməllik ölçüsü kimi, onun insanın tələbatlarını təmin etmək və şəxsiyyətin potensial bacarıqlarının sosial reallaşdırılması üçün əlverişli şərait yarada bilmək qabiliyyətini müəyyən etdi.

Maslounun məntiqi baxımdan qüsursuz konsepsiyası onun tərəfindən mədəniyyətin müxtəlif sosial institutlarının dərk edilməsinə imkan verən universal həyat fəlsəfəsi kimi təklif edilmişdir. Holizm fəlsəfəsini (holizm – tamın onun hissələrinin cəmindən daha böyük olduğunu güman edən bütövlük fəlsəfəsidir; o, nəzərdən keçirilən hadisənin bütün tərəflərinin nəzərə alınması qaydasını və istənilən birtərəfli yanaşmaya tənqidi münasibəti ifadə edir) rəhbər tutan alim, tələbatların beş səviyyəsini nəzərdən keçirir:

- fizioloji tələbatlar;
- özünüqoruma, təhlükəsizlik və sülh tələbatları;
- məhəbbət və aidiyyət tələbatları;
- özünütəsdiq və tanınma tələbatları;
- yaradıcılıq vasitəsi ilə özünü aktuallaşdırma və təkmilləşdirmə tələbatları.

Maslou tərəfindən işlənib hazırlanmış "ideal cəmiyyət" modeli, insanın harmoniyası, təhlükəsizliyi prinsipləri, mədəniyyətin sosial institutlarının humanist dəyişdirilməsi və insanların şüurunun dəyişdirilməsi yolu ilə qabiliyyətlərinin maksimal inkişafı və özünü reallaşdırma imkanı üzərində qurulmuşdur.

# III FƏSİL

## KULTUROLOGİYANIN METODOLOGİYASI

Bütöv mədəniyyət sistemi və onun müxtəlif sahələri və hadisələri, inkişaf qanunauyğunluqları və dəyişdirici imkanları haqqında yeni elmi biliklərin istehsalı məqsədilə tərəfimizdən insanın həyat fəaliyyəti problemlərinin, faktların, hadisələrin və insanların təhlilinə sistemli kulturoloji yanaşmaya əsaslanan metodologiya seçilib.

Sistemli yanaşmanın əsasında duran, tərəfimizdən seçilən kulturoloji metodologiyanın əsas məğzini aşağıdakılar təşkil edir:

- *Məntiq;*
- *Tarixilik prinsipi;*
- *Dialektika.*

Bu elmi yanaşmaların məcmusu obyektiv elmi dünyagörüşün formalaşmasına, dünya mədəniyyəti və sivilizasiyasının tarixi dəyişikliklərinin mənzərəsini, məkan və zaman daxilində insanın, cəmiyyətin, dövlətin və dünya birliyinin texnoloji inkişaf imkanlarını tam şəkildə görməyə kömək edir.

- *Məntiq* təfəkkürün forma və qanunları haqqında elm kimi, bəşəriyyətin tərəqqisi naminə mədəniyyətin obyektiv inkişaf proseslərini düzgün dərk etməyə imkan verir. Burada bir sıra alimlərin nailiyyətləri, xüsusilə, Aristotelin deduktiv məntiqi, Frensis Bekonun induktiv məntiqi, İmmanuil Kantın formal, metafizik məntiqi və Georq Hegelin dialektik məntiqi istifadə olunur.
- *Tarixilik prinsipi* üç əsas funksiyanı yerinə yetirir: idrak, metodoloji və dünyagörüşü. İdrak funksiyası təbiətə, cəmiyyətə və özünə münasibətdə insanın yerini və rolunu müəyyən edir. Metodoloji funksiya mədəni hadisələri və prosesləri keçmişdən gələcəyə doğru hərəkət kimi nəzərdən keçirməyə, zamanın müxtəlif dövrlərində mədəniyyətin məzmununu və struktur dəyişikliklərini aşkar və müqayisə etməyə, müxtəlif mədəniyyətlərin müqayisəli təhlilini aparmağa kömək edir. Dünyagörüşü funksiyası obyektiv elmi dünyagörüşün formalaşmasına, dünyanın bütün milli mədəniyyətləri üçün ümumi olan mədəniyyətlərin ümumi inkişaf məntiqi, insanın norma və prinsipləri ilə şərtlənən mədəni universallıqların aşkar olunmasına yardım edir.
- *Dialektika,* materiya və ruhun inkişaf qanunlarına əsaslanaraq, hadisələrin mahiyyətini, onların hərəkətini, ziddiyyətlərini və əlaqələrini açıqlayır.

## Tərəfimizdən tətbiq edilmiş metodoloji innovasiyalar

Tərəfimizdən seçilmiş kulturoloji metodologiya ilk dəfə Lütfi Zadənin qeyri-səlis məntiqinin tətbiq edilməsi ilə tamamlanıb.

Mədəniyyət insan tərəfindən yaradılmış, təbiətdən sonra ikinci, daxili əlaqəli aləmdir. İnsan mədəniyyətləri aləmi sərhədsizdir. Bu, insanların yaşadığı təbii-coğrafi və sosial mühitin fərqliliyi, mədəniyyətin genetik kodu, siyasi şərait və mədəni mübadilə ilə şərtləndirilmiş aləmdir. Təbiətin, insanın özünün və cəmiyyətin dərk edilməsi və dəyişdirilməsi prosesində insan tərəfindən yaradılan hər şey mədəniyyətdir. Buna yazının ilkin formaları, ilkin memarlıq abidələri, geyim, dillər, elm, təhsil, texnologiyalar, dinlər, incəsənət və ədəbiyyat da daxildir. Bu həmçinin sənaye, nəqliyyat, qanunlar, etika, tibb, idarəetmə, kulinariya, insan kommunikasiyaları, silahlanmadır.

Mədəniyyətin "istehsalının" subyekti və ən mühüm obyekti insanın özüdür. Mədəniyyət ağlın və qəlbin səsi, xeyirxah insanların nikbin fikirləri, sözləri və əməlləridir. Bu, yüksək mədəniyyətli insanların cəmiyyətin mütərəqqi inkişafına və rifahının artmasına, bəşəriyyətin ruhi mədəniyyətinin inkişafına xidmətə yönəldilmiş yaradıcı fəaliyyətidir. Əvvəldən bu fəaliyyətin motivasiyası insan həyatının qorunması və yaxşılaşdırılması barədə qayğı olmuşdur və bu, hələ də belədir. Hər bir ölkənin inkişafının əsas göstəricisi xalqın intellektual və mənəvi mədəniyyət səviyyəsidir.

Hesab edirəm ki, Lütfi Zadənin qeyri-səlis məntiqinin istifadə edildiyi kulturoloji metodologiya insan cəmiyyətində baş verən proseslərin daha dərindən və çoxcəhətli tədqiqi üçün keyfiyyətcə yeni imkanlar açır. O, sistemli kulturoloji yanaşmanı zənginləşdirir, həm də həyatın mürəkkəb məsələlərinə və zamanın çağırışlarına düzgün cavablar verən bir elm kimi, müasir dövrün çətin dialektik problemlərinin həlli üçün zəruri olan universal biliklərin mənbəyi kimi, müasir kulturologiyanın elmi və praktiki dəyərini yüksəldir.

Həqiqi metodologiya və sistemli təfəkkür sayəsində kulturologiya təkcə mədəniyyətin statikasını, yəni tarazlı vəziyyətini əks etdirmir. O, mədəniyyətin kinematikasını, yəni hərəkətini də, o cümlədən mədəni proseslərin mahiyyətinin və xüsusiyyətlərinin riyazi təsviri vasitəsilə başa düşməyə kömək edir. Nəhayət, kulturologiya mədəniyyətin bütöv sisteminin dinamikasını da aşkara çıxarır, yəni onun hərəkət vəziyyətini və hərəkətverici qüvvələrini görməyə imkan yaradır. Bu zaman onu təşkil edən qarşılıqlı əlaqəli komponentlərin və ya insanın həyat fəaliyyəti sahələrinin inkişaf xətti açıqlanır, habelə onların daxili və xarici amillərin təsiri altında dəyişməsi izlənilir. Beləliklə, sistemli kulturoloji təhlil yalnız metafizik, yəni dəyişməz, onların qarşılıqlı əlaqə və inkişaf proseslərindən asılı olmayan, hərəkətsiz mahiyyətləri başa düşməyə imkan vermir. O, bütöv sosial sistem kimi, mədəniyyətin mənzərəsini onun hərtərəfli hərəkətində, həm zamanda, həm də məkanda görməyə şərait yaradır.

Kulturoloi metodologiyada Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsindən

istifadə mədəniyyətin “görünməyən” sahələrinə fikrən nüfuz etməyə imkan yaradır ki, Vilhelm Ostvald bunu “insanın təbii enerjisinin cəmiyyətin inkişaf maraqları naminə dəyişmə forması” kimi nəzərdən keçirirdi. O, “mədəniyyət həyatının” qanunauyğunluqlarını aşkar etməyə və “çılpaq gözlə” görünməyənləri – ən əlçatmaz, ilk baxışdan nəzərə çarpmayan mədəniyyətin inkişafının aralıq vəziyyətlərini və keçid proseslərini görməyə kömək edir.

Bu, onunla şərtlənib ki, qeyri-səlis məntiq nəzəriyyəsi özünün sonsuz hadisələr, proseslər və inkişaf xüsusiyyətləri ilə bəşəriyyətin bütöv mədəniyyət sisteminin strukturuna mükəmməl uyğun gəlir. Mədəniyyət fenomeninin yaradıcısı və daşıyıcısı olan insanın özünə “Homo sapiens”in həyatını qorumaq və yaxşılaşdırmaq vasitəsi kimi baxmaq kifayətdir. İnsanın ruhu – ağlı və qəlbi onun bədənini, əməllərini, davranışını idarə edir. Heyvanlar aləmində mövcud olmayan bu ekstrasomatik sistem insandan insana dəyişməklə yanaşı, həm də daimi dəyişikliklərə məruz qalır. Söhbət təkcə İQ səviyyəsindəki fərqdən deyil, həm də bəşəriyyətin emosional intellektinin növlərinin və variantlarının çoxluğundan gedir.

Mədəniyyətin inkişafı çoxsaylı daimi və dəyişən amillərdən asılıdır. Şəxsiyyətin mədəniyyəti insanın təbiətindən, mədəniyyətin genetik kodundan, tərbiyəsi, təlimi, əqidəsi, xasiyyətindən asılı olaraq, keyfiyyətlərin geniş spektri ilə səciyyələnə bilər. Bu müxtəlifliyə şəxsiyyətin həyat təcrübəsini, yaşı, mentaliteti, dünyagörüşü, şüuru, təfəkkürü, psixologiyasını əlavə etmək olar. Bu keyfiyyətlərin bir hissəsi, eləcə də onların konkret təzahür variantları bəzi insanlarda qismən eyni, digərlərində isə bir-birinə tamamilə zidd ola bilər. Müxtəlif insanlar öz təyinatını, həyatının mənasını və məqsədini müxtəlif cür görürlər. Onların gerçəklik barədə təsəvvürləri, eyni hadisələri, faktları və insanları qiymətləndirmələri, reallığı dərk etmək və dəyişdirmək qabiliyyətləri bir-birindən fərqlənir. Sosial mühitdən, konkret vəziyyətdən, zamandan və digər amillərdən asılı olaraq dəyişə bilən bu keyfiyyətlər insanın davranışına təsir edir. Buna insanların psixologiyasında, sinir sistemində, ruhi vəziyyətində olan fərqləri də əlavə etmək lazımdır. Hər kəsin öz daxili mədəniyyət dünyası var. Burada çoxsaylı daxili və xarici amillər rol oynayır. Bunlara şəxsiyyətin fərdi xüsusiyyətləri, etnik-milli keyfiyyətləri, dini, doğulduğu yer, yaşadığı yer, cinsi, yaşı və təhsili daxildir. Həmin amillərin müxtəlif kombinasiyaları və keyfiyyətləri insanların mədəniyyətinin və davranışının formalaşmasına təsir göstərir. Digər tərəfdən, mədəniyyətin dəyişməsi ilə insanın davranışı da dəyişir.

Əgər mənəviyyat mədəni insanın birinci, zəruri pilləsidirsə, ağıl insanı heyvandan fərqləndirən mədəniyyətin əsasıdır. Çünki ağılsız insan yaradıcılıqla məşğul ola, xeyri şərdən ayıra bilməz. Mədəni müxtəlifliyə yalnız insanın şüuru, onun özünü, ətraf aləmi və digər insanları, onların keyfiyyətlərini və əməllərini qiymətləndirmək qabiliyyəti nöqteyi-nəzərindən baxmaq kifayətdir. Çox müxtəlif mədəniyyət növləri insan şüuru ilə bağlıdır. Şüur, ağlın xüsusiyyəti kimi, yalnız insan üçün səciyyəvidir. Belə hesab etmək qəbul olunmuşdur ki, insana şüurun altı səviyyəsi xasdır: fiziki, emosional, mental, intuitiv, ruhi, kosmik. Onların hər

biri öz universallığı ilə seçilir. İntensivlik dərəcəsinə görə şüur – şüuraltı, şüurlu və fövqəlşüura bölünür. Yaxşı məlumdur ki, insanın şüuru onu əhatə edən aləmi təkcə əks etdirmir, həm də onu yaradır. Şüur – insanın fikirləri və hisləri, ətraf aləmi mühakimə etmək və qavramaq, reallığa olan münasibətini müəyyən etmək qabiliyyətidir. Müxtəlif insanların özünütəhlil, öz fikirlərinə və hərəkətlərinə nəzarət qabiliyyəti müxtəlif ola bilər. İnsanın şüuru onun ruhunun və cisminin vəziyyətindən, ağlı, iradəsi, xarakteri, konkret şərait, siyasi vəziyyət, iqtisadi şərtlərdən, təhsili, sağlamlığı, peşəsi, həyat tərzi, cinsi, yaşı, vicdanı, motivasiyası və digər amillərdən asılı olaraq dəyişə bilər. Müxtəlif insanların şüuru yaşdan, sağlamlıq vəziyyətindən, peşədən, təhsil səviyyəsindən asılı olaraq, zamanda və məkanda dəyişə bilər. Buna bir faktı da əlavə etməliyik ki, insanın psixikası şüur kimi, şüursuzluğu da ehtiva edir. İnsan inkişafı problemlərinin sistemli kulturoloji təhlili zamanı insanların bu və ya digər mədəni xüsusiyyətlərinin nəzərə alınması milli mədəniyyətlərin inkişafının idarə edilməsi, yüksək mədəniyyətli vətəndaşların formalaşdırılması və inkişaf etdirilməsi, cəmiyyətin ahəngdar inkişafının və yüksək səviyyəli beynəlxalq münasibətlər mədəniyyətinin təmin edilməsi prosesində düzün qərarlar tapmaq imkanı verir.

Sistemli kulturoloji yanaşma sayəsində kulturologiya tədqiq edilən obyektin qavranılmasının birölçülülüyündən qaçmağa, onun daha təsdiqlənmiş mənzərəsini almağa imkan yaradır. Bu xüsusiyyət insanın həyat fəaliyyətinin bütün sahələrində qəbul edilmiş qərarların və alınmış nəticələrin kulturoloji ekspertizasının keçirilməsi üçün yüksək praktiki dəyərə malikdir. Sistemli kulturoloji yanaşma mədəni insanın həyatında və fəaliyyətində mühüm rol oynayan emosional intellektin inkişafı üçün də son dərəcə mühüm əhəmiyyət daşıyır. Bu, şəxsiyyətin özünün və başqalarının emosiyalarını başa düşmək, onları məhsuldar idarə etmək bacarığını inkişaf etdirməyə kömək edir ki, bu da şəxsiyyətin özünüidarəsinin mədəni təşəkkülü və inkişafı, onun digər insanlarla səmərəli qarşılıqlı əlaqəsi, düzgün qərarların qəbul edilməsi üçün çox vacibdir. Beləliklə, kulturologiya, müxtəlif etnosların, millətlərin və dinlərin bütün yaradıcı, kreativ insanlarını öz qanadları altında birləşdirən ruhi mədəniyyətin bütöv sosial sistem kimi yeni tərzdə qavranılmasına kömək edir. O, mədəniyyətin qeyri-məhdud dəyişdirici imkanlarından insanın həyat fəaliyyəti texnologiyalarının təkmilləşdirilməsi məqsədilə istifadə edilməsi üçün yeni imkanlar açır. Bu, yüksək mədəniyyətli insanın – Şərq və Qərb, Avropa və Asiya xalqlarının və dövlətlərinin inkişafının başlıca hərəkətverici qüvvəsinin formalaşdırılmasına və inkişaf etdirilməsinə aparan düzgün yoldur.

Cəmiyyətin davamlı inkişafı üçün aktual olan kulturoloji innovasiyalar arasında daimi kulturoloji islahatların həyata keçirilməsinin, qəbul edilmiş qərarların və alınan nəticələrin kulturoloji ekspertizasının, uşaqların və gənclərin meritokratik tərbiyəsinin, meritokratiya mədəniyyəti prinsiplərinin sosial və dövlət idarəetməsinə tətbiqinin vacibliyini qeyd etmək lazımdır. Sistemli təhlilə əsaslanan kulturoloji metodologiyanın üstünlükləri müasir sivilizasiyanın destruktiv proses-

lərinin aradan qaldırılması və bəşəriyyətin mütərəqqi humanist inkişafının yeni pilləsinə keçidin həyata keçirilməsi üçün yaradıcı şəkildə istifadə edilə bilər və edilməlidir.

## Əsas tədqiqat metodları və prinsipləri

Kulturoloji tədqiqatın əsas metodu kimi, tərəfimizdən bütöv sosial sistem olan mədəniyyətin kompleks şəkildə, fənlərarası öyrənilməsinə imkan verən, öz aralarında bir-biri ilə qarşılıqlı üzvi əlaqədə olan – *məntiqi, keyfiyyət, kəmiyyət, struktur, funksional, tarixi, məkan, müqayisəli, situasiyalı, antropoloji, psixoqrafik və demoqrafik metodların* məcmusu əsasında *universal sistemli yanaşma* müəyyən edilmişdir.

1. Məntiqəuyğun nəticələrə gətirib çıxaran ardıcıl mühakimələrə əsaslanan *məntiqi təhlil,* hadisələrin daxili qanunauyğunluğunu anlamağa imkan verir.

2. Müəyyən tarixi dövrdə konkret cəmiyyətin mədəniyyətinin *keyfiyyət təhlili*, onun xüsusiyyətlərini və effektivliyini müəyyən etməyə yardım edir.

*3. Kəmiyyət təhlili*, mədəniyyətin inkişafının keyfiyyət xarakteristikalarına, fəaliyyət və proqnozlaşdırma qabiliyyətini qiymətləndirməyə imkan yaradır.

*4. Struktur təhlil*, mədəniyyətin ayrı-ayrı sahələrini və onların qarşılıqlı əlaqələrini bütöv mədəniyyət sistemi tərkibində nəzərdən keçirməyə kömək edir.

*5. Funksional təhlil*, mədəniyyətin ekstrasomatik sistem kimi fəaliyyətini təmin edən məqsədlərin, praqmatik xarakteristikaların, mədəniyyətin, əşyaların və hadisələrin mahiyyətini dərk etməyə yardım edir.

*6. Tarixi təhlil*, mədəniyyətin inkişafını zamanın müəyyən dövründə tədqiq etməyə imkan yaradır.

*7. Məkan təhlili,* sosial mühit, siyasi rejim, iqtisadi, iqlim, ekoloji və digər şəraitlər daxil olmaqla, müəyyən çoğrafi ərazidə mədəniyyətin vəziyyətini və inkişafını öyrənməyə imkan verir.

*8. Müqayisəli təhlil,* müxtəlif mədəniyyətlərin ümumi cəhətlərini və səciyyəvi xüsusiyyətlərini müəyyən etməyə kömək edir.

*9. Situasiyalı təhlil,* insanın həyat fəaliyyətinə (subyekt və obyekt) təsir göstərən konkret situasiyaların yaxud dəyişən şəraitlərin öyrənilməsi və düzgün dərk edilməsi imkanını verir.

*10. Antropoloji təhlil,* mədəniyyətin etnoqrafik və etnoloji xüsusiyyətlərini, həyat tərzi, ənənələr və adətlər, sosial münasibətlər sistemi, mədəniyyətin inkişaf dinamikası və onun nəsillər vasitəsilə ötürülmə mexanizmini öyrənməyə imkan verir.

*11. Psixoqrafik təhlil*, sosial-mədəni mühit, mədəni dəyərlər sistemi, həyat tərzi, ənənələr, insanların anadangəlmə mədəni keyfiyyətləri ilə şərtlənən motiv və üstünlüklərinin öyrənilməsinə yardım edir.

*12.Demoqrafik təhlil*, insanların yaşı, cinsi, təhsili, gəlir səviyyəsi, həyat müddəti və digər parametrləri haqqında informasiya almağa imkan verir.

## "Kulturoloji piramida" universal metodu

Ruhi mədəniyyətin inkişafına, insan inkişafı və idarəetmə, habelə sosial-mədəni siyasətin təkmilləşdirilməsinin mürəkkəb problemlərinin həllinə elmi cəhətdən yardım etmək məqsədilə, tərəfimizdən ilk dəfə olaraq "Kulturoloji piramida" universal tədqiqat metodu işlənib hazırlanmışdır.

Sosial-mədəni inkişafın mürəkkəb problemlərinin sistemli təhlilinə bu innovativ kulturoloji yanaşma yalnız cəmiyyətin yaradıcılığı və modernləşməsinin məntiqi formulu olmayıb, həm də insan inkişafının konkret praktiki vəzifələrinin həlli metodudur.

O, cəmiyyət, dövlət və bəşəriyyətin inkişaf templərinin və keyfiyyətinin yüksəlməsi üçün yeni imkanlar açan müxtəlif həyat fəaliyyəti sahələrinin dərk edilməsi və dəyişdirilməsinin üç səviyyəsini özündə ehtiva edir.

Səkkiz pillədən ibarət bu iyerarxik qarşılıqlı əlaqəli səviyyələr tərəfimizdən ardıcıl olaraq – "öyrənmə", "dərk etmə" və "yaratma" səviyyələri kimi müəyyən edilmişdir.

*1. Birinci səviyyə – "öyrənmə",* idrakın dörd pilləsinin – mahiyyət, xüsusiyyətlər, tarix və nailiyyətlərin təhlili əsasında qurulur.

*2. İkinci səviyyə – "dərk etmə",* insanın, cəmiyyətin, dövlətin və bütövlükdə bəşəriyyətin həyat fəaliyyətinin müəyyən sahələrinin konkret və ya universal inkişaf qanunları və texnologiyalarının dərk edilməsini və mənimsənilməsini nəzərdə tutur.

*3. Üçüncü səviyyə – "yaratma",* yeni imkanların aşkar edilməsini, aktiv kulturogenez metodlarından istifadə etməklə, həyat fəaliyyətinin yeni, rəqabətqabiliyyətli texnologiyalarının işlənib hazırlanmasını, həmçinin zaman və məkan daxilində mədəniyyətin gələcək inkişafının qurulmasını nəzərdə tutur.

*"Kulturoloji piramida" universal metodunun praktiki dəyəri onun aşağıdakılar üçün istifadə imkanı ilə şərtlənib:*

- Mürəkkəb fərdi, sosial, dövlət və beynəlxalq problemlərin, həyat fəaliyyətinin inkişaf qanunları və texnologiyalarının düzgün başa düşülməsi.
- İnsanın həyat fəaliyyətinin ən müxtəlif sahələri və problemlərinin, həmçinin bütün səviyyələrdə idarəetmə problemlərinin sistemli və situasiyalı təhlili.
- Milli və beynəlxalq səviyyədə düzgün siyasi, iqtisadi, hüquqi, sosial və fərdi qərarların qəbul edilməsi.
- Müxtəlif ölkələrdə insanın inkişafı, dövlət quruculuğu və idarəçiliyin müasir modelləri və proqnozlarının işlənib hazırlanması.
- İnsan və beynəlxalq münasibətlər mədəniyyətinin təkmilləşdirilməsi, insanın özünü təkmilləşdirməsi, şəxsiyyətin özünüidarəsi və ailənin idarə edilməsi effektivliyinin yüksəldilməsi.
- Bərpa olunan strateji resurs və davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafın başlıca hərəkətverici qüvvəsi kimi yüksək mədəniyyətli insanların formalaşdırılması və inkişaf etdirilməsi.

Bu intellektual piramidanın pillələri üzrə qalxma, onun öyrənmə və dəyişdirmə ilə bağlı hər üç məntiqi səviyyəsinin dərk edilməsi yüksək ruhi mədəniyyətə nail olmaqla şəxsiyyətlərin və liderlərin formalaşdırılmasına və təkmilləşdirilməsinə kömək edir, insanın səmərəli həyat fəaliyyətinə yol açır. O, "meşənin dərinliklərini" və "təpənin arxa tərəfini görməyə" imkan yaradır.

"Kulturoloji piramida" universal metodunun köməyi ilə kəşf olunan inkişaf qanunları və həyat fəaliyyəti texnologiyalarının başa düşülməsi kulturoloji sistemlərin, zamanın çağırışlarına cavab verən milli inkişaf strukturları və mexanizmlərinin mövcud olanlarının təkmilləşdirilməsinə və yeni, məntiqi baxımdan daha səmərəli və həyat qabiliyyətli olanlarının yaradılmasına yeni imkanlar pəncərəsi açır.




**İnsanın özünüinkişafının kulturoloji metodologiyası**

Yüksək mədəniyyətli insanın formalaşdırılmasının və inkişaf etdirilməsinin effektiv aləti – insanın özünüinkişafının kulturoloji metodologiyasıdır. O, şəxsiyyətin özünüinkişafının dörd metodunun vəhdətini nəzərdə tutur: özünütəhsil, özünüdərk, özünütərbiyə və özünüidarə.

**Özünütəhsil.** Özünütəhsilin mənbələrinə aiddir – yaxşı kitablar, muzeylər, teatr və kino, incəsənət əsərləri, səyahətlər; müdrik insanlarla ünsiyyət; forumlar, mühazirələr, məşğələlər, ustad dərsləri və təlimlər; təbiət və cəmiyyət həyatının müşahidəsi və müqayisəsi.

*Yaxşı kitablar* təsdiqlənmiş elmi biliklərin əvəzolunmaz mənbəyidir. Onlar bəşəriyyətin sosial-mədəni inkişafının zəngin təcrübəsini əks etdirməklə, həyatda, fəaliyyətdə, düzgün qərarların qəbul edilməsində bələdçidir. Buna baxmayaraq istedadlı, lakin elmi həqiqətdən uzaq yazıçının kitabı ilə maraqlanan gənc, təcrübəsiz insan qeyri-adekvat ideyanın təsiri altında qalaraq həyatda yanlış yol seçə bilər. Nəticədə, bir müddət sonra o, özünü "uçurumun kənarında" tapıb, doğru yol axtarışında geri qayıtmalı olacaqdır. Özünüinkişafa sərf olunmuş bu itirilmiş vaxtın yerini doldurmaq mümkün olmayacaq, çünki vaxt ən dəyərli, bərpa olunmayan resursdur.

*Muzeylər* insanın ağlını görkəmli arxeoloji və müasir tarix və mədəniyyət abidələri haqqında məlumatlarla zənginləşdirən qiymətli maarif mənbəyidir.

*Teatr və kino* insana görkəmli tarixi şəxsiyyətlərin yaradıcılığı ilə tanış olmağa, mədəni hadisələrin qanunauyğunluqlarını izləməyə, insan psixologiyasının, insanların xarakterinin xüsusiyyətlərini, insan münasibətləri mədəniyyətini və qəbul edilən qərarların mümkün nəticələrini dərk etməyə və anlamağa kömək edir.

*İncəsənət əsərləri* insanı insan fikrinin dərinliyi, istedadlı insanlar tərəfindən yaradılmış memarlıq, musiqi və təsviri incəsənət, ədəbiyyat, heykəltaraşlıq, xalçaçılıq və yaradıcı fəaliyyətin ruhi mədəniyyəti formalaşdıran digər sahələrinin şah əsərləri ilə tanış edir. Onlar bəşəriyyətin formasına, milli xüsusiyyətlərinə və istehsal metodlarına görə bir-birindən fərqlənən görkəmli ruhi və maddi mədəniyyət abidələrini müqayisə etməyə və qiymətləndirməyə imkan yaradır.

*Səyahətlər* yeniliklər görməyə, təbiət, müxtəlif xalqların mədəniyyətləri və həyat fəaliyyəti təcrübəsi ilə tanış olmağa, bu biliklərdən öz mədəniyyətinin zənginləşməsi, dünyagörüşünün genişlənməsi, peşəkar səriştəsinin artması və özünütəkmilləşdirməsi üçün yaradıcılıqla istifadə etməyə imkan verir.

*Müdrik insanlarla ünsiyyət* insana toplanılması üçün illər tələb olunan müdriklik incilərini qısa müddət ərzində tanımağa kömək edir. İnsan xeyli vaxt sərf etməklə bir neçə kitab oxuya, amma bununla belə, müdrik insanın ona izah edə biləcəyi "həyat sirləri"ni görməyə bilər.

*Forumlar, mühazirələr, məşğələlər, ustad dərsləri və təlimlər* yeni biliklərin böyük potensialını ehtiva edir. Onlarda dinlənilən innovativ ideyalar insan üçün "yeni dünya", həyatını kökündən yaxşılığa doğru dəyişə biləcək baxış bucağı aça bilər.

*Təbiət və cəmiyyət həyatının müşahidələri* və onların müqayisəli təhlili insanın həyat immunitetini yüksəldərək, onun özünüinkişafı üçün ciddi mənbə rolunu oynayır. Bu, insan təbiətini və ondan nə gözlənə biləcəyini anlamaq məqsədi daşıyan özünəməxsus həyat tədqiqatlarıdır. Yaxşı deyiblər: "tədqiq etmək sənə qədər başqalarının gördüyünü görmək, amma səndən əvvəl heç kimin anlamadığını anlamaqdır". Heyvanlar kimi insanların da real həyatda izlədiyi özünəməxsus təbiəti vardır. Ağıllı, nikbin və ruhən güclü insanlar öz nöqsanlarını görərək, mədəniyyət və güclü iradənin imkanları vasitəsilə onları şüurlu şəkildə müsbət keyfiyyətlərə dəyişdirməyə çalışırlar. Beləcə, onlar öz həyat enerjisini artırır və

ətrafdakı insanlar tərəfindən sevgi və hörmət obyektinə çevrilirlər. Hiyləgər və ya destruktiv xarakterə malik insanlar isə ən yaxşı halda gözəl sözlər və xoşagələn davranış vasitəsilə başqalarını manipulyasiya etməyə çalışırlar. Bənzər oyunlarla ətrafdakıların gözündə özlərinin müsbət obrazını formalaşdıraraq, onlardan əsl simalarını, heç də xeyirxah olmayan niyyət və əməllərini gizləmək məqsədi güdürlər. Bu zaman unudurlar ki, bir qayda olaraq, edilən əməllərlə uyğun gəlməyən sözlər qarşındakı insanın kim olduğu haqqında məlumat verir.

Birincilər – ruhi mədəniyyəti, intellektual və mənəvi dəyərləri özünüinkişafın, özünütəkmilləş-dirmənin və layiqli həyatın mənbəyi kimi görərək, özlərindən sonra işıqlı iz, xoş xatirə qoyub gedən yüksək mədəniyyətli insanlardır. İkincilər – mədəniyyət arsenalından ancaq qarşılarına qoyduqları bədxah məqsədlərə çatmaq üçün lazım olan bilikləri və etik normaları praqmatik şəkildə istifadə edən, humanist dəyərlərdən uzaq sivil insanlardır.

**Özünüdərk** özünü müşahidə etməyi, öz psixologiyasını, xarakterini, həyat fəaliyyətində və davranışındakı səhvləri təhlil etməyi, özünütəkmilləşdirmək məqsədilə özünə tənqidi yanaşmağı nəzərdə tutur. Burada özünütəkmilləşdirmənin aləti öz nöqsanlarının şüurlu şəkildə – insanın yüksək mədəniyyətinin, nəcib xasiyyətinin və xeyirli həyatının formalaşmasına kömək edən müsbət keyfiyyətlərə çevrilməsidir.

**Özünütərbiyə** bu və ya digər qeyri-etik davranışı başa düşüb "isti-isti" səhvini düzəltməyi, ya da gələcəkdə bir də belə səhvə yol verməmək məqsədilə öz yanlış davranışından dərs çıxarmağı nəzərdə tutur.

**Özünüidarə** insan tərəfindən qəbul edilmiş qərarın mütləq şəkildə həyata keçirilməsini nəzərdə tutur. Hətta o, bir o qədər uğurlu olmasa belə, müəyyən həyat təcrübəsi qazanmağa xidmət edəcəkdir. Buna baxmayaraq insan qəbul etdiyi qərarın icrasında qətiyyətsizlik nümayiş etdirdiyi halda şübhələr onu daxildən yeməyə başlayır. Onun özünüqiymətləndirmə səviyyəsi, öz gücünə inamı aşağı düşür ki, bu da depressiyaya, nəticədə isə mümkün xəstəliklərə səbəb olur.

## IV FƏSİL

## İDARƏETMƏ MƏDƏNİYYƏTİ

1. İdarəetmə mədəniyyəti haqqında anlayış.
2. Dövlət idarəetməsinin üç mərkəzi problemi.
3. İdarəetmənin elmi prinsipləri.
4. Təşkilati mədəniyyətin növləri.
5. Dövlət idarəetməsinin əsas funksiyaları.
6. Dövlət idarəetmə strategiyası və texnologiyaları.
7. Dövlət idarəetməsinin təşkili, qiymətləndirilməsi və təkmilləşdirilməsi.
8. Dövlət idarəetməsinin hüquqi tənzimlənməsi.
9. Dövlət idarəetməsinin informasiya təminatı.
10. İqtisadiyyatın inkişafının idarə edilməsi mədəniyyəti.
11. Liderlik mədəniyyəti.
12. Özünüidarə mədəniyyəti.
13. İcbari kulturoloji təhsil və maarifləndirmənin tətbiqinin zəruriliyi haqqında.
14. Kulturoloji islahatlar haqqında.
15. Mədəniyyətlərin dialoqu və sivilizasiyaların tərəfdaşlığı.

**İdarəetmə mədəniyyəti haqqında anlayış**

İdarəetmə sosial mədəniyyətin ən mühüm institutlarından biri olub, müəyyən obyekti nizamlamaq, inkişaf etdirmək və təkmilləşdirmək məqsədi ilə ona təsir edilməsini təmin edən, həmçinin qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün müxtəlif obyektlərin səylərinin koordinasiyasını ifadə edən prosesdir. Belə obyektlər insan, ailə, kollektiv, cəmiyyət, dövlət ola bilər. İdarəetmə məqsədlər, istiqamətlər və prioritetlərin müəyyən edilməsini, fəaliyyət prinsipləri və metodologiyaların, texnologiyalar və metodların seçilməsini, proqramlar və layihələrin işlənib hazırlanmasını, qərarların qəbul edilməsi və yerinə yetirilməsini ehtiva edən fəaliyyəti nəzərdə tutur. O, insanın və cəmiyyətin, dünya mədəniyyəti və sivilizasiyasının obyektiv inkişaf qanunauyğunluqlarının elmi dərk edilməsi və yaradıcı istifadəsi əsasında qurulur.

İdarəetmə mədəniyyəti – xüsusi elmi biliklər, texnologiyalar, mütəşəkkillik, etika və rifahın yüksəldilməsi, insanın, cəmiyyətin, dövlətin və dünya birliyinin mütərəqqi və təhlükəsiz inkişafına nail olunması, ictimai və beynəlxalq münasi-

bətlərin tənzimlənməsi, insanların maraqlarının uyğunlaşdırılması məqsədilə həyata keçirilən rəhbər fəaliyyətdir. O həm də idarəetmə fəaliyyəti və onun nəticələrinin keyfiyyət göstəricisidir. İdarəetmə mədəniyyəti insanın, sosial qrupların, cəmiyyətin, dövlətin və ya beynəlxalq birliyin fəaliyyətinə rəhbərlik üzrə dəyişən dünya şəraitində onların inkişaf gedişatını istiqamətləndirən və sosial-mədəni tərəqqini təmin edən şüurlu humanist fəlsəfəni və fəaliyyətin optimal texnologiyasını əks etdirir. O qoyulmuş məqsədlərə nail olunması və idarə edilən obyektin inkişafında effektivliyin əldə edilməsi üçün lazım olan düzgün siyasi, iqtisadi və ya sosial qərarların qəbul edilməsinə imkan verən dərin peşəkar bilikləri, bacarıqlarını, hüquqi savadlılığı, siyasi və mənəvi məsuliyyəti nəzərdə tutur. İdarəetmə mədəniyyətinin mənbəyi cəmiyyət və dövlətin səmərəli idarə edilməsi üçün zəruri peşəkar səriştəliliyin formalaşmasına kömək edən universal kulturoloji və xüsusi idarəçilik bilikləri və nəzəriyyələridir. Dövlət, beynəlxalq, iqtisadi və sosial idarəetmə, liderlik mədəniyyəti, özünüidarə və ailənin idarə edilməsi idarəetmə mədəniyyətinin mühüm sahələridir. İdarəetmə mədəniyyəti idarəetmənin ümumi nəzəriyyəsi, inzibati-dövlət idarəetməsi nəzəriyyəsi, biznesin idarə edilməsi nəzəriyyəsi, bələdiyyə idarəetmə nəzəriyyəsi, "üçüncü" sektorun idarə edilməsi, liderlik nəzəriyyəsi sahəsindəki bilikləri, habelə insan və beynəlxalq münasibətlər, şəxsiyyətlərarası və işgüzar ünsiyyət sahəsindəki bilikləri özündə birləşdirir.

Dövlət idarəetmə mədəniyyəti hər bir ölkə üçün başlıca əhəmiyyət kəsb edir. Dövlət idarəçiliyi mədəniyyəti – strateji məsələlərin həllinə, cəmiyyətin mütərəqqi, davamlı və təhlükəsiz inkişafına, ölkə daxilində sosial münasibətlərin nizamlanmasına və qarşılıqlı faydalı beynəlxalq münasibətlərin təmin edilməsinə yönəldilmiş, müəyyən peşəkar biliklər, dəyərlər, normalar, proseslər və texnologiyalarda təcəssüm olunan təşkilati-idarəetmə fəaliyyətidir. O, xalqın rifahının təmini, cəmiyyətin həyat keyfiyyətinin yüksəlişi, həyat qabiliyyətinin təmin edilməsi və dövlət məqsədlərinə nail olunması üçün insanların şüuruna, davranışına və fəaliyyətinə təsir etmək yolu ilə müəyyən elmi, ideoloji, təşkilati, hüquqi və etik prinsiplər əsasında hakimiyyəti təmsil edən səlahiyyətli şəxslər tərəfindən həyata keçirilir. Bu və ya digər ölkənin dövlət idarəçiliyi onun məzmununu, məqsədlərini və prinsiplərini müəyyən edən sosial-siyasi quruluşla şərtlənir.

Müasir dünyada dövlət öz vətəndaşlarının layiqli həyat fəaliyyəti üçün əlverişli şəraitin yaradılması məqsədilə mövcuddur. Milli, sosial, ümumbəşəri dəyərlərin və ölkə vətəndaşlarının maraqlarının birləşdirilməsinin əsas forması olan demokratik dövlətdə dövlətin məqsədləri və iradəsi dövlət inzibati-idarəetmə sistemi vasitəsilə həyata keçirilir. Ayrı-ayrı vətəndaşların və ya ictimai təşkilatların məqsəd, maraq və hüquqlarının həyata keçirilmə vasitəsi olan mülki qulluqdan fərqli olaraq, dövlət qulluğu cəmiyyətin rifah və təhlükəsizliyinin, sosial tərəqqinin və dövlətin özünün həyat qabiliyyətinin asılı olduğu strateji vəzifələrin həll olunmasını təmin edir.

Dövlət idarəçiliyi mədəniyyəti kulturoloji ölçmədə aşağıdakıları nəzərdə tutur:

✓ İctimai proseslərin, insanın şüuru, davranışı və fəaliyyətinin bilavasitə idarə edilməsinə yönələn universal və xüsusi biliklər, bacarıq, mütəşəkkillik, mənəviyyat və məqsədyönlü fəaliyyəti.

✓ Dövlət tərəfindən qoyulan məqsədlərə nail olunması, vətəndaşların ruhi və maddi tələbatlarının ödənilməsi, ideallar, dəyərlər və məqsədlərinin həyata keçirilməsi naminə cəmiyyətin həyat fəaliyyətinə hüquqi dövlətin təsir texnologiyalarının işlənib hazırlanması və reallaşdırılmasını.

✓ Səlahiyyətli şəxslər tərəfindən insanların davranış və fəaliyyət qaydalarının müəyyən edilməsi, həyat tələbatlarına və cəmiyyətin və dövlətin inkişaf maraqlarına cavab verən ictimai münasibətlərin tənzimlənməsini.

✓ Müxtəlif funksiyalar və səlahiyyətlərə malik olan idarəetmə subyektləri və obyektlərinin məcmusu kimi, daim inkişaf etməkdə olan dövlət idarəçiliyi sisteminin səmərəli fəaliyyətini.

Dövlət idarəçilik sisteminin həyat qabiliyyəti və səmərəliliyini, onun zamanın çağırışlarına cavab vermək və ölkənin rəqabətə davamlılığı və təhlükəsizliyini təmin etmək qabiliyyətinin daimi inkişafını təmin edən idarəçilik qərarlarının qəbul edilməsi və yerinə yetirilməsini, innovativ fəaliyyətin həyata keçirilməsini.

Dövlət idarəçiliyi mədəniyyəti siyasətçilər və məmurların universal elmi biliklərə, idarəetmə texnologiyalarına, təcrübəyə, mütəşəkkilliyə, nizam-intizama və hüquq qaydalarına, müstəqilliyə, siyasi və mənəvi məsuliyyətə, möhkəm iradəyə, dürüstlüyə və yüksək peşəkar etikaya malik olmaları, onların mədəniyyəti harmonizasiya etmək və maraqları təmin etmək bacarığı ilə şərtlənmişdir. Onun ən mühüm göstəricisi düzgün qərarların qəbul edilməsini təmin edən yeni kulturoloji texnologiyalarla əməliyyat aparmaq bacarığıdır. Elmtutumlu kulturoloji texnologiyalar real nəticələrə əsaslanaraq, ictimai inkişafdakı dağıdıcı, destruktiv prosesləri ölçmək, qiymətləndirmək, minimuma endirməyin mümkün olduğu sosial-mədəni dəyişikliklərin mütərəqqi xarakterinə yardım edir. Onlar qazanılmış nailiyyətlərin və toplanmış təcrübənin saxlanması, istifadəsi və ötürülməsini təmin edən yeni idarəetmə keyfiyyətinin yaradılmasına, innovativ metodlar və islahatlar vasitəsilə əldə olunanın yaxşılaşdırılması və təkmilləşdirilməsinin həyata keçirilməsinə imkan verir. İdarəetmə mədəniyyətinin bütün səviyyələrdə və həyat fəaliyyətinin bütün sahələrində təkmilləşdirilməsi üçün həyat, əmək və vətəndaşların idarə edilməsi mədəniyyətinin təkmilləşdirilməsinin universal elmi əsası kimi kulturologiyanın institusionallaşması mühüm əhəmiyyətə malikdir. Dövlət idarəçiliyinin ən mühüm vəzifəsi rəqabətqabiliyyətli insan kapitalının əsası və təhlükəsiz milli inkişafın başlıca resursu kimi yüksək mədəniyyətli insanların formalaşdırılması və inkişaf etdirilməsidir.

Dövlət idarəçiliyi mədəniyyətinin əsas elmi və praktiki problemlərinə aşağıdakılar aiddir: dövlət idarəçilik sisteminin təşkili və fəaliyyəti, dövlət aparatı vəzifələrinin formalaşdırılması və harmonizasiyası, alternativ idarəetmə modellərinin işlənib hazırlanması, dövlət qərarlarının hazırlanması və qəbul edilməsi, idarəçi-

lik fəaliyyətinin struktur və mexanizmlərinin təkmilləşdirilməsi və islahatı. Sistemin institutlarının fəaliyyətinin koordinasiyası, ideoloji və etik problemlər, ictimaiyyətlə əlaqələr, siyasi proqnozlaşdırma, liderlik problemləri, məmurların seçilməsi, hazırlığı və yenidən hazırlığı, dövlət qulluğu heyətinin idarə edilməsi, münaqişələrin və böhranların idarə edilməsi texnologiyaları və başqa məsələləri də bura aid etmək lazımdır. Bütün bu problemlər cəmiyyətin sosial mədəniyyəti, dövlətin konkret məqsədləri və dünya mədəniyyəti və sivilizasiyasının inkişaf qanunauyğunluqları kontekstində nəzərdən keçirilir.

### Dövlət idarəetməsinin üç mərkəzi problemi

D.M. Qvişianinin nəzəriyyəsinə görə, dövlət idarəçiliyinin mərkəzi problemləri aşağıdakılardır:

- Sosial-mədəni inkişafın strateji istiqamətlərinin müəyyən edilməsi və dövlət prioritetlərinin təyin edilməsi;
- Ruhi və maddi mədəniyyətin müxtəlif sahələri üçün mütəxəssislərin hazırlanması və tərbiyə edilməsi, onların həyat fəaliyyəti üçün maddi-texniki və sosial şəraitin yaradılması;
- Sosial-mədəni, o cümlədən, iqtisadi tərəqqi məqsədi ilə, mövcud mütəxəssislərin və onların fəaliyyət nəticələrinin qiymətləndirilməsi və effektiv istifadəsi.

### İdarəetmənin elmi prinsipləri

Təklif etdiyimiz idarəetmə mədəniyyəti modeli idarəçilik fəaliyyətinin elmi cəhətdən əsaslandırılmış beş növünü – strategiya, texnologiya, etika, sosiologiya və idarəetmə estetikasını nəzərdə tutur. Bu kulturoloji model dövlət, sosial və istehsal idarəetməsində tətbiq edilə bilər. O, Qərb ölkələri və Yaponiyada tətbiq olunan istehsalın idarə edilməsi təcrübəsinin yaradıcılıqla istifadəsi əsasında işlənib hazırlanmışdır.[2]

1. “Strategiya” – dövlətin və ya təşkilatın uzun müddət səmərəli fəaliyyətini təmin edən düzgün planlaşdırma və proqramlaşdırma məqsədilə insan,

[2] Bu yanaşma demokratik ölkələrdə yayılmış istehsalın idarə edilməsi elminə əsaslanıb. Yaponiyanın İkinci dünya müharibəsindən sonrakı dövrdə əsas inkişaf amillərini təhlil edən N.İ. Konrad Qərbin kapitalist iqtisadiyyatı şəraitində təşəkkül tapan istehsalın idarə edilməsi elminin ölkənin dövlət həyatında strateji əhəmiyyətli yer tutmasına xüsusi diqqət yetirmişdir. Bu elmin əsas komponentləri: sənaye mühəndisliyi (Industrial Engineering), operativ tədqiqat (Operations Reshearch), menecment psixologiyası (Management Psychology), ictimai münasibətlər (Public Relations) və dizayn (Design) idi. İnkişaf etmiş ölkələrdə bu elmin sürətli inkişafı həm elmi-texniki inqilabın inkişaf tələbatları, həm də demokratikləşmə proseslərinin dərinləşməsi ilə bağlı idi. İdarəetmə fakültəsi müharibədən sonra Yaponiyanın ali məktəblərində ən populyar və geniş yayılmış fakültə oldu.

maliyyə, xammal, informasiya, təşkilati, texniki və digər resursların sistemli kulturoloji təhlilidir.

2. "Texnologiya" – qoyulmuş məqsədlərin yerinə yetirilməsinə yönəldilmiş səmərəli idarəçilik və istehsal fəaliyyətinin təmin olunması üçün elmi-texniki nailiyyətlərin düzgün istifadəsi, innovasiya texnologiyalarının, rəqabətqabiliyyətli metodlar, proseslər və prosedurların seçilməsi və işlənib hazırlanmasıdır.

3. "Psixologiya" – təşkilatın kollektivi ilə işləmək bacarığıdır. Səmərəli komanda işinin təşkili və yüksək nəticələrin alınması məqsədilə işçilərin intellektual, mənəvi, psixoloji xüsusiyyətlərinin və xasiyyətlərinin öyrənilməsi, onların bacarıq, nailiyyət və imkanlarının qiymətləndirilməsi, mədəniyyətlərin harmonizasiyası və maraqların motivasiyasıdır.

4. "Sosiologiya" – müxtəlif təşkilatlar və insan qrupları arasında maraqların və münasibətlərin xarakterinin nəzərə alınması, onlarla fəal qarşılıqlı təsir və qarşılıqlı faydalı əməkdaşlıq, həmçinin, ölkədə və xaricdə idarəetmə subyektinin müsbət imicinin formalaşmasına istiqamətlənən, dövlətin yaxud təşkilatın missiyasının effektiv yerinə yetirilməsi üçün əlverişli xarici şəraitin yaradılmasına kömək edən KİV nümayəndələri ilə işdir.

5. "Estetika" (dizayn) – bu, dövlət müəssisəsinin və ya təşkilatın xarakterinə və təyinatına uyğun olaraq, estetik formaların (xarici görünüşün) və ya idarəetmə fəaliyyətinin nəticələrinin (istehsal olunan məhsulun) sosial-mədəni layihəsinin hazırlanmasıdır. Estetika həmçinin cəmiyyətin onun fəaliyyətində maraqlılığın formalaşmasına yardım edən idarəetmə subyektinin fəaliyyəti, nailiyyətləri və inkişaf edən sosial dəyərli imkanlarının əhəmiyyətini əks etdirir.

## Təşkilati mədəniyyətin növləri

Təşkilatın müvəffəqiyyətlə idarə edilməsi kollektiv üzvlərinin mədəni eynilik, dəyərlər sistemi, inkişaf qaydaları, maraqları və məqsədləri əsasında birliyini və həmrəyliyini nəzərdə tutur. Kollektivin peşəkarlığı və etikasını özündə cəmləşdirən təşkilatın mədəniyyət səviyyəsi onun səmərəliliyinin müəyyənedici amilidir. Bu və ya digər təşkilatın mədəniyyəti onun rəhbərinin və işçilərinin xarakterində, psixologiyasında və davranış motivlərində, ideyalarında, əqidələrində, ənənələrində, aura və iş metodlarında əks olunur. Təşkilatın mədəniyyətinin keyfiyyəti bir çox cəhətdən onun əməkdaşlarının ruhi mədəniyyətindən, insanların sosial mənşəyindən və dəyərlər sistemindən, onların həyat fəaliyyəti fəlsəfəsi və texnologiyalarından asılıdır.[3]

Təşkilat mədəniyyətinin dörd növü məlumdur: "hakimiyyət mədəniyyəti" (Zevs), "rol mədəniyyəti" (Apollon), "vəzifə mədəniyyəti" (Afina) və "şəxsiyyət mədəniyyəti" (Dionisi).

1. "Hakimiyyət mədəniyyəti" bir qayda olaraq, sərt iyerarxik strukturlu təşkilatı xarakterizə edir. Hakimiyyət mədəniyyəti liderin xüsusi rolu, onun şəxsi key-

fiyyətləri və qabiliyyətləri ilə əlaqədardır. Belə təşkilatda hakimiyyət mənbəyi həm liderin şəxsiyyəti, həm də müəyyən dərəcədə onun malik olduğu vasitələrdir. Bu cür təşkilatlarda kadr siyasəti çox zaman əməkdaşların rəhbərə şəxsi sədaqəti prinsipləri əsasında qurulur. Təşkilat mədəniyyəti tipi kimi, hakimiyyət mədəniyyəti kifayət qədər mobildir. O, daxili və xarici dəyişikliklərə operativ reaksiya verərək, qərarların tez qəbul edilməsi və onların praktik həyata keçirilməsinə imkan verir.

2. "Rol mədəniyyəti" rolların ciddi funksional bölüşdürülməsi və iş sahələrinin ixtisaslaşdırılmasını xarakterizə edir. Rol mədəniyyətli təşkilatların fəaliyyətinin effektivliyi, fəaliyyət sisteminin qoyulmuş qayda, prosedur və standartlarının dəqiq gözlənilməsi ilə təmin edilir. Burada hakimiyyət mənbəyi vasitələr və liderin şəxsi keyfiyyətləri deyil, təşkilatın iyerarxik strukturunda əməkdaşın tutduğu xidməti mövqeyidir. Rol mədəniyyətli təşkilatlar daxili və xarici amillərin sabitliyi şəraitində kifayət qədər səmərəli işləməyə qadirdir.

3. "Vəzifə mədəniyyəti" bazarın, cəmiyyətin və dövlətin tələbatları ilə şərtlənən, ilk növbədə müəyyən proqramlar və layihələrin yerinə yetirilməsi ilə bağlı olan təşkilatları xarakterizə edir. Bu tip təşkilatlar öz effektivliyini müəyyən problemlər və məsələlərin həlli üçün yüksək peşəkarlıq və səylərin düzgün kooperasiyası qabiliyyəti hesabına təmin edirlər. Onlarda hakimiyyət elmi biliklərə, praktik vərdişlərə, informasiyaya və uyğun iş təcrübəsinə malik, bu və ya digər sahədə ekspertlər olan liderlərin əlində cəmləşir.

4. "Şəxsiyyət mədəniyyəti" başlıca olaraq, yaradıcı, innovativ fəaliyyətlə bağlı müəyyən missiyaları yerinə yetirən insanların birləşməsini xarakterizə edir. Belə təşkilatlarda hakimiyyət peşəkarlığa, vəsaitlərin əlçatanlığına və üfüqi əlaqələrə, fəaliyyət koordinasiyası və qarşılıqlı faydalı razılaşmalara nail olma bacarığına əsaslanır.

Real həyatda bir qayda olaraq, Lütfi Zadənin qeyri-səlis məntiqinə uyğun şəkildə bu və ya digər mədəniyyət tipinin daimi və ya müvəqqəti üstünlüyü ilə müxtəlif tip təşkilat mədəniyyətlərinin qarışması yer tutur.

Təşkilat mədəniyyətində növündən asılı olmayaraq, onun fəlsəfəsi və mədəni siyasətini, təşkilatın prinsipləri, dəyərləri və normalarını əks etdirən, onun əsas məqsədlər məcmusunu təmsil edən təşkilatın işgüzar kredosu böyük yer tutur. Təşkilat mədəniyyətinin mühüm göstəricisi təşkilatın etik aurasını əks etdirən ünsiyyət dilidir. Bu prinsiplər təşkilat rəhbərliyinin praktik fəaliyyəti ilə həm for-

---

[3] Bu mövzu səmərəli idarəetmədə təşkilati mədəniyyətinin mühüm rolunu açıqlayan Ç. Hendi, R. Harrison, A. Minkeviç, V. Tomilov, M. Suxorukovoy, A. Radugina, K. Radugina, R. Kriçevski, M. İvanov, D. Şusterman, Vilkins, T. Piters, R. Uoterman, U. Ougi, D. Sink, R. Ryuttinger, Y. Hentse, A. Kamel və digər Qərb və Rusiya müəlliflərinin elmi maraqlarının predmeti olmuşdur. Rocers Harrison tərəfindən müəyyən edilən mədəniyyət ideologiyalarının dörd növü əsasında, professor Çarlz Hendi təşkilati mədəniyyətin dörd növünü: hakimiyyət mədəniyyəti (Zevs), rol mədəniyyəti (Apollon), vəzifə mədəniyyəti (Afina) və şəxsiyyət mədəniyyətini (Dionisi) ehtiva edən, aşağıda nəzərdən keçirilən modeli işləyib hazırladı.

mal, həm də qeyri-formal səviyyədə nümayiş olunan və dəstəklənən təşkilatın mədəni ənənələrində əks olunmalıdır. İnnovativ fəaliyyətlə birləşmədə bu ənənələrin təzələnməsi həm təşkilatın həyat fəaliyyətinin varisliyi, həm də onun mütərəqqi inkişafı üçün mühüm əhəmiyyətə malikdir. Təşkilat mədəniyyətinin hər bir növü əsas etibarilə, özündə mədəni dəyərləri və idarəetmə texnologiyalarını təcəssüm etdirən idarəetmə mədəniyyətini əks etdirir.

## Dövlət idarəçiliyinin əsas funksiyaları

Dövlət idarəçiliyi mədəniyyəti dövlət tərəfindən müəyyən olunmuş inzibatçılıq qaydalarına məmurların ciddi riayət etməsini nəzərdə tutur. Dövlət inzibatçılıq fəaliyyətinin əsas funksiyalarına aiddir:

1. Qərarların icrası
2. Xidmət
3. Tənzimləmə
4. Lisenziyalaşdırma
5. İnformasiyanın toplanması
6. Kommunal təsərrüfat
7. Ekspertiza
8. Diskresion fəaliyyət

Dövlət administrasiyasının birinci və əsas funksiyası qəbul edilmiş qanunların icrası və icra hakimiyyəti tərəfindən işlənib hazırlanmış siyasətin həyata keçirilməsidir. Bununla yanaşı o, idarəetmə prinsiplərinin işlənib hazırlanması ilə də məşğul olur. Birləşmiş Krallıqda administrasiya nazirliklərin fəaliyyətində, qanun layihələrinin işlənib hazırlanmasında yardım göstərir, xüsusi korporasiyalar vasitəsilə iqtisadiyyatda dövlət sektorunun idarə edilməsini həyata keçirir. Böyük Britaniyanın Milli Səhiyyə Xidməti vətəndaşların azad tibbi təminatı siyasətini həyata keçirir, tibb hazırlığına, tibb işçilərinə patent verilməsinə, hospitalların idarə edilməsinə nəzarət edir. ABŞ-da Səhiyyə və tibbi yardım departamenti ştatları federal fondlarla təmin edir və onların təyinatı üzrə istifadə edilməsinə nəzarəti həyata keçirir.

Administrasiyanın ikinci mühüm funksiyası xidmətdir, bu məqsədlə əhaliyə xidmət üzrə xüsusi dövlət agentlikləri yaradılır. Demokratik ölkələrdə əhaliyə hökumət xidmətləri göstərilməsinin əsas sahələri arasında səhiyyəni, mədəniyyəti, meteoroloji xidməti, kənd təsərrüfatı xidmətini, işlə təmin etməni və s. göstərmək olar.

Üçüncü funksiya – əhalinin rifahının qorunmasına yönələn həyat fəaliyyətinin tənzimlən-məsidir. Almaniyada milli qanunverici hakimiyyətin Ali palatası – Bundesrat ölkənin ərazi hökumətləri tərəfindən federal qanunvericiliyin yerinə yetirilməsinə nəzarəti həyata keçirir. Almaniyanın Federal inzibati məhkəmələri ərazi hökumətlərini milli qanunlara tabe olmağa məcbur etmək hüququna malikdirlər. Bir sıra Qərb ölkələrində xüsusi hökumət komissiyaları, agentlikləri və departa-

mentləri fabriklərdə iş şəraitinin, birja fəaliyyəti təhlükəsizliyinin tənzimlənməsi, həmkarlar ittifaqına seçkilərə nəzarət və s. ilə məşğul olurlar. Bu zaman tənzimləmə müəyyən ictimai fəaliyyətləri dayandırmaq və ya kəsmək hüququnda ifadə edilən qüvvələr potensialı ilə müdafiə edilir.

Administrasiyanın dördüncü funksiyası lisenziya fəaliyyətidir. Bu funksiyanın təyinatı, insan fəaliyyətinin müəyyən sahələrində hökumət tərəfindən standartların və minimal məhdudiyyətlərin təyin edilməsidir. Bu və ya digər fəaliyyət növü ilə məşğul olmaq istəyən vətəndaşlar hökumət tərəfindən təyin edilən standartları rəhbər tutmalıdırlar. Unitar dövlətlərdə belə standartlar və meyarlar milli hökumətlər tərəfindən təyin edilir. Federal dövlətlərdə isə əhəmiyyətindən asılı olaraq, standartların bir hissəsi ştatlar, əyalətlər və ya dövlət departamentləri tərəfindən təyin edilə bilər. Bu, ictimai məktəblərdə müəllimlik fəaliyyətinə, daşınmaz əmlakın satılmasına, xüsusi praktikaya, sürücülük hüquqlarının verilməsinə və s. aiddir. Bütün ölkələrdə televiziya və radio yayımı lisenziyaları mərkəzi və ya federal hökumət tərəfindən verilir.

Dövlət administrasiyasının beşinci funksiyası informasiyanın toplanmasıdır. İnformasiyanın əsas təyinatı: qanun pozuntusunun aşkar edilməsi və obyektiv məlumatlar əsasında düzgün siyasi qərarın qəbul edilməsidir. Əsas vəzifə hadisələr, faktlar və insanlar haqqında obyektiv informasiyanın hazırlanmasıdır. Obyektiv informasiyanın alınması və milli inkişaf proqramlarının işlənib hazırlanması üçün bütün müasir dövlətlər tərəfindən agentliklər, federal bürolar, nazirliklər və ya xüsusi komissiyalar səviyyəsində faktiki dəlillərə əsaslanan xüsusi tədqiqatlar aparılır. Bu, enerjiyə, əhalinin tibbi təminatına, ətraf mühitin mühafizəsinə, vətəndaşların hüquqlarının müdafiəsinə və s. olan milli tələbatlara aiddir. Məsələn, ABŞ-da vətəndaşların hüquq məsələləri üzrə lazımi qərarın qəbul edilməsindən əvvəl Ədliyyə departamenti yanında Vətəndaş hüquqları şöbəsi tərəfindən xüsusi tədqiqatlar aparılır. FTB (Federal Təhlükəsizlik Bürosu) ölkənin milli maraqlarına və ya şəxsiyyətin hüququna və s. qarşı təxribatçılıq fəaliyyəti ilə bağlı tədqiqat aparır.

Altıncı funksiya vətəndaşların həyat fəaliyyətini təmin edən əsas şərtlərdən biri olan kommunal təsərrüfatın lazımi fəaliyyətinin təmin edilməsidir.

Dövlət bürokratiyasının yeddinci funksiyası ekspertizadır. Məmurlar tərəfindən mütəxəs-sislərin elmi və texniki ekspertizası qanunverici və icraedici hakimiyyətin fəaliyyətində, ictimai və dövlət inkişafının mürəkkəb problemlərinin həllində istifadə edilir. Müasir demokratik dövlətlərdə bu funksiya bürokratların ictimai siyasətə ən mühüm təsir vasitəsi olmuş, bürokratiyanın müşavirəçi rolunun qanunverici və icraedici fəaliyyətin ayrılmaz hissəsinə çevrilməsini şərtləndirmişdir. Ekspertlər, müşavirlər və məsləhətçilər qanunların hazırlanmasında, siyasətin formalaşdırılmasında və hökumət qərarlarının qəbulunda böyük rol oynayır, onlara görə böyük məsuliyyət daşıyırlar. Ekspertiza cəmiyyətin və konstruktiv xarici siyasətin sabit və təhlükəsiz inkişaf şərtlərini müəyyən etməyə imkan verir. Bu, dövlət qanunlarının təfsirinə, ideologiyaya və siyasətə, idarəetməyə,

sənayedə işlər aparılarkən təhlükəsizliyin təmin edilməsinə, beynəlxalq münasibətlərə və s. aiddir. Günümüzdə universal kulturoloji biliklərin, sistemli və situasiyalı təhlilin istifadəsini nəzərdə tutan "geniş görüş dairəsi" (F.M.) əsasında düzgün siyasi, sosial-mədəni və iqtisadi hökumət qərarlarının qəbul edilməsinə imkan verən kulturoloji ekspertiza mühüm əhəmiyyət qazanır.

Dövlət inzibatçılığının səkkizinci funksiyası diskresion fəaliyyətdir. Diskresion fəaliyyət qanunla, məqsədlərlə şərtlənən, qanunun yerinə yetirilməsi və müvəffəqiyyətə nail olma üçün zəruri olan qərarların çıxarılmasında bürokratların hüququ və məsuliyyəti ilə bağlıdır. Diskresion fəaliyyətin inkişafı hakimiyyət agentliklərinin yalnız nümayəndəliklərin deyil, həm də siyasi hakimiyyətin daşıyıcıları olmasına imkan yaratdı. Dövlət qanununu necə yerinə yetirmək və ya siyasəti necə həyata keçirmək haqqında müstəsna qərar qəbul etmək hüququna malik olan agentlik ictimai qanunları, qaydaları və üsulları müəyyən etmək imkanı qazanır. Bu, əhalinin sağlamlığının qorunmasına, qiymət siyasətinə, gəmiçilik qaydalarına və cəmiyyətin həyat fəaliyyətinin digər sahələrinə aid edilir.

Dövlət idarəçiliyi prosesi dinamik xarakter daşıyır və hər bir ölkənin konkret tələbatlarına və dünya sivilizasiyasının çağırışlarına uyğun olaraq, dialektik dəyişikliklərə, islahata və təkmilləşməyə məruz qalır.

## Dövlət idarəetməsinin strategiyası və texnologiyaları

### *Məmurların işinə qoyulan tələblər*

Yüksək dövlət idarəçilik mədəniyyəti onun qanunauyğunluqlarının nəzərə alınması əsasında idarəçilik fəaliyyətinin daim təkmilləşdirilməsini və məmurların iş qaydalarına əməl etməsini tələb edir. Dünya təcrübəsi göstərir ki, uğurlu təcrübənin qiymətləndirilməsi və istifadəsi ilə yanaşı, dövlət idarəçilik sisteminin müəyyən çatızmazlıqlarını da nəzərə almaq lazımdır. Bəzi dövlət qərarlarının mümkün ola biləcək səmərəsizliyi həm taktiki mülahizələrlə, həm də siyasi məhdudiyyətlərlə izah oluna bilər. Taktiki mülahizələr qərar layihələrinin müzakirəsi prosesində meydana çıxan mübahisəli halların çoxluğundan qaynaqlanır. Siyasi məhdudiyyətlər o səbəbdən yaranır ki, müxtəlif siyasi lobbilərin nümayəndələri öz maraqlarını rəhbər tutaraq dövlət idarəçiliyinə təsir göstərməyə çalışırlar.

Ceffri Strausmenin nəzəriyyəsinə görə, səmərəli iş üçün məmurlar şəraiti qiymətləndirməyi, siyasi hakimiyyətin məhdudiyyətlərini müəyyən etməyi və siyasi oyunda öz yerlərini təyin etməyi bacarmalıdırlar.

Şəraitin qiymətləndirilməsi siyasi hakimiyyətin mürəkkəb sosial strukturu ilə əlaqəlidir. Bu termin adətən konstitusiya, parlament, icraedici hakimiyyət, hüquq sistemi, mərkəzi və yerli administrasiyalar arasındakı münasibətlər, vətəndaşlar və dövlət arasındakı rəsmi və qeyri-rəsmi münasibətlər, o cümlədən bu sahədə dövlətə verilən hüquqları özündə ehtiva edən dövlət idarəçiliyi kimi başa düşülür.

Məmurlar idarəçilik fəaliyyətini parlamentin qəbul etdiyi qanunlara və haki-

miyyətin siyasi qərarlarına əsaslanan göstərişləri rəhbər tutaraq həyata keçirirlər. Eyni zamanda onlar milli mədəniyyətin xüsusiyyətlərini və hər biri qəbul edilən qərarların nümunəsinə müəyyən dərəcədə təsir göstərən geniş spektrli sosial-mədəni amilləri nəzərə alaraq, özləri də təşəbbüslə çıxış etməlidirlər. Siyasi hakimiyyət institutları məmurların fəaliyyət çərçivəsini məhdudlaşdıran mühit yaradır. Bu onunla əlaqəlidir ki, siyasi və sosial mədəniyyətdə, ictimai fikirdə dəyişikliklər baş verir, siyasi rejimlər və hökumətlər dəyişir, yeni qanunlar, milli-mədəni inkişaf konsepsiyaları və fəaliyyət proqramları qəbul edilir, dövlət siyasəti yenidən gözdən keçirilir. Bu səbəbdən dövlət idarəçiliyinin səmərəliliyini hədəfləyən müasir məmur idarəçilik strategiyasını siyasi hakimiyyətin obyektiv məhdudiyyətlərini nəzərə alaraq işləyib hazırlamağı və həyata keçirməyi bacarmalıdır. Bunun üçün o, qərarların qəbul edilməsi zamanı vaxt, maliyyə, insanlar, sistemin sərtliyi, siyasi dəyərləri, son nəticələrin qiymətlərinin qeyri-müəyyənliyini və digər resursları, amilləri düzgün şəkildə nəzərə almalıdır.

Zaman dövlət idarəçiliyinin cari vəzifələri və strateji problemlərinin həlli üçün vaxt çərçivəsi müəyyən edir. Siyasi həyatın qanunları və dövlət idarəçilik missiyası məmurdan tələb edir ki, onun fəaliyyəti dövlət proqramlarının vaxtında və müvəffəqiyyətlə həyata keçməsini təmin etsin, büdcə dövriyyəsinin tələblərinə uyğun gəlsin, hər zaman dəqiq olmayan siyasi göstərişləri səmərəli praktiki nəticələrə çevirsin.

Sistemin sərtliyi insanların motivasiyasına, işçilərin həvəsləndirilməsinə çətinliklər törədən köhnəlmiş və hətta irrasional qaydalarla şərtlənib.

Şərtlərdən biri imkanların bərabərliyi, insanın xidmətləri, habelə qanunla nəzərdə tutulan zəruri prosedur zəmanətlər kimi siyasi dəyərlərin hesaba alınmasıdır.

Çətinlik yaradan digər amil məmurların idarəçilik fəaliyyətinin son nəticələrinin qiymətlərinin qeyri-müəyyən olmasıdır. Milli təhlükəsizliyin qorunması, yoxsulluq səviyyəsinin azaldılması, əhalinin gəlirlərinin səviyyəsinin artımı, ömür müddətinin çoxalması, təhsil səviyyəsinin artması, zəruri tibbi xidmətin təminatı, ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması kimi fəaliyyət xarakteristikaları özündə icra edilmiş proqramların qiymətləndirilməsi üçün dəqiq meyarlar və parametrlər ehtiva etmir, amma məmur tərəfindən işin aralıq mərhələləri üzrə qiymətləndirilə bilər və qiymətləndirilməlidir.

Təşkili siyasi hakimiyyət tərəfindən həyata keçirilən strateji dövlət idarəçiliyinin işlənib hazırlanması məmurun məsuliyyətli vəzifəsidir. Siyasi qərarların ekspertizası və tətbiqinin təşkili məmurların üzərinə düşür.

Məmurların işi üç səviyyədə yerinə yetirilir: aşağı, orta və ali. Əsasən dövlət idarəçilik orqanlarının işi aşağı səviyyədə həyata keçirilir və qanunların icrası, tənzimləmə, kadr prosedurları, büdcə tələblərinin yerinə yetirilməsi və digər rutin məsələlərlə bağlıdır. Operativ qərarlar çox zaman idarəçiliyin orta səviyyəsində qəbul edilir ki, burada məmurlar bu və ya digər məsələlərin həllinə müxtəlif yerli hökumət qurumlarını və ya özəl şirkətləri cəlb etmək imkanına malik olurlar.

Aşağı səviyyədə bütün detalları nəzərə almadan yüksək və orta səviyyədə strateji idarəetmə uğurlu ola bilməz. Məmur aşağıdakı suallara cavab verməyi bacarmalıdır: layihənin reallaşdırılması üçün maliyyə mənbələri varmı?; qoyulmuş vəzifənin öhdəsindən gəlmək üçün personalın ixtisası kifayətdirmi?; o, mövcud qanunvericiliyə zidd deyil ki?; iş bölgüsünü necə aparmaq lazımdır? və s. Əgər idarəetmə vəzifələrinin bütün sualları dəqiq işlənməsə, yaxşı ideyalar və düzgün strategiya inzibati mühafizəkarlıq təfsilatlarında batıb qalacaq. Aşağı səviyyədə dəqiq idarəetmə zəruridir, amma uğurlu strateji idarəetmə üçün kifayət edən komponent deyil. Strateji dövlət idarəçiliyi bir tərəfdən dövlət administrasiyasının metodları və resurslarının, digər tərəfdən ətraf mühitdən irəli gələn risklər və dövlətin qarşıya qoyduğu məqsədlərə çatması üçün imkanların uyğunlaşdırılmasını nəzərdə tutur. Bununla əlaqədar olaraq, strateji dövlət idarəçiliyi üç əsas məsələnin həllini tələb edir: məqsədin 5-10 il qabaqcadan qoyulması, onlara nail olmaq üçün tədbirlərin hazırlanması və uyğun təşkilati resursların axtarışı.

Ekspertlər hesab edirlər ki, strateji dövlət idarəçiliyi:

- perspektiv məqsədləri dəqiq müəyyənləşdirməli;
- dövlət idarəçiliyinin bütün əsas təşkili problemlərini ehtiva etməli;
- daha müfəssəl planlaşdırma və cari qərarların qəbulu çərçivələrini hazırlamalı;
- dövlət inzibatçılığına müntəzəmlik və daxili vəhdət verməli;
- ali rəhbərliyi dövlət strukturlarını aktiv iş üçün səfərbər etməyə vadar etməlidir.

Məqsədin müəyyənləşdirilməsində ciddi problem onun ölçülmə qabiliyyətidir. Ölçülə bilən məqsədin müəyyən edilməsinə aşağıdakı suallar kömək edir: Nə ölçülür?; Necə ölçülür?; Hansı üsulla ölçülür?; Ölçmə funksiyaları hansılardır?; Ölçmə xərcləri nə qədərdir?; Metodoloji baza necədir?; Göstəricilərin son seçim meyarları hansılardır?

Məmurun fəaliyyətində effektiv nəticələrə nail olmağın mühüm vasitələri idarəetmə effektivliyi və keyfiyyətinin yüksəldilməsinə yardım edən yeni iş metodları və formalarının axtarışı, innovativ fəaliyyətin həyata keçirilməsi, informasiyanın düzgün istifadə edilməsi, idarəetmə prosesinin monitorinqidir. Strateji dövlət idarəçiliyinin məqsədləri və prioritetləri daxili və xarici amillərin təsirindən asılı olaraq dəyişən kəmiyyətlərdir. Buna görə də vaxtaşırı olaraq onların aktuallığının, səmərəliliyinin və strateji milli maraqlara uyğunluğunun monitorinqi keçirilməlidir.

### *Qərarların qəbul edilməsi*

Düzgün qərarların qəbul edilməsi idarəçiliyin səmərəliliyi üçün başlıca əhəmiyyətə malikdir. Qərarların qəbul edilməsi prosesində dörd ardıcıl pillə ayrılır: problemin meydana çıxması; problemin ifadə edilməsi və təhlili; qərarların qəbul edilməsi; qərarın icrası.

İdarəetmədə "yumşaq təfəkkür" tərəfdarı R. Akoffa görə, ilkin mövqenin təhlilinə bütövlükdə təşkilatın uğurlu fəaliyyətinə yardım edən biliklər, bacarıqlar, mahiyyət, xüsusiyyətlər, resurslar, nailiyyətlər və imkanlar şəklində ifadə olunan uğur amilindən başlayırlar. Metodiki cəhətdən bunun ardınca yekunların, qiymət-

lərin və gələcək planlaşdırmanın hazırlanması üçün lazım olan birgə müzakirələr və sosioloji informasiya toplanması tətbiq edilir. İmkanlar, gözləntilər, risklər və proqnozlar, güclü və zəif tərəflər gözdən keçirilir. Obyektiv mənbələr kimi statistik və müha-sibat hesabatları, subyektiv mənbələr kimi anketlər, müsahibə, müşahidələrin və iclasların nəticələri istifadə edilir. İllik və strateji planlar hazırlamağa imkan verən "sərt" və "yumşaq" məlumatları özündə cəmləşdirərsə, ilkin mövqelərin təhlilini tam hesab etmək olar. İmkanlar, təhlükələr, güclü və zəif tərəflərin vahid təhlili "dörd sahənin təhlili" adlanır. O, fəaliyyətin xarici amillərinin (imkanlar və təhlükələr) təhlili və daxili amillərin (güclü və zəif tərəflər) təhlilindən ibarətdir.

Demokratik ölkələrdə inzibati-dövlət qərarlarının qəbul edilməsi prosesinin tipik iştirakçıları dövlət administrasiyası orqanları, ekspertlər, siyasi partiyalar, ictimai birliklər, vətəndaşlardır. Onların qərarların qəbulunda iştirak formaları diskussiyalar, mitinqlər, ictimai şüurun səfərbərliyi, səsvermə, manipulyasiya, məcburetmə və s.-dir.

Problemin müzakirəsi zamanı bir sıra xüsusi qaydaları birləşdirən rasional diskussiya qaydalarından istifadə edilir. Onlara aşağıdakı qaydalar aiddir. Problemin qoyulması qaydası ondan ibarətdir ki, hər bir əlavə məsələ əsas kimi nəzərdən keçirilir və ayrıca müzakirə olunur. Bu, diskussiyanın bu və ya digər iştirakçıları tərəfindən təzyiq olmadan əsas problemi obyektiv olaraq aşkar etməyə imkan verir. Replika və diskussiya qaydası ondan ibarətdir ki, hər bir çıxışda özündən əvvəlki natiqlərin dəlillərinin tənqidi olmalı və diskussiyanı yayındırmadan, öz dəlillərini müdafiə etməlidir. Çoxmənalı terminlərin mənasının razılaşdırılması qaydası mövcud problem üzrə əsas anlayışlara hansı mənanı verəcəkləri haqqında diskussiya iştirakçılarının lap əvvəldən razılaşmalı olduqları zəruriyyətdən ibarətdir. Bu, diskussiyada sonradan baş verə biləcək bir çox anlaşılmazlıqların qarşısını alır. Rasional diskussiyanın bu üç qaydasından istifadə konstruktiv debatlar aparmağa imkan verir ki, burada həqiqətə iddia edən bütün tərəflərin mövqeləri istisnasız olaraq dinlənilir. Bu zaman maraqlı tərəflərin hər biri öz dəlillərini məntiqli surətdə müdafiə etməli və opponentlərinin dəlillərini əsaslandırılmış şəkildə tənqid etməlidirlər. Debatların əvvəlində tərəflər problemin müzakirəsi zamanı istifadə edəcəkləri anlayışlar və terminlər haqqında razılığa gəlməlidirlər. Belə yanaşma mərkəzi problemi, onun həlli üsulunun məntiqi əsaslandırılmasını obyektiv aşkar etməyə və diskussiyada tərəflərin hansının qalib olduğunu müəyyən etməyə imkan verəcək.

Diskussiya fəaliyyətin mümkün alternativlərinin birinin seçilməsi ilə nəticələnir. Siyasi təcrübədə praktik seçim probleminin iki əsas həlli metodu mövcuddur: kompromis yolu və səsvermə yolu.

Öz yanaşmasının düzgünlüyünü və digər iştirakçıların layihələrinin əsassızlığını və ya oradakı səhvləri məntiqi baxımdan izah etməyi bacaran nazirliklər və idarələr problemin müzakirəsi nəticəsində ölkənin milli maraqlarına cavab verən düzgün həllin tapılmasına kömək edirlər. Müxtəlif seçim variantlarının güclü və

zəif tərəflərini aşkara çıxaran elmi əsaslandırılmış fikir mübadiləsi yekun qərarın keyfiyyətinin təminatına yardım edir. Qərar təcrübədə sınaqdan keçərsə, səmərəli hesab olunur.

### *İnnovativ fəaliyyətin idarə edilməsi*

Müasir şəraitdə xarici mühitin daimi dəyişikliklərinə uyğunlaşma zərurəti ilə əlaqədar olaraq, Qərb ölkələrinin dövlət təşkilatlarında innovativ fəaliyyətin idarə edilməsi, dövlət inzibatçılığının qalan bütün istiqamətlərini özünə tabe edən prioritet vəzifədir.

Dövlət idarəçiliyində innovativ fəaliyyətin əsas istiqamətləri bunlardır: idarəetmə effektivliyinin yüksəldilməsi məqsədilə az səmərəli struktur həlqələrinin kənarlaşdırılması; nəzarət funksiyalarını yüngülləşdirmək üçün strukturun təkmilləşdirilməsi; innovativ strategiyaların tətbiqi zamanı strateji cəhətdən effektiv strukturun yaradılması; təşkilatların yeni anlamının yayılması çərçivəsində yenilikçi təşkilati konsepsiyaların tətbiqi.

İnnovativ layihələri: innovasiya öncəsi, innovasiya və istehsal kimi üç mərhələni əhatə edən innovasiya dövrəsi şəklində nəzərdən keçirmək qəbul edilmişdir. Onların arasında qərarın qəbulu üçün ən mühüm olanı innovasiya öncəsi mərhələdir. Bu mərhələdə innovativ layihənin işlənib hazırlanması üçün elmi əsas verməyə imkan yaradan dərin kompleksli və variantlı tədqiqatların aparılması nəzərdə tutulur. İnnovasiya öncəsi dövr tədqiqatların üç mərhələsini əhatə edir. Birinci mərhələdə layihə ideyasının zəruriliyi və reallaşdırılma imkanının təhlili, həmçinin əlverişli investisiya şəraitinin öyrənilməsi həyata keçirilir. İkinci mərhələdə bazar və layihənin reallaşdırılma mühitinin, bunun üçün lazım olan resursların, vergi, amortizasiya və maliyyə-kredit siyasətinin layihənin səmərəliliyinə təsirinin, həmçinin ekoloji və digər normativlərin təhlili aparılır. Bu mərhələdə təşkilat tərəfindən layihənin rəhbəri seçilə bilər, həmçinin konsultasiya firması və ya maliyyə təşkilatından müstəqil ekspertlər cəlb edilə bilərlər. Üçüncü mərhələdə ya öz qüvvələri, ya da konsultasiya şirkətlərinin cəlb edilməsi ilə layihə variantlarının öyrənilməsi həyata keçirilir. Həmin mərhələdə texnoloji və konstruktiv qərarların alternativ variantları müfəssəl surətdə təhlil edilir, onların ilkin qiymətləri verilir. Yekun qərar bir qayda olaraq layihə rəhbəri və onun həyata keçirilməsində iştirak edən iş partyorları ilə birgə təşkilat rəhbərliyi tərəfindən qəbul edilir. İnnovasiya öncəsi dövrün ayrı-ayrı mərhələlərə bölünməsi təhlilin və əsaslandırmaların dərinləşdirilməsi üçün mühüm əhəmiyyətə malikdir. Ayrı-ayrı mərhələlərdə alınmış dəyər qiymətləri müxtəlif mərhələlərin dərindən öyrənilməsinə istinad edən layihə qərarının əsaslandırma səviyyəsini aşkar etməyə imkan verir. Layihə rəhbərliyinə artıq investisiya öncəsi dövrdə peşəkar idarəçinin cəlb edilməsi layihəyə kapital qoyuluşunda iştirak edən maliyyə təşkilatları tərəfindən müsbət qiymətləndirilir. İlkin tədqiqatlar tamamlandıqdan sonra bank və digər ekspertizaların keçirilməsi məqsədi ilə layihənin, innovasiya dövrünün bütün mərhələlərində onun reallaşdırılması yolları və metodlarının ətraflı xarakte-

ristikasını, həmçinin risk amillərinin təhlilini əks etdirən xüsusi məruzə tərtib edilir.

Müasir dövlət idarəçiliyində risklər və qabaqcadan nəzərdə tutula bilməyən xərclər aşağıda göstərilən qarşılıqlı əlaqəli dörd risk qrupunda birləşdirilə bilər: siyasi, iqtisadi, texniki və ekoloji. Siyasi risklər vergi qoyma, amortizasiya sahələrində dövlətin tənzimləmə siyasətinin dəyişməsi, siyasi qeyri-sabitliyin və ya fors-major (aradan qaldırıla bilməyən) vəziyyətlərin meydana çıxması ilə bağlıdır. İqtisadi risklər resursların və ya məxariclərin, böhran səviyyəsi və digər iqtisadi amillərin qiymətləndirilmə dəqiqliyinin qeyri-qənaətbəxş dərəcəsi ilə əlaqədardır. Texniki risklər layihədə istifadə edilən texnologiyalar, tikinti konstruksiyaları və digər materialların etibarlılıq təhlili dəqiqliyinin qeyri-qənaətbəxş dərəcəsi ilə bağlıdır. Ekoloji risklər layihənin reallaşdırılması prosesində gözlənilmədən ekoloji normativlərin qanunvericiliklə sərtləşdirilməsi və ya investisiya öncəsi və layihə öncəsi əsaslandırmalar zamanı təbiəti mühafizə tələblərinin nəzərə alınmasının qeyri-qənaətbəxş dərəcəsi ilə əlaqədardır.

İnzibati dövlət idarəçiliyi sistemində innovasiyaların tətbiqinin üç təşkilati forması yaranmışdır: ardıcıl, paralel və inteqral. Tətbiqi bütün funksional şöbələrdə müntəzəm olaraq gedən ardıcıl forma bir sıra üstünlüklərə və qüsurlara malikdir. Üstünlüklərə: hər mərhələdə layihədə risklərin azaldılmasına yardım edən qiymətləndirilmənin təkrarlanması, həmçinin hər mərhələdə fəaliyyətin yalnız eyni növünün mövcud olması ilə şərtlənən nəzarət sisteminin sadələşdirilməsi aiddir. Qüsurlara aiddir: başqa şöbələrə ötürüldükdən sonra layihənin düzəlişlərinin və yaxşılaşdırılmasının mümkün olmaması; hər mərhələdə əvvəlki qüsurların düzəliş dəyərinin artımı; hər mərhələdən sonra qərar qəbuletmə zəruriliyinə görə layihənin reallaşdırılması müddətinin artırılması; sonrakı şöbələrin rəhbərlik tərəfindən bəyənilən prinsipial düzəlişləri olduğu təqdirdə prosesi yenidən başlatmaq zərurəti. Paralel forma zamanı layihə üzrə bütün işlər funksional şöbələrin hamısında eyni vaxtda aparılır. Bu formanın nöqsanlarına aiddir: koordinasiyaedici orqanın olmaması; hər növün icrası üzərində nəzarətin çətinliyi; təşkilatın ali rəhbərliyi tərəfindən nəticələrin eyni vaxtda təhlilinin zəruriliyi. Tətbiqin ilk iki formasının ümumi nöqsanları odur ki, təşkilatın bütün şöbələri özlərinin əsas planlı fəaliyyətinin ziyanına olaraq, işlərini tam şəkildə tətbiqi prosesin xidmətinə yönəltməlidirlər. Bu vəziyyətin aradan qaldırılmasına innovasiyaların inteqral tətbiqi forması kömək edir. Bunun üçün məqsəd şöbələri yaradılır və tətbiq müddətində orada çalışması üçün təşkilatın uyğun şöbələrinin mütəxəssisləri dəvət olunurlar. Bu şöbələr ikili – layihə rəhbəri və funksional şöbə rəhbərinin tabeliyində olurlar ki, onların funksiyaları dəqiq bölünmüşdür: layihə rəhbəri ali rəhbərliyin qərarının icrası üçün zəruri olan vəzifələri müəyyən edir, funksional və xətti rəhbərlər isə təşkilatın funksiyalarını və işin bütün gedişinə nəzarəti həyata keçirir. İri təşkilatlarda çox zaman yeni idarəetmə sahələrinin inkişafı üzrə müstəqil elmi-istehsalat kompleksləri yaradılır. Ali rəhbərlik səviyyəsində rəhbərliyə və administrasiyaya tövsiyələr verən məqsədli konsultasiya komitələri və ya təşkilatın elmi-texniki inkişaf strategiyasının müəyyənləş-dirilməsi, ümumi

tədqiqatlar və innovativ fəaliyyətin planlaşdırılması üzrə şuralar yaradılır. Onların tərkibinə, çox zaman kənardan dəvət olunan yüksək peşəkarlığa malik konsultantlar daxil edilir.

### Dövlət idarəetməsinin təşkili, qiymətləndirilməsi və təkmilləşdirilməsi

Mədəniyyət fenomeninin keyfiyyətcə yeni, kulturoloji anlamı onun qeyri-məhdud dəyişdirici imkanlarını üzə çıxarmağa imkan verir. O, insan həyatının qorunması və yaxşılaşdırılmasına, konkret, qanunauyğunluqla şərtlənən və tarixən tələb edilən sosial formada ifadə olunan insan tələbatlarının təmin edilməsinə yönəldilən həyat fəaliyyəti tərzi kimi, ruhi mədəniyyətin yüksək təyinatını qiymətləndirməyə imkan yaradır. İnsan inkişafının bünövrəsi olan ruhi mədəniyyətin yüksək missiyasının düzgün dərk edilməsi dövlət idarəçiliyinin məqsədləri və strateji əhəmiyyətinə daha dərindən baxmağa şərait yaradır.

Dövlət idarəçiliyi məqsədləri cəmiyyətin inkişaf maraqları nəzərə alınmaqla formalaşdırılır və ölkə əhalisinin ruhi və maddi tələbatlarının təmin edilməsinə yönəldilir. Dövlətin məqsədqoyma mexanizminin formalaşdırılması dövlətin tarixi yolunun, obyektiv şəraitin və həyat tələbatlarının təhlili və qiymətləndirilməsinə əsaslanan idarəetmə subyekti və ya obyektinin arzu olunan vəziyyətinin ideal obrazının yaradılmasını nəzərdə tutur. Bununla bərabər o, dünya sivilizasiyasının zaman və məkanında insanın həyat fəaliyyətinin öyrənilməsini və onun mahiyyəti, xüsusiyyətləri, nailiyyətləri, texnologiyaları və qanunauyğunluqlarının hesaba alınmasını, yeni inkişaf imkanları, vasitələri və resurslarının axtarışını, cəmiyyətin və dövlətin gələcəyini görməni nəzərdə tutur.

Dövlət idarəçiliyinin məqsədləri aşağıdakı tələblərə cavab verməlidir:

1. Obyektiv baxımdan şərtləndirilmiş və əsaslandırılmış olmalı, obyektiv qanuna-uyğunluqları, ictimai inkişaf tendensiyalarını və milli mədəniyyətin xüsusiyyətlərini nəzərə almalı.
2. Sosial cəhətdən motivləşdirilmiş olmalı, vətəndaşların tələbatları və maraqlarını nəzərə almalı, beləliklə, onların həyata keçməsində insanlara yardım etməli.
3. İyerarxiya, həcm, nəticələr və zamana görə məntiqi əlaqəni əks etdirən, sistemli təşkil edilmiş olmalı.
4. İnsan, elmi, maarifləndirici, hüquqi, informasiya, zaman, ideoloji, maliyyə, maddi-texniki resurslarla təmin edilmiş olmalıdır.

Müasir dövlətin strateji məqsədi – xalqın rifahı və həyat keyfiyyətinin daimi inkişafını təmin edən cəmiyyətin davamlı, təhlükəsiz, rəqabətqabiliyyətli inkişafıdır. O, intellektual, etik, hüquqi və idarəetmə mədəniyyətinin qabaqlayıcı inkişafı üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur. Bu strateji prioritetlər olmadan, dünya sivilizasiyası məkanı və zamanı daxilində dəyişən, strateji məqsədin ardıcıl reallaşdırılmasına yardım edən milli tərəqqinin yüksək templərini və fəaliyyət keyfiyyətini təmin etmək çətindir. Dövlət idarəçiliyi məqsədlərinin iyerarxiyası “ikinci, süni

təbiət" kimi, özündə ruhi və maddi komponentləri birləşdirən mədəniyyət fenomeni ilə şərtlənir. İnsan həyatının qorunması və yaxşılaşdırılması qayğısını ifadə edən tarixi proses kimi, mədəniyyət insanın dəyişdirici fəaliyyətinin əsasını təşkil edən intellekti və biliyi olmadan təsəvvüredilməzdir. Mədəniyyətin maddi hissəsini təşkil edən iqtisadiyyat, şübhəsiz, dövlət idarəçiliyinin başlıca məqsədlərindən biri qismində çıxış edir. O, insanın həyat fəaliyyətinin elm, təhsil, hüquq, siyasət, ideologiya, idarəetmə, informasiya, incəsənət, səhiyyə, ekologiya və digər institutları, nəhayət həyatın özü kimi ən vacib institutlarının resurs təminatı üçün maddi bazadır. Bununla bərabər, iqtisadiyyat insan şüurunun törəməsi, insanların intellektual fəaliyyətinin nəticələrinin maddiləşməsi prosesidir. Maddi nemətlər istehsalçılarının başlıca strateji resursu intellektual mədəniyyət, insan intellektidir.

Dövlət idarəçiliyi strategiyasının formaları aşağıdakılar ola bilər:

1. Dövlətin onun vasitəsilə ərazi bütövlüyü, suverenlik, təhlükəsizlik, nizam-intizam və cəmiyyətin inkişafı missiyasını həyata keçirdiyi dövlət siyasəti.

2. Həyat fəaliyyətinin konkret sahələrinin, cəmiyyətin ruhi və maddi mədəniyyət institutlarının keyfiyyətcə dəyişdirilməsinin razılaşdırılmış və məcburi icra üçün təsdiq edilmiş məqsədli, resurs və idarəetmə istiqamətlərini ifadə edən dövlət proqramları.

3. Cəmiyyətin, dövlətin və beynəlxalq münasibətlər mədəniyyətinin inkişafının ideoloji, dəyər, metodoloji və digər aktual məsələləri üzrə dövlət orqanlarının, onların rəhbərlərinin və ya ekspertlərin baxışlar sistemini ifadə edən dövlət konsepsiyaları.

4. Nəzərdə tutulmuş obyektiv nəticələrin əldə edilməsi üzrə konkret qərarlar və fəaliyyətlərin istiqamətləri və üsullarından ibarət olan dövlət planları.

5. İdeallar, dəyərlər və insanların davranış və fəaliyyət məqsədlərinin hüquqi normalar vasitəsi ilə təsbit edildiyi qanunverici və digər normativ hüquqi aktlar.

6. Dövlət orqanlarının səlahiyyətlərinin istiqamətlərini və reallaşdırılması məntiqini xarakterizə edən idarəetmə qərarları və fəaliyyətlərinin məcmusu.

Günümüzdə Birləşmiş Krallığın dövlət idarəçiliyi sisteminə xas olan "ceneralist" (ümumi) yanaşma olmadan effektiv strategiyanı təsəvvür etmək çətindir. O, kulturoloji biliyi və ölkənin strateji milli maraqlarının təmin edilməsi məqsədi ilə dünya mədəniyyəti və sivilizasiyasının tarixi inkişaf təcrübəsindən, müxtəlif dövlətlərin dövlət idarəçiliyinin inkişaf qanunları və texnologiyalarından yaradıcı istifadəni nəzərdə tutur.

***Dövlət idarəçiliyinin formaları və metodları***

Demokratik ölkələrin dövlət idarəçiliyi praktikasında hüquqi, təşkilati və təşkilati-hüquqi formalar həyata keçirilir.

Hüquqi formalar, başlıca olaraq, idarəetmə qərarlarının hazırlanması, qəbul edilməsi və icrası zamanı istifadə edilir. Burada əsas tələb odur ki, idarəetmə qərarlarının əsasını təşkil edən idarəetmə fəaliyyəti, əməliyyatları və materialları (qanunvericilik normaları, informasiya məlumatları, statistik ümumiləşdirmələr,

sosioloji məlumatlar, ekspertizalar, proqnoz qiymətləndirmələr) lazımi hüquqi və sənədli formada təqdim edilsin, idarəetmə keyfiyyətini təmin edən obyektiv informasiya və mövcud qanunvericilik tələbləri əsasında qurulsun.

Təşkilati formalar, səlahiyyətli dövlət orqanının iradəsini ifadə edən hüquqi formalardan fərqli olaraq, müxtəlif nöqteyi-nəzərlər, alternativ yanaşmalar, müzakirələr və diskussiyalar, güzəştlər və razılaşmalarla şərtlənən müəyyən idarəetmə probleminin optimal həllinin azad kollektiv axtarışı xarakteri daşıyırlar. Təşkilati elementlərə sessiyalar, iclaslar, müşavirələr, konfranslar, beşdəqiqəliklər, operativlər və aktual idarəetmə problemlərinin digər müzakirə formaları aiddir. Təşkilati forma da hüquqi akt kimi, idarəetmə qərarıdır. O, kollektiv axtarışlar nəticəsində ifadə edilən ümumi razılaşdırılmış rəyi nəzərdə tutur. Təşkilati formanın rasionallığı və effektivliyi əsas etibarilə, müzakirə olunan problemin iştirakçılarının tərkibindən, onların səriştəlilik və maraqlılıq səviyyəsindən, onların intellektual və vəzifə potensialının aktuallaşdırılması üsullarından, tədbirin keçirilmə vaxtı və müddətindən, müzakirənin nəticələrinin qeyd edilməsi və onların ictimaiyyətə elan olunmasından, müzakirənin yekunlarının icrasına nəzarətdən asılıdır. Avropa və Asiya ölkələrinin dövlət idarəçiliyi təcrübəsinin müqayisəli təhlilinə əsaslanaraq, Q.V.Atamançuk milli dövlət idarəçiliyində elmi biliklər, təcrübə, inkişaf etmiş intuisiya və konkret situasiyanın düzgün qiymətləndirilməsini tələb edən idarəetmə problemlərinin həllinə kompleks yanaşmanı tövsiyə edir.

İdarəetmə fəaliyyəti metodları – müvafiq hüquqi və təşkilati formalar, elmi biliklər, idarəetmə texnologiyaları və peşəkarlıq təcrübəsinin istifadəsi əsasında idarəetmə problemlərinin təhlil, qiymətləndirmə və həlli vasitələri və üsullarıdır. İdarəetmə fəaliyyətinin metodlarını: 1) idarəetmə prosesində iştirak edən şəxslərin fəaliyyəti ilə bağlı dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının fəaliyyət metodları; 2) dövlət idarəçiliyinin məqsədləri və funksiyalarının reallaşdırılmasının təminatı metodlarına bölmək qəbul edilmişdir.

İdarəçinin mühüm vəzifəsi, imkan daxilində, idarə edilən prosesin dəqiq mənzərəsinin formalaşdırılması və idarəçilik tələbatlarına daha çox cavab verən qərarın seçilməsidir. Qərar hazırlanarkən: problemin mahiyyətinin təhlili, idarə edilən obyektlərdə konkret vəziyyətin öyrənilməsi, oxşar problemlərin həlli təcrübəsi ilə tanışlıq, xidməti qeydlər və arayışların hazırlanması, statistik məlumatların təhlili və ümumiləşdirilməsi, resurs təminatı imkanları ilə bağlı olan alternativ qərarların əsaslandırılması və s. kimi vasitələr və fəaliyyətlərdən istifadə edilir. Effektiv idarəetmədə ictimai, təbiət və dəqiq elmlərin arsenalından mənimsənilmiş metodlar mühüm rol oynayır. Onların arasında: sistemli və funksional təhlil, riyazi proqramlaşdırma metodlarından istifadə, iqtisadi-statistik modelləşdirmə, strateji oyunlar nəzəriyyəsinin və qərarların qəbul edilməsinin strateji nəzəriyyəsinin metodları, proqnozlaşdırma və sosial təcrübə metodları və s. adlarını çəkmək lazımdır. Bir-birini qarşılıqlı tamamlayan bir çox effektiv tədqiqat metodlarının məcmusundan ibarət olan kulturoloji metodologiya və sistemli kulturoloji təhlil dövlət idarəçiliyi üçün böyük praktik dəyərə malikdir.

İdarəetmə fəaliyyəti metodları arasında əməkdaşların tələbatları, maraqları və davranış motivlərinin nəzərə alınmasına əsaslanan personalın idarə edilməsi xüsusi yer tutur. Dövlət idarəçiliyinin məqsədləri və funksiyalarının təmin edilməsi məqsədi ilə insan fəaliyyətinin əxlaqi-etik, sosial-siyasi, iqtisadi və inzibati stimullaşdırma və fəallaşdırma metodlarından istifadə edilir. Əxlaqi-etik metodlar insanın ləyaqəti, şərəfi və vicdanına müraciətə əsaslanmışdır və müəyyən əqidələr, ruhi dəyərlər, mənəvi mövqelər və psixoloji istiqamətlərin formalaşdırılması və mühafizə edilməsinə yönəldilmişdir. Bunlara tərbiyə tədbirlərini, məqsədlərin düzgün izahını, idarəetmə probleminin məzmunu və sosial əhəmiyyətini, motivasiya, mənəvi təşviqetmə və tənbeh vasitələrini, şəxsiyyətin fərdi mədəniyyəti və psixoloji xüsusiyyətlərinin nəzərə alınmasını, əməkdaşların mədəniyyəti və maraqlarının harmonizasiyasını aid edirlər. Sosial-siyasi metodlar siyasi və ictimai fəallığın inkişafı, əməkdaşların səlahiyyətli münasibətlər prosesinə cəlb edilməsi, idarəetmə orqanının kollektiv üzvlərinin sosial xidmətlərinin, əmək, məişət və istirahət şəraitinin yaxşılaşdırılması ilə əlaqədardır. Onların həyata keçirilməsi üçün idarəçilərin sosial-siyasi maraqlarına cavab verən, onların sosial statusuna, özünütəsdiq və özünüreallaşdırma imkanlarına pozitiv təsir göstərən dövlət idarəçiliyinin demokratikləşdirilməsi mühüm əhəmiyyətə malikdir. İqtisadi metodlar əməkdaşların iqtisadi maraqlarına təsir vasitələrini nəzərdə tutur. Onlar əməkdaşların maddi təminatı, əmək haqqı səviyyəsinin xarakteri və artımı, mükafatlar, xüsusi müavinətlər və məmurların maddi stimullaşdırılmasının digər növləri ilə bağlıdır. İnzibati metodlar – dövlətin müvafiq idarəçilik orqanları tərəfindən insanların davranışı və fəaliyyətinin birbaşa və məcburi müəyyən edilməsi vasitələri, üsulları və hərəkətləridir. Onların əlamətləri: orqan və ya vəzifəli şəxsin icraçıların öhdəliklərinin və davranış normalarının müəyyən edilməsi yolu ilə, həmçinin xüsusi sərəncamlar və komandaların köməyi ilə onların iradəsinə birbaşa təsiri; məcburi icraya aid olan məsələnin həllinin və əməkdaşların davranış tərzinin rəhbərin iradəsinə görə seçilməsi; icra olunmaması hüquqi məsuliyyətin müxtəlif növlərinə cəlb edilməyə səbəb olan sərəncam və göstərişlərin şərtsiz məcburiliyidir.

### *Dövlət idarəçiliyinin effektivliyinin qiymətləndirilməsi*

Qərarların qəbul edilməsi və idarəetmə texnologiyalarının təkmilləşdirilməsi üçün dövlət idarəçiliyinin effektivliyinin qiymətləndirilməsi zəruri əsasdır. O, müəyyən meyarlar əsasında həyata keçirilir. Meyarlar keçmişin və indinin tənqidi təhlilini aparmağa, səhvləri və nöqsanları aşkar etməyə və aradan qaldırmağa, ən yaxşının və həyat qabiliyyətlinin seçimini həyata keçirməyə, mövcud texnologiyaları təkmilləşdirməyə imkan verir. İdarəetmənin effektivlik meyarları elə əlamətdir ki, onun əsasında idarəetmə səviyyəsi və keyfiyyəti, onun təşkilatın, cəmiyyətin və ya dövlətin tələbatları, maraqları və məqsədlərinə uyğunluğu müəyyən edilir. Effektivlik meyarı tələbatların və maraqların təmin edilmə, idarəetmə fəaliyyətinin bu və ya digər sahəsində qoyulmuş məqsədlərə nail olma

dərəcəsini müəyyən etməyə imkan yaradır. O, aktual problemlərin vaxtında aşkar edilməsinin, məsələlərin həlli texnologiyalarının, bunun üçün zəruri olan resursların, şəraitin və vaxtın müəyyən edilməsinin vacib şərtidir.

Dövlət idarəçiliyinin effektivliyinin əsas meyarlarından biri bütün proqramlar, layihələr və qərarların, onların ölkənin milli maraqlarına və beynəlxalq etik və hüquqi normalara uyğunluğunun qiymətləndirilməsidir. Bu və ya digər ölkədə dövlət idarəçiliyinin ümumi sosial effektivlik meyarlarını ümumiləşdirən məlumatlar, ölkə daxilində ictimai həyat fəaliyyətinin sahələri və səviyyələri üzrə dərəcələrə ayrılır. Dövlət idarəçiliyinin effektivliyinin qiymətləndirilməsi üçün Ümumdünya Bankının təcrübəsi ciddi metodoloji əhəmiyyətə malikdir ki, onun metodikası müxtəlif ölkələrin inkişafının təhlilinə və onların öz aralarında aşağıdakı meyarlar, göstəricilər və standart indikatorlar əsasında müqayisəsinə yönəldilmişdir:

1. Dünyanın mənzərəsi: əsas iqtisadi göstəricilər, həyat keyfiyyəti (uzunömürlülük, təhsillilik, və həyat səviyyəsi).
2. Əhali: əhali və əmək resursları; yoxsulluq; gəlirlərin və istehlakın bölüşdürülməsi; təhsil; səhiyyə.
3. Ətraf mühit: torpaqdan istifadə və kənd təsərrüfatı istehsalı; su ehtiyatları, meşəsalma və qoruq zonaları; enerji istehlakı və tullantılar.
4. İqtisadiyyat: iqtisadi artım dinamikası; istehsalın strukturu; tələbat strukturu; mərkəzi hökumət büdcəsi; ödəmə balansı, cari əməliyyatların hesabı və valyuta ehtiyatları.
5. Dövlət və bazar: özəl sektorda maliyyələşdirmə; dövlətin iqtisadiyyatda rolu; energetika və nəqliyyat; rabitə, informatika; elmi-texniki inkişaf.
6. Qlobal əlaqələr: beynəlxalq ticarət; maliyyə yardımı və kapital axını.

Dövlət idarəçiliyinin effektivlik meyarlarının təhlili idarəetmə prosesində istifadə edilən problemlər, metodlar və resursların təhlili ilə əlaqədardır. İdarəetmə effektivliyinin beş meyarı mövcuddur: məqsədlər, zaman, üslub, təşkilati çətinlik, xərclər.

Məqsədyönlülük dövlət idarəçiliyinin təşkili və sistemin fəaliyyətinin məqsədəuyğunluğunu əks etdirir ki, bu da idarəedici təsirlərin düzgün ifadə edilmiş məqsədlərə uyğunluq dərəcəsi ilə müəyyən edilir. Bu zaman məqsədləri cəmiyyətin dəyişən tələbatları və maraqlarını, dünya sivilizasiyasının çağırışlarını hesaba alaraq, həmçinin məqsədlərin yekun nəticələrlə uyğunluğu nöqteyi-nəzərindən, onların inkişafında nəzərdən keçirmək lazımdır.

İdarəçilik məsələlərinin həllinə sərf olunan vaxt və idarəçilik fəaliyyətinin həyata keçirilməsi. Söhbət məhz idarəçilik fəaliyyətinə sərf edilən vaxtdan gedir. Bu vaxtı əvəzedilməz idarəçilik resursu kimi qənaətlə və rasional idarə edərək istifadə etmək lazımdır. İdarəçilik qərarları vaxtının və reallaşdırılma sürətinin itirilməsi – qəbul edilən qərarın aktuallığı və həyata keçirilməsi əhəmiyyətinin, idarəetmənin təşkilati, informasiya və maddi resurslarının itirilməsinə gətirib çıxara bilər.

İdarəetmə sisteminin fəaliyyət üslubu. Bu, mahiyyət etibarilə, bürokratın real praktikada idarəçilik davranışını, onun intellektual, etik, hüquqi, təşkilati, sərəncamçılıq və icraçılıq mədəniyyətinin məcmusunu əks etdirən idarəetmə mədəniyyətidir. Bürokratın üslubu onun şəxsi mədəniyyət dərəcəsindən, real vəzifə imkanlarından və idarəetmə orqanının səviyyəsindən asılıdır.

İdarəetmə subyektinin təşkilati mürəkkəbliyi. İdarəetmə prosesində hər bir instansiyanın öz əhəmiyyətliliyini və unikallığını sübut etməyə çalışdığı dövlət idarəçiliyinin mürəkkəb iyerarxik strukturu qəbul edilən qərarların razılaşmalar çoxluğunu tələb edir. Burada başlıcası, idarə edən subyektin və koordinasiyaedici orqanın idarə olunan obyektlə və ya koordinasiya olunan orqanla müqayisədə sadəlik prinsipidir. Bu prinsipin reallaşdırılması idarəetmə prosesində təşəbbüs və yaradıcılığın boğulmasını aradan qaldırmağa imkan verir.

İdarəetmə sistemi fəaliyyətinin saxlanılması və təmin edilməsinə çəkilən xərclər. Bu meyar fəaliyyətin ictimai faydalılığının qiymətləndirilməsinə, idarəetmə dəyəri ilə idarə olunan obyektlərin fəaliyyətinin sosial nəticələri arasında qarşılıqlı əlaqənin hesaba alınmasına əsaslanmışdır. Dövlət idarəçiliyinin sosial dəyəri və effektivliyi idarəedici personalın saxlanmasına, cihazlara və avadanlığa, kommunikasiyalara və s. məsariflərin hesaba alınması ilə müəyyən edilir.

Prof. Q.V. Atamançuk dövlət idarəçiliyinin sosial effektivliyinin səkkiz meyarının olduğunu qeyd etmişdir. Birinci – orqanların və vəzifəli şəxslərin idarəçilik fəaliyyətinin istiqamətləri, məzmunu və nəticələrinin orqanın və dövlət vəzifəsinin hüquqi statusunda müəyyən edilmiş tələblərə uyğunluq dərəcəsi. İkinci – dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının və orada çalışan vəzifəli şəxslərin qərarlarının və fəaliyyətlərinin qanuniliyi. Üçüncü – idarəetmə proseslərinin hüquqi və təşkilati təkmilləşdirilməsini təmin edən idarəedici fəaliyyətlərin reallığı. Dördüncü – idarəçilik aktlarının (qərarların, əməllərin, fəaliyyətlərin) məzmunu, onların vətəndaşların tələbatları, maraqları və məqsədlərinin təmin edilməsinə, insanlara xidmət etməyə yönəldilməsi. Beşinci – fəaliyyətin demokratik xarakteri və idarəetmə orqanları və vəzifəli şəxslərin vətəndaşlarla, vətəndaş birlikləri və əhali ilə qarşılıqlı əlaqələrinin həcmi. Altıncı – idarəedici orqanın və vəzifəli şəxsin qərarları və fəaliyyətlərində müvafiq orqanın və dövlət vəzifəsinin dövlət prestijinin təmin edilmə ölçüsü. Yeddinci – idarəetmə orqanları və vəzifəli şəxslərin verdiyi idarəçilik məlumatlarının doğruluğu və məqsədəuyğunluğu. Səkkizinci – idarəçilik fəaliyyətinin cəmiyyətə əxlaqi-ideoloji təsiri ilə şərtlənən mənəvi prinsip.

Q.V. Atamançuk qeyd edir ki, demokratik dövlətin ən mühüm idarəçilik məsələlərindən biri varlıların daha varlı olmasına, firavan yaşayanların, ilk növbədə isə ziyalıların yoxsullaşmasına səbəb olan proseslərin yolverilməzliyini nəzərdə tutan sosial rifah balansı məsələsidir.

Effektiv dövlət idarəçiliyi məqsədlərin, həyat qabiliyyətli kulturoloji texnologiyaların və dövlət idarəçiliyi üslubunun daim təkmilləşdirilməsini nəzərdə tutur. Belə terapiyanın ən mühüm vəzifəsi dövlət idarəçiliyinin nüfuzunun müntəzəm

təhlili və xarakterinin, təşkilati səmərəlilik dərəcəsinin və sistem fəaliyyətinin onun ictimai tələbatları və maraqları təmin etməsi baxımından qiymətləndirilməsidir. Dövlət idarəçiliyinin effektivliyinin ayrılmaz hissələri olan təhlil və qiymətləndirmə məqsədlərin və idarəetmə məxariclərinin ictimai tələbatlarla, maraqlarla və alınan nəticələrlə, onların həyata keçirilmə imkanları və dərəcəsi ilə uyğunluğunu nəzərdə tutur. Burada təhlilin əsas predmeti idarəetmə mədəniyyətinin faydalı iş əmsalı və entropiyasıdır.

Prof. Q.V. Atamançuk dövlət idarəçiliyinin təhlili və qiymətləndirilməsinin beş üsulunu qeyd edir: dövlət idarəçiliyi, yerli özünüidarə orqanları və vəzifəli şəxslərin hesabatları; sosial-mədəni həyatın aktual problemləri üzrə kütləvi müzakirələr və səsvermələr (referendumlar); çoxsaylı insanların azad ifadə edilən mülahizələri, baxışları, mövqeləri, nəzər-nöqtələrinin məcmusu olan ictimai rəy; kütləvi informasiya vasitələri (televiziya, radio, mətbuat); vətəndaşların müraciətləri.

### *Dövlət idarəçiliyi mədəniyyətinin təkmilləşdirilməsi*

İdarəemə sistemi fəaliyyətində dövlət idarəçiliyi texnologiyalarının yaxşılaşdırılmasına, onun effektivliyinə, səfərbərliyinə, rasionallığına və cəmiyyətin, dövlətin və beynəlxalq siyasətin inkişaf tələblərinə uyğunluğuna yönələn dövlət idarəçiliyinin özünün təkmilləşdirilməsi prosesi mühüm yer tutur.

Dövlət idarəçiliyinin təkmilləşdirilməsinin predmeti aşağıdakılardır: dövlət idarəçilik fəaliyyətinin məzmunu və metodlarının rasionallaşdırılması, insan potensialından, idarəetmə vasitələrindən, müasir elmin metodları və nailiyyətlərindən daha effektiv istifadə üçün şəraitin yaradılması; dövlət idarəçiliyinin məqsədləri və funksional strukturunun daim təkmilləşdirilməsi, dövlət idarəçiliyi sisteminin idarə edən və idarə olunan həlqələri, idarəetmə subyektləri və obyektləri arasında qarşılıqlı əlaqələrin yaxşılaşdırılması; dövlət idarəçiliyinə vətəndaşların geniş surətdə cəlb edilməsi və özünüidarə mexanizmlərinin inkişafı hesabına idarəetmə metodları və sisteminin demokratikləşdirilməsi, idarəetmə prosesinin iştirakçıları arasında demokratik münasibətlər mədəniyyəti və məsuliyyət mədəniyyətinin inkişaf etdirilməsi; bütün səviyyələrdə dövlət qulluqçuları və inzibatçıların seçimi, hazırlığı, düzgün istifadəsi və ixtisasının artırılması keyfiyyətinin daim yaxşılaşdırılması, idarəetmə əməyinin stimullaşdırıcı metodlarının inkişaf etdirilməsi.

Dövlət idarəçiliyi mədəniyyətinin təkmilləşdirilməsi aşağıdakı qarşılıqlı əlaqəli prinsiplər əsasında həyata keçirilir: milli, regional və yerli idarəetmənin bütün səviyyələrində təkmilləşdirmə proseslərini tələb edən sistemlilik prinsipi; idarəetmə proseslərinə ümumi təsir göstərən, dövlət idarəçiliyinin müxtəlif parametrlərinin nəzərə alınmasını tələb edən komplekslik prinsipi; dövlət idarəçiliyinin yeni keyfiyyətini təmin edən, gündəlik, sistemli fəaliyyətləri tələb edən fasiləsizlik prinsipi; dəqiq planlaşdırılan və ardıcıl yerinə yetirilən fəaliyyətləri tələb edən planlılıq prinsipi.

### *Dövlət idarəçiliyinin hüquqi tənzimlənməsi*

Dövlət aparatının imkanları və ictimai rəy ilə təmin edilən, insanların yerinə yetirilməsi məcburi olan hüquqi davranış normalarının istehsalı üzrə dövlət fəaliyyətini ifadə edən idarəçilik fəaliyyətinin hüquqi tənzimlənməsinin dövlət idarəçiliyi mədəniyyətində mühüm yeri vardır. Dövlət idarəçiliyi cəmiyyətə səlahiyyətli idarəedici təsir kimi dövlətin, cəmiyyətin və vətəndaşların şəxsi inkişaf problemlərinin həllinə yönəldilmiş fəaliyyətlərin həyata keçirilməsinin məcburiliyini nəzərdə tutur. İdarəçilik fəaliyyəti idarə olunan obyektlərin obyektiv tələbatları ilə müəyyən edilir və idarəetmə münasibətləri iştirakçılarının azad iradəsinin təzahürü deyil. Bu səbəbdən o, öz mahiyyətinin və hüquqi sərhədlərinin hüquqi baxımdan əsaslandırılmasını tələb edir. Sosial, normativ və təcrübi aspektlərin vəhdətini ifadə edən hüquqi tənzimlənmənin mahiyyəti insanların ictimai münasibətlərin nizamlanmasında həyati tələbatı ilə şərtlənir. Buna görə idarəçilik fəaliyyətinin hüquqi tənzimlənməsi sistemli surətdə təşkil edilməli, sosial baxımdan effektiv və praktik cəhətdən reallaşdırıla bilən olmalıdır.

Dövlət idarəçiliyinin hüquqi tənzimlənməsi konstitusiya, qanunlar və qanundan irəli gələn hüquqi normativ aktlar əsasında həyata keçirilir ki, onlarda dövlət idarəçiliyi orqanlarının status xarakteristikası möhkəmləndirilir. Ölkədə ali yurisdiksiya qüvvəsinin normativ hüquqi aktını təşkil edən dövlət konstitusiyası dövlət idarəçiliyinin hüquqi tənzimlənməsində başlıca əhəmiyyətə malikdir. Konstitusiya cəmiyyətin və dövlətin inkişafına böyük təsir göstərən, ictimai münasibətlər sisteminin, məqsəd və dəyər cəhətdən qarşılıqlı əlaqəli yurisdiksiya sistemin hüquqi mahiyyətini özündə təcəssüm etdirən əsas qanun, sənəddir. O, hakimiyyət strukturunu, formalaşdırma və fəaliyyət prinsipləri və mexanizmlərini, dövlət idarəçiliyi hüquqi tənzimlənməsinin əsas nizamnamələrini və digər əsasnamələrini əks etdirir. Hüquqi tənzimləmənin ən mühüm vəzifəsi yalnız qanunları təkmilləşdirmək deyil, həm də siyasətçilər, dövlət qulluqçuları və ölkə vətəndaşları tərəfindən onların yüksək icra mədəniyyətinin formalaşdırılmasıdır.

“Qanunvericilik – qanunilik – hüquq qaydaları” zəncirində “qanuniliyə” mühüm yer ayrılır. Dövlət idarəçiliyi sistemində qanuniliyin qorunması icra hakimiyyətinin özü tərəfindən, həmçinin məhkəmə hakimiyyətinin fəaliyyəti, prokurorluq, ictimai təşkilatlar və ayrı-ayrı şəxsiyyətlər tərəfindən təmin edilir.

İnsanın qərarları və fəaliyyətinin nizamlılığı, sabitliyi və perspektivliyinin saxlanması üsulu olan qanunilik, cəmiyyətdə və dövlətdə mövcud sabit hüquqi əlaqələr və münasibətlər sistemini ifadə edən hüquq qaydasında öz təcəssümünü tapır. Hüquq qaydası sosial-hüquqi mədəniyyətin atributu kimi insanların tələbatlarını və məqsədlərini təmin edir, mədəniyyət və maraqların harmonizasiyasına, vətəndaşların hüquqlarının reallaşdırılmasına yardım edir. Hüquq qaydası cəmiyyətin intellektual, hüquq və etik mədəniyyəti ilə bağlıdır. Hüquq qaydasının səviyyəsi qanunun və qanuniliyin insanların şüuruna, davranışına və fəaliyyətinə təsir dərəcəsi, həmçinin ölkədə mövcud olan hüquq müəssisələrinin fəaliyyəti ilə əlaqəlidir.

İctimai əlaqə formasını və razılaşdırılmış qaydaların, normaların, prosedurların, davranışın, ünsiyyətin, müəyyən işlərin, vəzifələrin və rəhbərliyin tapşırıqlarının icrasının insan tərəfindən qəbuluna və riayət edilməsinə əsaslanan fəaliyyətini ifadə edən intizam dövlət idarəçiliyində qanuniliyin, rasionallığın və hüquq qaydasının təmin edilməsində mühüm rol oynayır. Dövlət idarəçiliyində intizam münasibətləri ilə bağlı üç əsas qayda nəzərdə tutulmuşdur: 1) xidməti iyerarxiyadakı mövqeyindən asılı olmayaraq, dövlət idarəçiliyi sisteminin istisnasız olaraq bütün işçiləri üçün bütün normalara, prosedurlara, adətlərə, ənənələrə və mənəvi tələblərə riayət edilməsinin məcburiliyi; 2) işçinin vəzifə iyerarxiyasında rütbəsi artdıqca intizama olan tələblərin artması; 3) idarəetmə proseslərinin səmərəliliyinin mühüm şərti olan intizamın daim təkmilləşdirilməsi.

Dövlət idarəçiliyinin hüquq qaydasına mənfi təsir göstərən əsas qüsurlarına hüquqi nihilizm, bürokratizm, dövlət qulluqçularının peşə hazırlığının, məsuliyyətinin və etik mədəniyyətinin qeyri-qənaətbəxş səviyyəsi aiddir. Mütəxəssislər dövlət idarəçiliyində qanuniliklə məqsədəuyğunluq arasındakı ziddiyyətləri nəzərdən keçirərək qeyd edirlər ki, “məqsədəuyğunluq” sözünün altında çox zaman “tamahkar motivlər, səriştəsizlik və subyektiv özbaşınalıq” gizlənir.

***Dövlət idarəçiliyinin informasiya təminatı***

İdarəetmə fəaliyyətinin ən mühüm alətlərindən və resurslarından biri – özündə predmetlər, hadisələr, insanlar, proseslər, münasibətlər haqqında müəyyən qaydada toplanmış və sistemləşdirilmiş məlumatlar məcmusunu ifadə edən informasiyadır. Dövlət idarəçiliyinin müasir informasiya sisteminə informasiya materialının özü, onun emalı formaları, metodları, texniki vasitələri və informasiya axınına qoşulmuş insanlar daxildir. O, ən yeni hesablama texnikası, şəbəkələr və EHM proqramlarından istifadəni, mikroelektronika, informatika, mikroprosessorlar, robotlar və effektiv informasiya texnologiyalarının yaradılması imkanları açan digər xidməti vasitələrin tətbiqini nəzərdə tutur. M. Kastelsə görə, müasir “informasiya iqtisadiyyatının” dəyəri, onun səmərəliliyi və rəqabətqabiliyyətliliyinin əsası qismində çıxış edən biliklərə əsaslanan informasiyanı generasiya etmək, emal etmək və ondan effektiv şəkildə istifadə edə bilmək qabiliyyəti ilə şərtlənir. Bu, “informasiya cəmiyyətinə” aparan yoldur. Demokratik mədəniyyət prinsipləri və dəyərlərinə yönəldilmiş dövlət idarəçiliyinin bütöv informasiya sistemi informasiya cəmiyyətinin formalaşmasında mühüm rol oynayır.

Dövlət idarəçiliyinin informasiya təminatının əsasında elmi biliklərin, metodologiya və metodikanın informasiya işinin bütün istiqamətlərində ən yeni texniki vasitələrlə üzvi şəkildə birləşməsi durur. Dünya sivilizasiyasında baş vermiş, transmilli informasiya-telekommunikasiya şəbəkələrinin yaradılması ilə müşayiət olunan informasiya-texnoloji inqilabı biliklər cəmiyyətinin təşəkkülündə böyük rola malikdir. 2000-ci ilin iyul ayında Okinavada qəbul edilmiş Qlobal İnformasiya Cəmiyyəti Xartiyasında aşkar edilən mənbələrin aşağıdakı mənimsənilmə istiqamətləri müəyyən edilmişdir: 1) rəqəmsal texnologiyaların imkanla-

rından istifadə; 2) elektron-rəqəmsal bərabərsizliyin aradan qaldırılması; 3) ümumi iştiraka yardım; 4) gələcək inkişaf. Demokratik ölkələrin "informasiya cəmiyyətinə" keçidi insanların həyat fəaliyyətində və dövlət idarəçiliyində informasiyanın rolunu ölçüyə gəlməz dərəcədə artırdı. Biliyin yayılma formalarından biri olan informasiya ictimai inkişaf proseslərinin təşkilinə və tənzimlənməsinə böyük təsir göstərir. Bununla belə reallıq ondan ibarətdir ki, informasiya elmi biliyi, məhsuldar təfəkkürü, obyektiv aləmi yalnız əks etdirməyən, həm də onu yaradan şüuru əvəz edə bilməz. Bu səbəbdən rəhbər kadrların informasiyanı idarə etmək, onu dövlət idarəçiliyinin və ictimai inkişafın milli maraqlara cavab verən resursu kimi istifadə etmək bacarığı dövlət idarəçiliyinin aktual vəzifəsidir.

Dövlət quruculuğunda istifadə edilən idarəçilik informasiyası idarəetmənin xüsusi məqsəd və vəzifələri üçün yararlı olan ümumi informasiyanın bir hissəsidir. Bu informasiya məzmununa görə idarəçilik tələbatlarını təmin edir, məmurların maraq və məqsədlərini, idarəetmənin təşkilinin, insanların şüuru, davranışı və fəaliyyətinin tənzimlənməsinin konkret mexanizmləri və üsullarını əks etdirir. İdarəçilik informasiyası keyfiyyətli olmalıdır və cəmiyyətin həyat fəaliyyəti sistemində dövlətin yeri və roluna görə; konkret dövlət orqanlarının səlahiyyətlərinə görə; idarəçilik proseslərinin icbari reallaşdırılmasına dair qanunların və digər normativ hüquqi aktların xarakterinə və iyerarxiyasına görə; idarə olunan obyektlərin xüsusiyyətləri, formaları və qanunauyğunluqlarına görə; idarəedici təsirlərin və onların təsiri altında baş verən dəyişikliklərin qavranılmasına görə istiqamətləndirilməlidir. Belə yanaşma idarəçilik məsələlərinin həllini sadələşdirir, idarəetmə proseslərində mədəniyyətin entropiyasının aradan qaldırılmasına kömək edir. Obyektiv idarəçilik informasiyasını doğuran mənbələr bunlardır: müəyyən istiqamətdə və müəyyən dövrdə idarəetmə qərarlarının qəbulu və ya fəaliyyətlərin yerinə yetirilməsinin əsasını təşkil edən qanunverici və digər akt normaları; öz qanuni maraqları və subyektiv hüquqlarının reallaşdırılmasına görə vətəndaşların dövlət orqanlarına müraciəti; icrası aşağı orqanlara aid olan və dövlət idarəçiliyinin reallığını təmin edən, yuxarı dövlət orqanlarının vacib göstərişləri; idarə olunan obyektlərin vəziyyətini, həmçinin idarəetmə subyektlərinin fəaliyyət səviyyəsini əks etdirən, nəzarət proseslərində aşkar edilən faktlar, münasibətlər; dövlət orqanları və vəzifəli şəxslərin operativ və güclü fəal müdaxiləsinə ehtiyacı olan problemli, münaqişəli, ekstremal və digər mürəkkəb situasiyalar.

Mənbələrindən asılı olmayaraq, idarəçilik informasiyası aktuallıq, etibarlılıq, yetərlilik, əlçatanlıq və autentiklik (həqiqilik) tələblərinə cavab verməlidir. Aktuallıq, informasiyanın yeniliyini və günün tələblərinə uyğunluğunu, onun dövlət idarəçiliyinin aktual məsələlərinin həllinə yardım etmək qabiliyyətini nəzərdə tutur. Etibarlılıq, faktların və hadisələrin seçilməsi və sistemləşdirilməsi, müvafiq ekspertlər və elmi prosedurların köməyi ilə onların səbəbləri və qarşılıqlı əlaqələrini aşkar etməkdir. Yetərlilik tədqiq edilən idarəçilik probleminin, onun mahiyyətinin, idarəçilik proseslərinin modelləşdirmə və proqnozlaşdırma proseslərinin həyata keçirilməsi üçün zəruri olan xüsusiyyətlərinin, mənbələrinin və şərtlərin

yüksək aydınlıq səviyyəsini nəzərdə tutur. Əlçatanlıq, informasiyanın açıqlığını və onun lazımi həcmdə və formatda operativ əldə edilməsi imkanını nəzərdə tutur. Autentiklik, informasiyanın həqiqiliyini, əsassız şərhi istisna edən mənbəyə, həqiqi nümunəyə dəqiq uyğunluğunu nəzərdə tutur.

İdarəçilik informasiyasının təşkilini təkmilləşdirməyin əsas prinsipləri aşağıdakılardır: idarəçilik informasiyasının xarakteri və həcminin dövlət orqanlarının kompetensiyasına, dövlət vəzifələrinin funksiyaları və səlahiyyətlərinə uyğunluğu; informasiya vahidinin məzmununun dövlət idarəçilik orqanlarının strukturuna müvafiq olaraq, idarəçilik qərarları üçün konkret mahiyyətini, sosial dəyərini və aktuallığını əks etdirən məlumatların komplektləşdirilməsi hesabına zənginləşdirilməsi; informasiya axınlarının rəhbər həlqənin əlində cəmlənməsi və müstəsna olaraq rəhbər orqanın səlahiyyətinin həyata keçirilməsinə tabe edilməsi.

İnformasiya təminatının vəziyyəti bir çox cəhətdən informasiyanın dövlət orqanı daxilində yayılmasından və onun keyfiyyətindən asılıdır. Burada, ilk növbədə, rəhbərlərin informasiya xidmətinin, vəzifəli şəxslər arasında informasiyanın düzgün bölüşdürülməsinin, xidməti funksiyaların daha yaxşı yerinə yetirilməsinə imkan yaradan informasiya əlçatanlığının, informasiyanın ayrı-ayrı əməkdaşların əlində cəmləşməsinin yolverilməzliyinin təmin edilməsi zəruridir.

Dövlət idarəçiliyinin informasiya təminatında dövlət orqanlarının hüquqi statusuna və mövcud vəzifə təlimatlarına riayət etməyə imkan yaradan qanuniliyin informasiya təminatına da mühüm yer ayrılır. Burada əsas vəzifə dövlət qulluqçularını hüquqi normalar, onlardakı dəyişikliklər və əlavələr, rəhbərlər tərəfindən qəbul edilən prinsipial aktlar haqqında vaxtında məlumatlandırmaqdan ibarətdir.

İdarəçilik qərarlarına aid olan informasiya xüsusi əhəmiyyətə malikdir. İdarəçilik qərarlarının gücü və nəticə etibarilə səmərəliliyi idarəçilik informasiyasının məzmunundan və onun ifadə edilmə keyfiyyətindən asılıdır. Belə informasiya idarəetmə tələbləri və məqsədləri, resursları və imkanları, ona zərurət doğuran şərait və səbəblər haqqında məlumatı ehtiva edir. Bununla yanaşı, o, idarəetmə səviyyəsinin yüksəldilməsi, onun keyfiyyətinin yaxşılaşdırılması məqsədilə mütləq əməl edilməli olan direktiv tələbləri, müddəaları, qanunları, norma və qaydaları, habelə tədbirləri əks etdirir.

Dövlət idarəçiliyi effektivliyinin təmin edilməsi zəruriliyindən çıxış edərək, Q.V.Atamançuk informasiyanın saxlanması sisteminin aşağıdakı məlumatlar hesabına formalaşdırılmasını məqsədəuyğun hesab edir: idarəetmə sahəsində dövlət orqanlarının fəaliyyətini müəyyən edən materiallar və sənədlər; idarə olunan obyektlərin maddi, istehsal, texniki və texnoloji parametrlərini əks etdirən məlumatlar; idarə olunan obyektlərin fəaliyyətini tənzimləyən normalar, normativlər və stimullar haqqında məlumatlar; personalın kəmiyyət və keyfiyyət tərkibi, hazırlıq səviyyəsi və peşəkarlığının artırılması haqqında məlumatlar; elmi-texniki təfəkkürün və onun ən yeni nailiyyətlərinin inkişafı haqqında, ölkədə və xaricdə qabaqcıl idarəetmə təcrübəsi haqqında məlumatlar.

## İqtisadiyyatın inkişafının idarə edilməsi mədəniyyəti

İnsanın həyati tələbatlarının təmin edilməsinə yönəlmiş, zehni əməyin nəticələrinin maddiləşməsi prosesini əks etdirən iqtisadi inkişafın idarə edilməsi mədəniyyətinin özünəməxsus xüsusiyyətləri var. İqtisadiyyat, maddi istehsala istiqamətləndirilmiş elmi biliklər və praktiki fəaliyyət sistemi kimi, cəmiyyətin rifahı və həyat keyfiyyətinin, dövlətin həyat qabiliyyəti və təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayır.

Məlum olduğu kimi, fiziki aləm və onun qanunları nisbən dəyişməz olsalar da, sosial aləm intellektual mədəniyyətin sürətli inkişafı ilə bağlı olaraq, dinamik dəyişikliklərə məruz qalır. Yeni kəşflər və elmi nailiyyətlər sosial həyatı, insanın təsəvvürlərini və qaydaları dəyişir, yeni fəaliyyət sahələri yaradır, inkişafın yeni imkanlarını dəfələrlə artırırlar. Elmi paradiqmalar obyektiv aləmə təsir etməsələr də, onun yeni tərzdə qavranılması və ondakı qanunlardan insan həyatının yaxşılaşdırılması üçün ağılla istifadə edilməsinin yeni imkanlarını yaradır.

Dünyanı intellekt idarə edir, dünya iqtisadiyyatında liderlik də onunla müəyyən edilir. Bu reallığı nəzərə alaraq, intellektual əməyin məhsuldarlığının artırılması XX əsr menecmentinin ən mühüm vəzifələrindən biri və ən zəruri tələbidir ki, inkişaf etmiş dövlətlərin mövcudluğu, onların liderliyini qoruması və yüksək həyat standartları ondan asılıdır.

Bu gün istehsalın ən mühüm vəzifəsi texniki personalın biliklər, məsuliyyət səviyyəsinin və əmək məhsuldarlığının zehni əmək işçiləri səviyyəsinə qədər fasiləsiz yüksəlişidir. Həm fundamental, həm də sənaye laboratoriyaları tərəfindən həyata keçirilən tətbiqi elmi tədqiqatlar əmək məhsuldarlığı və keyfiyyətinin dəfələrlə artırılmasını təmin edən, iqtisadiyyatın tamamilə fərqli sahələrinin bir-birindən asılı inkişafını stimullaşdıran innovasiyaların qarşılıqlı tətbiqi hesabına müxtəlif sənayelərin həyat qabiliyyətini və rəqabətqabiliyyətliliyini yüksəldən yüksək texnologiyaların işlənib hazırlanmasına təkan verir.

İqtisadi inkişafın idarə edilməsi mədəniyyəti yeni imkanları aşkara çıxararaq və onlardan səmərəli istifadə edərək, dəyişikliklər tendensiyalarını hiss etmək və onlara sürətlə uyğunlaşmaq qabiliyyətini nəzərdə tutan menecment nəzəriyyəsində əksini tapıb.

Menecmentin yaradılması bəşəriyyətin sosial mədəniyyətinin ən mühüm nailiyyətlərindən biri oldu. “Menecment” və “menecer” terminlərini müasir mənada ilk dəfə “elmi menecmentin“ banisi hesab edilən Frederik U.Teylor istifadə etmişdir. Onun tərəfindən “vəzifələrin təhlili” və ya “vəzifələrin elmi idarə edilməsi” metodikası işlənib hazırlanmışdır. Bu metodika uzun illər təkmilləşərək sonradan “əməyin elmi təşkili” və ya “menecment” adlanmağa başladı. Birinci Dünya müharibəsindən sonra menecment ABŞ, Böyük Britaniya və Yaponiyada “elmi menecment”, Almaniyada isə “istehsalın rasionallaşdırılması” adlandırılmağa başladı. Teylorun nəzəriyyəsinin başlıca nailiyyətlərindən biri bu idi ki, o, fiziki əmək məhsuldarlığının artırılmasının əsasını bəsit hərəkətlərin ardıcıllığı

olan ustalıq deyil, biliyin təşkil etdiyini, əməyin isə işlənən saatlar hesabı üzrə deyil, nəticəyə görə hesablanmalı olduğunu göstərdi.

Professor Piter Drukerin elmi tədqiqatları kontekstində ABŞ-da idarəetmə mədəniyyəti milli və beynəlxalq menecment üçün universal əhəmiyyətə malikdir. XX əsrin ən nüfuzlu menecment nəzəriyyəçilərindən biri, Amerika professoru Piter F.Druker hesab edir ki, istehsalın uğurla idarə edilməsi üçün rəhbərlərə gələcəyin qurulmasına yönəldilmiş siyasət işləyib hazırlamaq lazımdır. Bu zaman aşağıdakılar işlənilməlidir: dəyişikliklərin axtarılması və proqnozlaşdırılması metodikası, dəyişikliklərin təşkilatın həm daxili, həm də xarici fəaliyyətində tətbiqi strategiyası, habelə dəyişiklikləri nizama salmağa imkan verən siyasət və sabitlik.

Drukerə görə, effektiv menecment keyfiyyət dəyişikliklərinə səbəb olan bütün fəaliyyət sahələri və proseslərinin planlı, mütəşəkkil surətdə təkmilləşdirilməsini, rəhbərliyə ən yaxşı mütəxəssislərin cəlb edilməsini, təşkilatın menecmentinin həyat qabiliyyətinin, həyatın yeni tələblərinə onun uyğunluğunun daim yoxlanılmasını tələb edir.[4] Bu hədəflərə nail olunması üçün "mütəşəkkil ləğvetmə" siyasətinin həyata keçirilməsi və əmək məhsuldarlığının effektivliyini və artımını daha təmin edə bilməyən resurslardan azad olma məqsədi ilə, müəssisənin müxtəlif fəaliyyət sahələrinin ayrıca təhlilindən və qiymətləndirilməsindən istifadə edilir. Müəssisə menecmentinin mühüm vəzifəsi innovativ fəaliyyətin prioritet inkişafı və öz nəticələrinin yayılması üçün İnternet və digər informasiya vasitələrinin effektiv istifadəsidir.

Resursların, xüsusən bir çox cəhətdən təşkilatın işinin keyfiyyəti və nəticələrini, həmçinin imkanların və riskin optimal uyğunluğunu müəyyən edən maliyyə və insan kapitalının rasional bölünməsi, istehsal menecmentinin effektivliyi üçün ciddi əhəmiyyət daşıyır. Yeni inkişaf imkanlarının aşkarlanması və daha səmərəli istifadə edilməsi məqsədi ilə Piter Druker tərəfindən iqtisadi inkişafın "imkanlar pəncərəsi" anlayışı daxil edilmişdir. Onlara aid edilmişdir: təşkilatın və ya onun rəqiblərinin gözlənilməz uğurları və ya uğursuzluqları; dəyişikliklər, xüsusən yayılma proseslərində və ya istehlakçıların davranışındakı dəyişikliklər; istehsal prosesinin ehtiyacları; sahə və bazar strukturlarında dəyişikliklər; demoqrafik dəyişikliklər; mahiyyət və qavramada dəyişikliklər; yeni bilik sahələri. Başlanğıc nöqtəsinin müəyyən nəticə olmasını nəzərdə tutaraq, alim, rəhbərlərin diqqətini "səmərəliliyə yönəldilən idarəçiliyin" effektivliyinə cəlb edir. Bu zaman o qeyd edir ki, əgər əvvəlki tarixi dövrdə personalın idarə edilməsinin məqsədi aşağı ixtisas dərəcəsinə malik fəhlələrin iş məhsuldarlığını atırmaq idisə, yeni şəraitdə məqsəd zehni əmək işçilərinin məhsuldarlığının artırılması olmalıdır.[5]

---

[4] Bu idarəçilik texnologiyasını yaponlar "kaydzen" adlandırırlar.

[5] Məlum olduğu kimi, fiziki əmək işçilərindən fərqli olaraq, zehni əməklə məşğul olanların fəaliyyəti onların sağlam olması şərtilə, şəxsiyyətin yaradıcı potensialına müvafiq olaraq, yaş ötdükcə daha çox nəticə və səmərə verir ki, bu da biliklərin, tədqiqat təcrübəsinin toplanması və təkmilləşməsi, müdrikliklə bağlıdır.

İqtisadi inkişaf strategiyası elmin ən yeni nailiyyətləri, real, o cümlədən siyasi sabitliyə təsir göstərən demoqrafik dəyişikliklər, həmçinin iqtisadi təcrübə əsasında daim təkmilləşməli olan biznes nəzəriyyəsinə uyğun olaraq qurulur. Beləliklə, son nəticədə iqtisadi inkişafın effektivliyi və yoxsulluğun aradan qaldırılması, maddi nemət istehsalçılarının əsas resursunun – intellektual resursun effektiv istifadəsini nəzərdə tutan təşkilat və idarəetmə mədəniyyəti ilə təyin edilir.[6] Piter Druker zehni əmək işçisinin məhsuldarlığını təyin edən altı amili ifadə etmişdir: istehsal tapşırığının mahiyyətinin dəqiq müəyyənləşdirilməsi; müstəqillik və əmək məhsuldarlığına və nəticələrə görə məsuliyyət; yaradılan yeniliklərin tətbiqini nəzərdə tutan müntəzəm innovativ fəaliyyət; öz bilik səviyyəsinin daim artırılması və digərlərinin öyrədilməsi; əldə edilən nəticələrin keyfiyyətinə diqqət yetirmək; müəssisə rəhbərliyinin, əsas kapital kimi nəzərdən keçirilməli olan zehni əmək işçiləri ilə xüsusi etik davranışı.

Elmlə yanaşı əmək məhsuldarlığının artırılmasının mühüm şərti – insan kapitalının əsasını təşkil edən gənclərin və yaşlı nəslə mənsub insanların yaxşı təhsilidir. Bununla əlaqədar olaraq, demokratik ölkələrdə dövlət bilik daşıyıcılarının – intellektual əmək nümayəndələrinin, ilk növbədə müəllimlərin və alimlərin yüksək sosial statusunu qanunvericiliklə təmin edir, onların hazırlığını və yenidən hazırlığını təşkil edir, cəmiyyət tərəfindən onlara xüsusi hörmətin formalaşdırılmasına imkan yaradır, onların əməyinin müvafiq maddi təminatının qayğısına qalır.  İstehsal vasitələrinə malik olmayan fiziki əmək işçilərindən fərqli olaraq, zehni əmək işçiləri belə vasitələrə malikdirlər – bu onların insana əlavə sərbəstlik və mobillik dərəcələri qazandıran bilikləridir. Bu səbəbdən təşkilatın yaradıcı imkanlarının artması, onun əməkdaşlarının biliklərinə, o cümlədən həm də fiziki əmək işçilərinin biliklərinin artmasına mütənasib olaraq inkişaf etməsi qanunauyğunluğu göz qabağındadır.

Effektiv idarəetmə əsasən informasiyanın düzgün diaqnozlaşdırılmasından, maliyyə fəaliyyətinin planlaşdırılması və büdcə siyasətindən, həmçinin istehsal prosesləri xərclərinin düzgün hesablanmasından asılıdır. İstehsal və menecment prosesləri haqqında informasiyanın hərtərəfli sistemli təhlili və peşəkar elmi şərhi müəssisənin həyat qabiliyyətini və effektivliyini təmin edən düzgün qərarlar qəbul etməyə imkan verir. Biznesin səmərəliliyi və rəqabətqabiliyyətliliyinə, dəyəri müxtəlif ölkələrdəki analoji müəssisələrin nəticələri ilə müqayisəli təhlil əsasında ölçülən nəticələrə nail olmağa kömək edən innovativ fəlaiyyət müəssisələrin və şirkətlərin uğurlu inkişafının vacib şərtdidir.

İqtisadiyyatın inkişafının idarə edilməsi hər şeydən əvvəl, insanların idarə edilməsidir. Deməli, bu ilk növbədə, insanın təbiətinin, xarakterinin, dəyərlər sisteminin, davranış və əmək motivlərinin, həmçinin insanın həyat fəaliyyətinin dəyişən reallıqlarının dərk edilməsidir. Piter Druker və Con Adair menecmenti

---

[6] Keçən əsrin sonuna yaxın ABŞ-da zehni əmək işçiləri bütün işçi qüvvəsinin beşdə iki hissəsinə qədərini təşkil edirdi.

orkestrə dirijorluq etmə prosesi ilə müqayisə edir ki, burada müvəffəqiyyət daha çox dirijorun peşəkarlıq səviyyəsi, onun xarakteri, xarizması, kollektivi idarə etmək bacarığı ilə, həmçinin musiqiçilərin keyfiyyəti, təcrübəsi, mütəşəkkilliyi və məsuliyyəti ilə müəyyən edilir. Müxəssislər çox zaman fəaliyyətin istiqaməti, vəzifələri və standartını, korporativ mədəniyyəti və dəyərlər sistemini, əmək məhsuldarlığını və gözlənilən nəticələri müəyyən edən rəhbərlərdən asılı olurlar. Rəhbərlər resursların ədalətli bölgüsünü və yalnız maddi mükafatlandırma ilə məhdudlaşmayan maraqlar balansını təmin edərək, öz əməkdaşlarının gözləntilərini görməli, onları qiymətləndirməyi və inandırmağı bacarmalıdırlar. Öz təşkilatının məhsulunun yüksək keyfiyyətinə yönələn şirkət başçısı, əməkdaşların təbii istedadını və qabiliyyətlərini düzgün istifadə və təşviq etməlidir. Şəxsiyyətin yaradıcı potensialının aşkar edilməsinin ən yaxşı üsulu onun fəaliyyət nəticələrinin təhlilidir ki, bunlar da layiqincə qiymətləndirilməlidir. Bu metod rəhbərin özünün bilikləri, qabiliyyətləri və potensial imkanlarının qiymətləndirilməsi üçün də tətbiq edilməlidir. Belə yanaşma özünü təkmilləşdirməyə kömək edir və enerjini şəxsiyyətin güclü cəhətlərinin reallaşdırılmasına yönəltmək imkanı verir, daha yüksək nəticələr əldə etmək üçün onun yaradıcı qabiliyyətlərinin aşkar edilməsinə səbəb olur. Bu zaman şüurlu fəaliyyət planı tərtib etmək kifayət deyil, bunun üçün lazımi nəticələr əldə edilənədək, klassik və neoklassik idarəçilik məktəblərinin əsas qaydalarından, yəni baza idarəetmə texnologiyaları və insan münasibətləri mədəniyyətindən istifadə edərək, onu fəal və ardıcıl surətdə həyata keçirmək lazımdır. Burada yalnız biliklərin daimi inkişafı deyil, həm də nəzəri bilikləri praktikada məhsuldar tətbiq etmək bacarığı, mütəşəkkillik, liderin iradəsi və məsuliyyəti, fikir ayrılıqları şəraitində onun effektiv qərar qəbul etmək bacarığı da vacibdir.

Drukerə görə, düzgün qərar qəbul etmək istəyən idarəçi alternativ variantların düşünülmə vasitəsini qarşı fikirdə görməyə özünü məcbur etməlidir və əmin olmalıdır ki, nəzərdən keçirilən məsələnin bütün ən vacib aspektləri təhlil edilmiş və ölçülüb-biçilmişdir. Bu zaman o, menecerlərə əgər bütün şərtləri nəzərə alarkən üstünlüklər xərcləri və riskləri əhəmiyyətli dərəcədə üstələyərsə, hərəkətə keçməyi məsləhət görürdü.

Müəssisə işçiləri üçün vacibdir: məsələnin, şirkətin inkişaf xarakteri və imkanlarının, öz missiyasının və nəticələrin aydın başa düşülməsi, öz kolleqalarının davranışının və hadisələrin qabaqcadan təxmin edilə bilməsi, sabitlik və proqressiv dəyişikliklər arasındakı balans hissi, qələbəyə inam və vicdanla işləmək istəyi. İnsanın əməyə münasibəti uğurlu inkişafın ilkin amilidir. Hər hansı bir qabiliyyət vicdanlı və inadlı əməyin – insan inkişafının əsasının faydalı mühitinə düşməsə, şans olaraq qala bilər, çünki “yolu yeriyən kəs yola hakim olar”. Eyni zamanda tamamilə aydındır ki, müəssisədə çalışan yüksək təhsilli, yaxşı mütəxəssislərin, maddi və mənəvi cəhətdən yüksək məhsuldarlığa, yüksək əmək keyfiyyəti və yeniliklər uğrunda mübarizəyə motivləşdirilmiş, biliklərin, bacarıqların, mütəşəkkilliyin və mənəviyyatın yüksək səviyyəsinə malik intellektual və etik

mədəniyyətli işçilərin faizi daha yüksək olduqca, istehsalat müəssisəsinin nailiyyətləri də bir o qədər yüksək olar.

Müəssisənin təşkilati strukturu iqtisadi idarəetmənin səmərəliliyi və əmək məhsuldarlığının artırılması üçün böyük əhəmiyyət kəsb edir. Menecmentin əsas problemlərindən biri təşkilati struktur və rəhbərlik metodlarının düzgün seçimindən, təşkilatın qarşısında duran vəzifələrin xarakteri ilə uyğunluğundan, funksiyaların dəqiq ayırd edilməsindən, mərkəzləşmə və desentralizasiya üsullarının çevik birləşdirilməsindən, müəyyən şəraitdə və müəyyən müddətdə müəssisə qarşısında qoyulan vəzifələrin daha yaxşı həllinə imkan verən fərdi və kollektiv prinsiplərin xarakterinə uyğunlaşdırılmasından ibarətdir. Piter Druker tərəfindən üç belə prinsip ayrılmışdır. Birinci prinsip – təşkilatın şəffaflığı, onun strukturu, vəzifələri, nailiyyətləri və imkanlarını bilmə və başa düşmə. İkinci prinsip – təşkilatda, öz səlahiyyətləri çərçivəsində son qərarı qəbul edən şəxsin və böhranlı situasiyada rəhbərliyi öz üzərinə götürən şəxsin olması. Bu zaman səlahiyyət həcmi məsuliyyətin həcminə müvafiq olmalıdır. Üçüncü prinsip – hər bir əməkdaşın yalnız bir rəhbəri olmalıdır.

Bu və digər idarəçilik məsələlərinin həlli üçün təşkilatın, onun qarşısında duran məqsədləri və konkret situasiyaların xüsusiyyətlərini xarakterizə edən sabit və dəyişən kəmiyyətlərin tamamilə fərqli kombinasiyalarında optimal qərarlar qəbul etməyə imkan verən sistemli kulturoloji yanaşma əvəzsiz əhəmiyyətə malikdir.

## LİDERLİK MƏDƏNİYYƏTİ

### *Liderlik mədəniyyəti anlayışı*

Liderlik mədəniyyəti – əməkdaşların ümumi və fərdi tələbatları, maraq və gözləntilərinin təmin edilməsi şərti ilə liderin kollektiv qarşısında qoyulmuş vəzifələrin həllinə yönəldilən biliyi, bacarığı, mütəşəkkilliyi, etikası və idarəetmə fəaliyyətidir. İdarəçiliyin çoxvariantlılığı liderlərin müntəzəm özünü təkmilləşdirməsini, effektiv idarəetmə mədəniyyəti ilə bağlı interaktiv təlim sistemi vasitəsilə onların biliklərinin və bacarıqlarının inkişaf etdirilməsini tələb edir.

Mahiyyət etibarı ilə, liderlik mədəniyyəti əsasən milli, beynəlxalq, sosial, iqtisadi, ailə idarəçiliyi və şəxsiyyətin özünüidarəsində tətbiq edilən universal idarəetmə modelidir. Lider – bərabər insanlar arasında birincidir, vəzifəsində və sosial mövqeyində deyil, şəxsi keyfiyyət-lərində, intellektual və etik mədəniyyətində, elmi bilikləri, təcrübəsi, iradəsi, mütəşəkkilliyində, insaniyyətdə, cəmiyyətin xeyrinə yaradıcı fəaliyyətdə üstünlüyə malik olan daha yüksək mədəniyyətli insandır. Liderin seçilməsi və ya təyin edilməsi kollektivlərin özlərinin yaranmasından və ya rəsmi rəhbərliyi olan mövcud kollektivin özəyi olmasından asılıdır. Lakin istənilən halda lider, həm bir sıra peşəkar, həm də insani keyfiyyətləri sayəsində hörmət qazanmalıdır. Eyni zamanda lider təşkilatın əməkdaşlarını ümumi vəzifənin yerinə yetirilməsinə, kollektiv işə, işçilərin bir-birinə qarşılıqlı hörmət etməsinə yönəltməyi bacarmalı və onların inkişafına yardım etməlidir.

Yüksək idarəetmə mədəniyyətinə malik lider öz işini yaxşı bilməli və dediyi sözlərin həqiqiliyinə inanmalı, kollektiv əməkdaşlarının enerji və istedadlarından düzgün istifadə etməyi bacarmalı, insan təbiətini yaxşı dərk etməli və "qamçı və kökə" metodu vasitəsilə, yəni mükafatlandırma və tənbeh etmənin birləşdirilməsi yolu ilə yüksək məhsuldarlıqlı əməyi motivləşdirməlidir. O, kollektiv qarşısında duran problemlərin həlli üçün elmi, aksioloji və praktiki yanaşmanı özündə məharətlə birləşdirməlidir.

Liderlik mədəniyyəti, liderin başqalarından daha uzağı görmək bacarığını və öncəgörənlik qabiliyyətinə malik olduğunu, insanları yaxşı ayırd etməyə, qüsursuz məntiqi təhlil bacarığına və insanların, onların keyfiyyətləri və xidmətlərini hesaba alan ədalətli qiymətləndirilməsinə qadir olmasını nəzərdə tutur. Leo Taksil və bir sıra digər müəlliflərin tədqiqatları göstərir ki, çox vaxt cəmiyyətdə bu və ya digər şəxsiyyətlərin pozitiv və ya neqativ imici formalaşır ki, bu da ictimai rəyin əsası olur və zamanla stereotip təsəvvürə çevrilir. Ayrı-ayrı "avtoritetlər" haqqında ictimai rəyin əsasını çox vaxt onların şəxsi keyfiyyətlərinin, xarakterinin və xidmətlərinin qeyri-adekvat qiymətləndirilməsi, bəzən bilərəkdən informasiyanın məntiqiliyi, məqsədləri və etibarlılığı təhlil edilmədən cəmiyyətdə formalaşdırılan və yayılan, "kor-koranə inam" əsasında qəbul edilmiş obrazı təşkil edir. Düzgün dərk etmə – düzgün fəaliyyətin açarıdır. Liderin düzgün, məhsuldar təfəkkürü onun düzgün niyyətlərini və qərarlarını formalaşdırır ki, bunun ardınca praktik fəaliyyət və konkret nəticələr gəlir.

Liderliyin mahiyyətinin təhlilinə ənənəvi, qrup və situasiyalı yanaşma mövcuddur. İnsanın öz anadangəlmə keyfiyyətlərinə görə lider olmasına əsaslanan ənənəvi yanaşma yalnız keyfiyyətlərin və pozitiv xarakterin kifayət etmədiyini göstərən elmi dəlillər və praktik təcrübə tərəfindən təkzib edildi. Qrup yanaşması liderliyi qrupun tələbatları ilə şərtlənən funksiyalar kontekstində nəzərdən keçirir: nə edilməlidir. Liderlik problemlərinin qrup yanaşması əsasında təhlili görüş dairəsinə üç əsas ölçünün daxil edilməsini tələb edir: lider (şəxsi keyfiyyətləri və xarakteri); situasiya (daimilik və dəyişmə parametrləri); qrup (qrupun tələbatları və dəyərləri). Ənənəvi yanaşmanın əksinə olaraq, situasiyalı yanaşma o inama əsaslanır ki, liderlik – konkret vəzifənin həlli zəruriliyinin yarandığı müəyyən müstəsna situasiya ilə şərtlənir. Bu isə öz növbəsində, hakimiyyətin başlıca şərti olan biliklərin əhəmiyyətini aşkara çıxarır.

Con Adair hakimiyyətin üç aspektini ayırır: rəhbərin tutduğu vəzifəsi, rütbəsi, mənsəbi ilə şərtlənən vəzifə hakimiyyəti; liderin anadangəlmə mədəni keyfiyyətləri ilə şərtlənən şəxsiyyət (mədəniyyət) hakimiyyəti; rəhbərin peşə və xüsusi bilikləri ilə şərtlənən bilik hakimiyyəti. Eyni zamanda o, haqlı olaraq qeyd edir ki, müasir demokratik dünyada idarəetmə mədəniyyətinin əsası, getdikcə daha çox ikinci və üçüncü kateqoriya olur.

Bəzi insanlar dominantlıq etmək və ya başqalarına təsir göstərmək və həyat fəaliyyətinin bu və ya digər sahələrində lider kimi tanınmağa nail olmaq imkanı verən anadangəlmə üstünlüklərə malik olurlar. Bu anadangəlmə keyfiyyətlər, ilk

növbədə, şəxsiyyətin ağıl və xarakter xüsusiyyətlərində təzahür olunur. Lakin təcrübə göstərdi ki, təlim, xüsusi hazırlıq nəticəsində lider olurlar. Əlbəttə ki, anadangəlmə istedad istənilən digər fəaliyyət sahəsində olduğu kimi, burada da mühüm rol oynayır. İstənilən halda liderin idarəetmə mədəniyyəti, onun təbii və qazanılmış keyfiyyətləri idarəetmə prosesinin effektivliyi və uğura nail olmaq üçün aparıcı məna kəsb edir. Orkestrə istedadlı və təcrübəli dirijor lazım olduğu kimi, eynilə təşkilatlar və kollektivlərə də yüksək idarəetmə mədəniyyətinə malik lider lazımdır.

Yüksək idaretmə mədəniyyətinə malik lider, qarşıya qoyulmuş tapşırığın effektiv həlli üçün insan, maddi və vaxt resurslarının strateji idarə edilməsi bacarığına malik olmalıdır: ən qısa müddətdə ən yaxşı nəticələrlə, ən az qüvvə və resurslarla. O, məsələnin həlli üçün yalnız intellektual, peşəkar və fiziki qabiliyyətlərini deyil, həm də öz ürəyini ortaya qoyan insanları möhkəm bir komandada birləşdirməyi bacarmalıdır. O, vəzifə, kollektiv və fərd sahəsində istifadə edilməli olan prinsiplər haqqında dəqiq təsəvvürə malik olmalı, müxtəlif vəziyyətlərdə səmərəli idarəetmə və inkişaf üçün yeni imkanlar yaratmaq məqsədləri ilə bu prinsipləri birləşdirməyi bacarmalıdır. Yaxşı lider, dialektik ziddiyyətlərin və kollektivin iş prosesində yaranan gözlənilməz çətinliklərin aradan qaldırılması üçün zəruri olan dözüm və səbirə də malik olmalıdır. O, qızıl orta həddi saxlamalı, ifrata varmamalı, əməkdaşlara qarşı münasibətdə ədalətli, dürüst və alicənab olmalıdır.

Qoyulmuş məsələni uğurla yerinə yetirmək üçün liderə lazımdır: cəmiyyətdə qəbul edilməyə layiq yüksək keyfiyyətli məhsul istehsalını təmin etmək; əməkdaşların müntəzəm təlimini, hətta bu onların işdən ayrılmasına səbəb olsa belə, təşkil və təşviq etmək; kollektivlə məsləhətləşmək və həyati vacib sosial məsələlər haqqında onu məlumatlandırmaq; kollektivin "döyüş ruhunu", nikbinliyini və ruh yüksəkliyini, öz işinə görə onun qürur hissini və müvəffəqiyyət əldə etmək qabiliyyətinə inamını dəstəkləmək; mükafatlar, xarici səfərlər və s. daxil olmaqla, maddi və mənəvi amillər vasitəsilə yüksək məhsuldarlıqlı əməyi stimullaşdırmaq; dinclik, nizam-intizam, məsuliyyət, sabitlik, sərbəstlik və yumor mühitini formalaşdırmaq.

Lider yüksək idarəetmə effektivliyinə nail olmaq üçün: təcrübədən yaradıcı şəkildə istifadə etmə və dünya mədəniyyəti və sivilizasiyasının inkişaf dinamikasındakı dəyişiklikləri nəzərə alma əsasında idarəetmə texnologiyalarını daim təkmilləşdirməli; effektiv idarəetmə prosesində etik və hüquqi mədəniyyət dəyərlərini bacarıqla uyğunlaşdırmalıdır. Bu məqsədlə işçilərin hüquqi savadlılığının və fəaliyyətinin normativ tənzimlənməsinin təmin edilməsi ilə yanaşı, etik dəyərlər və normalar, adətlər və ənənələr, milli mentalitet kimi sosial mədəniyyət amillərini bilmək və düzgün istifadə etməyi; ictimai rəyi idarə etməyə və kollektivin şüuruna böyük təsir göstərən kütləvi informasiya vasitələri ilə məhsuldar əməkdaşlıq etməyi bacarmaq lazımdır.

Həqiqi liderləri muzdlu idarəçilərdən insanlarla işləmək və istehsal texnologiyalarının mahiyyətini, imkanlarını və tələbatlarını yaxşı bilən mütəxəssislərin

rəyinə qulaq asmaq bacarığı fərqləndirir. Belə liderlərin kommunikasiya sistemində üç əsas məqsədə çatmağa yardım edən konsultativ və nümayəndələrin iştirakı ilə müşavirələrin dövri olaraq təşkil edilməsi mühüm yer tutur: bir-birilərinin nəzər-nöqtəsini və məqsədlərini anlamaqla, rəhbərlər və əməkdaşlar arasında qarşılıqlı anlaşma imkanları; effektiv idarəetmə məqsədi ilə əməkdaşların ideyaları və təcrübəsindən istifadə etmək imkanları; qərarların hazırlanmasında öz töhfəsini vermək üçün əməkdaşlara imkan verilməsi. Kommunikasiya və əməkdaşlığın müşavirələr, informasiya qrupları, şuralar və komitələr kimi müxtəlif formaları mövcud olsa da, kommunikasiyanın ən yaxşı metodu yazılı sənədlə möhkəmləndirilən şəxsi söhbət hesab edilir. Bu metod yaxşı kommunikasiyanın üç meyarına cavab verir: aydınlığa, sürətliliyə və əks-əlaqənin təmin edilməsinə. Şəxsi əlaqə şəxsiyyətə inamın formalaşmasına, uğurlu siyasət isə prioritetlərin düzgün seçilməsinə imkan yaradır.

Liderlik mədəniyyətinə tələblərdən biri təşkilatın və ya qrupun xarakterik xüsusiyyətlərini əks etdirən kollektivin korporativ ruhunu formalaşdırmaq bacarığıdır. Bu prosesin əsasını qrupun və ya ayrılıqda götürülmüş fərdin ümumi tələbatları və dəyərlərinin başa düşülməsi təşkil edir. Sosial-mədəni təsirin göstərilməsi və lider tərəfindən idarə edilən fərdlər, qruplar və ya bütövlükdə təşkilatın kollektivi tərəfindən pozitiv münasibətə nail olunması üçün onun imicinin formalaş-dırılması və qorunması prosesinin effektivliyi də liderin idarəetmə mədəniyyətinin səviyyəsi ilə şərtlənir. Lider yeni ideyalar yaratmaq, personalın təlimini təmin etmək, kadrların hazırlığı və yenidən hazırlığı proqramları və kurslarının səmərəliliyinin qiymətləndirilməsini həyata keçirmək, rəhbərlik etdiyi fəaliyyət sahəsinin strateji inkişafına yönəldilmiş praktik tövsiyələr və fəaliyyət planlarını işləyib hazırlamaq qabiliyyətinə malik olmalıdır. İdarəetmə mədəniyyətində liderin informasiya mədəniyyəti, onun müasir informasiya texnologiyalarından effektiv istifadə etmək bacarığı böyük rol oynayır.

Lider münaqişələri idarə etmək qabiliyyətinə malik olmalıdır. Uinston Çörçill təşkilatdakı mühiti hava ilə müqayisə edirdi: belə ki, soyuq havada insanlar soyuqlaya və xəstələnə, hətta sətəlcəmdən ölə də bilərlər. İnsanın həyatında çox vaxt şəxsiyyətin xarakter xüsusiyyətləri və sosial borc hissi ilə şərtlənən şəxsiyyətin və cəmiyyətin maraqları arasında toqquşma və yaxud eqoizm və altruizm hisslərinin düzgün harmonizasiyasını tələb edən şəxsi və özgə maraqlar arasında toqquşma baş verir. Çox vaxt münaqişələr mənəvi mövqelərdəki ziddiyyətlərlə şərtlənir. Məsələn, insanın müəyyən öhdəlikləri yerinə yetirməsi cəmiyyətə və ya ayrı-ayrı adamlara ziyan vura bilər. Hər hansı bir şəxsə minnətdarlıq ifadə etmək prinsipiallıq prinsipinin pozulmasına gətirib çıxara bilər. Məlumdur ki, daha tez-tez baş verən münaqişələrin əsasını sosial ziddiyyətlər, müxtəlif öhdəliklərin uyğunsuzluğu, ayrı-ayrı şəxslərin düşünülməmiş hərəkətləri və ya təsadüfi vəziyyətlərlə şərtlənən müxtəlif dəyərlər və normaların toqquşması təşkil edir. Düzgün mənəvi seçimdə ən yaxşı arbitr insanın xeyir və şər haqqındakı təsəvvürləri, onun daxili əqidəsi ilə bağlı olan vicdanıdır. Mədəniyyətlərin harmonizasi-

yasına neqativ təsir göstərən keyfiyyət – insanın xarakteri, onun tərbiyəsi və ruhi mədəniyyətində olan nöqsanlarla şərtlənən paxıllıqdır. Paxıllıq başqa bir insanın uğurlarına, şöhrətinə, intellektual və mənəvi üstünlüyünə və yaxud üstün mövqeyinə qərəzli-düşmənçilik hissidir. Paxıllıq hissi onun daşıyıcısında nəinki digər insanın uğursuzluğa, bədbəxtliyə düçar olması, ətrafdakılar qarşısında özünü hörmətdən salması istəyini doğurur, həm də insanı çox vaxt əxlaq qaydalarına zidd hərəkətlər, cinayətlər və hətta ölüm hadisəsi törətməyə təhrik edir. Alicənablıq və düzgün həyat mövqeyinə, pozitiv enerjiyə malik mədəni insanlar paxıllıq hissindən uzaq olurlar, lakin cəmiyyətdə və siyasətdə sosial ədalət prinsiplərinin pozulması xüsusunda böyük narazılıq hissi keçirə bilərlər. Buna görə də liderlik mədəniyyətinin mühüm göstəricilərindən biri – praktikada ədalətlilik prinsipinə sədaqət və kollektivdə dostbazlığa yol verilməməsidir.

Kollektivin səmərəli fəaliyyətinə və münaqişələrin qarşısının alınmasına kollektiv üzvlərinin fəaliyyətinin lider tərəfindən düzgün stimullaşdırılması böyük təsir göstərir. Bu onunla şərtlənir ki, stimullaşdırma insanların fəaliyyətinin məqsədyönlülüyünü və rasionallığını formalaşdırır və tənzimləyir. O, insanın şüuruna, davranışına və fəaliyyətinə, şəxsiyyətin motivləri və istiqamətinə güclü psixoloji təsir vasitəsi rolunu oynayır, insanın həyat fəaliyyətinin resurs imkanlarının fəallaşmasına imkan yaradır. Stimullaşdırma, həmçinin dəyərlərin yenidən qiymətləndirilməsinə, insanların maraqları, tələbatları və məqsədlərinin korrektə edilməsinə təsir göstərir.

### *Liderin idarəetmə funksiyaları və üslubu*

Yüksək idarəetmə mədəniyyəti iddiasında olan lider:

- ◻ Kollektiv qarşısında vəzifəni düzgün qoymalı, onu ruh yüksəkliyi ilə izah etməli və bu vəzifəni daim xatırlatmalıdır.
- ◻ Vəzifənin mahiyyəti və məqsədə nail olma texnologiyası barədə əməkdaşları təlimatlandırmalıdır.
- ◻ İşin bütün hissələrini, müddətini, əməkdaşların öhdəlikləri və məsuliyyətini əhatə edən konstruktiv plan işləyib hazırlamalıdır.
- ◻ Hər bir işçi üçün konkret məqsədlər müəyyənləşdirməli və hər rüb onun uğurlarını və nöqsanlarını müzakirə etməlidir.
- ◻ Qoyulmuş qayda və prosedurları müdafiə etməli, tələbkarlığı və şəxsi nümunəsi ilə nizam-intizamın qorunmasına imkan yaratmalıdır.
- ◻ Qərarların qəbul edilməsini həvalə etməli, insanlarla məsləhətləşməlidir.
- ◻ Kollektivin hər bir üzvünün işinin dəyərinin başa düşüldüyünü ifadə etməli, öz qərarlarının həyata keçirilməsində insanlara yardım etmək üçün onları izah etməlidir; hər ay işlərin vəziyyəti və siyasət haqqında insanları məlumatlandırmalıdır.
- ◻ Vəzifənin effektiv həlli maraqlarını nəzərə alaraq, yaradıcı və sosial fəallığı təşviq etməli, düzgün fikirləri, niyyətləri, əqidələri və əməlləri dəstəkləməlidir.
- ◻ İşin ümumi monitorinqini keçirməli, müntəzəm olaraq əməkdaşlarla

yerlərdə görüşməli, müşahidə aparmalı, onların mülahizələri və istəklərini dinləməli, onların vicdanlı əməyini təşviq etməlidir.

- Kollektiv üzvlərinin rifahının qayğısına qalmalı, onların əmək şəraitini yaxşılaşdırmalı, həyati problemlərinin həllinə yardım etməlidir.
- İnsanların, xüsusilə, 25 yaşınadək gənclərin təlimi və tərbiyəsi vasitəsilə onların şəxsi inkişafına imkan yaratmalıdır.

Liderin idarəetmə üslubu, insanın xətti kimi, təbii olaraq formalaşır və şəxsiyyəti xarakterizə edir. O, sabit kəmiyyətdir, eyni zamanda qərarların qəbul edilmə üsulu kimi dəyişə bilər. Şəxsiyyət üçün xarakterik liderlik üslubu – avtokratik, demokratik, konsultativ (daxili işlərə qarışmama prinsipi) ola bilər. Situasiyadan və zaman amilindən asılı olaraq, lider düzgün idarəetmə üslubu seçimi etməyi bacarmalıdır: rolların və öhdəliklərin bölüşdürülməsindən təkbaşına qərar qəbul edilməsinə qədər. Məsələn, insanların həyat və ya ölüm məsələsi ilə bağlı böhranlı vəziyyətlərdə (orduda, mülki aviasiyada, FHN-nin fəaliyyətində və s.) lider qərarları müstəqil və tez qəbul etməlidir, təlim görmüş kollektiv isə liderin komandalarını tez və danışıqsız yerinə yetirməlidir.

İdarəetmə təcrübəsi göstərir ki, liderin xarakterini və ya onun idarəetmə üslubunu dəyişmək, onun vəzifəsini yaxud səlahiyyətini dəyişməkdən çətindir. Bu səbəbdən burada liderin şəxsiyyəti, onun şəxsi mədəniyyət səviyyəsi: biliyi, bacarığı, mütəşəkkilliyi, mənəviyyatı və yaradıcı fəaliyyəti həlledicidir. Con Adairin fikrincə, lider kimi doğulmurlar, inkişaf prosesində lider olurlar. Bunun üçün nə lazımdır? Fikrimizcə, ümumilikdə mədəniyyət kimi, xüsusi təlim və tərbiyə vasitəsilə formalaşan liderlik mədəniyyəti.

### *Liderin keyfiyyətlərinə qoyulan tələblər*

Liderin keyfiyyətlərinə qoyulan tələblərlə bağlı çox sayda yanaşmalar mövcuddur. Xüsusiyyətlər nəzəriyyəsinə görə, uğurlu liderin 15 xarakteristikası var: mühakiməlilik, təşəbbüs, öncəgörmə, enerji, inad, insanlarla rəftar etmək bacarığı, qətiyyət, etibarlılıq, emosional davamlılıq, düzlük, iddialılıq, həvəs, obyektivlik, əməkdaşlıq, cəsarət.

Liderin statusu onun ruhi mədəniyyəti – biliyi və bacarığı, peşəkar təcrübəsi və məsuliyyəti ilə müəyyən edilir. Özünə inamı olan etibarlı lider kollektivin təhlükəsizlik hissidir. Yaxşı lider tələbkarlıq və qayğı prinsiplərini birləşdirərək, səmərəli idarəetməyə yardım edən, işin və əməyə görə ədalətli mükafatlandırma sisteminin yaxşı təşkil edilməsinin qayğısına qalmalıdır. Lideri yeniliklər uğrunda və "insanın qəlbi" uğrunda daimi mübarizə fərqləndirməlidir. Con Adairə görə, lider: vəzifələrin qoyuluşu və həllində təşəbbüs və inadkarlıq, personalın idarə edilməsində bütövlük və yumor, fərdlərlə qarşılıqlı münasibətdə nəzakət və mərhəmət göstərməlidir. Yaxşı liderin malik olmalı olduğu əsas keyfiyyətlər: effektivlik, zəhmətsevərlik, cəsarət, düzlük, özünə inam, ədalətlilik, ruhi qüvvə, ardıcıllıq, alicənablıq və şəfqətdir. Effektivlik – minimal qüvvə ilə maksimal nəticələrə nail olmaqdır. Zəhmətsevərlik – inadla çalışmaq iqtidarı və istəyi-

dir. Cəsarətlilik – riskə, bəzən böyük riskə getməyə hazır olmaqdır. Düzlük – istənilən növ yalan, aldatma, saxtakarlıqdan imtinadır. Özünə inamlılıq – öz gücünə və imkanlarına əminlikdir. Ədalətlilik – ədalətli, yanlış rəylərə əsaslanmayan və dürüst olmaq qabiliyyətidir. Ruhi qüvvə – çətin situasiyada dözümlülük və iradədir. Ardıcıllıq – möhkəmlik və öz prinsiplərinə sadiqlikdir. Alicənablıq və şəfqət – fədakarlıq və düzlüklə birləşən yüksək mənəviyyat, başqalarına qarşı mərhəmət hissidir.

Robin Şarmanın aşağıdakıları nəzərdə tutan liderlik mədəniyyəti prinsipləri müəyyən maraq doğurur: məvacibi ləyaqətli və alicənab məqsəddən ayırmama; ağılla idarə etmə, qəlbə əsaslanma; daimi mükafatlandırma, xidmətlərin qiymətləndirilməsi; dəyişikliklərə qarşı çıxmama; dəyərli olanın üzərində diqqəti cəmləşdirmə; özünü idarə etmək bacarığı; heç kimin görmədiyini görə bilmək bacarığı; liderliyin irslə birləşdirilməsi.

Liderin şərtsiz yaxşı cəhətləri görkəmli nailiyyətlərə və böyük qələbələrə yol açan ağlı, inadlı əməyi və ilhamıdır. Onun mühüm keyfiyyətlərindən biri sağlam düşüncə, analoji problemlə məşğul olan digərlərinin görmədiyini görə bilmək bacarığıdır. Uinston Çörçill mərdliyi bütün qalan əsas keyfiyyətlərin zamini hesab edirdi. Ruhi qüvvə və sadəlik də mühüm əhəmiyyətə malikdir. Lakin yadda saxlamaq lazımdır ki, həddən artıq sadəlik lider üçün zərərlidir, belə ki, o, lideri özünə inamdan məhrum edir. Uğurlu liderin xarakteristika göstəriciləri sırasına ardıcıllığı, çevikliyi və ruh yüksəkliyini də aid edirlər. Liderin ruh yüksəkliyi kollektivdə öz işinə bağlılığı formalaşdırır, komanda ruhunu tərbiyə edir və insanları ruhlandırır. Başqa sözlə, həqiqi lider yüksək peşəkarlıq və yüksək etikanı, ağılı və düşüncəni, yaxşı təhsil və zəngin təcrübəni, dürüstlük və etibarlılıq, iradə, mərdlik və özünə güvənmə, kollektivin əhval-ruhiyyəsini və öz hisslərini idarə etmək bacarığı kimi keyfiyyətləri özündə birləşdirən nümunə olmalıdır.

Təfəkkürünün çevikliyi və sürəti, reaksiyası, mənimsəmə sürəti, yaranmış vəziyyətdə nə etmək lazım olduğunu dərhal dərk etmə bacarığı, hadisələri və inkişaf imkanlarını qabaqlayıcı görmə qabiliyyəti liderin müvəffəqiyyəti üçün mühüm əhəmiyyətə malikdir. Belə qəbul edilir ki, adətən liderin maraqları, meylləri və temperamenti onun qəbul etdiyi qərarlara böyük təsir göstərir. Lakin elmin, iqtisadiyyatın inkişafı nəticəsində, sosial-siyasi proseslərin dialektikası səbəbindən vəziyyət dəyişə bilər və lider bu dəyişikliklərə operativ reaksiya verməlidir. Bu ondan yalnız məlum ruhi qüvvə deyil, həm də peşə biliklərinin səviyyəsinin daim artırılmasını, praktik bacarıqların və idarəetmə texnologiyalarının təkmilləşdirilməsini, insanlarla işləmək və onları öz arxasınca apara bilmək bacarığını tələb edir.

Liderin intellekti, istedadı və peşəkarlıq səriştəsindən asılı olmayaraq onun insani, mənəvi keyfiyyətlərinin məcmusunu təmsil edən xarakteri, idarəetmə üçün zəruri əhəmiyyətə malikdir. Liderin pozitiv xarakteri təmənnasızlığı və sadəliyi, məsuliyyəti öz üzərinə götürmək və öz səhvlərini etiraf etmək qabiliyyətini, mərdlik və mərhəməti, düzlük və səmimiyyəti, insanların etibarını qazanmaq və doğrultmaq bacarığını nəzərdə tutur. Lider öndə getməli, kollektivə pozitiv təsir

göstərməlidir və öz həyat fəaliyyətinin şəxsi nümunəsi ilə, sözü ilə əməlinin bütövlüyü, şəxsi maraqlarını ümumi işə tabe etməsi, əməkdaşlıq mühitini formalaşdırması, əməkdə fədakarlığı, əməkdaşlarının problemlərinə şərik olması və onlara qayğı göstərməsi ilə insanların hörmətini və etibarını qazanmalıdır. Lider kollektivdə ruhi mədəniyyətin mahiyyəti və qeyri-məhdud imkanları, dünyagörüşü və həyati dəyərlər haqqında təsəvvürlərin düzgün dərk edilməsini formalaşdırmalıdır. Yaxşı lider insanların maraqları və mənəvi prinsipləri arasında olan ziddiyyətləri aradan qaldırmağı bacarmalıdır. Dürüstlüyün yoxlanılması düzgünlük tələbinin şəxsi maraqlarla ziddiyyət təşkil etdiyi zaman baş verir. Yadda saxlamaq lazımdır ki, vəzifə və hakimiyyət hörmətə adekvat deyil. Bu yalnız öz idarəçilik qabiliyyətlərini göstərmək, işdə yaxşı nəticələr əldə etmək, insanların məhəbbəti və hörmətini qazanmaq şansıdır.

Liderlik mədəniyyətinə pozitiv təsir göstərən mühüm komponentlərdən biri sağlam həyat tərzi – əlverişli gün rejimi, düzgün qidalanma və yuxu, fiziki məşqlər, öz şüurunun idarə edilməsi, sağlamlığının qorunması və möhkəmləndirilməsi üçün təbii-coğrafi şəraitdən istifadə etmək.

### *Liderin peşəkarlıq etikası və məsuliyyət mədəniyyəti*

Liderin peşəkarlıq etikası universal xarakter daşıyır. O, mahiyyət etibarilə, bütövlükdə rəhbərin peşəkarlıq etikasına uyğundur, lakin siyasətçilər, məmurlar, dövlət qulluqçuları, ictimai təşkilatlar və bələdiyyə sədrləri, biznesmenlər və menecerlər üçün öz xüsusiyyətlərinə malikdir. O, qanunlara riayət olunmasını, kollektivin maraqlarına və vətənin milli maraqlarına xidmət etməyi, təşkilatın və dövlətin nüfuzunun möhkəmləndirilməsini, sosial tərəqqinin, kollektivin və ya ölkə vətəndaşlarının həyat keyfiyyəti və təhlükəsizliyinin təmin edilməsini də nəzərdə tutur. O, rəhbərin qəbul etdiyi qərarın əsasını təşkil edən hadisələr, proseslər, faktlar və insanlar haqqında təqdim edilən informasiyanın obyektivliyinə, həmçinin düzgün şərh edilməsinə görə, eynilə də qəbul edilən qərarların sosial nəticələrinə bərabər məsuliyyət tələb edir. Liderin peşəkarlıq etikası əməkdaşların fəaliyyətinin, "üfüqi" və "şaquli" xidməti əlaqələrin, müxtəlif strukturlar, bölmələr və ayrı-ayrı işçilər, rəhbərlər və tabeçilikdə olanlar, müxtəlif rütbə və ixtisas nümayəndələri ilə qarşılıqlı fəaliyyətin tənzimlənməsini təmin edən mənəvi münasibətləri də ehtiva edir. Mənəvi ölçüdə liderin peşəkarlıq etikası: öz səhvlərinin etirafını; kollektivin nailiyyətlərinə görə qürur hissininin açıq ifadəsini; əməkdaşların rəyinə marağı; əməkdaşlarla ünsiyyətdə nəzakəti ("buyurun"); minnətdarlığın şifahi şəkildə ifadəsini ("təşəkkür edirəm"); nailiyyətlərin və uğurların bütün kollektivin xidmətlərinə aid edilməsini ("biz"); öz xidmətləri haqqında susmağı ("mən") nəzərdə tutur.

Liderin ümumi mədəniyyəti ilə şərtlənən məsuliyyət mədəniyyəti kollektiv daxilində insan münasibətlərinin formalaşdırılmasında, müxtəlif mədəniyyətlər və xarakterlərin qarşılıqlı ahəngdar təsirinin təmin edilməsində mühüm rol oynayır. Məsuliyyətli lider öz düşüncələrini, əməllərini və işlərini şüurunun nəzarəti altı-

na alır. Liderin məsuliyyət mədəniyyəti əməkdaşlar üçün layiqli nümunə və kollektivdə əməkdaşların davranışını və fəaliyyətini tənzimləyən yaxşı etik və hüquqi qarşılıqlı münasibətləri qorumaq imkanını verir. Liderin məsuliyyəti həm etika, borc hissi və digər insanlara qarşı münasibətdə öhdəlik tələbləri ilə şərtlənən özünü qiymətləndirmə əsasında, həm də etik mədəniyyət prinsipləri və meyarları və liderin peşəkarlıq fəaliyyətinin nəticələri əsasında formalaşır. Əməkdaşların məsuliyyətinin formalaşdırılmasının mühüm amili lider tərəfindən onların fəaliyyətinin maddi və mənəvi stimullaşdırılmasıdır.

İnsanın müsbət və mənfi keyfiyyətləri kollektivin mühitinə böyük təsir göstərir. Müsbət keyfiyyətlərə aiddir: alicənablıq, saflıq, səmimiyyət, mərhəmət, vicdanlı əmək, yaradıcılıq, mərdlik, sədaqət, yaxşılıq, canıyananlıq, qayğı, məsuliyyət, həmrəylik, altruizm, sevgi, dostluq, şəxsiyyətə hörmət, etibar, anlaşma, inam, dəstəkləmə, səbir, böyüklərə hörmət. Mənfi keyfiyyətlərə aiddir: ədalətsizlik, ikiüzlülük, aldatma, məkr, nankorluq, satqınlıq, qeybət, zorakılıq, tənbəllik, mütilik, eqoizm, konformizm, yaltaqlıq, şəxsiyyətin qiymətləndirilməməsi, ədəbsizlik, riyakarlıq, ikili əxlaq, dostbazlıq, despotizm, süründürməçilik, korrupsiya, monopolizm, laqeydlik, anlamazlıq.

Deyl Karnegi doqquz qayda formulə etmişdir ki, liderin onlara riayət etməsi insanları təhqir etmədən və incitmədən onlara təsir etməsinə imkan verir:

1-ci qayda. Müsahibinizin tərifindən və onun ləyaqətlərinin səmimi etirafından başlayın.

2-ci qayda. Başqalarının səhvlərini birbaşa deyil, dolayısı ilə göstərin.

3-cü qayda. Əvvəl öz səhvləriniz haqqında danışın, sonra isə artıq müsahibinizi tənqid edin.

4-cü qayda. Müsahibinizə əmr vermək əvəzinə, ona suallar verin.

5-ci qayda. İnsanlara öz nüfuzunu xilas etməyə imkan verin

6-cı qayda. İnsanlara ən kiçik uğuruna görə təqdirinizi bildirin və onların hər bir müvəffəqiyyətini qeyd edin. “Öz qiymətləndirmənizdə açıqürəkli və tərifinizdə səxavətli” olun.

7-ci qayda. İnsanlar üçün onların doğrultmağa çalışacaqları yaxşı reputasiya yaradın.

8-ci qayda. Həvəsləndirməyə əl atın. Düzəldilməsini görmək istədiyiniz səhvin asan düzələ biləcəyi təəssüratını yaradın; elə edin ki, sizin insanları təşviq etdiyiniz iş onlara asan gəlsin.

9-cu qayda. İnsanların təklif etdiyiniz işi yerinə yetirməkdən şad olmalarına müvəffəq olun.

### *Liderliyin səmərəliliyi*

Liderliyin səmərəliliyi problemini nəzərdən keçirərkən hiss etmək çətin deyil ki, effektiv idarəetmənin təmin edilməsi üçün ən vacib məsələlər – liderin səriştəliliyi, kollektivin keyfiyyəti və vəzifənin strukturudur. Səriştəli lider qarşıya qoyulmuş vəzifələrin həllinə və kollektivə eyni dərəcədə diqqət ayırmalıdır.

Kollektivin fəaliyyəti düzgün motivasiya edilmədən vəzifənin effektiv həllinin təmin edilməsi mümkün deyil. Kollektivin keyfiyyəti onun "mədəni insan formulu" tələblərinə nə qədər çox cavab verməsindən, yaxşı işləmək istəyindən, real məqsədlər qoymaq və onların həyata keçirilməsinə nail olmaq qabiliyyətindən asılıdır. Vəzifənin strukturu elə açıqlanmalıdır ki, mahiyyət və tələblər tamamilə aydın olsun, vəzifənin effektiv həlli texnologiyaları düzgün seçilsin və gələcək inkişaf imkanları düzgün müəyyən edilsin.

Liderin idarəetmə effektivliyinin dərəcəsi kollektiv qarşısında duran vəzifənin həlli prosesində qrupların və fərdlərin tələbatlarını, maraqlarını və mədəniyyətlərini harmonizasiya etmək bacarığı ilə müəyyən edilir. Kollektivin gücü əsas etbarilə ümumi məqsədə nail olmaq üçün əməkdaşlar arasında rolların düzgün bölünməsi, komandada işləmək bacarığı ilə şərtlənir. Effektiv liderlik kollektivdə nə baş verdiyini, hal-hazırda hansı funksiyanın tələb olunduğunu dərk etməyi, idarəetmənin kifayət qədər effektivliyini təmin edən bu funksiyanın yerinə yetirilmə vərdişlərinin olmasını nəzərdə tutur. Ola bilsin, düzgün qərarların qəbul edilməsi effektiv idarəetmə üçün başlıca əhəmiyyətə malikdir ki, bu da liderdən yüksək intellektual və etik mədəniyyət, güclü məntiq, möhkəm iradə və ciddi idarəetmə təcrübəsi tələb edir.

Con Adair liderin idarəetmə mədəniyyətinin strateji əhəmiyyətinə dair müxtəlif misallar çəkir.  Təşkilatı gəmi ilə, lideri isə şturval (sükan) arxasında duran kapitanla müqayisə edək. Aydın olur ki, gəminin istiqamətinin uğuru, onun təyin olunan yerə vaxtında və müvəffəqiyyətlə yetişməsi kapitanın bilikləri, bacarıqları və təcrübəsindən, onun ərazinin relyefinə uyğunlaşmaq, sualtı riflərdən qaça bilmək və təbii şəraitin öhdəsindən gəlmək bacarığından asılıdır. Anoloji olaraq liderin rolunu, hələ uzun müddət bir çox ailələrin və ya orada işləyən kollektivin təhlükəsiz həyat fəaliyyətini təmin etməli olan çoxmərtəbəli binanın bünövrəsinin etibarlılığı, davamlılığı və estetik simasının apardığı hesablamaların düzgünlüyündən asılı olduğu inşaatçının rolu ilə müqayisə etmək olar. Əlbəttə, çox şey qoyulmuş vəzifədən və kollektivin fəaliyyət xarakterindən asılıdır. Məsələn, avarçəkmədə hər kəs bütövün bir hissəsidir, nəticə isə eyni rolları yerinə yetirən insanların qüvvələrinin cəmi ilə ölçülür. Burada çox şey qayığın istiqamətini təyin edən və qərar qəbul edən şturmandan asılıdır, əməkdaşların yaradıcılıq başlanğıcı əvəzinə isə, prosesin katalizatoru rolunu oynayan, şəxsiyyətin özünü komanda ilə eyniləşdirməsi hissi ön plana çıxır. Futbolda isə əksinə, komandanın ümumi qələbəyə nail olmasında hər bir oyunçunun yaradıcı rolu böyük əhəmiyyətə malikdir. Lider isə kollektivdə "komanda ruhunu" tərbiyə etməlidir. Bu struktur-funksional ölçünün yardımı ilə müxtəlif təşkilatları təsnif etmək və liderin, kollektivin və ayrı-ayrı fərdlərin funksiyalarını korrektə etmək olar.

Liderlik effektivliyinin mühüm vasitəsi lider tərəfindən kollektivin hər bir üzvünə qarşı münasibətdə sərbəstliyin və nəzarətin, qayğının və tələbkarlığın balansının yaradılması, təşkilatda qarşılıqlı hörmət, etibar, sevgi və dostluq mühitinin yaradılmasıdır. Nəhayət, yaradıcı xarakterə malik təşkilatlarda komanda prinsipi

ilə yanaşı, əməyin effektivliyinin artmasına imkan yaradan sağlam rəqabət prinsipi də lazımdır.

### *Liderin idarəetmə texnologiyası.*
### *Üç dairə modeli: vəzifə, kollektiv və fərq*

Anri Fayolun və Çester Barnardın işləri ilə əsası qoyulmuş tarixi ənənəni davam etdirən professor Con Adair tərəfindən işlənib hazırlanmış liderliyə funksional yanaşma, adıçəkilən alimlərin yanaşmalarının birtərəfliliyindən fərqli olaraq, texnoloji cəhətdən liderin funksiyalarını vəzifə, kollektiv, fərd kimi üç bütöv dairəyə münasibətdə nəzərdən keçirir.




Elmə və təhsilə əsaslanan biliklər yalnız idarəetmə texnologiyalarının mənimsənilməsi, məhsuldar üslubun hazırlanması, nəzəri bilikləri praktik tətbiq etmək bacarığı, rəhbər tərəfindən idarəetmə vərdişlərinin, təcrübənin əldə edilməsi şərtilə qüvvəyə çevrilir.

Biheviorist yanaşmanın istifadəsi əsasında, konkret situasiyada vəzifələrin və insanların idarə edilməsinə liderin yanaşma problemini təhlil edən bir çox Amerika mütəxəssislərinin sosial psixologiya sahəsində tədqiqatları liderliyin ideal üslubunun axtarışına həsr edilmişdir. R. Bleyk, C. Mouton, F.E. Filler, P. Hersi, K. Blanşar, R. Tanenbaum, V. Şmidt, C. Adair və bir sıra başqa Amerika alimləri və mütəxəssislərinin tədqiqatları liderliyin effektiv mexanizmlərinin dərk edilməsinə yönəldilmişdir. R.Bleyk və C.Mouton "koordinasiya şəbəkəsi" anlayışını təklif etdilər ki, bu, rəhbərin nəyə: məqsədə (məhsula) yoxsa insanlara daha artıq dərəcədə yönəldiyini təyin etmək imkanı verirdi. Müəlliflər liderin diqqətini qoyulmuş vəzifənin həllinə kollektivin meylliliyinin formalaşdırılması hesabına yüksək əmək məhsuldarlığına nail olmaq zəruriliyinə cəlb edirlər. F.E. Filler göstərirdi ki, idarəetmə prosesinin effektivliyi kollektivin imkanlarını, məsələnin strukturunu

və liderin, onun vəzifəsi ilə müəyyən edilən hakimiyyəti və avtoriteti ilə şərtlənən vəzifə səlahiyyətlərini düzgün görmə qabiliyyətindən asılıdır. Ohayo Universitetindən P.Hersi və K.Blanşar yetkinliyi "yüksək, eyni zamanda əldə edilə bilən məqsədlər qoymaq bacarığı (uğur-motivasiya), məsuliyyəti öz üzərinə götürmək istəyi və qabiliyyəti, həmçinin kollektivdə ayrı-ayrı insanların təhsili və/və ya təcrübəsi" kimi müəyyənləşdirərək, kollektivin "yetkinlik" səviyyəsini xüsusi olaraq qeyd edirlər. R.Tannenbaum və V.Şmidt qeyd edirlər ki, effektiv liderlik üçün qərarların qəbuluna kollektivin cəlb edilmə səviyyəsi böyük əhəmiyyətə malikdir. Bu səviyyə isə kollektivin yetkinliyi (bilikləri, təcrübəsi, motivasiyası) ilə şərtlənir.

Bu yanaşmaların tənqidi təhlili əsasında Con Adair liderin səmərəli işinin texnoloji modeli qismində "Üç dairə modelini" təklif etdi. "Üç dairə modeli" bunları nəzərdə tutur: kollektivin ümumi məqsədləri ilə bağlı olan vəzifə; özünün düzgün formalaşdırma, stimullaşdırma və qorunmasını tələb edən kollektiv; dinamik inkişaf və maddi və mənəvi maraqların təmin olunmasını tələb edən fərd.

Vəzifənin və bununla bağlı olan çətinliklərin icrası kollektivin və hər bir komanda üzvünün imkanlarını üzə çıxarır. Burada mövcud mütəxəssislərdən düzgün istifadə edilməsi, onların innovativ fəaliyyətə və qərarların qəbul edilməsi prosesinə cəlb edilməsi çox mühüm əhəmiyyətə malikdir.

Kollektivin qorunması zəruriliyi həm xarici qüvvələrin təhdidi ilə, həm də pozuculuğa meylli kollektiv üzvləri tərəfindən diktə edilə bilər. Bu halda yaxşı münasibətlər, korporativ mədəniyyət, kollektivin özünü qoruma və həyati vacib məsələlərin yerinə yetirilməsi uğrunda mübarizədə birləşməsi sosial terapiya metodu kimi çıxış edir.

Fərdiyyətçiliyin inkişafı insanın qiymətləndirilmə, anlaşılma, dəstəklənmə, dostluq və sevgi kimi maddi və mənəvi tələbatlarının ödənilməsi ilə bağlıdır. O, təlim və mənsəb yüksəlişi üçün, ətrafdakıların etimadına, harmoniya hissinə, tələb edilənliyə, xoşbəxtliyə səbəb olan rahat psixoloji zəmin üçün əlverişli şəraitin yaradılması yolu ilə təmin edilir.

Üç dairənin hər biri digərləri ilə qarşılıqlı əlaqədə nəzərdən keçirilməlidir. Bu modeldən dairələrin birini çıxarsaq, digərlərinin fəaliyyətində dayanma müşahidə edəcəyik ki, bu da təşkilatda böhran üçün ilkin şərait yaradacaqdır. Və əksinə, bu dairələrdən birinin pozitiv enerjisini artırmaqla, biz digər ikisində də pozitiv dəyişikliklərə nail olarıq.

"Üç dairə modeli" ali rəhbərlər üçün aşağıdakıları nəzərdə tutur: vəzifə sahəsində – uzunmüddətli və ümumi məqsədlər; kollektiv sahəsində – məqsədlər: a) yaxın köməkçilər dairəsini formalaşdırmaq və qorumaq; b) təşkilatın müxtəlif bölmələrində birlik hissinə dəstək olmaq; fərd sahəsində – məqsədlər: a) rəhbərin özü; b) təşkilatın hər bir əməkdaşı. Con Adairin modelinə uyğun olaraq, liderin vəzifəsi təşkilatın fəaliyyətində yüksək effektivliyə nail olunması məqsədilə üç dairənin kəsişmə sahələrinin səmərəli idarə edilməsidir.

### *Liderin idarəetmə metodları*

Liderin səmərəli idarəetmə fəaliyyəti kollektivin fəaliyyətini ən yaxşı şəkildə təşkil etməyi, vəzifənin düzgün qoyuluşunu, planlaşdırmanı, brifinqi və təlimatlandırmanı, nəzarəti, qiymətləndirməni, motivləşdirməni, vaxtın səmərəli idarə edilməsini, həmçinin liderin öz şəxsi nümunəsi ilə kollektivə təsirini nəzərdə tutur.

#### *Təşkil etmə*

Təşkilat – müəyyən bir struktur, nizam, normalar, qaydalar, əməkdaşların işləri və kommunikasiyalarıdır. Bu, şəxsiyyətə xas olan azadlıq ilə hər bir cəmiyyətin əsaslandığı nizam arasındakı ahəngdir. Effektiv idarəetmə kollektivin bütöv orqanizm kimi düzgün təşkilini, hər bir bölmənin öz funksiyalarını yerinə yetirdiyi strukturun yaradılmasını nəzərdə tutur. Piter Druker strukturu təşkilatın məqsədlərinə nail olma vasitəsi kimi müəyyənləşdirmişdir. Təşkilatın strukturu onun yerinə yetirdiyi vəzifədən asılıdır. Təşkilati strukturlar həm daimi, həm də müvəqqəti ola bilər. Daimi strukturlu təşkilatlar, bir qayda olaraq, qruplardan və şöbələrdən ibarətdir ki, onların hər birinin lideri təşkilatın rəhbərinə tabedir. Belə yanaşmanın mənbəyi dini ənənələrdə də görünür.[7]

Təşkilatın fəaliyyəti effektivliyinin qiymətləndirilməsi "üç dairə modelinin" köməyi ilə aşağıdakı suallara cavab verməklə həyata keçirilir: təşkilatın ümumi vəzifəsi nədən ibarətdir? o necə verilir və konkret məqsədlərə necə bölünür? kollektiv neçə bölmədən ibarətdir? onlar ümumi vəzifənin yerinə yetirilməsinə nə kimi töhfə verirlər? Bu bölmələrin öz aralarında qarşılıqlı münasibətləri necədir? fərdin azadlıq imkanları və seçim hüquqları hansı vəziyyətdədir? fərdlərin tələbatları necə ödənilir?

Bu suallara cavab verərək aşağıdakıları müəyyən etmək lazımdır: təşkilatın fəaliyyətinin mahiyyətini, orada maliyyə və vaxt resurslarının düzgün istifadəsini; kommunikasiya proseslərinin və qərarların qəbulunun effektivliyini; təşkilati bölmələrin onların qarşısında qoyulan məqsədlərə uyğunluq dərəcəsini; həmin bölmənin mövcudluğunun onun ümumi işə verdiyi töhfə ilə özünü doğrultması; şəxsiyyətlərarası və qruplararası münasibətlərin mədəniyyət səviyyəsi və onun təşkilatdakı psixoloji mühitə və əməkdaşlığa təsiri; səlahiyyətlərin, həmçinin yaradıcı təşəbbüs və qərarların qəbul edilməsi üçün zəruri olan sərbəstliyin aşağı bölmələrin liderlərinə həvalə edilmə səviyyəsi; kadr siyasətinin, qiymətləndirmə və əməyə görə mükafatlandırma sisteminin, həmçinin həmkarlar təşkilatının fəaliyyətinin effektivliyi; təşkilatın "komanda ruhunun" qorunması baxımından "üç dairənin" qarşılıqlı asılılıq dərəcəsi; kollektivdə ziddiyyətlərin həll edilməsinə və ixtilafların aradan qaldırılmasına yanaşmaların effektivliyi.

---

[7] Con Adairə görə, Musa peyğəmbərin qayınatası İofor ona məsləhət görür ki, idarəçiliyi məsləhətlər və insanların mübahisələrinin həll edilməsi yolu ilə deyil, çoxsəviyyəli iyerarxik idarəetmə strukturunun (minbaşılar və yüzbaşılardan - ilkin təşkilat olan ("dekan") onbaşılara qədər) təşkili yolu ilə həyata keçirsin. İsanın 12 apostolu iki düşərgəyə bölünür və öz aralarında müzakirələr edirdilər.

Təşkilatda iki kommunikasiya sistemi mövcuddur: birincisi – rəhbərin əməkdaşlarla bilavasitə əlaqəsi, ikincisi – qrup liderləri vasitəsi ilə əlaqə. Təşkilatın qrup liderləri vasitəsi ilə idarə edilməsi vəzifənin səmərəli şəkildə yerinə yetirilməsinə, əməkdaşların fərdi tələbatlarının daha yaxşı ödənilməsinə, kollektivdə sosial ədalətin təmin edilməsinə səbəb olan konstruktiv ideyaları daha yaxşı aşkar etməyə və istifadə etməyə imkan verir. Vaxt keçdikcə hər bir təşkilat cəmiyyətdə, mədəniyyətdə və sivilizasiyadakı dialektik dəyişikliklərlə şərtlənən düzgün struktur təkmilləşdirilməsini tələb edir. Yaxşı lider sistemi elə təşkil etməlidir ki, o, müntəzəm, ahəngdar, hissələri onların təyinatına uyğun funksiyaları dəqiq yerinə yetirən bütöv orqanizm kimi işləsin. O həmişə yadda saxlamalıdır ki, idarəetmə sisteminin effektivliyi, hər şeydən əvvəl, təşkilatda işləyən insanların effektivliyi ilə ölçülür. Kabinetlər, avadanlıq, informasiya texnikası və texnologiyalar idarəetmənin köməkçi vasitələridir ki, onun səmərəliliyi insanların intellektual, etik, hüquqi və idarəetmə mədəniyyəti, onların peşəkarlıq təcrübəsi, müasir kulturoloji texnologiyalara yiyələnmə səviyyəsi və qoyulmuş məqsədlər və vəzifələrin keyfiyyətli əldə edilməsi üçün məhsuldar çalışmaq istəyi ilə müəyyən edilir.

Con Adairə görə, idarəçiliyin birinci səviyyəsində təşkilatın hər bir kollektivi sayına görə az, yaxşı təlimləndirilmiş və əlaqələndirilmiş olmalıdır. Əməkdaşların tövsiyə edilən sayı 5-dən 25 nəfərədək olmalıdır. Bir nəfərin rəhbərliyi altında olan işçilərin sayı 20 nəfəri ötməməlidir. Məsələn, 588 nəfər əməkdaşı olan təşkilat cəmi üç idarəetmə səviyyəsinə malik ola bilər. Rəhbərin bilavasitə tabeliyində yüksək səviyyəli 7 lider, onların da hər birinin tabeliyində 7 lider olur. Aşağı səviyyədə hər bir işçi qrupu 12 nəfərdən ibarət olur.

Bütöv orqanizm kimi təşkilat, strukturunun mümkün qədər sadəliyi, bölmələrinin sərbəstliyi və çevikliyi, ümumilikdə kollektivin effektiv fəaliyyətini və qoyulmuş məsələnin həllini təmin edən, zaman və situasiyanın tələblərinə müvafiq olaraq, fəaliyyətin məqsədləri, strukturu və texnologiyalarını sürətli şəkildə dəyişdirə bilən prinsiplər əsasında qurulmalıdır. Hər bir təşkilat səlahiyyətlərin həvalə edilməsini nəzərdə tutur ki, bu, müəyyən məsələlər dairəsinin tabeçilikdə olanların mülahizəsinə və məsuliyyətinə verilməsini, bu zaman isə zərurət olduqda ona rəhbərlik tərəfindən müvafiq kömək göstərilməsini ifadə edir. Öhdəliklərin müxtəlif səviyyəli liderlərə həvalə edilməsi rəhbər tərəfindən etimadın və dəstəyin təzahürüdür. O, strateji məsələlərin həlli üçün rəhbərin vaxtının azad edilməsinə imkan verir və liderlərin peşəkarlıq səviyyəsinin, müstəqilliyinin, məsuliyyətinin və fəaliyyət effektivliyinin artmasına kömək edir. Səlahiyyət vermə sisteminin effektivliyi bir çox cəhətdən təşkilatın kadr siyasətindən, hər birinin müəyyən qabiliyyətləri və fərdi tələbatları olan işçilərin seçilməsi, təlimi və ixtisasının artırılması sistemindən asılıdır. Eyni zamanda lider əhəmiyyətini itirmiş dünyagörüşü, konseptual və davranış stereotiplərinin yenidən nəzərdən keçirilməsini nəzərdə tutuan innovasiya fəaliyyətini həyata keçirməli və təşviq etməlidir. O, mühit şəraitinə uyğun olaraq, düzgün fəaliyyət istiqaməti və tempini,

təşkilat üzvlərinin maraqlarının balansını və mədəniyyətlərinin harmonizasiyasını, hər bir işçinin səmərəli fəaliyyətə maraq göstərməsi üçün şəraitin yaradılmasını təmin edən yeni ideyalar və yaradıcı yanaşmaların, texnoloji və idarəetmə qərarlarının tətbiqinə yardım etməlidir.

İşin koordinasiyası, qoyulmuş məqsədlərə nail olma, kollektivin müntəzəm işləməsi və burada hər bir əməkdaşın fərdi qabiliyyətlərindən səmərəli istifadə edilməsi üçün lider vaxtaşırı müşavirələr keçirməlidir. Bu prosesin müvəffəqiyyəti liderin fikrini müxtəsər ifadə edə bilməsi, düzgün ümumiləşdirmələr etməsi, psixoloji mühiti anlaması, qətiyyətlə, lakin xeyirxahlıqla natiqləri dayandırmaq və səmərəli konsensus əldə etməyə imkan yaratmaq qabiliyyətini ehtiva edərək, onun iclası idarə etmək təcrübəsindən asılıdır. Belə müşavirənin dəyər meyarı aydın və praktikada həyata keçirilən qərardır.

Uğurlu təşkil etmənin ən parlaq nümunələrindən biri sənayedə "keyfiyyət dərnəkləridir". "Keyfiyyət dərnəkləri" 1961-ci ildə Yaponiyada icad edilmişdir. 1980-ci il üçün o artıq 10 milyon nəfərdən çox insanı əhatə edirdi. Bu yenilik nəticəsində artıq keçən əsrin 80-ci illərin sonunda Yaponiya məhsulun keyfiyyəti üzrə dünyada birinci yerə çıxdı. Effektivliyi sayəsində, bu təcrübə ABŞ, Norveç, Tayvan, Cənubi Koreya, Sinqapur, Braziliya, Böyük Britaniya kimi və digər ölkələrdə geniş tətbiq edilməyə başlandı. Bu metodun mahiyyəti ondan ibarətdir ki, bölmə liderlərinin rəhbərliyi altında müəssisə işçilərinin könüllü qrupları tərəfindən hər həftə istehsal problemləri müzakirə edilir, təhlil olunur və yeni metodların praktikaya rəhbərliklə razılaşdırılmış tətbiqi yolu ilə çətinliklər aradan qaldırılır. Bu fəaliyyətin mühüm vasitəsi, liderlik təliminə yardım edən və kollektivin təşkilati və yaradıcı qabiliyyətlərinin inkişafını stimullaşdıran "beyin hücumudur".

***Vəzifə qoyuluşu***

Liderin mühüm başlanğıc funksiyası və idarəetmə metodu vəzifənin ən yaxşı tərzdə yerinə yetirilməsi üçün onun kollektiv qarşısında düzgün və aydın şəkildə qoyuluşudur. Bu, ilk növbədə, vəzifənin mahiyyətini və əhəmiyyətini düzgün görməni, onun həllinin yalnız təşkilatın, cəmiyyətin və ya dövlətin deyil, həm də kollektivin hər bir üzvünün maraqlarına cavab verdiyinə əməkdaşları inandırmaq bacarığını tələb edir. Başqa sözlə, bu, liderin ümumini xüsusiyə çevirmək qabiliyyətidir. Lider kollektiv qarşısında duran vəzifənin yerinə yetirilməsini təmin etməlidir. Bunun üçün kollektivin hər bir üzvü bu vəzifəni, bir fərd və kollektiv üzvü kimi, onun maraqlarına cavab verən şəxsi məsələsi hesab etməlidir. Əgər idarəetmə texnologiyası "üç dairə modelinin" hər üç sahəsini harmonik şəkildə əhatə edərsə, bu mümkündür. İştirakçı vəzifə haqqında yaxşı məlumatlandırılmalı, onun mahiyyətini və xüsusiyyətlərini anlamalı, onu daha yaxşı tərzdə yerinə yetirmək istəyinə malik olmalıdır. Lider özü vəzifəni aydın dərk etməli, onun mahiyyətini kollektivə aydınlaşdırmağı bacarmalı – nə etmək lazımdır? və nə üçün? suallarına cavab verməli, məqsədə necə nail olmağı və uğuru necə qazanmağı

bilməli və izah etməyi bacarmalıdır. Məsələnin həlli üçün konkret məqsədləri[8] müəyyən etmək, ona nail olmanın effektiv metodlarını seçmək lazımdır. Məlum olduğu kimi, Aristotel Makedoniyalı İsgəndərə (dünya fatehini) ümumi istiqaməti təyin etməyi və onu konkret məqsədlərə çevirməyi öyrədirdi. Vəzifəni məqsədlərə çevirərək, sonra bu məqsədə nail olmaq və onları öz aralarında bir-biri ilə uzlaşdırmaq üçün addımları müəyyən etmək lazımdır. Başqa sözlə, konkret məqsədlər vəzifə çərçivəsində ardıcıl düzülməli, məntiqi cəhətdən bir-biri ilə əlaqələndirilməli və onlara nail olma üsullarına uyğun sistemləşdirilməlidir. Məşhur bir ifadəni xatırlayaq: "fili ancaq tikələrlə yemək mümkündür". Eyni zamanda lider komandaya bu və ya digər işlərin zəruriliyi səbəbini başa salmalıdır. Beləliklə, hər bir vəzifə konkret məqsədlərə, hər bir məqsəd isə ardıcıl empirik addımlara ayrılmalıdır. Məqsədə nail olma texnologiyası fəaliyyəti planlaşdırmaq, öhdəlikləri bölüşdürmək və vaxt təyin etmək imkanını verir. Bu zaman lider beş suala cavab verməlidir: "nə", "necə", "nə vaxt", "niyə", "kim". Lider, həmçinin təşkilatın missiyasını elə ifadə etməlidir ki, kollektiv onu qürur duya biləcəyi baza dəyərləri ilə eyniləşdirə bilsin. Kollektiv əməkdaşlarının bilikləri və qabiliyyətlərinin inkişafı keyfiyyətli məhsul yaratmaq yolu ilə cəmiyyətə xidmət ideyası ilə bağlı həyata keçirilməlidir. Beləliklə, vəzifəni tələbatlar və dəyərlər kontekstində həll edərək, ümumi məqsəd, kollektiv və fərdin dəyərləri arasında ahəng əldə etmək mümkün olur.

Düzgün qoyulmuş vəzifənin həlli effektivliyi dörd əsas amildən asılıdır: məsələnin icra texnologiyasından, əməkdaşların konkret funksiyaları yerinə yetirmə qabiliyyətindən, hər bir fərdin "mədəni insan formulu" səviyyəsi ilə şərtlənən keyfiyyətlərindən və onun yaxşı işləmək istəyindən. "Üç dairə" modelinin fəaliyyət qanunauyğunluqlarına müvafiq olaraq o, kollektivdəki əxlaqi mühitdən və hər bir əməkdaşın fərdi tələbatlarının təmin edilməsindən birbaşa asılıdır. Vəzifənin yerinə yetirilmə effektivliyinin yekun göstəricisi əldə edilmiş uğurdur ki, onun qiymətləndirmə meyarı bilavasitə yüksək istehsal nəticəsi, daha geniş formatda isə – təşkilatın rifahı və imicinin yüksəlişidir.

***Planlaşdırma***

Planlaşdırma liderlik mədəniyyəti və müəssisənin idarə edilməsi effektivliyinin vacib şərtidir. O, fəaliyyət texnologiyasının və məqsədə nail olmaq üçün konkret metodların müəyyən edilməsi, əldə edilməsi mümkün olan nəticələri "görmə imkanını" nəzərdə tutur. Planlaşdırma aşağıdakı tələblərə cavab verməlidir: zəruri resurslar və nəticələr baxımından qiymətləndirilmiş mümkün hərəkət variantlarını ehtiva etməli; məqsədə çatma proqramını qabaqcadan nəzərə almalı; gözlənilməz vəziyyətlərə qarşı ehtiyatını götürməli; yeni yaradıcı qərarların axtarışını həyata keçirməli; maksimal dərəcədə sadə və anlaşıqlı olmalı; kollektiv üzvlərinin təlim keçməsini nəzərdə tutmalıdır.

[8] Con Adair məqsədləri vəzifənin tərkib hissələri kimi nəzərdən keçirir.

Planlaşdırmaya qoyulan zəruri tələblərdən biri liderin gələcəyi görmək bacarığı, "ağacların arxasında meşəni görmək" və ya "təpənin görünməyən, arxa tərəfini görmək" qabiliyyətidir. Lider çevikliyə malik olmalı və gözlənilməz vəziyyətlərin yaranması ehtimalını və onları idarə etmək qabiliyyətini nəzərdə tutan maksimum sadə və aydın fəaliyyət planı hazırlamağı bacarmalıdır. Yaxşı lider planlaşdırma prosesində kollektivə əmr etməyə deyil, onu inandırmağa çalışır. Bu halda natiqlik məharəti və qüsursuz məntiq mühüm rol oynayır.

Kollektivlə konsultasiya prosesində həyata keçirilən, təşkilatın zəruri prinsipləri və fəaliyyət növlərindən biri olan planlaşdırma yeni ideyaların doğulmasına imkan yaradır. Liderin əməkdaşlara, onların əhəmiyyətini və öz bilik və bacarıqlarına inamını vurğulayan lazımi suallar vermək məharəti yalnız əməyin stimullaşdırılmasının dəyərli metodu deyil, həm də onları təşkilatın fəaliyyətinin planlaşdırılması prosesinə cəlbetmənin effektiv vasitəsidir. "Beyin hücumu" metodikası yeni idarəetmə texnologiyalarının əsasını təşkil edən yeni ideyaların doğulmasına müəyyən dərəcədə imkan yaradır.

Effektiv planlaşdırma üçün yalnız Aristotelin ənənəvi ağ-qara məntiqinin deyil, həm də alternativ variantların seçiminə və yeni yaradıcılıq qərarlarının axtarışına imkan verən Lütfi Zadənin innovativ qeyri-səlis məntiq nəzəriyyəsinin və P.Çeklandın "yumşaq təfəkkür" sisteminin istifadəsi aktual əhəmiyyətə malikdir.

***Brifinq və təlimatlandırma***

Vəzifənin qoyuluşu və planlaşdırmanın ardınca gələn brifinq və təlimatlandırma – istehsalatın idarə edilməsinin effektivliyinin vacib şərtidir. Brifinq məqsədlərin vacibliyinin aydınlaşdırılmasını və onların yerinə yetirilməsinə yönəldilən planın izah edilməsini nəzərdə tutur. Bu zaman kollektivin hər bir üzvü öz konkret rolunu və tapşırığın yerinə yetirilməsi üçün ondan gözlənilən töhfəni başa düşməlidir. Brifinqin əsas məqsədi – tapşırığın qruplar və ayrı-ayrı icraçılar arasında bölüşdürülməsi, həmçinin resursların paylanması və istehsalat normalarının müəyyən edilməsidir. Təlimatlandırma nəyin, necə və nə üçün baş verməsi haqqında insanların daim məlumatlandırılmasını nəzərdə tutur.

Brifinqin və təlimatlandırmanın səmərəliliyi əsas etibarilə: çıxışın, əyani vəsaitlərin və müvafiq məkanın mükəmməl şəkildə hazırlanmasından; vəzifənin, dəqiqləşdirici suallara cavabın aydın izahından; mürəkkəb problemləri sadələşdirmə və sadə analogiyalar vasitəsilə asan formada təqdim etmək bacarığından; müzakirə predmetini, ruh yüksəkliyi göstərərək və yumordan istifadə edərək, obrazlı və çox aydın şəkildə təsvir etmək qabiliyyətindən; özünü sərbəst saxlamaq və özünə nəzarət etmək, əsəbi hərəkətlərdən çəkinmək bacarığından asılıdır.

Brifinq və təlimatlandırma prosesində liderin zəruri keyfiyyətlərindən biri natiqlik istedadı və onunla bağlı olan – insanları arzu edilən əməllərə ruhlandırmaqla onları inandırmaq məharətidir. İnandırmaq bacarığı uğurlu brifinqdə mühüm rol oynayır, məqsədin və ona nail olma zəruriliyi ilə şərtlənən səbəblərin vacibliyini anlamağa kömək edir. Vəzifənin kollektiv xarakterinin aydınlaşdırılması

komanda ruhunun formalaşdırılmasına imkan yaradır, ümumi müvəffəqiyyətdə hər bir fərdin əhəmiyyətinin qeyd edilməsi isə – işi şəxsiyyət səviyyəsində stimullaşdırır. Kollektivin əmək şövqünü təmin etmək üçün lider öz intellekti, qətiyyəti, məntiqi və səmimiyyəti ilə insanların qəlbini ələ almalıdır. O, qarşılıqlı anlaşma və qarşılıqlı etimada nail olmalı, müvəffəqiyyətə ümid və inam təlqin etməlidir. Bunun vacib şərti rəhbərin tabeliyində olanlarla birbaşa ünsiyyətidir. Liderin dərin etiqadı ona bu inamın başqalarına ötürülməsinə imkan verən müəyyən xarizmatik güc verir. Lider vaxtında təşəkkür etməyi və layiq olanları tərifləməyi unutmamalıdır. Adi hallarda insanları təkliflər və ya suallar, ekstremal hallarda – əmrlər və komandalar vasitəsilə təlimatlandırmaq daha yaxşıdır. Sərəncamlar əmr formasında deyil, nəzakətli xahiş tərzində edilirsə, daha həvəslə yerinə yetirilir, buna görə yaxşı liderlər tabeliyində olanlara əmr etmir, onlardan xahiş edirlər.

İnsanların müvəffəqiyyətlə çalışmaları üçün biliklər, bacarıqlar, mütəşəkkillik, mənəviyyatla yanaşı, hər şeyi daha yaxşı tərzdə yerinə yetirmək, işə yalnız ağlını və fiziki qabiliyyətlərini deyil, həm də qəlbini qoymaq istəyi də olmalıdır. Bu istək əsas etibarilə kollektivdəki mühitdən asılıdır. Lider, səriştəlilik və ədalət göstərərək, həm bütövlükdə kollektivin, həm də hər bir ayrılıqda götürülmüş işçinin motivasiyası üçün əlverişli atmosfer formalaşdırmalıdır. Bunun üçün öz səhvlərini etiraf etmək, kollektivin nailiyyətlərinə görə qürur hissini ifadə etmək, nəzakətli davranmaq, hər bir kəsin fikrini dinləmək və təşəkkür etmək, hamının adından danışmaq və “mən” sözünü daha az işlətmək bacarığı mühüm əhəmiyyətə malikdir.

***Nəzarət***

Nəzarət idarəetmənin mühüm funksiyalarından biridir. Geniş mənada bu, işin başlanmasından sonra onun yoxlanılması və idarə edilməsidir. Nəzarət, hər şeydən əvvəl, standartlarla müqayisə və kollektivin ahəngdar fəaliyyətinin təmin edilməsi məqsədilə iş prosesinin idarə edilməsidir. Nəzarət kollektivin seçilmiş yola və qoyulmuş sərhədlərə əməl etməsi məqsədilə istiqaməti, tənzimləməni və çəkindirməni nəzərdə tutur. Nəzarətin səmərəlilik meyarı bununla ölçülür.

Lider üçün prinsiplər və meyarlar çox əhəmiyyətlidir. O, qorxu hesabına deyil, kollektiv tərəfindən məhəbbət və hörmət hesabına idarə etməlidir ki, onları da qazanmaq lazımdır. Hər şey qarşılıqlı əsasda baş verir. Lider özünü təmkinli aparmalı, əməkdaşlara təzyiq göstərməməli, onlara fəaliyyət azadlığı verməli və hər kəsin öz məsuliyyətini dərk etməsinə imkan verməlidir. Nəzarət zamanı o, prosesi müşahidə etməli və yaranan çətinliklərin aradan qaldırılmasında əməkdaşlara yardım etməlidir. Lider prosesə müdaxilə edərkən, mümkün qədər az qüvvə sərf etməlidir: daha yaxşı olar ki, mövqeyini mülayim sözlə və ya baxışla ifadə etsin. O, ifrat müdaxilə və idarəçilik nöqsanları arasında qızıl orta həddi gözləməlidir. Lakin zəruri halda konkret situasiyanın tələbindən asılı olaraq, idarəetməni müəyyən qədər sərtləşdirərək qətiyyət və prinsipiallıq göstərmək lazımdır.

Yaxşı lider situasiyanı idarə etməyi və ona nəzarət etməyi bacarmalıdır, əks halda situasiya onu idarə etməyə başlayacaq. Bu vəziyyət liderin özünüidarə və özünə nəzarətinin labüdlüyünü, onun xarakterinin – səbr, xoşxasiyyətlilik, nəzakət və qərəzsizlik əlaməti kimi qiymətləndirmək qəbul edilmiş müvazinətliyini, təmkinliliyini, provokasiyaya uymamaq bacarığını şərtləndirir. Ən vacib şərtlərdən biri öz qorxusunu dəf etmək və başqalarına layiqli mərdlik nümunəsi göstərməkdir. Lider qorxunun sarsıdıcı təsirinə üstün gəlməyi, çətin situasiyada təmkinini saxlamağı bacarmalı, sakit qətiyyət, əsl insanlıq, ləyaqət və mərhəmət göstərməlidir. Liderin əsas vəzifəsi iş prosesini koordinasiya etmək, onun müxtəlif komponentlərini bütöv bir tamda birləşdirmək, ayrı-ayrı məqsədləri və hərəkətləri bir-biri ilə uzlaşdırmaqdır.

Kollektivin fəaliyyətinə nəzarəti təmin etmək üçün lider müəyyən insanları cəlb etməli və onlara fəaliyyət sərbəstliyi verməlidir. Lakin cəsarət və özünəinam göstərərək, idarəçiliyi öz əlində möhkəm saxlamalıdır. Lider nə baş verdiyini izləməli və hər bir əməkdaşın enerjisini lazımi məcraya yönəltməlidir. O, maksimal faydalı iş əmsalını təmin etməli və kollektivin mədəniyyət sinergetikasını idarə etməlidir. Nəzarətin vəzifələrindən biri kollektiv üzvlərində şüurlu özünənəzarətin formalaşdırılmasına yardımdır. Bunun üçün ona nail olmaq lazımdır ki, kollektivin hər bir üzvü ümumi vəzifənin effektiv yerinə yetirilməsi naminə plan tapşırıqlarını başa düşsün – onun şəxsi məsuliyyəti hədlərində nəyi, nə zaman və necə etmək lazım olduğunu özündə təsəvvür etsin. Lider həmçinin kollektivdə kimin nəyə cavabdeh olduğunu bilməlidir.

Kollektivlə müqayisədə, yüksək həlqə rəhbərlərinin iştirak etdiyi nəzarət sisteminin vacib olduğu bir neçə kollektivlərdən ibarət təşkilatlarda fəaliyyətə nəzarət qat-qat mürəkkəbdir. Burada əsas məsələ – səmərəli idarəetmə üçün obyektiv informasiyanın təmin edilməsidir. İri sənaye şirkətlərində strateji maliyyə nəzarəti zamanı nəzarət funksiyaları şirkətin idarəçiliyi tərəfindən bilavasitə istehsal bölmələrinə həvalə edilir. Mütərəqqi texnologiyaya, keyfiyyətli məhsula və güclü kollektivə malik ən müvəffəqiyyətli şirkət, əgər onlarda effektiv nəzarət, hər şeydən əvvəl, maliyyə nəzarəti təşkil edilməzsə, düzgün qərar qəbul edilməsi üçün təşkilatın və personalın fəaliyyəti haqqında vaxtında və obyektiv informasiya sistemi yaradılmazsa, müflis ola bilər.

***Qiymətləndirmə***

Kollektivin və ayrı-ayrı əməkdaşların fəaliyyət nəticələrinin qiymətləndirilməsi idarəetmə texnologiyalarının başlıca vasitələrindən biridir. Məhz nəticələrin qiymətləndirilməsi liderin qərarlarının əsasını təşkil edir. Con Adair qiymətləndirməni – nəticələri qiymətləndirməyə, kollektivin işini, əməkdaşların attestasiyası və təlimini qiymətləndirməyə və insanın şəxsi keyfiyyətlərini qiymətləndirməyə ayıraraq, onu nəyinsə dəyərini müəyyən və ya qeyd etmək qabiliyyəti kimi nəzərdən keçirir. Nəticələrin qiymətləndirilməsi – seçilmiş fəaliyyət proqramının və ya onun həyata keçirilmə taktikasının nəyə gətirib çıxaracağını

qiymətləndirmək qabiliyyətidir. Nəticələrin qiymətləndirilməsi seçilmiş fəaliyyət proqramının və ya onun həyata keçirilmə taktikasının nəyə gətirib çıxaracağını qiymətləndirmək bacarığıdır. O, mahiyyətcə, liderin öz strategiyasının və kollektivin davranışının nəticələrini qabaqcadan görmək, proqnozlaşdırmaq qabiliyyətini təsdiqləyir. Belə qiymətləndirmənin obyektivlik dərəcəsi liderin elmi biliklər səviyyəsi və idarəetməyə elmi yanaşması ilə şərtlənir. Bu, problemin hərtərəfli dəqiq təhlilini və hamının fikrinin öyrənilməsini nəzərdə tutur. Nəticələri qabaqcadan görmək səbəb-nəticə əlaqələrinin mükəmməl təhlilini tələb edir. Prosesin tendensiyalarının aşkar edilməsi hadisələrin mümkün inkişafını proqnozlaşdırmağa imkan yaradır.

Kollektivin fəaliyyətinin qiymətləndirilməsi layihənin və ya proqramın nəticələrinin yerinə yetirilmə nəticələrinin səmərəlilik və kollektivin ümumi mənafeyi baxımından müzakirəsi yolu ilə aparılır. Burada meyar nəticələrin obyektiv qiymətləndirilməsidir. Bu zaman əvvəlcə pozitiv amillər, sonra isə təkmilləşdirilməsi tələb olunan aspektlər təhlil edilir. Zəruri dəyişikliklər edilməsi məqsədilə qərarlar dərhal, yaxud informasiyanın düşünülmüş təhlilindən sonra bir-iki günə qəbul edilə bilər. Müzakirə zamanı ümumi müvəffəqiyyətə daha uğurlu fərdi töhfədən nümunələr gətirilə, həmçinin kollektivin bir-birindən ayrılmasına səbəb olan problemlər qeyd oluna bilər.

Fəaliyyətin qiymətləndirilmə formalarından biri attestasiya – qoyulmuş məqsədlərə nail olma baxımından tabeçilikdə olanın işinin qiymətləndirilməsi məqsədi ilə onunla aparılan söhbətdir. Attestasiya prosesində: işin yerinə yetirilmə effektivliyi, ən yaxın məqsədlər, prioritetlər, standartlar və strategiyalar, qarşıda duran işdən gözləntilər, vərdişlər, biliklər və davranışın təkmilləşdirilməsinə görə məramlar aydınlaşdırılır, zəruri tövsiyələr edilir. Attestasiya işin səmərəliliyinin yüksəldilməsinə istiqamətlənən personalın təlimi və yenidən hazırlanması sahəsində vəzifələri müəyyən etməyə imkan verir. Rəhbərin intellekti, peşəkarlıq təcrübəsi və xeyirxahlıq səviyyəsi ilə şərtlənən nüfuzu mühüm əhəmiyyətə malikdir.

Qiymətləndirmənin zəruri komponenti insanları ayırd etmək, insanın şəxsi keyfiyyətlərini qiymətləndirmək bacarığıdır. O, insanın bu və ya digər situasiyada özünü necə aparacağını qabaqcadan bilməyə imkan verir. Liderdə bu qabiliyyətin inkişaf etdirilməsinə müşahidə və təcrübə kömək edir. Liderlərə kollektivdə istəklilərinin olması tövsiyə edilmir, belə ki, bu praktika kollektivin yekdilliyinə və onun liderə olan inamına neqativ təsir göstərir. Nəhayət, lider, müvəffəqiyyətlərini izləməyə və özünü təkmilləşdirmə məqsədilə şəxsi səhvlərini görməyə imkan verən obyektiv özünü qiymətləndirməyə qadir olmalıdır.

***Motivləşdirmə***

Liderin ən mühüm funksiyası motivləşdirmə – insanlarda səmərəli işə həvəs oyatmaq və onları ruhlandırmaq qabiliyyətidir. Düzgün motivləşdirmənin əsasını, dərk edilmiş ehtiyaclar kimi, fərdi və kollektiv tələbatların, dəyərlərin, istək-

lərin və xarakterin düzgün başa düşülməsi təşkil edir. Əgər kollektiv əməkdaşlara sosial tələbatlarını ödəmək imkanı verirsə, onda ümumi vəzifənin həllində şəxsiyyətin iştirakı uğur əldə etmək, öz statusunu təsdiq etmək və nüfuz qazanmaq imkanı verir. Bu motivlərin başa düşülməsi və onları "üç dairə" konsepsiyası prizmasından görmə bacarığı liderin idarəetmə mədəniyyətinin mühüm şərtidir. Dəyərlər problemini "üç dairə" prizmasından nəzərdən keçirərək, aşağıda göstərilən, bir-biri ilə qarşılıqlı əlaqəli suallara düzgün cavab vermək lazımdır: 1. Vəzifə. Nə üçün bu problemlə məşğul olmağa dəyər? Onun dəyəri nədədir? Bu dəyər nə ilə ölçülür? 2. Kollektiv. Bu kollektivi birləşdirən etika da daxil olmaqla, qarşılıqlı qəbul edilən dəyərlər sistemi hansıdır? 3. Fərd. Mən kollektivin dəyərləri ilə razıyammı? Qoyulmuş vəzifənin əhəmiyyətinə inanırammı? Beləliklə, vəzifə, kollektiv və fərd sahələri həm tələbatlar, həm də dəyərlər münasibətində öz aralarında əlaqəlidirlər. Buna görə də liderin idarəçilik mədəniyyəti, həm peşəkarlıq mövqeyindən, həm də mənəvi-etik mövqedən qiymətləndirilir. Lider təşkilatın başlıca məqsədini elə çatdırmalıdır ki, o, cəmiyyətə xidmət missiyasını ifadə etməklə, kollektiv üçün qürur predmeti olsun. Başqa cür desək, təşkilatın müvəffəqiyyəti, bir çox cəhətdən liderin tələbatlar və dəyərlər arasındakı mümkün ziddiyyətləri aradan qaldırmaq qabiliyyətindən asılı olacaq.

Abraham Maslou, Duqlas Mak-Qreqor, Frederik Hersberq və başqalarının nəzəriyyələri lider tərəfindən insanın tələbatlarının başa düşülməsi və insanların düzgün motivasiyası üçün böyük əhəmiyyətə malikdir. Artıq bizə məlum olduğu kimi, amerikalı alim-psixoanalitik Abraham Maslou ilk dəfə mədəniyyətin təkmilləşdirilmə ölçüsü qismində onun insanın tələbatlarının təmin edilməsi və şəxsiyyətin potensial bacarıqlarının sosial reallaşdırılması üçün əlverişli şərait yaratmaq qabiliyyətini müəyyən etmişdir. Kollektivin motivasiyasını daha yaxşı anlamağa kömək edən A.Maslounun baza konsepsiyası Con Adair tərəfindən aşağıdakı kimi geniş izahda təqdim edilmişdir: fizioloji tələbatlar (aclıq, susuzluq, yuxu, sağlamlıq, cinsi məmnunluq və s.); təhlükəsizlik tələbatları (əminlik, təhlükədən müdafiə, sabitlik və intizam, ruhi rahatlıq və s); sosial tələbatlar (qrupa aid olma, təqdir edilmə, ictimai həyat, məhəbbət və dostluq, ailə rifahı və xoşbəxtlik və s.); hörmət tələbatı (özünə hörmət, ictimai tanınma, müvəffəqiyyət, status və s.); özünü aktuallaşdırma tələbatı (təkmilləşmə, nailiyyətlər, şəxsiyyətin inkişafı); idrak və başqalarını maarifləndirmə tələbatı; dünyaya estetik münasibət və mühiti dəyişdirmək tələbatı; inam, dərk etmə və Yaradana məhəbbət tələbatı.

Makqreqora görə, liderin əməkdaşın bu və ya digər pozitiv keyfiyyətləri haqqında təsəvvürləri, ona etimad göstərməsi insanı bu etimadı öz davranışı ilə təsdiqləməyə, yəni daha yaxşı, daha nəcib olmağa, ona edilən ümidləri doğrultmağa həvəsləndirir. Pozitiv istək və iştirak insanı yaxşılığa doğru dəyişir, onun iş səmərəliliyinin yüksəlməsinə imkan yaradır. F.Hersberq insanın əməyə həvəsləndirilməsinin aşağıdakı amillərini ayırır: müvəffəqiyyət, tanınma (qəbul edilmə), işə maraq, məsuliyyət və qulluqda irəli çəkilmə. Müvəffəqiyyət hissi ümumi vəzifənin uğurlu həllinə insanın şəxsi töhfə duyğusu ilə bağlıdır, tanınma – onun

töhfəsinin açıq şəkildə müsbət qiymətləndirilməsi və xidmətlərinə görə mükafatı ilə şərtləndirilir. İşə məhəbbət onun cəlbediciliyi və perspektivliliyi ilə şərtlənir. Məsuliyyət müəyyən fəaliyyət azadlığı ilə, lider tərəfindən şəxsiyyətə etimadla, ona qərarların qəbul edilməsi üçün səlahiyyətlərin həvalə edilməsi ilə, həmçinin ümumi işə görə sosial məsuliyyətlə bağlıdır. Qulluqda irəli çəkilmə statusun yüksəlməsi, əməkdaşların maddi və mənəvi həvəsləndirilməsi ilə müəyyən edilir. Lider hər bir əməkdaşın şəxsiyyət kimi dəyərinin və təşkilatın ümumi uğuruna onun verdiyi töhfənin etiraf edilməsi vasitəsilə insanların motivasiyası üçün istənilən imkandan istifadə etməlidir. Eyni zamanda lider təşkilatın uğurunu hamı ilə bölüşməli, uğursuzluqlara görə təqsiri isə öz üzərinə götürməlidir. Belə yanaşma komanda ruhunu və kollektivin daha yüksək nailiyyətlər əldə etməyə can atmasını və özünün yaxşı işləməsinə görə hər bir kəsin qürur hissini möhkəmləndirir. Feldmarşal Lord Slim tanınmanın əhəmiyyətini qeyd edərək, ordunu saat mexanizmi ilə: komandanı – bütün mexanizmi hərəkətə gətirən əsas yayla, generalları – işlədici çarxı,  böyük dişli çarxları (zabitlər) və kiçik dişli çarxları (əsgərlər) hərəkətə gətirən ikinci dərəcəli yaylarla müqayisə edir. Bu zaman o izah edir ki, əgər kiçik dişli çarxlardan birini dayandırsaq, saat işləməyəcək. Buna görə də hər bir kəsə diqqət ayırmaq və baş verən hadisələr və ümumi işin nəticələri haqqında onu vaxtında məlumatlandırmaq lazımdır.

İnsanlara diqqət və inam onların işdən razı qalmasına, hər bir işçinin işə marağına və tapşırılan işə görə məsuliyyət hissinə səbəb olur.[9] Etimadın və kollektivdə məsuliyyət mədəniyyətinin tərbiyəsinin əsas ifadə vasitəsi lider tərəfindən öz səlahiyyətlərinin bir hissəsinin başqasına ötürülməsidir. Bu zaman həmin şəxs onun adından fəaliyyət göstərəcəkdir. Səlahiyyətlərin belə ötürülməsi həvalə etmə adlanır. Həvalə etmə – həvalə edilən funksiyaların müvafiq monitorinqi və lazımi köməyin göstərilməsi şərti ilə, təşkilatın rəhbəri tərəfindən müəyyən qərarlar qəbul etmək vəzifəsinin və mümkün qədər daha aşağı səviyyəli idarəetmədə bir sıra idarəçilik funksiyalarının ötürülməsini nəzərdə tutur. Bu, təşkilatı bütöv sistem kimi daha səmərəli idarə etmək imkanı verir.

İşin səmərəliliyini yüksəldən real amillərdən biri əməkdaşların vəzifə üzrə yüksəlişinə yardım etmək vasitəsilə onların motivasiyasıdır. Belə motivasiyanın şərti fərdin qabiliyyətləri və onun işinin nəticələridir. F. Hersberqin "gigiyena amilləri" adlandırdığı əsas motivasiya amillərinə: kompaniyanın siyasəti və inzibatçılıq metodlarını; idarəetməni; şəxsiyyətlərarası münasibətləri; məvacibi; statusu; məşğulluq zəmanətini; şəxsi həyatı; əmək şəraitini aid edirlər. İnzibatçılıq siyasəti və metodları açıqlığı və şəffaflığı, bürokratlaşdırmanın optimal səviyyəsini, təşkil etmə və kommunikasiyanın səmərəliliyini təmin etməlidir. İdarəetmə rəhbərin sadəliyi, səriştəliliyi və şəxsi keyfiyyətləri ilə xarakterizə edilməlidir. Şəxsiyyətlərarası münasibətlər müdiriyyət və tabelikdə olanlar arasında, əməkdaşlar

[9] Con Adair belə bir ifadə işlədir: "Əgər siz uşaqlara inanırsınızsa, onlar sizi pis vəziyyətdə qoyacaqlar. Əgər siz onlara inanmırsınızsa, onlar sizi yanıldacaq".

arasında münasibətlərin yüksək mədəniyyəti ilə fərqlənməli, habelə kollektivdə pozitiv ictimai mühitə imkan yaratmalıdır. Əmək haqqı, təqaüd, xidməti avtomobil və digər əlavə güzəştlər də daxil olmaqla, əməyə görə kompleks mükafatlandırmanı təqdim edən məvacib kollektivin hər bir üzvünü vicdanlı, yüksək məhsuldarlıqlı əməyə stimullaşdırmalıdır. Kollektivin digər üzvlərinə münasibətdə əməkdaşın mövqeyini müəyyən edən status, onun məhsuldar iş üçün mənəvi stimulu olmalıdır. Statusun əsas göstəriciləri – vəzifə, kabinetin ölçüsü və şəraiti, avtomobilin markası və onun dayandığı yerdir. Məşğulluq zəmanəti işçinin öz işini itirməyəcəyinə əminlikdə ifadə edilməlidir. İşin əməkdaşların ailə həyatına təsirinə də diqqət yetirilməli, mümkün köçmələr, qulluqdan kənar iş və s. nəzərə alınmalıdır. Nəhayət, işçilərin əmək şəraitinin – əmək vasitələri ilə təminat səviyyəsini və insanın çalışdığı mənəvi-psixoloji mühitin zəruri əhəmiyyətini nəzərə almaq lazımdır.

***Vaxtın səmərəli idarə edilməsi***

Liderin yüksək idarəetmə mədəniyyətinin başlıca resurslarından biri vaxtın idarə edilməsidir. Vaxtın dəyəri onunla şərtlənmişdir ki, bu strateji həyat və fəaliyyət resursu əvəzolunmaz və geriyə dönməzdir. Kimsə tərəfindən müdrikcəsinə deyilmişdir: “Vaxtı əbəs yerə sərf etmə: o, həyatın hazırlandığı materialdır”. İnsanın öz vaxtını səmərəli bölüşdürmə bacarığı – onun liderlik keyfiyyətlərinin həqiqi əlamətidir. Vaxtın ağılla idarə edilməsi əməyin təşkilati-texniki məsələləri və intellektual fəaliyyətlə məşğul olmaq, həmçinin şəxsi həyata, ailəyə, öz biliyini artırmağa, mədəni istirahətə, dostlarla ünsiyyətə vaxt ayırmaq üçün gün ərzində ondan səmərəli istifadə etmək imkanı verir.

Vaxtın səmərəli idarə edilməsi: real imkanları və resursları, müddətləri, prioritetləri və gözlənilən nəticələri hesaba almaqla, həyat fəaliyyətinin müəyyən müddətə planlaşdırılmasını; əhəmiyyətlilik dərəcəsi və fəaliyyət xarakterindən asılı olaraq, işləri vaxt daxilində bölmək bacarığını; məcburən yolda və ya formal iclaslarda olma vaxtından istifadəni; təxirə salınması tələb edilməyən məsələlərin öz vaxtında həll edilməsini; işin maksimal həcminin həvalə edilməsi hesabına yaradıcı vaxtı inzibati işlərlə doldurmamaq bacarığını; xidməti müşavirələrin maksimal konkretliyi və qısa müddətliliyini; telefon və elektron əlaqələrdən səmərəli istifadəni nəzərdə tutur.

Vaxtın məhsuldar idarə edilməsində diskresiya vaxtının xüsusi yeri vardır. “Diskresiya vaxtı” – daha vacib strateji problemlərin həllinə sərf edilə biləcək vaxtdır. Lider məhsuldar olmayan vaxtı maksimal dərəcədə azaltmağa və diskresiya vaxtını artırmağa yaxud kulturologiya dili ilə desək, idarəetmə mədəniyyətinin entropiyasını, onun faydalı iş əmsalının artırılmasına imkan verərək, maksimal dərəcədə azaldılmasına can atmalıdır. Diskresiya vaxtının defisiti təşkilatın böyüklüyü ilə düz mütənasibdir. Buna görə də təşkilatın səmərəli idarəçiliyi ən qiymətli resursun – vaxtın idarə edilməsindən başlamalıdır.

## ÖZÜNÜİDARƏ MƏDƏNİYYƏTİ

### *Mədəniyyət insan həyatının qorunması və yaxşılaşdırılması haqqında qayğı kimi*

Mədəniyyət, hər şeydən əvvəl, insan həyatının yaxşılaşdırılması və qorunması haqqında qayğının təcəssüm olunduğu tarixi prosesdir. Həyati zərurətlər insanın enerjisini yaradır. Fasiləsiz idrak prosesi ilə bağlı olan yaradıcı fəaliyyət insanın ömrünü uzadır, onu mənalı edir. Lesli Uayt mədəniyyəti enerji anlayışı baxımından nəzərdən keçirir, çünki həyat bioloji enerjinin fasiləsiz hərəkət prosesidir. Bodo Şefer, Con Templton və digər müəlliflər həyatı kainatda qanunauyğun enerji mübadiləsini əks etdirən hadisə kimi nəzərdən keçirirlər. İnsanlar arasındakı münasibətlərin əsasını da daimi mübadilə təşkil edir. İnsanlar hər zaman nə isə verirlər və nə isə alırlar. Belə mübadilənin məhsuldarlığı daha çox insanın səxavəti və mərhəmətindən, xeyirxahlığı və yaxşılığından, digər insanlara xidmət etmək, onlara müəyyən şeylər vermək, hədiyyələr bağışlamaq qabiliyyətindən, dəyərləri, bilikləri, hisslərindən, qayğı, diqqət və empatiya göstərməsindən, insanlara onların problemlərinin həllində və ehtiyac duyduqları nəyi isə əldə etməkdə kömək göstərməsindən asılıdır. Bu "enerji" mövzusu hətta bizim arzularımızın belə müəyyən enerji ehtiyatına malik olduğunu hesab edən Bodo Şefer tərəfindən ətraflı tədqiq edilmişdir. O deyirdi ki, ətraf aləm enerjidən ibarətdir, bu səbəbdən insanın müsbət enerjisi dünyamızı yaxşılığa doğru dəyişə bilər. L. Uaytın öz enerji konsepsiyasında mədəni inkişaf proseslərinin izahı üçün istifadə etdiyi təkamül prinsipləri praktiki cəhətdən düzgün tətbiq olunduqda insanın həyat qabiliyyəti potensialını yüksəltməyə kömək edir. Bu, özünüidarə mədəniyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Öz gücünə inanmaq və mütərəqqi dəyişikliklərə hazır olmaq, mühüm nəticələr qazanmaq üçün risk etmək və naməlum şeylər qarşısında yaranan qorxu hissini dəf etmək lazımdır. Bunun üçün düzgün, düşünülmüş qərar qəbul etmək və onu həyata keçirmək lazımdır. Düzgün qərar yalnız məntiqə, elmi biliklərə və praktik təcrübəyə əsaslandığı zaman yeni imkanlardır. Qətiyyətsizlik ən böyük təşəbbüsləri də məhv edir. İnsan öz üzərində işləməyi və qələbəyə köklənməyi bacarmalıdır. Daimi özünü təkmilləşdirmədə şəxsiyyətin inkişafı, onun həyat keyfiyyətinin yüksəldilməsi üçün böyük imkanlar vardır. İdrak və zehni əmək – həyatı stimullaşdıran və qocalma prosesini ləngidən sonsuz prosesdir.

Mədəni inkişaf prosesi təkcə insanın maddi və ruhi tələbatlarının ödənilməsini deyil, həm də onun yaşadığı mühitin formalaşdırılmasını, insanın sağlamlığı və xoşbəxtliyi üçün aktual əhəmiyyət daşıyan digər insanlarla onun münasibətlərinin ekologiyasını nəzərdə tutur. Beləliklə, sağlamlıq və xoşbəxtlik ən vacib motiv, insanın dərk edilmiş və dərk edilməmiş tələbatıdır ki, onların təmin edilməsi şəxsiyyətin düzgün özünüidarəsini tələb edir. Təbii-coğrafi şərait, anadangəlmə keyfiyyətlər, sosial mühit, tarixi vəziyyət və mədəni mübadilə kimi obyektiv-tarixi amillərlə bağlı olan insanın fərdi mədəniyyətinin inkişafı daha çox

onun tərbiyəsi, təhsili, tələbatları, intellekti, ruhi dəyərlər sistemi, idealları, məqsədləri, xarakteri, qabiliyyəti, fəaliyyəti və imkanları ilə şərtlənir. Onların arasında, ilk növbədə təlim və tərbiyəni ayırmaq vacibdir. Sokrat biliyi yaxşılıq, tərbiyəni, "özünü və öz yaxınlarının təhsilini" isə hər bir insanın müqəddəs borclarından biri hesab edirdi.

### *İnsan dəyərinin mədəni ölçüsü*

Mənim dərin inamıma görə, insan üçün onun yüksək mədəniyyətli insan kimi qəbul edilməsindən yuxarı qiymətləndirmə yoxdur və ola da bilməz. Yer kürəsinin hansı nöqtəsində olursa olsun, şəxsiyyətin ruhi mədəniyyəti – onun dəyər meyarıdır. Bu keyfiyyət nə milli, nə etnik, nə də dini mənsubiyyətdən asılıdır. Bu, genetika, təhsil və tərbiyə məcmusudur, yalnız qismən insanın irqi, cinsi, yaşı, etnosu və yaşayış yerindən asılı olan millətlərüstü və dinlərüstü meyardır. Dünyada insanın bundan daha yüksək dəyər meyarı yoxdur. Bizim insani dəyərimiz tutduğumuz vəzifə və ya sərvətimizlə deyil, mədəniyyətimiz, biliklərimiz, həyata keçirdiyimiz fəaliyyətin və onun nəticələrinin əhəmiyyəti ilə müəyyənləşir. Eyni zamanda keçmiş xidmətlərimiz hazırkı səmərəsizliyimizə bəraət qazandıra bilməz, çünki insan hər vaxt yüksəlməli və inkişaf etməli, özü üçün yeni imkanlar açmalı, gələcəyi görməyə və onu qurmağa qadir olmalıdır. Mədəni insan daim təkmilləşməyə can atmalı, öz həyat və fəaliyyət texnologiyalarını yaxşılaşdırmalı, ictimai rifaha xidmət etməli, əməyinin səmərəliliyini artırmalı, yeni nəticələrə nail olmalı, yeni ideyalar generasiya etməli və müvəffəqiyyət üçün innovativ imkanlar yaratmalıdır. İnsan haqqında sözlərinə görə deyil, əməllərinə görə mülahizə yürüdürlər. Demosfen əməl ilə təsdiqlənməyən sözü dəyərsiz və mənasız hesab edirdi.

İnsanları şəxsi həyat fəaliyyəti nümunəsi ilə inandırmaq lazımdır. Başqalarına təsir etmək üçün öz inamını və səmimiliyini işində şəxsi nümunə ilə təsdiq edərək onları ruhlandırmaq lazımdır. Bizim sözlərimizin inandırıcı olmasının ən yaxşı üsulu fəaliyyətimiz və əldə etdiyimiz nəticələrdir. İnsan özündə təbii eqoizmi və altruizmi şüurlu surətdə birləşdirməyi bacarmalıdır. Çünki ifrat eqoizm başqa insanların tələbatlarına etinasızlıq göstərərək, daxili, ruhi sakitliyin olmamasına gətirib çıxarır ki, bu da uğur üçün ödənilən çox ağır qiymətdir. Başqasına qarşı özünə olduğu kimi münasibət göstərmə, ətrafdakıların uğurunu anlama və bu uğurlara səmimi marağın ifadəsi, insanlara ehtiyacında olduğunu verməyə can atmaq onlarda inam və xeyirxahlıq doğurur, bizə kömək etmək, bizimlə dostluq və əməkdaşlıq etmək arzusuna səbəb olur.

Dünyanı ruhi mədəniyyət – ağıl mədəniyyəti və qəlb mədəniyyətinin ahəngi idarə edir. Məhz o, Kristian Bove tərəfindən bütün qanunların ən böyüyü kimi təyin edilən mütərəqqi inkişaf qanununun canı-qanı və hərəkətverici qüvvəsidir. Öz ağlına və öz iradəsinə sahib olma, özündə həyata nikbin münasibət yaratma bacarığı insanın mütərəqqi inkişafı üçün həlledici əhəmiyyətə malikdir. Əgər Günəşin həyatyaradıcı enerjisinin mənbəyi təbii daxili istilik-nüvə reaksiyaları-dırsa,

onda mədəniyyət – həyatın və insan inkişafının tükənməyən süni mənbəyi, xeyirxahlığın, sevginin və quruculuğun faydalı enerjisidir. İnsanın həyati təminatı üçün təbii işıq, hava, su, od, torpaq, bitkilər və heyvanlar, qida, hərəkət, yuxu nə qədər vacibdirsə, mədəniyyət enerjisi də bir o qədər əhəmiyyətlidir.

### *Özünüidarənin səmərəliliyi formulu*

Yüksək ruhi mədəniyyəti insanın özünüidarə mədəniyyəti olmadan təsəvvür etmək mümkün deyil. Piter Druker xüsusi şəxsiyyət menecmentinin, "hər birimizdən, xüsusilə zehni əmək işçilərindən tamamilə yeni fəaliyyətlər tələb etdiyini", – vurğulayaraq, onu insana yanaşmada inqilab adlandırırdı. Şəxsiyyətin menecmenti məsələlərinə toxunaraq o, səmərəli həyat fəaliyyətinə imkan verən biliklərin tətbiqinin əhəmiyyəti haqqında, öz keyfiyyətləri və qabiliyyətlərinin yaxşılaşdırılması, həmçinin öz əxlaqi prinsiplərinə və mədəni dəyərlər sisteminin qorunmasına riayət edilməsi haqqında danışır. O qeyd edir ki, uğurlu karyera üçün həyatda öz yerini tapmaq, istənilən imkanlar üçün açıq olmaq, öz münasibətlərini məcburiyyət üzərində deyil, etimad və qarşılıqlı anlaşma üzərində qurmaq çox vacibdir.

Əgər özünüidarə mədəniyyətinə onun mahiyyəti prizmasından nəzər yetirsək, onda biz cəm halında həyatımızı təmin edən prinsiplərin, metodların, məqsəd istiqamətlərin və qaydaların bütöv sistemini aşkar edərik. Özünü idarə etmək – öz həyatını düzgün qurmaq, öz sağlamlığını qorumaq, şəxsiyyət kimi formalaşmaq, özünün bilik və bacarıq səviyyəsini yüksəltmək, digər insanlarla düzgün münasibətlər qurmaq, möhkəm ailə yaratmağı bacarmaq və bizim qabiliyyətlərimizə uyğun gələn sevimli sənət seçmək, vicdanla çalışmaq, öz fəaliyyətində yaxşı nəticələrə nail olmaq, bizi güclü edən çətinliklər qarşısında heç vaxt geri çəkilməmək, cəmiyyətə, dövlətə və bəşəriyyətə faydalı olmaq deməkdir. Özünü idarə etmək həyatın problem və çətinliklərindən qaçmaq deyil, həyatda sarsılmazlığını və mərdliyini, özünün mübarizə aparmaq və qalib gəlmək bacarığını möhkəmləndirərək, onları aradan qaldırmaq deməkdir, çünki çətinliklər müvəffəqiyyətin tərkib hissəsidir. Özünüidarə – insanın özü və digər insanlar qarşısındakı məsuliyyətini, özünə və yaxınlarına görə, öz sözlərinə, hərəkətlərinə və özünün hörmət və təqdirlə mükafatlandırılan fəaliyyət nəticələrinə görə məsuliyyətini nəzərdə tutur. Mənə elə gəlir ki, şəxsiyyətin özünüidarəsinin səmərəliliyi formulunu aşağıdakı tələblərlə şərtləndirmək olardı: biologiya, fiziologiya, antropologiya, psixologiya, səhiyyə, ekologiya, fiziki mədəniyyət, düzgün qidalanma, etika, hüquq, insan münasibətləri mədəniyyəti, din və insanın həyat fəaliyyətinin digər sahələrinin əsaslarını bilməklə; həyat məqsədinin düzgün müəyyən edilməsi və mənəvi prinsiplərin doğru seçimi ilə; insanın digər insanlarla münasibətlərinin ahənginə və ətraf mühitə onun məsuliyyətli münasibətinə yardım edən təbiət və həyat qanunları biliklərinə, təcrübəyə və xoş marama əsaslanan müdrikliklə; şüuru vasitəsi ilə öz təfəkkürünü, niyyətləri və davranışını istiqamətləndirmək və onlara nəzarət etmək bacarığı ilə; insanın seçdiyi prinsiplərin

həyata keçməsini təmin edən möhkəm iradə, düzgün həyat tərzi və şəxsiyyətin davranış mədəniyyəti ilə.

Lusi Anney Seneka deyirdi: "Özünə hakim olmaq ən yüksək hakimiyyətdir". Həyatda qoyulmuş məqsədlərə nail olmaq, habelə insanları müvəffəqiyyətlə idarə etmək üçün insan özünü idarə etməyi bacarmalıdır. Bu, kifayət qədər çətin, lakin yerinə yetirilə bilən tapşırıqdır. O, müəyyən biliklər və təcrübi məharət, məqsədyönlülük, mütəşəkkillik, iradə, etika və vicdanlı əmək tələb edir. Özünə tabe olmağı bacarmadan çətin ki başqalarını özünə tabe etmək mümkün olsun. Özünüidarə mədəniyyətinin formalaşdırılmasına universal kulturoloji biliklər təkan verir. Onlar bizə həyatımızı düzgün qurmağa, mənəvi və fiziki sağlamlığımızı qorumağa, həyatda uğurlara və xoşbəxtliyə nail olmağa yardım edir. Biz insanın təyinatı, həyatın mənası, mövcudluğumuzun məqsədi haqqında, çətinliklərin və böhranların səbəbləri haqqında, həyatımıza nəzarət etməyin zəruriliyi haqqında, düzgün qərarların vaxtında qəbul edilməsi haqqında sualları özümüzə nə qədər tez-tez veririk? Bu və digər həyati vacib suallara düzgün cavab almağa, çətinlikləri dəf etməyə və ahəngdar inkişafa nail olmağa şüurumuzun "kulturoloji piramidasının" pillələri üzrə məntiqi yolu kömək edir. Mahiyyətin, xüsusiyyətlərin, tarixin və nailiyyətlərin ardıcıl surətdə dərk edilməsi təbiətin və cəmiyyətin inkişaf qanunlarını, həmçinin həyatı yaxşılaşdırmağın və daha yaxşı gələcək qurmağın yaradıcı imkanlarını açan həyat fəaliyyəti texnologiyalarını başa düşməyə aparır. Bu formul yalnız milli və qlobal səviyyəli idarəetmə qərarları üçün deyil, şəxsiyyətin özünüidarə sisteminin təkmilləşdirilməsi üçün də doğrudur. Bu universal kulturoloji metodun praktik əhəmiyyəti onunla şərtlənir ki, o, konkret vəziyyəti düzgün planlaşdırmaq və qiymətləndirmək, idarəetmə sisteminin hərəkət vektorunu korrektə etmək, gözlənilən nəticələrə nəzarət etmək və insanın baza tələbatlarına və dəyişən maraqlarına cavab verən ağıllı modellər qurmağa imkan verir.

### *Özünüidarənin baza prinsipləri, qaydaları və məntiqi*

Özünüidarə və uğurlu fəaliyyət problemlərinə çoxlu kitablar həsr edilmişdir. Onların bəzi-lərində obyektiv məntiq və bəşəriyyətin bir çox nəsillərinin həyat təcrübəsi əsasında sağlam həyat tərzi yaratmağa və şəxsi uğur qazanmağa kömək edən qanunauyğunluqlar sistemləşdirilmişdir. Özünüidarə, həyatda uğur və xoşbəxtlik qazanmaq kimi məsələlər çox sayda önəmli əsərlərdə, görkəmli tarixi şəxsiyyətlərin aforizmlərində və əxlaq qaydalarında bu və ya digər dərəcədə öz əksini tapmışdır. Onların arasında Key Kavusun, Nəsirəddin Tusinin, Mişel Monten, Deyl Karnegi, Piter Druker, Con Adair, Con Templton, Bodo Şefer, Brayan Adams, Co Vitale, Robin Şarma, Paolo Koelyo, Markes, Mark Fişer, P.S. Taranov, M. Norbekov və başqalarının kitablarını xüsusi qeyd etmək lazımdır. İ.V. Dubrovina, A.B. Qolubovski, Y.L. Kolominski, B.S. Kruqlov, A.B. Obolonski, V.A. Rıbakov, M. Knyazev və bir çox başqa sovet müəllifləri öz əsərlərində müxtəlif sosial-mədəni situasiyaları, insan münasibətlərini, həyat fəaliyyəti və müvəffəqiyyətə nail olma texnologiyalarını təsvir edirlər.

Özünüidarə mədəniyyətinin mənbəyi öz kökləri ilə əsrlərin dərinliklərinə gedib çıxır. Qədim yunan filosofu Fales deyirdi: "Hakimiyyətdə olarkən, özünü idarə et". Görünür ki, hələ o vaxtlar daxili intizam və qətiyyətə, inada, məqsədə diqqətini cəmləmək qabiliyyətinə sahib olmağın zəruriliyini, "tələsmədən tələsməyi", öz resurslarını səmərəli istifadə etməyi həyat özü antik insana diktə edirdi. Özünüidarə mədəniyyətinin əsasını da bütövlükdə insanların idarə edilməsində olan baza prinsipləri, qaydalar və məntiq təşkil edir. Lakin onların öz xüsusiyyətləri vardır. Piter Druker özünüidarənin səmərəliliyi məsələlərinə toxunaraq deyir ki, buna nail olmaq üçün "hər bir zehni əmək işçisi yüksək səviyyəli rəhbər kimi düşünməli və hərəkət etməlidir". Özünüidarənin müvəffəqiyyəti əsas etibarilə insanın bilikləri və bacarıqları, tələbatları və məqsədlərindən asılıdır. Özünüidarənin məqsədi insanın özü, onun həyat fəaliyyəti, rifahı, sağlamlığı və xoşbəxtliyidir. Özünüidarə mədəniyyətinin əhəmiyyəti onunla şərtlənir ki, məhz insan, fərd və ilk növbədə, yüksək mədəniyyətli insan firavan ailənin, cəmiyyətin, dövlətin və bütün bəşəriyyətin inkişafının əsasıdır və beləliklə, sosial-mədəni tərəqqinin hərəkətverici qüvvəsi və məqsədi qismində çıxış edir. Həyat və dünya onun üzərində dayanır, onun köməyi ilə daha yaxşı gələcək qurulur. Özünüidarə mədəniyyətinin dünya sivilizasiyasının bu günü və gələcəyi üçün dəyəri daha çox bununla şərtlənir.

Özünüidarə mədəniyyəti zamanın sınağından çıxmış ruhi prinsiplər və qaydalara, yüksək səviyyəli insan münasibətləri mədəniyyətinə, bəşəriyyətin müxtəlif mədəniyyətləri və sivilizasiyalarına mənsub olan çoxsaylı nəsillərin həyat fəaliyyəti təcrübəsinə söykənir. O, həyatın qanunauyğunluqların və təsadüflərin birləşməsi olduğunun başa düşülməsini nəzərdə tutur. Həyat qabiliyyətinin yüksək səviyyəsinə yetişmək üçün birinciləri (qanunauyğunluqları) dərk etmək və ikincilərə (təsadüflərə) hazır olmaq lazımdır. Mədəni insan bugün dünənkindən daha yaxşı, sabah isə bugünkündən daha yaxşı olmağa can atmalıdır. Eyni zamanda öz həyat fəaliyyətinin müxtəlif sahələrindəki göstəriciləri daim yaxşılaşdırmaq lazımdır. Bunlar sağlamlıq, şəxsiyyətlərarası münasibətlər, peşə fəaliyyəti və ictimai fəaliyyət, iqtisadi vəziyyət, biliklərin və qabiliyyətlərin inkişafı, imkanların genişləndirilməsi, mədəni asudə vaxt və s.-dir. Bodo Şefer bunun üçün bizə nümunə olan insanların, bizi ruhlandıran kitabların, öz həyatımızı daha yaxşı anlamağa kömək edən gündəliklərin, həmçinin bizə yeni yollar göstərən və yeni stimullar verən seminarların köməyindən istifadə etməyi tövsiyə edir. O, qələbəyə yönəlmiş və öz arzusunu həyata keçirməyi arzulayan insanlara səhvlərindən dərs almağı və özünə inam formalaşdırmağı, bu məqsədlə "ideyalar", "öyrənmə" və "müvəffəqiyyət" gündəliklərini tutmağı təklif edir. Con Templton qeyd edir ki, öz həyatını faydalı və xoşbəxt etmək üçün həyatın ruhi qanunlarını dərk etmək və onlara əməl etmək, düzgün prinsipləri rəhbər tutmaq, hikmət öyrənmək, bəşəriyyətin mədəni irsini və müasir nailiyyətlərini mənimsəmək lazımdır. Yüksək mədəniyyətin tərbiyə edilməsi həm əlverişsiz genetika, həm də insanın yaşadığı sosial mühitdən doğulan neqativ keyfiyyətlərin təcəssüm olunduğu şəri tədricən, addım-addım aradan qaldırmağa imkan verir. Uilyam Şekspir deyirdi: "Hamını

sev, bəzilərinə inan, heç kimə pislik etmə". Həyatda sağlamlığın, rifahın, uğurun və xoşbəxtliyin asılı olduğu mənəvi prinsiplərə riayət etmək çox vacibdir. Bu altruist prinsiplər insanlara təmənnasız xidmət etməyi, onlara xeyirxahlıq və diqqət göstərməyi, sözlə, əməllə, məsləhət və şəfqətlə onlara qayğı göstərməyi nəzərdə tutur. Bütün dinlərin qızıl əxlaq qaydası belədir ki, insan özünə qarşı necə münasibət göstərilməsini istəyirsə, digər insanlara o cür münasibət göstərməlidir. Yaxşılığı yüksək qiymətləndirən Fales vurğulayırdı ki, "yaxşılıq sayəsində bütün özgə olan öz tətbiqini tapa və faydalı ola bilər". Albert Eynşteyn hesab edirdi ki, "ayrılıqda götürülmüş bir insanın həyatı yalnız onun başqalarının həyatını daha gözəl və daha nəcib olmasına kömək etdiyi dərəcədə mənalı olur".

### *Öz "məni"ni idarə etmə*

Mədəni insan güclü ruha və öz "məni"ni idarə etməyə imkan verən müəyyən dərəcədə müdrikliyə sahib olmalıdır. Bu, təmkini, özünə nəzarəti, səmimi və ardıcıl olmaq bacarığını, insanları sevməyi və eqosentrizmdən uzaq olmağı nəzərdə tutur. Sofokl müdrikliyi xoşbəxtliyin doğma anası adlandırırdı. Bodo Şefer parlaq həyati nümunələrə əsaslanaraq deyirdi ki, müdrik insan öz daxili aləminə hakim olaraq, neqativ hisslərin və pozucu əməllərin qarşısını alır. Mədəni insan sosial ədalətsizlik, çətinliklər və maneələr şəraitində təbii kimi görünən acıqlılığı dəf edərək, "şəraitin qurbanı" psixoloji mövqeyindən çıxır və müqəddaratını öz öhdəsinə götürərək, qoyulmuş məqsədə çatmaq imkanlarını axtarır. Söhbət nifrət hissindən, bu hiss üçün bütün əsaslar olsa belə, azad olma bacarığından, hiddət enerjisini idarə etmə və onu özünün və başqa insanların vəziyyətinin yaxşılaşdırılmasına yönəltmə qabiliyyətindən gedir. Bizim pozitiv və nikbin ruhdan doğulan şövqümüz təkcə bizi uğura aparan enerjini yaratmır, həm də başqalarını yüksək düşüncələrə və nəcib əməllərə ilhamlandırır. Keyfiyyət və müvəffəqiyyət əldə etmək üçün hər bir işi ağılla, vicdanla, sevərək görmək lazımdır. Belə yanaşma bizə ən mürəkkəb problemlərin həllinə doğru yol açır və bizi qeyri-məhdud imkanlara aparır. Vaxt və gərgin əmək bizi addım-addım arzu edilən məqsədə gətirib çıxarır. İnsanın ruhi mədəniyyəti və yaradıcı gücünün görkəmli rəmzlərindən biri olan İohan Volfhanq Höte, özünün sonuncu fəlsəfi əsəri – "Faust" faciəsində həyatın mənasının axtarışını təcəssüm etdirmişdir. Jan Jak Russonun ardınca şəxsiyyətin azad inkişafı konsepsiyası ilə çıxış edərək, Höte tezliklə əmin oldu ki, cəmiyyətin həyatında nəyi isə dəyişmək yalnız bütün sistemi, qoyulmuş qaydanı, ictimai həyatın formalaşmış quruluşunu (cəmiyyətin sosial mühitini – F.M.) dəyişməklə mümkündür. Cəmiyyəti və mühiti dəyişmək iqtidarında olan qüvvəni o, sxolastik elmə, meşşan əxlaqına və ortodoksal xristian dininə qarşı müharibə elan etmiş insanda görürdü. Doktor Faustun obrazında o, taleyə baş əyməyən, həqiqət axtaran, məhəbbət və əsl azadlıq əldə etməyə can atan insana özünəməxsus himn yaratmışdır.

İnsanın uğurlu inkişafı və özünüidarə imkanlarını nəzərdən keçirən çoxlu sayda müasir konsepsiyalar mövcuddur. Məsələn, Moskva İnsanın Özünübərpası

İnstitutunun rəhbəri, “qalib gəlmək məharəti” üzrə mütəxəssis kimi tanınmış professor Mirzəkərim Norbekov orqanizmin sağlamlaşdırılması, cavanlaşdırılması və müvəffəqiyyət əldə etmənin orijinal sistemini yarat-mışdır. Bu sistemin əsasında insanın: bədən, ağıl, hislər və qəlbin vahid tamı olaraq nəzərdən keçirilməsi durur. İnsanın uğursuzluqları və ya onun fiziki xəstəlikləri “tarazlığın itirilməsinə” səbəb olur və bu sistemin bütövlüyünün pozulmasının nəticəsi kimi nəzərdən keçirilir. Xəstəliklərin və uğursuzluqların başlıca amillərindən biri qorxudur ki, onu arzuların həyata keçirilməsinə imkan verən ruhi harmoniyanı əldə etməklə dəf etmək lazımdır. Əsas ideya – həm sağlamlıq, həm də uğur əldə etmək üçün lazım olan, pozitiv enerjini yaradan və ya cəlb edən pozitiv təfəkkürün və nikbin əhval-ruhiyyənin təcrübədən asılı olmayaraq yaradılması zərurətindən ibarətdir. Ən ekstremal vəziyyətlərdə öz gücünə inanmaq, daxili müqavimətə üstün gəlmək, öz üzərində səylə işləmək lazımdır. Bu psixoloji yanaşma insanın sağlamlaşdırılmasının əsası kimi götürülür və “Millionerlər məktəbi” kursunda istifadə edilir. Əsas ideya ondan ibarətdir ki, əgər insan uğurlu olmaq istəyirsə, ruhi qüvvələrini səfərbər etməli, fikrən uğurlu insana çevrilməli və psixoloji olaraq “uğur oyunu oynamağa” başlamalıdır. Norbekov hesab edir ki, əgər insan konkret şəkildə varlanmaq məqsədi qoyursa, onda çox qısa müddətdə buna nail olur.

***Öz düşüncələrini və hislərini idarə etmə***

Özünüidarə mədəniyyəti öz düşüncələrini idarə etmə mədəniyyətindən başlayır. Öz şüurunu nikbin düşüncələrə, xeyirxah arzulara və məntiqli hərəkətlərə yönəldərək onu idarə etmək bacarığı pozitiv dünyagörüşünü, “tunelin sonunda işığı görmək” qabiliyyətini, istənilən vəziyyətdə uğurlu sonluq gözləyərək həyata və onun müxtəlif hadisələrinə müsbət münasibət bəsləməyi nəzərdə tutur. Mark Avreli hesab edirdi ki, özünüzü təhlükəsizlikdə hiss etmək üçün sizi narahat edən şeylərə qarşı münasibəti dəyişmək lazımdır. Haqqında Ronda Bern, C. Vitale və digər müəlliflərin kitablarında yazılmış “Cazibə qanununda” arzulara çatmaqda insan təxəyyülünün, fantaziyasının rolu xüsusi qeyd edilir. “Cazibə qanununun” mahiyyəti ondan ibarətdir ki, bizim fikirlərimiz haqqında düşündüyümüz şeyləri cəzb edir. Bu səbəbdən pozitiv təfəkkür müsbət keyfiyyətlərin formalaşmasına səbəb olur, pozitiv hadisələri, yaxşı insanları, arzu edilən məqsədləri cəzb edir. Eyni zamanda rəqibin səbəbsiz etdiyi təcavüzünə adekvat reaksiyadan, onu mühakimə etməkdən və cavab hərəkətlərindən özünü saxlamaq bacarığı ilə sizə yönəldilən mənfi enerjini neytrallaşdırmaq olar. Görünür ki, Templton bu məsələni nəzərdən keçirərək təxəyyülün nəcib təsirinə diqqət yetirir və qədim bir məsəl deyir: “nəyi təsəvvür etmək mümkündürsə, ona nail olmaq olar”. Bizim fikirlərimizi formalaşdıran təxəyyülümüzü idarə etmək qabiliyyəti aydın obrazlar və mənzərələr yaratmağa imkan verir ki, bunlar da böyük istək və məqsədyönlülük sayəsində həyata keçirilə bilər. Əgər insan öz qüvvəsinə inanırsa, ağlı, biliyi, bacarığı, məsuliyyəti, iradəsi və səyi ilə fərqlənirsə, o öz imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir və mümkün olmayanı mümkün edə bilər.

İnsanın düşüncəsi azad olmalıdır. Bu, bizim müstəqil inkişafımız və həyata düzgün münasibətimizin vacib şərtlərindən biridir. Lakin o, ağıla əsaslanmalı və daim elmi biliklə qidalanmalıdır. Təhsil və maarif, o cümlədən, müntəzəm özünütəhsil, gerçəkliyin tənqidi təhlili həyatın bir çox obyektiv imkanlarından bizi məhrum edən təfəkkür məhdudluğundan xilas olmağa kömək edir. Fikirlərin pozitiv istiqamətdə dəyişdirilməsi həyatı qavramağımızda müsbət dəyişikliklərə gətirib çıxarır. Biz bu problemin nəsildən-nəslə ötürüldüyünü dünya mədəniyyətinin tarixində görürük. Lao-Tszı deyirdi: “Öz fikirlərinizə qarşı diqqətli olun – onlar əməllərin başlanğıcıdır”. “Bilik üçün, sakit həyat üçün və hər bir işin uğuru üçün insanın öz düşüncələrinə sahib olması qabiliyyətindən daha vacib çətin ki bir şey olsun”, – deyə Con Lokk qeyd edirdi. Düzgün qərarlar qəbul edərək və onları ardıcıllıqla həyata keçirərək, biz istənilən çətinlikləri aradan qaldırmağa, arzularımızı reallığa çevirməyə qadirik. Pozitiv fikirlər və əməllər, yaxınlara və dostlara bağlılıq və hörmət xüsusi energetika yaradır ki, bu da digər insanları bizə tərəf çəkir, hər bir mədəni insan üçün həyati vacib olan qarşılıqlı anlaşma, dostluq və sevgi atmosferi formalaşdırır. Çarlz Darvin qeyd edirdi: “Mənəvi mədəniyyətin mümkün olan ən yüksək mərhələsi – öz fikirlərimizə nəzarət etməyə qadir olduğumuzu başa düşməyimizdir”. Con Templton deyirdi ki: “Siz öz düşüncələrinizi idarə etməyi öyrəndikcə müsbət, yaxşı düşüncələr sizin həyatını yaxşılığa doğru dəyişdirəcək”. Mark Avrelinin “sənin düşüncələrin sənin həyatına çevrilir” məşhur ifadəsinə istinad edən istedadlı psixoloq və humanist, insanın həyat fəaliyyətinin müsbət enerjisinin saxlanması üçün “sıxışdırıb çıxarma metodunu” təklif etmişdir. Bu metodun mahiyyəti ondan ibarətdir ki, əgər insan öz şüurunu pozitiv və faydalı fikirlərlə doldurarsa, orada pis fikirlərə yer qalmayacaqdır. Bizim həyati məqsədlərimizə çatmağa imkan verməyən gərəksiz və neqativ fikirlər şüurdan sıxışdırılıb çıxarılır. Beləliklə, öz şüuruna nəzarət etməyi öyrənərək, təfəkkürünü digər obyektə çevirmək olar ki, bununla da arzuolunmayaz fikirlər yox olur. Neqativ fikirlərin sıxışdırılıb çıxarılmasının daha bir metodu “onları sakitcə buraxmaq” bacarığındadır: neqativ fikirlər “gəldikləri sonsuz heçliyə buraxılırlar.” C.Templtonun “sıxışdırıb çıxartma metodu” paxıllıq, nifrət, tamahkarlıq, eqoizm, gərəksiz tənqidbazlıq, qisasçılıq və s. kimi insan sağlamlığına dağıdıcı təsir göstərən keyfiyyətləri aradan qaldırmağa imkan verir.

Beləliklə, reallıq daha çox ağlımız və qəlbimizlə, dünyagörüşümüz və xarakterimizlə, ruhi mədəniyyətimizlə şərtlənən daxili qavramamızdan asılıdır. Nəcib fikirlər nəcib əməllər doğurur. Əgər insan özünə inanırsa və bu inamı konkret əməllərlə möhkəmləndirirsə, öz bilikləri və bacarıqlarını təkmilləşdirirsə, çətinliklərə və əlverişsiz şəraitlərə baxmayaraq arzu edilənə nail olmaqda inad və mətanət göstərirsə, qəlbin nəcib niyyətləri reallaşır. Çətinliklər bizim qabiliyyətlərimizi inkişaf etdirir, iradəmizi möhkəmləndirir, həyat təcrübəmizə imkan yaradır, bizi daha mərd və daha güclü edir. Pozitiv obraza yönəlmə, həyatın dövriliyinin müdrikcəsinə qavranılması, özünə inam, bizə bağışlanmış həyat nemətlərinə görə minnətdarlıq hissi, cəmiyyətin rifahı naminə quruculuq bizim üçün

uğura, müvəffəqiyyətə, xoşbəxtliyə və yeni imkanlara qapılar açır. Özündə döyüşçüyə xas həyat qabiliyyəti və keyfiyyətinin yaradılması dinamik fəaliyyəti, mütərəqqi inkişafı və qoyulmuş məqsədlərə çatmağı təmin edir.

İnsanın təfəkkür mədəniyyəti bütövlükdə şəxsiyyətin intellektual mədəniyyətini təşkil edən təbii ağlından və əldə etdiyi biliklərindən asılıdır. Fales deyirdi: "Bədənin fərəhi – sağlamlıqda, ağılın fərəhi – bilikdə olur." Henri Tomas Bokl intellektual mədəniyyətə böyük əhəmiyyət verərək qeyd edirdi ki, "zülməti hiss etməyən kəslər işığı heç vaxt axtarmayacaqlar". İntellektual mədəniyyət insanın inkişaf imkanlarını müəyyən edən həyat fəaliyyətinin başlıca hərəkətverici qüvvəsidir. Bu mədəniyyətin təbii mənbəyi beynin fəaliyyətini, təfəkkür prosesini idarə edən insan şüurudur. Şüur fikri generasiya edir və bizim həyat proqramımızı müəyyən edir. Təfəkkür məhdudluğundan azad olmaq, bizə həyatı kainatın imkanlarının bütün müxtəlifliyi ilə görməyə imkan yaradan ağlımızı və biliklərimizi daim inkişaf etdirmək, həyat hadisələri və faktlarını, insanların davranışını və hərəkətlərini düzgün başa düşmək və şərh etmək lazımdır. Cahilliyi insan mədəniyyəti və sivilizasiyası haqqında bilikləri yaymaqla aradan qaldırmaq lazımdır. Yaxşını pisdən ayırmaq qabiliyyətinə böyük əhəmiyyət verən Sokrat qeyd edirdi: "Yalnız bir yaxşılıq – bilik və yalnız bir şər – cahillik var". Templton deyir: "Tırtıl yanında yarpağa qonan kəpənəyi tanımaqda acizdir. Ola bilsin, tırtıl kəpənəyi heç görmür belə, çünki tırtılın real həyatında kəpənəklər mövcud deyil!" Dialektikası Platona böyük təsir göstərmiş Efesli Heraklit insan cahilliyini ifşa edərək vurğulayırdı ki, "itlər tanımadıqları kəslərə hürürlər". İntellektual mədəniyyətin açdığı imkanlardan biri Kainatın və insanın həyat fəaliyyəti qanunlarının, baş verən təzahürlər, hadisələr, proseslər və insanların düzgün dərk edilməsidir. Bu anlama insanın həyat fəaliyyətini və bizim emosional mədəniyyətimizi idarə edən şüurun gücünü təsdiq edir. Bu və ya digər vacib problemlərin həlli zamanı o, öz hakimiyyətini və özünün qalibiyyət əzmini təsdiqləyərək, qeyri-müəyyənlik qarşısında yaranan qorxu hissini aradan qaldırmağa imkan verir. İntellektual mədəniyyət müdrikliyə – biliklərlə, təcrübə ilə və humanizmlə zənginləşmiş ağlın keyfiyyətinə nail olmağa imkan yaradır. Müdriklik – həyat qanunlarını düzgün başa düşmək, səhvlərdən dərs çıxarmaq, şeylərin mahiyyətini və xüsusiyyətlərini müxtəlif tərəflərdən görmək, müsbət nəticələrə və insan münasibətlərinin ahənginə nail olmağa yardım edən ağıllı qərarlar qəbul etmək qabiliyyətidir.

Mədəni insanın özünü idarə etməsi, öz emosional vəziyyətinə, ətrafdakıların neqativ hərəkətlərinə qarşı öz reaksiyasına nəzarət etmək bacarığını nəzərdə tutur. Düzgün yol – öz enerjinizi sizə layiq olmayan insanlarla münasibətlərin aydınlaşdırılmasına deyil, həyatın başlıca dəyərlərinə: məhəbbətə, dostluğa və yaradıcılığa yönəltməkdir. Əlbəttə, bu zaman digər insanın qeyri-səmimi münasibətinin, həmçinin predmetə öz davranışının səbəblərini aydınlaşdırmaq, onun digər insanlarla münasibətdə gərginlik səbəbi olub-olmadığını təhlil etmək vacibdir. Mədəni insanın statusu paxıllıq kimi neqativ keyfiyyətlə bir araya sığmır. Paxıllıq hissinə müqavimət göstərə bilməyən insanlar özünü təkmilləşməyə qadir

deyillər. Onlar başqalarının yaxşı cəhətlərini obyektiv qiymətləndirməyi bacarmırlar və onu ətrafdakıların gözündən salmaq üçün hər cür nöqsanları və çatışmazlıqları öz həsəd obyektinə aid etməyə çalışırlar. Paxıllıq hissinin dəf edilməsi öz qüvvəsinə və şəxsi məziyyətlərinə inam tələb edir. Danılmaz uğurlar əldə etmiş istedadlı insanların üstünlüklərini özünütəkmilləşdirmə üçün şans və təcrübə kimi dərk etmək lazımdır.

***Özünüidarənin arzuları, maraqları, məqsədləri və mənbələri***

Özünüidarə prosesində insan iki dəyişən amilin təsir dairəsində olur: şərait və şəxsi seçim. Seçim – onun qəbul etdiyi qərarlardır. Bu qərarlar mühüm rol oynayırlar və əgər onlar şəxsiyyətin inkişafı üçün əlverişli deyillərsə, şəraiti dəyişə bilərlər və dəyişməlidirlər. Bunun üçün insana həm şəxsiyyəti, həm də onu əhatə edən aləmi dəyişməyə qadir olan, bütövlükdə yüksək mədəniyyəti təşkil edən məqsədyönlülük və möhkəm iradə, məntiq, biliklər, bacarıqlar, mütəşəkkillik lazımdır. Görünür, idealda hər bir insan üçün öz təyinatını, həyatının mənasını dərk etmək və buna uyğun olaraq öz həyat fəaliyyəti proqramını hazırlamaq vacibdir ki, fərd onu həyata keçirilməklə insan inkişafına müəyyən töhfə verə və tarixdə iz qoya bilər. Blez Paskal deyirdi: "Öz həyatının mənasını bilməyən insanların vay halına". Bizim nəticələrimizin müvəffəqiyyəti konkret məqsədləri, problemlərin mahiyyətini anlamağı, prinsiplərin və metodların seçilməsini, prioritetlərin müəyyən edilməsini, məqsədə çatma vaxtının təyin edilməsini nəzərdə tutan vasitədən – düşünülmüş hərəkətlər planından asılıdır. Eynilə biznesdə effektiv menecmentin insanların tələbatlarının başa düşülməsi və ödənilməsi ilə şərtləndiyi kimi, uğurlu özünüidarə öz arzuları, maraqları və məqsədlərinin başa düşülməsi və həyata keçirilməsindən asılıdır. Həyatımızın mənası ilə şərtlənən həyat məqsədini daim yadda saxlamaq lazımdır. Hələ XVI əsrdə İntibah dövrünün görkəmli nümayəndəsi Mişel Monten qeyd edirdi ki, "hədəfi olmayan gəmiyə heç bir külək kömək edə bilməz". İnsanın həyat fəaliyyəti enerjisinin fəallaşdırılması üçün aydın məqsəd, müəyyən zaman müddətində həyatın mənasına uyğun olan, qoyulmuş məqsədə nail olmaq üçün texnologiyalar və iradə lazımdır. Belə texnologiya qismində, güclü arzunun təmərküzləşməsinin, fokusunun yığılmasının onun həyata keçməsinin real stimulu olduğunu güman edərək, Templton, "günəş şüalarının böyüdücü şüşə ilə fokuslanıb, enerjisinin bir yerə toplanmasının alışma əmələ gətirdiyi kimi, öz ağlını güc nöqtəsinədək bir yerə cəmləməyi" tövsiyə edir.

Böyük məqsədlər olmadan böyük işlər yoxdur. Lakin insanın məqsədi iki kateqoriyada ola bilər: idealı ifadə edən böyük məqsədlər, hərəkət istiqamətini təyin etməyə kömək edən yolgöstərici və konkret, real əldə edilə bilən məqsədlər. Arzularımız və istəklərimizdən doğulan böyük məqsədlər yolları müəyyən etməyə və düzgün texnologiyalar seçməyə kömək edir. Hərəkət üçün bizə motivasiya və stimul verən böyük məqsədlər şəxsiyyətin keyfiyyətcə dəyişməsi və inkişafı üçün çoxlu sayda imkanlar açır və özündə maraqlı kəşfləri, mükafatları və yaradıcı

fəaliyyətdən alınan zövqü ehtiva edir. Bu imkanların istifadə edilməsi daha çox insanın intellektual mədəniyyətindən, onların mənasını, mahiyyətini və xüsusiyyətlərini başa düşməkdən asılıdır. Bodo Şefer deyir: "Əgər siz ulduzlara yönəlmisinizsə, bu o demək deyil ki, siz onlara çatacaqsınız, amma yəqin ki, ağaclardan yuxarı qalxacaqsınız".

Real məqsədlər elə tərzdə ifadə olunmalıdır ki, təyin edilmiş vaxtda mütləq yerinə yetirilə bilsin. Bu onunla şərtlənir ki, onlara nail olma şəxsiyyətin özünütəsdiqinə xidmət edir, şəxsi ləyaqət hissini, insanın öz gücünə və imkanlarına inamını möhkəmləndirir. Yüksək özünüidarə mədəniyyətinin və nəzərdə tutulmuş məqsədlərə nail olmaq qabiliyyətinin şərtlərindən biri həyati problemlərin öhdəsindən gəlmək bacarığıdır. Problemlərin olması – dialektik yaşayış reallıqları ilə bağlı olan sonsuz həyat prosesidir. Ona görə də bizim vəzifəmiz onları düzgün başa düşmək və vaxtında həll etməkdir. Eyni zamanda problemə münasibət, problemin əmələ gəlməsi ilə yaranan "sarsıdıcı" neqativ emosiyaları onun həllinin şəxsiyyətin inkişafı üçün yeni imkanlar açan pozitiv dinamik enerjisinə dəyişdirmək bacarığı çox vacibdir. Bunun üçün problemləri özünün inkişafı və digər insanlara öz təsir dairəsini genişləndirmək çağırışı və şansı kimi qəbul etmək; problemləri həll edəcəyinə inanmaq; nikbinliyini, şəxsi ləyaqət hissini, qalibiyyət əzmini qorumaq; öz hislərinə və reaksiyalarına nəzarət etmək; problemdən düzgün dərs çıxarmağı bacarmaq lazımdır. Bodo Şefer haqlı olaraq qeyd edir ki, problemin həllindəki hər bir uğur insanı mükafatlandırır, hər bir uğursuzluq isə onu daha güclü edir.

Beləliklə, çox şey bizim arzumuzdan, onu güclü surətdə həyata keçirmək istəyimizdən asılıdır. Əgər istək mütləq həyati zərurət olursa, o zaman onun doğurduğu ruh yüksəkliyi reallığı əlverişli şəkildə dəyişdirməyə kömək edir. İnsan özünün xoşbəxtlik haqqında təsəvvürünə uyğun, lakin başqalarına zərər yetirməyən layiqli həyat qurmalıdır. Bodo Şefer arzunun həyata keçirilməsinin psixoloji mexanizmini göstərmişdir. O, məqsədə çatmaq üçün özünün bütün diqqətini onun üzərində cəmləşdirməyi, daim onun haqqında düşünməyi, onun əldə edilməsində zərrə qədər şübhəyə yol verməməyi tövsiyə edir. Fikrinizin cəmlənməsi sizin indiki mövqeyiniz ilə can atdığınız arzu arasında əlaqə yaradır. Bu obraz, müvəffəqiyyətin əldə edilməsinə yönəldilmiş effektiv hərəkətlərə çevrilən əminliyi doğurur. Bilik və inam arzunun həyata keçirilməsi üzrə texnologiyalar seçimini və fəaliyyətlər enerjisini təmin edir. Co Vitalenin cazibə konsepsiyasına görə, güclü arzu, insanı məqsədyönlü və güclü edərək, ona imkan yaradır ki, Kainat özü bu arzunun həyata keçməsinə kömək edir. Həyat fəaliyyətinin bütün sahələrində: ailədə, işdə, özünütəhsildə, fiziki mədəniyyətdə, ictimai fəaliyyətdə hərəkətə lazımi impuls verərək düzgün seçim etmək, həyat fəaliyyəti istiqamətini və öz prioritetlərini düzgün müəyyənləşdirmək lazımdır.

Onu nəzərə almaq lazımdır ki, arzumuzun həyata keçirilməsi yolunda bizim üçün mümkünsüz heç nə yoxdur. Bunun üçün güclü ruha – biliklərlə zəngin ağıla, nəcib hislərə və möhkəm iradəyə malik olmaq, özünə və həyatını yaxşılığa

doğru dəyişdirə bilmək  qabiliyyətinə inanmaq lazımdır. Güclü ruh öz öz fikirlərini və enerjisini yaradıcı məcraya yönəldərək, faciəli hadisələri belə müdrikcəsinə xilasa və qələbəyə işarə kimi qəbul edərək, çətinliklərə və uğursuzluqlara mərdliklə qatlaşmağa, emosiyalarını idarə etməyə kömək edir. Zəngin daxili aləm, yüksək ruhi mədəniyyət olmazsa, maddi rifah ruhi kasadlığın yerini doldura bilməz. Başqa sözlə, ruhi mədəniyyət zənginliyi həmişə maddi zənginlikdən üstündür, çünki pulla ağılı, həqiqi məhəbbəti, dostluğu və xoşbəxtliyi almaq mümkün deyil, yüksək ruhi (əqli və mənəvi) mədəniyyətə və xoş mərama sahib olmaqla isə həyatda zənginliyə, uğura və xoşbəxtliyə nail olmaq olar. Mədəni insanın özünü idarə etməsi həqiqəti özündə daşıyan, bəşəriyyətin bir çox nəsillərinin həyat təcrübəsi ilə sınaqdan keçirilmiş fundamental elmi biliklərə əsaslanmalıdır. Fridrix Şiller deyirdi: “Maariflәndirilmiş şüur mənəvi hissləri nəcibləşdirir: baş ürəyi tərbiyə etməlidir”.

Əgər insan doğru düşünürsə və elmi biliklərə və obyektiv informasiyaya istinad edirsə, onun niyyətləri də düzgün formalaşır, niyyətlərin ardınca isə özündə sevinc və razılıq hissi daşıyan pozitiv əməllər gəlir. Jan Jak Russo vurğulayırdı: “ İnsanın bütün mənəviyyatı onun niyyətlərindən ibarətdir”.

Əksinə, doğru olmayan və ya zərərli təfəkkür, ardınca çox zaman dağıdıcı və destruktiv xarakterli düzgün olmayan fəaliyyətlər gətirən yanlış, düşüncəsiz əməllər doğurur.

### *Fəaliyyətin nəticələri – müvəffəqiyyətin meyarı kimi*

Məlum olduğu kimi, “bina kərpiclərlə hörülür”. Sofokl deyirdi: “Böyük işlər bir dəfəyə görülmür”. Müvəffəqiyyətin əsasını yalnız özünüinkişaf tələbatları və düzgün ifadə edilmiş məqsəd deyil, həm də biliklər, şüurlu fəaliyyət planı, effektiv texnologiyalar, gündəlik vicdanlı əmək və nəhayət, dözüm təşkil edir. Müvəffəqiyyətə nail olma diqqətin, enerjinin və səylərin hansısa bir işdə cəmlənməsini tələb edir. Qüvvələrin parçalanması yaxşı nəticələr əldə etməyə imkan vermir. Ona görə bizim başqa işlərə yayınmağımıza haqq qazandıran heç bir səbəb nəzərə alınmamalıdır. Müvəffəqiyyətin meyarı yalnız fəaliyyətin nəticələri olmalıdır. Bunun üçün isə hədəflənmiş planların yerinə yetirilməsinə mane ola biləcək bütün qeyri-müəyyənlikləri nəzərə alaraq, vaxtı düzgün planlaşdırmaq, həmin vaxtda başlıca işi seçməyi bacarmaq və diqqəti onun üzərində cəmləşdirmək lazımdır. Gözlənilməz vəziyyətləri öz maraqlarına uyğun istifadə edərək idarə etmək lazımdır. Gözlənilməz vəziyyətlər öz məhsuldarlığının: həyati yönəlişliklərə nail olmaq üçün vaxtdan istifadənin səmərəliliyinin; strateji məqsədlərin və cari vəzifələrin korrektə edilməsinin; şəxsi xoşbəxtliyinin qurulmasında özünün fəallıq dərəcəsini yenidən mənalandırmanın qiymətləndirilməsi üçün “lakmus kağızı” ola bilər. Bodo Şefer motivasiya və həvəsi yüksək səviyyədə saxlamağa imkan verən “üç gün qaydasını” ifadə etmişdir. Həmin qaydanın mahiyyəti ondan ibarətdir ki, insana hər üç gündən bir psixoloji olaraq, ölçüləbilən müsbət nəticə kimi başa düşülən yeni müvəffəqiyyət tələb olunur. Bu davamlı müvəffəqiyyət

şəxsiyyətin inkişafı prosesində yüksək hərəkət impulsunu stimullaşdıraraq, insanda hər zaman yeni-yeni nailiyyətlərə motivasiyanı saxlayır. Bunun üçün öz fəaliyyətini, onun nəticə etibarilə səmərəliliyi baxımından hər üç gündən bir düzgün planlaşdırmaq və nəzarət etmək lazımdır. Depressiya halından qaçınmaq üçün öz işlərini əhəmiyyətlilik dərəcəsinə görə dəqiq planlaşdırmaq və öz şüuru üçün psixoloji yükə çevirməyərək, onları təxirə salmadan yerinə yetirmək lazımdır. Bu zaman təcili işlər planlaşdırılmış mühüm işlərin yerinə yetirilməsi üçün maneə olmamalıdır. Müvafiq qərar qəbul edildikdən sonra dərhal, lakin tələsmədən fəaliyyət göstərmək lazımdır. A.S. Ekzüperi qeyd edirdi: "Heç vaxt demə: edərəm, əgər sən nə isə etmək qərarına gəlmisənsə, başla və de: mən artıq bunu edirəm".

Müdrik həqiqətləri və müvəffəqiyyət strategiyalarını təhlil edərək, Bodo Şefer elmi əsərinə Roma imperatoru Mark Avrelinin məşhur sözləri ilə başlayır: "sonda görmək istədiyin o həyatla artıq bu gündən yaşamağa başla". O doğru olaraq qeyd edir ki, hər bir insanın qalib olmaq imkanı və hüququ vardır. Onun, həyatın ziddiyyətlərinin əslində bir tamın tərkib hissələri, ayrı-ayrı qanunların isə qarşılıqlı əlaqəli olması haqqında nəticələri özünüidarə mədəniyyəti üçün metodoloji əhəmiyyətə malikdir. Müəllifin maraqlı müşahidələrindən biri odur ki, müvəffəqiyyət bəxti gətirməkdən o qədər də çox asılı deyil, o, insanın müəyyən prinsiplər və dəyərlər üzərində qurulan həyat tərzinin nəticəsidir. İnsan seçim edərkən yadda saxlamalıdır ki, müvəffəqiyyət situasiyadan daha çox ondan necə istifadə edilməsindən asılıdır. Şefer müvəffəqiyyət əldə etmiş insanlar haqqında danışaraq, Bessi Stenlinin çox gözəl sözlərini misal gətirir: "İnsan yaxşı yaşayıbsa, çoxlu gülüb və sevibsə, ağıllı adamların hörmətini və balaca uşaqların məhəbbətini qazanıbsa, əgər həyatda öz yerini ya yetişdirdiyi gözəl güllərlə, ya çox gözəl şeirlərilə, ya da xilas etdiyi qəlblərlə doldura bilibsə, hesab etmək olar ki, o, müvəffəqiyyət qazanıb. Əgər minnətdarlıq sözlərini əsirgəməyibsə, dünyanın gözəlliyini qiymətləndiribsə və bu barədə danışmağa sıxılmayıbsa, əgər o, insanlarda ən yaxşı olanı görməyi bacarıbsa və özündə olan ən yaxşı şeyləri səxavətlə paylaşıbsa, əgər onun həyatı insanları ruhlandırıbsa, haqqındakı xatirə isə onların qəlbində qalıbsa, – o, müvəffəqiyyət qazanıb".

Nəticə etibarilə səmərəli fəaliyyət şəxsiyyətdən xüsusi vərdişlər tələb edir. İnsan özündə şüurlu təfəkkürü, düzgün həyat mədəniyyətini və istənilən həyat vəziyyətində qələbəyə yönəldilmiş uğurlu texnologiyaları təkmilləşdirməyi bacarmalıdır. O, şəraitin qurbanı olmayaraq və öz acizliyinə bəraət qazandırmayaraq, öz arzuları və qoyduğu məqsədləri nəzərə alaraq, ona lazım olan şəraiti özü qurmağı və onu idarə etməyi, düzgün qərarlar tapmağı və hətta faciəli situasiyalarda qələbə sonluğunu təmin etməyi öyrənməlidir. İnsanın xarakteri və şüurlu seçimi ilə şərtlənən həyat qabiliyyəti haqqında danışaraq, Bodo Şefer "qartalın" və "ördəyin" xüsusiyyətlərinin müqayisə-sini verir. O, eqoizmdən azad ola bilən qartalları tərbiyə etməyin zəruriliyindən danışır. "Ördəyin" prinsipi – hər bir şəraitə uyğunlaşma; mübarizə və problemin həlli yollarını tapmaq əvəzinə – bəhanələrin axtarışı; situasiyanı, onun innovativ təhlili əvəzinə – birtərəfli görmə; nikbin möv-

qe əvəzinə – bədbin mövqedir. Ördəklər şəraitdən şikayət edirlər və sahib olduqlarını sevməyə məcburdurlar. Qartallar isə şəraiti dəyişirlər və istədikləri şeyi əldə edirlər. Bu fərqi dərk edərək, ördəyə bənzəməmək və "qağıldamamaq", şikayət etməmək, ancaq hərəkət etmək çox vacibdir. Müvəffəqiyyətə hesablanmış özünüidarə, öz ləyaqətini, anadangəlmə keyfiyyətlərini və qabiliyyətlərini obyektiv qiymətləndirmək, öz güclü cəhətlərini məqsədyönlü şəkildə inkişaf etdirmək və pozitiv nəticələr əldə etmək üçün onlardan səmərəli istifadə etmək və onları müntəzəm olaraq günü-gündən yaxşılaşdırmaq bacarığını nəzərdə tutur. Belə özünüidarənin səmərəliliyinin vacib şərti biliklər, məntiq və gərgin əmək, qətiyyət, dözüm və möhkəm iradə, müəyyən situasiyada mövcud olan əlverişli üstünlükləri görmək, başa düşmək və düzgün istifadə etmək bacarığıdır. Hər bir insan təkrarolunmazdır. Onun anadangəlmə keyfiyyətləri, qəlbinin xüsusiyyətləri, xarakterinin əlamətləri, şəxsi həyat təcrübəsi təkrarolunmazdır. Fərdiliyi yalnız ona məxsusdur.

Öz qabiliyyətlərini və xoşbəxt həyat qurmaq imkanlarını lazımi surətdə qiymətləndirmək vacibdir, çünki ağıl, istedad və qabiliyyətlər – özünün inkişafı, tələbatlarını təmin etmə və məqsədlərinə nail olma üçün səmərəli istifadə edilməli olan şansdır. Ağılın sərvəti xeyirxahlığın sərvətindən üstündür, çünki sərvətlə ağıl ala bilməzsən, ağılla isə sərvət yaratmaq mümkündür. Sərvəti itirmək də olar, ağıl, bilik və vərdişlər isə şəxsiyyətin inkişafının nəticəsi olmaqla, ayrılmaz insan kapitalıdır. Özündə yeniliyə həssaslığı, kreativliyi, innovativliyi, bəzən bu və ya digər mühitin bizə təlqin etdiyi, bizim analitik təfəkkür imkanlarımızı məhdudlaşdıran təfəkkür stereotiplərindən imtina etmək bacarığını, taxılı alaq otundan ayırmaq qabiliyyətini, öz seçimimizi və bizim özümüzə məxsusluğumuzu təkmilləşdirmək çox vacibdir. Özümüzü inkişafımıza, ruhi vəziyyətimizə müsbət təsir göstərən, zəngin təcrübəyə və məhsuldar həyat fəaliyyətinin səmərəli strategiyalarına malik yaxşı və ağıllı adamlarla əhatə etməliyik. Bununla bərabər mədəniyyətinin sizin mədəniyyətinizlə uyğunsuzluğu aşkar olan insanlarla ünsiyyətdən qəti surətdə çəkinmək lazımdır, çünki belə insanlar sizin sağlamlığınıza, şüurunuza və davranışınıza destruktiv təsir göstərən mənbə ola bilərlər. Lakin bu zaman, əgər bu mümkündürsə, mənbəyinin sosial mühit və insanın tərbiyəsi ilə şərtlənən müəyyən dünyagörüşü olduğu neqativ energetikaya malik insanların mədəniyyətinin pozitiv dəyişilməsinə kömək etməyə çalışmaq lazımdır. İnsan şəraitin qulu olmalı deyil, vəziyyətləri öz maraqlarına xidmət etməyə yönəldərək, digər insanların maraqlarına zərər yetirmədən, onları pozitiv dəyişdirməlidir. Əgər hər hansı bir vəziyyəti dəyişmək bizim qüvvəmiz xaricindədirsə, təbii hadisələr kimi onları da sakitcə qəbul etməliyik. Bizim fəaliyyətimizi çətinləşdirən səbəbləri yalnız xarici mühitdə deyil, həm də öz mövqeyimiz və fəaliyyətimizdə, qətiyyətimizdə və real vəziyyətləri öz maraqlarımızda istifadə etmək bacarığında axtarmaq lazımdır. Bunun üçün insan öz həyat fəaliyyətinə görə yüksək məsuliyyət mədəniyyətinə malik olmalı, özünü şəxsi taleyinin sahibi hiss etməlidir. Mürəkkəb vəziyyətləri nikbin qavramaq, onlara layiqincə reaksiya vermək və təmkinini saxlayaraq imkan daxilində düzgün qərarlar və tədbirlər qəbul etmək

çox vacibdir. Öz çarəsizliyinə bəhanə axtarmaq deyil, bütün enerjisini qoyulmuş məqsədə çatmağa yönəldərək, situasiyanın çağırışına ağıllı cavab tapmaq lazımdır. Françesko Petrarka deyirdi: "Əgər qartal ola bilərsənsə, dolaşalar arasında birinci olmağa çalışma".

Eyni zamanda pozitiv təfəkkür və hadisələrə hakim münasibət yetişdirmək, situasiyanı düzgün qiymətləndirmək və elə aktiv fəaliyyət göstərmək lazımdır ki, vəziyyəti öz müvəffəqiyyətinin və öz xoşbəxtliyinin maraqlarına tabe edərək, onu dəyişəsən.

Müvəffəqiyyət əldə etməkdə şəxsi intizam və özünənəzarət mühüm rol oynayır. Biz artıq qeyd etdik ki, əgər insan situasiyanı idarə etmirsə, onda situasiya onu idarə etməyə başlayır. Bu, bizim uğurlarımızın əsasını təşkil edən gündəlik praktik fəaliyyətə münasibətdə də tamamilə doğrudur. Qoyulmuş məqsədə çatmaq üçün yalnız biliklər və bacarıqlar, istedad və qabiliyyətlər, fəaliyyət planı və texnologiyalar kifayət deyil. Nəzərdə tutulan planların daha yaxşı tərzdə həyata keçirilməsində özünə inam, şəxsi mütəşəkkillik, məsuliyyət və iradə, öz fəaliyyətinə daimi nəzarət, planların və alınan nəticələrin tutuşdurulması lazımdır. Öz fəaliyyət və nəticələrinin qeydini, – nailiyyətlərini özünütənqid şəklində təhlil etməklə, gündəlikdən yaxud öz fəaliyyətinin səmərəliliyinin digər yazılı monitorinq formalarından istifadə edərək, yazılı formada aparmaq lazımdır. Özünün bütün fikrini və qüvvəsini dağıtmayaraq, bir işin üzərində cəmləşdirməyi bacarmaq və yalnız onu tamamladıqdan sonra digərinə keçmək lazımdır. Öz fikirlərinə nəzarət etmək və diqqəti nə isə bir işin üzərində cəmləşdirmək faydalı iş əmsalımızı dəfələrlə artırır və səmərəli nəticə əldə etməyə imkan verir.

***Çətinliklərin, uğursuzluqların və məğlubiyyətlərin aradan qaldırılması***

Həyat yalnız inkişaf imkanlarından deyil, həm də mürəkkəb problemlərdən və çətinliklərdən ibarətdir ki, onları mərdliklə qəbul etmək və onlarla ləyaqətlə mübarizə aparmaq lazımdır. Erazm Rotterdamski hesab edirdi ki, "hətta ən pis talelərdə belə xoşbəxt dəyişikliklər üçün imkanlar var". "Əlverişli imkanın çətinliklərin və problemlərin arasında gizləndiyini" qeyd edən Albert Eynşteyn də onunla həmfikirdir. Uğursuzluqlar bizi özümüzə olan inamdan məhrum etməməlidir. Yadda saxlamaq lazımdır ki, ilin fəsilləri bir-birini əvəz etdiyi kimi, insanın həyatında işıqlı və qaranlıq zolaqlar birbirini əvəz edir. Bu elə qanunauyğunluqlardır ki, onlara psixoloji cəhətdən hazır olmaq, şəxsi uğursuzluqlar kimi qəbul etməmək, məqsədə çatmaq üçün yalnız əqli və fiziki qabiliyyətlərini deyil, həm də ürəyini qoyaraq səylə çalışmağa davam etmək lazımdır. Onu da yaddan çıxarmaq lazım deyil ki, özünüidarə prosesi səhvlərsiz ötüşmür. Onlar insanın inkişafının dəyişməz yol yoldaşıdır. Digər tərəfdən, düzgün qərarlar qəbul etməyə və müvəffəqiyyət qazanmağa imkan verən təcrübə mənbəyidir. Şəxsi hazırlıqsız, müntəzəm olaraq biliklərini artırmadan, özünün şəxsiyyət dəyərlərini yüksəltmədən effektiv özünüidarə mümkün deyil. İnsan özünün həyat fəaliyyəti nəticələrinin ailə, cəmiyyət, dövlət və bütün bəşəriyyət üçün faydalılıq

dərəcəsi ilə müəyyən edilən dəyərini bilməlidir. Gələcək haqqında düşünərkən indiki zamanı və ətrafdakı insanları qiymətləndirmək, həyatın hər bir pozitiv anını taleyin şansı və hədiyyəsi kimi qəbul etmək lazımdır.

İşdə olduğu kimi, həyatda da, uğursuzluqlardan qorxmaq və məğlubiyyətləri faciə kimi qəbul etmək lazım deyil. Problemə hər bir yeni yanaşma – müəyyən uğursuzluğa düçar olmaq riskidir. Buna görə də biz, biliyə istinad edərək, qorxu və qətiyyətsizliyi, məğlubiyyət əhval-ruhiyyəsini qəbul etməməli, mərdlik və möhkəm iradə göstərməli, yeni ciddi nailiyyətlərlə özünü doğrulda biləcək ağlabatan riskə getməliyik. Dialektika qanunlarını xatırlayaraq, nəzərə almaq lazımdır ki, həyatda uğursuzluqlar və məğlubiyyətlər qaçılmazdır. Başlıcası, onları güclü şəxsiyyət formalaşdıran və onun özünüidarə qabiliyyətini inkişaf etdirən dərslər kimi qəbul etmək lazımdır. Həyat prosesini məktəbdə uşağın təlim prosesi ilə müqayisə edərək, Templton bizim həll etməli olduğumuz problemlərin çətinliklərinin daim artması haqqında danışır. Bu həm də yeni insanlar, amillər, şəraitlər, düşüncələr, vəziyyətlərdir ki, onlara uyğunlaşmaq lazımdır. Başlıcası – mürəkkəb tapşırıqların yaranmasından qorxmamaq, sadəcə öz praktikasını genişləndirərək və şəxsi təcrübəsini zənginləşdirərək, "yolun öhdəsindən yalnız yolu gedən kəsin gələ biləcəyini" xatırlayaraq, onları ardıcıl surətdə və inamla həll etmək lazımdır. Problemləri nikbinliklə, düzgün həllini tələb edən təbii, qanunauyğun həyat hadisələri kimi qəbul etmək gərəkdir. Situasiyanı və onunla bağlı olan çətinlikləri aydınlaşdırmaq, vəzifəni və onun bilik və təcrübəyə əsaslanan həllini müəyyən etmək lazımdır. Bu pillələrin dərk edilməsi və ardıcıl fəaliyyət inamsızlığı və qorxunu aradan qaldırmağa, məsələnin düzgün həllini tapmağa və pozitiv nəticələr əldə etməyə yardım edir. Öz növbəsində, yüksək nəticələrin əldə edilməsi arzumuza çatmaqda yeni qələbələrə stimul olur. Bu mənada müvəffəqiyyət – ən ümdə məqsədə nail olmaqda yeni qələbələrə aparan pilləkəndə bir pillədir. Beləliklə, zəhmət, inad və dözüm – həyatın çətinliklərinə münasibətdə mədəni immunitet formalaşdıran güclü alətlərdir ki, onlarsız insanın inkişafı ağlasığmazdır. Deyilənlərə uyğun gələn xalq hikmətini xatırlayaq: "tərpənməyən daşın altından su axmır", "səndən – hərəkət, Allahdan – bərəkət".

Öz imkanlarından aşağı olmayan səviyyədə yaşamaq və işləmək üçün nə etmək lazımdır? Özünüidarə məsələlərinə yaradıcı şəkildə və məsuliyyətlə yanaşmaq. Bilmək azdır, öz biliklərini praktik surətdə həyata keçirməyi bacarmaq lazımdır. Bacarmaq azdır, mütəşəkkil, məsuliyyətli və iradəli olmaq gərəkdir. Mütəşəkkil olmaq azdır, ətrafdakılara münasibətdə nəcib, etik olmaq lazımdır. Etik olmaq azdır, işgüzar olmaq, bunun üçün konkret fəaliyyət sahəsi seçib, strategiya, metodika və texnologiyanı düzgün müəyyən edib, çalışmaq, yaratmaq lazımdır. Bu gün edilməsi mümkün olan iş sabaha saxlanılmamalıdır. Prioritet işlər: sağlamlıq, başqa insanlarla qarşılıqlı münasibətlər, maddi rifah məsələləri, emosiyalar və əmək olmalıdır.

Bodo Şefer müvəffəqiyyətə aparan yolda, insanın xarakteri və keyfiyyətləri ilə şərtlənən altı maneəni göstərir. Bunlar lovğalıq, cahillik, şöhrətpərəstlik, tənbəllik,

şübhələr və günah hissidir. Bu maneələrin aradan qaldırılması yolu sadəlik, təhsillilik, inadlı zəhmət, mərdlik, öz qüvvəsinə inam, möhkəm iradədir. Məmnunluq və xoşbəxtlik hissinın duyulması üçün yaxşı iş seçimi və ona düzgün münasibət bəsləmək böyük əhəmiyyət daşıyır. Bu, öz istedad və qabiliyyətlərini həyata keçirərək, işdən zövq almağa, şəxsi rifahını təmin etməyə və digər insanlara dəstək olmağa imkan yaradır. Bu zaman yadda saxlamaq lazımdır ki, zaman ən qiymətli resursdur, həyat şəraitinin yaxşılığa doğru dəyişməsi daha çox bizim əməyimizdən asılıdır, bizim təsir etmək iqtidarında olmadığımız şeyləri dəyişməyə çalışaraq, enerji sərf etmək lazım deyil. Peşəkar olduğu fəaliyyət sahəsində çalışmaq, işini ən yaxşı şəkildə görmək prinsipial əhəmiyyət kəsb edir. Belə bir məşhur ifadə var: "Rəssam, şah əsərləri təqlid edə-edə formalaşır". Başqa insanların, ələlxüsus, həyatda böyük uğurlara nail olanların təcrübəsini öyrənmək və onlardan yaradıcı şəkildə istifadə etmək çox vacibdir.

Piter Druker haqlı olaraq qeyd edir ki, hətta Leonardo da Vinçi, Napoleon, Motsart və dünya mədəniyyətinin başqa görkəmli xadimləri də çətinlikləri dəf edərək, daim öz üzərlərində işləmişlər. Məhz buna görə onlar bu qədər çox şeyə nail olmuşlar. İstər-istəməz İsaak Nyutonun məşhur aforizmi yada düşür: "Mən başqalarından uzağı onun üçün görə bildim ki, məndən əvvəl işləyənlərin hamısının çiyinləri üzərində qalxdım." Bu miqyasda xadimlər az olsa da, istedad səviyyəsi və fəaliyyət nəticələri onları adi insanlarla bir cərgəyə qoymağa imkan vermir, tamamilə aydındır ki, zəhmət və məqsədyönlülük olmadan, onlar çətin ki müvəffəqiyyət qazanardılar, çünki istedad ancaq ciddi əməklə birləşdikdə çox gözəl nəticələr verir.

Həyatda öz yerini tapmaq üçün öz qabiliyyətlərini, iş üslubunu və öz əxlaq prinsiplərini bilmək lazımdır. Özünün təbii qabiliyyətləri və istedadlarının düzgün qiymətləndirilməsi və istifadə edilməsi zəruriliyi haqqında danışaraq, Piter Druker vurğulayır ki, vətəndaş cəmiyyəti şəraitində hər bir insanın seçimi var. Buna görə də həyatda öz yerini tapmaq üçün öz qabiliyyətləri haqqında mümkün qədər çox bilmək, bunun üçün nəticəni proqnozla müqayisə edərək, öz fəaliyyət nəticələrini təhlil etmək lazımdır. Nəticələrin təhlili, diqqəti özünün güclü cəhətlərində cəmləş-dirmək, qabiliyyətlərinin daha geniş surətdə aşkarlanması üçün, onları praktikada düzgün tətbiq edərək, öz bilikləri və vərdişlərini təkmilləşdirməyə imkan yaradır. Bizim əxlaqi prinsiplərimizə uyğun şəraitlərdə işləmək, habelə öz etik mədəniyyətimizi təkmilləşdirmək, başqa xalqların mədəniyyətlərinə dair biliklərimizi artırmaq, kollektivlə və təşkilatın rəhbərliyi ilə yaxşı münasibətlər qurmaq, ictimai fəaliyyətlə məşğul olmaq da eyni dərəcədə vacibdir. Druker sürətli dəyişikliklər şəraitində öz peşəkar rəqabətqabiliyyətliliyini itirmək istəməyən zehni əmək işçilərinə qarşılıqlı münasibətləri qaydaya salmağa görə məsuliyyəti öz üzərinə götürməyi öyrənməyi və aşağıdakı suallara cavab tapmağı məsləhət görür: mənim nəyə həvəsim var? məndə nəyə qabiliyyətlər var? mənim iş üslubum hansıdır? həyatda mənim yerim hardadır? təşkilatın ümumi işinə mənim şəxsi töhfəm nədən ibarətdir?

***Özünütəkmilləşdirmə***

Həyatın mürəkkəb problemlərini həll etmək bacarığı insanın anadangəlmə məziyyətlərinin inkişafına və özünüidarənin əsas məqsədlərindən biri olan insanın özünütəkmilləşdirməsinə yardım edir. Daim yaxşılığa doğru dəyişmə yeni imkanların üzə çıxmasına səbəb olur. İnsan özünün bilikləri, vərdişləri, bacarıqları, iradəsi, məsuliyyəti, mənəviyyatı və nəticə etibarilə səmərəli yaradıcı fəaliyyətini daim inkişaf etdirmək hesabına şəxsiyyət olmağa can atmalıdır. O, öz əməlləri və mənəvi, insani keyfiyyətləri, yüksək ruhi mədəniyyəti sayəsində ətrafdakıların sevgisini və hörmətini qazanmalıdır. Lakin hörmət və sevgini qazanmaq kifayət deyil, onu saxlamağı bacarmaq lazımdır. Yüksək nəticələr əldə etmək üçün həsəd aparanlara fikir vermədən, onları "təbiətin təbii məsarifləri" və istedadlı adamları müşayiət edən yol yoldaşları kimi nəzərdən keçirərək, çoxlu və inadla çalışmaq lazımdır. Təbiət qanunauyğunluqlarına görə, vicdanlı əməyin nəticələri və səbir hökmən mükafatlandırılmalıdır. Həmişə öz gücünə və qələbəyə inanmaq lazımdır. Onu izləyənlərin neqativ psixoloji əks-təsirinə baxmayaraq, kar olması səbəbindən hündür qalaya dırmaşıb çıxan kar qurbağa əhvalatını xatırlayaq. Bu əhvalat bizi ən ümdə arzularımızdan məhum etməyə çalışaraq, öz bədbinliyi və neqativ əhval-ruhiyyəsini bizə ötürməyə çalışan insanlara heç vaxt qulaq asmamağı öyrədir.

Sizin müəyyən qələbə qazanmaq əzminizi görüb: "Bu mümkün deyil, sən heç vaxt bunun öhdəsindən gələ bilməzsən", – deyən insanların nüfuzuna və xeyirxahlığına şübhə ilə yanaşın. İnsanın inkişaf səviyyəsindən, xarakterindən və özünüidarə qabiliyyətindən asılı olaraq, onun mədəniyyəti həyat qabiliyyəti kimi, əsasən: həyata passiv uyğunlaşma, seyr etmə və tələbat kimi, yaxud yaradıcılıq, gerçəkliyin fəal dəyişdirilməsi kimi təzahür edə bilər. Özünütəkmilləşdirmə fəal həyat mövqeyi tələb edir. Hər bir insan həyat qabiliyyəti səviyyəsinin inkişafı və imkanlarının artırılması məqsədilə hər bir insan özünə kənardan baxmağı bacarmalı, özünün güclü və zəif cəhətlərini qiymətləndirməlidir. Bu məqsədlə idarəetmə elminin əsaslarını yaxşı bilmək və ondan özünüidarə məqsədi ilə yaradıcılıqla istifadə etmək vacibdir. Bu, özünütəsdiq və həyatda öz qabiliyyətlərimiz və imkanlarımızı reallaşdırmaq üçün, şəxsiyyətin zövqünə və maraqlarına cavab verən işin səmərəli axtarışı üçün, firavan və xoşbəxt ailə qurmaq üçün yeni imkanlar açacaqdır.

İnsan öz xoşbəxtliyinin memarı olmalı, təbiətin ona bəxş etdiyi, bərpa olunan resurs kimi, öz fərdi qabiliyyətlərini idarə etməyi öyrənməli, daha yüksək nəticələr verən iş üslubunu qiymətləndirməli və inkişaf etdirməlidir. Bu, həyatın çağırışlarını tam hazırlıqla qarşılamağa və pozitiv təfəkkürün yetişdirilməsi və yeni fəaliyyət formalarının tapılması, özünütəşkilin yenidən qurulması vasitəsi ilə böhran vəziyyətlərini yeni yolların və şəxsi inkişaf imkanlarının tapılması üçün istifadə etməyə kömək edəcək.

Şəxsiyyətin təkmilləşməsi və özünüidarə məsələlərinə XIII əsrin görkəmli Azərbaycan alimi Məhəmməd Nəsirəddin Tusi böyük əhəmiyyət verirdi. Uğurlu idarəetmə və özünüidarə məsələlərini nəzərdən keçirərək o, insanın aşağıdakı keyfiyyətlərə sahib olmasının vacibliyini qeyd edirdi: gerçəkliyin düzgün dərk

edilməsində ağılın təbii qabiliyyəti, həqiqətin dərk edilməsinə və inkişaf qanunlarını kəşf etməyə imkan verən təhsil, elmi biliklər, mütərəqqi dəyişikliklərə və bəşəriyyətin kamilləşdirilməsinə istiqamətlənmiş müdriklik, təcrübə, istedad, möhkəm iradə və yaradıcı əmək, həmçinin insan münasibətləri mədəniyyəti. Dövlətin maraqlarını nəzərə alaraq, Tusi müdriklərə olan tələbatdan və peşəkar məmurların hazırlanması zəruriliyindən danışır. Ölkənin idarə edilməsi məsələsinə toxunan alim, insanların mədəni inkişaf ehtiyaclarının, şəhər həyat tərzinin inkişafına imkan yaradan insan münasibətləri sisteminin formalaşdırılması ilə bağlı təhlilinin vacibliyinə, səmərəli istehsala, dövlət quruculuğu və idarəçiliyi üsullarının təkmilləşdirilməsinə, sosial ədaləti və xalqın rifahının yüksəlməsini təmin edən dövlət siyasətinin həyata keçirilməsinə xüsusi diqqət yetirirdi. Tusi insan münasibətləri mədəniyyətindən danışaraq, cəmiyyətin sosial terapiyasını onunla əlaqələndirir. O, insanın sosial dəyərini artıran və ünsiyyət mədəniyyətində mümkün səhvlərdən çəkinməyə, şəxsiyyətin inkişafına və kamilləşməsinə mane olan qanunsuz qərarların qarşısını almağa, sosial bəlaları aradan qaldırmağa və ictimai münasibətləri təkmilləşdirməyə imkan verən insanların davranışı haqqında elmin öyrənilməsinin zəruriliyinə xüsusi vurğu edir.

İdeal insan, ideal ailə və ideal cəmiyyətin formalaşdırılması zəruriliyini vurğulayan Tusi bu prosesdə nitqin, əməyin, xeyirxahlığın və elmin inkişafının xüsusi rol oynadığını qeyd edir. Tusinin insan mədəniyyətinin həyati vacibliyini qeyd edən konsepsiyasının əsas müddəalarının mahiyyəti aşağıda göstərilənlərlə nəticələnir: ağıllı nitqin inkişafı olmadan mədəniyyət mümkün deyil; şüurlu əmək olmadan xoşbəxtlik mümkün deyil; məqsədin formalaşdırılması xeyirxahlıq və xoşbəxtliyə yönəldilməlidir; elm və təcrübənin vəhdəti olmadan şəxsiyyətin inkişafı və təkmilləşməsi mümkün deyil. Tusinin bu müddəalarının dərk edilməsi və təhlili şəxsiyyətin özünüidarəsi üçün praktik əhəmiyyətə malikdir. Onun konsepsiyasına görə şəxsiyyətin özünü-idarəsinin və onun mənəvi sağlamlığının qorunmasının başlıca şərtlərindən biri – insanın nəzəri və praktik hazırlığı, onun yaxşı və faydalı işlə məşğul olması, yaradıcı əməkdir. Bununla bərabər Tusi insanın özünün öz mənəvi mədəniyyətini formalaşdırmasının zəruriliyi haqqında danışır və bunu necə etmək lazım olduğunu izah edir.

Tusi şəxsiyyətin özünüidarə problemini nəzərdən keçirərkən nəfsin idarə edilməsi məsələsinə xüsusi diqqət ayırır. Ən böyük hünər – öz nəfsinə qarşı olan hünərdir. O, öz nöqsanlarına qalib gəlməyə və müdrikliyə yaxınlaşmağa kömək edir. Ağıl və qəlb vasitəsilə şüurlu surətdə idarə edilən nəfs insanı yüksək mədəniyyət səviyyəsinə ucalda bilər, özbaşına buraxıldıqda isə insanın heyvan səviyyəsinə enməsinə səbəb ola bilər. Tusi nəfsin tərbiyə edilməsində peyğəmbərlərin, alimlərin, rəhbərlərin, tərbiyəçilərin və müəllimlərin böyük rol oynadığını qeyd edir. Müəllimin xüsusi missiyasından danışaraq, Tusi belə bir məlum faktı misal gətirir: Makedoniyalı İsgəndər öz müəllimini atasından daha yüksək qiymətləndirirdi, bunu belə izah edirdi ki, əgər atası ona həyat bəxş etmişdirsə, müəllimi ona əbədiyyəti bəxş etmişdir. İnsan mənəvi sağlamlığını qorumaq və öz nəfsini idarə

etmək üçün özünü müşahidə etməli, hərəkətlərini şüurunun nəzarəti altında saxlamalı, davranışını təhlil etməli və qərəzsiz şəkildə qiymətləndirməli, öz xarakterinin mənfi cəhətlərindən qətiyyətlə azad olmalı və hər gün xeyirxah əməllərinə görə özü qarşısında hesabat verməlidir. Tusi ruhi və psixi xəstəlikləri aid etdiyi, "ölüm qarşısında qorxu" yaradan "nəfs xəstəliklərinə" toxunaraq, ölümdən deyil, faydasız həyatdan qorxmaq lazım olduğu haqqında danışır. Qeyd etmək maraqlıdır ki, müdrikliyi həqiqətdə görən İohann Volfhanq Höte faydasız həyatı "vaxtsız ölüm" adlandırırdı.

Ölüm qarşısında qorxunu dəf etmək üçün təmiz vicdana sahib olmaq və öz yaradıcı əməyi ilə insanlara xeyir vermək lazımdır.

### *Ünsiyyət mədəniyyəti*

İnsanın özünüidarəsinin ən parlaq keyfiyyət göstəricilərindən biri onun cəmiyyətdə davranışıdır. Uğurlu, xoşbəxt həyat yaşamaq və özündən sonra xoş xatirə qoymaq üçün özündə yüksək səviyyəli insan münasibətləri mədəniyyətini, başqa insanlarla yola getmək qabiliyyətini yetişdirmək lazımdır. O, xeyirxahlığa, həqiqətə və ədalətə tərəfdarlığı, layiqli olanları qiymətləndirmək, ehtiyacı olanlara kömək etmək, başqalarının səhvlərini bağışlamaq, yaxşı olmayan insanların şüuru, təfəkkürü və davranışını müsbət yöndə dəyişməyə kömək etməyə çalışaraq, onlara qarşı səbrli və yumşaq olmaq bacarığını nəzərdə tutur. İnsanın mədəni potensialı və onun inkişaf imkanları əsas etibarilə müşahidəçilik – "görmək" və "eşitmək" qabiliyyətindən asılıdır. Eşitmək və eşitdiklərini düzgün şərh etmək bacarığı bizim ətraf aləm haqqındakı biliklərimizi genişləndirir, insan münasibətləri mədəniyyətinin inkişafına yardım edir. Mədəni insan müşahidəçi olmalı və başqalarını mühakimə etmək əvəzinə, onların motivlərini başa düşməyə çalışmalıdır. Ətrafdakılarla ruhi harmoniyaya nail olmaq üçün onları nəyin hərəkətə gətirdiyini bilmək, onlara diqqət, mərhəmət göstərmək, dəstək olmaq lazımdır. Burada məsuliyyət daha mədəni, ağıllı və güclü, möhkəm iradəyə malik insanın üzərinə düşür. O həm də özünü dərk etməyi, öz davranışına kənardan tənqidi baxmağı və lazım gələrsə, onu müsbət yöndə dəyişdirməyi bacarmalıdır.

Məlum olduğu kimi, insanın davranışı onun gerçəkliyə bütün münasibətlər sistemi, hər şeydən əvvəl, onun ətrafdakı insanlara münasibəti ilə müəyyən edilir. Belə münasibətin keyfiyyət meyarı – insanlar tərəfindən həmişə qiymətləndirilən insanlıq və humanizmdir. Albert Eynşteyn deyir: "Yalnız başqaları üçün yaşanan həyat ləyaqətlidir".

Ünsiyyət mədəniyyətində nitq çox böyük rol oynayır. Hələ XI əsrdə Key Kavus yazırdı: "Nitq qabiliyyətini bütün qabiliyyətlərdən ən yaxşısı hesab et". İnsanlarla danışan zaman öz fikirlərini dəqiq ifadə edərək sözləri düzgün seçmək lazımdır. C.Templton deyir ki, "sözlərimiz – onlar vasitəsilə dünyamızı qurduğumuz səs alətidir". Deyilənin ağlabatanlığı, müsbət energetikası, qüsursuz məntiqi və inandırmaq bacarığı möcüzələr yarada bilər. Kimə isə verilən sözün üstündə durmaq lazımdır – bu bizə inamın, hörmətin və müvəffəqiyyətin rəhnidir.

İnsanın davranışı onun daxili mədəniyyətini, xarakterini, temperamentini, tələbatlarını, istəklərini, dünyagörüşünü, etik prinsiplərini, emosiyaları və hisslərini, əhval-ruhiyyəsini əks etdirir. Mədəni insan özünün pis əhval-ruhiyyəsini nümayiş etdirməməli, ətrafdakıları öz qayğı və həyəcanları ilə yükləməməli, onları sürətlə dəyişən emosiyaları ilə yormamalıdır. O yalnız öz hərəkətlərinə deyil, həm də ətrafdakılara və insanın özünə böyük təsir göstərən sözlərinə fikir verməlidir. Xeyir söz və xeyir əməl, səmimiyyət, başqalarını dinləmək qabiliyyəti – faydalı insan münasibətlərinin formalaşdırılmasının ən yaxşı üsuludur. Eyni zamanda etik normaları və qaydaları bilmək kifayət deyil, onların təsadüfi xarakter deyil, şəxsiyyətin ruhi dincliyini yaradan və digər insanların həyatına yardım edən keyfiyyətinə çevrilməsinə imkan yaradaraq, real həyatda onlara dönmədən əməl etmək lazımdır.

Şəxsiyyətin etik mədəniyyəti və etiket eyni bir şey deyil, çünki nəzakət həmişə xeyirxahlığa, ədəb isə – heç də həmişə hörmətə əsaslanmır, kəskin səs tonu – hər zaman təkəbbür və etinasızlıq əlaməti deyil. İnsanı başa düşmək və haqqında düzgün mülahizə yürütmək üçün onun hərəkətləri və ya münasibətinin səbəbini axtarmaq, öz davranışında onun əsaslandığı motivlərə nüfuz etmək lazımdır. Bu zaman özünə kənardan baxmaq, öz xarakterini, vicdanını, özünün dəyərlər sistemini, düşüncələrini, niyyətlərini və hərəkətlərini obyektiv qiymətləndirmək də eyni dərəcədə vacibdir. İnsanın hərəkətləri həmişə yaxşı düşünülmüş olmalı, nəzakəti, həssaslığı və müdrikliyi ilə seçilməlidir, çünki onlar müəyyən nəticələrə səbəb ola bilər. Ona görə çalışmaq lazımdır ki, onlar ətrafdakılara və insanın özünə yaxşı təsir bağışlasın. Səmimiyyət, vicdan, məhəbbət, humanizm, xeyirxahlıq, borc, ədalət, düzlük kimi mənəvi kateqoriyalar aprior xarakter daşıyırlar, zamanla və ya şəraitdən asılı olaraq dəyişmirlər. Lev Tolstoy deyir: “Sadəlik, xeyirxahlıq və doğruluq olmayan yerdə əzəmət yoxdur”. Bu keyfiyyətlər böhran şəraitində və ya mürəkkəb situasiyalarda daha parlaq şəkildə təzahür edir, insanın daxili əqidəsinə və xüsusiyyətinə çevrilərək, ruhi mədəniyyətin güclü mənəvi amili, şəxsiyyətin özünüidarə mədəniyyətinin göstəricisi olur.

Özünüidarənin vəzifələrindən biri – ruhi rahatlığın yaradılmasına kömək edən nəzakətli özünüidarə üslubunun formalaşdırılmasıdır. Bu isə daha çox bizi əhatə edən insanlarla münasibətlər mədəniyyətindən, bizim səxavətimiz və şəfqətimizdən asılıdır. Başqalarına qarşı münasibətdə yaxşılıq ruhi harmoniyanın açarıdır. İnsanların xarakteri və tələbatlarını anlamaq məqsədilə özündə müşahidə qabiliyyəti yetişdirmək çox vacibdir. Ətrafdakıların xarakteri, maraqları və gözləntilərini başa düşmək, onların yaxşı cəhətlərini görməyə, onların nəcib başlanğıcını, sevgi və etimadını stimullaşdırmağa çalışmaq, insanların problemlərinin həllində və tələbatlarının ödənilməsində onlara yardım etmək yalnız şəxsiyyətin humanist mövqeyi deyil, həm də mədəni insanın özünün sağlamlığı üçün lazım olan ruhi tarazlıq şərtidir. İnsanlara məhəbbət bizi xoşbəxtliyə nail olmaq üçün zəruri olan enerji ilə təmin edir. Fyodor Dostoyevski qeyd edirdi: “Hamının xeyrinə özünü bütünlüklə fəda etmə şəxsiyyətin ən yüksək inkişaf əlamətidir”.

Başqa insanlara kömək göstərərək, biz özümüz üçün onların potensial dəstəyini yaradırıq. İnsan münasibətləri mədəniyyətinin psixoloji instrumentarisi şəxsiyyətin həyat fəaliyyətinin rahatlığı üçün lazım olan, insanlarla ruhi harmoniyaya nail olmağa imkan verən bir sıra mühüm prinsipləri birləşdirir. Bodo Şefer səmərəli həyat mövqeyinin və şəxsiyyətin nəzakətli özünüidarə üslubunun formalaşdırılması üçün mühüm əhəmiyyət daşıyan 24 "qızıl qayda" ifadə etmişdir. Bu qaydaların əsas mahiyyətini insan münasibətləri mədəniyyətinə birbaşa aidiyyəti olan aşağıdakı tövsiyələrdə birləşdirmək olar. Bu, başqalarına marağın, hörmətin və empatiyanın (dərdinə şərik olmaq) təzahürü, onların pozitiv istəkləri və fəaliyyətinin bəyənilməsi və təriflənməsi, çətinliklərinin aradan qaldırılması və problemlərinin həll edilməsində diqqət və dəstək göstərilməsidir. İnsanların yaxşı cəhətlərini aşkar etmək məqsədilə onları müşahidə etmək qabiliyyəti, insana yaxşı münasibətin və kömək etməyə hazır olmanın ifadə edilməsi, şəxsiyyətin məziyyətlərinin ədalətlə qiymətləndirilməsi və onun xidmətlərinin etirafı, insanlara tez-tez hədiyyələr etmək qabiliyyəti insan münasibətlərinin gözəl psixoloji mühitini yaradır. Buna bağışlamaq, nöqsanlara və səhvlərə qarşı yumşaq olmaq, insanlarla ünsiyyət zamanı qarşı tərəf gülümsəməsə belə gülümsəmək qabiliyyətini; həmsöhbətinizin xahişindən imtina etməli olsanız da, o insanda yaxşı əhval-ruhiyyə və ruhi məmnunluq hissi yaratmaq qabiliyyətini əlavə etmək lazımdır.

Bizim hər birimiz özümüzdə həyata pozitiv baxışlar formalaşdırmağa çalışmalı, hətta ən ağır vəziyyətlərdə belə daim nikbin olmalı, həyatın bizə bəxş etdiyi nemətləri minnətdarlıqla qəbul edərək, hər zaman gülərüz olmalıyıq. Gülümsəmək qabiliyyəti ətrafımızda müsbət aura yaradır və problemlərimizin həllini asanlaşdırır, bizdə yaxşı əhval stimullaşdırır, həyatı işıqlı edir, ətrafdakılara ümid və xoş əhval-ruhiyyə bəxş edir, yeni dostlar qazandırır. İnsanların arxasınca pis danışmaq lazım deyil. Bunun əvəzinə, insanı mənəvi kamilləşməyə, nəcib davranışa səsləmək daha yaxşıdır. Zərurət yarandıqda insanları mülayim tərzdə və onların öz yanında (yaxşı olar ki, üçüncü şəxslərin iştirakı olmadan) tənqid etmək lazımdır. Həm də şəxsiyyətin özünü deyil, onun müəyyən hərəkətlərini tənqid etmək lazımdır. Yazılı şəkildə tənqiddən də imtina etməlisiniz. Günahını etiraf etmək və səhvlərinə görə üzr istəmək qabiliyyəti şəxsiyyətin müsbət cəhətlərinə aid edilir.

İnsanlarla münasibətdə xüsusi "diplomatik" etika tətbiq etmək lazımdır. Burada əmrləri və sərəncamları xahiş və təkliflər formasında ifadə etmək; öz ağlının və üstünlüyünün nümayişindən imtina etmək, başqalarının əhəmiyyətliliyini təsdiq etmək; öz fikirlərinin ifadəsində yığcamlıq, başqalarının sözünü kəsmədən onları dinləmək bacarığı, onların problemlərini, mövqelərini, gözləntilərini və davranış motivlərini anlamaq; sizdən daha az ağıllı olan adamla mübahisədən imtina etmək, onun haqlılığı ehtimalını qəbul etmək; susmaqla və ya onun nə dediyinin üzərində fikirləşməyi vəd edərək, başqa mövzuya keçməklə mənasız mübahisəni kəsmək və ona təşəkkür etmək qabiliyyəti tövsiyə edilir. İnsan təbiətinin xüsusiyyətlərini nəzərə alaraq, yenini görmə qabiliyyətinə malik olmayan, münaqişəyə meyilli, təkəbbürlü yaxud sadəcə paxıl insanlar tərəfindən sizin

fəaliyyətinizin subyektiv-neqativ qiymətləndirilməsinə fikir verməyərək, tənqidə sakit tərzdə yanaşmaq lazımdır. Öz həyat təcrübəsinə əsaslanaraq, Nikolo Paqanini hesab edirdi ki, "qabiliyyətlilərə həsəd aparırlar, istedadlılara zərər yetirirlər, dahilərdən intiqam alırlar".

Fikirlərinizi daha çox yeni peşəkar və şəxsi qələbələrinizi stimullaşdıran uğurlarınızın üzərində cəmləşdirmək lazımdır. Eyni zamanda tənqidin konstruktivlik və əsaslılıq xarakterini təhlil edərək, ondan özünü təkmilləşdirmək üçün lazım olan rasional başlanğıc götürmək olar. Məlum "sevməyi bacaran kəsləri sevin" ifadəsinə riayət edərək, özünə – sizi, sizin ideyalarınızı və fəaliyyətinizin nəticələrini sevən, dərk edən və qiymətləndirən dostlar və məsləkdaşlar dairəsi seçmək vacibdir. Bu insanlar şəxsi mövqeyimizdə bizə əminlik verən və məqsədyönlülüyümüzü möhkəmləndirən mənəvi stimuldur.

İnsanlarla ahəngdar münasibətlərin və ruhi tarazlığın saxlanması üçün şəxsiyyətin həm genetik kodu, həm də müvafiq tərbiyəsi ilə şərtlənən alicənablığı böyük əhəmiyyətə malikdir. İnsanın alicənablığını təsdiqləyən keyfiyyət – pisliyə yaxşılıqla cavab vermək, başqasının zəifliyinə qarşı comərdlik və iltifat göstərmək bacarığıdır. Lakin nahaqdan sizi incidən insanın hərəkətini bir nəsildə dəyişilməsi çətin olan insan xarakterinin, təbiətinin xüsusiyyəti kimi – alçaqlıqdan ayırmağı bacarmaq lazımdır. Alçaqlığı çətin ki bağışlayaraq neytrallaşdıra biləsiniz. Çünki bu zaman həmin insan sizin addımızını alicənablıq kimi deyil, zəiflik kimi qəbul edəcəkdir. Bununla, sosial hadisə olan şər üçün bilavasitə və ya dolayısı ilə şərait yaradılır. İnsan alçaqlığının aradan qaldırılmasının yeganə yolu şəxsiyyətin şüurunu, dünyagörüşünü, xarakterini və davranışını formalaşdıran və ya dəyişdirən xeyirxahlıq dəyərlərinə əsaslanan yüksək mədəniyyətin tərbiyə edilməsidir. Antuan de-Sent Ekzüperi deyirdi ki, insanı tərbiyə yaradır.

Şəxsiyyətin alicənablığının ifadələrindən biri öz səhvlərini etiraf etmək qabiliyyətidir. İnciklik, daha artıq dərəcədə isə qəzəb bioenerjinin sərbəst axınına mane olur və bununla nəinki ruhi tarazlığı pozur, həm də stresslər yaradır, əsəb-psixi xəstəliklərə səbəb ola bilər. Şefer vurğulayır ki, acıqlanma hissinə və hirsə qapılmaq olmaz, çünki eynilə poizitiv hisslər kimi, neqativ hisslər də maddiləşməyə qadirdirlər. Onlar "ilk növbədə özümüzə qarşı istiqamətlənirlər, bizi sağlamlıqdan məhrum edir və ömrü qısaldırlar." Qaçılmaz neqativ emosiyaları özündən uzaqlaşdırmağı öyrənmək, daim pozitiv təfəkkür yaratmaq və həyat fəaliyyətinin müsbət enerjisini hasil etmək lazımdır. Ətrafdakılara diqqət, sevgi, xeyirxahlıq və şəfqət özündə yaradıcı həyat enerjisi daşıyan xeyirxah münasibətlər doğurur. Güclü xarakterin olması, əvvəllər buraxılmış səhvlərə görə özündən narazılıqdan və öz imkanlarının lazımınca qiymətləndirilməməsindən imtinanı da nəzərdə tutur. Özünün və başqalarının səhvlərindən düzgün ibrət dərsi almaq və onlardan daim öz inkişafı və özünü təkmilləşdirmə üçün istifadə etmək lazımdır. Alicənab insanın yaxşı cəhətləri, istedadı və nailiyyətləri nə qədər yüksəkdirsə, o bir o qədər sadədir və lovğalıqdan uzaqdır, bu bəxşişlərə görə Yaradana daha çox minnətdardır. Şəxsi "mən"in arxasında, "İlahi qığılcımı" təmsil edən ali "mən"in

durduğunu qeyd edərək, C.Templton bunu gündüz vaxtı ulduzları görmək cəhdi ilə müqayisə edir. “Onlar əvvəlki kimi Kainatdadırlar, lakin Günəş işığına görə görünmürlər. Ancaq günəş batdıqdan sonra biz bu səma məşəllərini görürük”. Canlı təbiətin bütün digər nümayəndələrindən fərqli olaraq, insan öz həyat fəaliyyətini idarə etmək və xoşbəxtliyə nail olmaq kimi nadir imkana malikdir. Lusi Anney (oğul) Seneka hesab edirdi ki, “qəlbin böyüklüyü bütün insanların xüsusiyyəti olmalıdır”. İnsanı “hər şeyin ölçüsü” kimi nəzərdən keçirən və şəxsiyyətin hüdudsuz imkanlarına inanan Sokrat deyirdi: “Hər bir insanda günəş var. Ona yalnız işıq saçmaq imkanı verin”. Özümüzü idarə etməyi öyrənərək, zəkamızın tükənməz imkanları və həyat qanunlarının dərk edilməsi prosesləri sayəsində biz öz fikirlərimizi, hislərimizi və davranışımızı daha səmərəli idarə etməyə başlayırıq.

İnsan digər insanlarla ünsiyyətdə, ətrafdakıların obyektiv qiymətləndirilməsi və özünün yaxşı cəhətlərinə və keyfiyyətlərinə özünün qiymət qoyması əsasında müəyyən sosial rol oynamaq hüququnu bərqərar edir. Yanlış tərbiyə, E.Fromma görə “sizə necə lazımamsa – mən eləyəm” prinsipi ilə yaşayan “bazar xarakterli” insanın formalaşmasına gətirib çıxara bilər. Bu, şəraitdən asılı olaraq dəyişən, yüksək mədəniyyətli insana xas olan möhkəm mənəvi prinsiplərin, ardıcıllığın, alicənablığın və sədaqətin ondan gözlənilməsi mümkün olmayan həddindən artıq konformist fərddir. İnsan azad olmalıdır. Bu o demək deyil ki, o, istədiyi hər şeyi edə bilər. Xeyr. Burada meyar yüksək ruhi mədəniyyətdir. Davranış etik mədəniyyətin və vicdanın tələbləri ilə şərtlənməlidir. Kimlərinsə şüurlu olaraq manipulyasiya edə biləcəyi “ictimai rəydən” asılılıq isə düzgün deyil, çünki bu, şəxsiyyətin fərdiliyinin itirilməsinə səbəb olur, onun yaradıcı inkişafına mane olur, təşəbbüsünü və mütərəqqi yeniliklərini məhdudlaşdırır. Cəmiyyət tərəfindən daim “qiymətləndirilənlər” rolunda olma özünütəsdiqin, inkişafın və yaradıcılığın ən yaxşı üsulu deyil. İnsana möhkəm iradə, təmiz vicdan, öz gücünə inam və sərbəst yaradıcılıq lazımdır. Başqa sözlə, insan “dalğaların apardığı yerə” üzməməlidir, öz həyatını, şüurunu, iradəsini, arzularını və məqsədlərini idarə etməli, öz taleyində mütərəqqi dəyişikliklərin və nailiyyətlərin memarı və qurucusu olmalıdır. İnsanın ünsiyyətində “əməkdaşlıq” fəlsəfəsi və texnologiyası düzgün özünüidarəyə doğru aparır.

İnsanın ünsiyyətində “əməkdaşlıq” fəlsəfəsi və texnologiyası düzgün özünüidarəyə doğru aparır. Bu, yüksək səviyyəli sosial münasibətlər mədəniyyətinə, şəxsiyyətin formalaşdırılmasına və dürüstlük, xeyirxahlıq və məsuliyyət kimi insani keyfiyyətlərin inkişafı hesabına ictimai həyatda destruktiv halların aradan qaldırılmasına aparan yoldur. Təəssüf ki, biz real həyatda asanlıqla cilddən-cildə düşməyi bacaran çoxüzlü ifrat konformistlərlə tez-tez rastlaşırıq. Belə adamlar üçün dərin həyat yönəlişlikləri və əqidələri mövcud deyil. Lakin hər bir cəmiyyətdə digər insanlar da az deyil. Onlar “sındırmaq mümkün olan, lakin əymək mümkün olmayan” şəxsiyyətlərdir. Bütün həyat şəraitlərində onlar mərdlik, sarsılmazlıq, qəhrəmanlıq kimi məziyyətlərə nümunə olurlar, həyat fəaliyyətinin sosial əhəmiyyətli obrazını və yüksək insan mədəniyyətini nümayiş etdirirlər. Mişel

Montenin sözlərini xatırlayaq: “Həqiqi ləyaqət çaya bənzəyir: o nə qədər dərindirsə, o qədər az səs çıxarır”. Məhz belə insanlar şəxsiyyətlərin və liderlərin tərbiyə edilməsi üçün nümunədirlər.

### *Münaqişələrin idarə edilməsi*

Özünüidarə mədəniyyəti insanlarla qarşılıqlı münasibətlərdə münaqişəli situasiyanı idarə etmək qabiliyyətini də nəzərdə tutur. Burada başlıca olan təmkin və qarşındakını dinləmək, onun mövqeyini obyektiv və özünütənqid şəklində qiymətləndirmək və düzgün nəticələr çıxarmaq bacarığıdır. Başqasının fikri sizinki ilə uyğun gəlmirsə, çəkinmək lazım deyil. Sakitliyini və təmkinini qoruyaraq mübahisənin mahiyyətini opponentin şəxsiyyəti üzərinə köçürməmək, onun ləyaqətinin alçaldılmasına yol verməmək və ona münasibətdə hörmət göstərmək vacibdir. Bu zaman anlaşılmazlığı aradan qaldırmaq və onun davranışına hansı hisslərin istiqamət verdiyini aydınlaşdırmaq üçün suallar vermək lazımdır. Münaqişə həm də özünə müəyyən çağırış, bəlkə də yaxşılığa doğru dəyişməli olduğunuz fikirləriniz və davranışınız barədə düşünmək üçün bir fürsətdir. Şəxsiyyətin cəmiyyət, vətən və bütövlükdə bəşəriyyət qarşısındakı xidmətlərinin ictimaiyyət tərəfindən obyektiv qəbul edilməsi səmərəli insan fəaliyyətinin mühüm motivasiyası olmaqla, sosial münaqişələrin azaldılması və qarşısının alınmasına kömək edir. Obyektiv prinsiplər və seçim meyarlarına əsaslanmayan ədalətsiz qiymətləndirmələr və bölgü münasibətləri sistemləri insanların sosial fəallığının və ictimai əmək məhsuldarlığının azalmasına, böyük yaradıcı imkanların itirilməsinə, ictimai münasibətlərin qeyri-sabitliyinə və vətəndaşların hakimiyyətə inamının sarsılmasına səbəb olur. İnsan münasibətləri və sosial münasibətlərdəki ziddiyyətlər, münaqişələr və böhranlar öz başlanğıcını məhz buradan götürür. Ona görə demokratik ölkələrin dövlət idarəçiliyi sistemlərində hər bir vətəndaşın mədəni keyfiyyətlərinin, peşəkarlıq məziyyətlərinin və sosial-mədəni inkişafa töhfəsinin ədalətli qiymətləndirilməsinə birinci dərəcəli əhəmiyyət verilir.

### *Sevgi enerji mənbəyi kimi*

Nəyə isə nail olmağa çox güclü istək, müəyyən işə, seçdiyin sənətə məhəbbət seçilmiş yolun düzgün olması və inadla çalışmaq şərti ilə müvəffəqiyyət qazanmağın lokomotivinə çevrilir. Lakin öz inkişafında uğur qazanmaq altruizm kimi həyati vacib prinsipə əməl etməklə, ətrafdakıların maraqları və gözləntiləri ilə birbaşa bağlıdır. İnsanlara məhəbbət ən mühüm energetik amil, qarşılıqlı anlaşmanın və ən müxtəlif problemlərin uğurlu həllinin şərtlərindən biridir. Con Templton hesab edir ki, məhəbbət həyatın cövhəri, onun ən böyük bəxşişidir, fikirlər, sözlər və əməllər şəklində ətrafdakılara məhəbbət bəxş etmək isə hüsnrəğbətin, xeyirxahlığın, dəstəyin, qayğının və mərhəmətin təbii təzahürüdür. O, məhəbbəti bizə xeyirxahlığı cəzb edən və “Kainatın öz təsir qüvvəsinin harmonik axınına” çevrilən cazibə qüvvəsi kimi nəzərdən keçirir. Məhəbbətin – “Eros” (romantik məhəbbət), “Stroq” (ailə üzvlərinə məhəbbət), “Aqape” (altruistik

məhəbbət) kimi qədim yunan təriflərini təhlil edərək, Templton insanlara qarşı humanist məhəbbət kimi, bəşəriyyətin bütün dinlərində sülh, qarşılıqlı anlaşma və inkişaf əldə etmək üçün ən qiymətli hesab edilən, Allahdan gələn şərtsiz məhəbbət olan “Aqape”ni ayırır. İnsanlara belə məhəbbət nə qədər çox bəxş edilirsə, o daha da artır. Bununla bərabər insanlara məhəbbətin ən yüksək təzahürü və ən ali dini dəyər insanın maariflənməsidir ki, əldə etdiyi elmi biliklər vasitəsilə ona əlavə olaraq mədəniyyətin həyati gücünü verir. Digər ruhi dəyər insanı ilahi hikmətə yaxınlaşdıran elmi fəaliyyətdir. Lakin elmin dəyəri qazanılan biliklərin insanlar arasında yayılmasındadır. Erazm Rotterdamski deyir: “İşıq bəxş et və qaranlıq öz-özünə yox olacaq”.

### *Vaxtın idarə edilməsi*

Özünü idarə etmənin və bütövlükdə insanın həyat fəaliyyətinin ən mühüm resursu vaxtdır. Özünüidarə mədəniyyəti strateji düşünmək qabiliyyətini, vaxtı əhəmiyyətsiz şeylərə sərf etməməyi və böyük məqsədlər formalaşdırmağı, öz həyat fəaliyyəti prioritetlərini müəyyənləşdirməyi bacarmağı tələb edir. Müasir elmin nailiyyətlərindən yararlanaraq daha məhsuldar işləmək və öz fəaliyyətini elmi cəhətdən təşkil edib, vaxtdan səmərəli istifadə etməklə daha yüksək nəticələr əldə etmək olar. Hesiod deyirdi: “Öz vaxtına sahib olmağı bacaran kəs həqiqətən böyük adamdır.” Vaxtın dəyərini qeyd edən Çarlz Darvin deyirdi ki, “vaxtın bir saatını hədər yerə keçirməyə cəsarət edən adam həyatın dəyərini hələ dərk etməmişdir”. Vaxt hər biri geriyə dönmədən həyatımızdan gedən anlardan ibarətdir. Buna görə də vaxt resursunu idarə etmək bacarığı həyati zərurətdir. Vaxtı da həqiqi məhəbbət kimi pulla almaq mümkün deyil. Sadəcə onu öz maraqları üçün düzgün idarə etməyi öyrənmək lazımdır. Vaxtı mədəniyyətin entropiyası prizmasından nəzərdən keçirərkən görürük ki, vaxtın dəyəri onun məhdudluğunda və geriyə dönməzliyindədir. Həyatda hər bir insana müəyyən vaxt müddəti ayrılmışdır. Bu müddət ərzində öz arzunu həyata keçirmək, özünü təsdiq etməyə müvəffəq olmaq, şəxsiyyət olmaq, özünə, ailəsinə və digər insanlara fayda və sevinc gətirən mənalı, maraqlı, yaradıcı həyat qurmaq, harmonik ümumdünya həyat prosesinə əlindən gələn töhfəni vermək lazımdır. Vəziyyətin tələbindən asılı olaraq, biz hər gün fəaliyyətimizin prioritetlərini yenidən nəzərdən keçirməliyik. Con Templton jurnal məqalələrindən birinə istinad edərək, obrazlı olaraq, yaşanan hər bir günü faydalı və yaradıcı işlərə sərf etmək lazım olan 86400 saniyəlik “bank” bileti şəklində təsəvvür edir. İstifadə olunmayan saniyələr ertəsi günün hesabına keçməyərək, həmişəlik yox olurlar, geriyə isə yol yoxdur. Buna görə də sağlamlıq, müvəffəqiyyət, xoşbəxtlik və öz həyat fəaliyyətində konkret nəticələr əldə etmək üçün onlardan səmərəli istifadə etmək lazımdır. İtirilmiş vaxtın həmişəlik yox olduğunu nəzərə alaraq, vaxtın hər dəqiqəsini səmərəli idarə etmək məqsədi ilə Templton uzunmüddətli və qısamüddətli məqsədlər strategiyasından istifadə etməyi məsləhət görür. O, bir neçə il əvvəldən strateji məqsədlərin müəyyən edilməsi və monitorinqini, prioritetlərin yenidən nəzərdən keçirilməsi

yolu ilə bu məqsədlərin daimi korrektəsini, həmçinin gündəlik, həftəlik, aylıq və illik planlaşdırmanı nəzərdə tutur. Bununla bərabər zəruri məsələlərin vaxtında həll edilməsinin şərtlərindən biri gündəlik fəaliyyət planının öncəki günün axşamı tərtib edilməsidir.

### *Minnətdarlıq hissi*

Özünüidarə – situasiyadan faydalanaraq ona nəzarət etmək, məyusluğu optimist şəkildə füsunkarlığa çevirmək, həyatın bəxşişlərini minnətdarlıqla qəbul edərək, xırdaçılıqdan uzaq olmaqdır bacarığıdır. Özünü idarə etmənin əsas vəzifələrindən biri özündə sevinc və xoşbəxtlik, qeyri-məhdud inkişaf imkanları mənbəyi kimi, həyatı sevmək və onu qiymətləndirmək qabiliyyətini formalaşdırmaqdır. Biz gündəlik həyatın ətalətinə üstün gələrək, həyatın gözəlliyini görməli və ona görə minnətdarlıq hissi keçirməliyik. Demək olar, bütün psixoloqlar qeyd edirlər ki, hətta ən kədərli hadisələri belə pozitiv şərh etməyə can atmaq, həyatın insana bəxş etdiyi hər şeyə sevinməyi bacarmaq, hər vəziyyətdən müsbət bir şey götürmək, insanların və yaşanan ömrün hər bir anının əsl hədiyyə kimi qədrini bilmək lazımdır. Həyatın bizə verdiyi hər gözəl şey üçün minnətdarlıq, rifaha və ruhi rahatlığa səbəb olan ən mühüm psixoloji amillərdən biridir. Yaradana, bizi əhatə edən insanlara və bütün çətinlikləri və problemləri ilə birlikdə həyatın özünə minnətdarlıq hissi insana öz gücünə əminlik verir və qoyulmuş məqsədlərə nail olmağa kömək edir. O, qarşılıqlı pozitiv enerji yaradır ki, bu da insanın imkanlarını, gücünü və biliklərini artırır, insana xeyirxahlığı və firavan yaşayışı cəlb edir.

"Stəkanı yarıya qədər boş deyil, yarıya qədər dolu görmək" bacarığı çox gözəl həyat nikbinliyi, bizi əhatə edən hər şeydə yaxşını görmə qabiliyyətidir. Bəxş edilmiş həyat nemətlərinə görə minnətdarlıq hissi bizə həyat harmoniyası, inam və sevinc duyğusu aşılayır. Templton deyir: "Əgər biz malik olduqlarımıza görə minnətdarlıq hissi keçiririksə, bu hissin özü bizə daha yaxşı şeylər çəkib gətirir. Minnətdarlıq – bizə dostlar, məhəbbət, sakitlik, sağlamlıq və maddi nemətləri cəzb edən güclü maqnitdir". İnsanın öz həyatına və artıq malik olduğu hər şeyə görə, bizi əhatə edən gözəlliyi görmək, qiymətləndirmək və ona sevinmək, xoş məramın nəticəsi kimi, özünün ruhi və maddi rifahına görə minnətdarlıq hissinin dərk edilməsi xoşbəxtliyin sirlərindən biridir. Minnətdarlıq hissi ruhi dincliyə, məmnunluğa və mənəvi sağlamlığa səbəb olur, uğur gətirir. İnsan əldə etdiyi hər şeyə görə minnətdar olmalı, lakin özündən razılıq hissindən çəkinməli, mütərəqqi inkişafın mahiyyəti kimi, öz həyat fəaliyyətində daim yeni uğurlara can atmalıdır. Tənbəllik, laqeydlik, arxayınçılıq kimi keyfiyyətlər və inkişafa marağın itirilməsi – özündən və öz nailiyyətlərindən razılıq səbəbindən yaranır. Məhəbbət kimi, özündən narazılıq da xoşbəxtliyə doğru yolda insanı daim qızğın fəaliyyətə stimullaşdıran, onun inkişafının hərəkətverici qüvvəsidir.

### *Rifah özünüidarənin nəticələrindən biri kimi*

Müvəffəqiyyətli özünüidarənin göstəricilərindən biri rifahdır. Məntiqi iqtisadi məntiqdən çox da fərqlənməyən özünün iqtisadi inkişafını idarə etməyi öyrənmək lazımdır. Həyat səviyyəsinin gəlirlərin inkişafına mütənasib surətdə yüksəlməsini nəzərə alaraq, Bodo Şefer, xüsusi hesabda pul yığaraq şəxsi kapitalını formalaşdırmağı və xərclərin gəlirləri üstələməsinə yol verməyərək, əmək haqqının hər artmasından pul yığaraq, ondan gələn faizlərlə dolanmağı tövsiyə edir. Düzgün "maliyyə təfəkkürü" və öz maliyyəsini tənzimləmək bacarığı həyat keyfiyyətinin yüksəlməsinə və inkişaf üçün çoxlu sayda imkanların yaranmasına yardım edir. Biz müvəffəqiyyət qazanmaq və rifahımızı yüksəltmək istəyiriksə, müntəzəm və yetərli qədər dincəlmək şərti ilə, var qüvvəmizlə çalışmalıyıq. İnsanın faydalı iş əmsalı və öz mədəniyyətinin entropiyası probleminə münasibəti uğurlu fəaliyyət üçün mühüm əhəmiyyətə malikdir. İnsan öz peşəkarlıq potensialından maksimal dərəcədə istifadə üçün lazımi qüvvə sərf edərək enerjisinin faydalı iş əmsalını maksimuma yüksəldir və entropiyanı – səmərəsiz sərf edilən enerjini sıfıra endirir. Fəaliyyətin məqsədi, strategiyası və texnologiyaları düzgün seçildikdə bu yanaşma davamlı həyat yönəlişliyi olarsa, inanılmaz nəticələr verir, çox gözəl motivasiyanı, özünü təkmilləşdirməni təmin edir və yeni həyat zəfərlərinə aparır.

### *Sağlamlıq özünüidarənin şərti və göstəricisi kimi*

İnsanı yüksək tonusla, enerji, həyat eşqi və həyat keyfiyyəti ilə təmin edən sağlamlığı haqqında qayğı effektiv özünüidarənin əsasını təşkil edir. Həyat yollarında insanı yalnız sevinc, müvəffəqiyyət və uğursuzluqlar deyil, həm də müxtəlif xəstəliklər müşayiət edir. Xəstəliklərin əsas mənbələri aşağıdakılardır: genetik amillər; düzgün olmayan qidalanma; orqanizmin həddindən artıq soyuması; infeksiyalar; əsəb gərginlikləri, düzgün olmayan həyat tərzi, keyfiyyətsiz istirahət, səs-küyün təsiri və s. səbəb olduğu psixoloji streslər və s. İnsan xəstəliklərin qarşısının alınması və aradan qaldırılması üçün öz tibbi biliklərinin səviyyəsini daim yüksəltməli, özündə möhkəm iradə, dözüm və öz həyatı, rifahı və mütərəqqi inkişafı üçün mərdliklə mübarizə aparmaq bacarığını yetişdirərək, özünüidarə mədəniyyətini təkmilləşdirməlidir.

Artur Şopenhauer hesab edirdi ki, bizim xoşbəxtliyimizin onda doqquzu sağlamlığımızdan asılıdır. Xoşbəxtlik duyğusunu hiss etmək və məhsuldar fəaliyyət üçün bu qədər vacib olan sağlamlıq, enerji, və həyat eşqi sağlam həyat tərzindən asılıdır. Sağlamlığın qorunması strategiyası xəstəliklərin və nasazlıqların müalicəsinə deyil, profilaktikasına yönəldilməlidir. Sağlamlıq hər şeydən əvvəl, insanın əsas həyat məqsədlərinin, qoyulmuş vəzifələrin effektiv və vaxtında yerinə yetirilməsi, işdə fəallıq və sabitlik, dözümlülük, dinamiklik və ünsiyyətcillik, həyat nemətlərindən zövq almaq imkanlarının reallaşdırılması üçün lazım olan enerjisidir. Sağlamlığını qorumaq üçün insan bir sıra vacib qaydaları yadda saxlamalı və yerinə yetirməlidir. Hər şeydən əvvəl bu, düzgün qidalanma mədəniyyətidir.

O, qədərində yeməyi, gündəlik təmiz su içməyi, yemək vaxtı və yeməkdən dərhal sonra su içməkdən çəkinməyi, öz orqanizminin daxili siqnallarına qulaq asmaq bacarığını nəzərdə tutur. Bitki mənşəli qidalara, tərəvəzlərə və meyvələrə üstünlük vermək, təzə çəkilmiş şirələrdən istifadə etmək lazımdır. Yemək insana zövq verməlidir. Qidanı yaxşı çeynəyərək, asta-asta yemək, ayaq üstə və ya uzanmış vəziyyətdə qida qəbulundan çəkinmək lazımdır. Diqqətini yeməkdə və onun insana verdiyi zövqdə cəmləşdirmək lazımdır. Alimlər hesab edirlər ki, yetkin orqanizm üçün insanın gün ərzində qəbul etdiyi qidanın üçdə bir hissəsi tamamilə kifayətdir. Maraqlıdır ki, bu fikir gündə bir dəfə yeyən İmmanuil Kantın qidalanma rejimi ilə üst-üstə düşür.

Həmçinin yadda saxlamaq lazımdır ki, qidalı maddələrin hamısı bütün insanlar üçün eyni dərəcədə faydalı deyil ki, bu da qan qrupunda olan biokimyəvi fərqlərlə şərtlənir. Əgər insan düzgün qidalanmırsa, onda bəzi maddələr qan hüceyrələrinin fəaliyyətinə neqativ təsir göstərir. İllərlə bu mənfi təsir cəmlənir və güclənir ki, bu da insanın sağlamlığının pisləşməsinə gətirib çıxarır. Məsələ bu və ya digər məhsulların insan orqanizminə neqativ təsirini minimuma endirməkdən ibarətdir. Qidalanma ilə yanaşı, fizik tərbiyənin insanın quruluşuna və qan qrupuna daha çox uyğun gələn bu və ya digər növləri və rejimlərini seçmək də vacibdir. Bizə elə gəlir ki, qidalanma mədəniyyətinə həsr edilmiş əsərlər arasında amerikalı həkim-naturopat Piter D`Adamonun bəşəriyyətin təkamül inkişafı prinsipləri üzərində qurulmuş rasional qida nəzəriyyəsi diqqətəlayiqdir. Həmişə yadda saxlamaq lazımdır ki, alkoqol, tütün, sintetik mənşəli məhsullar insan sağlamlığına zərər vurur. Buna heyvan mənşəli yağların, şəkər, duz, sirkə, kofe və bəzi digər ərzaqların çox istifadəsini də əlavə etmək lazımdır. Tez-tez, xüsusən səhər tezdən, yuxudan oyandıqdan sonra və yatmazdan əvvəl təmiz su içmək tövsiyə edilir. Hərəkətsizlik və oksigen çatışmazlığı orqanizmə mənfi təsir göstərir. Hesab edilir ki, orqanizmin normal fəaliyyətini, maddələr mübadiləsini və immuniteti, yaxşı iş qabiliyyətini və həyat gücünü saxlamaq məqsədilə hər gün qırx dəqiqədən az olmayaraq fiziki məşğələlər etmək lazımdır. Şüurlu qidalanma və fiziki tərbiyə ilə yanaşı, orqanizmə müntəzəm istirahət, hər şeydən əvvəl sakit, rahat yuxu, yaxşı musiqi, yorğunluğu çıxaran gəzinti lazımdır.

Məhsuldar həyat fəaliyyətinə mane olan və insanın sağlamlığına zərər vuran amillərdən biri qorxudur. Ernest Hemenquey deyirdi: "Qorxaqlıq və vahimə qədər heç nə insanın canını daha çox almır" Bodo Şefer hesab edir ki, pozitiv təfəkkür, diqqətin həyati problemlərin həllində və məqsədlərdə cəmləşdirilməsi, minnətdarlıq hissi, öz nailiyyətlərinin əhəmiyyətinin dərk edilməsi, xeyirxah insanlarla ünsiyyət, vaxtaşırı yaxşı musiqinin dinlənilməsi və s. qorxunun aradan qaldırılmasına kömək edir. Özünün məqsədi və öz həyatına, sağlamlığına, əmlakına, imkanlarına, sizi sevən və hörmət edən dostlara və xeyirxah insanlara görə minnətdarlıq hissi üzərində diqqəti cəmləşdirməklə qorxu hissinə qalib gəlmək olar və lazımdır. Mənəvi rahatlığı pozan qorxu və narahatlıq hislərini özündən uzaqlaşdıraraq, daha çox məqsədə çatdıqda qazanacağınız nemətlər və duyacağı-

nız sevinc hissi barədə düşünmək lazımdır. Baş verməmiş fakta, ehtimal olunan, ola bilsin hətta baş verməyəcək xoşagəlməzliklərə görə vaxtından əvvəl məyus olmaq – əbəs yerə əzab çəkmək və öz səhhətini pozmaq deməkdir. Çünki “faciəli hadisə” heç baş verməyə də bilər, əgər baş verərsə də, o, yaxşılığa doğru dəyişikliklər üçün stimul ola bilər.

Qorxu bizim ətraf aləmə münasibətimizdən, onun qavranılması və şüurumuzda əks olun-masından asılıdır. Öz həyatının mənasını aydın təsəvvür etmək, öz həyat qabiliyyətinə inanmaq və ruhi tarazlığını xeyirxah insanlarla müntəzəm ünsiyyətlə möhkəmləndirərək, hər gün özünü istənilən bir işin müvəffəqiyyətlə nəticələnəcəyinə kökləmək lazımdır. Bununla yanaşı həyatda gözlənilməz faciələrin də olduğunu dərk edərək, özündə mətanət formalaşdırmaq və destruktuv hadisələrdən özünün “yenidən doğulması” və inkişafı üçün istifadə etmək lazımdır. Bodo Şefer çətinlikləri material adlandırır və deyir ki, “ondan uğura doğru aparan pilləkən qurmaq mümkündür.” O, həyatı çoxpilləli pilləkənlə müqayisə edərək problemin aradan qaldırılmasının zəruriliyi haqqında danışır. Bunun üçün özünə inanmaq və öz məqsədləri uğrunda mübarizə aparmaq, paxıl adamlara fikir verməmək, partnyorları öz tərəfinə çəkmək, ehtiyatlar yaratmaq və gözlənilməzliklərə hazır olmaq, sağlamlığının qeydinə qalmaq, ətrafdakılara daha çox qayğı göstərmək lazımdır. Bir çox mürəkkəb məsələlərin həllini asanlaşdıran şəxsi təcrübəni zənginləşdirərək, çətinliklərlə mübarizə aparmaq bacarığını yetişdirmək, inkişaf etdirmək lazımdır.

İnsanın hadisələrə və faktlara reaksiyası, onları şərh etməsi insanda psixoloji gərginlik yarada bilər ki, bu da streslərin idarə edilməsinin aktuallığını şərtləndirir. Biz stresləri idarə edərək əmələ gələn enerjini yaradıcı məcraya yönəldə bilərik. Bodo Şefer deyir ki, stress sağlamlıq üçün zəruridir. Orqanizmin daxili balansının pozulduğu zaman əmələ gələrək, o, bütün funksiyaların balansını və qarşılıqlı əlaqəsini bərpa edərək, bu prosesi tənzimləyir. Əgər stressə pozitiv təfəkkür hesabına nəzarət edilirsə, o, insanın orqanizminə müsbət təsir göstərir. Onun tərəfindən bu emosional vəziyyəti pozitiv amil kimi istifadə etməyə yönəldilmiş streslər üzərində nəzarət qaydaları formulə edilmişdir. Bu qaydaların mahiyyəti: daxili tarazlığı qorumaq və diqqəti indiki məqamda məşğul olduğumuz işin üzərində cəmləşdirmək; işdə prioritet vəzifələr seçmək və işə can yandırmaq; hər şeydə və işdə nizam-intizamı qorumaq, rahat iş tempi yaratmaq; tələsiklikdən və narahatlıqdan xilas olmaq üçün ehtiyat vaxt planlaşdırmaq; işi və məsuliyyəti həvalə etmək, hər şeyə yumor hissi ilə yanaşmaq; iş və istirahət vaxtını düzgün bölüşdürmək və həddən artıq məşğulluğa yol verməmək; insanlarla həddindən artıq əlaqələri məhdudlaşdırmaq; sadəlik göstərmək, hədsiz şöhrətpərəstlikdən imtina etmək; qələbələri və məğlubiyyətləri sakit tərzdə qarşılamaq, öz qalibiyyətlərinə sevinmək; öz sağlamlığının və emosional vəziyyətinin qayğısına qalmaq, vaxtaşırı dincəlmək, əylənmək, yuxu və istirahət zamanı telefonları söndürmək bacarıqlarını birləşdirir. Ruhi dincliyin, təmkinin və şüurun aydınlığının qorunmasında sakit şərait, ibadət, meditasiya, təbiət əvəzsiz rol oynayır.

İnsanın ruhi və psixi sağlamlığının əsasını, deyərdim, xeyirxahlıq təşkil edir. Bu anlayışa yaxşılığı və insanlara xidmət etməyi, alicənablığı, mərhəməti, şəfqəti, məhəbbəti, dostluğu və sədaqəti də əlavə etmək olar. Konfutsi xeyirxahlıqda ailə və dövlətin rifahının əsasını, həmçinin insanları idarə etmək imkanını görürdü. Sakitlik, daxili ruhi dinclik sağlamlığın əsas şərtlərindən biridir. Bizim daxili ruhi aləmimiz xarici şəraitdənsə, bizim özümüzdən, öz şüurumuzu idarə etmək qabiliyyətindən, hadisələri sakit, fəlsəfi qavramaqdan, özündə müdriklərə xas olan ataraksiya (təmkinlilik) yetişdirməkdən daha çox asılıdır. Ruhi tarazlığa nail olmaq üçün vicdanı rahat olmaq və vaxtaşırı “mən çox sakitəm” və “mən hər şeyi bağışlayıram” formulu üzrə özünü sakitləşdirməklə məşğul olmaq lazımdır. Belə vaxtaşırı “susma” şüurun həssaslığını, daxili dünya duyğusunu və onun transsendentallıq ilə əlaqəsini artırır, həyatın və xeyirxahlığın rolunun daha yaxşı dərk edilməsinə, şəxsiyyətin ruhi işıqlanmasına səbəb olur.

Geriyə baxarkən hər bir mədəni insan şüurlu və gözəl yaşanan günlərə, aylara və illərə görə məmnunluq hissi keçirməli, öz yaradıcı əməyinin nəticələrinə – əkdiyi ağaclara, yetişdirdiyi “meyvələrə”, tikdiyi binalara və şəhərlərə, böyütdüyü, təhsil verdiyi və tərbiyə etdiyi insanlara görə qürur hissi keçirməlidir. Bu, elmi və texniki nailiyyətlərə, incəsənət əsərlərinə, dövlət tikintiləri və insana xidmət üçün təyin edilmiş həyat fəaliyyəti texnologiyalarına da aiddir. Əkdiyimiz hər bir mədəniyyət toxumu insanın həyat fəaliyyəti üçün zəruri olan çox bəhrələr verə bilər. Səmərəli özünüidarə sisteminin yaradılması üçün özündə nəinki fəallığı, həm də qoyulmuş məqsədə nail olmayınca, qəbul edilən qərarın və ya planın yerinə yetirilməsində sabitliyi, mətinliyi, inadkarlığı yetişdirmək lazımdır. Qəlbin səxavəti, ətrafdakıların səni qəbul etməsi və bəyənməsi, insanlara xidmət üçün öz ağlı, enerjisi və vaxtının təmənnasız olaraq sərf edilməsi – insan rifahının açarıdır.

Görkəmli tarixi şəxsiyyətlərin yuxarıda gözdən keçirilən fikirləri, yanaşmaları və rəyləri, müasir tanınmış analitiklər və psixoloqların müşahidələri və tövsiyələri, həmçinin müəllifin bəzi konseptual müddəaları şəxsiyyətin daimi özünü təkmilləşdirməsinə və özünə nəzarətə yardım məqsədi daşıyır. Əgər onlar insanın daxili tələbatına çevrilərsə, uğurlu həyat fəaliyyətinin, insanın ruhi dincliyi və xoşbəxtliyi üçün gərəkli olan yüksək ünsiyyət mədəniyyətinin, digər insanlarla harmoniyanın, cəmiyyətdə sevginin və hörmətin daimi generatoru rolunu oynayacaqdır.

## V FƏSİL

## KULTUROLOJİ FORMULLAR

### Yüksək mədəniyyətli insan formulu

Hər bir ölkənin başlıca milli sərvəti insanlardır. Bu sərvətin dəyəri strateji resurs olan, son nəticədə, sivil dövlətin tərəqqisi, qüdrəti və rəqabətqabiliyyətliliyinin asılı olduğu mədəni insanların kəmiyyəti və keyfiyyəti ilə müəyyən edilir. Şəxsiyyətin mədəni keyfiyyətləri və əmək nailiyyətləri nə qədər yüksək olarsa, o bir o qədər yüksək sosial pillədə dayanmalıdır. İnsanın yüksək mədəniyyəti onun öz rifahı və cəmiyyətin rifahı üçün özünü inkişaf etdirmədə peşə və yaradıcı imkanlarını müəyyən edir. Bu sosial kapitalın hərəkətverici qüvvəsi intellektual və mənəvi mədəniyyətdir.

Tərəfimizdən hazırlanmış yüksək mədəniyyətli insan formulu özündə aşağıdakı keyfiyyətləri ehtiva edir:

1. Elmi biliklər.[10]
2. Bacarıqlar – həyat fəaliyyəti vərdişləri və texnologiyaları.[11]
3. Mütəşəkkillik – nizam-intizama bağlılıq, qanuna tabelik, müstəqillik, məsuliyyət, iradə, enerji.
4. Mənəviyyat – humanizm, sevgi, dostluq, nəciblik, mərdlik, ədalət, vicdan, şərəf, dürüstlük, həqiqətə bağlılıq, xeyirxahlıq, inam, vətənpərvərlik.[12]
5. Yaradıcı fəaliyyət.[13]

İnsanın mədəniliyini səciyyələndirən ilk üç keyfiyyət mənəviyyatın olmadığı halda dağıdıcı, destruktiv qüvvəyə xidmət edə bilər. Birinci dörd keyfiyyət birlikdə şəxsiyyətin pozitivlik göstəricisi olsa da, bu, passiv mədəniyyəti göstərir. Yaradıcı fəaliyyət daxil olmaqla, bu keyfiyyətlərin beşinin də mövcud olduğu halda insan ruhi mədəniyyətin fəal daşıyıcısı olur.

---

[10] Ən mühüm mənbələri – elm, təhsil və maarif.
[11] Ən mühüm mənbələri – bilik və təcrübə.
[12] Ən mühüm mənbəyi – tərbiyə.
[13] Bilik, bacarıq, mütəşəkkillik, pozitiv mənəviyyat səviyyəsi ilə müəyyən olunur və çox zaman mədəni insanın yaradıcı qabiliyyətlərindən asılı olan şüurlu tələbatıdır.

**Mədəniyyətin effektivliyi düsturu**

Qədim dövrlərdən günümüzə qədər həyatın qorunması, saxlanması və yaxşılaşdırılması, fasiləsiz olaraq artan insan tələbatlarının ödənilməsi barədə qayğı bəşəriyyətin mədəni inkişafının əsasında dayanır. Eyni zamanda sosial-mədəni tərəqqinin sürət və keyfiyyəti mədəniyyətin effektivliyi ilə müəyyən edilir. Cəmiyyətin mədəniyyət effektivliyi nə qədər yüksəkdirsə, iqtisadi inkişafın səviyyəsini xarakterizə edən ümumi ictimai məhsul göstəriciləri bir o qədər yaxşıdır, insan inkişafı indeksi, həyat rifahı və keyfiyyətinin səviyyəsi daha yüksəkdir.

$$\text{Mədəniyyətin effektivliyi (F)} = \frac{\text{Həyat fəaliyyətinin keyfiyyəti (Q)}}{\text{Məxariclər (N) x Zaman (T)}}$$

- Həyat fəaliyyətinin keyfiyyəti – həyat fəaliyyətinin əlamətləri, xüsusiyyətləri və faydalılıq ölçüsünün cəmi, onun ictimai və fərdi tələbatları təmin etmək qabiliyyətinin dərəcəsidir. O, birbaşa olaraq, cəmiyyətin ruhi və hər şeydən əvvəl, intellektual səviyyəsindən, həmçinin mədəni fərdlərin kəmiyyəti və keyfiyyətindən asılıdır.
- Məxariclər – təhsilə, elmə, idarəetməyə, texnologiyaya, istehsala, incəsənətə, səhiyyəyə, ekologiyaya və s. çəkilən maliyyə və əmək xərcləridir.
- Zaman – həyat fəaliyyətinin yeni keyfiyyətinin əldə edilməsini təmin edən ruhi və maddi dəyərlər və normaların istehsalına sərf edilən vaxtdır.

Həyat fəaliyyəti keyfiyyətinin artımı, xərclərin və inkişaf müddətinin azaldılması aşağıdakılarla müəyyən edilir:

✓ Elmin və yüksək texnologiyaların səviyyəsi ilə;
✓ Şəxsiyyətin mədəniyyəti və onun yaxşı işləmək istəyi ilə;
✓ Əmək və bölgü münasibətləri mədəniyyəti ilə;
✓ Milli gəlirin və ümumi ictimai məhsulun səviyyəsi ilə;
✓ İntensiv amillər hesabına (yəni işçilərin sayını və məsrəflərin həcmini artırmadan) əmək məhsuldarlığının (effektivliyinin) artırılması ilə;
✓ İqtisadiyyatın struktur təkmilləşdirilməsi ilə;
✓ İctimai əməyin təşkili və stimullaşdırılması ilə;
✓ Dövlətin hüquqi və etik sisteminin səmərəliliyi ilə;
✓ Səhiyyə, ekologiya, fiziki tərbiyə və idmanın inkişaf səviyyəsi ilə;
✓ İstehlak mədəniyyəti ilə və s.

**Xoşbəxtlik düsturu**

Xoşbəxtliyə can atmaq hər bir insanın həyat fəaliyyətinin təbii və başlıca stimulu, özünütəkmilləşdirməyə can atmaq isə özünü mədəni şəxsiyyət sayan hər bir kəs üçün xoşbəxtliyin vacib şərtidir. Bu sosial qanunauyğunluq insan tələbatlarının formalaşma motivlərini bir çox cəhətdən izah edir, onun düşüncə və

davranışına təsir edir, şəxsiyyətin psixologiyasını və xasiyyətini anlamağa imkan verir. Xoşbəxtlik insanın və onun yaxınlarının mənəvi və fiziki sağlamlığı, şəxsiyyətin şüurlu istək və qayələrinin yerinə yetməsidir. Xoşbəxtlik təkcə uğur deyil. O yalnız maddi rifahla ölçülmür. O, ağıl, mərhəmət, xeyirxahlıq və insanlara xidmət, daxili gözəllik, sevgi, dostluq və sədaqət, həyat eşqi, öz idealları uğrunda mübarizə aparmaq və məntiqi şəkildə güzəştə getmək bacarığını tələb edir.

Öz potensialını reallaşdırmaq və cəmiyyətdə layiqli yer tutmaq imkanı xoşbəxtliyin şərtlərindən biridir. Deməli, xoşbəxtlik şərtsiz olaraq, cəmiyyətdə əlverişli mədəni mühitin və sosial ədalətin olması ilə əlaqəlidir. Bu isə insanın anadangəlmə mədəni keyfiyyətləri və qabiliyyətlərindən başqa, bilik və müdriklik, inadlı əmək, inam və səbr, azadlıq və cəsurluq, vicdan və dürüstlük, iradə və məsuliyyət tələb edir. Xoşbəxtliyin ən vacib meyarları möhkəm və firavan ailə, sevimli peşə və iş, doğmaların və dostların etimadını doğrultmaq, ətrafdakıların, sevgisi, hörməti, anlayışı və dəstəyidir. Xoşbəxtliyə aparan yol insanın bilik, bacarıq, mütəşəkkillik, mənəviyyat və yaradıcı fəaliyyətini nəzərdə tutan yüksək ruhi mədəniyyətdən keçir.

*Xoşbəxtliyin şərtləri:*

1. İnsanın və onun yaxınlarının sağlamlığı
2. Məhəbbət
3. Mənəvi qohumluq
4. Dostluq və səadət
5. Mərhəmət, xeyirxahlıq və insanlara xidmət
6. Maddi rifah (maliyyə azadlığı)
7. Ağıl, bilik, məntiq, müdriklik
8. Həyatda ağıllı və aydın məqsəd
9. Öz potensialını reallaşdırmaq və cəmiyyətdə layiqli yer tutmaq imkanı
10. Azadlıq
11. Cəsurluq
12. Mübarizə
13. Uğur
14. Vicdan, dürüstlük, ləyaqətlilik
15. İnam və səbir
16. Prinsipiallıq və məsuliyyət
17. Pozitiv xarakter, güzəştə getmək bacarığı
18. Özünütəkmilləşdirmə
19. Möhkəm, firavan ailə
20. Sağlam mikro– və makro sosial mühit
21. Sevimli peşə və iş
22. Ətrafdakıların sevgi, hörmət, anlayış və dəstəyi
23. Doğmaların və dostların etimadını doğrultmaq
24. Xarici və daxili gözəllik
25. Həyatı sevmək və hər şeydən zövq almaq bacarığı

26. Anadangəlmə mədəni keyfiyyətlər
27. Sevincli hadisələrin tez-tez baş verməsi
28. İnsanın yüksək ruhi mədəniyyəti – biliklər, bacarıqlar, mütəşəkkillik, mənəviyyat və yaradıcı fəaliyyətin vəhdəti

Beləliklə, xoşbəxtlik insanın cəmiyyətin maraqlarına zidd olmayan istəklərinin həyata keçməsini bildirir. Xoşbəxtlik anlayışı insanın dəyərlər sistemindən, onun mənəviyyat, xeyir və şər haqqında təsəvvürlərindən, xasiyyətindən və əqidəsindən asılıdır. İnsanın istəkləri onun məqsədinin motivasiyasını müəyyən edir. Məhəbbəti insanın xoşbəxtliyə doğru hərəkət enerjisi kimi təsəvvür etmək olar. Bu enerji daha çox sağlamlıqdan və maddi rifahdan asılıdır.

**Liderin idarəçiliyinin uğur formulu**

1. Liderin yüksək peşəkarlıq və ümumi mədəniyyəti. Güclü məntiq və möhkəm iradə. Elmi biliklər, təcrübə və uzaqgörənlik.
2. Ağıllı, həyat qabiliyyətli ideyalar, fəaliyyət azadlığı, qətiyyətlilik və fədakarlıq.
3. Məqsədin düzgün müəyyənləşdirilməsi (əldə edilə bilən məqsədlərin formalaşdırılması).
4. Dəqiq strateji planlaşdırma. Tələbatların və vasitələrin düzgün təhlili. Prioritetləri seçmək bacarığı.
5. İdarəetmə texnologiyalarının elmi cəhətdən əsaslanmış olması.
6. Problemlərin düzgün dərk edilməsi və ətraflı düşünülməsi.
7. İşin dəqiq təşkili, fəaliyyət planı. Vəzifələr zəncirindən əsas həlqənin seçilməsi.
8. Qələbəyə inam və uğur qazanacağına əminlik. Şəxsi məziyyətlərini və nöqsanlarını görmə.
9. Əsas ziddiyyətin aşkar edilməsi və düzgün həll edilməsi.
10. İlkin kulturoloji, sosioloji və marketinq tədqiqatlarının aparılması.
11. Resurslardan düzgün istifadə.
12. Kadrların düzgün seçilməsi və yerləşdirilməsi. İşçilərin fəaliyyətini həvəsləndirmək və ona nəzarət etmək, əməyi qiymətləndirmək və mükafatlandırmaq bacarığı.
13. İnsanlarla işləmək, onları dinləmək, inandırmaq və maraqları uyğunlaşdırmaq bacarığı. Personalın idarə edilməsində tələbkarlıq və qayğı.
14. İşə həvəs, maraq göstərmək. Perspektivin olması.
15. Məsuliyyət mədəniyyəti. Hər kəsin şəxsi məsuliyyətinin müəyyən edilməsi.
16. Obyektiv informasiyanın mövcudluğu və xalqın ənənələrini bilmə.
17. Düzgün hüquqi və maliyyə təminatı.
18. Prosesin monitorinqi, nəzərdə tutulan planın real və gözlənilən nəticələrlə korreksiya edilməsi.
19. Gözlənilən nəticələrin proqnozlaşdırılması.

20. Nəzərdə tutulmuiş planların praktik təcəssümünə yönəldilmiş inadlı, vicdanlı əmək.
21. Liderin xarizmatik keyfiyyətləri.

**Dövlətin rəqabətqabiliyyətliliyi formulu**

Sivilizasiyanın inkişafının tarixi təcrübəsi göstərir ki, müasir dövlətin rəqabətqabiliyyətli və davamlı inkişafının əsas şərtləri aşağıdakılardır:

- intellektual mədəniyyətin qabaqlayıcı inkişafı.
- yüksək əmək mədəniyyəti.
- yüksək dövlət idarəçiliyi mədəniyyəti.

Söhbət elm, təhsil və maarif, habelə ixtiraçılığın, mühəndis fəaliyyətinin həvəsləndirilməsi və s. kimi ruhi mədəniyyətin flaqmanlarının köməyi ilə cəmiyyətin intellektual mədəniyyətinin yüksək inkişaf templərini təmin edən dövlət idarəçiliyi mədəniyyəti haqqında gedir. Dünyanın aparıcı ölkələrinin intellektual mədəniyyətinin inkişaf templərini hətta əhəmiyyətsiz dərəcədə, amma stabil olaraq ötüb keçmək görünən perspektivdə dünya inkişafının qabaqcıl sərhədlərinə yaxınlaşmaq imkanı yaradacaq. Dövlət idarəçiliyinin əhəmiyyətli məsələlərindən biri də cəmiyyətin əmək mədəniyyəti səviyyəsinin beynəlxalq standartlara: elmtutumluluğuna, personalın səriştəliliyinə, məsuliyyət mədəniyyətinə, əmək məhsuldarlığına və nəticələrinə müvafiq olaraq dəstəklənməsidir.

**Meritokratik tərbiyə və idarəetmə formulu**

Qloballaşma və dünya sivilizasiyasının yeni çağırışları şəraitində Azərbaycan Respublikasının davamlı və təhlükəsiz inkişafının təmin edilməsi strateji məqsədi alimlər qarşısında insan inkişafı və dövlət idarəçilik sisteminin səmərəliliyinin yüksəldilməsinin əlavə resurslarını yaradan innovativ idarəetmə qərarlarının axtarışı məsələsini qoyur.

Adi şüur mədəniyyəti, idarəetmə texnologiyası və ideologiya sahəsində yeniliklərin istifadəsini nəzərdə tutan stimullaşdırılmış dəyişikliklərə əsaslanan fəal kulturogenez burada müəyyən elmi və praktik dəyərə malik ola bilər. Azərbaycan xalqının kulturogenezi prosesində onun tarixinin müasir mərhələsində meritokratiya mədəniyyətinin zamanın sınağından keçmiş dəyərləri, prinsipləri və meyarları belə innovasiya qismində istifadə edilə bilər.

Dünya təcrübəsi meritokratik prinsipləri şəxsiyyət və cəmiyyətin sosial fəallığının həvəsləndirilməsinin effektiv aləti kimi nəzərdən keçirməyə əsas verir. Meritokratiya prinsip-lərindən istifadə, əməyin yüksək məhsuldarlığının həvəsləndirilməsi və cəmiyyətin sosial-siyasi sabitliyi üçün mühüm əhəmiyyətə malik olan sosial ədalət indeksinin yüksəldilməsi üçün əlavə imkanlar açır.

Dövlətin sosial-mədəni inkişaf strategiyasını rəhbər tutaraq, tərəfimizdən sosial və dövlət idarəçiliyi sistemində çalışan mütəxəssislər də daxil olmaqla,

insanların şəxsiyyət, ailə, kollektiv və cəmiyyət səviyyəsində qiymətləndirilməsinin aşağıdakı meyarlarını nəzərdə tutan meritokratik idarəetmə prinsipləri işlənib hazırlanmışdır:

1. Qabiliyyətlər və istedadlar.
2. Biliklər və peşəkarlıq.
3. Vicdanlılıq, vətənpərvərlik və humanizm.
4. Vətən və bəşəriyyət qarşısında əməyin nəticələri və xidmətlər.

Bizə elə gəlir ki, cəmiyyətdə milli maraqlara cavab verən meritokratik prinsiplərin yayılması insan kapitalının inkişafına və idarəçilik sisteminin səmərəliliyinin artmasına, həmçinin, sosial-mədəni, o cümlədən, dövlətin iqtisadi inkişaf göstəricilərinin yaxşılaşmasına kömək etməlidir. Bu prinsiplərin ailə tərbiyəsində, habelə dövlət və sosial idarəetmə praktikasında geniş istifadə edilməsi mütəxəssislərin əmək və idarəetmə fəaliyyətinin nəticələrini yüksəltməyə, vətəndaşların cəmiyyətin innovativ inkişaf maraqlarına cavab verən intellektual, etik, hüquqi, idarəetmə və istehsal mədəniyyətinin inkişaf indeksləri və keyfiyyətinin yaxşılaşdırılmasına imkan verəcəkdir. Onların tətbiqi rəqabətqabiliyyətli insan kapitalının və onun başlıca hərəkətverici qüvvəsi, davamlı milli inkişafın strateji bərpaedilən resursu olan yüksək mədəniyyətli Azərbaycan vətəndaşlarının inkişafı prosesini stimullaşdırmağa imkan yaradacaq, vətəndaşların etimadının, həmrəyliyinin, ümumi rifah və dövlətin daha yaxşı gələcəyi naminə məsuliyyət mədəniyyətinin səviyyəsini qaldırmağa kömək edəcəkdir.

# VI FƏSİL

## KULTUROLOJİ MƏQALƏLƏR VƏ MƏRUZƏLƏR

### Həyatqabiliyyətli cəmiyyət və güclü dövlətin inkişafında kulturologiyanın rolu

***("Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı, №1, 2021, s.103-132)***

*"Əgər dünya mədəniyyəti müdafiə etsə,*
*mədəniyyət dünyanı xilas edər!"*

***Dünya sivilizasiyasının böhranı və davamlı inkişaf məqsədləri***

Gələcəklə bağlı müsbət təsəvvürə malik hər bir mütərəqqi xalqın strateji məqsədi səmərəli elm, təhsil və incəsənət, yüksək rifah və müdafiə qabiliyyəti, davamlı və təhlükəsiz inkişafı təmin edən rəqabətqabiliyyətli insan potensialı və iqtisadiyyat vasitəsilə həyatqabiliyyətli cəmiyyət və güclü dövlət qurmaq və onları təkmilləşdirməkdir.

Təbii ehtiyatların azalması, ekoloji, sosial-iqtisadi və siyasi çağırışlar, qlobal dünyada mədəniyyətlərin və maraqların toqquşması ilə əlaqədar olaraq, dünya sivilizasiyasının böhranı şəraitində bu məqsədin əhəmiyyəti dəfələrlə artır.

Bu gün böhran prosesləri mənəvi dəyərləri, siyasəti və iqtisadiyyatı, elm və təhsili, hüquq və etikanı, istehsalat və idarəetməni, çoxsaylı ölkələrdə ailə, əmək mədəniyyətini və insanların həyat fəaliyyətini əhatə edir. Ümumi qəbul olunmuş etik mədəniyyət normalarına məhəl qoyulmaması, dövlət suverenliyinin pozulması, beynəlxalq münasibətlərdə ikili standartlar, insafsız yalanlar, ədalətsizlik, bəzi KİV nümayəndələri və məsuliyyətsiz siyasətçilərin təxribatları və insanların şüurunu manipulyasiya etməsi, bəşəriyyət əleyhinə cinayətlərin cəzasız qalması qlobal dünyada adət halını almışdır.

Sivilizasiyanın destruktiv hallarının aradan qaldırılması və onlarla bağlı dəyişən milli inkişaf tələbatlarının və maraqlarının təmin edilməsi dünyanı intellektual və etik tənəzzül təhlükəsindən, iqtisadiyyatda və sosial həyatda böhranlı hadisələrdən, ədalətsizlikdən, mənəvi çürümədən, milliyyətçilikdən, etnomərkəzçilikdən, terrorizmdən və dini dözümsüzlükdən xilas etməyə yönəlmiş mədəni islahatların işlənib hazırlanmasını və həyata keçirilməsini tələb edir. Bu gün əhalinin təhsili, maarifləndirilməsi və özünütəkmilləşdirməsinin dəyər kateqoriyası kimi,

ideologiyanın elmi və humanist təkmilləşdirilməsinə əsaslanan daimi mədəni transformasiyalar həyatın tələbinə çevrilmişdir. Sistemli kulturoloji metodologiyaya əsaslanan sosial-mədəni islahatlar cəmiyyətin müasir elm və təhsilin nailiyyətlərinə, humanizm prinsiplərinə və mədəni həmrəyliyə, dünya mədəniyyətinin ənənəvi dəyərlərinə, ailə mədəniyyətinə, yüksək səviyyəli insanlararası, beynəlxalq və dinlərarası münasibətlər mədəniyyətinə əsaslanan mütərəqqi dəyişilməsinə yol açmağa imkan verir.

### *Ruhi mədəniyyətin insan inkişafında rolu*

Sistemli kulturoloji təhlil göstərir ki, destruktiv proseslər daha çox yüksək ruhi mədəniyyətin tənəzzülü, bəzi insanların cahilliyi və digərlərinin yüksək eqoizmi ilə əlaqədardır. O, həyat fəaliyyətinin pozitiv standartlarının və normalarının məhv olmasında, insanların məsuliyyət səviyyəsinin və elmi biliklərə tələbatın azalmasında, humanizm, etika və sülh mədəniyyəti prinsiplərinin pozulmasında öz əksini tapır.

Bununla belə, məhz əqli və mənəvi mədəniyyətin vəhdəti kimi təcəssüm olunan ruhi mədəniyyət qədim zamanlardan bu günə kimi insanın formalaşması və inkişafının əsası olmuşdur. O, insanın və onu əhatə edən aləmin keyfiyyətcə dəyişilməsinin zəruri aləti kimi, təfəkkür və davranış mədəniyyəti, əmək və istehsal mədəniyyəti, ailə, özünütəkmilləşdirmə və idarəetmə mədəniyyəti də daxil olmaqla, insanın həyat fəaliyyətinin müxtəlif tərəflərini əhatə edir.

Ruhi mədəniyyət insanı heyvandan fərqləndirən, xaosdan nizama aparan, insan həyatının qorunması və yaxşılaşdırılmasına kömək edən əsas sosial fenomen rolunu oynayır. Bu, həyatın, insan inkişafı və xoşbəxtliyinin tükənməz mənbəyi, biliklərin, xeyirxahlığın, sevginin və yaradıcılığın faydalı enerjisidir. O, insanın dəyərinin başlıca göstəricisi, onun həyat qabiliyyətinin formalaşmasının açarı, insanın tələbatlarını təmin etmək və zamanın çağırışlarına cavab vermək bacarığıdır. Bütün dünyada insan dəyərinin daha yüksək kateqoriyası yoxdur. Zamanın çağırışları yüksək ruhi mədəniyyətin – müxtəlif dünya ölkələrində əhalinin və müxtəlif səviyyəli liderlərin bilikləri, bacarıqları, mütəşəkkilliyi, mənəviyyatı və yaradıcı enerjisinin inkişafı və təkmilləşdirilməsinin beynəlxalq zərurətini aktuallaşdırır.

Ruhi mədəniyyəti obrazlı şəkildə bir qanadı mənəvi mədəniyyət, digər qanadı intellektual mədəniyyət olan quş formasında təsəvvür etmək olar. Mədəniyyətin mənəvi qanadı intellektual qanadla sıx bağlıdır və elmi biliklərin bəşəriyyət tərəfindən bədxah məqsədlərlə deyil, yaxşılıq üçün istifadə edilməsinə yardım edir. Quşun uça bilməsi üçün hər iki qanad tarazlı olaraq və tam ahəngdə inkişaf etməlidir. Bununla belə bəşəriyyətin inkişaf məqsədləri mənəvi dəyərlər üzərində qurulmalıdır. Başqa sözlə desək, insanların yüksək səviyyəli həyat fəaliyyəti mədəniyyətini, sülhü və sivilizasiyanın davamlı inkişafını təmin etməkdən ötrü insan mədəniyyətinin "iki qanadı" – intellektual və mənəvi mədəniyyət ahəngdar inkişaf etməlidir. Pozitiv mənəviyyata malik, lakin intellektual mədəniyyəti kifa-

yət qədər inkişaf etməmiş insan düzgün qərarlar qəbul edə bilməz və dağıdıcı proseslərin şüursuz alətinə çevrilə bilər. Pozitiv mənəviyyatdan və humanizmdən məhrum intellektual insan cəmiyyətdə destruktiv proseslərin səbəbi ola bilər. Mədəniyyəti şərti olaraq dairə şəklində təsvir edilmiş insan sivilizasiyası çərçivəsində nəzərdən keçirsək, görərik ki, sonuncuda bir-birinə zidd və bir-birindən asılı olan iki hadisə var: yaradıcı prosesi ifadə edən mədəniyyət və dağıdıcı prosesləri təmsil edən antimədəniyyət. Mədəniyyətin potensialı və yayılma arealı nə qədər yüksəkdirsə, destruktiv proseslərin səviyyəsi bir o qədər aşağıdır, cəmiyyət, dövlət və bəşəriyyət bir o qədər güclüdür.

Minilliklər boyu davam edən tarixi inkişaf nəticəsində ruhi mədəniyyət insan potensialının, əmək və səmərəli idarəetmə mədəniyyətinin əsası, cəmiyyətin rifahı və həyat keyfiyyətinin, dövlətin həyat qabiliyyəti və rəqabətqabiliyyətliliyinin açarı olmuşdur. Onda insanların qabiliyyətləri və istedadları, vicdanı və humanizmi, vətənpərvərliyi və insan həmrəyliyi, habelə intellektual əməyin iqtisadi məhsulda maddiləşmiş nəticələri təcəssüm olunur.

Hələ Qədim Romada Böyük Katon mədəniyyəti təbiətin insan tərəfindən dəyişdirilməsi prosesi və onun nəticəsi kimi, Siseron isə – insanın özünün, onun ağlının dəyişilməsi üsulu kimi başa düşürdülər. Həqiqət ondadır ki, mədəniyyət yaradıcı tarixi proses, onun texnologiyaları və nəticələri kimi özündə həm birincini, həm də ikincini ehtiva edir, insan inkişafının həm vasitəsi, həm də məqsədi olur. Bu, sivilizasiyanın intellektual, etik, hüquqi, ekoloji və sosial-iqtisadi inkişafını təmin edən yaradıcı gücüdür.

İnsan inkişafında ruhi mədəniyyətin gücünün və rolunun inandırıcı tarixi sübutlarından biri, nailiyyətlərindən yaradıcı şəkildə istifadə edilməsi bütün bəşəriyyətin mütərəqqi inkişafını əhəmiyyətli dərəcədə şərtləndirən dünyanın ilk Şumer-Mesopotamiya sivilizasiyasının mədəniyyəti ola bilər. Müasir dünya sivilizasiyası Şumerin çoxsaylı mədəni dəyərlərinin mirasıdır, onun şəhər mədəniyyətinin formalaşması və həyat fəaliyyətinin inkişaf təcrübəsi İsrail, Qədim Yunanıstan, Qədim Roma, Bizans İmperiyası və digər dövlətlər tərəfindən mənimsənilmiş və yaradıcı şəkildə istifadə edilmişdir. Sivilizasiyanın inkişafının yaradıcı aləti kimi, həyatın ağıllı normaları, formaları və qaydalarının müəyyən edilməsinə yönəlmiş mədəni yeniliklər Ur, Uruk, Babil, Eredu, Kiş, Laqaş, Şuruppak və digər Şumer şəhərlərinin yaradılmasında və inkişaf etdirilməsində mühüm rol oynamışlar. Şumerlər qısa tarixi dövrdə ruhi və maddi mədəniyyət sisteminin dəyərlərini, sahələrini, standartları və texnologiyalarını – yazı, kitabxana, məktəb, riyaziyyat, altmışlıq say sistemi, səhiyyə, qanunlar, ikipalatalı parlament, çarx, pul, ticarət, vergi, məhkəmə, kərpic bişirmək üçün soba, metaltökmə texnologiyası, inşaatı ixtira etdilər ki, onlar sonradan bütün bəşəriyyətin sərvətinə çevrildi.

Qədim Şumer cəmiyyətinin sosial mobilliyi və qarşılıqlı əlaqələri, həyatın və dövlət idarəçilik mədəniyyətinin tənzimlənməsi üçün qanunlar və sosial islahatlar kimi həyatı tənzimləyən intellektual, etik, hüquqi və idarəçilik normalarının tətbiqi ilə bağlı sosial-siyasi təsisatlar, xeyirxahlıq, yaradıcılıq, sosial bərabərlik,

innovativ fəaliyyət, sosial məsuliyyət, insanların idarəçiliyə cəlb edilməsi, şəhər həyatı böyük əhəmiyyət kəsb edirdi. Babilistanda hələ e.ə. XVIII əsrdə tətbiq edilmiş Hammurapi "ilahi" qanunları ölkədə uğurlu dövlət inkişafını təmin etmiş nizamın bərqərar olunmasına təkan verdi.

Avropada İntibah dövrü cəmiyyətin inkişafında ruhi mədəniyyətin gücünün və rolunun ən parlaq nümunəsi ola bilər. Həmin dövrün mədəni yenilikləri arasında orta əsrlər Avropasında yaradılmış (o cümlədən Çinin mədəni ixtiralarının mənimsənilməsi əsasında) – kitab çapı, dənizçilikdə kompasdan istifadə, odlu silahın istehsalı, habelə manufaktura, sənaye, bank işi və s. adlarını sadalamaq kifayətdir. XV əsrdə Mayntsda İohann Quttenberq tərəfindən yaradılmış kitab çapı bütün dünyada elmin, təhsilin və maarifləndirmənin sürətli tərəqqisinə yol açmış böyük mədəni inqilab idi. Əhalinin savadsızlığının aradan qaldırılması dünyəvi təhsilin təşkili və bütün dünyada insan inkişafında inqilabi rol oynamış müasir elmin əsaslarının formalaşdırılması üçün zəruri fundament idi. Kitab çapı həmçinin orta əsrlər Avropasında ehkamçılıqdan imtinaya və milyonlarla insanın yaradıcı təfəkkürünün inkişafına kömək etmiş xristianlıq islahatlarına təkan verdi.

İnsan inkişafının vasitəsi kimi ruhi mədəniyyətin potensialından yaradıcı istifadənin səmərəliliyi daha çox onun özünün, strukturunun, tərkib hissələrinin, hərəkətverici qüvvələrinin, qarşılıqlı əlaqələrinin və ondakı dəyişdirici imkanlardan istifadə imkanı verən qanunauyğunluqlarının düzgün başa düşülməsindən asılıdır. Elmi anlamda mədəniyyət – təbiətin, insanın və cəmiyyətin dərk edilməsi və dəyişdirilməsi ilə bağlı yaradıcı proses, onun nəticələri – intellektual, mənəvi, bədii və maddi dəyərlər və normalar, habelə zəruri biliklərin, bacarıqların, dəyərlərin və insan fəaliyyətinin digər məhsullarının istehsalı, saxlanılması, istifadəsi və insanlara ötürülməsi texnologiyalarıdır. Mədəniyyətin sistemli yanaşmaya əsaslanan bu cür anlaşılması olmadan dövlət quruculuğunda və idarəçiliyində ruhi mədəniyyətin strateji əhəmiyyətinin qiymətləndirilməsi və onun dəyişdirici imkanlarının səmərəli istifadəsi çətin ki mümkün olsun.

Mədəniyyət mahiyyəti etibarilə – insanın ağlı, qəlbi və əməyi ilə yaradılan "ikinci, süni təbiətdir". O, bütöv sosial orqanizmdir, təbii-coğrafi şərait, mədəniyyətin genetik kodu, sosial mühit, tarixi vəziyyət və mədəni mübadilə ilə şərtləndirilmiş insan inkişafının tələbatlarına uyğun olaraq ahəngdar şəkildə balanslaşdırılmış, daim inkişaf edən sistemdir. Bütöv sosial orqanizm olan mədəniyyətin hər bir sahəsinin öz missiyası, funksiyaları, məqsədləri, enerjisi, inkişaf vektoru və insanın həyat fəaliyyətinin qorunması və yaxşılaşdırılmasına xidmət edən nəticələri vardır. Bu qeyri-adi sosial fenomenin əsas göstəriciləri bilik, xeyirxahlıq, əmək, inkişaf və rifahdır. Eyni zamanda cahillik və yüksək eqoizm – şər, kasıblıq, destruktivlik və zəiflikdir.

Mədəniyyət haqqında Sovet dövründən qalmış, iqtisadiyyat üzərində "üstqurum", başlıca olaraq, ədəbiyyat və incəsənət, ənənələr və etik normalar kimi dar təsəvvür əslində onun təbiətini obyektiv əks etdirə bilmir. Bu dar anlayış mədəniyyətin bir-biri ilə sıx əlaqədə olan flaqmanları və sosial institutları kimi elm, təh-

sil, maarif, iqtisadiyyat, səhiyyə, hüquq və “ikinci, süni təbiətin” digər sahələrini diqqətdən kənarda saxlayır. Mədəniyyət anlayışına dar yanaşma insanın həyat fəaliyyətinin universal yaradıcı amili kimi mədəniyyətin qeyri-məhdud yaradıcı imkanlarının istifadəsinə mane olur.

Hər bir xalqın ruhi mədəniyyəti insanların sosial davranışının tənzimləyicisi olub, onun mülki və əmək mobilliyinə, milli problemlərin həllində həmrəy iştirakına, sosial qarşılıqlı anlaşmaya, cəmiyyətin bütün təbəqələrinin maraqlarının ümumiliyinə və mədəni identikliyinə kömək edir. Ruhi mədəniyyət tərəfindən dəyərlər, inkişaf məqsədləri və nailiyyətləri, cəmiyyətin, dövlətin və bütün bəşəriyyətin xilası imkanları müəyyən edilir.

Ruhi mədəniyyətin ən mühüm funksiyası xalqın rifahının yüksəlişini, cəmiyyətdə davamlı siyasi nizamı, tarixi dövrlə şərtləndirilmiş tələbatlar və çağırışlara uyğun olaraq, dövlətin maliyyə-iqtisadi və sosial inkişafını təmin edən təhsil və insanları maarifləndirməkdir. Yüksək ruhi mədəniyyət düzgün tərbiyə, keyfiyyətli tədris, sonradan şəxsiyyətin “anadangəlmə” mədəni keyfiyyətlərində təzahür edən “bünövrə” kimi insanın özünüinkişafı və özünütəkmilləşdirməsi sayəsində formalaşır.

Sosial mühit mədəniyyətin inkişafı üçün müəyyənedici əhəmiyyətə malikdir. Qayanın üzərində olan ən məhsuldar toxum belə onun yetişməsi üçün əlverişli mühit olmasa, cücərə bilməz. Anadangəlmə mədəni keyfiyyətlər dövlətin səmərəli siyasəti ilə şərtləndirilmiş cəmiyyətin pozitiv sosial-mədəni mühitinin əlverişli zəminində düşdükdə mütləq yüksək insan mədəniyyəti formasında gözlənilən nəticələri verəcəkdir.

Yaxşı tərbiyə və tədrislə yanaşı, insan inkişafının qanunları və imkanları, həyat fəaliyyəti texnologiyaları, bəşəriyyətin müdriklik inciləri, habelə tarixi hadisələrin, faktların və insanların düzgün başa düşülməsinə və qiymətləndirilməsinə yanaşmalar haqqında elmi biliklərin cəmləndiyi yaxşı kitablar yüksək mədəniyyətin başlıca mənbəyidir. Özünüdərk, təbiət və cəmiyyət hadisələrini müşahidə etmək, alınmış nəticələri düzgün şərh etmək və insanları dedikləri sözlərə görə deyil, əməllərinə görə qiymətləndirmək bacarığı ilə bağlı olan təcrübə mədəniyyətin inkişafının ən mühüm mənbəyidir.

Mədəniyyətin dəyəri insanın əqli, peşəkar və mənəvi özünütəkmilləşdirməsi, cahillik və yüksək eqoizmi aradan qaldırmaq, özünü və ətraf aləmi yaxşılığa doğru dəyişmək qabiliyyətindən asılıdır. Ruhi mədəniyyət dəyişilməz komponentləri tərbiyə, elm və maarifləndirmə olan təhsilə əsaslanaraq, bütün zamanların və xalqların başlıca məqsədi olan insanların layiqli həyat fəaliyyətini təmin etməklə, insan inkişafına və xoşbəxtliyinə xidmət edir. Ruhi mədəniyyət özünün qeyri-məhdud dəyişdirici imkanları, intellektual və mənəvi potensialı səbəbindən insanın tamdəyərli həyat fəaliyyətinin, cəmiyyətin və beynəlxalq münasibətlərin stabilliyinin və təhlükəsizliyinin əsas amili olmuşdur, olmaqda davam edir və olacaqdır ki, bu da müasir dünya sivilizasiyasının təkmilləşdirilməsi üçün onun prioritet inkişafının planetar əhəmiyyətini vurğulayır.

Abraham Maslou tərəfindən işlənib hazırlanmış, insan harmoniyası, təhlükəsizlik, sosial institutların humanist dəyişdirilməsi və insanların şüurunun dəyişilməsi vasitəsilə qabiliyyətlərin maksimal inkişafı və özünüreallaşdırma prinsipləri əsasında qurulan "ideal cəmiyyət" modeli cəmiyyətin ruhi mədəniyyətinin mahiyyətinin və inkişafının düzgün başa düşülməsi üçün böyük maraq kəsb edir.

Daimi dəyişikliklər, qeyri-müəyyənliklər və zamanın çağırışları şəraitində ruhi mədəniyyətin müxtəlif sahələrinin təkamülünün səmərəli sosial-mədəni siyasət və onun obyektiv qiymətləndirilməsi üçün zəruri olan kulturoloji göstəriciləri qismində verilə bilər:

1. İnsan potensialının imkanlarını müəyyən edən yüksək mədəniyyətli insanların kəmiyyəti və keyfiyyəti.
2. Cəmiyyətin həyat fəaliyyəti və həyat qabiliyyəti mədəniyyətinin səviyyəsi.
3. Dövlət idarəçiliyi mədəniyyətinin konkret səmərə verməsi.
4. Ailədə və cəmiyyətdə meritokratik mədəniyyət dəyərlərinin yayılma dərəcəsi.
5. Elm, təhsil, maarif, ədəbiyyat və incəsənətin inkişafındakı nailiyyətlər.
6. Elmi-texnoloji və sosial-iqtisadi inkişaf templəri.
7. Cəmiyyətdə səhiyyə, ekologiya, etik və hüquqi mədəniyyətin vəziyyəti.
8. Dövlətin rəqabətqabiliyyətlilik səviyyəsi.

Mədəni təkamülün təmin edilməsi məqsədilə bəşəriyyət ruhi mədəniyyətin "dəyişdirici qanadının" – mənəvi dəyərlərlə vəhdətdə davamlı inkişafı və planetin təhlükəsiz gələcəyini təmin edən intellektual mədəniyyətin prioritet inkişafı haqqında ciddi düşünməlidir. İntellektual mədəniyyət elm, təhsil və maarifləndirmənin imkanlarından istifadə edərək, ruhi və insanın həyat fəaliyyəti tələbatlarının ödənilməsinə kömək edən maddi dəyərlərin istehsalını həyata keçirir. İntellektual mədəniyyətin vacibliyinin başa düşülməsi üçün qeyd edək ki, nüfuzun şərtsiz rolu ilə, həqiqət ağıl və təcrübənin birgə fəaliyyəti sayəsində müəyyən edilir. Təcrübə olmadan həqiqəti müəyyən etmək, eyni zamanda ağıl olmadan təcrübənin zəruriliyini anlamaq və onun nəticələrini düzgün şərh etmək olmaz.

### *Yüksək mədəniyyətli insan ruhi mədəniyyətin əsas resursu kimi*

Yüksək mədəniyyətli insanların formalaşdırılması insan potensialının keyfiyyətinin yüksəldilməsi və milli inkişaf proseslərində ondan səmərəli istifadə edilməsi üçün böyük əhəmiyyət kəsb edir. Tarixi yalnız xalqlar deyil, həm də xüsusi sosial dəyərə malik istedadlı şəxsiyyətlər, təhsilli, yüksək mədəniyyətli insanlar yaradır. Yüksək mədəniyyətli insanlar cəmiyyətin yüksək ruhi mədəniyyətinin inkişafının əsas məhsulu və aləti, müasir dövlətlərin və bütün bəşəriyyətin inkişafının strateji bərpa olunan resursudur.

Özündə intellektual və mənəvi mədəniyyəti ahəngdar şəkildə təcəssüm etdirən yüksək mədəniyyətli insan – cəmiyyətin rifahını və həyat keyfiyyətini, dövlətin rəqabətqabiliyyətliliyini, davamlı və təhlükəsiz inkişafını təmin edən başlıca hərəkətverici qüvvədir. O, insan potensialının, yüksək məhsuldarlıqlı əməyin və

effektiv idarəçiliyin əsası, mədəniyyətlərin və sivilizasiyaların nəticə etibarilə səmərəli dialoqunun, bəşəriyyətin həmrəyliyi və humanitar əməkdaşlığının açarıdır.

Əgər cəmiyyətdə yüksək mədəniyyətli insanların tələb edilənliyinə maddi mədəniyyətin tələbatları və rəqabətqabiliyyətli iqtisadiyyat prizmasından baxsaq, asanlıqla görərik ki, "ağıllı" iqtisadiyyat intellektual mədəniyyətin qabaqlayıcı inkişafını və elmin nailiyyətlərinin istehsala sürətlə tətbiq edilməsini tələb edir. Zehni əməklə məşğul olan insanlar getdikcə daha çox istehsalın əsas kapitalı hesab edilirlər. Yüksək texnologiyalar və elmtutumlu istehsal, bərpa olunan resurslar iqtisadiyyatının inkişafı, İT –, nano – və biotexnologiyalar cəmiyyətdə yüksək mədəniyyətli insanların "istehsalına", həvəsləndirilməsinə, tirajlanmasına və onlardan düzgün istifadə edilməsinə dövlətin ciddi diqqətini tələb edir. Bu, təkcə ölkənin rifahına və rəqabətqabiliyyətliliyinə deyil, həm də vətəndaşların əmək, məsuliyyət mədəniyyətinə, rifahı, qarşılıqlı anlaşması, həmrəyliyi, qanunun aliliyi və etik mədəniyyətinə əsaslanan, ahəngdar təşkil edilmiş və sosial baxımdan təhlükəsiz cəmiyyətə aparan yoldur. Bu səbəbdən bütün dünyada yüksək mədəniyyətli insanların, ilk növbədə, mütərəqqi inkişaf üçün zəruri olan universal biliklərə, vərdişlərə və təcrübəyə malik mədəniyyət yaradıcılarının inkişafına dəstək aktual milli və beynəlxalq vəzifədir.

Yüksək mədəniyyətli insanın göstəriciləri vicdan və mehribanlıq, peşəkar biliklər və təcrübə, təfəkkür mədəniyyəti və ümumi erudusiya, mütəşəkkillik, yaradıcı fəaliyyət və yüksək əmək mədəniyyəti kimi keyfiyyətlərdir. Yüksək mədəniyyətli insanların cəmiyyəti xalqın milli-mədəni dəyərlərinə və etik ənənələrinə hörmətlə yanaşmaqla, şəxsiyyətə hörməti, dürüstlüyü, vətəndaşların məsuliyyət mədəniyyətini və innovativ fəaliyyətini nəzərdə tutur. Bu keyfiyyətlərin vəhdəti alimlər və pedaqoqlar, ədəbiyyat və incəsənət xadimləri, siyasətçilər və idarəçilər, diplomatlar, həkimlər və səhiyyə işçiləri, hüquqşünaslar və jurnalistlər, mühəndislər, inşaatçılar, xidmət sahəsinin işçiləri və digər mütəxəssislər də daxil olmaqla, hər bir ziyalı insan üçün səciyyəvidir.

İnsanın əsl dəyər meyarı onun milliyyəti, dini, doğulduğu yer, yaşadığı yer, hətta peşəsi deyil, onun ruhi – əqli və mənəvi mədəniyyətidir. Ona görə öz xalqını sevən hər bir yüksək mədəniyyətli insan təhsil və maarifləndirmə vasitəsilə, yeni biliklər ötürməklə, vətəndaşların intellektual və mənəvi mədəniyyətinin inkişafına dəstək olmalıdır. Belə insan təkcə özü üçün deyil, həm də başqa insanların naminə xeyir, bilik, yaradıcılıq, sosial ədalət və insan həmrəyliyi prinsipləri əsasında layiqli həyata can atır. Onun ən mühüm missiyası özünütəkmilləşdirmə və insanların mədəni inkişafına xidmətdir.

Şəxsiyyətin mədəniyyət səviyyəsini riyazi düsturla ifadə etmək olar. Bu düsturda kəsrin surətində biliklər, bacarıqlar, mütəşəkkillik, mənəviyyat və yaradıcı fəaliyyət, məxrəcində isə – cahillik, yüksək eqoizm, məsuliyyətsizlik, ləyaqətsizlik, tənbəllik durur. Yüksək mədəniyyətli şəxsiyyətin təlim və tərbiyəsinin subyektləri: ailə, kollektiv, cəmiyyət və dövlət, alətləri – elmtutumlu xüsusi və əlavə

kulturoloji təhsil və maarifləndirmə, ustad dərsləri, treninqlər, mühazirələr, konfranslar, televiziya verilişləri və məşğələlər, habelə insanın özünüinkişafıdır.

Yüksək mədəniyyətli insanların "istehsalı" prosesində insanların sosial statusundan və peşəsindən asılı olmayaraq, onları özünü təkmilləşdirməyə həvəsləndirmək mühüm yer tutur. Mədəni insanın kamillik dərəcəsi daha çox onun anadangəlmə mədəni keyfiyyətlərindən (təbii bacarıqları və istedadları) və təhsil, özünüidarə və vicdanlı əməklə şərtləndirilmiş daimi özünütəkmilləşdirmə prosesindən asılıdır. Şübhəsiz, bir sıra daxili və xarici amillər şəxsiyyətin özünütəkmilləşdirməsi prosesinə təsir göstərir. Daxili amillər sırasında: şəxsiyyətin intellekti, mənəviyyatı, dəyərlər sistemi, özünütəhsili, maraqları, xasiyyəti, ləyaqətini və humanizmi ayırmaq olar. Xarici amillər sırasında: siyasətin dəyər əsası, cəmiyyətdə elm, təhsil, maarif, iqtisadiyyat, idarəçilik, hüquqi və dini mədəniyyətin, ailədə meritokratik mədəniyyətin inkişaf səviyyəsi mühümdür.

Yüksək ruhi mədəniyyətin müəyyən standartlarına və normalarına cavab verən "Homo culturalis" insan növünün Qərb və Şərq ölkələrində tirajlanması – insan inkişafı məqsədilə sülhün qorunmasının, humanitar təhlükəsizliyin, həmrəyliyin və əməkdaşlığın qlobal miqyasda təmin edilməsinin ən yaxşı üsuludur. Zamanın çağırışlarını nəzərə alaraq, dünyanın hər bir nöqtəsində belə insanların "istehsalı" üzrə "yüksək ruhi mədəniyyət fabrikləri" yaratmaq və inkişaf etdirmək lazımdır. Yüksək mədəniyyətli insanların sayı nə qədər çox olsa, hər bir ölkədə və dünya sivilizasiyasında əmək məhsuldarlığı və keyfiyyətinin, qarşılıqlı anlaşmanın, xeyirxahlığın, həmrəyliyin və insan xoşbəxtliyinin, sosial təhlükəsizliyin və həyat keyfiyyətinin səviyyəsi də bir o qədər yüksək olacaq.

### *Bəşəriyyətin inkişafı və təhlükəsizliyi üçün kulturologiyanın əvəzolunmaz əhəmiyyəti*

Kulturologiya – mədəniyyətin mahiyyəti, onun xüsusiyyətləri, tarixi, inkişaf qanunları, nailiyyətləri, texnologiyaları və dəyişdirici imkanları haqqında elm yüksək ruhi mədəniyyətin inkişafı, bütün dünyada yüksək mədəniyyətli, layiqli insanların, yaradıcıların və qəhrəmanların yetişdirilməsi üçün əvəzolunmaz əhəmiyyətə malikdir. O, bu günün və gələcəyin maraqlarını nəzərə alaraq, insan inkişafı proseslərinə sistemli baxışa və onlardan səmərəli istifadəyə kömək edən dəyərli elmi resursdur. Ruhi mədəniyyətin kulturoloji baxımdan dərk edilməsi onun rolunu rifahın, həyatın keyfiyyəti və təhlükəsizliyinin artmasının texnoloji faktoru kimi, insanların ruhi və maddi tələbatlarının ödənilməsi üçün effektiv texnologiyaların yaradılması və zəruri məhsulların istehsalına yönəlmiş fəaliyyət kimi düzgün başa düşməyə kömək edir.

Fənlərarası xarakteri və metodoloji üstünlükləri sayəsində kulturologiya insanların intellektual inkişafı, peşəkar və mənəvi təkmilləşməsi üçün geniş imkanlar açır. O, müxtəlif ölkələrin alimlərinin, pedaqoqlarının, siyasətçilərinin, diplomatlarının və mədəniyyət xadimlərinin mədəniyyətin pozitiv transformasiyası, bəşəriyyətin davamlı və təhlükəsiz inkişafı üçün risk amilləri kimi cahillik və yüksək

eqoizmin aradan qaldırılmasına yönəlmiş həmrəy əməyinin formalaşmasına kömək edir. Kulturoloji metodologiya yalnız elmi təhlil üçün deyil, həm də düzgün qərarların qəbul edilməsi və səmərəli idarəçilik üçün həyatın tələbatlarına və zamanın çağırışlarına uyğun olaraq, insanın həyat fəaliyyətinin inkişafı texnologiyalarının işlənib hazırlanması üçün universal əhəmiyyətə malikdir.

Əgər elmlərin ən qədimi olan fəlsəfə – müdrikliyə sevgidirsə, onda kulturologiya – sosial və humanitar elmlərin əsas nailiyyətlərinin və tədqiqat metodlarının inteqratoru qismində çıxış edən müdriklik haqqında elmdir. Mədəniyyəti bütöv, qarşılıqlı əlaqəli sosial sistem kimi görən sistemli kulturoloji yanaşma insanın həyat fəaliyyətinin tarixi mənzərəsini, onun güclü və zəif tərəflərini, nailiyyətlərini, xüsusiyyətlərini, qanunauyğunluqları və texnologiyalarını, habelə sivilizasiyanın inkişafı və daha yaxşı gələcəyin qurulması üçün yeni imkanlar "pəncərəsini" görməyə imkan yaradır.

Sosial və humanitar elmlərin inteqratoru kimi, kulturologiyanın üstünlükləri qoyulmuş problemi səciyyələndirən daimi və dəyişən kəmiyyətlərin müxtəlif kombinasiyalarında optimal qərarların qəbul edilməsinə kömək edir. Öz növbəsində düzgün qərarlar müxtəlif quruluşlu cəmiyyətlərin və dövlətlərin həyat qabiliyyətini və səmərəliliyini təmin edir, davamlı və təhlükəsiz inkişaf məqsədləri ilə onların fəaliyyətini effektiv şəkildə koordinasiya edir.

Kulturologiya elmi təhlildən təsdiqlənmiş nəticələr almağa, görkəmli alimlərin, mütəfəkkirlərin, habelə bəşəriyyətin çoxsaylı nəsillərinin xalq müdrikliyinin həyat təcrübəsinə və nailiyyətlərinə əsaslanan pozitiv dünyagörüşü yönəlişliklərini yaratmağa və insanların həyat qabiliyyətini formalaşdırmağa kömək edir. O, mürəkkəb elmi və praktiki problemləri ənənəvi humanitar və sosial elmlərin imkanlarının çərçivəsindən kənara çıxan, keyfiyyətcə yeni səviyyədə məntiqi cəhətdən həll edə bilir.

Bu səbəbdən kulturologiya müasir siyasi və idarəçilik strategiyalarının işlənib hazırlanması üçün yüksək effektivlikli innovasiya alətidir. O, siyasətçilərə və idarəçilərə dünya mədəniyyətinin tarixi və futuroloji mənzərəsini və sivilizasiyanın inkişaf tendensiyalarını görməyə, həyat hadisələrini, insanları, faktları və ətraf aləmi düzgün qiymətləndirməyə, vətəndaşların həyat qabiliyyətini və insan kapitalını inkişaf etdirməyə, özünü təkmilləşdirməyə və cəmiyyətdə insanların düzgün davranışını tənzimləməyə imkan verir.

Kulturologiya yalnız bəşəriyyət haqqında universal biliklər sistemini deyil, həm də sistemli təhlil metodologiyalarını və daimi dəyişikliklər şəraitində insanın həyat fəaliyyətinin inkişafı üçün zəruri olan texnologiyaları zənginləşdirir. Bu ona insanın təfəkkür və davranış, insanlararası, ailə, dinlərarası və beynəlxalq münasibətlər mədəniyyətinə, əməyin keyfiyyətinin və məhsuldarlığının artmasına müsbət təsir göstərən, XXI əsrin ən əsas elmi paradiqmalarından biri səciyyəsi qazandırır. Kulturologiya sahəsində tədqiqat, pedaqoji və maarifçilik fəaliyyəti xalqın sosial fəallığını, dövlətin həyat tələbatlarını ödəmək, dəyişiklikləri idarə etmək və zamanın çağırışlarına cavab vermək qabiliyyətini artıran ruhi mədəniyyətin inkişafına təkan verir.

Kulturologiyanın dövlət idarəçiliyi üçün strateji əhəmiyyəti onunla əlaqəlidir ki, o aşağıdakılar üçün yeni imkanlar açır:

- Dünya sivilizasiyası proseslərinin tarixi təcrübəsi və müqayisəli təhlili əsasında milli inkişafın yüksək templərini, yüksək məhsuldarlıqlı əməyi və keyfiyyətli məhsul istehsalını təmin edən milli dövlətlərin rəqabətqabiliyyətli inkişaf modellərinin, strategiyaları və texnologiyalarının yaradılması.
- İnsan kapitalının əsasını təşkil edən və cəmiyyətin inkişafının başlıca hərəkətverici qüvvəsi olan yüksək mədəniyyətli insanların yetişdirilməsi və inkişaf etdirilməsi.
- Müvəqqəti aktuallıq çərçivəsi, habelə daha yaxşı gələcəyin elmi əsaslandırılmış proqnozlarını və yaradılması nəzərə alınmaqla, cəmiyyətin və dövlətin həyat fəaliyyətinin müxtəlif sahələrində dünya elminin ən yeni nailiyyətlərindən istifadə proqramlarının işlənib hazırlanması.
- Strateji və taktiki məqsədlərin, insan, sosial və dövlət inkişafının istiqamətlərinin və prioritetlərinin formalaşdırılması və təkmilləşdirilməsi, cəmiyyətin və dövlətin həyat fəaliyyətinin müxtəlif istiqamətlərinin səmərəli koordinasiyasının təmin edilməsi.
- Kulturoloji təhsil və maarifləndirmənin köməyi ilə, habelə gənclərin, ailələrin və əhalinin müxtəlif kateqoriyalarının kulturoloji maarifləndirilməsinin həyata keçirilməsi ilə dövlət quruculuğu və idarəçiliyinin müxtəlif sahələri üçün universal kulturoloji biliklərə malik mütəxəssislərin hazırlığı, yenidən hazırlığı və tərbiyəsi.
- Mədəniyyətlərin və maraqların harmonizasiyası əsasında mədəniyyətlərin dialoquna, sivilizasiyaların tərəfdaşlığına və fərqli ictimai-siyasi quruluşa malik dövlətlərin beynəlxalq əməkdaşlığına dəstək.
- Sistemli təhlil əsasında cəmiyyətin və dövlətin müxtəlif fəaliyyət sahələrində mövcud olan proqramların, planların, strategiyaların, texnologiyaların, qərarların və əməyin nəticələrinin onların səmərəliliyi, keyfiyyəti, rəqabətqabiliyyətliliyi, təhlükəsizliyi, vəzifələrinin inkişaf tələbatlarına, mədəniyyətin beynəlxalq normalarına və standartlarına, dövlətin davamlı inkişaf məqsədlərinə və milli maraqlarına uyğunluğu baxımından kulturoloji ekspertizasının həyata keçirilməsi.

Bəşəriyyətin qlobal böhranının aradan qaldırılması və dünyanın yaxşılığa doğru dəyişilməsi üçün müxtəlif ölkələrdə həyat fəaliyyətinin müsbət kulturoloji texnologiyalarının inkişafını, humanizmi, həmrəyliyi, mədəni identikliyi və xalqlar arasında faydalı əməkdaşlığı təmin edən elmi strategiyaların işlənib hazırlanması və tətbiq edilməsi çox vacibdir. Kulturologiyanın beynəlxalq əhəmiyyəti həm də onunla şərlənib ki, o, dünyanı bütöv şəkildə qavrayaraq və gələcəyin proqnozlaşdırılması imkanlarını formalaşdıraraq, dünya sivilizasiyasının gələcəyinin mədəniyyətlərin və maraqların harmonizasiyasına əsaslanmış pozitiv ssenarilərini qurmağa kömək edir. Kulturologiyanın innovativ imkanlarından istifadə beynəlxalq idarəçiliyin qəbul edilmiş formalarından biri olan mədəniyyətlərin və

sivilizasiyaların dialoqunun texnologiyalarını təkmilləşdirmək üçün də mühüm əhəmiyyət kəsb edir.

İnsanın mədəniyyətini, əqidəsini və davranışını yaxşılığa doğru dəyişməyə kömək edən kulturoloji təhsil və maarifləndirmə yüksək ruhi mədəniyyətin inkişafı və yüksək mədəniyyətli insanların "istehsalı" üçün mühüm milli və beynəlxalq əhəmiyyətə malikdir. Şər və kasıblığın mənbəyi olan cahilliyin, ədalətsizliyin mənbəyi olan yüksək eqoizmin olduğu yerdə yüksək ruhi mədəniyyət ola bilməz. Cəmiyyətin və dövlətin ahəngdar inkişafı və çiçəklənməsi üçün düzgün təlim və tərbiyə vasitəsilə bu neqativ halları aradan qaldırmaq lazımdır ki, bu da öz növbəsində xeyirxahlığa sadiqliyi və qanunun aliliyini, mütərəqqi innovasiyaların xalqların ənənəvi milli-mədəni dəyərləri ilə məntiqi şəkildə birləşdirilməsini, sülh mədəniyyətini və bəşəriyyətin humanitar təhlükəsizliyini təmin etməyə imkan yaradacaq.

Əhalinin kulturoloji təhsili cəmiyyətin intellektual, məişət, istehsal, hüquqi, şəxsiyyətlərarası, millətlərarası, dinlərarası, siyasi, sosial və vətəndaş mədəniyyətinin yüksək standartlarının formalaşdırılmasına yönəlib və davamlı inkişafın mühüm resursudur. O, cəmiyyətdə insan həyatının nəcib etik prinsiplərinin bərqərar olmasına, dəyərlərin, cəhdlərin və məqsədlərin düzgün formalaşdırılmasına, müxtəlif xalqların mədəniyyətlərinin və maraqlarının uyğunlaşdırılmasına kömək edir. Onun üstün cəhətlərindən biri insanlarda kulturoloji təfəkkürün və ətraf aləmin təhlili zamanı nəzərdən keçirilən hadisənin bütün tərəflərini hesaba alan psixoloji yönəlişliyi və istənilən birtərəfli yanaşmaya tənqidi münasibəti ifadə edən holizm (bütövlük) fəlsəfəsi ilə bağlı sistemli yanaşmanın formalaşmasıdır. Bu, insanlar arasında qarşılıqlı anlaşmanın inkişafına, cəmiyyətdə ziddiyyətlərin və münaqişələrin səviyyəsinin aşağı düşməsinə kömək edir.

Siyasətçilərin və idarəçilərin, müəllimlərin və jurnalistlərin, din xadimlərinin, diplomatların və digər mütəxəssislərin, habelə gənclərin və uşaqların vahid kulturoloji təlim və tərbiyə proqramları əsasında əlavə kulturoloji təhsili və maarifləndirilməsi YUNESKO tərəfindən elan edilmiş davamlı inkişaf məqsədlərinə nail olmaqda əvəzolunmaz rol oynaya bilər. Vətən və dünya mədəniyyətinin tarixi inkişaf təcrübəsinin öyrənilməsinə, elmin ən yeni nailiyyətlərinin, texnologiya və idarəçiliyin, müsbət ənənələrin, yüksək mədəniyyətin beynəlxalq etik və hüquqi standartlarının təhlilinə əsaslanan icbari kulturoloji təhsil və maarifləndirmə rəqabətqabiliyyətli insan potensialının formalaşdırılmasının vacib şərtidir.

İnsanın peşəkar təhsili yüksək ruhi mədəniyyətin dəyişdirici imkanları, onun arxitektonikası, inkişaf məntiqi və etik əsasları haqqında biliklər olmadan gözlənilən nəticəni vermir. O, mədəni dəyərlər sistemini, ləyaqəti, dünyagörüşü yönəlişliklərini, vətənpərvərliyi, əqidə və davranışı diqqətdən kənar qoyur ki, bunlar olmadan mütəxəssislərin, siyasətçilərin və məmurların vətəndaş mövqeyi dövlətin milli maraqlarına zidd ola bilər. Mənəviyyatın: vicdan, xeyirxahlıq, humanizm, sevgi, dostluq, nəcib xasiyyət, düzlük, ədalət və imanın tərbiyə edilməsi vicdanlı əməyin köməyi ilə mədəniyyətin nəcib niyyətlərini və enerjisini insan

inkişafının layiqli məqsədlərinə, insanlara, öz ölkəsinə və bütün bəşəriyyətə xidmətə yönləndirməyə imkan verən təhsil və maarifləndirmə ilə müşayiət olunmalıdır.

***Universal kulturoloji biliklərin istehsalının və yayılmasının vacibliyi***

Ruhi mədəniyyətin yüksək mədəniyyətli insanların əmsalının yuxarı olduğu cəmiyyətin inkişafını təmin edən dəyərli elmi-informativ resursu universal kulturoloji biliklərdir. Elm, təhsil və maarifləndirmənin köməyi ilə universal kulturoloji biliklərin istehsalı və ötürülməsi xalqın milli-mədəni ənənələrinin qorunması ilə, cəmiyyətin elmi-texniki tərəqqisini təmin edən həyat fəaliyyəti texnologiyalarının təkmilləşdirilməsinə kömək edir. Onların cəmiyyətdə yayılması insanın həyat fəaliyyətinin universal qanunlarının və əsas texnologiyalarının başa düşülməsinə kömək edir, zaman keçdikcə milli insan potensialının inkişafının daha zəruri şərti olur.

Sosial mədəniyyətin tərəqqiyönümlü dəyişməsinə, davamlı siyasi nizamın bərqərar olmasına, iqtisadi inkişafın təmin edilməsinə və cəmiyyətin rifahının artmasına yönəlmiş kulturoloji islahatların nəticələri daha çox universal kulturoloji biliklərin yayılmasından asılıdır. Bu səbəbdən mədəniyyətlərin və maraqların toqquşduğu böhranlı şəraitdə universal kulturoloji biliklərin məqsədyönlü şəkildə istehsalı və yayılması ruhi mədəniyyətin inkişafının, həyat tələbatlarının təmin edilməsinin və mədəniyyətin nemətlərinin yaradılmasının vacib alətinə çevrilir. O həm də insan ləyaqəti, sülh mədəniyyəti, beynəlxalq mədəni identiklik, bəşəriyyətin qorunması məqsədilə həmrəylik və əməkdaşlıq da daxil olmaqla, beynəlxalq mədəni dəyərlər, standartlar və normalar sisteminin formalaşdırılması və təkmilləşdirilməsi üçün lazımdır.

Universal kulturoloji biliklər insanın həyat fəaliyyəti texnologiyalarının təkmilləşməsinə və həyat keyfiyyətinin yüksəlməsinə kömək edir, onların əhali arasında yayılması insanların təfəkkür və davranış mədəniyyətinin müsbət yöndə dəyişməsinə gətirib çıxarır. Mədəniyyətin bütöv sosial sistem kimi düzgün başa düşülməsinə əsaslanan biliklərin cəmiyyətdə yayılması davamlı və təhlükəsiz insan inkişafı və daha yaxşı gələcəyin qurulması üçün “yeni imkanlar pəncərəsi” açır. Belə biliklərin mənimsənilməsi şəxsiyyətin inkulturasiyası üçün də vacibdir. O, düzgün qərarların qəbul edilməsi üçün əvəzolunmaz əhəmiyyətə malik həyat hadisələri və hallarının təhlilinə vətəndaşlar tərəfindən sistemli yanaşmanın formalaşdırılmasına kömək edir. Universal kulturoloji biliklər insanların kamilliyə və yüksəkliyə təbii cəhdlərini həvəsləndirərək, uğurlu inkişaf, cəmiyyət qarşısında xidmətlər və ictimaiyyət tərəfindən qəbul edilmə, irsi yolla əldə edilmişdən daha dəyərli olan şəxsi şöhrət qazanma şanslarını qanunauyğun olaraq yüksəldir.

***Dövlətin və dövlət idarəçilik mədəniyyətinin başlıca rolu haqqında***

İnsan inkişafının əsası kimi, ruhi mədəniyyətin mahiyyətinin və yüksək missiyasının düzgün başa düşülməsi cəmiyyətin həyat qabiliyyətinin təmin edilməsin-

də dövlətin roluna daha dərindən nəzər salmağa imkan yaradır. İqtisadi böhran və sosial ədalətsizliyin olduğu cəmiyyətlər həmişə xaosa gətirib çıxa bilən sosial-siyasi qeyri-sabitlik və partlayış riski ilə üz-üzədir. Bu, dövlətin mütərəqqi inkişafda, xalqın rifahının və həyat keyfiyyətinin artmasında başlıca rolunu izah edir. Dövlət idarəçiliyi siyasi qərarların milli və beynəlxalq qanunlara və xalqın həyati inkişaf maraqlarına uyğun olaraq həyata keçirilməsini təmin edir.

Dövlət idarəçiliyi mədəniyyəti siyasi strategiyaların uğurla həyata keçirilməsi və xalqın rifahının əsası və insanın həyat fəaliyyətinin elm, təhsil, hüquq, ideologiya, informasiya, incəsənət, tibb, ekologiya və s. kimi mühüm institutlarının resurs təminatının maddi bazası olan iqtisadiyyatın inkişafı üçün mübahisəsiz əhəmiyyətə malikdir. Maddi nemətlər istehsalçılarının əsas resursunun – intellektual mədəniyyətin prioritet inkişafı və rasional istifadəsi ondan asılıdır.

Yüksək dövlət idarəçiliyi mədəniyyəti idarəetmənin məqsədlərinin, texnologiyalarının və üslubunun daim təkmilləşdirilməsini, idarəçilik sisteminin xarakterinin, effektivlik səviyyəsinin və fəaliyyətinin onların milli maraqlara uyğunluğu baxımından təhlili və qiymətəndirilməsini nəzərdə tutur. Dövlət idarəçiliyinin məqsədləri cəmiyyətin inkişaf maraqları nəzərə alınmaqla formalaşdırılır və ölkə əhalisinin ruhi və maddi tələbatlarının ödənilməsinə yönəlir. Onların formalaşdırılması qanunların və texnologiyaların sistemli öyrənilməsini, kulturoloji qiymətləndirilməsini və yaradıcı istifadəsini, insan inkişafının mahiyyətinin, xüsusiyyətlərinin və nailiyyətlərinin, habelə yeni imkanlarının axtarışının, vasitələri və resurslarının nəzərə alınmasını, cəmiyyətin və dövlətin gələcəyinin görülməsini nəzərdə tutur.

Cəmiyyətin mədəniyyətinin təkmilləşdirilməsi üçün zəruri əsas – mədəniyyətin müxtəlif sahələrinin məqsədlərinin və onlara çəkilən xərclərin ictimai tələbatlar, maraqlar və alınmış nəticələr ilə uyğunlaşdırılmasını nəzərdə tutan səmərəliliyinin təhlili və qiymətləndirilməsidir. İdarəetmə mədəniyyətinin faydalı iş əmsalı və entropiyası təhlilin mühüm predmetidir. Səmərəliliyin qiymətləndirilməsi aktual problemlərin aşkara çıxarılmasının, tapşırıqların həll olunma texnologiyalarının, bunun üçün zəruri olan resursların, şərtlərin və zamanın təyin edilməsinin vacib şərti olan müəyyən meyarlar əsasında həyata keçirilir.

Səmərəlilik meyarı elə bir əlamətdir ki, istehsalın və idarəetmənin səviyyəsi və keyfiyyəti, onların təşkilatın, cəmiyyətin və ya dövlətin tələbatlarına, maraqlarına və məqsədlərinə uyğunluğu onun əsasında müəyyən edilir. Meyarlar keçmişin və indiki zamanın tənqidi təhlilini aparmağa, səhvləri və nöqsanları aşkar etməyə və aradan qaldırmağa, inkişafın ən yaxşı və həyatqabiliyyətli modellərini seçməyə, mövcud əmək texnologiyalarını təkmilləşdirməyə imkan verir. Onlar tələbatların və maraqların təmin edilmə, istehsalat və idarəçilik fəaliyətinin bu və ya digər sahəsində qoyulmuş məqsədlərə nail olma dərəcəsini müəyyən etməyə kömək edir. Dövlət idarəçiliyinin səmərəliliyinin əsas meyarlarından biri bütün proqramların, layihələrin, qərarların və fəaliyyətlərin onların ölkənin milli maraqlarına uyğunluğu və beynəlxalq etik və hüquqi normalarla razılaşdırılması nöqteyi-nəzərindən qiymətləndirilməsidir.

İdarəçilik kadrlarının hazırlığı və yenidən hazırlığı daxil olmaqla, dövlət idarəçiliyinin təkmilləşdirilməsi prosesi, habelə idarəçiliyin imkanlarının, onun mobilliyinin, rasionallığının, cəmiyyətin və dövlətin inkişaf tələbatlarına uyğunluq dərəcəsinin artmasına yönəlmiş innovativ kulturoloji strategiyaların, texnologiyaların və metodların istifadəsi cəmiyətin səmərəli fəaliyyətinin təmin edilməsində müəyyən rol oynayır. Kulturoloji metodologiya və bir-birini tamamlayan on iki effektiv tədqiqat metodunun vəhdətini ifadə edən sistemli kulturoloji təhlil dövlət idarəçiliyi üçün praktiki dəyərə malikdir. Nəzərdən keçirilən problemlərin hamısının təhlili göstərir ki, dövlət idarəçilik mədəniyyətinin inkişaf maraqları siyasətçilərdə və dövlət qulluqçularında yeni, kulturoloji təfəkkürün formalaşdırılmasının məqsədəuyğunluğu ilə əlaqəlidir. Müxtəlif sahələrdə istehsal və idarəetmənin səmərəliliyinin yüksəldilməsi, sistemli kulturoloji yanaşmadan istifadə hesabına cəmiyyətin intensiv inkişaf yolunun təmin edilməsi məqsədləri ilə müasir kulturologiyanın metodologiyası və nailiyyətlərindən rasional istifadəyə yönəlmiş xüsusi kulturoloji hazırlıq (idarəçilik kadrlarına münasibətdə) aktual vəzifədir. Birləşmiş Krallıqda işlənib hazırlanmış, dövlət idarəçilik strategiyasına “ceneralist” yanaşma bu ideyanı dəstəkləyir. O, ölkənin milli maraqlarının və yüksək rəqabətqabiliyyətliliyinin təmin edilməsi məqsədi ilə dünya sivilizasiyasının inkişaf təcrübəsinin və qanunauyğunluqlarının, müxtəlif dövlətlərin idarəetmə strategiyaları və texnologiyalarının müqayisəli təhlili və yaradıcı şəkildə istifadəsi əsasında layihələrin kulturoloji ekspertizasını nəzərdə tutur.

### *Meritokratiya və mədəni elitanın həyatqabiliyyətli cəmiyyət və güclü dövlətin inkişafında rolu haqqında*

Yuxarıda göstərilmiş kulturoloji təhlil həyatqabiliyyətli cəmiyyət və güclü dövlətin inkişafının daha çox xalqın yüksək ruhi mədəniyyətindən, dövlətçilik və dövlət idarəçiliyi mədəniyyətindən asılı olduğunu təsdiqləməyə əsas verir. Müasir dövlətin rəqabətqabiliyyətliliyinin, davamlı inkişafının və təhlükəsizliyinin əsas şərtləri: yüksək texnologiyaları, elmtutumlu istehsalı və bərpa olunan resursların iqtisadiyyatının inkişafını təmin edən intellektual mədəniyyətin qabaqlayıcı inkişafı; yüksək məsuliyyəti, məhsuldarlığı və məhsulun keyfiyyətini təmin edən əmək mədəniyyəti; sosial ədaləti və ölkənin iqtisadi təhlükəsizliyini təmin edən yüksək səviyyəli dövlət idarəçilik mədəniyyəti; cəmiyyətin yüksək sosial mobilliyinə, vətəndaşların inkişafı üçün bərabər hüquqlar və imkanların yaradılmasına təkan verən uşaqların və gənclərin meritokratik tərbiyəsi.

Həyatqabiliyyətli cəmiyyətin və effektiv idarəçiliyin iqtisadi təhlükəsizliyi və sosial ədalətsizliyi təmin edən inkişafında meritokratiya mədəniyyəti mühüm rol oynayır. Meritokratiya mədəniyyətinin əsasını yüksək məhsuldarlıqlı əməyin və davamlı dövlət intizamının həvəsləndirilməsi təşkil edir. Sinqapurun və bir sıra digər ölkələrin təcrübəsi davamlı və təhlükəsiz inkişafın ən təsirli alətlərindən biri kimi, meritokratik tərbiyənin və idarəetmənin mübahisəsiz üstünlüyünü göstərir. Meritokratiya həmçinin müasir dövlətlərin sosial-siyasi stabilliyinə poten-

sial hədə amili kimi, sosial qeyri-bərabərlik probleminin həllinə kömək edir.

Meritokratiya mədəniyyəti insanların inkişafının və özünütəkmilləşdirməsinin, ictimai əməyin yüksək məhsuldarlığının və vətəndaşlar arasında onların cəmiyyətin rifahı naminə yaradıcı fəaliyyətini stimullaşdıran sağlam rəqabətin ən gözəl motivatorudur. O, ictimai-siyasi quruluşdan, milli və dini tərkibdən asılı olmayaraq, dövlətlərin davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafı üçün etibarlı ideoloji əsas rolunu oynayır. Sosial mədəniyyətin bu növü ölkənin bütün vətəndaşlarının hüquqlarının, imkanlarının və məsuliyyətinin bərabərliyini, düzgün ailə tərbiyəsini, uşaqların və gənclərin qabiliyyət və istedadlarının inkişafı üçün şəraitin yaradılmasını, elmi biliklərə yönəlməni, rəhbərlərin və mütəxəssislərin elmi biliklərə və peşəkarlığa istinad etməsini nəzərdə tutur.

"Layiqli insanların hakimiyyəti" kimi tanınan meritokratiya mədəniyyəti milliyyətçilik və etnomərkəzçiliyi deyil, vətəndaşların vicdanlılıq, humanizm və vətənpərvərlik kimi mənəvi keyfiyyətlərinin dəstəklənməsini, yüksək məhsuldarlıqlı əməyin həvəsləndirilməsini, insanın sosial dəyərinin onun əməyinin konkret nəticələrindən, dövlətin məqsədlərinə nail olmasında verdiyi töhfədən, vətəni və bəşəriyyət qarşısındakı xidmətlərindən asılı olaraq qiymətləndirilməsini ifadə edir.

İdarəetmə forması kimi, sosial ədalətə və qanunun aliliyinə əsaslanan meritokratiya cəmiyyətin hər bir üzvünün sosial-mədəni inkişafı və karyerası üçün bərabər imkanlar açır. O, xalqın, cəmiyyətin bütün etnik və dini qruplarının dövlət maraqlarına və istəklərinə cavab verən mərkəzəqaçma qüvvəsi kimi, vətəndaş mədəniyyətini möhkəmləndirir.

Meritokratiya həmçinin özündə yüksək mədəniyyətli insanların formalaşdırılması, şəxsiyyətin, cəmiyyətin və dövlətin mədəniyyətinin mütərəqqi transformasiyası və uyğunlaşması üçün böyük imkanlar ehtiva edir. Bu, milli sülhə, mədəniyyətlərin və maraqların ahənginə, cəmiyyətin və dövlətin effektiv və stabil inkişafına aparan yoldur. Onun üstün cəhətləri innovativ fəaliyyət əmsalı yüksək olan səmərəli dövlət idarəçiliyi hesabına cəmiyyətin rifahının artmasını təmin edən demokratiya siyasi mədəniyyətinin məhsuldar fəaliyyətinə təsir ilə də şərtlənib. Tarix meritokratiya mədəniyyətinin prinsiplərini və meyarlarını insanların yüksək məhsuldarlıqlı əməyinin, cəmiyyətin rifahının artmasının və sosial-siyasi təhlükəsizliyinin təmin edilməsinin həvəsləndirilməsi üçün etibarlı zəmin kimi nəzərdən keçirməyə əsas verir.

Güclü dövlət cəmiyyətin "mədəniyyətin şaqulisini" formalaşdıran, xalqın mədəni tərəqqisini təmsil edən mədəni elitanı təşkil etməli olan yüksək mədəniyyətli insanların cəmiyyətdə mövcudluğunu və istehsalını nəzərdə tutur. Onlar elmtutumlu təhsilə, mədəniyyətin müxtəlif sahələrində xüsusi biliklərə və vərdişlərə malik olan zehni əmək işçilərindən ibarət ziyalıların seçilmiş hissəsidir. Misal kimi mədəniyyət yaradıcılarını, siyasətçiləri və idarəçiləri, alimləri, pedaqoqları, ədəbiyyat və incəsənət xadimlərini, mədəni nemətlərin yaradılması və dövlət idarəçiliyi prosesində mühüm rol oynayan mütəxəssisləri göstərmək olar.

Mədəni elitaya mənsubluğun göstəriciləri yüksək səviyyəli intellektual, mənəvi, hüquqi və idarəetmə mədəniyyəti, əmək mədəniyyəti, vətənpərvərlik, məsuliyyət,

vətən və bəşəriyyət qarşısında konkret xidmətlərdir. Mədəni elita cəmiyyətin dəyər, ideoloji, idarəçilik, istehsal, bədii və davranış modellərini formalaşdırır və təkmilləşdirir, mədəni irsin qorunması və innovativ proseslərin inkişafı prosesində iştirak edir. O, ruhi və maddi dəyərlər və normalar istehsal edir, müxtəlif profilli mütəxəssislər hazırlayır, elm, ədəbiyyat, incəsənət əsərləri yaradır, siyasi, səhiyyə, ekologiya, informasiya mədəniyyətini inkişaf etdirir, etik və hüquqi normaları və sosial davranış standartlarını müəyyən edir.

"Elita" termininə siyasi və kulturoloji yanaşma mövcuddur. Siyasi yanaşma insanların müəyyən qruplarının real hakimiyyətə mənsubluğunu və ya bu hakimiyyətin xarakterindən və vəzifəli şəxslərin dəyər xarakteristikalarından asılı olmayaraq, onların siyasi qərarların qəbul edilməsinə təsirini nəzərdə tutur. Belə ki, elitalar nəzəriyyəsinin yaradıcılarından biri kimi tanınan italyan sosioloqu və hüquqşünası Qaetano Moska elitanı əxlaqi, intellektual və maddi üstünlüyü ilə fərqlənən, bütün siyasi funksiyaları həyata keçirən, hakimiyyəti monopoliyalaşdıran və onun bütün faydalarından istifadə edən idarəedici "nomenklatur" azlıq hesab edirdi.

Buna baxmayaraq siyasi inkişaf qanunauyğunluqları göstərir ki, əgər nomenklatur elita vaxtaşırı olaraq dialektik dəyişikliklərin və zamanın tələblərinin diktə etdiyi ictimai faydalı mədəni islahatlar həyata keçirməsə, zaman keçdikcə öz dinamikasını, maddi gücünü və nüfuzunu itirə bilər. Bu, idarəetmə mədəniyyətinin prioritetlərinin avtoritetlərin və onların müəlliflərinin rəqabətindən – nomenklatur maraqlara deyil, milli maraqlara cavab verən innovativ ideyaların, konsepsiyaların, layihələrin və qərarların rəqabətinə keçidi nəzərdə tutur.

Elitanın anlaşılmasına daha çox siyasətçilərə və iqtisadiyyatçılara xas olan siyasi yanaşmadan fərqli olaraq, kulturologiya dəyər və ya meritokratik yanaşmaya üstünlük verir. Bu yanaşmanı elitalar nəzəriyyəsinin banilərindən biri, "elitaların dövriyyəsi" konsepsiyasının müəllifi professor Vilfredo Pareto təklif etmişdir. O, elitanı dövlətin piramidal strukturunda bütün cəmiyyətin həyatını istiqamətləndirən rəhbər sosial təbəqə kimi nəzərdən keçirmişdir. Belə yanaşma cəmiyyətin mədəni insanların orta göstəricilərini ötüb keçən daha yüksək intellektə, istedadlara, qabiliyyətlərə, səriştəliliyə sahib ən yaxşı hissəsi kimi, "elita" anlayışının ilkin mənasına əsaslanır. Bu yanaşmaya görə, dövlətin həyat fəaliyyətinin müxtəlif sahələrində yüksək mədəniyyətli insanları birləşdirən, formal hakimiyyət strukturlarında təmsil edilməyən mədəni elita cəmiyyətin həyat qabiliyyətini yüksəldərək, onun dünyagörüşünə, davranışına və həyat fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Demokratik rejimlərə skeptik münasibətini ifadə edərək, Vilfredo hesab edirdi ki, "ehkamçı plutokratiya" siyasi həyatında siyasi elita həmişə kütlələri aldadır. O, cəmiyyətin uğurlu inkişafını xalqın daha istedadlı və layiqli nümayəndələrinin cəlb edilməsi hesabına elitanın vaxtında yenilənməsində görürdü.

Elita anlayışına iki yanaşmanın müqayisəli təhlili göstərir ki, yüksək mədəniyyətli insanların və keyfiyyətli mədəni elitanın, milli mədəniyyətin yaradıcılarının təkrar istehsalı strateji milli vəzifədir və qloballaşmanın obyektiv və subyektiv

proseslərinin təsiri altında mümkün ola bilən cəmiyyətin mədəni tənəzzülünün qarşısının alınmasının zəruri şərtidir. Dövlət tərəfindən elitalara təqdim edilən üstünlüklər, imtiyazlar onların davamlı milli inkişafa töhfəsi, cəmiyyət və dövlət, ölkənin bu günü və gələcəyi qarşısında məsuliyyəti ilə təsdiqlənməlidir.

Cəmiyyətin və dövlətin həyat qabiliyyətinin yüksəldilməsi, milli və beynəlxalq davamlı inkişaf strategiyalarının müvəffəqiyyətinin təmin edilməsi məqsədilə bizim tərəfimizdən səmərəli idarəetmənin innovativ xarakterə malik altı kulturoloji postulatı təklif edilə bilər. Onlar aşağıdakı məzmunda keçidi nəzərdə tutur: ziddiyyətlərdən – maraqların ahəngi və razılaşdırılmasına; vəzifə hakimiyyətindən – biliklər və etika hakimiyyətinə; səriştəsiz idarəetmədən – peşəkarlığa və məsuliyyətə; demokratik idarəetmə mədəniyyətindən – meritokratik idarəetmə mədəniyyətinə; rəqabətdən və manipulyasiyadan – həmrəyliyə və əməkdaşlığa; etnik və dini identiklikdən – vətəndaş mədəniyyəti identikliyinə.

***Kulturoloji islahatların keçirilməsinin məqsədəuyğunluğu haqqında***

Dövlətin davamlılığının, təhlükəsizliyinin və rəqabətqabiliyyətliliyiinin dəstəklənməsi tələbatları müasir kulturologiyanın nailiyyətlərindən və imkanlarından istifadə etməklə, kulturoloji islahatların daim həyata keçirilməsini tələb edir. Kulturoloji islahatlar insanların həyat fəaliyyəti mədəniyyətinin təkmilləşdirilməsinin və cəmiyyətin əsas sosial-iqtisadi tələbatlarının təmin edilməsinin açarıdır. Onlar zamanla ayaqlaşmalı və xalqın ənənəvi mədəniyyətinin dövlətin rəqabətqabiliyyətliliyinin təmin edilməsi üçün zəruri olan bəşəriyyətin mütərəqqi mədəni innovasiyaları ilə sintezi hesabına cəmiyyətin ahəngdar inkişafına kömək etməlidir. Kulturoloji xarakterli innovativ dəyişikliklər təhsil və maarif sistemini, dövlət və sosial idarəetməni, istehsalı və kənd təsərrüfatını, tikintini, nəqliyyat və rabitəni, ticarət və biznesi, səhiyyə və ekologiyanı əhatə edə bilər.

Buna baxmayaraq kulturoloji islahatların yolunda həmişə maneələr olur: mədəniyyət fenomeninin mahiyyətinin və qeyri-məhdud dəyişdirici imkanlarının düzgün başa düşülməməsi, əhalinin bir qisminin kifayət qədər təhsilli olmaması, təfəkkür və davranışın inersiyası, cəmiyyətin bir qrupunun mədəniyyətə maraq göstərməməsi və digər qrupunun onu qəbul etməməsi. Bunları necə aradan qaldırmaq olar? Obyektiv və subyektiv maneələr olmasın deyə islahatların məqbul və tələb edilən olmasına, hamının maraqlarına cavab verməsinə çalışmaq lazımdır.

Hər şeydən əvvəl, islahatların keçirilməsi üçün kulturoloji meyarları düzgün seçmək lazımdır. Onlar dövlət strukturlarının və xalqın bu cür islahatların həyata keçirilməsinə maraqlılığı və hazırlığı ilə bağlıdır. Kulturoloji islahatların keçirilməsindən həm dövlət, həm cəmiyyət, ölkə əhalisinin bütün kateqoriyaları uduşlu çıxmalıdır, əhali islahatların yolunda duran maneələrin aradan qaldırılmasına həvəsləndirilməlidir.

Cəmiyyətin həyat qabiliyyətinin yüksəldilməsi məqsədilə mədəni transformasiyaların vacibliyinin anlaşılmasına ictimai fikrin hazırlığı üçün mütəxəssislərin əlavə kulturoloji təhsili və ölkə əhalisinin kulturoloji maarifləndirilməsi əsasında

yüksək mədəniyyətli insanların "istehsalı" strategiyasının həyata keçirilməsi lazımdır. Yüksək mədəniyyətli insanların istehsalı və tirajlanması – cəmiyyətin müxtəlif sosial qrupları arasında qarşılıqlı anlaşmaya, qarşılıqlı etimada və razılığın əldə olunmasına aparan yoldur. Bunlar olmadan dövlətin davamlı və təhlükəsiz inkişafı çətin ki mümkün olsun.

Ruhi mədəniyyətin qabaqlayıcı inkişafına və yüksək mədəniyyətli insanların formalaş-dırılmasına yönəlmiş islahatların həyata keçirilməsi üçün uğur gətirən amil milli maraqlar və rəqabətqabiliyyətli insan kapitalının əsası və davamlı dövlət inkişafının amili olan yüksək mədəniyyətli insanın özündə daşıdığı ictimai faydadır.

Göründüyü kimi, inkişafın strategiyalarına, prioritetlərinə və texnologiyalarına kulturoloji yanaşmaya əsaslanan, həyat rifahı və keyfiyyətinin gələcəkdə davamlı olaraq artması üçün yeni imkanlar açmaq iqtidarında olan vaxtaşırı islahatlar Azərbaycan Respublikası üçün də faydalı ola bilər. Söhbət cəmiyyətin və dövlətin bütün sahələrində mədəniyyətin entropiyasının azaldılması, əmək məhsuldarlığı və keyfiyyətinin yüksəldilməsi məqsədi ilə cəmiyyətin həyat fəaliyyəti texnologiyalarının və idarəetmə mədəniyyətinin təkmilləşdirilməsindən gedir. Eyni zamanda islahatlar elə keçirilməlidir ki, qüvvədə olan siyasi strategiyalar və idarəçilik texnologiyaları əsasında milli inkişaf proseslərini ləngitməsin. Qarşıya qoyulan innovativ vəzifələr və seçilmiş mədəni dəyişilmə texnologiyaları qloballaşma çağırışları ilə şərtləndirilmiş mütərəqqi dəyişikliklər səciyyəsi daşımalı və dövlətin resurslarına və imkanlarına uyğun olmalıdır. Bunun üçün aşağıdakılar lazımdır: məqsədlərin aydın görülməsi, gələcək haqqında müsbət təsəvvürün olması, islahatların milli inkişafın dəyişən tələbatlarına uyğunluğu. Siyasi, təşkilati və maliyyə şərtləri, habelə kulturoloji metodologiya və təhlil metodlarına əsaslanan innovativ idarəçilik bilikləri və vərdişləri böyük əhəmiyyət kəsb edir.

Mədəni islahatların uğurla həyata keçirilməsinin stimulu onların milli maraqlar nöqteyi-nəzərindən praktiki dəyəri, dövlət müəssisələri, vətəndaş cəmiyyəti institutları və bütövlükdə ölkə əhalisi üçün qəbul edilə bilməsidir. Eyni zamanda ictimai institutların – ciddi intellektual resurslara malik qeyri-hökumət təşkilatlarının yaradıcı enerjisindən istifadə dövlətin dəyişdirici potensialının yüksəldilməsinə kömək edə bilər.

Mədəni islahatların həyata keçirilməsi Qərbin və Şərqin daha məhsuldar ölkələrinin tarixi təcrübəsinin və həyat fəaliyyəti mədəniyyəti, dövlətçiliyi, iqtisadi inkişafının müasir modelləri və elmi-texni tərəqqisinin sistemli kulturoloji təhlilini və yaradıcı şəkildə istifadəsini nəzərdə tutur. Müxtəlif ölkələrin müqayisəli kulturoloji təhlili inkişaf etməkdə olan ölkələrin milli strategiyaları və proqramlarının dünya sivilizasiyasındakı inkişaf dinamikasından və dəyişikliklərdən geri qalmasının mümkünlüyünü aşkara çıxarır.

Yaponiya, Sinqapur, Çin, Finlandiya və başqa ölkələrin təcrübəsi kulturoloji islahatlar üçün güclü motivasiya amili ola bilər. Tarixdə Meydzi mədəni inqilabının Yaponiyanın və ya görkəmli azərbaycanlı ensiklopedist alim Nəsrəddin Tusinin köməkliyi ilə Hülakü xan islahatlarının orta əsrlər Azərbaycanının milli

inkişafında hansı mütərəqqi rolu oynadığını xatırlayaq. Yaponiyada Meydzi zamanında həyata keçirilmiş mədəni dəyişikliklər dövlətin qısa tarixi dövrdə Qərb ölkələrinin inkişaf səviyyəsindən geriliyini aradan qaldırmağa imkan yaratdı və onun dünyanın ən yüksək mədəniyyətli və rəqabətqabiliyyətli ölkələrdən birinə çevrilməsini təmin etdi. Meydzi mədəni inqilabı dövründə Yaponiyanın "maarifçi idarəçiliyinin" uğur hekayəsini nəzərə alaraq, qloballaşmanın çoxsaylı çağırışları ilə üz-üzə olan Azərbaycanda da analoji formul əsasında, "Azərbaycan ruhu, üstəgəl elmi biliklər" kulturoloji islahatlarını keçirmək olar.

Dünya təcrübəsi göstərir ki, dövlət islahatlarına müqavimət qüvvələr nisbəti keçirilən islahatlardan asılı olan müxtəlif qruplar arasında çox vaxt potensial olaraq, resursların yenidən bölünməsi təhlükəsindən doğur. Belə qruplar arasında dövlət qulluqçuları, siyasətçilər, müxalif qüvvələr və cəmiyyətin digər qrupları ola bilər. Onların islahatların keçirilməsini istəməməsi dəyişikliklərin nəticələrinin qeyri-müəyyənliyini dərk etmələri, islahatların müəyyən qruplar üçün sərfəli olmaması, cəmiyyətin müxtəlif kateqoriyalarının dövlətin islahatlardakı rolu barədə nəzər nöqtələrinin bir-birinə zidd olması, öz "status-kvo"sunu itirmək qorxusu ilə bağlıdır. Hakimiyyətdən sui-istifadə resursların səmərəsiz bölüşdürülməsinə gətirib çıxarır, güclü dövlətin bünövrəsinə, ölkənin milli maraqlarına zərər vurur, vətəndaşların sosial mobilliyinə, cəmiyyətin əməyinin məhsuldarlığına mənfi təsir göstərir. Ona görə ölkənin rəqabətqabiliyyətli inkişafı və ictimai etimadın dəstəklənməsi üçün zəruri olan hökumət strukturlarının ciddi qaydalarına və mədəni davranış normalarına riayət edilməsi mühüm əhəmiyyət kəsb edir. İslahatlar diskresion fəaliyyətin təkmilləşməsinə, dövlət qulluqçularının siyasi qərarların icrasında səriştəsinin, çevikliyinin, operativliyinin və nəticə etibarilə səmərəliliyinin yüksəldilməsinə təkan verməli, vəziyyətin tələbindən doğan ölçülüb-biçilmiş qərarlar üçün yeni imkanların yaradıcı şəkildə istifadəsinə kömək etməlidir. Onlar dəyişimin güclü və zəif tərəflərini, dəyərlərini, üstünlüklərini, imkanlarını və təhlükələrini düzgün nəzərə almalı, islahatların prioritet sahələrini, templərini və ardıcıllığını düzgün seçməlidirlər. Gələcək haqqında müsbət təsəvvürə malik dövlət rəhbərinin şəxsiyyət mədəniyyəti, onun səriştəliliyi, məsuliyyəti, idarəetmə mədəniyyəti, iradəsi, humanizmi, vətənpərvərliyi, ədaləti və xarizmatik keyfiyyətləri islahatların müvəffəqiyyəti üçün müəyyənedici əhəmiyyətə malikdir.

Ümumi məqsədlərin, elmi əsaslandırılmış strategiyaların, səmərəli idarəçilik texnologiyalarının və dəyişim proqramlarının, habelə gələcəyin inandırıcı pozitiv mənzərəsinin olması xalqın bu məqsədə çatmaq üçün dəstəklənməsinə və sosial fəallığının səfərbər edilməsinə dəstək olur, ümummilli tələbatların və maraqların təmin edilməsinə yönəlmiş islahatdan gözləntilərin özünü doğruldacağına inamı artırır.

Vətəndaşların davranış mədəniyyəti və əhali tərəfindən qüvvədə olan qanunların icrası mədəniyyəti milli maraqlar nəzərə alınmaqla təkmilləşdirilməlidir. Müvəffəqiyyət daha çox islahatın gətirdiyi nemətlərin cəmiyyət tərəfindən

düzgün qiymətləndirilməsindən, onların etibarlılığından və nəticələrinin proqnozlaşdırıla bilənliyindən, düzgün prioritetlərin və meyarların seçilməsindən, əməyə və vətəndaşların davranışına dəqiq qaydalar və tələblərin müəyyən edilməsindən asılıdır. Bütün səviyyələrdən olan rəhbərlərin qəbul edilmiş proqramlara və layihələrə sadiqliyi, siyasətçilərin ziddiyyətləri ədalətlə həll etmək və insanların rifahının və həyat keyfiyyətinin yüksəlməsi, daha yaxşı gələcəyin qurulması üçün islahatın zəruriliyinə cəmiyyəti inandırmaq qabiliyyəti də mühüm əhəmiyyətə malikdir.

Kulturoloji islahatlar dövlət tərəfindən mütərəqqi dəyişikliklərin uğurla həyata keçirilməsinə təkan verən şərtlərin yaradılmasını nəzərdə tutur ki, onlara aşağıdakılar aid ola bilər:

- Cəmiyyətdə ruhi mədəniyyətin mahiyyətinin və böyük dəyişdirici imkanlarının düzgün, elmi anlayışının formalaşdırılması.
- Cəmiyyətin sosial-iqtisadi inkişafının əsası kimi intellektual, etik, hüquqi və idarəetmə mədəniyyətinin prioritet inkişafına dəstək.
- Dövlət təhsil sisteminə mütəxəssislərin icbari əlavə kulturoloji təhsilini və əhalinin maarifləndirilməsini daxil etmək.
- Uşaqların və gənclərin meritokratik mədəniyyətinin formalaşdırılması.
- Mütəxəssislərin və onların əməyinin nəticələrinin qiymətləndirilməsi, həvəsləndirilməsi, vaxtında və rasional istifadə edilməsi.
- Davamlı milli inkişaf proqramları və layihələrinə icbari kulturoloji ekspertizanın tətbiqi.

Azərbaycanda islahatların elmi əsaslandırılmış strategiyası və taktikası üzərində qurulmuş kulturoloji innovasiyalar cəmiyyətin intellektual, hüquqi, etik, idarəetmə və iqtisadi mədəniyyətinin sonrakı inkişafına, müxtəlif sosial kateqoriyaları, etnosları və dinləri təmsil edən insanların vətənpərvərliyinin, mədəni identikliyinin, birliyinin, həmrəyliyinin və əməkdaşlığının ölkənin milli maraqları əsasında möhkəmlənməsinə kömək edəcəkdir. Belə yanaşma dövlətin funksiyaları ilə onun resursları və imkanları arasında uyğunluq əmsalının artıcıl artmasına, onları son nəticəyə yönəldərək, həm də qloballaşma şəraitində ölkənin rəqabətqabiliyyətliliyini təmin edən yeni imkanlar "pəncərəsi" yaratmağa kömək edəcək.

### *Kulturoloji ekspertizanın imkanları və üstünlükləri haqqında*

Ruhi və maddi istehsalın və idarəetmənin səmərəliliyini və keyfiyyətini təmin edən ən mühüm alət ekspertizadır. Dünyanın müxtəlif ölkələrində mütəxəssislərin elmi və texniki ekspertizası qanunverici və icraedici hakimiyyətin fəaliyyətində, ictimai və dövlət inkişafının mürəkkəb problemləri həll edildiyi zaman istifadə edilir. Ekspertlər keçirdikləri ekspertizaya görə yüksək məsuliyyət daşıyırlar və bu da cəmiyyətin davamlı və təhlükəsiz inkişafının və konstruktiv xarici siyasətin şərtlərini müəyyən etməyə imkan verir. Bu, dövlət idarəçiliyinə, ideologiya və siyasətə, dövlət qanunlarının şərhinə, iqtisadiyyatın müxtəlif sahələrində, beynəlxalq münasibətlərdə və s. görülən işlərin səmərəliliyinin və təhlükəsizliyinin təmin edilməsinə aiddir.

Milli inkişafın prioritetlərinin, templərinin və keyfiyyətinin – beynəlxalq standartlara və normalara, qlobal proseslərin qanunauyğunluqlarına və tendensiyalarına uyğunluq dərəcəsini müəyyən etməyə imkan verən kulturoloji ekspertiza qloballaşma şəraitində xüsusi əhəmiyyət qazanır. Mədəni ekspertizanın imkanları həm də onun davamlı inkişaf məqsədlərinin milli dəyərlərə və dövlətin maraqlarına uyğunluğunu təmin etmək, universal elmi biliklər əsasında ideologiyanı təkmilləşdirmək, sosial-mədəni entropiya və xaos hallarının qarşısını almaq qabiliyyəti ilə müəyyən edilir ki, daimi dəyişikliklər, çağırışlar və qeyri-müəyyənlik şəraitində onların yaranma təhlükəsi artır. O, universal biliklərdən, sistemli və situasiyalı təhlildən istifadəni nəzərdə tutan "geniş baxış dairəsi" əsasında hökumətin düzgün siyasi, sosial-mədəni və iqtisadi qərarlar qəbul etməsinə kömək edir.

Kulturoloji ekspertizanın dəyəri həm də onunla şərtlənib ki, dövlət idarəçiliyi prosesi dinamik xarakter daşıyır və hər bir ölkənin konkret tələbatlarına və dünya sivilizasiyasının çağırışlarına müvafiq olaraq dialektik dəyişikliklərə, dəyişdirilməyə və təkmilləşməyə məruz qalır. Müasir şəraitdə onun əhəmiyyətinin artması həm dəyişikliklərin və qeyri-müəyyənliklərin yüksək səviyyəsi, həm də məmurların qanunu yerinə yetirməsi və qanunla şərtləndirilmiş məqsədlərə çatması üçün zəruri qərarlar çıxarmaq hüququ və məsuliyyəti ilə bağlı olan diskresion fəaliyyəti ilə izah olunur. İnkişaf məqsədlərinin və prioritetlərinin onların aktuallığı, səmərəliliyi və strateji milli maraqlara uyğunluğu baxımından təhlili kulturoloji ekspertizanın mühüm vəzifəsidir.

Ekspertiza, bir qayda olaraq, şeylərin həqiqi vəziyyətini əks etdirən təsdiqlənmiş məlumatların alınmasını tələb edən mürəkkəb, problemli vəziyyətlərdə keçirilir. Bu onunla şərtlənib ki, ruhi və maddi istehsal və idarəetmə sahəsində bu və ya digər fəaliyyət sferasına görə məsul olan şəxslər heç də həmişə düzgün, səriştəli qərarları və gözlənilən nəticələri təmin edən kifayət qədər biliklərə sahib olmurlar. Ekspertlər tərəfindən, ilk növbədə, fəaliyyət texnologiyaları və onların beynəlxalq standartlara, milli maraqlara, dünya inkişafının tələbatlarına, qanunauyğunluqlarına və trendlərinə uyğunluğu təhlil edilir.

Kulturoloji ekspertizanın üstünlükləri onun cəmiyyətdə innovativ fəaliyyəti stimullaşdırmaq, ideologiya, elm, texnologiya, idarəetmə, hüquq, əmək və istehsal mədəniyyəti, iqtisadi inkişaf, səhiyyə və ekologiya, məişət mədəniyyəti, həyat fəaliyyəti mədəniyyəti sahəsində ən yeni nailiyyətlərin dövlət quruculuğuna vaxtında tətbiq edilməsinə, habelə gələcəyin proqnozlaşdırılması proseslərinin inkişafına dəstək vermək qabiliyyəti ilə şərtlənib.

Kulturoloji ekspertiza bir-birini tamamlayan 12 təhlil metodundan və "kulturoloji piramida" formulunun imkanlarından istifadə edilməklə, metodologiya əsasında, sistemli və situasiyalı yanaşmaların meyarlarının köməyi ilə keçirilir. Bu zaman ekspertizanın həyata keçirilməsi üçün cəmiyyətin həyat fəaliyyətinin tədqiq olunan sahəsinin spesifikasına daha çox uyğun gələn kulturoloji təhlil metodlarından və səmərəliliyin qiymətləndirilməsi meyarlarından istifadə edilir. Hər bir ekspertiza kimi o da alimlərin və mütəxəssislərin fəaliyyət sferasına və təhlilin

konkret vəzifələrinə uyğun olaraq, beynəlxalq səviyyədə tanınan elmi əsaslandırılmış formada keçirilir  və rəsmiləşdirilir. Onun keçirilməsi üçün kifayət qədər əsaslar və ekspertlərin problemi həll etmək üçün zəruri materiallarla təmin edilməsi də daxil olmaqla, müvafiq şərtlər olmalıdır.

Ekspertizanın keçirilməsinin zəruriliyi haqqında məsələ intensiv amillər hesabına müəssisənin əmək məhsuldarlığının və keyfiyyətinin artırılmasında maraqlı olan təşkilatların və təsisatların müvafiq rəhbərləri tərəfindən həll edilir. Söhbət biliklərin zəruri səviyyəsinin dəstəklənməsindən, insan potensialının inkişafından, istehsal fəaliyyətinin elmtutumlu texnologiyalarının təkmilləşdirilməsindən, kollektivdə müsbət psixoloji mühitin formalaşdırılmasından və təşkilatın uğurunun digər amillərindən gedir. Yazılı rəy hazırlanarkən layihənin icraçılarının fəaliyyətinin və keyfiyyətinin, onların biliklərinin, təcrübəsinin, idarəetmə mədəniyyətinin, intizamının, peşəkar səriştəsinin, əmək mədəniyyətinin, məsuliyyətinin, vətənpərvərliyinin və konkret nəticələrə təsir edən xasiyyətinin qiymətləndirilməsi nəzərə alınır.

Ekspert-kulturoloqlar şəxslərə münasibətdə qərəzsiz olmalı və fənlərarası bilik və ya istehsal sahələrində, habelə münaqişəli vəziyyətlərdə düzgün qərarların qəbul edilməsinə müsbət təsir göstərən obyektiv fikir bildirməlidirlər. Onların rəyləri inandırıcı xarakter daşımalı, universal kulturoloji biliklərə, nəticələrin təhlilinə və qiymətləndirilməsinə, məntiqə və sübutlara əsaslanan nəticələri və tövsiyələri ehtiva etməldir.

Kulturoloji ekspertiza universal səciyyə daşıyır. O, xüsusi hüquqi biliklər və səriştənin tələb olunduğu hüquq və qanunvericilik sahələri istisna olmaqla, insanın həyat fəaliyyətinin müxtəlif sferalarının təhlili üçün istifadə oluna bilər. Əmək mədəniyyətinin dəyərləri, məqsədləri, normaları və səmərəliliyi, dövlətin müxtəlif sistemlərində istehsal, idarəçilik və kommunikasiya fəaliyyətinin mədəni standartlarının təkmilləşdirilməsi prosesləri onun obyektləri ola bilər. Ailə, tərbiyə, maarif, diplomatiya, sosial kommunikasiyalar, vətəndaş cəmiyyəti, beynəlxalq və dinlərarası münasibətlər kulturoloji ekspertizanın tətbiq sahələri ola bilər. O, sosial-mədəni siyasətin, təhsilin, insan potensialının inkişafının, elmin, ədəbiyyat və incəsənətin, nəqliyyatın, inşaatın, ticarətin, turizmin, mehmanxana və restoran biznesinin səmərəliliyinin yüksəldilməsi məqsədilə tətbiq oluna bilər. Onun idarəetmə, iqtisadiyyat, istehsal, KİV, idman, səhiyyə, ekologiya və s. sahələrdə istifadəsi də az əhəmiyyət daşımır. O, müxtəlif fəaliyyət sahələrində aşağıdakıları müəyyən etməyə imkan yaradır: əməyin faydalı iş əmsalı və entropiyasını; strateji proqramların, layihələrin və onların nəticələrinin standartlara, normalara, dəyərlərə, məqsədlərə və milli maraqlara uyğunluğunu; əməyin və istehsal olunan məhsulun səmərəliliyi və təhlükəsizliyini.

Kulturoloji ekspertiza kulturoloji islahatların səmərəli aləti qismində müvəffəqiyyətlə istifadə edilə bilər. Kulturoloji ekspertiza keçirilən zaman dünyanın inkişaf etmiş ölkələrinin standartlarına uyğun olaraq müəyyən edilmiş kulturoloji islahatların səmərəliliyi meyarları qismində istifadə oluna bilər:

1. Vətəndaşların biliklər, bacarıqlar, mütəşəkkillik, məsuliyyət və sosial fəallıq səviyyəsinin artımı.
2. Mütəxəssislərin intellektual mədəniyyət və əhalinin təhsillilik səviyyəsi.
3. Rifahın, həyat keyfiyyətinin, ahənginin və təhlükəsizliyinin artması.
4. Məhsulun keyfiyyətində ifadə olunan əmək mədəniyyəti və məhsuldarlığının artımı.
5. Cəmiyyətdə mədəniyyətin faydalı iş əmsalı və entropiyası.
6. Mədəniyyətin insan inkişafının tələbatlarını ödəmək qabiliyyəti.
7. İctimai inkişafın ekstensiv yolundan intensiv yoluna keçid.
8. Əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və yoxsulluq səviyyəsinin azaldılması.

Cəmiyyətin ruhi və maddi mədəniyyət sahəsində zamanın çağırışları ilə şərtləndirilmiş islahatların keyfiyyəti daha çox cəmiyyət həyatının bütün səviyyələrində və bütün sahələrində dövlət idarəçiliyinin strateji proqramlarının və qəbul edilən qərarların qabaqcadan kulturoloji ekspertizasından asılıdır.

### *Nəticələr və tövsiyələr*

Dünya təcrübəsi göstərir ki, güclü dövlətin sosial-mədəni siyasətinin cəmiyyətin həyat qabiliyyətini təmin edən əsas məqsədləri rəqabətqabiliyyətli insan potensialının və onun əsas həlqəsi – davamlı inkişafın başlıca hərəkətverici qüvvəsi kimi yüksək mədəniyyətli insanların formalaşdırılmasıdır.

Mütərəqqi ölkələrin daxili siyasətinin əsas prioritetləri ruhi mədəniyyətin intellektual, etik, hüquqi və idarəetmə mədəniyyəti kimi sahələridir ki, onların inkişafı ölkənin iqtisadi məhsuldarlığının, sosial rifahının və müdafiə qabiliyyətinin effektivliyinin artmasını təmin edir. Eyni zamanda dövlətin iqtisadi müstəqilliyinin, rəqabətqabiliyyətliliyinin və təhlükəsizliyinin əsas resursu kimi, intellektual mədəniyyətin qabaqlayıcı inkişafının təmin edilməsi əsas əhəmiyyət daşıyır. İntellektual mədəniyyət milli inkişafın flaqmanı rolunu oynayır ki, bu da həyat qabiliyyətli cəmiyyətin innovativ inkişafının əsası kimi intellektual əməyə, elmə, təhsilə və maariflənməyə olan tələbatın dövlət tərəfindən məqsədyönlü formalaşdırılmasının vacibliyini şərtləndirir. İntellektual mədəniyyətə olan tələbatı və əqli əməyin həvəsləndirilməsini təmin edən dövlətlər "beyin axınının" qarşısını alır, milli elm və texnologiyanın rəqabətaqiliyyətli inkişafına kömək edirlər.

Nəzərdən keçirilən material mütərəqqi insan inkişafının əsası və cəmiyyətin həyat fəaliyyəti mədəniyyəti və rifahının yüksəlişi üçün ruhi mədəniyyətin qeyri-məhdud dəyişdirici imkanlarından səmərəli istifadəyə təkan verən dövlət idarəçiliyinin təsirli aləti kimi kulturologiyanın mühüm rolunu göstərir. Kulturologiyanın milli və beynəlxalq strategiyaların işlənib hazırlanması, ekspertizası və həyata keçirilməsi, həyatqabiliyyətli cəmiyyətin və güclü dövlətin fəaliyyətini və davamlı inkişafını təmin edən mütərəqqi siyasi və sosial-mədəni islahatların həyata keçirilməsi üçün əvəzolunmaz əhəmiyyəti aydın olur.

Kulturologiyanın universal xarakterini nəzərə alaraq bütün dünyada kulturoloji elm, təhsil və maarifin prioritet inkişafına, beynəlxalq kulturologiyanın inkişafına, müxtəlif ölkələrin alim və mütəxəssislərinin, mədəniyyət yaradıcılarının bu sahədə əməkdaşlığına dəstək, bizim fikrimizcə, aktual beynəlxalq vəzifədir. Kulturoloji elm, təhsil və maarifin dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənməsi, milli və beynəlxalq kulturologiya məktəblərinin, oxunuşların, qiraətxanaların, mərkəzlərin, institutların və akademiyaların yaradılması – tarixi zamanın təkidli tələbidir, çünki dünyanın hansı yolla gedəcəyi daha çox bu dəstəkdən asılıdır.

Azərbaycan Respublikasının milli maraqları nöqteyi-nəzərindən Bakıda Kulturologiya Akademiyası və ya İnstitutunun təşkili, kulturologiya sahəsində yüksək ixtisaslı ekspertlərin hazırlığı üçün Respublika Fənlərarası Dissertasiya Şurasının yaradılması, kulturoloji orta məktəblərin, respublika ali təhsil müəssisələrində kafedraların, ölkənin regionlarında kulturoloji mərkəzlərin açılışı məqsədəuyğun görünür.

Bakıda illik Beynəlxalq Kulturoloji Elmi Oxunuşların təşkili və keçirilməsi Azərbaycanda kulturoloji elm, təhsil və maarifləndirmənin rəqabətqabiliyyətli inkişafını təmin edən səmərəli elmi mexanizm rolu oynaya bilər. Azərbaycanda belə kulturoloji elmi mərkəzin yaradılması həm də mühüm beynəlxalq əhəmiyyətə malikdir. O, müxtəlif ölkələrin alimlərinin və siyasətçilərinin bəşəriyyətin davamlı və təhlükəsiz inkişaf modellərinin işlənib hazırlanması, sivilizasiyaların dialoqu və tərəfdaşlığı strategiyalarının təkmilləşdirilməsi üzrə birgə fəaliyyətlərinin genişlənməsinə kömək edəcəkdir. Belə Oxunuşlara dövlət dəstəyi müasir dövrün daha aktual problemləri üzrə milli və beynəlxalq idarəçilik qərarlarının təsdiqlənmiş kulturoloji ekspertizasının keçirilməsi üçün də faydalı olardı.

Kulturologiya sahəsində beynəlxalq əməkdaşlığın inkişafı üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Qlobal kulturologiya üzrə YUNESKO-nun şəbəkə kafedrasının açılması da az əhəmiyyət daşımır. Belə kafedranın fəaliyyəti daimi dəyişikliklər və qeyri-müəyyənliklər şəraitində beynəlxalq inkişafın daha aktual problemlərinin sistemli tədqiqatlarının həyata keçirilməsinə, beynəlxalq idarəçilik məsələləri üzrə ekspert-kulturoloqların hazırlığına, mədəniyyətlərin dialoqunun, dünya sivilizasiyasının mütərəqqi dəyişiklikləri, həmrəyliyin və əməkdaşlığın təkmilləşdirilməsi, bəşəriyyətin humanitar təhlükəsizliyinə töhfə vermək üçün tövsiyələrin hazırlanmasına kömək edəcəkdir.

Dövlət strukturları ilə yanaşı, həyatqabiliyyətli cəmiyyət və güclü dövlətin inkişafı prosesində, insan potensialının və onun əsas nüvəsinin – yüksək mədəniyyətli insanların formalaşdırılmasında qeyri-hökumət təşkilatları da fəal iştirak etməlidir. Dövlətin və vətəndaş cəmiyyətinin insanların yüksək ruhi mədəniyyətinin inkişafında və insanların təfəkkürünün kulturologiyalaşmasında səylərinin məcmusu Azərbaycan cəmiyyətinin və dövlətinin rifahını, həyat qabiliyyətini və təhlükəsizliyini yüksəldəcək, əmək və istehsal mədəniyyəti, hüquqi və etik mədəniyyət, məsuliyyət mədəniyyətinin, vətəndaşların ədaləti və həmrəyliyinin gələcək inkişafına kömək edəcək.

Ruhi mədəniyyət və yüksək mədəniyyətli insanların istehsalı sahəsində innovativ islahatların həyata keçirilməsi üçün kulturoloji elmin, təhsilin və maarifləndirmənin yaradıcı imkanlarından daha geniş və mənfəətli istifadə qloballaşmanın çağırışlarına müvəffəqiyyətlə cavab verməyə qadir olan rəqabətqabiliyyətli və güclü dövlət kimi Azərbaycan Respublikasının gələcək inkişafına təkan verəcək.

## Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsinin kulturoloji konsepsiyası

***(“Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı, №2, 2022, s.125-132)***

*“Əgər dünya mədəniyyəti müdafiə etsə,*
*mədəniyyət dünyanı xilas edər!”*

Dərinləşən sivilizasiya böhranı şəraitində dünyanı xaos və dağıntılardan təkcə yüksək ruhi mədəniyyət xilas edə bilər. Bu postulatdan çıxış etsək, Azərbaycan Respublikasında zamanın çağırışlarına cavab verən dövlət təhsil və maarifləndirmə sisteminin mütərəqqi kulturoloji islahatlarına hədəflənmiş rəqabətqabiliyyətli innovativ milli konsepsiyaların, proqramların və layihələrin işlənib hazırlanması və həyata keçirilməsinin aktuallığı göz qabağındadır.

Dünya mədəniyyətinin və sivilizasiyasının tarixinin sistemli kulturoloji təhlili bəşəriyyətin tarixinin fərqli mərhələlərində müxtəlif xalqların təhsilinin inkişaf qanunauyğunluqları və xüsusiyyətlərinin aşkara çıxarılmasına əsaslanan innovativ qərarların axtarışı üçün yeni imkanlar açır. O, Şumer və Babilistan, Misir, Çin, Hindistan, Yaponiya, Almaniya, Böyük Britaniya, Fransa, İsveç, Danimarka, Finlandiya, Sinqapur, İran, Türkiyə kimi Şərq və Qərb ölkələrinin və başqa ölkələrin təhsil sisteminin təşkilinin və inkişafının zəngin təcrübəsindən yaradıcılıqla istifadə etməyə kömək edir. İntibah və Maarif dövrü, Avropada burjua inqilabları dövrü təhsilinin zəngin təcrübəsinə, habelə YUNESKO-nun beynəlxalq fəaliyyəti ilə toplanmış dünya təhsilinin inkişaf təcrübəsinə müraciət aktual əhəmiyyət kəsb edir.

Bu zəngin təcrübədən çıxış edərək, Azərbaycan Respublikasının milli təhsil sisteminə Azərbaycan cəmiyyətinin və dövlətinin davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafını təmin edəcək bir sıra elmtutumlu kulturoloji innovasiyaların tətbiq edilməsi zamanında və məqsədəuyğun görünür.

Tarix göstərir ki, təhsil həmişə bəşəriyyətin ruhi mədəniyyətinin formalaşmasının strateji institutu rolunu oynamışdır. O təkcə insanın inkişaf vasitəsi kimi deyil, həm də onun bütün həyatı boyu davam edən səylərinin nəticəsi kimi qiymətləndirilmişdir. Dünya mədəniyyəti və sivilizasiyasının tarixinin sistemli kulturoloji təhlili göstərir ki, yaxşı təhsillə, yüksək intellektə, humanizmə və vətənpərvərliyə malik insan həm ruhi, həm də müasir dövlətlərin başlıca milli sərvəti olan maddi istehsalın əsas kapitalıdır. Bununla bərabər, həyatın dialektikasından gələn, mədəniyyətin bu vacib sosial institutu daimi təkmilləşmə,

milli təhsilin səmərəsini və keyfiyyətini beynəlxalq standartlar və normalar, habelə zamanın çağırışlarına müvafiq yüksəldən daimi kulturoloji islahatların həyata keçirilməsini tələb edir. Bunun dərk edilməsi icbari kulturoloji təhsilin tətbiqi və uşaq bağçalarından başlayaraq mütəxəssislərin hazırlığı və yenidən hazırlanmasına qədər milli təhsil sisteminin bütün səviyyələrində maarifləndirmə yolu ilə universal kulturoloji biliklərin daimi yayılmasını tələb edir.

Üçüncü minilliyin başlanğıcından insanların təhsil səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi problemləri milli dövlətlərin, alimlərin, pedaqoqların, maarifçilərin, siyasətçilərin və bütövlükdə dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Bugünkü günümüzdə universal kulturoloji bilikləri ehtiva edən elmtutumlu təhsil və maarifləndirmə zamanın zəruri tələbinə çevrilib.

6 sentyabr 2016-cı ildə təhsilin monitorinqi üzrə YUNESKO-nun Beynəlxalq hesabatı (Global Education Monitoring Report) dərc olundu. O, davamlı inkişaf üzrə yeni gündəlikdə 2030-cu ilə qədərki dövrdə qlobal məqsədlərə çatmaqda təhsilin necə töhfə verə biləcəyini göstərdi.

Hesabatda vurğulanırdı ki, *"mövcud potensialın reallaşması, bəşəriyyətin və bütövlükdə planetin bu gün üzləşdiyi problemlərin səviyyəsinə cavab vermək üçün təhsil sferası ciddi islahatlara ehtiyac duyur"*. Bununla yanaşı, dəyişikliklərin yüksək tempinə nail olmağın vacibliyinə vurğu edilirdi. Çünki əks halda "dünya ictimaiyyətinin 2030-cu ilə qədər davamlı inkişaf sahəsində məqsədlərə çatmaq planı 50 il ləngimə ilə həyata keçə bilər".

YUNESKO-nun baş direktoru İrina Bokova dünyada təhsilin insanların rifahının artırılması və planetin daha yaxşı gələcəyinin qurulması amili kimi insan inkişafındakı rolu haqqında təsəvvürün radikal şəkildə dəyişməsinin vacibliyinə diqqət yetirirdi. O vurğulayırdı ki, müasir təhsil təkmilləşdirilməli, "təhsil alanların milliyyətini, məişətini və qabiliyyətlərini nəzərə almalı, insanlarda davamlı inklüziv iqtisadi artım və sülh şəraitində birgə yaşayışın rəhninə çevriləcək düzgün dəyər yönəlişlikləri və peşəkar vərdişlərin formalaşdırılmasına kömək etməlidir".

Dünya mədəniyyətinin tarixinə kulturoloji baxış göstərir ki, şəxsiyyətin təlim və tərbiyə sistemi olan təhsil insanın ruhi mədəniyyətinin – onun biliklərinin, bacarıqlarının, mütəşəkkilliyinin, mənəviyyatının və yaradıcı fəaliyyətinin formalaşdırılması prosesidir. O, bəşəriyyətin topladığı biliklərin, təcrübənin, mənəvi dəyərlərin və normaların yeni nəsillərə ötürülməsi üsuludur. Eyni zamanda insanın əldə etdiyi biliklərin, bacarıqların, mütəşəkkilliyin, mənəvi yönəlişliklərin və yaradıcı fəaliyyət təcrübəsinin vəhdəti kimi təhsil şəxsiyyətin səriştəliliyini, yəni onun tutduğu vəzifəyə tam uyğun olmasını təmin etməlidir. Şəxsiyyətin taleyinə təsir edən, onun anadangəlmə keyfiyyətlərinin xüsusiyyətlərindən biri olan xarakteri müəyyən dərəcədə institusional yolla alınmış təhsildən və ya özünütəhsildən asılıdır.

Təhsilin mədəniyyət fenomeni kimi dövlət quruculuğu və idarəçilik üçün strateji önəmini başa düşməkdən ötrü keçən əsrin 60-70-ci illərində Şahənşah Məhəmməd Rza Pəhləvinin İranda keçirdiyi "ağ inqilab" adlanan islahatlar proq-

ramının nəticələrini xatırlamaq kifayətdir. İslahatın əsas məqsədi İran xalqının rifahının yaxşılaşdırılması idi. Buna nail olmaq üçün kənd təsərrüfatı islahatı, savadsızlığın ləğvi həyata keçirilmiş və qadınlara seçki hüququ verməklə onların azadlığı üçün addımlar atılmışdı. Amma xalqın intellektual mədəniyyətinin, ruhi mədəniyyətin elm və təhsil kimi flaqmanlarının inkişafı üçün hansı tədbirlərin görüldüyü bizə məlum deyil. Belə ki, onların vasitəsilə həyat qabiliyyəti, milli inkişafın rəqabətqabiliyyətliliyi və təhlükəsizliyi təmin olunur. Xüsusilə, İran xalqının dünyəvi təhsili və maarifləndirilməsi sahəsində zamanın tələblərinə uyğun hansı islahatlar həyata keçirildi?

Şübhəsiz, İranda destruktivizm və istibdad hallarının səciyyəvi olduğu şah rejiminin iflasında bir sıra amillər rol oynadı. Bunlar şahın xalqla əlaqələrinin qopması, siyasi dialoqun olmaması, sosial ədalətin bərqərar edilməsinin, istibdadın aradan qaldırılmasının, xalqın iradəsinin təsdiqinin əhəmiyyətinin olduqca gec başa düşülməsi və onların həyata keçirilməsinin gec vəd olunması idi.

Amma çox güman fundamental səbəblərdən biri dövlətçiliyin monarxik mədəniyyətində və İranın dövlət idarəçiliyində xalqın ruhi mədəniyyətinin "iki qanadının" – intellektual və mənəvi mədəniyyətin ahəngdar və təhlükəsiz inkişafını təmin edən kulturoloji sistemli yanaşmanın olmamasında idi. "İki qanadın" cəmiyyətin sosial-siyasi sabitliyini təmin edən ahənginin və xalqın müxtəlif kateqoriyalarının maraqlar balansının pozulması nəticəsində cəmiyyətin sosial-mədəni qütbləşməsi dərinləşdi və kütlələrin mütərəqqi siyasi islahatlara intellektual baxımdan hazırsızlığı üçün əsaslar yarandı. Son nəticədə, bu, monarxik dövlət sisteminin dağılmasına və xalqın yeganə milli xilas yolu kimi gördüyü dini mədəniyyətə keçməsinə gətirib çıxardı.

Geniş kulturoloji təhsil və xalqın maarifləndirilməsi, kütlələrin akkulturasiyası və şəxsiyyətlərin inkulturasiyası, İran dövlətinin insan kapitalının əsası və hərəkətverici qüvvəsi kimi yüksək mədəniyyətli insanlar cəmiyyətinin formalaşdırılması və inkişafı bəlkə də milli fəlakətin qarşısını ala bilərdi.

Eyni zamanda tədrisdə "təbiətyönümlü" və "mədəniyyətyönümlü" kimi tanınan məşhur tarixi dilemmanı nəzərdən keçirərək qeyd edək ki, təhsilin nəticəsi təkcə dövlət siyasətindən, tədris prosesinin şəraitindən, müəllimlərin peşəkarlığı və pedaqoji mədəniyyətindən, ədəbiyyatın keyfiyyətindən, ailədəki və məktəbdəki əlverişli mühitdən yox, həm də uşaqların və gənclərin təbii qabiliyyətlərindən, istedadlarından, könüllü olaraq seçdikləri gələcək ixtisaslarına marağından, iradə gücündən və zəhmətkeşliyindən də çox asılır. Yaponiya, ABŞ və Qərbi Avropa ölkələrinin təcrübəsi göstərir ki, təhsildə daha yüksək nəticələrə nail olmaq üçün insanın genetik materialı ilə şərtlənən anadangəlmə qabiliyyətlərinə üstünlük verən təbiətyönümlü yanaşma müəyyənedici əhəmiyyət daşıyır. Mark Kvintilian, Yan Komenskiy, Con Lokk, İohann Pestalossi, Adolf Disterveq, Konstantin Uşinskiy və digərləri tərəfindən əsaslandırılan təhsilin xüsusiyyətlərinə bu cür baxış təhsil alanların təbii qabiliyyətlərindən, istedadlarından asılı olaraq məktəbdə şagirdlərin seçilməsinə fərdi yanaşmanı, onların şəxsi seçimləri və xüsusiyyətləri

nəzərə alınmaqla, milli inkişafın tələbləri və imkanlarına müvafiq olaraq önəçıxan qabiliyyətlərinin inkişaf etdirilməsini nəzərdə tutur.

Təhsilin ruhi mədəniyyətin flaqmanı kimi dəyəri ölçüyəgəlməzdir. Onun bəşəriyyətin formalaşması və inkişafındakı strateji rolunu qiymətləndirmək üçün dünya ictimaiyyətinin ən qədim vaxtlardan günümüzə qədər əsas inkişaf yollarına, nailiyyətlərinə və qanunauyğunluqlarına nəzər salmaq kifayətdir.

*Dünyəvi təhsilin tarixini əks etdirən bu və digər materialların sistemli kulturoloji təhlili, onun inkişaf qanunauyğunluqları və müasir meyilləri göstərir ki, təhsil sisteminin səmərəliliyi və keyfiyyəti əsasən aşağıdakılarla müəyyən olunur:*

- Müəllimlərin peşəkar səriştəliliyi, məsuliyyəti, mədəniyyəti və əməyinin nəticələri ilə.
- Tədris proqramlarının elmtutumlu və innovativ məzmunu ilə.
- İcbari kulturoloji təhsil və maarifləndirmənin tətbiqi ilə.
- Tədris prosesinin material-texniki cəhətdən yaxşı təchiz olunması ilə.
- Rəhbərlərin və təhsil işçilərinin idarəetmə mədəniyyəti ilə.
- Kadrların seçilməsi və pedaqoji əməyin keyfiyyətinin qiymətləndirilməsi prinsipləri və meyarları ilə.
- Pedaqoji kadrların kulturoloji hazırlığı və yenidən hazırlığı sistemi ilə.
- Təhsil müəssisələrinin rəhbərlərinin və işçilərinin attestasiyası sistemi ilə.
- Əməyin nəticələrinə əsaslanan pedaqoji fəaliyyətin fərdi motivasiyası ilə.
- Dünyanın aparıcı ali təhsil müəssisələrinin təhsil standartlarına və texnologiyalarına yönümlü tədris prosesinin maliyyə və hüquqi baxımdan təminatı ilə.
- Alimlərin və pedaqoqların maddi rifah səviyyəsinin onların cəmiyyət üçün sosial dəyərinə və əməyinin konkret nəticələrinə uyğunluğunun təmin edilməsi ilə.

*Bu analizin nəticələrindən çıxış edərək, Azərbaycan cəmiyyətinin dəyişən inkişaf tələbatlarını və qloballaşmanın çağırışlarını nəzərə alaraq, Azərbaycan Respublikasında təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə məqsədəuyğun görünür:*

- Milli təhsil sistemində əlavə kulturoloji təhsil və dövlət müəssisələrinin personalı, uşaq bağçalarının, təhsil müəssisələrinin rəhbərləri, müəllimlər, jurnalistlər, siyasətçilər, idarəçilər, iqtisadçılar, hüquqşünaslar və digər mütəxəssislər daxil olmaqla vətəndaş cəmiyyəti üçün treninq sisteminin tətbiqi.
- Pedaqoqların səriştəliliyi və nüfuzunun yüksəldilməsinə, rəqabətqabiliyyətli insan kapitalının inkişafına hədəflənmiş "Yüksək mədəniyyətli pedaqoq davamlı milli inkişafın strateji bərpaolunan resursu kimi" milli layihəsinin işlənib hazırlanması və həyata keçirilməsi.
- İntellektual əməyin sosial statusunu, elm və təhsilin məqsədli maliyyələşdirilməsini yüksəldəcək, Azərbaycanda mütərəqqi dəyişikliklər üçün yeni imkanlar açacaq "İntellektual mədəniyyət haqqında Qanun" layihəsini Milli Məclisin müzakirəsinə təqdim etmək.
- Respublika vətəndaşlarının akkulturasiyası və inkulturasiyası məqsədi

naminə cəmiyyətdə universal kulturoloji biliklərin yayılması yolu ilə əhalinin müxtəlif kateqoriyaları – qadınlar, ailə başçıları, uşaqlar, gənclər, yaşlı nəsil üçün daimi kulturoloji maarifləndirmənin təşkili.

- Uşaq bağçalarında, orta məktəblərdə və orta ixtisas məktəblərində mədəniyyətşünaslığı tədris etmək.
- Ailələrdə və məktəblərdə uşaqların və gənclərin meritokratik tərbiyələndirilməsi sistemini tətbiq etmək.
- Eksperimental kulturologiya məktəbi və uşaq bağçası açmaq.
- Respublikanın bütün ali təhsil müəssisələrində kulturologiya kafedraları açmaq.
- Təhsil və elm sistemi üçün kulturoloq kadrların hazırlanması məqsədilə Mədəniyyət və Elm və Təhsil Nazirlikləri yanında Azərbaycan Kulturologiya Akademiyası təsis etmək, milli və dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi sahəsində dissertasiyaların müdafiəsi üzrə Respublika Fənlərarası Şura yaratmaq.
- Elm və Təhsil Nazirliyi yanında təhsil sahəsində proqramların və qərar layihələrinin kulturoloji ekspertiza Şurasını yaratmaq.
- 2022-ci ilin payızında Bakıda Beynəlxalq kulturoloqlar forumunu (Mədəniyyət Nazirliyi ilə bərabər) keçirmək.

Beləliklə, ruhi mədəniyyətin yuxarıda toxunduğumuz inkişaf problemlərinə sistemli yanaşmaya əsaslanaraq Azərbaycan xalqının intellektual və etik mədəniyyətinin daha da təkmilləşdirilməsi aktual milli və beynəlxalq vəzifə kimi görünür. Bu strateji vəzifənin həyata keçirilmə formalarından biri Heydər Əliyev adına Beynəlxalq Azərbaycan kulturoloji elm-təhsil mərkəzinin yaradılması ola bilər. Mərkəzin məqsədləri, proqramları, layihələri və planları, onun fəaliyyət prinsipləri və meyarları strateji bərpaolunan milli resurs, rəqabətqabiliyyətli insan kapitalının nüvəsi və Azərbaycanın davamlı və təhlükəsiz inkişafının başlıca hərəkətverici qüvvəsi olan yüksək mədəniyyətli azərbaycanlıların və layiqli vətəndaşların yetişdirilməsinə, inkişafına və artırılmasına xidmət etməlidir.

Dövlətin insan kapitalının mütərəqqi dəyişilməsi və bəşəriyyətin humanitar təhlükəsizliyi maraqlarına cavab verən, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası tərəfindən işlənib hazırlanmış *davamlı inkişafın universal kulturoloji postulatları* milli təhsil sisteminin təkmilləşdirilməsinə təkan verə bilər. *Onlar aşağıdakı qaydada keçidi nəzərdə tutur: ziddiyyətlərdən – maraqların ahəngi və razılaşdırılmasına; səriştəsiz idarəetmədən – peşəkarlığa və məsuliyyətə; vəzifə hakimiyyətindən – biliklər və etika hakimiyyətinə; rəqabət və manipulyasiyadan – həmrəylik və əməkdaşlığa; etnik və dini identiklikdən – vətəndaş mədəniyyəti identikliyinə; demokratik idarəetmə mədəniyyətindən – meritokratik idarəetmə mədəniyyətinə.*

*Azərbaycanda təhsilin inkişafının idarə edilməsinin elmi prinsipləri qismində: strategiya, texnologiya, etika, sosiologiya və estetikadan istifadə oluna bilər.*

*Təhsil strategiyası* Azərbaycan Respublikasında rəqabətqabiliyyətli insan kapitalının "istehsalı" üçün insan, elmi, təhsil, texniki, informasiya, təşkilati, maliyyə, hüquqi, maarif və digər resursların sistemli kulturoloji təhlilini nəzərdə tutur.

*Təhsil texnologiyası* dünya mədəniyyəti və təhsilinin nailiyyətlərindən, Qərbin və Şərqin aparıcı ali təhsil müəssisələrinin tədris standartları və texnologiyalarından, o cümlədən Azərbaycan mədəniyyətinin ənənəvi dəyərlərini hesaba alan məxsusi yeniliklərdən yaradıcı istifadəni nəzərdə tutur.

*Təhsil etikası* əmək və idarəetmə mədəniyyəti, yüksək ixtisaslı mütəxəssislərin, şəxsiyyətlərin, müxtəlif səviyyələrdə liderlərin, milli insan kapitalının nüvəsini təşkil edən yüksək mədəniyyətli azərbaycanlıların yetişdirilməsi ilə bağlı qoyulmuş vəzifələrin daha səmərəli həlli üçün əlverişli psixoloji mühitin formalaşmasını və pedaqoji müəssisələrin kollektivlərinin səylərinin birləşdirilməsini nəzərdə tutur.

*Təhsilin sosiologiyası* ölkə daxilində olduğu kimi, beynəlxalq məkanda da elmi-pedaqoji kollektivlərin və ayrı-ayrı mütəxəssislərin milli təhsilin tərəqqisinə, onun həyat qabiliyyətinin, yaradıcılığının, davamlılığının və rəqabətqabiliyyətliliyinin inkişafına təkan verən məhsuldar əməkdaşlığının təminini nəzərdə tutur.

*Təhsil estetikası* uğurlu insan inkişafı və milli inkişafın təxirəsalınmaz şərti kimi elm, təhsil və maarifləndirmənin dəyər anlayışının artdığı şəraitdə xalqın ictimai şüurunda təhsil tələbinin təmin edilməsi məqsədilə onun məzmununun inkişafı və dəyişilməsinə müvafiq olaraq milli təhsilin xarici formalarının və strukturunun təkmilləşdirilməsini nəzərdə tutur.

Sonda vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasında milli təhsilin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi ruhi mədəniyyətin dar sovet təfəkkürü ilə “iqtisadiyyat üzərində üstqurum”, əsasən ədəbiyyat, incəsənət, etika normaları və mədəni irs kimi anlamaqdan tez bir zamanda imtina etməyi nəzərdə tutur. Çünki bu anlayış milli inkişaf imkanlarını məhdudlaşdırır. Təhsil praktikasına mədəniyyətə insanın ağlı, qəlbi və əməyi ilə yaradılan bütöv sosial sistem kimi baxan yeni elmi yanaşması tətbiq etmək lazımdır, çünki mədəniyyət anlayışına dar yanaşma onun insanın həyat fəaliyyətinin universal yaradıcı amili kimi hüdudsuz dəyişdirici imkanlarından istifadə etməyə mane olur. Onun başlıca hərəkətverici qüvvələri isə elm, təhsil və maarifləndirmədir. Eyni zamanda qeyd edək ki, təhsilin səmərəliliyinin və keyfiyyətinin əvəzedilməz göstəricisi onun elmtutumluluğudur ki, onsuz ictimai tərəqqi, xalqın rifahının artımı, dövlətin davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafı mümkün deyil.

Dünya sivilizasiyasının, müasir kulturologiya və pedaqogikanın nailiyyətləri, Azərbaycançılıq ideologiyası, milli inkişafın dəyişən tələbləri və zamanın çağırışları əsasında Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi sivilizasiya böhranı şəraitində ölkəmizin davamlı inkişafı üçün yeni imkanlar açacaqdır.

## Azərbaycanın davamlı milli inkişafının "yeni erası" və yeni prioritetləri haqqında

***("Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı, №1, 2024, s. 103-130)***

*"Əgər dünya mədəniyyəti müdafiə etsə,*
*mədəniyyət dünyanı xilas edər!"*

*"Bu gün bütün bəşəriyyət, bütün xalqlar və millətlər yaxşı başa düşürlər ki, insanların ən böyük mənəvi dəyərləri olmaqla mədəniyyət, elm və təhsilin davamlı inkişafını təmin edən ən mühüm amillərdən biridir... Azərbaycanın hər bir vətəndaşı böyük tarixi keçmişə, zəngin mədəniyyətə, yüksək mənəviyyata malik ölkəmizin həm keçmişinə, həm indisinə, həm də gələcəyinə böyük məsuliyyət hissi ilə yanaşmalıdır..."*

**Heydər Əliyev**

*Müəllifdən*

*Bu tədqiqatın məqsədi milli və dünya inkişafının tarixi təcrübəsinin, dünyanın bır sıra məşhur alim və mütəfəkkirlərinin konsepsiyalarının və nailiyyətlərinin sistemli kulturoloji təhlilini aparmaqla, cəmiyyəti necə daha yaxşı etmək və yeni tarixi şəraitdə Azərbaycan Respublikasının davamlı və təhlükəsiz inkişafını təmin etməkdən ötrü dövlət idarəçiliyini necə təkmilləşdirmək lazım olduğunu başa düşmək, zamanın çağırışlarına düzgün cavablar vermək, habelə dünyanın texnogen sivilizasiyanın böhranlı hadisələrindən və bəşəriyyəti məhvə sürükləyən təhdidlərdən xilas etməyin ağıllı yollarını aşkara çıxarağa kömək etməkdir.*

*Bu aktual suallara cavab tapmaq üçün müəllif tərəfindən Heydər Əliyev, Konfutsi, Əl-Fərabi, İbn Rüşd, Nizami Gəncəvi, Nəsirəddin Tusi, İbn Xəldun, İmadəddin Nəsimi, Napoleon Bonapart, Mirzə Şəfi Vazeh, Vilhelm Ostvald, Henrix Rikkert, Maks Veber, Osvald Şpenqler, Hüseyn Cavid, Karl Yaspers, Arnold Toynbi, Lesli Alvin Uayt, Pitirim Sorokin, Piter Druker, Abraham Maslou və bir çox digər alimlərin, mütəfəkkirlərin və dövlət xadimlərinin əsərlərinin təhlilindən istifadə edilib.*

### *Mədəniyyətlərin və sivilizasiyaların dialoqu üçün əlverişli şəraitin formalaşdırılması haqqında*

Bu gün bəşəriyyətin qorunması və davamlı inkişafı üçün aktual problemlərdən biri mədəniyyətlərin və sivilizasiyaların sülhə, qarşılıqlı anlaşmaya və qarşılıqlı fayda verən əməkdaşlığa hədəflənmiş məhsuldar dialoqudur. Bu strateji problemin müvəffəqiyyətlə həll edilməsi daha çox Qərb və Şərq ölkələrinin ruhi mədəniyyətinin mütərəqqi transformasiyalarından, mədəni mübadilənin məhsuldarlığından və ümumbəşəri dəyərlər, xoş məram və ədalətin prioritetliyi əsasında maraqların uyğunlaşdırılmasından və mədəniyyətlərin yaxınlaşdırılmasından asılıdır.

Mədəniyyət – insanı heyvandan fərqləndirən keyfiyyətdir. Bu, çoxəsrlik antropo-sosio-kulturogenez prosesində – insanın, cəmiyyətin, dövlətin və bəşəriyyətin təşəkkülü və inkişafının birgə təkamül, qarşılıqlı əlaqəli prosesi zamanı hasil edilmiş ruhi sərvətdir. Mədəni inkişafın fundamenti ağıl və onun vasitəsilə idarə edilən insan qəlbidir. Ağıl insanın və onun təbii və ekstrasomatik tələbatlarının ödənilməsi, mənalı və faydalı insan həyatının qorunması və yaxşılaşdırılması üçün zəruri olan ətraf aləmin dəyişdirilməsi məqsədilə həqiqi biliyi aşkara çıxarmağa, başa düşməyə və praktiki cəhətdən istifadə etməyə imkan yaradır.

Məlum olduğu kimi, sivilizasiya çərçivəsində həm xoşbəxtliyə yönəlmiş yaradıcı proses olan mədəniyyət, həm də sivilizasiyanın destruktiv elemetlərinin təsiri ilə şərtləndirilən antimədəniyyət mövcuddur. Aşkar qeyri-obyektiv, düşünülməmiş və ya qərəzli siyasi qərarlar humanizm prinsipləri əsasında yaşayan, bir-biri ilə mehriban qonşuluq, yaxınlıq və dostluqla bağlanan xalqların dinc həyatına, mürüvvətinə və heysiyyətinə bərpası mümkün olmayan mənəvi zərbə vura bilər.

Təəssüf ki, müasir dünyada çox vaxt maddi maraqlar mənəvi mədəniyyət dəyərləri üzərində üstünlük əldə edir, bu səbəbdən sonuncular utopiya kimi qəbul edilir. Bu reallığın nəticəsində dünya sivilizasiyası çərçivəsində təkcə xeyir, yaradıcılıq və mədəni tərəqqi deyil, həm də ayrı-ayrı insanların, qrupların və siyasi aktorların onların milliyyətindən və dinindən asılı olmayaraq destruktiv təfəkküründə və davranışında təzahür edən mədəni tənəzzül və şər də yer tutur. Bu, insan itkiləri və günahsız insanların əzab-əziyyəti ilə müşayiət olunan təcavüzkar müharibələr, terrorizm, zorakılıq, siyasi provokasiyalardır. Bütün dünyada yüksək ruhi mədəniyyət dəyərlərinin böhranı mənəvi mədəniyyətin tənəzzülündə, mədəniyyətlərin münaqişəsində, təhsilin keyfiyyətinin aşağı düşməsində, təbii maraqlar ilə mədəniyyət dəyərləri arasında uyğunluğu təmin etməkdə acizlik və ya istəksizlikdə öz ifadəsini tapır.

Tarix göstərir ki, çox təəssüf, bəzi dövlət xadimlərinin gələcəyi görə bilməməsi kimi, səriştəsizliyi də çox vaxt qarşılıqlı anlaşma, əməkdaşlıq və sülh üçün keçilməz maneələr yaradaraq beynəlxalq münasibətlər mədəniyyətinə ciddi siyasi və mənəvi zərər vurur. İdeoloji səhvlər və siyasi böhtanlar bəşəriyyətin müharibə uçurumuna yuvarlanması təhlükəsini yaradaraq, xalqlar arasında qarşılıqlı münasibətlərə ağrılı təsir göstərir.

Hər bir xalqın mədəniyyətinin beynəlxalq dəyəri, hər şeydən əvvəl, onun bəşəriyyətin intellektual və mənəvi mədəniyyətin inkişafına verdiyi töhfə, dünyanın tərəqqiyönümlü və təhlükəsiz inkişafı yolunda xidmətləri ilə müəyyən edilir.

Eyni zamanda maraqlar ilə mədəni dəyərlər arasındakı dialektik ziddiyyət ümumi rifaha xidmət edən ruhi mədəniyyətin inkişafına heç də yaxşı təsir göstərmir. Cəmiyyətin davamlı inkişafına münasibətdə obyektiv destruktiv xarakterə malik bu ziddiyyəti necə həll etmək olar?

Görünür, düzgün həlləri bu iki sosial yönəlişliyin uyğunlaşdırılması istiqamətində axtarmaq lazımdır. Maraqlar dəyərləri məhv etməməlidir, çünki bu, qarşı-

durmaya və münaqişəyə səbəb olur, dəyərlər isə insan inkişafının tələbatları ilə şərtləndirilmiş, insanların təbii, "ağlabatan" maraqlarını nəzərə almalıdır. Düşünülür ki, bu mürəkkəb beynəlxalq problemin həllinə təhlilin məntiqi, funksional, məkan, müqayisəli, situativ, antropoloji və psixoqrafik metodlarından, habelə universal "kulturoloji piramida" metodundan istifadə etməklə sistemli kulturoloji təhlil kömək edə bilər.

Sivilizasiyanın böhranı şəraitində qarşılıqlı anlaşma, insan həmrəyliyi, əməkdaşlıq və sülh kimi mədəniyyət dəyərləri dünya xalqlarına hava-su kimi lazımdır. Ümumbəşəri dəyərlər və mənəvi saflıq yaşadıqları ölkədən asılı olmayaraq müxtəlif millətlərin, etnosların və dinlərin nümayəndələrinə xasdır. Ayrı-ayrı insanların ədalətsiz və ya qəddar qərarlarını xalqa proyeksiya etmək olmaz. Öz növbəsində, hər bir xalq bütün dünyada sülhü qoruyan və dəstəkləyən yüksək ruhi – intellektual, etik, hüquqi, mənəvi mədəniyyətin inkişafına dəstək olmalıdır. Bu, mədəniyyətlərin dialoqu üçün imkanlar açan və bəşəriyyəti xilasa aparan yeganə qüvvədir.

Universal kulturoloji biliklərin yayılması, dünyanın müxtəlif ölkələrində yüksək mədəniyyətli insanların "istehsalı", beynəlxalq mədəni identikliyin yaradılması aktual beynəlxalq vəzifəyə çevrilməkdədir. Bu mədəni strategiya müasir sivilizasiyanın humanistləşdirilməsinin və mədəniyyətlərin uyğunlaşdırılmasının şərti kimi "Homo sapiens" insan növündən – "Homo culturalis" növünə keçidi sürətləndirməyə kömək edəcəkdir. Eyni hadisələrin, faktların və insanların obyektiv qiymətləndirilməsini, habelə tərəflərin qarşılıqlı anlaşması və həmrəyliyinə səbəb olan ruhi yaxınlığı təmin edən universal beynəlxalq kulturoloji prinsiplərin və meyarların yaradılması səmərəli beynəlxalq münasibətlərin inkişafı üçün mühüm əhəmiyyətə malikdir. Bu, ziddiyyətləri minimuma endirməyə və onları yaradıcı məcraya yönləndirməyə kömək edəcəkdir.

Sivilizasiyanı getdikcə dərinləşən böhrandan xilas etmək üçün xalqların, bütün xoş məramlı insanların birgə səyləri ilə xeyirxahlıq və qeyri-zorakılıq dəyərlərini bütün dünyada baş verən antimədəniyyət hallarına qarşı qoymaqla, onlara etibarlı mənəvi və hüquqi baryer qoyulmalıdır.

Bu gün öz ölkəsinin və bütün bəşəriyyətin ruhi mədəniyyətinin inkişafına verdiyi töhfə, milli mənsubiyyətindən, dövlətindən, dinindən, peşəsindən və ya siyasi vəzifəsindən asılı olmayaraq insanın dəyərinin ən yüksək beynəlxalq meyarı kimi qəbul edilməlidir. İnsanların yüksək ruhi mədəniyyətinin prioritet inkişafı yolu ilə dünyanın xilası sivilizasiyanın ən yüksək dəyəri və müasir dövlətlərin məqsədi elan olunmalıdır.

Bu qlobal problemlərin həllinin ən vacib şərti yüksək mədəniyyətli vətəndaşların yetişdirilməsinə, onların şüurunun və davranışının müsbət yöndə dəyişdirilməsinə yönəldilən icbari kulturoloji təhsil və maarifləndirmə vasitəsi ilə universal kulturoloji biliklərin bütün dünyada yayılmasıdır. Bu prosesə cəmiyyətin bütün üzvləri – siyasətçilər, məmurlar, alimlər, pedaqoqlar, incəsənət xadimləri, jurnalistlər, hüquqşünaslar, həkimlər, mühəndislər, ailə başçıları, gənclər, uşaqlar cəlb edilməlidirlər.

Dünyanı intellekt idarə edir. Amma dağıdıcı proseslər baş verməsin deyə intellektual mədəniyyət ideal halda bəşəriyyətin aprior mənəvi dəyərləri əsasında qurulan humanist mədəniyyət ilə ahəngdar inkişaf etməlidir. Dünyanın müxtəlif ölkələrinin milli maraqlarına zidd olmayan bu məqsədin izlənilməsi bəşəriyyəti sivilizasiyanın çoxsaylı destruktiv halları və proseslərindən xilas etməyə kömək edəcəkdir.

Qarşılıqlı anlaşma, həmrəylik, əməkdaşlıq qarşılıqlı hörmət və inam tələb edir. Sevgi kimi hörməti də pulla almaq ya da başqalarından bunu tələb etmək olmaz, insan onu ancaq öz mədəniyyəti ilə qazana bilər. İntellektual, mənəvi, hüquqi və etik mədəniyyət dəyərlərinin yayılması buna kömək edə bilər. Əlbəttə, bu asan məsələ deyil, çünki müxtəlif ölkələrdə müxtəlif adətlər, dəyərlər, ənənələr və qaydalar var. Bu, elmi biliklər, bacarıqlar, mütəşəkkillik və mənəviyyata malik, yaradıcı fəaliyyətlə məşğul olan yüksək mədəniyyətli vətəndaşların formalaşdırılması və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq proqramların işlənib hazırlanması və həyata keçirilməsinin zəruriliyini bir daha vurğulayır. Bu prosesdə əsas prinsip ümumbəşəri dəyərlərin üstünlüyü olmalıdır. Beynəlxalq mədəni identikliyin formalaşmasına təkan verən amillərdən biri bütün dünyada meritokratik tərbiyə və idarəetmə mədəniyyətinin prinsip və meyarlarının yayılması ola bilərdi. Meritokratiya mədəniyyəti müxtəlif ölkələrin vətəndaşlarının əmək mədəniyyəti və əmək məhsuldarlığının, həyat səviyyəsinin, vətənpərvərliyi və həmrəyliyinin yüksəlməsinə müsbət təsir göstərir[14].

Şübhəsiz, Qərb və Şərq mədəniyyətləri özünəməxsus xüsusiyyətlərə malikdir. Qərb mədəniyyəti üçün, hər şeydən əvvəl, rasional təfəkkür və praqmatizm prinsiplərinə əsaslanan innovativ inkişaf səciyyəvidir. Şərq mədəniyyəti üçün bu, ilk növbədə, dini-poetik və humanist dünyagörüşü prinsiplərinə əsaslanan ənənəvi mədəniyyətdir. Bu gün Şərq mədəniyyətində öz mənəvi-mədəni dəyərlərini saxlamaqla, Qərb mədəniyyətinin rasionalizm və praqmatizm təcrübəsindən yaradıcı şəkildə istifadəyə daha çox diqqət ayrılması vacib görünür. Qərb mədəniyyətində isə – xüsusilə İntibah dövründə Avropa sivilizasiyasının zəngin olduğu əsrarəngiz humanist mədəniyyəti canlandırmaq. Düşünülür ki, bu, mədəniyyətlərin dialoqunun səmərəliliyinin yüksəldilməsinə və xalqların mədəni yaxınlaşmasına kömək edəcək.

Beləliklə, bu gün bəşəriyyətin ən aktual vəzifəsi yüksək ruhi mədəniyyətin inkişafına xidmət etməkdir. Bu vəzifənin başlıca mədəni dəyər qismində təsdiqlənməsi və bütün dünyada yüksək mədəniyyətli insanların "istehsalı" üzrə birgə beynəlxalq fəaliyyət mədəniyyətlərin və sivilizasiya-ların səmərəli dialoqunun inkişafı üçün əlverişli şərait yaradacaqdır.

---

[14] Hətta Çingiz xan (təq. 1155 və ya 1162-1227) döyüşçülərini onların hansı zümrəyə aid olmasından asılı olmayaraq həvəsləndirərək, daha çox meritokrtiya prinsiplərinin tətbiq edilməsi sayəsində hərbi uğurlar qazanırdı. O, liderləri onların istedadına görə seçirdi.

### *Yüksək mədəniyyətli insanların “istehsalının” zəruriliyi, onların formalaşdırılması yolları və qiymətləndirilməsi haqqında*

Bütün yaradılmışların tacı olan insan öz ağlı sayəsində bütöv sosial sistem – şərti baxımdan ruhi və maddi olmaqla bölünən, “ikinci, süni təbiət” adlandırılan mədəniyyəti yaradır və inkişaf etdirir. Əgər rasional yanaşma və praqmatizmə əsaslanan biznes maraqları gəlirlə əlaqəlidirsə, ruhi mədəniyyətin maraqları biliklərin və mənəviyyatın dəyəri, onun insan, cəmiyyət və dövlət üçün faydalılığı ilə bağlıdır. İnsanın davranışı şəxsiyyətin təfəkkürü, bilikləri, dəyərləri, psixologiyası və ümumi mədəniyyəti ilə şərtlənən niyyətlərinin məhsuludur. İnsan tərəfindən bu və ya digər halların, hadisələrin və ya faktların şərh edilməsinin düzgünlüyü ən çox onun intellektual mədəniyyət səviyyəsindən asılıdır.

Məlum olduğu kimi, ruhi mədəniyyətin ən vacib vəzifələri: humanist cəmiyyətin və ahəngdar şəxsiyyətin formalaşdırılması, onun özünüinkişafı və özünütəkmilləşdirməsidir. Humanist mədəniyyətin dəyərləri – bir şəxsiyyət kimi insanın özünün, onun həyatının dəyəri, azadlıq hüququ, xoşbəxtliyi, yaradıcı qabiliyyətlərinin üzə çıxarılması və inkişaf etdirilməsidir. Humanist mədəniyyətdə insanın rifahı sosial institutların dəyər meyarı, ədalət və insaniyyət prinsipləri isə insanlar arasındakı münasibətlərin zəruri normasıdır. Cəmiyyətin qurulması sistemi kimi humanizmin ali məqsədi insan həyatıdır. Humanist cəmiyyətin bütün maddi və qeyri-maddi resursları insanın həyat fəaliyyətinin rahatlığının və təhlükəsizliyinin təmin edilməsinə yönəldilib. “Şərq fəlsəfi ənənəsinə görə, məhz yüksək mənəviyyatlı və kamil şəxsiyyət insanları həqiqi bilik aləminə yönəldir və aparır, özünütəkmilləşdirmə yolunu göstərərək, həyata dəyərli məna qazandırır”.

Hazırda davam edən, mənəvi dəyərlərin tənəzzülü ilə müşayiət olunan sivilizasiya böhranı şəraitində zamanın vacib tələbi insanın mənəvi və intellektual mədəniyyətinin yaxşılığa doğru dəyişdirilməsi yolu ilə “Homo sapiens” insan növündən – “Homo culturalis” insan növünə sosial-mədəni keçid etməkdir. Bəşəriyyətin humanitar təhlükəsizlik maraqlarına cavab verən bu yaradıcı prosesdə xoş məramlı insanlar – siyasətçilər, alimlər, pedaqoqlar, incəsənət xadimləri, diplomatlar, hüquqşünaslar, iqtisadiyyatçılar, jurnalistlər və bütün dünyanın siyasi və mədəni elitalarının digər nümayəndələri səylərini birləşdirməlidirlər.

Hər bir insan təkcə öz müsbət keyfiyyətlərinin qiymətləndirilməsi və inkişafı yolu ilə deyil, həm də özünün mənfi psixoloji energetikasını aşkara çıxarmaq və müsbət yönə dəyişdirməklə, yüksək mədəniyyətli insanların formalaşdırılması prosesinə fərdi səviyyədə kömək edə bilər və kömək etməlidir. Bu, şəxsiyyətin həyat fəaliyyətinin təkmilləşməsinə və daha şüurlu olmasına, onun yaradıcı potensialının və cəmiyyətdə sosial statusunun yüksəlməsinə, ətrafdakıların ona olan sevgi və hörmətinin artmasına səbəb olacaqdır.

Müxtəlif ölkələrdə yüksək mədəniyyətli insanların birgə formalaşdırılması, mental səviyyədə müsbət dəyişikliklər cəmiyyətin mədəni identikliyinə, fərqli millətlər, etnoslar və dinlərin nümayəndələrinin mədəniyyətlərinin ahənginə və

vəhdətinə gətirib çıxaran yeni mədəni dəyərin təşəkkül tapmasına kömək edə bilər. Layiqli insanın beynəlxalq və milli səviyyədə qiymətləndirilməsinin əsl meyarı onun milliyyəti, doğulduğu yer, yaşadığı yer və ya peşəsi deyil, onun ruhi (əqli və mənəvi) mədəniyyəti, cəmiyyətin rifahı naminə yaradıcı fəaliyyətinin nəticələri olmalıdır.

Dünyanı yalnız humanizm və intellektual tərəqqi dəyərlərinə əsaslanan yüksək ruhi mədəniyyətin köməyi ilə xilas etmək olar. Ruhi mədəniyyətin inkişafına xidmətdən daha yüksək məqsəd yoxdur və ola da bilməz. Çünki bu, hər bir cəmiyyətin, dövlətin və bütün bəşəriyyətin rifahının artmasına, təhlükəsiz inkişafına və daha yaxşı gələcəyinə aparan yoldur. Universal kulturoloji biliklərə, mütərəqqi və humanist ideyalara sahib yüksək mədəniyyətli, layiqli insanların "istehsalı" və "tirajlanması" dünyanı yaxşılığa doğru dəyişməlidir.

***Dünya mədəniyyəti və sivilizasiyası tarixində humanizm mədəniyyəti haqqında***

Ən yaxşı nümayəndələri bəşəriyyətin ruhi mədəniyyətinin qorunmasına və inkişafına böyük töhfələr vermiş humanizm qədim zamanlardan bəri həm Şərqə, həm də Qərbə xas olmuşdur. Konfutsinin (e.ə. 551- 479 ) "jen" fəlsəfi konsepsiyası "insanpərvərlik", "insansevərlik" mənasına gəlir. Konfutsianlığın başlıca kateqoriyası – insansevərlik, səmimilik, dürüstlük, dövlətə və hakimiyyətə sədaqət, qaydalara dönmədən riayət etmə kimi keyfiyyətlərin xas olduğu layiqli insanı təmsil edən "nəcib xadim"dir (Çincə tszyun-tsı). Konfutsi inanırdı ki, hər bir şəxsiyyət nəcib xadim və ya ideal alim obrazına çatmaq üçün can atmalıdır. O, yüksək mədəniyyətli, layiqli şəxsiyyətdə insan münasibətlərinin zənginliyi və müxtəlifliyi ilə seçilən, insanın özünüinkişafı və özünütəkmilləşdirməsinə kömək edən ahəngdar cəmiyyətin əsas postulatını görürdü. Konfutsinin təlimi təkcə Çin cəmiyyətinin idarə edilməsi və dövlətçilik mədəniyyətinin formalaşdırılmasının əsasında durmur, həm də Koreya, Yaponiya və Vyetnam sivilizasiyalarının təşəkkül tapmasına böyük təsir göstərirdi. Meritokratiya mədəniyyəti də öz başlanğıcını Konfutsinin konsepsiyasından götürür.

Humanizm, xeyir və şər, ədalətli ictimai quruluş problemləri antik Yunanıstan və orta əsrlər Avropasının görkəmli alimlərinin, mütəfəkkirlərinin və filosoflarının diqqət mərkəzində idi. Yüksək ruhi mədəniyyət məsələləri cəmiyyətin əsasları kimi, antik dövrün Protaqor, Sokrat, Platon, Aristotel, Demokrit, Epikür və başqa görkəmli mütəfəkkirlərinin Avropada və bütün dünyada orta əsrlər humanizminin əsasını qoyan konsepsiyalarında və əsərlərində xüsusi yer tuturdu. Bu konsepsiyalarda yüksək mədəniyyətli insan diqqət mərkəzində idi. Belə insan insanlarla və təbiətlə ahəngdə yaşamalı, ağıllı qərarlar qəbul etməli, xeyirxah olmalı, öz yaradıcı enerjisini şərə deyil, xeyirə yönəldərək ictimai ehtiyacların ödənilməsinə kömək etməli, cəmiyyətin yaratdığı qaydalara və ənənələrə riayət etməli idi. Protaqor insanı "hər şeyin ölçüsü" hesab edirdi. Sokrat ədaləti və digər yaxşılıqları müdriklik hesab edərək, bilik və humanist idealın bir-birindən asılı olduğunu güman edirdi. Ədalət, dürüstlük və həqiqət kimi humanist ideałların tə-

rəfdarı olan Demokrit insanları pis əməllərdən "qorxduğuna görə yox, borc hissinə görə" uzaq durmağa çağırırdı.

Platon insanların "yalnız və bu qədər şəxsi maraqlarına yox, bütövlükdə cəmiyyətin inkişafına" yönəlməli olduqlarını hesab edərək, öz "ideal dövlətini" həm də ədalət, xeyirxahlıq və insanın ictimai maraqlara xidməti ilə əlaqələndirirdi. O, müdrikliyin insana "problemləri xeyir və ictimai rifah naminə həll etmək" imkanı verdiyini düşünərək, müdriklik, mərdlik, fərasət və ədalət kimi məziyyətlərin ideal dövlət yaratmaqda və onu idarə etməkdə zəruri olduğunu hesab edirdi.

Demokratiya mədəniyyətinə və şəxsiyyətin özünüidarə mədəniyyətinə sadiq olan Aristotel cəmiyyətin sosial mühitinin insanın inkişafında və onun həyati tələbatlarının ödənilməsində mühüm rolunu qeyd edirdi. O, düzgün hərəkətlərin insan üçün həyat nemətlərinə yol açdığına diqqət yetirərək, şəxsiyyətin mərdlik, sadəlik, müdriklik, comərdlik, düzlük, mülayimlik, lütfkarlıq, ünsiyyətcillik və ədalət kimi humanist keyfiyyətlərinin dəyərini vurğulayırdı. Mütəfəkkir dövlət idarəçiliyi mədəniyyətinə toxunaraq hesab edirdi ki, "vəzifələr pul qarşılığında bölüşdürülməli deyil, insanın qabiliyyətlərinə və xidmətlərinə uyğun olaraq verilməlidir", "idarəçilikdə ən yaxşı şəkildə idarə edə bilənlər olmalıdır".

Orta əsrlər Avropasında humanizmin tarixinə gəldikdə, Françeska Petrarka, Dante Agilyeri, Covanni Bokkaçço, Leonardo Bruni, Leon Baggist Alberti, Erazm Rotterdamski, Ulrix fon Qutten, Fransua Rable və s. kimi görkəmli humanistlərin adlarını çəkmək kifayətdir.

Qədim Şərqin bir sıra müsəlman tədqiqatçıları Aristotel və Platonun təlimlərinin təsiri altında sosial ideyalardan istifadə etməklə insanların dinc həyatına, cahilliyin aradan qaldırılmasına və insan xoşbəxtliyinə nail olmağa yönəlmiş ictimai quruluş nəzəriyyəsinin işlənib hazırlanmasına cəhd göstərmişlər. Belə ki, Əl-Fərabi (870-950) özünün "Fəzilətli şəhər əhlinin baxışları haqqında", "Xoşbəxtliyə çatmaq haqqında kitab", "Cəmiyyətin öyrənilməsi kitabı", "Fəzilətli əxlaq haqqında" traktatlarında ədalətsizliyi və şəri qınayaraq, xeyir və ədalətin müdafiəsinə qalxırdı.

Azərbaycan xalqının ruhi mədəniyyəti də həmişə humanizmi ilə seçilmişdir ki, onun parlaq nümayəndələrindən biri Məhəmməd Nəsrəddin Tusi (1201-1274) hesab olunur. "Elm ölkəsinin şahı" adlandırılan Tusi hesab edirdi ki, insanın dəyəri onu heyvanlar aləmindən fərqləndirən mədəniyyəti, ilk növbədə, mənəvi və etik mədəniyyətinin səviyyəsi ilə müəyyən edilir. O, "Əxlaqi-nasiri" kitabında şəri mühakimə edərək, Platonun Aristotelə müdrik vəsiyyətini qeyd edir: "Həmişə sayıq ol, çünki pis insanların hiylə və kələyinin sərhədi yoxdur".

Azərbaycan ədəbi dilinin əsasını qoyan görkəmli Azərbaycan şairi İmadəddin Nəsimi (1369-1417) də böyük humanist idi. Sufizmin qollarından biri – hürufiliyin ardıcılı olan Nəsimi insanı ən dəyərli xəzinə, dünyanın mərkəzi, yaradılmışların tacı hesab edirdi. O, insanın dəyərini onun yüksək missiyası və sonsuz imkanları ilə əlaqələndirirdi. Nəsimi öz yaradıcılığında insanın gözəlliyini və ağlını tərənnüm edərək, xalqı sosial ədalətsizlik, şəxsiyyətə qarşı zorakılıq, mövhumat,

istibdad və hökmdarların qəddarlığı ilə mübarizəyə səsləyirdi. Eyni zamanda o, həqiqətə aparan yolu insanın, onun xeyir və gözəlliyə can atmasının dərk edilməsində görürdü.

Şah İsmayıl Xətai (1487-1524) də öz poetik əsərlərində nəciblik və qəhramanlığı, mənəvi saflığı mədh etmiş və şər, xəyanət, qorxaqlığı qınamışdır. O, hansı zümrəyə aid olmasından asılı olmayaraq, Azərbaycan xalqının bütün nümayəndələrinə münasibətdə çox nəzakətli və ədalətli idi.

Şərlə mübarizə problemləri XIX əsrin məşhur Azərbaycan humanisti, mütəfəkkiri və şairi Mirzə Şəfi Vazehin (XVIII əsrin sonu – 1852) diqqət mərkəzində idi:

“Düzlüklə alçaqlıq çarpışan zaman,
Alçaqlıq nədənsə qazanır hər an.
Çünki alçaqlarçün ən alçaq işlər,
Alçaqlıq deyildir, hünərdir, hünər”.

Bu dünyada Xeyirin seçimi alternativsizdir. Çünki xeyir – mədəniyyət, həyat mənbəyi, insan inkişafı və rifahının, bəşər dünyasının xilasının və qorunmasının mənbəyidir. Yüksək ruhi mədəniyyətin inkişafına xidmət – humanizmə, insanların həyatına, təhlükəsizliyinə və tərəqqisinə xidmətdir. O, şərtsiz olaraq, bütün bəşəriyyətin prioriteti olmalıdır.

Cəmiyyətin və dövlətin ruhi mədəniyyəti ilə onun həyat qabiliyyəti və tərəqqisini əlaqələndirən tanınmış alman kulturoloqu Osvald Şpenqler (1880-1936) də insan inkişafının qiymətləndirilməsinə humanist yanaşması ilə seçilir. O, mədəniyyəti “iqtisadi, siyasi, ruhi, dini, praktiki, bədii həyat formalarında” ifadə olunan bütöv bir dövrü formalaşdıran yaradıcı proses kimi nəzərdən keçirirdi. Şpenqler XX əsrin birinci yarısında Avropa mədəniyyətini tənqidi təhlil edir, Avropa cəmiyyətinin mənəvi dəyərlərinin qiymətdən düşməsinə görə dərin narahatçılığını ifadə edirdi. Cəmiyyətin ruhi mədəniyyətində pul və hakimiyyət, texnogen və kütləvi mədəniy-yətin hökm sürdüyünü, tiranların meydana çıxdığını, dünya hakimliyi uğrunda müharibələrin getdiyini vurğulayaraq, özünün “Avropanın qürubu” monoqrafiyasında Avropanın tənəzzülünü və məhvini bədbin şəkildə qabaqcadan xəbər verirdi.

XX əsr Azərbaycan mütərəqqi romantizminin ən önəmli nümayəndəsi Hüseyn Cavidin (1882—1941) əsərlərində humanizm və insansevərlik məsələlərinə böyük diqqət ayrılıb. Azərbaycan mütəfəkkiri öz dram əsərlərində ictimai yenidənqurma və ziddiyyətlərlə bağlı sosial motivlərə geniş yer vermişdir. O, XX əsrin əvvəllərində ədalətsizliyə, istibdada, özbaşınalığa və satanizmə qarşı çıxış edərək, tərəqqi dövrünə, sivilizasiyanın inkişafına və böhranların, fəlakətlərin və bəşəriyyətin uğursuzluqlarının qarşısının alınmasına yönəldilmiş müasir zamanın ən vacib problemlərinin qaldırılmasının və həllinin zəruriliyini qeyd edirdi.

Məşhur Rusiya və Amerika humanisti, sosioloqu və kulturoloqu, demokratik mədəniyyətin və həyat qabiliyyətli cəmiyyətin tərəfdarı Pitirim Sorokin (1889-1968) intellektual və mənəvi mədəniyyətin öz dövrünü qabaqlayan nümayəndələrini yüksək qiymətləndirirdi. O, şəxsiyyətin əsas hüquq və azadlıqlarının təmin

edilməsini bəşəriyyətin hüquqi tərəqqisinin meyarı kimi nəzərdən keçirərək, hüquqi mədəniyyətin hərtərəfli inkişaf etdirilməsinin vacibliyinə inanırdı. Pitirim Sorokin mədəniyyətin gücünü onun prinsipinin və başlıca dəyərinin vəhdətində, sosiologiyanın gücünü isə – humanitar və təbiət elmlərinin biliklərinin bütöv sistemə inteqrasiya edilməsində görürdü. O, görkəmli humanist olaraq cəmiyyət və bəşəriyyətin həyatında milli və sosial bərabərlik, dövlət federasiyası, milli və sosial identiklik və həmrəylik məsələlərinə böyük əhəmiyyət verirdi. Alim sivilizasiya böhranının aradan qaldırılması məqsədilə 1947-ci ildə "altruistik sevgi və davranış" əsasında "bəşəriyyətin xilası" proqramı ilə çıxış etmişdir.

### *İntellektual mədəniyyətin prioritet inkişafının zəruriliyi haqqında*

Bütün dövrlərin və xalqların tanınmış mütəfəkkirləri, alimləri və dövlət xadimləri elmə, dövlətçilik və dövlət idarəetmə mədəniyyətinə əsaslanan intellektual mədəniyyətin inkişafı məsələlərinə böyük diqqət ayırmışlar.

Bu onunla əlaqəlidir ki, elmi əsaslandırılmış biliklər bəşəriyyətin həyat gücünün mənbəyidir. Təhsilsiz, cahil insan xeyri şərdən ayıra, həyatın mənasını və öz missiyasını başa düşə, yaradıcı məqsədlərə çatmaq üçün lazım olan düzgün qərarlar qəbul edə bilməz.

İbn Rüşd (1126-1198) elmin insan və cəmiyyətin inkişafındakı əvəzsiz rolunu dini mədəniyyət prizmasından nəzərdən keçirərək açıqlayır, "İkili həqiqət" əsərində vurğulayırdı ki, alim tərəfindən həqiqət axtarışının hər bir nəticəsi pillələr kimi üst-üstə gəlir və insanı ali həqiqətə – Yaradana çatdırır. Brabantlı Siger, Akvinalı Foma və averroizmin digər ardıcıllarından fərqli olaraq, İbn Rüşd hesab edirdi ki, "zəka həqiqəti" dini həqiqətdən üstündür, çünki yalnız fəlsəfə (elm) həqiqəti adekvat şəkildə təqdim edə bilər, "əgər Quran surələrinin izahı zəka həqiqətlərinə zidd görünərsə, onda surələr alleqorik şərh edilməlidir".

İnsanın əqli, intellektual mədəniyyətinin başlıca əhəmiyyətini orta əsrlərin görkəmli müsəlman alimi İbn Xəldun (1332-1406) da vurğulayıb. O qeyd edirdi ki, Allah insana düşünmək qabiliyyəti (intellekt – F.M.) bəxş edərək, Allah onu insanın kamilliyinin başlanğıcı və nəcibliyinin və hər şey üzərində üstünlüyünün ən yüksək zirvəsi etdi. "Əgər heyvanlar ətraf aləmi yalnız hisləri – eşitmə, görmə, qoxubilmə, dad və toxunma vasitəsilə qavrayırlarsa, insan öz ağlı sayəsində "bundan əlavə, ondan kənarda olanı hissi qavramanın ardınca gələn təfəkkürü vasitəsilə mənimsəmək qabiliyyətinə malikdirlər..." Bu təfəkkürün üç növü ola bilər. Birinci, özünüidarə məqsədilə təbii təzahürlərin və cəmiyyətdə müəyyən edilmiş adi şeylərin insan tərəfindən dərk edilməsi, yaşamaq üçün vəsait əldə etmək, faydalı və zərərli olanı ayırd etmək bacarığını ifadə edən "fərqləndirici qabiliyyətdir" (adi təfəkkürdür – F.M.). İkinci, insanların həyatında praktik fayda verən sosial təcrübənin mənimsənilməsinə əsaslanan təfəkkür – "təcrübəli şüurdur". Üçüncü, hissi qavrama ilə bilavasitə əlaqədar olmayan, elmi dərk etmə və yeni elmi biliklərin əldə edilməsi sayəsində mövcud olan haqqında ümumi və xüsusi təsəvvürlərdə şüurun kamilliyi ilə xarakterizə edilən "mücərrəd və ya "təmiz" şüur"dur.

Ayrı-ayrı alimlərin əsərlərinin effektivliyi daha çox hər bir ölkənin intellektual potensialının prioritet inkişafını və ümummədəni səviyyəni təmin edən elm, təhsil və maarif kimi ruhi mədəniyyət flaqmanlarının dövlət tərəfindən qiymətləndirilməsindən və dəstəklənməsindən asılı olmuşdur və asılıdır. İntellektual mədəniyyətin inkişafını əsas milli prioritet kimi görən dövlətlər həmişə dünya sivilizasiyasının aparıcı ölkələri sırasında olmuşlar. İki ada dövləti – Böyük Britaniya və Yaponiyanın tarixi təcrübələrinə nəzər saldıqda buna əmin olmaq çətin deyil.

Ənənəvi olaraq təbiət elmlərinə və texniki elmlərə üstünlük verilən Böyük Britaniyada çoxsaylı mühüm ixtiralar və kəşflər edilmişdir. Bu gün elmə yönəldilən qlobal xərclərin təxminən 4,5 %-i, dünyadakı bütün elmi nəşrlərin 8 %-i bu ölkənin payına düşür. Böyük Britaniyanın 70-dən çox alimi Nobel mükafatına layiq görülüb. 150 milyon vahiddən çox mənbəni özündə birləşdirən Britaniya kitabxanası dünyadakı ən böyük kitabxanadır. Ölkədə 150 müxtəlif elmi təşkilatla əlaqə saxlayan, elmi biliklərin yayılması üzrə Britaniya Assosiasiyası fəaliyyət göstərir.

İngiltərədə biliklərin sistemləşdirilməsi hələ erkən orta əsrlər dövründə baş vermişdi. "Biliyin üç mənbəyi haqqında" əsərinin müəllifi Rocer Bekonu (1214-1292) xatırlamaq kifayətdir. Artıq XII–XIII əsrlərdə İngiltərədə məşhur Oksford və Kembric universitetlərinin əsası qoyulmuşdu. XVI əsrdə praktikanı həqiqət meyarı kimi ifadə edən və Britaniya empirizminin əsasını qoyan Frensis Bekon (1561-1626) elm və elmi tərəqqini İngiltərənin gücünün əsası elan etdi. XVII əsrdə Avropa Elmi Tədqiqatlar Mərkəzi tədricən Böyük Britaniyaya köçürülməyə başlandı. 1660-cı ildə dünyanın ən qədim elmi cəmiyyətlərindən biri olan – London Kral Cəmiyyəti yaradıldı. XVII əsrin sonunda London Kral Cəmiyyəti dənizçilik, hərbi texnologiyalar, səhiyyə, fizika, metallurgiya və təbiət sahələrində elmi tədqiqatlar proqramını işləyib hazırladı. Böyük Britaniya həmin vaxta qədər ən güclü dəniz dövlətinə çevrilmişdi. İngiltərə elminin bu inkişafı dövründə dünya miqyasında üç mühüm – differensial və inteqral hesablama, işığın xassəssinin izahını, ümumdünya cazibə qanununu kəşf edən İsaak Nyutonun (1643-1727) yaradıcı fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

XIX əsrdə Böyak Britaniyanın elmi dünyada aparıcı hesab olunurdu. Elmin nailiyyətləri daha çox onun dünya maşınqayırmasında aparıcı yeri ilə bağlı idi. Elmin, ələlxüsus, təbiət və texniki elmlərin inkişafı sənayenin və kənd təsərrüfatının sürətli tərəqqisi, dünyanın çoxsaylı ölkələrinin təbii ehtiyatlarının öyrənilməsi ilə şərtlənmişdi. Elmin nailiyyətləri əsasında ölkənin müdafiə sənayesi, rabitə, heyvançılıq və digər sahələr uğurla inkişaf edirdi. 1949-cu ildə bir çox elmi tədqiqatları maliyyələşdirən Tədqiqatlar və layihələr üzrə Milli Korporasiyanın əsası qoyuldu. 1976-cı ildə Böyük Britaniya Kral Mühəndislik Akademiyası yaradıldı. 1997-ci ildən etibarən ölkədə elmə yönəldilən xərclər iki dəfə artdı.

Elm və Texnologiya üzrə Britaniya Dövlət Şurasının 2010-cu ilin mart ayında dərc etdiyi "Britaniya elminin gələcəyi" adlı hesabatında vurğulanırdı ki, "elm – Çin və Hindistanla rəqabətdə ən başlıca amildir". Habelə elmin maliyyələşdirilməsi məsələsinə toxunulur, elmin maliyyələş-dirilməsinin səmərəliliyinin artırıl-

masının və pulların yalnız adlı-sanlı universitetlərə deyil, ilk növbədə, daha əhəmiyyətli və maraqlı tədqiqatlara yönləndirilməsinin zəruriliyi qeyd edilirdi. Maddi dəyərlərin yaradılması elmin başlıca vəzifəsi, elmə çəkilən xərclərin məhz hansı məqsədlərə yönəldiləcəyi isə alimlərin hüququ elan olundu. Birləşmiş Krallığın elmə əsaslanan yüksək səmərəli dövlət idarəçilik mədəniyyəti, Britaniya “ceneralistlərinin” təcrübəsi dünya sivilizasiyası üçün  böyük dəyərə malikdir.

İntellektual mədəniyyətin prioritet inkişafının ölkənin sosial tərəqqisinə və xalqın rifahına təsirinin daha bir nümunəsi bu gün dünya elmi fikrinin liderlərindən biri olan Yaponiyadır. Artıq XVIII əsrin əvvəlində Yaponiyada əhalinin savadlılıq səviyyəsinin yüksəlməsinə səbəb olan Avropa elmi biliyinin geniş yayılması və populyarlaşması müşahidə olunurdu.

Meydzi (1867-1868) mədəni inqilabından sonra ölkədə Qərb sivilizasiyasının elmi və texnoloji nailiyyətləri geniş yayılmağa başlandı. Avropa elmi biliklərinin məktəblərdə və ali təhsil müəssisələrində aktiv öyrədilməsi və milli inkişaf maraqları naminə praktikada istifadəsi sayəsində Meydzi dövründə Yaponiya sosial-iqtisadi inkişafda böyük sıçrayış etdi. İntellektual mədəniyyətin qabaqlayıcı inkişafı daha çox XX əsrin 50-60-cı illər Yapon iqtisadi möcüzəsi fenomeninə təkan verdi. Müharibədən sonrakı dövrdə Yaponiya “velosiped icad etmək” prinsipindən imtina edib, yapon alimlərinin kəşfləri və elmi işləri ilə yanaşı, xaricdən böyük miqyasda texnologiyalar və patentlər alır, onları yaradıcı şəkildə tamamlayır, təkmilləşdirir və ən əsası, tez bir zamanda istehsalına başlayırdı. 60-70-ci illərin qovşağında Yaponiyada xüsusi elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin möhkəm bazası yaradıldı. Yaponiyanın intellektual mədəniyyətinin bu strategiyasının səmərəliliyi ümumilikdə 400 %-dən çox, ayrı-ayrı sahələrdə isə 1800 %-ə qədər qiymətləndirilirdi.

Keçən əsrin 1900-cü illərinin ortalarından etibarən Yaponiya sosial-iqtisadi tərəqqinin yeni səviyyəsini təmin edən elmin və elmi tədqiqatların təşkilində yeni prinsiplər işləyib hazırlamağa başladı. 1995-ci ildə Yaponiyanın elm və texnologiyaları haqqında Əsas qanun qəbul edildi. Bu qanuna əsasən, Hökumətə ilk dəfə olaraq “Elmi və texniki inkişafın baza planları” beşilliyini təsdiqləmək tapşırıldı, 2021-ci ilin aprelində isə ölkədə “Elm, texnologiyalar və innovasiyalar haqqında Əsas qanun” qüvvəyə mindi.

Dünya sivilizasiyası tarixində intellektual mədəniyyətin uğurlu inkişaf nümunələrindən biri Avropa cəmiyyətinin humanistləri tərəfindən dünyəvi elm və mədəniyyət çağı kimi nəzərdən keçirilən Yeni dövr ola bilər. Avropa İntibahının ardınca gələn XVIII əsr dünya mədəniyyəti tarixinə “Zəka əsri” kimi daxil olmuşdur. XVI-XVII əsrlərdə inkişaf etmiş, riyaziyyat, fizika, astronomiya və tibdə elmi inqilaba səbəb olan əsaslı elmi tədqiqatın empirik metodları Avropada “Maarifçilik dövrü”nün inkişafının əsasını qoydu. Tanınmış alimlər, mühəndislər və yazıçılar – Deni Didro, Jan Dalamber, J. Byuffon, F. Volter, K. Helvetsiy, P. Holbax, L. De Jokur, M. J. Kondorse, Q. Reynal, J. J. Russo, Ann Rober Jak Tyurqo və bir çox başqa fransız ensiklopedistləri Avropada insanın intellektual

mədəniyyətinin sonsuz imkanlarına, xoş məramla birgə "Yer üzündə xoşbəxtliyin qurulması" bacarığına inamının formalaşmasına səbəb oldular. Ensiklopedistlərin fərqli mədəni-dəyər yönəlişlikləri olsa da, onların arasında həm deistlər, həm materialistlər, həm ateistlər, həm respublika tərəfdarları, həm də maarifçi mütləqiyyət tərəfdarları olsa da, onların hamısını ümumi məqsəd birləşdirirdi: elmi biliklərə, elmi həqiqətə sadiqliyə əsaslanan cəmiyyətin ruhi mədəniyyətinin inkişafı məqsədi ilə xalqın kulturoloji maarifləndirilməsinə yardım etmək.

Ensiklopedistlərin cəmiyyətin mütərəqqi inkişafı naminə insanların feodal-mühafizəkar təfəkkürünün aradan qaldırılmasına yönəldilmiş yaradıcı fəaliyyəti orta əsrlər elmi dünyagörüşünün, o cümlədən Avropada "Maarifçi idarəetmənin" meydana çıxmasına böyük təsir göstərdi.

Napoleon Bonapart (1769-1821) da öz dövrünün intellektual mədəniyyətinin inkişafına dəstəyi ilə seçilirdi. Onun elmin və incəsənətin inkişafının həvəsləndirilməsində, müasir dünyəvi təhsilin, liseylər sisteminin, İmperiya universitetinin, daha çox fransız xalqının intellektual mədəniyyətinin tərəqqisinə yönəlmiş Misirşünaslığın inkişafı üçün şəraitin yaradılmasındakı xidmətlərini xüsusi qeyd etmək lazımdır. O, elm və təhsilin inkişafındakı dəstəyinə görə Fransa Milli Elm və İncəsənət İnstitutunun üzvü seçilmişdir. Milli inkişafda təhsilin roluna böyük önəm verən Napoleon vurğula-yırdı ki, "ancaq xalqı aldatmaq və idarə etmək istəyənlər onu cəhalətdə saxlamaq istəyər".

***Dövlətçilik və dövlət idarəçiliyi mədəniyyətinin inkişaf məsələləri haqqında***

Cəmiyyətin və dövlətin idarə edilməsi, əsasən, sosial qeyri-bərabərsizlik, mədəni elitalara və kütlələrə bölünmə səbəbindən olduqca mürəkkəb məsələdir. Burada səbəblər çoxdur. Onların arasında həm sosial təbəqələşmənin[15] xüsusiyyətləri, həm cəmiyyətin iyerarxiyaları, həm vətəndaşların müxtəlif savadlılıq, mədəniyyət, səriştəlilik, təfəkkür səviyyəsi, bu və ya digər sosial əhəmiyyətli defisit ehtiyatlara əlçatanlığın qeyri-bərabər olması, sosial təbəqələrin qiymətləndirilmə prinsipləri və meyarlarının, peşələrin nüfuzunun müxtəlifliyi, siyasi-ideoloji xüsusiyyətlər və s. var. Cəmiyyətin sosial mobilliyi və milli inkişafın səmərəliliyi daha çox cəmiyyətin idarə edilməsi mədəniyyətindən asılıdır. Pitirim Sorokinin tərifinə görə, sosial mobillik – fərdin və ya sosial obyektin bir sosial mövqedən digərinə keçididir. Bu, mədəniyyətin "şaqulisi" çərçivəsində olduğu kimi, mədəniyyətin "üfüqisi" çərçivəsində də, elitar mədəniyyət sahəsində də, kütləvi mədəniyyət sahəsində də baş verə bilər.

Peşəkar təbəqələşmə vətəndaşların əmək mədəniyyətinin, səriştəliliyinin, xidmətlərinin və fəaliyyət nəticələrinin qiymətləndirilməsi əsasında həyata keçirilir.

---

[15] Sosial stratifikasiya rifah, sərvət, güc, təhsil, asudə vaxt, istehlakdan asılı olaraq müəyyən edilən təxminən bərabər sosial status və sosial iyerarxiya əsasında cəmiyyətin sosial təbəqələşməsini xarakterizə edir. Monarxiya cəmiyyətlərində əsas sosial təbəqələr zadəganlar, ruhanilər, ordu, burjuaziya, fəhlə və kəndlilər idi.

Bu zaman təhsil, bilik, bacarıq səviyyəsi, mütəşəkkillik, məsuliyyət, etika, vətənpərvərlik və s. diqqətə alınır. Obyektiv qiymətləndirməyə qəbul edilən qərarların və əməyin nəticələrinin keyfiyyətini təyin edən kulturoloji ekspertiza çox kömək edir. Hər bir peşənin sosial statusu onun milli inkişaf üçün faydalılıq dərəcəsi ilə, vəzifəli şəxsin dəyəri isə – onun intellektual və etik mədəniyyət səviyyəsi, peşəkarlığı, təcrübəsi və əməyinin nəticələri ilə müəyyən edilir. Yüksək rütbəli vəzifənin başlıca meyarı şəxsiyyətin intellektinin, ümumi mədəniyyətinin və idarəetmə mədəniyyətinin yüksək səviyyəsidir. Kasta cəmiyyəti istisna olmaqla, insanların sosial yerdəyişmələri – yerdəyişmə "mərtəbələri" arasında maneələr yaradan "sosial filtrlər" vasitəsilə tənzimlənir. Yerdəyişmələrin sürətləndirilməsi həm də "sosial liftlər" vasitəsilə təmin edilir. Dinc dövrdə belə liftlər qismində ailə, nikah, təhsil, əmlak və s. ola bilər. Siyasi böhranlar dövründə inqilablar, müharibələr, istilalar və s. ola bilər. Eyni zamanda insanların və ya obyektlərin sosial yerdəyişmələrinin azadlıq dərəcəsi cəmiyyətin siyasi strukturu, onun "açıqlığı" və ya "qapalılığı" ilə müəyyən edilir. Təbəqələr və maliyyə vəsaitlərinin olması sosial mobilliyə ciddi təsir göstərir.

Dünyada çoxsaylı – şəxsi, ailə, qrup, cəmiyyət, siyasi, dövlət, beynəlxalq və s. maraqlar var. Göründüyü kimi, idarəetmənin vəzifəsi maraqları və mədəniyyətləri uyğunlaşdırmaqdan ibarətdir. Maraqlar mədəniyyəti və onun mənəvi dəyərlərini məhv etməməlidir. Bunun şərtlərindən biri idarəetmə qərarlarının elmi biliklər və mənəvi mədəniyyətin aprior dəyərləri əsasında qəbul edilməsi qaydasının təsdiqidir. Dünya təcrübəsinin göstərdiyi kimi, hər bir dövlətin rəqabətqabiliyyətli inkişafının ən mühüm şərtləri: intellektual mədəniyyətin qabaqlayıcı inkişafı, yüksək səviyyəli əmək mədəniyyəti və dövlət idarəçilik mədəniyyətidir.

İntellektual mədəniyyət və elmi bilik səviyyəsi ilə şərtləndirilmiş dövlətçilik mədəniyyətinin inkişaf prosesləri məşhur alman sosioluqu və kulturoloqu Maks Veber (1864 - 1920) tərəfindən dərindən öyrənilmişdir. Veberə görə, dövlətin müvəffəqiyyəti əhalinin əksəriyyətinin özünü vahid qrup olan millətin üzvləri kimi hiss etməsini həvəsləndirir. Veberin konsepsiyalarının özünəməxsusluğu ondan ibarət idi ki, o, öz tədqiqatlarında diqqəti cəmiyyətə deyil, fərdə və insan mədəniyyətinə yönləndirir, ideyaların fərdlərin hərəkətlərinin həvəsləndirici amilləri olduğunu hesab edirdi. Bürokratik hakimiyyətin və totalitar rejimin əksi kimi prezidentlik institutunun tərəfdarı olan Maks Veber cəmiyyətin millət, siyasi və dini strukturlar, müəssisələr kimi müxtəlif sosial institutlarını müstəsna olaraq ayrı-ayrı şəxsiyyətlərin hərəkətlərinin məhsulu kimi qiymətləndirirdi. Bununla yanaşı, kulturoloji tədqiqatlarda geniş istifadə olunan tarixilik prinsipinə lazımi qiymət verən Maks Veber hesab edirdi ki, insanların sosial fəaliyyətləri ən çox tarixi mühitin xüsusiyyətləri ilə müəyyən edilir və buna görə də onların tam anlaşılması üçün dövrün bütün vacib xarakteristikalarının təhlili tələb olunur. Onun ictimai elmlərin metodologiyası ilə bağlı fikirlərinin formalaşmasına, rasional və nizamlı olan hər şeyin insanın intellektual mədəniyyətinin məhsulu kimi dərk edilməsinə neokantizm, xüsusən də Henrix Rikkertin əsərləri təkan verdi.

Veberə görə, sosiologiyanın predmeti insanın davranışını müəyyən edən bütün ideyalar və dünyagörüşləridir. O, sosiologiyanı “mədəniyyət haqqında elm” hesab edir və onda təhlilin təbii-elmi metodundan istifadəni məqbul saymırdı. Veber sosial statusu iqtisadi təbəqələşmədən kənar təhlil edirdi. O, sosial statusu insanın və ya ümumi dəyərləri, təhsili, dünyagörüşü və həyat tərzi ilə birləşən qrupun (F.M. – mədəni elita) mədəniyyəti ilə əlaqələndirirdi. Cəmiyyətin bürokratik sistemini təhlil edərək, o, legitim hakimiyyətin üç növünü ayırd edib: ənənəvi, xarizmatik və Qərb ölkələrində üstünlük təşkil edən, kapitalist ölkələrinin rasionallaşmasına kömək edən rasional. Bu zaman rasionallaşma elmi biliyin inkişafı, artan şəxssizləşdirilmə və cəmiyyət həyatına nəzarətin genişlənməsi ilə müşayiət olunurdu.

Veber cəmiyyətin ümumi mədəniyyətinin, strukturunun və dünyəvi etikanın, xalqın ənənələrinin və təsərrüfat sisteminin formalaşmasında dini mədəniyyətin əhəmiyyətini vurğulayırdı. O, Çin, Hindistan və Qərb mədəniyyətlərinin müqayisəli təhlilində həyat dəyərlərinə və məqsədlərinə rasional və ənənəvi yanaşmanın fərqlərinə diqqət yetirirdi. Xüsusilə, Şərqdə prioritet sərt iyerarxiyalı dövlət, mənəvi dəyərlərə və passiv seyrçiliyə bağlılıq, Qərbdə prioritet – insan, onun həyat fəaliyyətini seçmək azadlığı, rifaha nail olmaq üsulu kimi biliklər və inadlı əmək, dünyanı mütərəqqi dəyişmək cəhdidir. Əgər Qərbdə həyatın mənasının motivasiyası rifahdırsa, Şərqdə – “ən yaxşı dünyada yeni həyatdır”. O, Avropa və Asiya sivilizasiyalarını, konfutsianlığa əsaslanan Çin cəmiyyətinin puritan etikasını və patriarxal sistemini müqayisə edərək, Qərbin sürətli inkişafına təkan verən amillərdən birinin protestantlıq olduğu qənaətinə gəldi. O, Avropalıların rasional elmi biliklərə, peşəkarlığa, hakimiyyətin mərkəzləşməsinə, dövlət və iqtisadi idarəçiliyin sistemləşdirilməsi və bürokratikləşdirilməsinə can atmasını dinin təsiri ilə əlaqələndirirdi. Eyni zamanda bütün cəmiyyətlərdə idarəçiliyi müdrikliklə həyata keçirən təhsilli elitalar və mistik kateqoriyalarla düşünən təhsilsiz kütlələr var. O, Qərb rasionalizminin mənbələrini Qərbdə mütəfəkkirlərin və peyğəmbərlərin meydana çıxması ilə, habelə şəhərlərin inkişafı ilə əlaqələndirirdi. Bununla yanaşı, Veber hesab edirdi ki, Qərb cəmiyyətinin uğuru bir çox cəhətdən, xristian və islam mədəniyyətlərini doğurmuş, həmçinin yunan və Roma sivilizasiyalarına təsir göstərmiş qədim yəhudilərin dini ilə qabaqcadan müəyyən edilib.

Maks Veber bürokratiyanın peşəkar səriştəliliyini və bütün səviyyələrdən olan rəhbərlərin cəmiyyət qarşısında məsuliyyət mədəniyyətini nəzərdə tutan rasional-leqal hakimiyyət növünün tərəfdarı idi. O, bürokratlaşmanı dövlət idarəçiliyinin təşkilinin effektiv üsulu və Qərb cəmiyyətinin modernləşmə prosesinin ən mühüm tərkib hissəsi kimi nəzərdən keçirirdi. Veber məmurların ixtisasartırmasına və müstəsna olaraq, ekspertlər qrupu tərəfindən müəyyən edilən peşəkar yetkinlik əsasında qulluqda irəli çəkilməsinə böyük əhəmiyyət verirdi. Eyni zamanda o hesab edirdi ki, bürokratik təşkilat vətəndaşların azadlığı üçün təhlükə törətsə də, texniki baxımdan dövlət idarəçiliyinin bütün digər təşkilat formalarını üstələyir.

Sivilizasiya tarixində mifoloji dünyagörüşünün rasional dünyagörüşü ilə əvəzləndiyi "ox zamanı" nəzəriyyəsinin müəllifi, kulturoloq Karl Yapers (1883-1969) də humanist dünyagörüşünə və demokratiya prinsiplərinə sadiqliyinə görə, Maks Veberin sosioloji konsepsiyalarına yaxındır. Onun tənqid obyekti insanı elmin və ya ideologiyanın sadəcə bir aləti kimi nəzərdən keçirən totalitar despotizm və texnokratiya rejimləri idi. O, dünya tarixi üçün səciyyəvi olan zamanın universal mənası və əlaqəsini qeyd edərək, elitar mədəniyyətin dövlət idarəçiliyində rolunu vurğulayırdı. Eyni zamanda Karl Yaspers majoritar demokratiyaya qarşı çıxır, demokratiyanı intellektual elitanın idarə etməli olduğu barədə Veberin qənaətlərini bölüşürdü.

Qeyd edək ki, dövlətçilik və dövlət idarəçiliyi mədəniyyəti sahəsində məşhur innovasiyalar həm də Napoleon Bonapartın adı ilə bağlıdır. Onun müasir Fransa və Avropa dövlətçiliyinin əsasını qoymuş bir sıra dəyərli ideya və təşəbbüsləri müasir dünyanın formlaşmasının əsasını təşkil etmişlər. Bunlar Fransa cəmiyyətində rifah və sabitliyin bərqərar olunmasına yönəlmiş inzibati və hüquqi yeniliklər, o cümlədən meritokratiya, qanun qarşısında bərabərlik, mülkiyyət hüququ, imkanların bərabərliyi, dini dözümlülük, sağlam maliyyə və s.-dir. Feodalizmin ləğvi və Roma imperiyasının süqutundan sonra qanunların məcəlləşdirilməsi onun xidmətlərinə aid edilir. Napoleonun dövlət idarəçilik sisteminin formalaşdırılmasında və inkişafındakı nailiyyətləri Napoleon irsinin ən vacib hissəsi sayılır.

Hər bir ölkənin qəbul edilmiş idarəçilik qərarlarının nəticələri, əsasən, siyasi, o cümlədən dövlətin kadr siyasəti sahəsindəki prinsiplərin və meyarların düzgünlüyündən asılıdır. Bu səbəbdən hər bir ölkənin milli maraqlarını nəzərə alaraq, demokratik ölkələrin dövlət idarəçilik sistemi idarəçilik mədəniyyətində səriştəsiz və idarəetmə etikasından uzaq olan insanların məsuliyyətli vəzifələrə irəli çəkilməsinə mane olur, çünki belə siyasətçilərin və idarəçilərin "fəaliyyəti" hakimiyyətə olan inamı sarsıda, cəmiyyətin və dövlətin təhlükəsiz inkişafına, habelə beynəlxalq münasibətlərə bərpası mümkün olmayan zərər vura bilər. Aydın olur ki, dünya siyasəti və iqtisadiyyatında baş verən sürətli dəyişikliklər və çağırışlar şəraitində idarəetmə mədəniyyətinin təkmilləşdirilməsi məsələsi siyasətçilərin, dövlət xadimlərinin və müxtəlif profilli mütəxəssislərin seçimi və yerləşdirilməsi prinsipləri və meyarları məsələsidir. Con Adairə görə, "vəzifə hakimiyyəti" deyil, biliklər hakimiyyəti və rəhbər işçilərin etik mədəniyyətinin ahəngini nəzərdə tutan "şəxsiyyət mədəniyyəti" meyar seçilərək, bu sahədə müsbət dəyişikliklər yolu ilə səriştəsiz insanların hakimiyyətə daxil olmasının qarşısı alınır.

Xarici ölkələrin təcrübəsi və alimlərin elmi nəticələri beynəlxalq standartların işlənib hazırlanmasının  və bütün səviyyələrdə dövlət və beynəlxalq idarəetmə mədəniyyətinə, qəbul edilmiş qərarların və alınmış nəticələrin kulturoloji ekspertizasına tətbiq edilməsinin məqsədəuyğunluğunu göstərir.

*Azərbaycan Respublikasının inkişafının "yeni erası" və prioritetləri haqqında*

Müasir Azərbaycan Respublikasının yaradıcısı, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xalqın ruhi mədəniyyətinin ölçüyəgəlməz dəyərini heyrətamiz dərəcədə dəqiq – alınması mümkün olmayan, lakin formalaşdırılması mümkün və zəruri olan sərvət kimi xarakterizə etmişdir. İtirilməsi mümkün olan maddi dəyərlər, vəzifə və hakimiyyətdən fərqli olaraq, insandan ayrılmayan bu sərvəti o, irsi amillər və əlverişli sosial mühit sayəsində bütün ömrü boyu qazanır. Eyni zamanda ölkə vətəndaşlarının bu sosial və milli kapitala görə dərin məsuliyyəti də onun tərəfindən vurğulanırdı.

Prezident İlham Əliyevin müdrik milli inkişaf strategiyası, effektiv xarici siyasəti və yüksək dövlət idarəçiliyi mədəniyyəti sayəsində Azərbaycan Respublikası qısa tarixi dövr ərzində öz ərazi bütövlüyünü və suverenliyini müvəffəqiyyətlə bərpa etdi. Bu, yüksək ruhi mədəniyyətin inkişafı erası kimi, həyat qabiliyyətli Azərbaycan cəmiyyətinin və güclü dövlətin inkişafının "yeni erasının" formalaşdırılmasına başlamaq imkanı verdi. Başqa sözlə desək, Azərbaycanın Prezidenti İlham Əliyev tərəfindən elan olunmuş milli inkişafın "yeni erası" yüksək ruhi mədəniyyət dəyərləri və nailiyyətləri əsasında Azərbaycan xalqının keyfiyyətcə yeni, dinc quruculuq mərhələsini ifadə edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən Azərbaycanda və ölkə xaricində ruhi mədəniyyətin inkişafına xidmətə yönəldilmiş genişmiqyaslı sosial-mədəni fəaliyyət həyata keçirilir.

Bu gün Azərbaycan dövlətinin əsas inkişaf istiqamətləri yeni sosial-mədəni inkişaf strategiyası, rəqabətqabiliyyətli "biliklər iqtisadiyyatının", "yaşıl energetikanın" və "yaşıl iqtisadiyyatın" inkişafı, Azərbaycan cəmiyyətinin ekoloji və hərbi təhlükəsizliyinin təmin edilməsi, beynəlxalq münasibətlər mədəniyyətinin inkişafıdır[16]. Mədəniyyət siyasətinin yeni prioritetləri intellektual, etik, hüquqi və idarəetmə mədəniyyəti, ziyalıların ruhi mədəniyyətin elm, təhsil və maarif kimi strateji flaqmanlarının qabaqlayıcı inkişafını təmin edən yaradıcı fəaliyyətidir. Eyni zamanda ölkənin mədəniyyət siyasəti Azərbaycan xalqının incəsənət, ədəbiyyat, etika və mədəni irs sahəsində ənənəvi mənəvi-mədəni dəyərlərin və yaradıcı fəaliyyətin qorunub-saxlanılmasını və inkişaf etdirilməsini nəzərdə tutur.

"Yeni erada" dövlətin ən mühüm vəzifəsi insan kapitalının nüvəsi, Azərbaycan xalqının davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafının məqsədi və strateji bərpa olunan resursu kimi Azərbaycan Respublikasının yüksək mədəniyyətli vətəndaşlarının formalaşdırılması və inkişaf etdirilməsidir. Bərpa olunmayan

[16] Azərbaycanın paytaxtında təkcə 2013-2024-cü illər ərzində sülhün qorunması, beynəlxalq təhlükəsizlik, münaqişələrin həlli, beynəlxalq münasibətlərdə inamın bərpası, inklüziv cəmiyyətlərin inkişafı, qadınların azadlığı, dünyanın yeni xarici siyasəti və s. problemlərə həsr olunmuş on bir qlobal forum keçirilmişdir.

karbohidrogen xammalından – bərpa olunan "yaşıl energetikaya" və "yaşıl iqtisadiyyata" labüd keçidlə əlaqədar olaraq, bu vəzifənin beynəlxalq əhəmiyyəti ölçüyəgəlməz dərəcədə artır.

Əgər bu strateji məsələnin həllinə "mədəniyyətin iki qanadı" prizmasından nəzər salsaq, aydın olur ki, bu vəzifənin birinci pilləsi şəxsiyyətin mənəvi tərbiyəsidir. İkinci pillə – onun intellektual mədəniyyətinin, biliklərinin və peşəkar səriştəliliyinin inkişaf etdirilməsidir. Ruhi mədəniyyətin ahəngdar inkişafı insanın ümumi mədəniyyət səviyyəsinin formalaşmasına kömək edir ki, şəxsiyyətin heç bir peşəkarlıq mədəniyyəti bunsuz tamdəyərli ola bilməz. Bu səbəbdən vətəndaşların əqli və mənəvi mədəniyyətinin bir-birindən asılı olaraq inkişafı ən vacib milli məsələlərdən birinə çevrilir. Mütəxəssislərin yüksək intellektual və ümumi mədəniyyəti yaradıcı fəaliyyətin, ruhi və maddi istehsal və idarəetmənin bütün sferalarını özündə birləşdirən mədəniyyət sahəsində yeniliklər uğrunda cəmiyyətin və dövlətin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə hədəflənmiş mübarizə üçün də lazımdır.

Heydər Əliyevin kulturoloji irsinə söykənərək, Azərbaycan Respublikasında ahəngdar ümumi rifah cəmiyyəti quracaq yeni mədəni inkişaf strategiyası həyati vacib məqsədə – ruhi mədəniyyətin inkişafına xidmətə yönəldilib. Yeni strategiya çərçivəsində respublikada icbari kulturoloji təhsil və maarifləndirmənin qanunvericilik qaydasında tətbiqi, qəbul edilən qərarların və tədqiqat işlərinin nəticələrinin kulturoloji ekspertizası və digər mədəni yeniliklər planlaşdırılır. Bu, çox düzgün inkişaf yoludur, çünki belə yanaşma mədəniyyət haqqında müasir elmin inkişaf məntiqinə əsaslanır, dünya inkişafının obyektiv qanunauyğunluqlarından, davamlı milli inkişaf tələbat-larından və zamanın çağırışlarından irəli gəlir.

Eyni zamanda tədris vətən və dünya mədəniyyəti və sivilizasiyasının inkişaf tarixi və nəzəriyyəsinin, bəşəriyyətin diqqətəlayiq elmi-texnoloji, istehsal və incəsənət nailiyyətlərinin, milli və ümumbəşəri mədəniyyət dəyərlərinin kulturoloji baxımdan sistemli şəkildə öyrənilməsini nəzərdə tutur. Bu, müxtəlif ölkələrin və xalqların insanın həyat fəaliyyəti ilə bağlı daha mütərəqqi və praktiki baxımdan dəyərli ənənələrinin tarixi təcrübəsinin Azərbaycan gəncləri və mütəxəssisləri tərəfindən məsimsənilməsinə kömək edəcək. Belə sistemli kulturoloji yanaşma milli mədəniyyətin yalnız mahiyyətini, xüsusiyyətlərini, tarixini və nailiyyətlərini deyil, həm də onun inkişaf qanunlarını və texnologiyalarını dərk etməyə, yeni imkanları müəyyən etməyə və milli mədəniyyətin bütöv sisteminin inkişafının daha yaxşı gələcəyini qurmağa imkan verir.

Cahillik – şər, kasıblıq və zəiflikdir. Ona görə mühazirələr, məşğələlər, təlimlər və ustad dərsləri formasında kulturoloji maarifləndirmə təkcə mütəxəssisləri deyil, cəmiyyətin bütün kateqoriyalarını əhatə etməlidir. Bu, yalnız universal kulturoloji biliklər almağa və düzgün məntiqi təfəkkürün formalaşmasına deyil, həm də həyati vacib vərdişlər qazanmağa, əhalinin ümumi mədəniyyət səviyyəsinin yüksəldilməsinə, insanların neqativ düşüncə və davranışının – pozitivə çevrilməsinə kömək edəcək.

Yeni strategiya çərçivəsində, davamlı inkişaf tələbatları və sivilizasiyanın çağırışları işığında Azərbaycan Respublikasının dövlət idarəçiliyinin ən mühüm vəzifəsi intellektual mədəniyyətin qabaqlayıcı inkişafının təmin edilməsi, ölkənin intellektual potensialının formalaşdırılması, həvəsləndirilməsi və ondan istifadə proseslərinin təkmilləşdirilməsidir. Belə strategiya dövlətin beynəlxalq rəqabətqabiliyyətliliyinin yüksəldilməsi ilə yanaşı, intellektual potensiala tələbatın artmasına və ölkədən "beyin axınına" səbəb olan sosial şəraitin aradan qaldırılmasına kömək edəcək.

Azərbaycan Respublikasının milli maraqlarını, Böyük Britaniya, Yaponiya və dünyanın digər ölkələrinin tarixi təcrübəsini nəzərə alaraq, yeni tarixi şəraitdə Azərbaycan elminin inkişafının və onun nəticələrinin praktikada istifadəsinin strateji planlaşdırılmasını təkmilləşdirmək lazımdır. Elmi əməyin həvəsləndirilməsi və istedadlı gənclərin elmə cəlb edilməsi məqsədi ilə alimlərin maddi təminat səviyyəsini inkişaf etmiş ölkələrin standartlarına yaxınlaşdırmaqla yüksəltmək, alimlərin, pedaqoqların və maarifçilərin həyat fəaliyyəti üçün sosial şəraiti yaxşılaşdırmaq məqsədəuyğun görünür. Bu, Azərbaycan elminin tələb edilənliyini və varisliyini təmin etməyə, onun sosial-mədəni, o cümlədən iqtisadi tərəqqi üçün nəticə baxımdan səmərəliliyini və praktiki dəyərini yüksəltməyə, habelə beynəlxalq səviyyədə rəqabətqabiliyyətliliyini artırmağa yardım edəcək.

Bu məsələnin həlli alimlərin, pedaqoqların, maarifçilərin, habelə mühəndislərin, ixtiraçıların, nanotexnologiyalar sahəsindəki proqramçıların və bütövlükdə intellektual əmək işçilərinin sosial statusunun və əməyinin nüfuzunun qanunvericilik qaydasında yüksəldilməsini tələb edir. İntellektual mülkiyyət sahibləri mədəni elitanın lokomotividir, ictimai tərəqqi və xalqın rifahı, əsasən, onların yaradıcı fəaliyyəti ilə təmin edilir. Ona görə də onlar dövlətin xüsusi qayğısı ilə əhatə olunmalı, qanunvericilik qaydasında cəmiyyətdə yüksək sosial statusa və müvafiq üstünlüklərə, yaradıcı həyat fəaliyyəti, müalicə və istirahət üçün ən əlverişli maddi-texniki və sosial şərtlərə malik olmalıdırlar. Bu yenilik mühəndislərin, ixtiraçıların və digər intellektual əmək işçilərinin əməyinin nüfuzunu da artıracaqdır. İqtisadi və sosial inkişafın "əsas kapitalı" olan ölkənin intellektual potensialının yaradıcı fəaliyyətinin həvəsləndirilməsi Azərbaycan dövlətinin gücünün və həyat qabiliyyətinin davamlı artması ilə öz bəhrəsini dəfələrlə verəcəkdir.

Beləliklə, Azərbaycan Respublikasının daxili və xarici siyasətinin və beynəlxalq münasibətlər mədəniyyətinin elmi əsaslılığının və təkmilləşdirilməsinin təmin edilməsi dünyanın inkişaf təcrübəsinin, milli inkişaf tələbatlarının və zamanın çağırışlarının, baş verən dəyişikliklərin mahiyyət və xüsusiyyətlərinin, mədəniyyətlərin və maraqların mümkün ziddiyyətlərinin sistemli kulturoloji təhlilinin davamlı olaraq həyata keçirilməsini tələb edir. Bunu nəzərə alaraq, kulturologiya elminin və kulturoloji təhsilin böyük dəyişdirici imkanlarından Azərbaycan cəmiyyəti və dövlətinin mütərəqqi inkişafı üçün səmərəli istifadə edilməsi məqsədəuyğun görünür.

Dünya təcrübəsi dövlətlərin sosial-iqtisadi tərəqqisinə nail olmaqda daimi kulturoloji islahatların: intellektual, etik, siyasi, hüquqi, idarəçilik, istehsal və di-

gərlərinin mühüm rolunu göstərir. Azərbaycanda vətən və dünyanın inkişaf təcrübəsinin qabaqcadan tənqidi təhlil edilməsi əsasında bu cür islahatlar milli qanunvericiliyin, elm, təhsil və maarifləndirmə sisteminin, istehsalın, maliyyələşdirmənin, tibbi, ekoloji və informasiya təminatının və s. təkmilləşməsinə kömək edəcək. Kulturoloji islahatların elmi əsası qismində istifadə edilə bilər: innovativ kulturoloji metodologiya, milli inkişaf problemlərinin sistemli kulturoloji təhlili və mədəniyyət haqqında dünya elminin nailiyyətlərindən yaradıcılıqla istifadə.

Kulturoloji islahatlar yeni tarixi şəraitdə Azərbaycan cəmiyyətinin milli inkişafında mütərəqqi rol oynaya bilər. Onların həyata keçirilməsi mütəxəssislərin universal kulturoloji biliklərinin inkişaf etdirilməsini və əhalinin ümumi mədəniyyət səviyyəsinin yüksəldilməsini tələb edir.

***Kulturologiyanın dövlət quruculuğu üçün strateji dəyəri haqqında***

Qeyd edilən vəzifələrin uğurla həll edilməsi üçün əsas alət daimi dəyişikliklər və qloballaşmanın çağırışları şəraitində Azərbaycan cəmiyyətinin və dövlətinin davamlı inkişafı üçün "yeni imkanlar pəncərəsi" açan mədəniyyət haqqında elm – kulturologiyadır.

Kulturoloji tədqiqatların obyekti həyatın mənası və insanın tərəqqisinin qanunauyğunluqları, yaradıcı fəaliyyət, mədəniyyətin dəyərləri və nemətləri, insanın və onu əhatə edən aləmin dərk edilməsi və dəyişdirilməsi texnologiyaları, biliklərin istehsalı, saxlanılması, istifadəsi və ötürülməsi istiqamətində tarixi proseslər, dövlət idarəçiliyi və istehsal, şəxsiyyətin özünütəhsil və özünüidarə mədəniyyəti, ailə, insan münasibətləri mədəniyyəti və "ikinci, süni təbiət" kimi həyat fəaliyyətinin digər sahələridir. Bütöv sosial sistem olan mədəniyyətin strukturu, qarşılıqlı əlaqələri və başlıca hərəkətverici qüvvələri, qəbul edilən qərarların və əməyin nəticələrinin qiymətləndirilməsi prinsiplərinin və meyarlarının təkmilləşdirilməsi, insanlararası və beynəlxalq münasibətlərdə ahəngə, mədəni identikliyə, həmrəyliyə və əməkdaşlığa nail olma yollarının axtarışı da sistemli kulturoloji tədqiqatların diqqət mərkəzindədir. Mədəniyyət haqqında elm yalnız insanın və cəmiyyətin inkişafı və təkmilləşməsi üçün deyil, həm də mədəniyyətlərin və sivilizasiyaların dialoqu, qarşılıqlı anlaşmaya, mədəni identikliyə, həmrəyliyə, ahəngə və əməkdaşlığın inkişafına nail olmaq üçün əvəzedilməz intellektual və etik resursdur.

Hələ XVI əsrdə dərin kulturoloji təfəkkürü ilə seçilən İbn Xəldun tarix və iqtisadiyyatla yanaşı, insan inkişafı və sosiologiya məsələlərinə çox diqqət ayırır, sonuncunu Maks Veber kimi "mədəniyyət haqqında elm" hesab edirdi. O, öz əsərlərində ölkələrin və xalqların yüksəliş və tənəzzül səbəblərini təhlil etmiş, dövlətin həyat qabiliyyətinin qiymətləndirilməsi metodlarını, sivil cəmiyyətin qurulmasının iqtisadi prinsiplərini formulə etmiş, millətlərin yüksəliş və tənəzzülünün bioloji nəzəriyyəsini təklif etmişdir. "Böyük tarix" adlı tarixi əsərində o, tarixin mənası, elmlərin təsnifatı, iqlimin insanın mədəniyyətinə təsiri ilə bağlı məsələləri əhatə etməklə, cəmiyyətin həyat fəaliyyətinin sistemli təhlilini vermişdir.

Zehni və iqtisadi inkişaf, həqiqətin dərk edilməsi üsulları, ailə, cəmiyyət və dövlət həyatının formalarının təkamülü, dövlətin rifahı üçün əməyin əhəmiyyəti və bir çox başqa məsələlər də onun tədqiqatlarının predmeti idi. Bir çox digər müəlliflər kimi, o da cəmiyyətin həyat qabiliyyəti üçün sosial ədalətin təmin edilməsinin zəruriliyini vurğulayır, hesab edirdi ki, ədalət yoxdursa, "insan nəsli məhv olur".

Elmin ən böyük təşkilatçılarından biri, Nobel mükafatı laureatı Vilhelm Ostvald (1853-1932) hələ 1909-cu ildə deyirdi ki, sivilizasiyada baş verən proseslərin öyrənilməsi üçün mütləq mədəniyyət haqqında elm yaradılmalıdır. O, materiya və ruhu enerjinin təzahür formaları hesab edərək, mədəniyyəti cəmiyyətin inkişafı məqsədilə insanın təbii enerjisinin dəyişdirilməsi forması kimi nəzərdən keçirirdi. "Mədəniyyətin energetik bazasını" təhlil edərək və sosial hadisələr sferasına energetik yanaşmanı şamil edərək, Ostvald enerjini əbəs yerə sərf etməyib, ondan istifadə etməyi məsləhət verən "energetik imperativi" formulə etdi.

Mədəniyyət haqqında elm kimi kulturologiyanın banisi haqlı olaraq, Amerika antropoloqu Lesli Alvin Uayt (1900-1975) hesab olunur. Onun tərəfindən mədəniyyətin energetik konsepsiyası və insan mədəniyyətinin əsas tarixi inkişaf qanunauyğunluqlarını izləməyə imkan verən mədəni fenomenlər və sistemlər qanunu yaradılmış, bəşəriyyətin mədəniyyətini bütöv sistem kimi tədqiq etməyə imkan yaradan sistemli yanaşma təklif edilmişdir. Mədəniyyəti təsvir edərkən materiya və enerji anlayışlarını nəzərə alan Uayt göstərdi ki, mədəniyyətin həyat tələbatlarının təmin edilməsi ilə bağlı əsas funksiyası enerjinin zəruri miqdarının texnoloji baxımdan çıxarılması, ondan insanın maraqları naminə istifadə edilməsidir. Bu amillərin təhlili əsasında onun tərəfindən mədəniyyətin rolunu rifahın artırılmasının texnoloji amili kimi açıqlayan mədəniyyətin təkamül qanunu və ya "Uayt qanunu" hazırlanmışdır. Uaytın tədqiqatlarının fundamental nəticələrindən biri insanın davranışının onun mədəniyyətinin dəyişməsi ilə dəyişilməsi barədə çıxardığı yekun idi (B = f (C)). Müəllif inanırdı ki, mədəniyyət fenomeninin kəşfi nə vaxtsa elm tarixində Kopernikin heliosentrik nəzəriyyəsi və ya bütün həyat formalarının hüceyrə əsasının kəşfi kimi yüksək qiymət alacaq.

Həyat Uaytın kəşflərinin düzgünlüyünü və onun yaratdığı elmin – mürəkkəb elmi və praktiki problemlərin, ənənəvi humanitar və ictimai elmlərin imkanları çərçivəsindən kənara çıxan, keyfiyyətcə yeni səviyyədə məntiqi həllinə qadir olan kulturologiyanın yüksək dəyərini təsdiq etdi. Uaytın 1949-cu ildə işıq üzü görmüş "Mədəniyyət haqqında elm" kitabı mədəniyyət və onun qeyri-məhdud dəyişdirici imkanları haqqında təsəvvürlərin inkişafında keyfiyyətcə yeni, inqilabi səviyyəni ifadə edirdi. O, ictimai elmlərin inkişafına, humanitar biliyin yeni ənənəsinin təşək-külünə ciddi töhfə idi.

"Mədəniyyət və insan" humanist konsepsiyasının müəllifi Abraham Maslou (1908-1970) mədəniyyəti insanın tələbatları prizmasından təhlil edir. Maslou tərəfindən işlənib hazırlanmış "ideal cəmiyyət" modeli insan ahəngi, təhlükəsizlik, insanın qabiliyyətlərinin maksimal inkişafı imkanı və mədəniyyətin sosial insti-

tutlarının humanist dəyişdirilməsi və insanların şüurunun dəyişilməsi vasitəsilə özünüreallaşdırma prinsipləri üzərində qurulub. O, Lesli Uaytın əsas ideyalarını inkişaf etdirərək və tamamlayaraq, mədəniyyətin təkmilləşməsinin ölçüsü qismində onun insanın tələbatlarını təmin etməsi və şəxsiyyətin potensial bacarıqlarının sosial reallaşdırılması üçün əlverişli şərait yaratmaq qabiliyyətini müəyyən etdi. Alim holizm fəlsəfəsini rəhbər tutaraq, insanın tələbatlarının beş səviyyəsini nəzərdən keçirir: fizioloji tələbatlar; özünüqoruma, təhlükəsizlik və sülh tələbatları; sevgi və aidiyyət tələbatları; özünütəsdiq və qəbul edilmə tələbatları; özünü aktuallaşdırmaq və yaradıcılıq vasitəsilə özünü təkmilləşdirmək tələbatları.

Bu və ya digər mədəniyyətin inkişaf məntiqini və xüsusiyyətlərini düzgün başa düşmək üçün onu təbii-coğrafi şərait, mədəniyyətin genetik kodu, sosial mühit, tarixi vəziyyət və mədəni mübadilə kimi obyektiv-tarixi amillər prizmasından nəzərdən keçirmək lazımdır. Bu zaman aydın olur ki, cəmiyyətin və dövlətin inkişafında başlıca rol hər bir ölkənin təhsilli və müdrik mədəni elitalarına, ilk növbədə, siyasi liderlərə, idarəçilərə, alimlərə, pedaqoqlara, mütəfəkkirlərə, maarifçilərə və incəsənət xadimlərinə məxsusdur. Görkəmli ingilis kulturoloqu, məşhur "Tarixin dərk edilməsi" əsərinin müəllifi Arnold Toynbi (1889-1975) sivilizasiyaların tarixini təhlil edərək belə bir dahiyanə nəticəyə gəlmişdir ki, bütün sivilizasiyaların çiçəklənməsi təbii və sosial (insan mühiti, ziddiyyətlər, təcavüzlər) amillərin daim doğurduğu zamanın çağırışlarına cəmiyyətin şüurlu reaksiyası ilə bağlı olmuşdur. Bu məsələ digər xalqlarla ahəngdar qarşılıqlı əlaqə də daxil olmaqla, zamanda və məkanda sivilizasiyaların davamlılığını strateji baxımdan təmin etməli olan, "elitanın liderlərindən ibarət müdrik yaradıcı azlıqların rəhbərliyi altında" həll edilir.

Bütöv mədəniyyət sisteminin ən mühüm hissələrindən biri olan iqtisadiyyatın inkişafı nümunəsində də bu nəticənin düzgünlüyünü görmək çətin deyil. İnsan üçün zəruri olan maddi mədəniyyət predmetlərinin istehsalına yönləşdirilmiş iqtisadi fəaliyyət intellektual əməyin nəticələrinin maddiləşdirilməsidir. Onun inkişafı elm və təhsilin nailiyyətlərindən istifadə, idarəetmə və mühəndislik fəaliyyətinin, ixtiraçılığın nəticələri və s. ilə ayrılmaz dərəcədə bağlıdır. Amerikalı alim Piter Druker (1909-2005) qeyd edirdi ki, iqtisadi inkişafın səmərəliliyi və yoxsulluğun aradan qaldırılması ən çox maddi nemətlərin istehsalçılarının başlıca resursu olan intellektual resursdan səmərəli istifadəni nəzərdə tutan təşkilat və idarəetmə mədəniyyəti ilə müəyyən edilir. Zehni əmək işçiləri əsas kapital olaraq qəbul edilməlidirlər, çünki təşkilatın yaradıcı imkanları onun əməkdaşlarının biliklərinin artmasına mütənasib olaraq çoxalır, istehsal müəssisələrində zehni əməyin məhsuldarlığı isə mütərəqqi inkişafın əsası olur.

İqtisadiyyatı sosial mədəniyyətin bir hissəsi kimi nəzərdən keçirən Druker iqtisadiyyatın müxtəlif sahələrində texniki personalın bilik, məsuliyyət və məhsuldarlıq səviyyəsini durmadan zehni əmək işçilərinin səviyyəsinə çatdırmağın zəruriliyinə diqqət yetirirdi. Eyni zamanda o hesab edirdi ki, iqtisadi inkişaf strategiyası innovativ fəaliyyətin prioritet inkişaf zərurəti nəzərə alınmaqla qurulmalıdır.

Onu elmin ən yeni nailiyyətləri, real, o cümlədən siyasətin stabilliyinə təsir göstərən demoqrafik dəyişikliklər, habelə iqtisadi təcrübə əsasında daim təkmilləşdirmək lazımdır. O vurğulayırdı ki, daimi dəyişikliklər şəraitində siyasətdə və iqtisadiyyatda yalnız dəyişikliklərin tendensiyalarını vaxtında qiymətləndirən və yaranan imkanları aşkara çıxarıb, milli inkişaf məqsədləri ilə yaradıcı istifadə edərək, mütərəqqi islahatlar həyata keçirən liderlər qalacaq.

Müasir iqtisadiyyatın xüsusiyyətlərindən biri yalnız biliklərin səviyyəsinin daimi artımı deyil, həm də liderin nəzəri bilikləri praktikada səmərəli tətbiq etmə bacarığı, mütəşəkkilliyi, iradəsi və məsuliyyəti, ziddiyyətlər şəraitində effektiv qərarlar qəbul etmək qabiliyyətidir. Təşkilatın xüsusiyyətlərini, onun qarşısında duran məqsədləri və konkret situasiyaları səciyyələndirən daimi və dəyişən kəmiyyətlərin tamamilə müxtəlif kombinasiyalarında optimal qərarlar qəbul etməyə imkan yaradan sistemli kulturoloji yanaşma bu vəzifələrin yerinə yetirilməsi üçün əvəzedilməz əhəmiyyətə malikdir.

Dünya kulturologiya elminin, təhsilinin və maarifçiliyinin inkişafına "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının müəyyən töhfələri olmuşdur. "Simurq" AMA Azərbaycan cəmiyyətinin və dövlətinin modernləşməsinə və sosial tərəqqisinə, mədəniyyətlərin və sivilizasiyaların dialoquna xidmət edən, Azərbaycan elmində yeni istiqamət olan kulturologiyanın Azərbaycanda banisidir. Assosiasiyanın tədqiqatları nəticəsində ilk dəfə Lütfi Zadənin "qeyri-səlis məntiq nəzəriyyəsi"ndən istifadə edilməklə innovativ metodologiya və "kulturoloji piramida" universal metodu işlənib hazırlanmışdır. Onun tərəfindən ruhi mədəniyyətin inkişafı, cəmiyyətin və dövlətin davamlı və təhlükəsiz inkişafının məqsədi və strateji bərpa olunan resursu kimi yüksək mədəniyyətli insanların formalaşdırılması və inkişaf etdirilməsi problemlərinə həsr edilmiş bir sıra fundamental monoqrafiyalar və kulturoloji konsepsiyalar dərc edilmişdir. "Simurq" AMA-nın mədəniyyət haqqında elmin inkişafına verdiyi töhfə altı beynəlxalq akademiya tərəfindən qiymətləndirilib.

Müxtəlif ölkələrin dövlət quruculuğunda və idarəçiliyində dünya kulturologiya elminin innovativ metodologiyalarından və nailiyyətlərindən istifadə yüksək mədəniyyətli insanların yetişdirilməsi, xalqların davamlı və təhlükəsiz inkişafı, müasir dünyada mədəniyyətlərin və sivilizasiyaların dialoqunun səmərəliliyinin yüksəldilməsi üçün böyük imkanlar açır.

### *Nəticə*

İndi isə bir neçə yüz il geriyə qayıdaraq, Nizami Gəncəvinin müdrik nəsihətlərini xatırlayaq. Dərin kulturoloji təfəkkürə sahib, öz həyatını Azərbaycan xalqının ruhi mədəniyyətinin inkişafına xidmətə həsr etmiş böyük mütəfəkkir, şair və humanist Nizami Gəncəvi (1141-1209) qeyd edirdi ki, xalqın və dövlətin davamlı inkişafının başlıca şərti cəmiyyətdə elmin və ədalətin aliliyidir. O, dünya ruhi mədəniyyətinin tarixi təcrübəsinə və nailiyyətlərinə əsaslanaraq, cəmiyyətin ahəngdar mədəni inkişafının nəticəsi kimi rifaha yönələn, Azərbaycan xalqının xoşbəxt həyatına

imkan yaradan müdrik və xeyirxah idarəçiliyin carçısı rolunda çıxış edirdi.

Bu gün Heydər Əliyevin, Nizami Gəncəvinin və bəşəriyyətin bir çox digər böyük mütəfəkkirlərinin intellektual-kulturoloji irsindən yaradıcı şəkildə necə istifadə edək? İntellektual və mənəvi mədəniyyətin qabaqlayıcı inkişafı yolu ilə. Bunun əsası yüksək ruhi mədəniyyətin ən mühüm inkişaf mənbələri kimi incəsənət, ədəbiyyat və milli əxlaq normalarının ənənəvi inkişafı ilə yanaşı, ruhi mədəniyyətin elm, təhsil və maarif kimi flaqmanlarının qabaqlayıcı, innovativ inkişafıdır. Yeni çağırışlar şəraitində Azərbaycan xalqının kulturogenezinin inkişafında və dövlətin mütərəqqi inkişafında bu fəaliyyət sahələrinin strateji əhəmiyyəti ölçüyəgəlməzdir.

Belə yanaşma 2024-cü ildən, Azərbaycanda "Yeni eranın" başlandığı vaxtdan Azərbaycan xalqının və dövlətinin tərəqqi və davamlı inkişaf baxımından yeni səviyyəyə çatmasına yönəlmiş strateji sosial-mədəni inkişaf kursuna və məqsədlərinə heç vaxt olmadığı qədər cavab verir. Bu dövrün ən mühüm prioriteti həyat qabiliyyətli cəmiyyət və güclü dövlətin davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafının məqsədi, strateji bərpa olunan resursu və başlıca hərəkətverici qüvvəsi kimi yüksək mədəniyyətli insanların formalaşdırılması və inkişaf etdirilməsidir. Həyatın yeni imkanlarının bu intellektual, texnoloji və əmək mənbəyinə məntiqli alternativ yoxdur və ola bilməz.

Bu kursun reallaşdırılması dünyanın aparıcı ölkələrinin tarixi inkişf təcrübəsini nəzərə almaqla insanın həyat fəaliyyətinin qanunvericilik səviyyəsində dəstəklənən bütün sahələrində mütərəqqi kulturoloji islahatların keçirilməsini nəzərdə tutur, çünki gələcək maariflənmiş xalqın, cəmiyyətin və dövlətin əllərindədir.

Bizə elə gəlir ki, dövlətin yeni sosial-mədəni strategiyasının prioritet vəzifələri sırasında aşağıdakıları nəzərə almaq məqsədəuyğun olardı:

1. Azərbaycan Respublikasının davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafının məqsədi, strateji bərpa olunan resursu və başlıca hərəkətverici qüvvəsi kimi yüksək mədəniyyətli azərbaycanlıların formalaşdırılması və inkişaf etdirilməsi ilə bağlı milli vəzifə.

2. İctimai şüurda mədəniyyət haqqında bütöv sosial sistem və insanın ağlı, qəlbi və əməyi ilə yaradılmış "ikinci, süni təbiət" kimi düzgün təsəvvürün təsdiqini tapması. Birtərəfli inkişafdan qurtulmağa kömək edən universal kulturoloji biliklərin cəmiyyətdə yayılması.

3. Azərbaycanda kulturologiyanın elm və tədris fənni kimi institusionallaşdırılması. Ölkədə uşaq bağçalarından başlayaraq, cəmiyyətin bütün sosial kateqoriyaları və peşələri üçün icbari kulturoloji təhsilin və maarifləndirmənin qanunvericilik qaydasında tətbiqi.

4. Tərbiyəçilərin, müəllimlərin, ailə başçılarının, jurnalistlərin, siyasətçilərin, dövlət qulluqçularının, alimlərin, incəsənət və din xadimlərinin, hüquqşünasların, həkimlərin, iqtisadiyyatçıların, gənclər, qadın və uşaq təşkilatlarının, iş adamlarının, istehsalat və kənd təsərrüfatı işçilərinin cəmiyyətin kulturoloji maarifləndirilməsi prosesinə cəlb edilməsi.

5. Dövlət idarəetmə mədəniyyətinə sistemli kulturoloji yanaşmanın və qəbul edilən qərarların və əməyin nəticələrinin kulturoloji ekspertizasının tətbiqi.

6.Azərbaycan xalqının intellektual mülkiyyət səviyyəsinin yüksəldilməsinə kömək edən və Azərbaycan Respublikasının rəqabətqabiliyyətlilik səviyyəsinin artmasını təmin edən kulturoloji islahatların aşağıdakı yollarla həyata keçirilməsi:

- Mənəvi-mədəni dəyərlərin qorunması ilə intellektual mədəniyyətin qabaqlayıcı inkişafı;
- Əmək mədəniyyətinin iş şəraitinə və işin nəticələrinə, maddi-texniki və sosial təminata, mütəxəssislərin səriştəliliyinə və məsuliyyət mədəniyyətinə görə beynəlxalq normalara uyğunluğunun təmin edilməsi;
- Sistemli kulturoloji yanaşmadan geniş istifadə əsasında dövlət idarəetmə mədəniyyətinin daha da təkmilləşdirilməsi.
- Ailədə və cəmiyyətdə meritokratik tərbiyə və idarəetmənin tətbiqi. Belə ki, onun prinsip və meyarları sosial ədaləti və ictimai münasibətlərin harmoniyasını, yüksək əmək məhsuldarlığını və vətəndaşların vətənpərvərliyini təmin edir.

Mədəniyyətlərin dialoqunun və sivilizasiyaların əməkdaşlığının genişləndirilməsi, beynəlxalq mədəni identikliyin və həmrəyliyin yaradılması.

İnsan həyatının tələbatları, elm və texnologiyaların sürətlə inkişafı, məqsədləri doğru seçmək, düzgün qərarlar qəbul etmək zərurəti Azərbaycan cəmiyyətində universal kulturoloji elmi biliklərin daimi istehsalını və yayılmasını tələb edir ki, onların mənimsənilməsi müdrikliyə aparır, ölkə vətəndaşlarının həyat qabiliyyətinin artmasına və təkmilləşməsinə, onların zamanın çağırışlarına cavab vermək bacarığının formalaşdırılmasına kömək edir.

Daimi dəyişikliklər və zamanın çağırışları şəraitində ahəngdar şəkildə inkişaf edən intellektual və mənəvi mədəniyyətin inkişafına xidmət – müasir texnogen sivilizasiyanın məhv olmaqdan xilas yoludur.

## Ekoloji mədəniyyət və ahəngdar insan inkişafı imkanları

*(“Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı, №2, 2024, s. 157-170)*

***“Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları arasında seçilir. Onlardan ən dəyərlisi, ən əhəmiyyətlisi – mədəniyyətdir”.***

**Heydər Əliyev**

*«Əgər dünya mədəniyyəti müdafiə etsə, mədəniyyət dünyanı xilas edər!”*

### Bakıda keçiriləcək “COP29” beynəlxalq konfransı

2024-cü ilin noyabrında Azərbaycanda “BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına üzv dövlətlərin konfransı”nın 29-cu sessiyası – “COP29” keçiriləcək. 2024-cü ilin noyabrında Bakıda baş tutacaq “COP29” beynəlxalq konfransı qlobal miqyaslı mühüm tarixi hadisə olacaq və onun nəticələrindən nəinki Azərbaycan xalqının, həm də bütün bəşəriyyətin təhlükəsizliyi və taleyi böyük ölçüdə asılı olacaqdır.

COP 29-nu növbəti sessiyasının yerinin seçilməsi zamanı yekdilliklə Azərbaycana səs verilməsi ölkəmizə olan yüksək etimadın göstəricisidir. O, bütün dünyada dövlətimizin beynəlxalq nüfuzunun artmasına güclü təkan verməli, mədəniyyətin inkişafının ən vacib amillərindən biri kimi beynəlxalq mədəni mübadilə üçün əlverişli şərait yaratmalıdır. Bununla yanaşı “COP29” Qərb və Şərq ölkələrinin müxtəlif mədəniyyətlərinin, xalqlarının və dinlərinin nümayəndələri arasında Azərbaycan Respublikasının mədəni dəyərlərinin, nailiyyətlərinin və tarixi reallıqlarının yayılması üçün yeni kulturoloji imkanlar açacaqdır. “COP29” konfransının Bakıda keçirilməsi Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və dövlətin “yaşıl” iqtisadiyyata keçid strategiyasının məntiqi davamıdır. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə ölkədə bərpa olunan enerji istehsalı siyasətinin əsası qoyulmuş, 2024-cü il isə Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilmişdir.

“Yaşıl enerjinin” prioritet inkişafı, “yaşıl” enerji növlərinin yaradılması və Azərbaycanın “yaşıl” enerjisiinin dünya bazarlarına nəqli üzrə Azərbaycan Respublikasının innovativ kursu Azərbaycanda istixana qazlarının emissiyasının 1990-cı illə müqayisədə 2030-cu ilə qədər 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını nəzərdə tutur. Yeni strategiya təmiz ətraf mühitin yaradılmasını və “yaşıl” artımın təmin edilməsini hədəfləyir. Qeyd etmək kifayətdir ki, Azərbaycanda həm quruda, həm də dənizdə 25 GVt bərpaolunan günəş və külək enerjisi istehsal ediləcəkdir. Eyni zamanda 2022-2026-cı illərdə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl” enerji zonalarının yaradılmasına

xüsusi diqqət ayrılacaqdır. 2050-ci ilə qədər bu əraziləri "sıfır tullantılı zona"ya çevirmək planlaşdırılır.

Bakıda keçiriləcək "COP29" beynəlxalq konfransı bütün dünyada ekoloji mədəniyyətin mahiyyətinin dərk edilməsinə və inkişafına böyük maraq doğurdu. Bu onunla əlaqəlidir ki, iqlim dəyişmələri problemlərinin təhlili bəşəriyyətin ekoloji mədəniyyətinin vəziyyəti və inkişaf perspektivləri ilə sıx bağlıdır.

## Ekologiya anlayışı və onun təşəkkülü tarixi

Ekologiya – canlı orqanizmlər arasında və onlarla yaşadıqları mühit arasında qarşılıqlı əlaqələr də daxil olmaqla, təbiətin daxili qarşılıqlı əlaqələri haqqında elmdir. Bu söz yunan dilindən tərcümədə "evin öyrənilməsi" mənasını verir. Ekologiya çox geniş anlayışdır. O, həmçinin qarşılıqlı əlaqələrin qərarların qəbul edilməsi prosesində ayrı-ayrı insanların və insan qruplarının davranışını təsvir edən etik və deskriptiv prinsiplərini də ehtiva edir.

Müasir ekologiyanı çox zaman ayrıca orqanizmə və ya orqanizmlər birliyinə təsir göstərən fiziki, kimyəvi və bioloji amillər də daxil olmaqla, nəinki təkcə orqanizmlər arasında, həm də insan, cəmiyyət və onu əhatə edən mühit ilə funksional qarşılıqlı əlaqələri öyrənən elmlər kompleksi kimi nəzərdən keçirirlər. Həyatı mümkün edən maddələr və enerji mübadiləsinin təhlili də bu elmlər kompleksinə daxildir.

Ekologiya anlayışına çox vaxt geoekologiya, bioekologiya, landşaft ekologiyası ilə yanaşı, etnoekologiya, sosial ekologiya, insan ekologiyası, informasiya ekologiyası və s. də daxil olur. Ekologiyada tədqiqat metodları sahə müşahidələrinə, sahə və ya laboratoriya eksperimentlərinə və modelləşdirməyə bölünür. Həmin metodların bir qədər məhdudluğu, habelə ekoloji tədqiqatlarda nəzərə alınmalı olan çoxsaylı dəyişənlərin sayla ifadə edilməsi çox vaxt çətin olur ki, bu da digər elmlərlə müqayisədə alınan nəticələrin dəqiqliyinin az olmasını izah edir.

Ekologiya bir elm kimi tarixdə ilk dəfə e.ə. VI əsrdə orqanizmlərin öz aralarında və onları əhatə edən cansız təbiətlə əlaqələrini təsvir edən Teofrast və başqa yunan təbiətşünas alimlərin tədqiqatlarında meydana çıxıb. IX əsrdə orta əsr ərəb mütəfəkkiri Əl-Cahiz tərəfindən "ekoloji piramida konsepsiyası" hazırlanıb. Bu 1881-ci ildə alman zooloqu Karl Zemperin "Təbii şəraitin heyvanların həyatının mövcudluğuna təsiri" əsərində öz əksini tapdı, təbiətdə enerjinin yenidən bölüşdürülməsi məsələləri ilk dəfə burada nəzərdən keçirilirdi. Lakin "ekologiya" termini elmi dövriyyəyə ilk dəfə 1866-cı ildə alman bioloqu Ernst Hekkel tərəfindən daxil edilib. İlk dəfə məhz o, ekologiyanı canlı və cansız təbiətin qarşılıqlı əlaqələrini öyrənən elm kimi təsvir etmişdir. Dünya tarixinə təkamül yanaşmasının tərəfdarı olan Hekkel 1874-cü ildə insanın təkamül problemlərinin müzakirə olunduğu, tarixdə ilk hərtərəfli tədqiqat işini – "Antropogeniya" monoqrafiyasını dərc etdirmişdir.

1849-cu ildə Britaniya bioloqu Sent-Corc Cekson Mivart "heksikologiya" anlayışını daxil etdi, ona orqanizmlərin və ətraf mühitin qarşılıqlı əlaqələri haqqın-

da elm kimi tərif verdi. 1895-ci ildə Amerika zooloqu Stiv Forbs ekologiyanı heyvanların və bitkilərin digər canlı varlıqlara və onları əhatə edən hər şeyə münasibətləri haqqında elm kimi təyin etdi. Həmin ildə Danimarka professoru, botanik Yohannes Varminq tərəfindən bitkilərin ekologiyasına dair tarixdə ilk fundamental dərslik dərc olundu, fransız zooloqu Joffrua de Sent-İler isə ekologiyaya yaxın "etologiya" anlayışını daxil etdi, onu ailədə və cəmiyyətdə orqanizmlərin qarşılıqlı əlaqələri haqqında elm kimi təqdim etdi.

Rusiyada XIX əsrdə Karl Rulye və rus zooloqu Nikolay Severtsev orqanizmlərlə mühitin əlaqəsini öyrənməyə başladılar. Rus coğrafiyaçısı, vəhşi heyvanların ovlanmasını qadağan etməyi və meşələrin qırılmasını dayandırmağı tələb edən knyaz Pyotr Kropotkin buzlaqların Sənaye inqilabı başlayan dövrdən etibarən ilk dəfə geri çəkilməyə başladığına diqqət yetirdi. Bir sıra Rusiya alimləri – bitki fizioloqu Kliment Timiryazev, zooloq Modest Boqdanov ekologiya termini əvəzinə biologiya, bionomiya, biogeosenologiya və s. terminlərdən istifadə etmişlər. Ekoloji tədqiqatlar epidemiologiyanın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. 1901-ci ildə İsveçrə professoru Fransua-Alfons Forel tərəfindən gölşünaslıq (limnologiya) üzrə ilk dərslik nəşr olundu. Lakin ekoloji tədqiqatlara sistemli yanaşma prinsiplərinin ifadə edildiyi ilk əsər – Amerika botaniki, bitki ekoloqu və mikoloqu Frederik Klementsin 1905-ci ildə çapdan çıxmış "Ekologiyada tədqiqat metodları" kitabıdır.

Ekologiya bir elm kimi XX əsrin ikinci onilliyində – 1913-cü ildə Britaniya Ekologiya Cəmiyyətinin, 1915-ci ildə isə Amerika Ekologiya Cəmiyyətinin yaradılması ilə institutlaşmağa başladı. 1913-cü ildə Britaniya riyaziyyatçısı və astronomu Con Kauç Adams ilk dəfə ekologiya-nın elm kimi bitki və heyvan örtüyü ilə eyni zamanda məşğul olmasının zəruriliyi fikrini irəli sürdü. Ekologiyanı daha geniş kontekstdə nəzərdən keçirən V.İ. Vernadskiy 1926-cı ildə biosfer anlayışına bütün ekosistemlərin vəhdəti kimi tərif vermiş, insanın bu sistemə təsirini vurğulamışdı.

XX əsrin ikinci yarısı ekologiyanın inkişafında yeni mərhələ oldu. 1953-cü ildə, Amerika bioloqu və ekoloqu Yucin Odumun holistik, makroskopik yanaşmaya əsaslanan ilk dərc hesab olunan "Ekologiyada fundamental anlayışlar" dərsliyi nəşr edildi. XX əsrin ikinci yarısında insanın və cəmiyyətin ətraf mühitlə qarşılıqlı təsir problemlərini və onun müdafiəsi məsələlərini öyrənən insan ekologiyası və sosial ekologiya meydana çıxdı. Həmin dövrdə alimlərin diqqət mərkəzində olan məsələ – sosiologiya ilə sıx əlaqədə nəzərdən keçirilən bir çox təbiət elmlərinin ekologiyalaşdırılması idi. Ekologiyanın dörd əsas qanununu ifadə etmiş Amerika bioloqu və ekoloqu Barri Komoner ekologiyanın nəzəri problemlərinin tədqiqinə böyük töhfə vermişdir. Onun ifadə etdiyi qanunlara görə: "hər şey hər şeylə əlaqəlidir; heç nə heç yerə yoxa çıxmır; yaxşısını təbiət bilir; heç nə havayı verilmir". Fizikanın məşhur maddə və enerjinin saxlanması qanunu ilə sıx bağlı olan bu ekologiya qanunlarının məqsədi – insanın özünün tərkib hissəsi olduğu təbiətlə ehtiyatla davranmağın zəruriliyinin insanlar tərəfindən dərk edilməsinə kömək etməkdir.

XX əsrin sonunda iqtisadiyyat elmində ekologiyanın dəyər əsasları ilə sıx əlaqədə yeni istiqamət – iqtisadi fəaliyyətin təbiətə mənfi təsirinin azaldılmasına hədəflənmiş "yaşıl iqtisadiyyat" formulə edildi. Onun vəzifəsi cəmiyyətin davamlı inkişafına yardım etmək, habelə gələcək nəsillərin həyat tələbatlarını nəzərə almaqla, insanın məskunlaşdığı mühitə qayğı ilə münasibət göstərmək idi. Zamanın çağırışlarına müvafiq olaraq, bərpaolunan təbii mənbələrdən elektrik enerjisinin və digər enerji növlərinin istehsalına əsaslanan "yaşıl energetika" da onunla sıx əlaqədə inkişaf etməyə başladı.

## Ekologizm və envayromentalizm (çevrəçilik)

Ekologiyanı XX əsrin sonunda həyat keyfiyyətinin və bəşəriyyətin inkişaf perspektivlərinin pisləşməsi qayğısından, təbiəti iqtisadiyyatın dağıdıcı təsirindən müdafiə ilə bağlı meydana çıxan hərəkat – ekologizmlə qarışdırmaq lazım deyil. Ekologizm XX əsrin ikinci yarısında meydana çıxan nüvə silahı, turşulu yağışlar, ozon təbəqəsinin deşilməsi, qlobal istiləşmə və s. kimi bəşəriyyət üçün təhlükəli amillərlə əlaqədar olaraq yarandı. O, təbii ehtiyatlardan qənaətlə istifadə əsasında uzunmüddətli inkişafa yönəldilməklə, təbiətə antroposentrik, insan mərkəzli baxışın alternativi oldu.

Ekologizm bəşəriyyəti təbiətin kiçik bir hissəsi kimi qəbul edir və onu yalnız insanın tələbatlarının ödənilməsi üçün əlçatan ehtiyat kimi nəzərdən keçirməklə, təbiətə son dərəcə istehlakçı münasibəti istisna edir. Eyni zamanda keçən əsrin 90-cı illərində bir sıra Avropa ölkələrində meydana çıxmış "açıq-yaşıl" ekologistlər bəşəriyyəti sağlam düşüncəyə və özünüqoruma hissini oyatmağa çağırır, "tünd-yaşıl" ekologistlər isə iddia edirlər ki, insanın və planetin sağ qalması yalnız Yer kürəsi ekosisteminin maraqları prioritet olduqda mümkündür. Həm birincilər, həm də ikincilər "yaşıl energetika" və "yaşıl iqtisadiyyat" məqsədləri ilə sıx bağlı olub, təbiətin və ətraf mühitin gələcək məhvinin qarşısının alınması məqsədilə əmək və həyat şərtlərinin radikal surətdə dəyişdirilməsini tələb edirlər. Almaniyada "yaşıllar partiyası"nın əsas ideyaları sırasında onu qeyd etmək olar ki, o, "çoxmədəniyyətli cəmiyyət"in, cəmiyyətin məlumatlandırılmasının, sosial demokratiyanın inkişafının, şəxsi həyat haqqında məlumatın mühafizəsinin, dövlətin vətəndaşlar haqqında informasiya toplamasından imtinanın, alternativ müəlliflik hüquqlarının və s. lehinə çıxış edir.

Beləliklə, ekologizm bəşəriyyət ilə təbiət arasındakı əlaqə ideyasını əks etdirir ki, burada insan təbiətin hissəsi kimi nəzərdən keçirilir. O, ətraf aləmin mühafizəsi uğrunda, onun çirklənməsi və planetdə həyatın mövcudluğunu hədələyən çoxlu növlərin yox olması prosesinə qarşı çıxış edən envayromentalizm adlandırılan ekoloji təlim və hərəkatla sıx bağlıdır. Dünya haqqında transendental təsəvvürlərlə şərtləndirilmiş envayromentalizm Frensis Bekon, Qalileo Qaliley, Uilyam Haryev, Tomas Hobbs, Rene Dekart, İsaak Nyuton və s. alimlərin dəstəklədiyi

modernist, antroposentrik təsəvvürə ziddir. Əgər antroposentrizm nöqteyi-nəzərindən, təbiətin dəyəri onun dünyanın zirvəsi hesab olunan insan üçün faydalılığı ilə ölçülürsə, envayromentalizm insanı sadəcə təbiətin hissələrindən biri kimi nəzərdən keçirməyə başladı. Con Lokk hesab edirdi ki, təbiətin özü daxili dəyərə malik deyil, amma insanlar əmək vasitəsilə torpağın gizli xarici (və ya ehtiyat) dəyərini faydalı məhsullara çevirə bilirlər. Karl Marks da antroposentrik mövqenin tərəfdarı idi. O, "1844-cü ilin iqtisadi və fəlsəfi əlyazmaları"nda yazırdı: "... İnsan təbiətin hesabına yaşayır – bu o deməkdir ki, təbiət onun ölməmək üçün daim qarşılıqlı mübadilə aparmalı olduğu bədənidir". Lakin bununla yanaşı, o hesab edirdi ki, insan cəmiyyətin təşkilini təkmilləşdirməli, təbiətin eqoistcəsinə istismarından imtina etməli və ona qayğı ilə yanaşmalıdır.

Antroposentrizm və envayromentalizm dəyərlərinə əsaslanan çox sayda nəzər nöqtələri və fikir ayrılıqları vardır. Henri Devid Toro, Con Myur, Robert Marşall, Uolles Steqner və Amerika envayromentalizminin digər nümayəndələri insana və təbiətə modernist baxışı rədd edərək, hesab edirdilər ki, insanın vəhşi təbiətə mənəvi münasibəti və təbiətin mühafizəsi biznes maraqlarından yüksəkdə durmalıdır. Amerika ekoloqu Aldo Leopold və Amerika bioloqu Reyçel Karson da insanın təbiət üzərində üstünlüyü ideyasını rədd etmişlər. Eyni zamanda iqtisadiyyatçılar Uilyam Bakster və Culian Saymon "təbiətin bir, yalnız insanın üstünlüklərindən irəli gələn dəyəri vardır" deyən modernizm mövqeyində dururdular. Britaniya ekoloqu və futuroloqu Ceyms Lavlok planeti özünüqoruma və bütün canlıların vəhdəti prinsipi əsasında fəaliyyət göstərən superorqanizm kimi nəzərdən keçirir. Modernizm və envayromentalizm mövqelərini uyğunlaşdıran Amerika siyasət-çisi Giford Pinçotuya görə, təbii ehtiyatlar iqtisadi inkişaf və rifah üçün müdrikcəsinə, gələcək nəsilləri düşünməklə istifadə edilməlidir.

Biz ekologiya problemlərinə sosial-siyasi istiqamət verən təzadlı nəzər nöqtələri görürük. Göründüyü kimi, həqiqət cəmiyyətin humanizmi, təbiətə qayğı ilə münasibəti və ondan insan inkişafı üçün rasional istifadəni özündə birləşdirən ekoloji mədəniyyətə əsaslanan ahəngdar inkişafının zəruriliyindən ibarətdir.

## Ekoloji mədəniyyət

*Ümummilli lider Heydər Əliyev vurğlayırdı:*
*"Yüksək mədəniyyətə malik xalq daim irəli gedəcək, yaşayacaq, inkişaf edəcəkdir, ... cəmiyyətdə ziyalıların, mədəniyyət və elm xadimlərinin nüfuzunu daim artırmaq lazımdır, ... xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır"*

Ekologiya mədəniyyəti – insanın ağıllı fəaliyyətini və onun təbiətlə qarşılılı münasibətlərini tənzimləyən dəyərlərin, normaların və texnologiyaların, təfəkkür və davranış mədəniyyətinin vəhdətidir. Mahiyyət etibarilə, o, insanın və təbiətin harmonik birgə mövcudluğuna kömək edən bütöv sosial sistem kimi mədəniyyətin

ayrılmaz tərkib hissəsidir. Ekoloji mədəniyyət yalnız "COP29"-un hədəfləri ilə şərtlənmiş vəzifələrin həllində deyil, həm də insanın və bütövlükdə cəmiyyətin həyat fəaliyyətində böyük rol oynayır. Bununla yanaşı, ekoloji mədəniyyət kulturologiya çərçivəsində ayrıca fənn kimi nəzərdən keçirilir.

Azərbaycan xalqının ekoloji mədəniyyətinin gələcək inkişafının əlverişli amili bizim vətəndaşlarımızın həm mədəniyyətin genetik kodu, həm də insanların ailədə və cəmiyyətdə humanist tərbiyəsi ilə şərtləndirilmiş milli xarakterinin ənənəvi xeyirxahlığıdır. Lakin tərbiyə kifayət deyil. İnsanların həyat fəaliyyəti haqqında universal elmi bilikləri yaymaq, xalqın, ilk növbədə, uşaqların və gənclərin keyfiyyətli təhsilini və maarifləndirilməsini təmin etmək lazımdır. Məsələ ondadır ki, ümumi mədəniyyət səviyyəsi yüksək deyilsə, ekoloji mədəniyyət haqqında danışmaq çətindir. Ona görə də elm, təhsil və maarifləndirmənin köməyi ilə Azərbaycanlıların mənəvi-mədəni dəyərlərinin qorunub-saxlanılması şərtilə, onların intellektual mədəniyyətini inkişaf etdirmək və təkmilləşdirmək lazımdır. Zamanın tələblərinə uyğun olaraq, şəxsiyyətin ruhi mədəniyyətinin hər iki qanadını – əqli və mənəvi mədəniyyəti inkişaf etdirərək, yüksək mədəniyyətli vətəndaşlar yetişdirmək gərəkdir.

Elm və təhsilin, texnika və texnologiyanın, əmək mədəniyyətinin inkişaf səviyyəsi, istehsal və idarəetmənin nəticələri, təbiətə və insana münasibət – hər şey yüksək mədəniyyətli insanların keyfiyyətindən, onların bilikləri, bacarıqları, mütəşəkkilliyi, mənəviyyatı və yaradıcı fəaliyyətindən asılıdır. Bu gün insan kapitalının nüvəsini təşkil edən vətəndaşların yüksək intellektual və mənəvi mədəniyyəti olmadan müasir dünyanın mürəkkəb siyasi, iqtisadi, ekoloji və digər problemlərini həll edə, zamanın çağırışlarına cavab verə, düzgün qərarlar qəbul edib onları icra edə bilərikmi? Zəruri peşəkar biliklərə, vərdişlərə və ümumi mədəniyyətə malik yüksək mədəniyyətli insan milli inkişaf, o cümlədən ekologiya sahəsinin bütün problemlərin uğurlu həllinin başlıca amilidir.

Gəlin düşünək, insan ekoloji sistemdə hansı yeri tutur? Kulturoloji ölçmədə insan canlı təbiətin zirvəsi və ətraf aləmin və özünün dərk edilməsi və ağılla dəyişdirilməsi, Yer kürəsinin ehtiyatlarından və həyat imkanlarından rasional istifadəsi nəticəsində onun ağlı, qəlbi və əməyi ilə yaradılmış "ikinci, süni təbiətin" – mədəniyyətin yaradıcısıdır. Canlı təbiətin bir hissəsi olub, ekstrasomatik qabiliyyətlərə sahib olmaqla, öz şüuru vasitəsilə o, nəinki obyektiv aləmi əks etdirir, həm də həyat tələbatları, ağlının imkanları, topladığı biliklər və səmimi cəhdlərinə əsaslanaraq onu yaradır. İnsan ağlı sayəsində təbiətə heyvanlar kimi passiv şəkildə öyrəşmir, insan həyatının qorunması və yaxşılaşdırılması üçün şüurlu olaraq öz fiziki enerjisini zəruri predmetləri, prosesləri və şərtləri yaratmağa imkan verən yaradıcı enerjiyə çevirir. Burada əsas olan insanın onu əhatə edən təbiətə, özünə və digər insanlara qayğı ilə, rasional və ahəngdar şəkildə yanaşmasıdır.

İnsanın həyat fəaliyyəti mədəniyyəti ilə sıx bağlı olan "ekoloji mədəniyyət" anlayışı elmi dövriyyəyə XX əsrdə Sovet ekoloqları tərəfindən daxil edilmişdir. O, 1970-ci illərdən başlayaraq elmi ədəbiyyatda geniş istifadə olunmağa başladı.

Bu sahədə aparılan tədqiqatlar artan əhalinin çoxalan tələbatları ilə Yer kürəsinin təbii ehtiyatlarının məhdud imkanları arasındakı antoqonist ziddiyyəti aşkara çıxardı. Bərpa olunmayan təbii ehtiyatların qeyri-rasional istifadəsi, insanın biosferlə elmi əsaslandırılmış qarşılıqlı əlaqələr strategiyasının olmaması, gələcək nəsillər qarşısında məsuliyyət mədəniyyətinin aşağı səviyyədə olması səbəbindən bəşəriyyətin davamlı inkişafına təhdidlər meydana çıxdı.

İnsan və təbiətin qarşılıqlı əlaqələrinin təbii formalaşmış mənəvi-etik normalarına əsaslanan, ətraf aləmlə ahəngdar birgə mövcudluq mədəniyyəti dünya xalqlarının əksəriyyəti üçün səciyyəvidir. Lakin həyatın tələbləri və şərtləri, habelə sivilizasiyanın çağırışları daim dəyişir ki, bu da ekoloji mədəniyyətin ağıllı elmi prinsiplər və konkret vəziyyətlə şərtləndirilmiş düzgün qərarlar əsasında daim təkmilləşdirilməsini tələb edir.

XXI əsrin əvvəlində insanın təbiətə qayğı ilə yanaşması zərurətinin daha çox insan tərəfindən başa düşülməsi, habelə mədəniyyətin kulturoloji mənasının dəyişərək, onun bütöv sosial sistem və bəşəriyyətin yaradıcı fəaliyyət prosesi kimi qəbul edilməsi ilə bağlı olaraq, bütün dünyada ekoloji mədəniyyətə maraq olduqca artdı. 2000-ci ildə RF Dövlət Dumasına ilk dəfə "Ekoloji mədəniyyət haqqında" qanun layihəsi təqdim olundu, burada ekoloji mədəniyyət sahəsində dövlət idarəçiliyi məsələləri öz əksini tapmışdı. Bu qanunla əlverişli ətraf mühitdə yaşamaqla bağlı Konstitusiya hüququnun həyata keçirilməsi, habelə təbiətin və ətraf mühitin qorunması üzrə vətəndaşların konstitusion vəzifələrini yerinə yetirməsi sahəsində dövlət hakimiyyəti, yerli özünüidarə orqanlarının, hüquqi və fiziki şəxslərin qarşılıqlı əlaqə prinsipləri müəyyən edildi. 2002-ci ildə qəbul edilmiş "Ətraf mühitin mühafizəsi haqqında" Federal qanunda ekoloji təhsil və maarifləndirməni, ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizlik sahəsində təşkilat rəhbər-lərinin və mütəxəssislərin hazırlığını əhatə edən ekoloji mədəniyyətin formalaşdırılmasının əsasları qoyuldu. 2007-ci ildə "ekoloji sivilizasiyanın" qurulması Çin cəmiyyətinin inkişafının ən mühüm vəzifəsi elan olundu.

Müxtəlif ölkələrin vətəndaşlarının ekoloji mədəniyyəti, əsasən, şəxsiyyətin və cəmiyyətin ruhi mədəniyyət səviyyəsindən asılıdır. O, elmi biliklər, mənəvi dəyərlər, şüur, əqidə, dünya-görüşü, peşəkar səriştəlilik, məsuliyyət, əmək mədəniyyəti və əməyin nəticələri ilə sıx bağıdır. Cəmiyyətin ruhi mədəniyyətinin, o cümlədən ekoloji mədəniyyətinin inkişafının səmərəliliyində dövlətin idarəetmə mədəniyyətinin və motivasiya siyasətinin böyük rolu var.

İnsanın ruhi – intellektual və mənəvi mədəniyyəti hər bir cəmiyyətin və dövlətin həyat qabiliyyətinin və çiçəklənməsinin əsasının əsasıdır. İnsanın cəmiyyətdəki sosial statusu biznes vasitəsi ilə topladığı sərvəti ilə deyil, şəxsiyyətin ruhi mədəniyyət səviyyəsi, onun səriştəliliyi, peşəkarlığı və etikası, cəmiyyət və dövlətin inkişafına verdiyi töhfə, vətəni və bəşəriyyət qarşısında xidmətləri ilə müəyyən edilməlidir. Vətəndaşların sosial nüfuzu və maddi təminatı, şəxsiyyətin üstünlükləri, dövlət tərəfindən mədəniyyət xadimlərinə diqqət və qayğı da bu sosial rol və insan inkişafına konkret yaradıcı töhfəyə uyğun olaraq müəyyən

edilməlidir. Xalqın mədəni elitası, intellektual və mənəvi mədəniyyətin yaradıcıları cəmiyyətin və dövlətin inkişafının başlıca hərəkətverici qüvvəsidirlər. Söhbət, hər şeydən əvvəl, elm, təhsil və maarif, ədəbiyyat və incəsənət xadimlərindən, habelə mühəndis və ixtiraçılardan, həkimlərdən, hüquqşünaslardan, jurnalistlərdən və ziyalı təbəqənin cəmiyyətə və dövlətə fayda verən yüksək yaradıcı potensiala malik digər nümayəndələrindən gedir. Mədəni elitanın nümayəndələri davamlı inkişafın ən mühüm əsası kimi, cəmiyyətin yüksək ekoloji mədəniyyəti uğrunda mübarizənin ilk sıralarında yer almalıdırlar.

Mədəniyyət haqqında elm cəmiyyətin ekoloji mədəniyyətinin inkişafının səmərəliliyini, xüsusiyyətlərini və yeni imkanlarını daha yaxşı anlamağa və qiymətləndirməyə kömək edir. Məlum olduğu kimi, rasional təfəkkürə, müəyyən dəyərlərə və azad iradəyə söykənən elm tədqiqatın obyektiv həqiqətə çatmağa imkan yaradan məqsədlərini də, nəticələrini də böyük ölçüdə müəyyən edir. Müxtəlif nəzər nöqtələrinin sistemli kulturoloji təhlilə əsaslanan müqayisəli elmi təhlili həqiqət axtarışına və düzgün qərarların qəbul edilməsinə kömək edir. İnsan inkişafının müxtəlif problemlərinin və proseslərinin təhlilinə sistemli kulturoloji yanaşmanın dəyəri yalnız məxsusi kulturoloji tədqiqatların nəticələri ilə deyil, həm də məşhur sosioloqların, filosofların, politoloqların və digər mütəxəssislərin elmi əsərləri ilə təsdiqlənir. Onların arasında milli dövlətlərin vahid sistem qaydalarına tabe olan qarşılıqlı asılı inkişafı ilə bağlı düzgün anlayışı istisna edən – milli dövlətlərin "tarixlərinin süni izolyasiyası"na qarşı çıxış edən məşhur Amerika sosioloqu və politoloqu İmmanuil Vallerstaynın elmi nəticələrini qeyd etmək olar.

## Azərbaycanın ekoloji siyasəti

Azərbaycan Respublikasında ekoloji mədəniyyətə ciddi diqqət ayrılır. Ölkədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həmçinin Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi fəaliyyət göstərir. Son onilliklərdə ekoloji təhlükəsizlik üzrə zamanın tələblərinə cavab verən kompleks tədbirlərin hazırlanması və həyata keçirilməsi ölkənin ekoloji siyasətinin diqqət mərkəzindədir. Respublikanın Prezidenti cənab İlham Əliyev tərəfindən elan olunmuş bu siyasətin məqsədləri arasında şəhərlərin ekoloji mədəniyyətinin yüksəldilməsini, "yaşıl texnologiyaların" tətbiqini, təbii ehtiyatların qorunmasını və əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasını qeyd etmək olar.

Ölkənin ekoloji siyasəti bioloji müxtəlifliyin qorunmasına, atmosfer havası, torpaq və suyun, bitki örtüyünün və heyvanlar aləminin, Xəzər dənizinin və çayların, habelə respublikanın şəhər və kəndlərinin mühafizəsinə yönəldilmişdir. İqlim dəyişikliyi ilə mübarizə, yaşayış mühitinin sənaye, bərk məişət və radioaktiv tullantılarla çirklənməsindən qorunması üzrə dövlət proqramlarının işlənib hazırlanması və həyata keçirilməsinə xüsusi diqqət yetirilir. Gələcək nəsillərin həyat tələbatlarını nəzərə almaqla, bioloji müxtəliflikdən və faydalı qazıntılardan rasi-

onal istifadə mədəniyyəti dövlət idarəçilik orqanlarının diqqət mərkəzindədir. Ekologiya sahəsində beynəlxalq əməkdaşlığa böyük diqqət ayrılır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi BMT (BMT-nin Ətraf mühit üzrə Proqramı), NATO, Qlobal Ekologiya Fondu, Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Dünya Bankı, Asiya Bankı, Ümumdünya Vəhşi Təbiət Fondu, Sənaye İnkişafı Təşkilatı (UNIDO), Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Ümumdünya Səhiyyə Təşkilatı (WHO), Ümumdünya Təbiəti Mühafizə Fondu (WWF) və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Azərbaycan Ekologiya sahəsində 21-ci Konvensiyaya qoşulmuş və müvafiq protokolları imzalamışdır. 1995-ci ildə Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına, 2000-ci ilin 18 iyul tarixində – Kioto Protokoluna, 2002-ci ildə – "Böyük məsafələrdə havanın transsərhəd çirkləndirilməsi haqqında" Beynəlxalq Konvensiyaya qoşuldu. Dövlətimiz 2050-ci ilə qədər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını karbon neytral zonaya çevirməyi planlaşdırır. Buna baxmayaraq, ümumilikdə, orta illik temperaturun artımı, buzlaq sahələrinin kiçilməsi, Xəzər dənizinin səviyyəsinin enməsi kimi təbiət mühitinin məhv olmasının obyektiv amilləri həyəcan doğurmağa bilməz.

Bununla yanaşı, ekoloji vəziyyətin pisləşməsində antropoloji təsir də az rol oynamayıb. Bu gün həm təbii, həm də antropogen yolla durmadan çirklənən atmosfer havasının mühafizəsi haqqında məsələ çox aktualdır. Bu, yalnız palçıq vulkanlarının püskürməsi, dağ süxurlarının aşınması, meşə yanğınları ilə deyil, həm də sənaye müəssisələrinin, isidici sistemlərin və avtonəqliyyat vasitələrinin fəaliyyəti ilə əlaqədardır. Qeyd etmək kifayətdir ki, təkcə antropogen yolla, ətraf mühitə düşüncəsiz münasibət, sənayenin texnoloji tələblərinin pozulması, sənaye tullantılarının lazımı qədər emal edilməməsi, təmizləyici qurğuların olmaması və ya onlardan istifadə qaydalarına əməl edilməməsi ucbatından iri şəhərlərdə hər il atmosferə yüzlərlə ton toz, his, karbon iksidləri, azot oksidləri, karbohidrogen, kükürd, xlor, formaldehidlər və digər üzvi çirkləndiricilər buraxılır.

Beləliklə, yüksək istehsal və istehlak mədəniyyətini nəzərdə tutan ekoloji mədəniyyətin hərtərəfli inkişafı, insanların sənaye və məişət sistemləri və avadanlıqlarının texnoloji təhlükəsizliyi sahəsi də daxil olmaqla, müəyyən edilmiş qaydalara və beynəlxalq normalara ciddi riayət etmə mədəniyyəti haqqında məsələ gündəlikdə duran əsas məsələlərdir. Bütün bunlar, ilk növbədə, vətəndaşların ümumi mədəniyyət səviyyəsi – onların təhsili və maarfiləndirilməsi, elmi bilikləri, səriştəliliyi, mənəvi keyfiyyətləri, təfəkkür mədəniyyəti, istehlak mədəniyyəti, məsuliyyət mədəniyyəti və digər insanlar, cəmiyyət, dövlət və bəşəriyyət qarşısında mənəvi borc hissi ilə əlaqəlidir.

## Ekologiya mədəniyyətinin inkişafı üzrə tövsiyələr

Azərbaycan vətəndaşlarının ekoloji və ümumi mədəniyyətinin uğurla inkişaf etdirilməsi üçün ölkə məmurlarının və jurnalistlərinin, elm, təhsil, tibb, ekologiya, incəsənət, istehsal və idarəçilik xadimlərinin aşağıdakılara yönəlmiş milli hədəf proqramlarını işləyib hazırlaması və həyata keçirməsi məqsədəuyğun görünür:

- ekologiya mədəniyyətinin insan və təbiətin ahəngdar birgə mövcudluğuna yardım edən və insan və təbiətin qarşılıqlı əlaqələrini tənzimləyən dəyərlərin, normaların və texnologiyaların vəhdəti kimi, bütöv sosial sistem olan mədəniyyətin ayrılmaz hissəsi olaraq anlaşılmasının formalaşdırılması.
- ekologiyada və bütövlükdə dünya sivilizasiyasında arasıkəsilməz dəyişikliklərin nəzərə alınması ilə, elmi, pedaqoji, maarifçilik və praktiki fəaliyyət göstərən ekoloji müəssisələrin təkmilləşdirilməsi; təhlükəsiz inkişafın şərti kimi, insanın ekoloji mədəniyyət məsələlərinə diqqət göstərərək, gənclərin və uşaqların xüsusi ekoloji təlim və tərbiyəsinin inkişafı, onların Azərbaycan və dünya mədəniyyəti tarixinin konkret nümunələri ilə əsaslandırılmış biliklərlə təmin edilməsi.
- mütəxəssislərin kulturoloji hazırlığı və yenidən hazırlığı, vətəndaşların iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almağa, habelə Azərbaycan xalqının "yaşıl iqtisadiyyat" və "yaşıl energetikaya" keçidində fəal iştirakına kömək edən təbiətin ekologiyası, insanın və cəmiyyətin ekoloji mədəniyyəti haqqında biliklər də daxil olmaqla, universal kulturoloji biliklərin Azərbaycan cəmiyyətində yayılması;
- iqtisadiyyat, ekologiya, səhiyyə və insanın həyat fəaliyyətinin ölkədə təmiz ətraf mühitin yaradılmasını, bərpa olunan enerji mənbələrinin potensialının inkişafını təmin edən digər sahələrində əmək və idarəetmə mədəniyyətinin təkmilləşdirilməsi;
- Azərbaycanda ekoloqlar, tibb işçiləri və digər mütəxəssislərdə sistemli kulturoloji təfəkkürün formalaşdırılması üçün zəruri olan və yüksək mədəniyyətli vətəndaşların "istehsalına" kömək edən məcburi kulturoloji təhsil və maarifləndirmənin bütün sahələrdə və bütün səviyyələrdə tətbiqi;
- Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl" zonanın yaradılması və bu ərazilərin 2050-ci ilə qədər "təmiz, sıfır tullantılı" zonaya çevrilməsi prosesində vətəndaşların fəal iştirakı;
- qədim və zəngin Azərbaycan mədəniyyətinin tarixi, humanist dəyərləri və ənənələri, Azərbaycan xalqının dünya mədəniyyətinə və sivilizasiyasına verdiyi töhfələr, habelə Azərbaycan Respublikasının yüksək ruhi mədəniyyətli ölkə kimi, Azərbaycanın beynəlxalq nüfuzunun, onun Qərb və Şərq ölkələri ilə mədəni həmrəyliyi və əməkdaşlığının gələcək yüksəlişinə təkan verən müasir nailiyyətləri haqqında biliklərin "COP29" iştirakçıları və respublikanın qonaqları arasında yayılması.

Bu layihələrin müvəffəqiyyətlə həyata keçirilməsi daha çox aşağıdakılarla bağlı əvvəlcədən müəyyən edilmiş vəzifələrin həll edilməsindən asılıdır:

- mənəvi-mədəni dəyərləri qoruyub saxlamaqla intellektual mədəniyyətin qabaqlayıcı inkişafı ilə;
- Azərbaycan Respublikasının davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafının məqsədi, strateji bərpa olunan resursu və başlıca hərəkətverici qüvvəsi kimi yüksək mədəniyyətli azərbaycanlıların yetişdirilməsi və inkişaf etdirilməsi ilə;
- ölkədə uşaq bağçalarından başlayaraq, cəmiyyətin bütün sosial kateqoriyaları və peşələri üçün icbari kulturoloji təhsilin və maarifləndirmənin qanunvericilik qaydasında tətbiqi.
- sistemli kulturoloji yanaşmanın geniş istifadəsi əsasında dövlət idarəçilik mədəniyyətinin inkişafı ilə;
- dövlət müəssisələrinin personalı və uşaq bağçalarının, tədris ocaqlarının rəhbərləri, müəllimlər, jurnalistlər, idarəçilər, iqtisadiyyatçılar, hüquqşünaslar, qadınlar, ailə başçıları, uşaqlar, gənclər və əhalinin digər kateqoriyaları daxil olmaqla, vətəndaş cəmiyyəti üçün daim baş tutan kulturoloji təlimlər və elmi oxunuşlar sisteminin təşkil edilməsi ilə;
- Azərbaycanda mütərəqqi dəyişikliklərə təkan verən intellektual əməyin sosial statusunun yüksəldilməsinə və elm və təhsilin məqsədli maliyyələşdirilməsinə yönəlmiş "İntellektual mədəniyyət haqqında" Qanun layihəsinin Milli Məclis tərəfindən nəzərdən keçirilməsi ilə.

Düşünülür ki, təklif edilmiş kulturoloji yeniliklərin qiymətləndirilməsi və ardıcıl həyata keçirilməsi Azərbaycan xalqının ekoloji mədəniyyətinin uğurla inkişaf etdirilməsi üçün yeni imkanlar açacaqdır.

## Dünya humanizmi güzgüsündə İmadəddin Nəsiminin kulturoloji portreti

***("Kulturologiya: XXI əsrin çağırışlarına cavablar" kitabında, Kazan: İnnovativ Texnologiyalar Mərkəzi, 2019, s. 364-381)***

2019-cu ildə Azərbaycan Respublikası dahi Azərbaycan mütəfəkkiri, şairi və humanisti İmadəddin Nəsiminin 650 illik yubileyini qeyd edir. Onun yaradıcı irsi bəşəriyyətin intellektual və mənəvi mədəniyyətinin beynəlxalq əhəmiyyətinin dərk edilməsində mühüm əhəmiyyət kəsb edir.

Hər bir alim, mütəfəkkir, şair və ya yazıçı, bu və ya digər dərəcədə, öz dövrünün ruhuna uyğun və ideoloji tələblərinin təsiri altında yazıb-yaradır. Buna baxmayaraq, onlardan bəziləri ağıl və azad intellektual axtarışa istinad edərək, öz dövrünü qabaqlayan elmi və humanitar dəyərə malik elə mütərəqqi ideyalar irəli sürür və maraqlı əsərlər yaradırlar ki, onlar bütün bəşəriyyətin sərvətinə çevrilirlər. Belə qeyri-adi insanlardan biri XIV əsr Azərbaycan ruhi mədəniyyətinin parlaq nümayəndəsi olan İmadəddin Nəsimidir.

Dünya humanizminin tarixi, xüsusiyyətləri və nailiyyətləri ilə sistemli yanaşma əsasında tanışlıq Nəsiminin kulturoloji portretinin yeni çalarlarını işıqlandırmağa, onun mənəvi qəhrəmanlığını və bəşəriyyətin ruhi mədəniyyətinə verdiyi özünəməxsus intellektual töhfəni qiymətləndirməyə imkanı yaradır.

Nəsimi elə bir tarixi dövrdə yaşamışdır ki, o vaxt mütərəqqi isanların təfəkkürü ilə təbii qarşıdurmada olan feodal cəmiyyəti mütərəqqi düşüncə tərəfindən müsadirə olunub dünyəviləşmə mərhələsinə qədəm qoyurdu. Obyektiv olaraq, feodal cəmiyyəti təhsil, maarif və elmi tərəqqinin yaratdığı yeni imkanların, insanın həyat fəaliyyətinin ideoloji və texnoloji sahələrindəki transformasiyaların və mədəni yeniliklərin təsirinə məruz qalırdı. Kifayət qədər təhsili olan insanlar sosial cahilliyi aradan qaldırmaqla, feodalizmə xas ehkamçılıq və fanatizmdən imtina etməklə, paxıllıq və digər neqativ bayağı həyat təzahürlərini və stereotipləri məhv etməklə feodal cəmiyyəti mədəniyyətini dəyişməyə can atırdılar. Maarifçilərin əzmi və iradəsi ilə tədricən nəinki bacarıq, mütəşəkkillik və mənəviyyatlılıq, həm də, hər şeydən əvvəl, elmi bilik və yaradıcı fəaliyyət insanın və cəmiyyətin inkişafında başlıca hərəkətverici qüvvəyə çevrilirdi. Bu zaman, insan və cəmiyyətin maraqlarına cavab verən mütərəqqi sosial dəyişikliklərin yeni ideya və biliklərdən qaynaqlanması anlamı formalaşırdı. Passiv müşahidəçilik tədricən reallığın aktiv dəyişdiriciliyi, əsasında yeni təfəkkür mədəniyyətinin durduğu ətraf aləmin yaradılması ilə əvəz olunurdu.

Azərbaycan, fars və ərəb dillərində yazan Nəsimi Azərbaycan poeziyasının incilərini yaratmış və Azərbaycan ədəbi dilinin əsasını qoymuşdur. Hələ orta əsrlərdə onun əsərləri Yaxın Şərq və Orta Asiyada geniş şöhrət tapmışdır. Lakin mən bu çıxışımda Nəsiminin yaradıcı nailiyyətlərinə və müxtəlif müəlliflərin tədqiqatlarına istinad edərək, eləcə də, kulturologiya elminin imkanlarına əsaslanaraq, diqqətinizi ruhi mədəniyyətin mühüm sahəsi olan humanizmə cəlb etməklə, Nəsiminin humanizm mədəniyyəti sahəsindəki xidmətlərindən bəhs etmək istərdim.

Tərbiyənin sosial şərtlərdən asılı olduğunu qeyd edən edən dahi Asiya və Avropa humanistlərinin fikri ilə həmrəy olan İmadəddin Nəsimi özündə yüksək mənəviyyat və mərdlik, özünüdərk və özünütəkmilləşdirməyə, insan ləyaqətinin və onun yaradıcı fəaliyyətinə meyillilik kimi keyfiyyətləri birləşdirirdi. Əgər dahi Nəsiminin kulturoloji portreti "mədəni insanın formulu" prizmasından nəzərdən keçirilərsə, ləyaqətli insana xas olan aşağıdakı keyfiyyətləri müşahidə edə bilərik: bilik, bacarıq, müstəqillik, məsuliyyət, möhkəm iradə, vətənpərvərlik, vicdan, ədalət və inam.

Müqayisəli kulturoloji təhlil göstərir ki, Nəsimi öz humanist dünyagörüşü ilə Avropa İntibahı dövrünün görkəmli mütəfəkkirlərindən biri olan Şarl de Bovelin (1479-1567) baxışlarını geridə qoymuşdur. Şarl de Brovel hesab edirdi ki, "idrak maraqları ilə yaşayan təhsilli və maariflənmiş" insan bütün dünyanı əks etdirir və Kainatı müsbət yöndə dəyişdirir. Bununla yanaşı onun dünyagörüşü mövqeyində müasir elmin banilərindən biri Paraselsin (1493-1541) ideyaları ilə uyğunluq görürük. Parasels hesab edirdi ki, insan "Tanrı tərəfindən bütün dünyanın "cövhərindən" yaradılıb və özündə Tanrının surətini daşıyır".

İmadəddin Nəsiminin müsəlman Şərqinin ruhi mədəniyyətinin inkişafındakı tarixi rolunu XIX əsrin tanınmış Azərbaycan şairi və mütəfəkkiri Mirzə Şəfi Vazeh öz şeirində heç olmadığı qədər gözəl səciyyələndirmişdir:

“Dünyaya cahillik hakimlik edir,
Bu da əsrlərin əlamətidir.
Qanun cahilliklə bəhsə də girmir,
Ya kətan, yada ki, ipək geyindir.
Nadan bir dünyaya bir hakim kimi,
Yaradan şairi göndərir bəzən,
Nadanlıq və zülmət məmləkətinə
Zəka ilə ziya gətirsin həmən”.

Nəsimi ilahi istedada malik böyük mədəniyyət yaradıcısıdır. Özünü bəşəriyyətin humanist ideallarına xidmətə həsr etmiş bu dahi şəxsiyyətin dünya mədəniyyəti və sivilizasiyasının inkişafında xüsusi rolu vardır.

Seyid Əli İmadəddin Nəsimi 1369-cu ildə anadan olub. “İmadəddin” adı ərəb dilində “dinin dayağı” deməkdir, Nəsimi təxəllüsü isə səhər mehi mənasını verir. Bəzi mənbələrə görə, o, Yaxın Şərqin tanınmış mədəniyyət mərkəzlərindən biri olan, Azərbaycan Şirvanşahlar dövlətinin paytaxtı Şamaxıda anadan olmuşdur. Onun Azərbaycan Qaraqoyunlular dövlətinin paytaxtı Təbriz şəhərində doğulduğunu yazan mənbələr də var. Lakin onun doğulduğu yer dəqiq məlum deyil: təxmin edilən yerlər arasında Diyarbəkir, Bursa, Hələb, Bağdad və Şirazın adları çəkilir. Hər halda Nəsimi Şamaxıda istedadlı insanların bir araya toplandığı məclis-ül-üləma (alimlər birliyi) və musiqiçilər (müğənnilər) icması yaratmışdı.

Nəsiminin dünyagörüşü mövqeyinin anlaşılması üçün qeyd edək ki, şair öz yaradıcılıq yoluna sufilik ideyalarının tərəfdarı kimi başlamışdı. O, məşhur sufi şeyxi Bağdadlı Əbubəkr əş-Şibli (861-946) və İranlı sufi şair Mənsu əl-Həllacın (858-922) ardıcılı olmuşdur. Nəsiminin gənclik illərində Azərbaycan və İran Teymurilərin hakimiyyəti altında idi və onlar ən yaxşı memar, rəssam, musiqişünas və şəhər sənətkarlarını zor gücünə Səmərqəndə işləməyə aparırdılar. Bu şəraitdə müxtəlif azadlıq ideyalarının təsiri altında Azərbaycanda ilk dəfə hürufizm hərəkatı yarandı və Bakı şəhəri onun ideoloji mərkəzinə çevrildi. Azadfikirlilik ideyalarının təsiri altında ilk dəfə Azərbaycanda hürufilik ideoloji hərəkatı baş qaldırdı və onun ideya mərkəzi Bakı oldu. Hürufilik XIV əsrdə Təbrizdə Fəzlullah Nəimi (Astarabazi) tərəfindən əsası qoyulmuş sufiliyin qollarından biri idi. Fəzlullah Nəimi tərəfindən yazılmış “Cavidannanamə” (“Əbədiyyət haqqında kitab”) kitabı hürufilər tərəfindən “Hürufiliyin quranı” kimi qəbul edilirdi.

“Hürufilik” sözü ərəb dilindəki “harf” (hərf) sözündən əmələ gəlib. Hürufilik dünyanın yaranmasının bütün sirlərinin hərflərdə təcəssüm olunduğu haqqında idealist postulatlarla birləşən dini-fəlsəfi təlimdir. Hürufilər hərflərin və rəqəmlərin sehrli, müqəddəs mənasına inanırdılar. Onlar 7 rəqəmiini müqəddəs hesab edir, Azərbaycanı isə “Sarzamin-e-restaxiz” (“Oyanış yeri”) adlandırırdılar.

Ərəb əlifbasının 32 hərfini bütün ilahi təzahürlərin miqdarı kimi qəbul edən bu təlim üçün səciyyəvi olan Allahın insanda təcəllası (zühuru) idi.

Öz mahiyyəti etibarı ilə humanist ideyaların daşıyıcısı olan Hürufilik indiki Azərbaycan, İran, Suriya və Türkiyə ərazilərində yayılmışdı. Hürufilik Sufiliyin təzahürlərindən biri olmaqla, xüsusi simvolikadan istifadə edərək insanın ucalmasına və onun sonsuz imkanlarına inamın təsdiqlənməsinə yönəlmiş dərin humanist məqsədə xidmət edirdi. Quranı hərflər sistemi vasitəsi ilə izah edən Hürifilik təlimi əlifbanın hərflərinin rəqəmli mənasından istifadə edərək, insanı yer üzünün ən yüksək dəyəri, dünyəvi və ilahi başlanğıcın daşıyıcısı kimi qiymətləndirirdi.

Hürufilikdə çoxsaylı problemlərin həlli rəqəmlər vasitəsilə həyata keçirilirdi ki, bu da onu pifaqoreizmlə yaxınlaşdırırdı. Eyni zamanda Kainat makrokosmos, insan mikrokosmos kimi başa düşülür, bütün gerçəkliyin başlanğıcı isə dörd element: su, od, torpaq və hava hesab edilirdi ki, bu da hürufiliyi ünsürlər (ilkin elementlər) haqqında antik təlimlərlə və Azərbaycanın ən qədim bayramı olan Novruz bayramının ənənəvi təsəvvürləri ilə əlaqələndirirdi. Həqiqət axtarışına böyük əhəmiyyət verən hürufilər həqiqəti dərk etməyən kəsləri cahil adlandıraraq, müdrik və cahil insan arasındakı fərqi vurğulayırdılar.

Sufizm mistik təlimi və hürufiliyin simvolikası Nəsiminin poeziyasında geniş əksini tapdı, onun əsas motivləri Allahın kamil dərki, özünüdərk, insan ağlının ilahi təbiəti, insan həyatının toxunulmazlığı, kamil insan fenomenidir. Nəsimi özünün humanist yaradıcılığı ilə insanlara ləyaqətli, kamil insanın dəyərinə və ruhi aləminə hörmət hissi aşılamaq əzmində idi. O inanırdı ki, kamil insan qüdrətlidir, yer üzündə Yaradanın qüdrəti onda təzahür edib, ona görə də o, sevgi, hörmət və ehtirama layiqdir. Bu həyat fəlsəfəsi onun məşhur sözlərində öz əksini tapmışdı: “Ən əl Həqq!” – “Həqq mənəm”, “Həqq məndədir”. “Bulmuşam həqqi, ənəlhəq söylərəm, Həq mənəm, həq məndədir, həq söylərəm. Gör bu əsrarı nə müğləq söylərəm, Sadiqəm qövlümdə, səddəq söylərəm”.

Görünür, Nəsimi də dahi İbn Rüşd kimi hesab edirdi ki, özünü dərk etmək də daxil olmaqla, elmi həqiqətlərə çatmaq yolu ilə insan mütləq həqiqətə doğru aparan ilahi pilləkənin pillələrini yavaş-yavaş qalxır və kamilləşərək Allahı dərk edir. Nəsimi yaradıcılığını tədqiq edən Abuzər Bağırov “İlahi poeziyanın yaradıcısı” adlı məqaləsində Nəsimi yaradıcılığının mənəvi motivasiyasına və dünyagörüşü kredosuna məharətlə aydınlıq gətirmişdir: “Şair ətrafda insana münasibətdə özbaşınalığı və ədalətsizliyi, şəxsiyyətin bütün hüquqlarının tapdalandığını görmüş, şərə üsyan edərək bədii sözün qüdrəti ilə alçaldılmış və təhqir edilmiş insanın müdafiəsinə qalxmışdı: İnsan – Allah konsepsiyasını irəli sürmüşdü. Bununla o, dündakı güc sahiblərinə insanın müqəddəsliyi haqqında ideyanı təlqin etməyə çalışdırdı. Şərq poeziyasında ilk dəfə Nəsimi insanı Həqq-Təala, Yaradan, Allahla bir cərgəyə qoymuş, Həqq-Təala, Yaradan, Allahı isə insana yaxınlaşdırmışdır. Bu, şair-mütəfəkkir, şair-filosof, şair-humanist və şair – ilahi poeziyanın yaradıcısının kredosudur” A. Bağırov vurğulayır ki, “Nəsimi kamil insanda Yaradanın yer üzündəki elçisini görür, kamil şəxsiyyətin formalaşmasına aparan yolun isə –

Kainatı və Allahı dərk etməkdən və özünüdərkdən keçdiyini söyləyirdi". O, intellektual şairin dahiliyini belə ifadə edir: "Hərflərin mistik simvolikası kamil insan fəlsəfi probleminin bədii açıqlanmasında Nəsimi üçün vasitə rolunu oynayırdı. Şair bu simvolikaya əsaslanaraq, insanın intellektual imkanlarının sərhədləri və səviyyələri barədə, ağlın rolu və insanın özündə üzə çıxan ilahi işığın dərk edilməsi barədə mühakimə irəli sürür ... Ağıl Allahın insana bəxş etdiyi ən böyük nemətdir. Bu bəxşiş insanı bütün yaradılmışlardan yüksəyə qaldırır. İnsan "məxluqatın tacı"dır, ehtirama layiqdir, ondan dünyada və Kainatda mövcud olan və baş verən hər şeyi araşdırmaq, onların mahiyyətini dərk etmək tələb olunur. İnsan – böyük gücdür, təbiətin bütün nemətləri, dünyanın bütün gözəllikləri insan üçündür, ilahi başlanğıc onda aşkar olur".

Hürufilərin həyat fəlsəfəsinin başa düşülməsi üçün qeyd edək ki, onların "dövr konsepsiyası" və "rəqəm simvolikası" ismaililərin və "səfa qardaşlarının" (X əsrdə Bəsrədə yaranmış gizli müsəlman elmi cəmiyyəti) emanasiya sistemi (kainatın İlahi şüadan yaranışı) ilə səsləşirdi. Erkən humanizmin daşıyıcıları olan "Səfa qardaşları" da ismaililər kimi, öz cəmiyyətlərinin qüsurlarının aradan qaldırılması üçün elmi və fəlsəfi biliklərin yayılmasını özlərinə məqsəd hesab edirdilər. Onlar düşünürdülər ki, insan yalnız həqiqəti dərk edərək, idrak vəsiləsi ilə əsil səadətə çatır. Onlar islamı cahil insanların ictimai həyatının tənzimlənmə vasitəsi kimi nəzərdən keçirərək, hesab edirdilər ki, gizli bilik (biliklilərə tanış olan – F.M.) həqiqəti aşkar edir, xeyirxahlığın dərk edilməsinə və artırılmasına yol açır.

İnsanın dəyəri, eləcə də Yaradan və Yaradılışın eyniyyəti ideyalarını dərindən mənimsəmiş Nəsimi yazırdı: "Məndə sığar iki cahan, mən bu cahana sığmazam, Gövhəri-laməkan mənəm, Kövnü məkana sığmazam". Təəssüf olsun ki, belə innovativ fikirlərin dərk edilməsinə hazır olmayan müsəlman hökmdarlar rəsmi islam doktrinasının çərçivəsindən kənara çıxan bu cür yeni ideyaların daşıyıcılarını sərt təqibə məruz qoyub edam edirdilər. 1401-ci ildə Fəzlüllah Nəimi və onun tərəfdarları müxaliffikirliliyə görə Teymur Ləngin oğlu Miranşah tərəfindən həbs edilib edam olunur. Belə bir şəraitdə edam edilmiş Nəiminin vəsiyyətinə əməl edən İmadəddin Nəsimi, digər təqib olunan azərbaycan hürufiləri kimi, Bakını tərk edib, Kiçik Asiyaya üz tutur və İraqda və Türkiyədə yaşayaraq, dəfələrlə həbs olunmalarına baxmayaraq, hürufilik ideyalarını yayır. Son illər, ailəsi ilə birgə Suriyanın Hələb şəhərinə yerləşən Nəsimi burada özünün çox sayda tərəfdarlarını tapır. Lakin 1417-ci ildə Nəsimi həbs olunur və xüsusi qəddarlıqla qətl edilir. Məlum olduğu kimi, insanın ilahi imkanlarına inam, dözüm və mərdlik nümayiş etdirən şair öz əqidəsindən dönməyərək ölüm ayağında ucadan demişdir: "Həqq mənəm!", "Həqq məndədir!", "Mən əbədiyyət üfüqlərində parlayan eşq günəşiyəm!"

Yaradıcı düşünən Nəsimi üçün təfəkkür konservatizmi, fanatizm və ehkamçılıq, nüfuz sahiblərinə kor-koranə inam bəsləmək duyğuları yad idi. Şairin humanist dünyagörüşünü əks etdirən yaradıcılığı məhəbbət şerləri ilə yanaşı, ictimai və mənəvi problemlərə həsr olunmuş əsərləri də əhatə edir. Nizami Gəncəvi, Xaqani Şirvani, Zülfüqar Şirvani irsi ilə tərbiyə olunmuş Nəsimi öz dövrünün

elmlərinə də bələd idi. O, müstəqil şəkildə ilahiyyat, məntiq, riyaziyyat, astronomiya, poetika, Qədim Şərq tarixi və fəlsəfəsini dərindən öyrənmişdir. Bununla bərabər Nəsimi nəinki Azərbaycan, ərəb, fars, tacik poeziyası və fəlsəfəsi ilə tanış idi, həm də müsəlman Şərqinin müxtəlif dini təriqətlərinin dini-fəlsəfi əsərlərini öyrənirdi. Onun əsərlərində Cəlaləddin Rumi, Şəms Təbrizi, Sədi Şirazi, Fəridəddin Əttarla yanaşı, Şərqin tanınmış alim-filosof və şairlərindən İbn Sina, Mühaiddin ibn əl-Fərabi, Məruf əl-Kərxi, sufi şeyxi Şibli və digərlərinin adı çəkilir.

İnsan ağlını, əməyini və ləyaqətini yüksək qiymətləndirən, idealda insanı İlahiyə bənzər bir varlıq kimi qəbul edən Nəsimi, öz dünyagörüşünə görə, insan təbiətinin universallığı və ülviyyətini etiraf etmiş antroposentrik və panteist fəlsəfi təlimlərin nümayəndələrindən olan görkəmli Avropa humanistlərinə yaxın idi. Bu həyat fəlsəfəsi mədəni insanın ilahi keyfiyyətlərinə humanistcəsinə inam bəsləyən və bütün ilahi yaranışların iştirakçısı olduğunu iddia edən aksioloji baxışlarla sıx bağlı idi.

Bəşəriyyət tarixi mədəniyyətin – insanların inkişafına və rifahına təkan verən bilik və xeyir, cəhalətin isə – şər və səfalət olduğunu təkidlə təsdiq edir. Martin Lüter bəşəriyyətin xilasını etiqadda, Fyodor Dostoyevski mənəvi gözəllikdə görürdü. Həqiqətdə isə, xilas yolu – qəlb gözəlliyi və inamı, ətraf aləmi dərk edib dəyişdirə bilən, maariflənmiş ağıl kimi dəyərləri özündə birləşdirən ruhi mədəniyyətdədir.

Qeyd edək ki, Nəsiminin yaşadığı dövrdə ruhi mədəniyyətin "iki qanadını" təşkil edən elm və mənəviyyat sosial həyat və fəaliyyət sahələri kimi müstəqil fəlsəfi və ya rasional təhlil predmeti deyildi. Sosial fenomen olan mədəniyyətin mahiyyətinin dərk edilməsi tədricən XVII-XVIII əsrlərdən etibarən, yalnız onun mühüm sosial institutlarının yaranmasına yardım edən Avropa Maarifçiliyi və Yeni dövr tarixindən başlayaraq formalaşmağa başlamışdır. Xeyir ilə Şərin mübarizəsinin səciyyəvi olduğu cəmiyyət üçün insanın mürəkkəb dualist təbiətinə yeni baxışların təşəkkülü, eləcə də sosial harmoniyanın əsas şərti olan tolerantlıq mədəniyyətinin inkişafı məhz bu dövrə təsadüf edir.

Humanizm ruhi mədəniyyətin mühüm tərkib hissəsi olaraq, sivilizasiyanın inkişafının hərəkərverici qüvvəsidir. Humanizm cəmiyyətin inkişaf tələbləri ilə şərtlənən dünyagörüşü forması olaraq, öz inkişafında mənaca və ideoloji cəhətdən bir sıra transformasiyalara uğramışdır. İlk başlarda orta əsr humanizminin əsasını – insanın mənəvi kamilləşməsi hesabına yüksək mədəniyyətli insanlardan ibarət cəmiyyətin formalaşdırılmasına çağırış təşkil edirdi. Bu yanaşma həyatın tənqidi baxımdan yenidən mənalandırılması, şər, zülm, cəhalət, ehkamçılıq, dözümsüzlük və düşmənçilik, qarşıdurma, zorakılıq, münaqişə, müharibələrə gətirib çıxaran destruktiv insani keyfiyyətlərin pislənməsi ilə bağlı idi. Humanistlər praqmatik-həyasız makkiavellizmi inkar edərək, özlərinin yüksək mənəvi prinsiplərə sadiqliyini nümayiş etdirirlər.

Buna baxmayaraq insanı əhatə edən aləmin passiv seyri və fövqəltəbii qəbul edilməsi tədricən gerçəkliyin mütərəqqi dəyişdirilməsi və cəmiyyətə xidmət məqsədləri ilə insanın hərtərəfli inkişafının və insanın təbiətində mövcud olan insansevərlik, ağıl, həqiqətin sərbəst axtarışı kimi potensial mədəni keyfiyyətlərdən

istifadə etmək zərurəti ilə əvəzləndi. İnsan azadlığının yalnız biliklə əldə edildiyini iddia edən humanistlər təhsilsiz kütlələrin passiv müşahidəçi və istehlakçı mövqeyini cəmiyyətin ziyalı təbəqəsinin cəmiyyətin rifahı naminə göstərdikləri aktiv sosial yaradıcılıqla qarşılaşdırırdılar. Qabiliyyətlər və istedadlar, biliklər və peşəkarlıq, dürüstlük və vətənpərvərlik, vətən qarşısında xidmətlər humanistlər tərəfindən bəşəriyyətin ruhi mədəniyyətinin ən mühüm dəyərləri, ləyaqətli insanların indikatorları qismində nəzərdən keçirilməyə başladı. Bu keyfiyyətlər insanın təbiəti dəyişməsi və onu əhatə edən sosial mühitin mütərəqqi trasformasiyası üçün imkanlarını genişləndirirdi. Onlar şəxsiyyətin özünüdərkinə və özünüinkişafına, insanın və sosial həyatın qorunması və yaxşılaşdırılmasını təmin edən, mədəniyyət yaradıcılarına ictimai nüfuz qazandıran yaradıcılığın tərəqqisinə yardım edirdi.

Ənənəvi dini və sosial stereotiplərdən azad, yeni düşüncə formalarının və həyat fəaliyyəti texnologiyalarının axtarışı yeni bir zümrələrarası qrupun – özünü "ruhi istehsala" həsr edən ziyalı təbəqənin formalaşmasına səbəb oldu. Orta əsr ziyalıları üçün tənqidi təfəkkür, refleksiya, ruhi mədəniyyətin inkişafı üçün mühüm əhəmiyyətə malik olan biliklərin və təcrübənin sistemləşdirilməsi qabiliyyəti səciyyəvi idi. İnsan həyatının qorunması və daha da yaxşılaşdırılması məqsədi ilə humanist ziyalılar öz səylərini insan, təbiət və cəmiyyətin dərk edilməsi və yaxşılığa doğru dəyişdirilməsinə yönəldir, insanların intellektual və mənəvi mədəniyyətinin inkişafına yardım edirdilər.

Ruhi mədəniyyətin inkişafında ziyalıların yaradıcı rolunu anlamaq üçün "kulturoloji piramida" universal metodu kömək edir. Orta əsrlər də daxil olmaqla, bütün tarixi dövrlərdə yeni ideyaların doğulması və yaradıcılıq mövcud hadisələrin mahiyyət və xüsusiyyətləri dərk edilməsini, təbiət və cəmiyyətin inkişaf qanunlarının və insanın həyat fəaliyyəti texnologiyalarının təbiətini anlamağı tələb edirdi. Məhsuldar təfəkkür və yaradıcı fəaliyyət mədəni mübadilə olmadan, insanların və xalqların fəaliyyət nailiyyətlərinin tarixini bilmədən və qiymətləndirmədən çətin ki mümkün olardı. Düzgün qərarların qəbul edilməsi və mütərəqqi inkişafın yeni imkanları, daha yaxşı gələcəyin formalaşdırılmasının görüş mənzərəsi yalnız bu bilik piramidasının zirvəsindən görünür. Bunun şərti – cəmiyyətin mədəniyyətini yaradan və təkmilləşdirən ziyalıların qabaqcıl nümayəndələrinin təhsilliliyi, geniş dünyagörüşü və zəruri intellekt səviyyəsidir.

Ruhi mədəniyyətin inkişafına təkan verən insan humanizminin kökləri qədim dövrlərə gedib çıxır. Görkəmli Çin mütəfəkkiri və filosofu Konfutsi (e.ə. 551-479-cu illər) insanlar arasındakı münasibətlərdə mənəviyyatlılıq, sülh və ahəng yaratmaq məqsədi ilə beş əsas məziyyətə sahib olmağı təklif edirdi: "jen" (mərhəmət, xeyirxahlıq, iltifat), "yi" (ədalət), "li" (ideal davranış), "ji"(müdriklik), "xsin" (sədaqət). Fəaliyyətsizlik və passivlik ideyasını rədd edən konfutsianlıq mənəvi kamilləşmənin yolunu insanın öz üzərində işləməsində görürdü.

Orta əsrlərdə müxtəlif dünyagörüşü sistemlərində və dünya mədəniyyətlərində formalaşmış humanizm konsepsiyası ilkin variantında müsəlman Şərqindən Avropaya gəldi. IX-X əsrlərdən başlayaraq, humanizm ideyaları müsəlman ölkələri

mütəfəkkirlərinin – kəlam, fəlsəfə və sufizm nümayəndələrinin əsərlərinə hopmuşdu. Orta əsrlərdə xilafətin inkişaf etməkdə olan şəhər mədəniyyəti bu prosesin münbit mühiti kimi çıxış edirdi ki, orada müxtəlif insan qrupları birgə yaşayır, onların adət və ənənələri qarşılıqlı şəkildə zənginləşirdi. Müxtəlif millətlərin, etnos və dinlərin nümayəndələri arasında təbii mədəni mübadilə baş verirdi. Antik fəlsəfənin və yunan təhsilinin yayıldığı, ziyalıların formalaşdığı, cəmiyyətin ruhi mədəniyyətinin inkişaf etdiyi şəraitdə insan teosentrizm və antroposentrizm nümayəndələrinin əsas diqqət obyektinə çevrilirdi, insan idrakı isə həyat hadisələrinin dəyər meyarı kimi təsdiq olunurdu. Humanizmin təzahürü dini cəzalar və mükafatlarla motivləşmiş davranış deyil, insanın aprior keyfiyyəti kimi qiymətləndirilirdi.

Humanizm X-XI əsrlərdə zındıq (Allaha inanmayan azadfikirlilər) və daxritlərin (materialistlər) fəlsəfəsində mövcud idi və onlar sözün müasir mənasında nə ardıcıl ateist, nə də ardıcıl materialist idilər. Onların təsəvvürləri müsəlman doktrinalarının, qnostik təriqətlərin, zərdüştlərin və manilərin müxtəlif cərəyanları əsasında qurulurdu. Orta əsr müsəlmanlarının azadfikirliləri iddia edirdilər ki, insan heç kimdən və heç nədən asılı olmadan xeyir əməl sahibi olmaq və şərdən qorunmaq iqtidarındadır. Onlar yüksək inkişaf etmiş ağıl və xeyirxahlığın sübutu olan insanlığı (“insaniyyə”) belə mənəvi mövqeyin əsasında duran daxili qüvvə hesab edirdilər.

Məşhur ərəb “sorğu filosofu” Əbu Həyyan ət-Tauhidi (923-1024) qeyd edirdi ki, humanistlər ilahi cəza qorxusu və ya mükafat ilə deyil, insanlıqla motivləşir. İnsanlıq – yüksək idrakın xüsusi əlaməti olan daxili qüvvə, xeyir əməllər görməyə, dürüstlük və şəfqət göstərməyə mənəvi tələbatdır. Müsəlman aləmində rasional dünyagörüşünün nümayəndəsi kimi tanınmış humanist Əl Məarri (973- 1057) ağıl və sosial ədalətin prioritetliyi prinsipinin tərəfdarı olaraq, müstəqil fikirləri ilə fərqlənirdi. O, möminliyini şər əməldən çəkinməklə qorumağa səsləyərək, insanın azad seçim etmək, əməlinə görə məsuliyyət daşımaq hüququnu təsdiqləyirdi.

XI əsrdə islam normalarını mistik panteizm ruhunda şərh edən, insanlar arasında əmlak bərabərsizliyini və bəzi ruhanilərin riyakarlığını tənqid edən müxalifətyönümlü sufizm də inkişaf edirdi. Lakin, ağıl və idraka müraciət edən filosoflardan fərqli olaraq, sufilər üçün həqiqət axtarışı və ətraf aləmin dərk edilməsi məhəbbətə əsaslanırdı. Bu istiqamətin nümayəndələri Cəlaləddin Rumi, Nuriddin Cami, Sədi Şirazi və Hafiz Şirazi kimi sufizm klassikləri idi.

Ziyalılar, xüsusilə intellektual elita cəmiyyətin “ədiblər” adlandırılan təlim görmüş və təhsilli insanları üçün zəruri hesab edilən mədəni standartlar və dəyər yönəlişlikləri istehsal edirdilər. Ədiblər bilik və mənəviyyat daşıyıcıları olaraq, yüksək nəzakət və alicənablıqları ilə fərqlənirdilər. Onlar humanizm ideallarını özündə əks etdirməklə yanaşı, cəmiyyətdə səxavət və insana məhəbbət kimi dəyərlərin fəal təbliğatçıları idilər. Onlar insanın öz qüsurları ilə mübarizəsini ruhi kamillik kimi qiymətləndirirdilər. Humanizm ideyalarının inkişafı sayəsində müsəlman cəmiyyətində universalizm adlanan yeni dünyagörüş formalaşdı. Universalizm – dünyanın inkişaf qanunlarını dərk etmək yolu ilə ətraf aləmlə uyğunluq və ahəngdarlıq mədəniyyətini nəzərdə tutan yeni etik baxışlar idi. İntellektual

maraqların ümumiliyi əsasında müsəlman aləminin hər bir yanından müsəlmən və iudaistlərin, xristianların və hətta ateistlərin ruhi yaxınlaşması baş verirdi.

Əfsuslar olsun ki, IX əsrdən başlayaraq müsəlman Şərqində elmin inkişafı dinlə və dövlətin din siyasəti ilə məhdudlaşdırıldı. Elm müxaliffikirlilik kimi qəbul olunur, tənqid və təqibə məruz qalır, qanundan kənar elan olunur, mədrəsədə rasional elmlərin tədrisi qadağan edilirdi. Bu, ilk növbədə, dünyanın əsasını sonsuz materiya və zamanda görən qnostisizm, manilik, zərdüştlik təlimlərinə laqeyd olmayan şərqi peripatetizm, ismailizm, karmatizm, zindikizm, darhizm, zərvanizm kimi bidətçilik (küfr) hesab edilən təlimlər idi. Hətta Aristotel və Platonun elmi irsini yaradıcılıqla inkişaf etdirən Əl-Kindi, Əl-Fərabi, İbn-Sina, İbn-Rüşd və digər görkəmli alimlər belə, küfrdə ittiham olunaraq kafir adlandırılır, iztirab və məhrumiyyətlərə məhkum edilirdi. İnsanın zəkası, düşüncəsi və yaradıcı fəaliyyətinin məhdudlaşdırılması üzrə atılan bütün bu cəhdlər, son nəticədə, bu müsəlman ölkələrini əhatə edən böyük bir regionda rasional elmin qərb ölkələrindən uzun müddətə geridə qalması ilə nəticələndi.

Lakin insanların biliksizliyi, təhsilsizliyi və kifayət qədər maarifləndirilməməsi ilə bağlı yaranmış cəhalət, doqmatizm və fanatizm səbəbindən azadfikirliliyə qarşı dözümsüzlüyün göstərilməsi Orta əsr Avropası üçün də səciyyəvi idi. Orta əsrin konservativ din xadimləri tərəfindən bəşəriyyətin ən kamil nümayəndələrinin başa düşülməməsi və onlara göstərilən dözümsüzlük nəticəsində Rocer Bekon, Dante Aliqyeri, Nikolay Kopernik, Cordano Bruno, Qalileo Qaliley kimi insanların və bir çox başqalarının xüsusi qəddarlıq və işgəncə ilə edam edilməsi və ya azadlıqdan məhrum edilməsi, iztirab və əzablara məruz qoyulmalarını yada salmaq kifayətdir.

Buna baxmayaraq, XIV əsrdən etibarən həm Avropada, həm də müsəlman Şərqində, teologiyanın əksinə olaraq, XIII əsrin averroistik ənənələrini davam etdirən rasional təfəkkür geniş yayılırdı. Dini insanın vicdanı kimi başa düşən dinüstü rasional dünyagörüşü ümumbəşəri dəyərlər və yüksək mənəviyyat, sabit inkişaf və təhlükəsiz həyat imkanı yaradan humanizmin inkişafının mühüm resursu kimi çıxış etdi, insanların qarşılıqlı anlaşmasına, həmrəyliyinə və əməkdaşlığına yardım edirdi. Ağılın etiqaddan üstünlüyünü, idrakın əbədiliyini, insan biliyinin genişlənməsinin sonsuz imkanlarını tərənnüm edən bu mütərəqqi təlim özündə – insanın inkişaf və özünütəkmilləşdirmə imkanlarının sonsuzluğu, onun əzəməti, ləyaqəti, müstəqilliyi kimi dünyəvi humanizm ideyalarını birləşdirirdi. Belə bir tarixi şəraitdə İmadəddin Nəsimi müsəlman Şərqində öncüllərdən biri olaraq insanın böyüklüyü və əzəməti ideyasını irəli sürdü.

Kulturoloji analiz göstərir ki, dünya mədəniyyətinin inkişafının əsasını şəxsi təcrübəyə əsaslanan kortəbii transformasiya və ya mutasiya ilə yanaşı, həm də və daha çox dərəcədə, mütərəqqi fikir, ideya, texnologiya və mədəni etalonların stimullaşdırılmış transformasiyası formasında mədəni mübadiləsi, eləcə də bəşər nailiyyətlərinin qarşılıqlı təsiri təşkil edir. Nəsiminin dünyagörüşünə hürufizm, sufizm ideyaları, ismailiyyə və "səfa qardaşları" nın təlimləri ilə yanaşı, Şərqin

və Qərbin Ömər Xəyyam (təqribən1048-1122), Nizami Gəncəvi (1141-1209), Françeska Petrarka, Kolyuçço Salyutati, Leonardo Bruno kimi şairlər və öz dövrünün mütərəqqi ideyalarını əxz etmiş digər görkəmli humanistləri də öz təsirini göstərməyə bilməzdi.

Mükəmməl təhsil almış Nəsiminin dünyagörüşü mövqeyinin əsasında Nestorianlıq fəlsəfəsinin də, İbn Rüşdün azadfikirlilik simvolunun "ikili həqiqətlər" konsepsiyasının da, Qərbi Avropa averroizminin banilərindən biri olan Siger Brabandskinin dünyagörüşünün də, humanist İbn Xəldunun sosioloji nəzəriyyəsinin də təsiri nəzərə çarpır. Görünür, gələcəkdə XVIII əsr materializminin yaranmasına təkan verən və yunan fəlsəfəsinə əsaslanan, dövrün ziyalıları arasında geniş yayılan averroizm azadfikirliliyi şairə daha çox təsir göstərmişdir. Əslində, averroizm də Nizami və Petrarkanın humanizmi kimi, hakim feodal ideologiyasına qarşı çıxış edir, insanın orta əsr dünyaduyumu və dünyaya münasibətinin buxovlarından azad olması uğrunda mübarizə aparırdı.

İdrakın etiqad üzərində üstünlüyünü iddia edən və bütün teoloji konsepsiyaları tənqid edən Orta əsr müsəlman mədəniyyətinin özünəməxsus humanizmi Orta əsr, İntibah və Yeni dövr Avropa mədəniyyətinə çox böyük təsir göstərmişdir. Avropa humanizminin vətəni əslən orta əsr İtaliyası hesab edilir. Çoxsaylı şəhərlərin rəngarəng sosial həyatında manufakturanın, bank işinin, kitab çapı və təhsil müəssisələrinin inkişafı ilə bağlı olaraq, bu ölkənin şəhər mədəniyyətində insanların həyat tərzi və dünyagörüşünün transformasiyasına səbəb olan intensiv kulturogenez baş verirdi. Avropa İntibah dövrünün kulturoloji mahiyyəti "yerə" və "göyə" yeni nəzərlə baxılması, insan və onun ləyaqətinə yeni anlam verilməsində idi. Bu anlam biliyin xeyir əməllə eyniləşdirilməsi və insan ilə cəmiyyətin maraqlarının uyğunlaşdırılmasına xidmət etməli olduğunu nəzərdə tutan humanist mədəniyyətinin əsaslarının formalaşmasına şərait yaratdı.

Həyatın mənası haqqında düşünərək İntibah dövr humanistləri "İlahi surətində" yaradılan insanı ətraf aləmin yaranışının ən yüksək məqsədi hesab edərək, onu diqqət mərkəzinə gətirdilər və şəxsiyyətin dəyər meyarının irsi nəcabət və zənginlik yox, şəxsi nailiyyətlər olduğunu söylədilər. İnsan inkişafının tələbatları ilə şərtlənən humanist mədəniyyətinin formalaşması insan, təbiət və cəmiyyətin dərk edilməsi və dəyişdirilməsi üçün yeni, qeyri-məhdud imkanlar açırdı. Mədəni inkişaf prosesində tədricən dərk edilirdi ki, cəmiyyətin inkişafı və insanların həyatının yaxşılaşdırılmasına xidmət edərək qazanılmış şan-şöhrət ədalətsiz və səmərəsiz həyat sürüldüyü halda "itirilə" bilən, irsən qazanılmış ad-sandan daha mühüm və yüksəkdir. Bu anlam müxtəlif zümrələri təmsil edən daha istedadlı və qabiliyyətli ziyalı nümayəndələrini özlərindən əvvəl və keçmişdə mövcud olmuş təsisatları tənqidi təhlil etməyə və həyatı mütərəqqi dəyişmək üçün yaradıcı fəaliyyət göstərməyə həvəsləndirirdi.

Humanizm XIV-XV əsrlərdə, Avropa İntibahı dövründə İtaliyada formalaşaraq, insanlarının qabiliyyəti və resursları hesabına real dünyanın "fövqəltəbii" görülməsindən – "ağıl və azad axtarış" mühakiməsinə tədrici keçidlə xarakterizə

olunurdu. Françesko Petrarka, Kolyuçço Salyutati, Leonardo Bruni, Matteo Palmieri, Marsilino Fiçino, İohann Reyxlin, Erazm Rotterdamski, Mişel Monten və digər görkəmli avropa humanistləri bütün dünyada mədəni insanların bir neçə nəslinin yetişdirilməsində böyük rol oynadılar. XV əsrdə İohann Quttenberq tərəfindən yaradılan kitab çapı ilə yanaşı Avropa humanizminin digər mədəni innovasiyaları Avropada ruhi mədəniyyətin tərəqqisinə böyük təsir göstərmiş İntibah dövrü pedaqogika elminin inkişafında müstəsna rol oynadı.

İlk avropa humanisti XIV əsrdə yaşamış Florensiya şairi və filosofu Françesko Petrarka (1304-1374) idi. O, kitabları və intellektual əməyin əhəmiyyətini yüksək qiymətləndirir, insanın ən yüksək dəyərə malik olduğunu, humanitar elmlər vasitəsi ilə insanın özünü dərk etməsi və mənəvi kamilləşməsinin vacibliyini vurğulayırdı.

Petrarka ilk dəfə olaraq, insanın ruhu ilə cisminin harmoniyasına nail olmağın zəruriliyini, insanın davranışı və cəmiyyət qarşısındakı xidmətləri ilə müəyyən edilən, ilahi yaranış ierarxiyasında insanın yeri ilə şərtlənən nəcibliyin və insan ləyaqətinin tərbiyə edilməsinin vacibliyini söyləmişdir. Bu dövrün humanistləri insanın həyat fəaliyyətinin əsas mənasını ağıl və iradədədən istifadə etməklə təbii duyğuları cəmiyyətin həyatının yaxşılaşmasına yönəldilmiş xeyir əməllərə çevirməkdə, habelə etik qaydaların təkmilləşdirilməsində görürdülər.

XIV-XV əsrlərin sərhədində tarix səhnəsinə insanların vətənin ümumi rifahı naminə xidmət ruhunda tərbiyə edilməsini, azadlıq, ədalət, hüquq bərabərliyi dəyərlərinin təsdiqini nəzərdə tutan və vətəndaşların maraqlarının müdafiəsi və onların əmin-amanlığı üçün daha əlverişli idarəetmə forması olan respublika idarəetmə formasını dəstəkləyən "vətəndaş humanizmi" çıxdı. O, "vətəndaş humanizmi"nin əsasına – cəmiyyətin müəyyən etdiyi etik və hüquqi mədəniyyət prinsiplərinə əməl edilməsini qoyan Salyutati Kolyuçço, Leonardo Bruni, Matteo Palmieri və digər humanistlərin adı ilə bağlı idi. Eyni zamanda, humanistlərin bir hissəsi epikürçülük və stoisizm etik konsepsiyalarına istinad edərək, fərdi mədəniyyətin formalaşmasına səbəb olan şəxsi rifah prinsipini müdafiə edirdilər. Lakin bu zaman ətrafdakıların sevgi, hörmət və etimadının qazanılmasına yönlənən davranışın tərbiyə edilməsinin zəruriliyi də vurğulanırdı. Humanistlərin digər hissəsi xeyirxahlığın əxlaqi meyarlarının prioritet olduğunu hesab edirdilər.

Florensiyadakı Platon akademiyasının banisi və başçısı, XV əsr italyan filosofu və humanisti Marsilio Fiçino (1433-1499) insanın ləyaqətində olan ilahilikdən və bu ilahiliyin Allahın bütün yaratdıqlarındakı iştirakı ilə ölməzlik qazanmasında ifadə olunduğundan danışır. Alim dünyanın yaranışını Vahidin (Allahın) emanasiyası (şüa axını) kimi dərk edərək, ona panteistik şərh verirdi. Erazm Rotterdamski (1466-1536) insanın ləyaqət və dəyərini təlim, tərbiyə və maarifləndirmə ilə formalaşan mədəniyyəti ilə əlaqələndirirdi. O, insanı Allahın bənzəri və surəti kimi nəzərdən keçirərək, şəxsiyyətin özünüdərkinin vacibliyini xüsusi vurğulayırdı.

XVI və XVII əsrlərin sərhədində, humanizm dövrünün başa çatması ərəfəsində bəşəriyyətin təkamül inkişafı prosesində insanın qeyri-məhdud daxili resursları

hesabına onun mədəniyyətinin təkmilləşdirilməsi məsələsi xüsusi diqqət mərkəzində idi. Bu, elm, təhsil və maarifin inkişaf etdirilməsi əsasında sosial etika və insanlararası ahəngdar münasibətlərin yüksək prinsiplərinin formalaşdırılması əsasında insanların intellektual və mənəvi mədəniyyətinin kulturoloji inkişaf yolu idi. O, bilik, bacarıq, mütəşəkkillik və mənəviyyatlılıqla yanaşı, həm də, rifahın yüksəlməsinə və yeni inkişaf imkanlarına yol açan ziyalıların yaradıcı fəaliyyətini də nəzərdə tuturdu.

XIX əsrdən başlayaraq və tarixin sonrakı dövründə mədəni insan həyatın başlıca dəyəri, məqsədi və mənası kimi nəzərdən keçirilməyə başladı. İmadəddin Nəsiminin həyatının erkən və ədalətsiz olaraq sonlanmasından bir neçə yüz il ötməsinə baxmayaraq onun dünya humanizm tarixinə parlaq səhifələrlə yazılmış yaradıcılığı, humanist ideyaları və mənəvi mövqeyi Azərbaycan və dünya ruhi mədəniyyətində dərin iz buraxmışdır. Abuzər Bağırov Nəsiminin şəxsiyyətini və yaradıcılığını qiymətləndirərək onun haqqında fikirlərini parlaq surətdə ifadə etmişdir: “onun dahiyanə yaradıcılığı, insana böyük məhəbbəti və onun qüdrətinə dərin inamı Nəsimini sonrakı nəsillər üçün ölməz edir”.

Azadfikirliliyinə və dahi ideyalarına görə orta əsr fanatizminin qurbanı olan İmadəddin Nəsimi bəşəriyyətin yaddaşında humanizm, ağıl və mərdlik, sarsılmaz iradə və öz əqidələrinə sadiqlik simvolu kimi qalmışdır. Nəsiminin adı ona görə ölməzlik qazanmışdır ki, o, feodalizm dövrünün dini fanatizm və ehkamçılıq şəraitində mütərəqqi ideyaları – insanın qüdrət, əzəmət və yaradıcı qüvvəsinə inamı öz əsərlərində yüksək poetik dillə, obrazlı şəkildə təsvir edə bilmişdir. Onun yaradıcılığını bəşəriyyətin ruhi mədəniyyətinin inkişafında son dərəcə mühüm rol oynamış IX-XIV əsr şərq humanistləri – Ömər Xəyyam, Nizami Gəncəvi, İbn-Rüşd və XV-XVII əsr Avropa humanistləri Mateo Palmieri, Marsilio Fiçino, İohan Reyxlin, Erazm Rotterdamski, Mişel Montenin irsləri arasında əlaqələndirici körpü kimi nəzərdən keçirmək olar.

Nəsiminin həyat yolunun və yaradıcılığının öyrənilməsi belə bir inam yaradır ki, insan dəyərinin həqiqi meyarı nə milliyyəti, nə dini, nə sosial mənşəyi, nə yaşadığı yer, hətta peşəsi belə deyil, onun intellektual və mənəvi mədəniyyəti, habelə humanizm və vətənpərvərliyi ilə şərtlənən fəaliyyətinin nəticələridir. Eyni zamanda aydın olur ki, milliyyətindən, yaşadığı ölkədən və dinindən asılı olmayaraq, ziyalıların mədəniyyətin inkişafı yolunda humanist xidmətləri bütün dünyada sülh mədəniyyətinin qorunması və inkişafı üçün böyük dəyərə malik olan mədəni identikliyin və müxtəlif xalqlar və dinlərin nümayəndələri arasında “ruhi yaxınlığın” formalaşmasına yardım edir.

Dahi İmadəddin Nəsiminin humanizm fəlsəfəsinin yüksək dünyagörüşü və kulturoloji dəyəri bu gün də öz milli və beynəlxalq əhəmiyyətini qoruyub saxlayır. İmadəddin Nəsiminin irsinin yenidən dəyərləndirilməsi beynəlxalq mədəni identikliyin formalaşması proseslərinin genişlənməsi və dərinləşməsi, qloballaşma şəraitində davamlı inkişaf naminə xalqların və dövlətlərin qarşılıqlı anlaşması, həmrəyliyi və əməkdaşlığı üçün yeni imkanlar açır.

## Nizami Gəncəvi
## ruhi mədəniyyətin böyük yaradıcısı kimi

*(dahi Azərbaycan mütəfəkkirinin kulturoloji portreti)*
*"Nizami Gəncəvi: mədəniyyətlər arasında körpü" mövzusunda*
*Beynəlxalq forumda məruzə. Bakı, Azərbaycan. 24 noyabr 2021-ci il*
***("Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı, №3, 2021, s. 91-104)***

*"Əgər dünya mədəniyyəti müdafiə etsə,*
*mədəniyyət dünyanı xilas edər!"*

2021-ci il Azərbaycan xalqının mədəniyyət tarixinə ruhi mədəniyyətin böyük yaradıcılarından biri – Nizami Gəncəvinin şanlı, 880 illik yubiley ili kimi daxil oldu.

Dahi Azərbaycan mütəfəkkiri və şairi Nizami Gəncəvinin yubileyi mədəniyyətdə sonsuz inkişaf mənbəyi və dünyanın xilasını görən planetin bütün yüksək mədəniyyətli insanlarının və xalqlarının böyük bayramıdır!

Nizami Gəncəvi ölümsüz şedevrlər yaradıb. Onun dühası bəşəriyyətin böyük mütəfəkkirləri, ziyalıları və şairləri arasında layiqli yer tutur. Dünya mədəniyyəti və sivilizasiyasına verdiyi töhfənin önəminə görə Azərbaycanın böyük söz ustası Sokrat, Platon, Aristotel, İbn Sina, İbn Rüşd, Petrarka, Dantes, Leonardo da Vinçi, Şekspir, Puşkin və əqli və mənəvi mədəniyyətin başqa böyük yaradıcıları ilə bir sırada durur. Onun bənzərsiz yaradıcılığı təkcə Azərbaycan xalqının deyil, həm də bütün bəşəriyyətin ruhi mədəniyyətinin sərvətidir. Qeyd edək ki, Nizami yaradıcılığının görkəmli tədqiqatçısı akademik Rüstəm Əliyev onun poeziyasını XI-XII əsr Avropa yazıçılarının cəngavər ruhlu romanları ilə müqayisəli təhlil edərək hesab edirdi ki, Nizami yaradıcılığının ideya səviyyəsinə Avropa ədəbiyyatı XIX əsrdə çatmışdır.

Nizami Gəncəvi yaradıcılığının əzəmətli mənzərəsi XII əsrin əvəzolunmaz azərbaycanlı ziyalısının ağıl və qəlb işığına heyranlıq doğurur. Avropada İntibah və Maarifçilik dövrlərinin çox sayda tanınmış ideyalarını bir neçə əsr qabaqlayaraq zamanının yüksək mədəniyyətli, ləyaqətli insanı kimi təkcə orta əsrlər Azərbaycan İntibahının deyil, həm də Müsəlman mədəni İntibahının parlaq nümayəndələrindən biri olmuşdur.

Nizami ilahi istedad, incə ağıl və gərgin əməklə əldə etdiyi ensiklopedik biliklərin sahibidir. Qabiliyyəti və yüksək mənəvi keyfiyyətləri, yorulmaz yaradıcılıq fəaliyyəti, özünü təkmilləşdirməsi və vətənpərvərliyi sayəsində XII əsr Azərbaycan cəmiyyətində mədəni sərvətlərin və həyat hikmətlərinin istehsalının və yayılmasının əvəzsiz mənbəyinə çevrilmişdir. Nizami Gəncəvi möhtəşəm əsərlərini görkəmli qabiliyyətləri, sistemli təfəkkürü, geniş kulturoloji bilikləri, xalqa sevgisi, çox sayda məşhur alimlərin, mütəfəkkirlərin və şairlərin əsərlərinin müqayisəli analizi və ümumiləşdirilməsinə əsaslanmış məhsuldar əməyi sayəsində ərsəyə gətirmişdir. Bu əsərlər Nizaminin ruhi mədəniyyət, özünütəkmilləşdirmə prosesində kainatın sirlərinə nüfuz edən yeni biliklər yaradıcısı kimi özünə olan yüksək

tələbkarlığının nəticəsi idi. Onun təfəkkürü, mədəni dəyərləri, poemaları və bədii üslubu orta əsrlər müsəlman Şərqinin çox sayda mədəniyyət xadimləri üçün paradiqma rolunu oynadı.

Nizami xoşbəxtliyə can atan insan qəlbinin və şəxsiyyətin daxili aləminin inkişaf qanunlarının böyük bilicisidir. Onun zamanını qabaqlayan əsərləri, onların ruhi mədəniyyətin inkişafına və bütün dünyada yüksək mədəniyyətli insanların yetişməsinə təsirini yüksək qiymətləndirmək gərəkdir. Nizami sözünün sehri onun yüksək mənəviyyatını və əqli mədəniyyətinin enerjisini əks etdirməklə, müasirlərini: nə şairləri, nə alimləri, nə idarəçiləri, nə zadəganları, nə bürokratları, nə hərbçiləri, nə də kəndliləri biganə qoya bilməzdi. O, milyonlarla azərbaycanlının – ailələrin, gənclərin, yaşlı nəslin, qadınların və uşaqların ağlına və qəlbinə nüfuz etməklə onların mədəniyyətini dəyişdirmiş və təkmilləşdirmişdir. Nizami şəxsiyyəti və onun nailiyyətləri bu gün də bütün dünyada çoxsaylı mütəfəkkirlərin, maarifçilərin, şairlərin yaradıcı ilhamının mənbəyidir.

Özünün həyatdakı missiyasının xalqın ruhi mədəniyyətinin inkişafına xidmətdə olduğunu dərk edən Nizami Gəncəvinin yaradıcılıq fəaliyyətinin sahəsini və formasını düzgün seçməsi müasir dünyanın inkişaf qanunauyğunluqları və meyilləri ilə təsdiqlənir. Sivilizasiyanın inkişafının tarixi qanunauyğunluqlarının sistemli kulturoloji təhlili göstərir ki, dünyanın xilası yüksək ruhi mədəniyyətdədir ki, onun vasitəsilə də cəmiyyətin, dövlətin və bütün bəşəriyyətin inkişaf və nailiyyət dəyərləri, məqsədləri ölçülür. Dövrümüzün siyasi, sosial-iqtisadi və ekoloji problemlərin həllində ruhi mədəniyyətin dəyişdirici rolu çox qiymətlidir. O, insanın və onu əhatə edən aləmin keyfiyyətli dəyişiminin əhəmiyyətli vasitəsi olmaqla, düşüncə və davranış mədəniyyəti, əmək və istehsalat mədəniyyəti, ailə, özünütəkmilləşdirmə və idarəetmə mədəniyyətini özündə cəmləyərək, insanın həyat fəaliyyətinin fərqli sahələrini əhatə edir. Onda insanların qabiliyyətləri və istedadları, onların bilikləri və peşəkarlığı, vicdanı və humanizmi, vətənpərvərliyi və insan həmrəyliyi, habelə zehni əməyin iqtisadi məhsulda materiallaşmış nəticələri cəmlənib.

Nizami təbiəti bütöv, canlı, qarşılıqlı asılı və bölünməz orqanizm olaraq görür ki, onun da hər bir hissəsi öz funksiyasını yerinə yetirir. Bu orqanizmin həyat qabiliyyəti də ən çox insanların ruhi mədəniyyətindən, onların biliklərindən və mənəvi keyfiyyətlərindən, şüurundan, davranışından, cəmiyyət və gələcək nəsillər qarşısında məsuliyyətindən asılıdır. Mədəniyyət də insan ağlı, qəlbi və əməyi ilə yaranan “ikinci süni təbiət” kimi bütöv sosial sistemdir. İnsanın həyat fəaliyyətinin müxtəlif sahələri onun çərçivəsində qarşılıqlı fəaliyyət göstərir və bu sahələrin hər biri özünün strukturuna, funksiyalarına, enerjisinə, hərəkət oxuna, nəticələrinə və dəyişdirici imkanlarına malikdir. Bu sistemin başlıca hərəkətverici qüvvəsi və bərpaolunan strateji resursu insandır. Dahi Nizami bu həqiqətin dərkini əldə rəhbər tutaraq XII əsrin feodal mədəniyyətinin sosial şərtlərində öz yaradıcı fəaliyyətini cəmiyyətin yüksək mənəvi və əqli mədəniyyətinin formalaşmasına, yüksək mədəniyyətli azərbaycanlıların inkişafına yönəltdi. O, yüksək mədəniyyətli azərbaycanlıları xalqın sosial tərəqqisinin əsası kimi görürdü.

*Nizami Gəncəvinin böyüklüyü hər şeydən əvvəl ondadır ki, orta əsrlər zamanında, zəif təhsilli kütlə üçün elm, mənəviyyat, tarix, din həqiqətlərini şeir formasında çatdırır, onları bəşəriyyətin yaratdığı intellektual və mənəvi mədəniyyətin nailiyyətləri ilə tanış edirdi.*

Tarixin həmin dövründə kitabların əlyazmaları, əsasən, saraylarda, məscidlərdə, Gəncə kitabxanalarında, varlı feodalların kolleksiyalarında və azsaylı mədrəsələrdə saxlanılırdı. Məhdud say və yüksək qiymət ucbatından, bəzi istisnalar xaricində, kitablar sadə, savadsız xalq üçün əlçatmaz idi. Bu səbəbdən orta əsrlər şəraitində, əhalinin azsavadlılığı və kitab çapının olmadığı vaxtda Nizaminin asan yaddaqalan şeir formasında əsərləri Azərbaycan cəmiyyətinin akkulturasiya və inkulturasiyasının qiymətli mənbəyidir. Onlar sadə insanlara öz ruhi mədəniyyətini inkişaf etdirməyə, öz missiyasını başa düşməyə, həyatın mənası haqqında düşünməyə, qabiliyyətlərini və həyat fəaliyyəti keyfiyyətini yaxşılaşdırmağa kömək edirdi.

Nizami Yaradanın işığına və enerjisinə arxalanaraq, öz yaradıcılıq missiyasını "ağlın bütün qırıntılarını insanlar qarşısında səpməkdə" görür. O, öz poeziyasına "ilahi nəfəs" bəxş edilməsini arzu edir ki, onun poeziyası "ən çətin qıfılları aça bilən açar olsun, yüksək mənanı aydınlaşdırsın və insanlara xoşbəxtlik gətirsin". Böyük mütəfəkkir Yaradandan "ona Allaha layiq nitq bəxş etməsini, onu pis fikirlərdən və ləyaqətsiz işlərdən uzaq tutmasını, qəlbini onun işığı ilə nurlandırmasını və sözün gücü ilə yaxşı vəsiyyətlərə xidmət etməsinə yardım etməsini" xahiş edirdi.

Bu sözləri diqqətlə oxumaq kifayət edir ki, yüksək mədəniyyətli insanlara xas çox sayda gözəl keyfiyyətlərin təcəssüm olunduğu bu görkəmli şəxsiyyətin ağlının ölçüyəgəlməz dərinliyini və ruhunun nəcibliyini qiymətləndirə bilək. Nizaminin fikirlərinin tərəqqipərvərliyi elmi biliklərə və yaradıcılığa yorulmadan can atması ilə izah olunur. Biz onda ədalət, vətənpərvərlik və xalqına xidmətlə bərabər, vahid sosial orqanizm, ümumi köklərə sahib ağac kimi ümumbəşəri dəyərlərə sadiqlik, bütün insanlığa mənsubluq görürük. Buna görə də Nizami Gəncəvi qəlblərimizdə təkcə Azərbaycan vətəndaşı kimi deyil, "dünya vətəndaşı" kimi yaşayır.

Nizami Gəncəvi ruhi mədəniyyəti bilik, xeyir, inkişaf və rifah, cahilliyi isə şər, kasıblıq və zəiflik olaraq görür. Bundan çıxış edərək, xalqın ruhi mədəniyyətinin tərəqqiyönümlü dəyişməsi üçün maarifləndirici missiyasını yaxşı dərk edərək Azərbaycan cəmiyyətində təsdiqini tapmaq naminə bilik və xeyir, həqiqət və gözəllik, sevgi və dostluq, nəciblik və mərdlik dəyərləri yaradırdı. Qeyri-adi istedadı və müdrikliyi sayəsində təbiət, insan həyatı və bəşəriyyətin tarixi hadisələrini müşahidə və təhlil etmək prosesində Nizami ona qədər heç kəsin görmədiklərini görə bilir, beləliklə də yeni biliklər və mədəniyyət inciləri yaradırdı.

Nizami böyük humanist olaraq cəmiyyət üçün təhlükəli, dağıdıcı xarakter daşıyan, xeyrin əksi, antihumanizm və antimədəniyyətin forması olan yüksək eqo və şərə qarşı çıxırdı. Dahi fikir və söz ustadı insanın yüksək missiyasını ruhi mədəniyyətin ayrılmaz hissəsi olan xeyir vasitəsilə bütün dünyadakı insanlara xidmətdə görürdü.

“Can qurtarmağa vardır iki yol:
Ya pisliyi bəyən, ya pis adam ol”

☸

“Çalış öz xalqının işinə yara,
Geysin əməlindən dünya zərxara.
Xoş ətirlər saçmaq istəyən adam,
Gültək xoşxasiyyət olmalı müdam”.

☸

Nizaminin yüksək mənəvi missiyasının qiymətləndirilməsinə onun həmvətəni, XIX əsrin görkəmli Azərbaycan mütəfəkkiri və şairi Mirzə Şəfi Vazehin sözləri kömək edir:

“Düzlüklə alçaqlıq çarpışan zaman,
Alçaqlıq nədənsə qazanır hər an.
Çünki alçaqlarçün ən alçaq işlər,
Alçaqlıq deyildir, hünərdir, hünər”.

Müasir dünyada şərin geniş yayılmış formaları ədalətsizlik, paxıllıq, yalan, böhtan və zorakılıq kimi insan “xüsusiyyətləridir”. Səbəb-nəticə olaraq, onlar yüksək eqoizm və cahillik, ikiüzlülük və biganəlik, saxtakarlıq, xəyanət və digər insan xüsusiyyətləri və davranışları ilə qarşılıqlı əlaqəlidir. Bu cür “keyfiyyətlər”in səciyyəvi olduğu insanlar mədəni ola bilərmi? Çətin ki. Hərçənd belə insanlar təhsilli olması səbəbindən sivil sayılır, humanizmdən, insanlıqdan uzaq olaraq öz yüksək eqosunun təsiri altında yaşayır, dağıdıcı qüvvə ilə cəmiyyət üçün təhlükəyə çevrilirlər. Nizami Xeyrin Şər üzərində qələbəsinə aparan yolu insan və cəmiyyətin yüksək ruhi mədəniyyətinin inkişafına yüksək eqo və cahilliyin qarşısını almaqla nail olmaqda görürdü. Bundan çıxış edərək, o, əsərlərində ruhi mədəniyyətin humanizm və biliklər, vicdanlı əmək, ədalət, vicdan, qəhrəmanlıq, şərəf, inam, həqiqətə sadiqlik və xeyir idealları uğrunda mübarizə kimi dəyərləri önə çəkirdi.

Yüksək humanist mədəniyyətə malik insan kimi Nizami təkcə özü üçün deyil, hər şeydən əvvəl, xalq üçün yaşayır, həmvətənlərinin mədəniyyətini fədakar intellektual əməyi ilə yaradılmış yeni biliklərlə zənginləşdirirdi. O, bəşəriyyətin mədəni arxetiplərini, fərqli dövrlərin və xalqların antik və orta əsrlərdəki dəyərlərini və nailiyyətlərini diqqətlə öyrənir, onları Azərbaycan xalqının ruhi mədəniyyətinin ən yaxşı formaları və normalarının seçilməsi üçün istifadə edirdi.

Məlum olduğu kimi, varlıq əsasən şüuru müəyyən edir. Bu, XII əsr şərq saray poeziyasında avtoritar həyat şəraiti və feodal cəmiyyətin xüsusiyyətlərindən doğan şişirdilmiş tərif, həqiqətin təhrifi, yalan və səmimiyyətsizlik kimi stereotipləri izah edir. Ölümsüz əsərləri ilə bu stereotipləri və ənənələri mühakimə edərək, Nizami cəmiyyətin mədəniyyətinin yaxşılığa doğru dəyişməsi məqsədilə həqiqətə, yeni düşüncəyə və həqiqətin obyektiv təsvirinə yol açmaqla poeziyada antirealist incəsənətə etiraz etmişdir. Nizaminin poeziyası həyata nikbin münasibət

bəsləyən səciyyə daşıyır. O, feodal cəmiyyətinin xüsusiyyətlərini tənqidi mövqedən nəzərdən keçirərək hesab edir ki, özündə gözəllik duyğusunu tərbiyə etməklə və "həyata gözəl nemət kimi" dəyər verməklə, özünün həyat fəaliyyəti mədəniyyəti, zəhməti və insanların rifahı yolundakı nailiyyətləri ilə əbədiyyət qazanmaq olar.

Orta əsrlərin bu və ya digər dərəcədə tanınan, "hökmdarların həyatını" ancaq müsbət tərəfdən tərənnüm edən müsəlman saray şairləri və filosoflarından fərqli olaraq, Nizami xalqın müxtəlif sosial təbəqələrinin dəyərlərini, psixologiyasını, ənənələrini, həyat tərzini, mental xüsusiyyətlərini, əqidələrini və arzularını əks etdirən, sadə azərbaycanlıların realistik portretlərini yaradırdı. Bununla yanaşı o, yüksək mədəniyyətli insanların obrazlarını, həmvətənlərinin onun səviyyəsinə çatmaq üçün can atdığı, öz bilikləri və mənəvi keyfiyyətləri ilə seçilən yaradıcıların və qəhrəmanların həyat tərzini formalaşdırırdı.

Nizaminin əsərləri, humanist ideyaları və dünyagörüşü dəyərləri onu deməyə əsas verir ki, görkəmli şairimiz sistemli kulturoloji təfəkkürə malik olmuşdur. O, öz əsərlərini müxtəlif xalqların və dövrlərin alimlərinin, mütəfəkkirlərinin, filosoflarının və şairlərinin qiymətli əsərlərinin sistemli təhlili əsasında yaradırdı. Eyni zamanda bütün dövrlərdən olan, "öz nəsihətləri ilə hamını ziyalandıran" böyük insanların obrazlarını təsvir edərək yaradıcı fəaliyyətin və universal elmi biliklərin insan mədəniyyətinin inkişafı üçün dəyərini açıqlayırdı.

Nizaminin ölümsüz əsərləri cəmiyyətin rifahına və insanın xoşbəxtliyinə aparan yolları və yeni imkanları görməyə kömək edən dərin kulturoloji ideyalarla zəngindir. Onlar şairin cəmiyyətin həyat fəaliyyəti mədəniyyəti və dövləti idarəetmə mədəniyyəti ilə bağlı vətəndaş mövqeyini əks etdirir. O, təkcə insanı əhatə edən təbiəti deyil, həm də cəmiyyətin rifahının və insanın xoşbəxtliyinin asılı olduğu insan təbiəti, şəxsiyyətin psixologiyası, insan, sosial və beynəlxalq münasibətlər mədəniyyətinin mahiyyətini təhlil edir.

Nizami poemalarında konsepsiyası öz kökləri ilə konfutsianlıq həyat fəlsəfəsinə gedib çıxan meritokratik mədəniyyətin və tərbiyə və idarəetmə sisteminin tərəfdarı kimi görünür. Nizami Azərbaycan cəmiyyətində sosial ahəng və rifaha nail olmaq məqsədilə insanları layiqli və insaflı vətəndaşlar olmağa, vətənin xeyrinə vicdanla çalışmağa, hökmdarları isə – öz təbəələrinin əməyini layiqincə qiymətləndirməyə və mükafatlandırmağa səsləyirdi. Zorakılığa qarşı çıxan, ədalətin müdafiəsinə qalxan Nizami öz əsərlərində Bəhram şah və İskəndər kimi müdrik, alicənab və ədalətli hökmdarları mədh edirdi. Humanizm tərəfdarı incə eyhamlarla ya da şərin tənqidi ilə hökmdarları "mədəni idarəçiliyə", xeyirxahlığa və insanlığa,  ədalətə və mərhəmətə çağırır, pisliyə görə cəzanın qaçılmaz olduğunu qeyd edərək, onları zorakılıqdan çəkindirirdi. Eyni zamanda o, vətənpərvərlik və meritokratik mədəniyyətin prinsiplərini rəhbər tutaraq həmvətənlərinə də, hökmdarlara da bilikləri təkcə qiymətləndirməyi deyil, həm də öz biliklərini inkişaf etdirmək yolu ilə kamilləşməyi məsləhət görürdü.

“Bilikli adamlar uzağı görər,
Cahilin zəhməti hədərdir, hədər”.
“Kim ki ibrət dərsi alıb dünyadan
Sözün lövhəsini öyrənən zaman
Eləmiş sənəti elmə xəznədar,
Dünyanın müşkülü belə açılar”.

❁

“Hərçəndi sənətin çox rütbəsi var,
Həyata faydalı bir elm axtar.
Bu əyri çizgilər cədvəlində sən
Özünü şərh edib, özünü öyrən!”

❁

“Bilikdən dünyada nur alaram mən,
Mənəm hər bilikdə başlıca bir fənn”.

❁

“Hər yerdə hünərə verilmiş qiymət,
O yerdə gün-gündən ucalmış dövlət”.

İnsanın onların vasitəsilə şöhrət və xoşbəxtlik qazana biləcəyi elmi bilik ideallarını tərənnüm edərək, Nizami öz oğlunu da elmlə məşğul olmağa səsləyirdi.

“Oturtdu öyrənsin ədəblə hünər,
Günəş eylər daşı qiymətli gövhər”

❁

“Bilik kəsb etməklə dünyanı qazan,
Əsmanı oxu ki, məna alasan.
Qaç o sözlərdən ki, mənasız, boşdur,
İlahi elmlər öyrənmək xoşdur”.

Eyni zamanda Nizami müsbət cəhətlər olan ağıl və biliyi yalnız insanın xeyirxahlığı, humanizmi, mənəvi keyfiyyətləri ilə ayrılmaz əlaqədə nəzərdən keçirirdi.

“İnsana arxadır onun kamalı,
Ağıldır insanın dövləti, malı.
Kim ki yetişmədi ağıldan bara,
Oxşar insan sifət əjdahalara”.

❁

“Zirək adam, insan məләkdir, mələk.
Zirəklik gözəldir, əcəbdir, gerçək...
Kim qayğı bəsləsə öz əməyinə,
Özgəyə pis baxsa, o pisdir yenə”.

Nizaminin mənəvi mövqeyinin müdrikliyi göz qabağındadır, çünki tarixin də göstərdiyi kimi, şərə nə gücün hüququ, nə də hüququn gücü ilə qalib gəlmək olar, yalnız insanın dəyərlərini, əqidəsini, şüurunu və davranışını müsbət yöndə dəyişən yüksək ruhi mədəniyyətin işığının gücü və enerjisi ilə buna nail olmaq mümkündür. Dünyanın xilası cəmiyyətin, dövlətin və bütün bəşəriyyətin dəyərlərini,

inkişaf məqsədlərini və nailiyyətlərini bir çox cəhətdən müəyyən edən yüksək ruhi mədəniyyətdədir. O, insanın və onu əhatə edən aləmin keyfiyyətcə dəyişilməsinin zəruri aləti olmaqla, özündə insanların qabiliyyətlərini və istedadlarını, biliklərini və peşəkarlığını, dürüstlüyünü və humanizmini, vətənpərvərliyini və insan həmrəyliyini, habelə intellektual əməyin iqtisadi məhsulda maddiləşdirilmiş nəticələrini ifadə edir.

Nizami mədəniyyətin böyük yaradıcısı kimi feodal mədəniyyət dəyərlərindən – bilik və humanizm dəyərlərinə tədrici keçid üçün əsaslar yaratmış, hansısa dərəcədə Avropada İntibah və Yeni dövr proseslərini qabaqlayaraq Azərbaycan xalqının kulturogenezində mühüm innovativ rol oynamışdır. Onun yaradıcı fəaliyyəti və ölümsüz əsərləri – Azərbaycan xalqına və bütün bəşəriyyətə sevgisinin təzahürüdür. O, insana, onun daxili dünyasına, dəyərlər sisteminə, həyat fəaliyyəti məqsədləri və texnologiyalarına nəzər salaraq müasirləri həyatda xoşbəxtliyə qovuşsunlar deyə onların əqli və ruhi mədəniyyətinin inkişafına təkan verməyə səy göstərirdi.

Nizami xalqın kulturogenezinin formalaşmasında və yüksək mədəniyyətli azərbaycanlıların inkişafında qadının mühüm rolu olduğunu qeyd edirdi, onun poemalarında qadın hörmətli yer tuturdu. Orta əsrlər cəmiyyətinin inkişaf qanunauyğunluqlarını və tələbatlarını təhlil edərək, Nizami ardıcıl olaraq Azərbaycan qadınlarının hüquqlarının genişləndirilməsi ilə bağlı çıxış edir, müdrik və nəcib qadınların idarəçiliyini cəmiyyət üçün xoşbəxtlik hesab edirdi. O, çox gözəl başa düşürdü ki, hüquqsuz və təhsilsiz qadın öz uşaqlarını layiqincə tərbiyə edə, layiqli həyat və həyatdakı problemlərin düzgün həlli üçün zəruri olan mədəni keyfiyyətlərə malik dəyərli şəxsiyyətlər kimi yetişdirə bilməz.

Beləliklə, Nizaminin əsərləri belə bir qənaət yaradır ki, insan xoşbəxtliyinə əlçatanlıq təkcə səmada deyil, eləcə də yerdədir. Əgər insan onu əhatə edən aləmə ağılla və sevgi ilə yanaşsa, buna nail ola bilər. Bunun vacib şərti gözəl əxlaqa və elmi biliklərə sahib, yüksək mədəniyyətli, layiqli vətəndaşların cəmiyyətində tərbiyə almaqdır. Özünü və əməyini cəmiyyətə xidmətə həsr edən bu insanlar hər bir ölkənin və bütün bəşəriyyətin əsas sərvətidir.

Nizami "Xosrov və Şirin" poemasına "Müqəddiməsində" insanı öz düşüncəsinin kamilliyinə heyran qoyur. O, Allaha xitabən deyir:

"Kömək qapısını aç, ey Yaradan!
Göstər Nizamiyə düz yolu hər an!"

Böyük Azərbaycan mütəfəkkiri gözəl başa düşürdü ki, ailədə düzgün tərbiyədən və cəmiyyətin dəyərlər sistemindən asılı olan insanın mənəvi mədəniyyəti – obrazlı şəkildə quş formasında təsvir edilən ruhi mədəniyyətin yalnız bir qanadıdır. Quşun seçdiyi hədəfə uça bilməsi üçün digər qanad – intellektual mədəniyyət də ahəngdar şəkildə inkişaf etməlidir. İntellektual mədəniyyətin mənbəyi elm, təhsil və maarifləndirmədir. Yalnız mədəniyyətin hər iki qanadının ahəngdar hərəkəti onun cəmiyyətdə tərəqqiyönümlü missiyasının uğurunu təmin edə bilər. Məhz buna görə də biz onun əsərlərində yüksək mənəvi dəyərlərin tərbiyəsi ilə

yanaşı, özünütəhsilə sevgi, azərbaycanlıların intellektual mədəniyyətinin inkişafına təkan verən, cəmiyyətin yüksək ruhi mədəniyyətinin inkişafı üçün zəruri olan elmi nailiyyətlərin dərkinə cəhdləri də görürük.

“Dünyada boşuna keçmədi ömrüm,
Yeməkdən, içməkdən başqa iş gördüm.
Hər gecə biliyə qapı açmadan
Başımı yastığa qoymadım bir an”.

❁

“Zəhmətdən incimə, yeni mədən aç
Bu dünya əhlinə xəzinələr saç!”

Nizami inanır ki, yüksək ruhi mədəniyyət, yaradıcı əmək və xalqa xidmət insanın ilahi substansiyanın bir zərrəsinə çevrilməsinə, onun əbədiyyətə yaxınlaşmasına kömək edəcək.

“Bil ki, ərşin sultanı xəlq edərkən cahanı,
Çəkdi, qoşa yaratdı həm surəti, həm canı
Nəhayətsiz, sonsuzdur Tanrının kəraməti,
Kərəm saçıb, can ilə birləşdirdi surəti”.

Bununla yanaşı, kainatın inkişaf qanunlarının öyrənilməsi Nizami üçün məqsədin özü deyil, xalqın maariflənməsi məqsədilə elmi biliklərin inkişafı və yayılması üçün zəruri mənbədir. Onun yaradıcı əməyinin əsasında milli mədəniyyətin forma və normalarının təkmilləşməsinə hədəflənmiş sosial çevrilmə tələbinin dərki; həmvətənlərinin intellektual və mənəvi mədəniyyətinin inkişafı yolu ilə ruhi mədəniyyətin tərəqqiyönümlü dəyişilməsi məsuliyyəti dayanır.

*Bəlkə də Nizaminin ən böyük xidməti odur ki, insan xarakterinin ən yaxşı obrazlarını tərənnüm etməklə, orta əsr cəmiyyətində onun davranış modellərini təklif etməklə, Nizami öz müasirlərinin şüurunda layiqli, yüksək mədəniyyətli şəxsiyyətin əhatəli portretini yaratmış və onun keyfiyyətlərinin qiymətləndirilməsi meyarlarını müəyyən etmişdir.* Yuxarıda adları çəkilən keyfiyyətlərlə yanaşı, hər şeydən əvvəl yüksək mənəvi və intellektual mədəniyyət həm də – möhkəm iradə, insan həmrəyliyi və xalq və ölkənin gələcəyi qarşısında məsuliyyətdir. *Beləliklə, Nizami ona xas olan müdriklik və vətənpərvərliklə, öz yaradıcı fəaliyyəti ilə azərbaycanlıların – özündə elmi bilikləri, milli ruhu və ümumbəşəri dəyərləri birləşdirən, xalqımızın xarakterik cəhətlərini yüzilliklər əvvəldən müəyyən edən mədəniyyətinin formalaşmasına təkan vermişdir.* Yüksək mədəniyyətli şəxsiyyətin bu əsas göstəriciləri cəm halında ümumbəşəri səciyyə daşıyır və öz aktuallığını bu gün də itirməmişdir.

*Nizami Gəncəvinin dünya mədəniyyəti qarşısındakı görkəmli xidmətlərindən biri də o idi ki, yüksək mənəvi dəyərləri yayan humanist yaradıcılığı ilə o, müxtəlif etnosların, millətlərin və xalqların qarşılıqlı anlaşmasına, ruhi yaxınlaşmasına və mədəniyyətlərinin harmoniyasına yardım etmişdir.*

Nizaminin insan inkişafına humanist yanaşması və müdrik əxlaqi mövqeyi bəzi insanların cahilliyi və yüksək eqoizmi, mənəvi mədəniyyət dəyərlərinin aşın-

ması, ikili standartlar, insan hüquqlarının pozulması, zorakılığın fərqli formaları ilə müşayiət olunan sivilizasiya böhranı yaşadığımız bugünkü günümüzdə də son dərəcə aktualdır.

Nizami Gəncəvi yüksək ruhi mədəniyyətin daşıyıcısı və yaradıcısı kimi bu gün də bizim aramızda yaşayır. O, Azərbaycan və dünya qeyri-maddi mədəniyyətinin misilsiz dəyərə malik abidələrinin yaradıcısı olmuşdur və elə olaraq qalır. Onun əsərləri bu gün də Azərbaycan xalqının və bütün sülhsevər insanların yeni nəsillərini ruhi mədəniyyət, həqiqi sevgi, xeyir, ədalət, Yer üzündə layiqli həyat və xoşbəxtlik naminə yaradıcı əməyə sövq edir.

Dünya mədəniyyətində Nizaminin yaradıcılıq irsinin geniş öyrənilməsi və yayılması, onun dahiyanə ideyalarının, şüarlarının və müdrik kəlamlarının praktiki istifadəsi qloballaşma şəraitində cəmiyyətin davamlı, enklüziv və təhlükəsiz inkişafı üçün zəruri olan keyfiyyətlərə malik yüksək mədəniyyətli insanların formalaşdırılmasının vacib şərtlərindən biridir. O, insan münasibətləri və beynəlxalq münasibətlər mədəniyyətinin təkmilləşdirilməsi yollarını və metodlarını düzgün görmək, habelə bəşəriyyətin humanitar təhlükəsizliyini təmin edən çoxsaylı aktual problemləri həll etmək üçün imkanlar açır. Müxtəlif ölkələrin gənclərinin yüksək ruhi mədəniyyət dəyərləri əsasında daha dərindən sosiallaşması vətəndaşların öz ölkəsinə, ailəsinə, dostlarına və sevdiklərinə sədaqətinin tərbiyə edilməsinə, eləcə də mədəniyyətlərin dialoqu, qarşılıqlı anlaşma, sülh və səmərəli əməkdaşlıq üçün zəruri olan beynəlxalq mədəni identikliyin və insan həmrəyliyinin formalaşmasına kömək edəcək.

Ruhi mədəniyyətin obyektiv-tarixi inkişaf amillərinin Nizaminin yaradıcılıq irsi kontekstində təhlili göstərir ki, yüksək mədəniyyətli insanların formalaşmasının və inkişafının müəyyənedici şərti ailə mədəniyyəti, əmək kollektivləri mədəniyyəti və cəmiyyətin özünün mədəniyyətindən ibarət olan cəmiyyətin sosial mühitidir. Sosial mühit insanların xarakterinə və psixologiyasına, onların anadangəlmə mədəni keyfiyyətlərinə böyük təsir göstərir. İnsanın sosial mühitin təsiri altında sonradan qazandığı xüsusiyyətlər zaman keçdikcə mədəniyyətin genetik kodu səviyyəsinə keçərək, onu bu və ya digər tərəfə dəyişdirir. Uşaq yaşlarından başlayaraq cəmiyyətdə intellektual və etik mədəniyyətin prioritet inkişafını təmin etmək elə buna görə vacibdir. Mədəniyyət haqqında elmin nailiyyətlərinə söykənərək, insanların keyfiyyətli kulturoloji təhsilini və maarifləndirilməsini təmin etmək lazımdır. Çünki cəmiyyətin insan kapitalının – siyasətçilərin, məktəbəqədər müəssisələrin tərbiyəçilərinin, orta məktəb və ali məktəb müəllimlərinin, dövlət qulluqçularının və jurnalistlərin, valideynlərin və uşaqların, gənclərin və yaşlı nəslin nümayəndələrinin inkişafı daha çox bundan asılıdır.

Nizaminin yüksək mədəniyyətli şəxsiyyət kimi yetişməsində təbii-coğrafi şərait, anadangəlmə mədəni keyfiyyətlər, ailədə və Gəncə şəhərindəki əlverişli sosial mühit, mədəni mübadilə və tarixi şərait mühüm rol oynamışdır. Onun yaradıcı və maarifləndirici fəaliyyətindəki müvəffəqiyyətinə ilahi istedad, universal biliklər, xalq tərəfindən yüksək qiymətləndirilmə və mənəvi dəstək, hökmdarların

müsbət münasibəti çox dəstək olmuşdur. Mədəni və nüfuzlu ailədə doğulmuş Nizami öz dövrü üçün "ədəb" fənlər kompleksi əsasında universal təhsil almışdır. Təhsil prosesində poetika, nəzm və islam hüququ ilə bərabər, tarix, coğrafiya, məntiq, hesab, cəbr, ali riyaziyyat, həndəsə, astronomiya, tibb, kimya, mineralogiya və onun ensiklopedik biliklərinin formalaşmasına kömək edən başqa fənləri öyrənmişdir. Özü üzərində dayanmadan çalışmaq, məqsədyönlülük və iradə sayəsində Nizaminin hər şeyi araşdıran ağlı müxtəlif xalqların sərvəti sayılan antik və orta əsrlər elminin nailiyyətləri ilə zənginləşmişdir. O, təbiətin və cəmiyyətin sirlərinə addım-addım vaqif olaraq, XII əsrin insanlarının universal kulturoloji biliklərinin Azərbaycan xəzinəsinə çevrilmişdir.

Beləcə, görkəmli Azərbaycan mütəfəkkiri davamlı özünütəhsil və özünütəkmilləşdirmə, Gəncənin zəngin kitabxanasında saxlanılan Şərq və Qərb alimlərinin, filosoflarının və şairlərinin əsərlərini dərindən öyrənməsi sayəsində ziyalı və müdrik şəxsiyyət kimi formalaşdı. Onun yetişməsində müdrik insanlarla – alimlər, yazıçılar, şairlər və memarlarla ünsiyyət, habelə vicdanlı yaradıcı əmək, təbiətin və cəmiyyətin inkişaf təcrübəsindən bilik inciləri və müdriklik dərsləri çıxarmaq qabiliyyəti də böyük rol oynamışdır.

Yüksək peşəkarlığı və öz xalqı qarşısında məsuliyyət mədəniyyəti ilə yanaşı, Nizaminin nailiyyətlərində Müsəlman intibatının xüsusiyyətləri və sufizm ideyalarının yayılması ilə şərtlənən mütərəqqi mədəni transformasiyaları tələb edən tarixi şərait də mühüm rol oynamışdı. Gəncədə yaşayan müxtəlif millətlərin yüksək şəhər mədəniyyətinə malik nümayəndələri ilə söhbətləri Nizami üçün biliklərin və özünüinkişafın mənbəyi idi. Eyni zamanda Nizami müşahidələrinin və təcrübəsinin, elmi həqiqətləri əks etdirən ruhi mədəniyyətin inkişaf xüsusiyyətləri və qanunauyğunluqlarının təhlilinin nəticələrini çox vaxt antik dövrün tanınmış alim və mütəfəkkirlərinin dilindən verirdi. Bu, bir tərəfdən, öz müasirlərinin inkişafı üçün dahi antik müəlliflərin nailiyyətlərindən praktiki cəhətdən istifadə etməklə, onların irsini aktuallaşdırmaq, digər tərəfdən isə onların vasitəsi ilə öz müşahidələrinin, innovativ ideyalarının, kəşflərinin, müdrik fikirlərinin özünəməxsus kulturoloji ekspertizasını həyata keçirməyə, bununla da orta əsr Azərbaycan cəmiyyətinin mədəniyyətinin inkişafı üçün yeni biliklər yaratmağa imkan verirdi.

Nizami Gəncəvinin insan inkişafında mədəniyyətin aparıcı rolu haqqında dahi Azərbaycan mütəfəkkirinin zəngin irsində toplanan həyat qabiliyyətli mədəniyyət yaradıcı ideyalarının praktikada təcəssüm tapdığını bu gün müasir dünyada asanlıqla görə bilərik. Onlar bəşəriyyətin ruhi mədəniyyətinin müxtəlif sahələrində, insanların həyat fəaliyyətində, habelə dünya sivilizasiyasının yaradıcı qüvvəsi kimi ruhi mədəniyyətin inkişafının BMT və YUNESKO-nun fəaliyyətini də əhatə edən beynəlxalq idarə edilməsi sahəsində öz əksini tapır.

Mədəniyyətin insan inkişafındakı müəyyənedici rolu nəzərə alınmaqla, 1986-cı ildən başlayaraq BMT və YUNESKO tərəfindən bəşəriyyətin sosial-mədəni inkişafına, insan münasibətləri və beynəlxalq münasibətlər mədəniyyətinə həsr olunan bir sıra vacib qətnamələr qəbul edilmişdir. 1982-ci ildə Meksikada Mədə-

niyyət siyasəti üzrə Ümumdünya konfransı (MONDİACULT, Mexiko, 1982-ci il), 1988-1997-ci illərdə Ümumdünya Mədəniyyətin İnkişafı Onilliyi, 2001-2010-cu illərdə isə planetin uşaqlarının maraqları naminə Beynəlxalq Sülh və Qeyri-zorakılıq Mədəniyyəti Onilliyi keçirildi.

1988-1997-ci illərdə BMT və YUNESKO-nun himayəsi altında keçirilmiş Ümumdünya mədəniyyətin inkişafı onilliyi inkişafın əsası və başlıca meyarları qismində mədəniyyəti və insani dəyərləri nəzərdən keçirməyin zəruriliyini aşkara çıxardı. O, dünya xalqlarını elm və təhsilin humanistləşdirilməsinə, insanın intellektual, etik və estetik inkişaf səviyyəsinin yüksəldilməsinə, elmi-texniki və humanist, xalq və akademik mədəniyyətlər arasındakı uçurumu azaltmağa yönəltdi. Bunun ardınca, 1988-ci ildə Stokholmda inkişaf məqsədləri ilə mədəniyyət sahəsindəki siyasət üzrə Hökumətlərarası konfrans keçirildi, bu konfransa müvafiq olaraq 1999-cu ildə Bergendə Mədəniyyət siyasəti üzrə Beynəlxalq forum baş tutdu.

YUNESKO müxtəlif dövlətlər, beynəlxalq təşkilatlar və müxtəlif ölkələrin mədəni elitaları ilə əməkdaşlıq edərək günümüzdə də bəşəriyyətin ruhi mədəniyyətinin inkişafı, mədəni müxtəlifliyin qorunması və dünya ictimaiyyətinin davamlı inkişafı məqsədi ilə mədəniyyətlərin yaxınlaşdırılması istiqamətində məhsuldar fəaliyyət göstərir.

Dahi Nizaminin müdriklik xəzinəsindən götürülmüş həyat reallıqlarını və Şərq və Qərb ölkələrində insan inkişafı qanunauyğunluqlarını insanın həyat fəaliyyəti mədəniyyətinin təkmilləşdirilməsi proseslərində və mədəniyyətin inkişafının idarə edilməsi sahəsindəki dövlət siyasətində nəzərə almaq lazımdır. Buna əsaslanaraq, cəmiyyətin insan kapitalının inkişafı və yüksək mədəniyyətli insanların formalaşdırılması üçün zəruri olan beynəlxalq kulturoloji postulatlar və mexanizmləri təklif etmək istərdim. Mənim fikrimcə, bu prinsiplər və texnologiyalar yalnız Azərbaycan Respublikasının milli maraqları nöqteyi-nəzərindən deyil, həm də bütövlükdə dünya sivilizasiyasının təkmilləşməsi və humanistləşməsi üçün faydalı ola bilər.

*Nizami Gəncəvinin yaradıcılığının reallıqlar, inkişaf tələbatları və dünya sivilizasiyasının çağırışları kontekstində sistemli kulturoloji təhlili BMT və YUNESKO tərəfindən bəşəriyyətin təhlükəsiz inkişafının aşağıdakı beynəlxalq kulturoloji postulatlarının müəyyən edilməsinin məqsədəuyğun olduğunu göstərir:*

1. Dünya mədəniyyəti müdafiə etsə, mədəniyyət dünyanı xilas edər.
2. Milli və qlobal inkişafın strateji bərpaolunan resursu yüksək mədəniyyətli insandır.
3. Mədəniyyət haqqında elm – kulturologiya müasir cəmiyyətlərin davamlı və təhlükəsiz inkişafı üçün əvəzolunmaz əhəmiyyətə malikdir.

*Yüksək mədəniyyətli insanın formalaşdırılması, inkişafı və özünütəkmilləşdirməsinin effektiv sosial və fərdi alətləri və mənbələri ola bilər:*

1. Elm, təhsil (təlim və tərbiyə), maarifləndirmə.
2. Özünütəhsil, özünüdərk, özünütərbiyə və özünüidarə.
3. Kitablar, muzeylər, teatr, kino, incəsənət əsərləri, səyahətlər.

4. Mühazirələr, məşğələlər, konfranslar, təlimlər və ustad dərsləri.
5. Müdrik insanlarla ünsiyyət.
6. Təbiətin həyatı və cəmiyyətin həyat fəaliyyətinin müşahidə edilməsi.

*Milli və beynəlxalq səviyyələrdə dünya mədəniyyətinin və sivilizasiyasının inkişaf prinsipləri qismində beynəlxalq kulturoloji postulatların praktiki tətbiqinə kömək edə bilər:*

1. YUNESKO tərəfindən dünyanın müxtəlif ölkələrində əlavə kulturoloji təhsilin və maarifləndirmənin tətbiqi.
2. Mədəniyyətin bütöv sosial sistem kimi düzgün başa düşülməsinə əsaslanan və zamanın tələbləri və çağırışları ilə şərtlənən kulturoloji islahatların keçirilməsi.
3. Ruhi mədəniyyətin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi mexanizmləri kimi YUNESKO-nun himayəsi altında Beynəlxalq Kulturoloqlar Assosiasiyasının yaradılması və Beynəlxalq Kulturoloqlar Gününün təsis edilməsi.

*Aparılmış kulturoloji tədqiqatların nəticələrinə əsaslanaraq, bəşəriyyəti yüksək ruhi mədəniyyətin inkişafı və təkmilləşdirilməsi yolu ilə getməyə çağıran "böyük dünya vətəndaşı" Nizami Gəncəvinin xatirəsini ehtiramla yad edərək, kulturologiya sahəsində bynəlxalq əməkdaşlığı gücləndirməyi və aşağıdakılar barədə çağırışla BMT və YUNESKO-ya mürciət etməyi təklif edirəm:*

1. Daimi dəyişikliklər, qeyri-müəyyənliklər və qloballaşma çağırışları şəraitində yüksək mədəniyyətli insanı bəşəriyyətin davamlı və təhlükəsiz inkişafının strateji bərpa olunan resursu və başlıca hərəkətverici qüvvəsi kimi qəbul etmək.
2. Bütün dünyada ruhi mədəniyyətin qabaqlayıcı inkişafı və yüksək mədəniyyətli insanların "istehsalı"nın zəruriliyini qlobal idarəetmənin bəşəriyyətin humanitar təhlükəsizliyini təmin edən prioritet vəzifəsi hesab etmək.
3. Yüksək ruhi mədəniyyətin intibahı və humanist sivilizasiyanın qurulması tələbatları ilə şərtlənmiş daimi kulturoloji islahatlar işləyib hazırlamaq və müxtəlif ölkələrdə həyata keçirmək.
4. BMT və YUNESKO-nun rəhbərliyi altında əlavə kulturoloji təhsil və maarifləndirmə, sistemli təhlil və ekspertizanın kulturoloji metodologiyasından istifadə etməklə, "Homo sapiens" insan növündən – "Homo culturalis" insan növünə keçid etmək üçün beynəlxalq kulturoloji proqramlar və layihələr işləyib hazırlamaq və onları bütün dünyada reallaşdırmaq.
5. Mədəniyyət haqqında elm – kulturologiyanın özündə ehtiva etdiyi yüksək ruhi mədəniyyət dəyərlərinin, mədəni nemətlərin və hikmət incilərinin dünyanın bütün ölkələrdəki xalq kütlələri tərəfindən öyrənilməsi üçün geniş imkanlar açmaq.
6. Milli mədəni elitaların rolunu yüksəltmək və davamlı inkişaf məqsədləri ilə xalqların rifahının, həyat qabiliyyətinin, kulturoloji dialoqunun və əməkdaşlığının artırılmasını təmin edən kulturoloji islahatların işlənib hazırlanması və həyata keçirilməsində onların siyasi elitalarla məhsuldar əməkdaşlığına yardım etmək.
7. Yüksək mədəniyyətli insanlar müasir dünyanın həyat qabiliyyətinin və davamlı inkişafının əsası olduğundan, 2022-2031-ci illər Ümumdünya yüksək

mədəniyyətli insanların formalaşdırılması və inkişafı onilliyinin keçirilməsi haqqında qərar qəbul etmək, bunu səmərəli dialoqa, beynəlxalq mədəni identikliyin formalaşmasına, mədəniyyətlərin yaxınlaşması və uyğunlaşmasına, xalqların və dövlətlərin əməkdaşlığına aparan yol kimi nəzərdən keçirmək.

## NƏTİCƏ

Sivilizasiya böhranı şəraitində özünü dərk edərək, özünə və başqalarına yaxşılığa doğru dəyişməkdə kömək etmək çox vacibdir. Təfəkkür məhdudluğundan və birtərəfli dünyagörüşündən uzaq olmaq, özünüinkişafla daha çox məşğul olmaq, bu gün dünənkindən, sabah bu günkündən yaxşı yaşamağa çalışmaq lazımdır ki, özündən sonra yaxşı iz qoyasan.

Böyük Azərbaycan mütəfəkkiri və şairi Nizami Gəncəvi səxavətə və insan xarakterinin nəcibliyinə çağırış edirdi. Lakin həyat qabiliyyəti və xoşbəxtlik üçün yalnız mənəviyyatlı olmaq kifayət deyil. İntellektual mədəniyyəti, rasional təfəkkürü də mənəvi mədəniyyətlə ahəngdar olaraq inkişaf etdirmək lazımdır. Cahil olan halda mənəviyyatlı və fəzilətli olmaq mümkündürmü? Axı bütün gözəl mənəvi keyfiyyətlərinə baxmayaraq, cahil insan şərin, kasıblığın və zəifliyin daşıyıcısı olacaqdır.

İnsanın ailədəki düzgün tərbiyədən və cəmiyyətin dəyərlər sistemindən asılı olan mənəvi mədəniyyəti, obrazlı olaraq quş şəklində təsəvvür edilə bilən ruhi mədəniyyətin yalnız bir qanadıdır. Quşun seçilmiş hədəfə uça bilməsi üçün ağlı elmi biliklərlə zənginləşdirmək, yəni digər qanadı – mənbəyi elm, təhsil və maariflənmə olan intellektual mədəniyyəti də ahəngdar olaraq inkişaf etdirmək lazımdır. Mədəniyyətin iki qanadının tarazlı hərəkəti onun cəmiyyətdəki dəyişdirici missiyasının uğurunu təmin edəcəkdir.

Ümid edirik ki, bu kitabda toplanmış universal kulturoloji biliklər Azərbaycan xalqının bütün kateqoriyaları və yüksək ruhi mədəniyyət dəyərlərinə sadiq olan və yalnız yüksək mədəniyyətin və yüksək mədəniyyətli insanların həyatqabiliyyətli cəmiyyətin əsası olduğunu, dünyanı destruktiv proseslərdən xilas etdiyini və xalqların və bütün bəşəriyyətin xoşbəxtliyinə və daha yaxşı gələcəyinə yol açdığını başa düşən digər ölkələrin vətəndaşları üçün faydalı olacaqdır.

Elmi biliklərə, bacarıqlara, mütəşəkkilliyə, mənəviyyata malik və cəmiyyətin rifahı naminə yaradıcı əməklə məşğul olan yüksək mədəniyyətli insandan daha gözəl və daha vacib nə ola bilər? Belə insan hər bir xalqın milli sərvəti, təhlükəsiz insan inkişafının başlıca hərəkətverici qüvvəsi, hər bir mədəniyyətin və bütün bəşəriyyətin ali dəyəridir. Belə insanların sayı nə qədər çox olsa, hər bir cəmiyyətdə qarşılıqlı anlaşma, siyasi sabitlik və sosial harmoniya da bir o qədər yüksək olar.

Təkcə yüksək mənəvi dəyərlərin tərbiyəsi deyil, həm də cəmiyyətin yüksək ruhi mədəniyyətinin inkişafı üçün zəruri əsas olan intellektual mədəniyyətin artmasına təkan verən özünüinkişafa, özünütəhsilə və elmin nailiyyətlərinin dərk edilməsinə sevgi formalaşdırmaq da vacibdir.

Ruhi mədəniyyətin "iki qanadının" – mənəvi və intellektual mədəniyyətin ahəngdar inkişafını özündə təcəssüm etdirən yüksək mədəniyyətli insan hər bir ölkənin təhlükəsiz milli inkişafının həm məqsədi, həm də strateji bərpa olunan resursudur. Bununla yanaşı, belə insanların "istehsalı" beynəlxalq miqyaslı strateji vəzifədir ki, yalnız Avropa məkanının humanitar təhlükəsizliyi deyil, həm də bütün bəşəriyyətin taleyi daha çox bu vəzifənin müvəffəqiyyətlə həll edilməsindən asılıdır. Gəlin bütün dünyada yüksək mədəniyyətli insanların formalaşdırılması və inkişafı proseslərinə dəstək üçün səylərimizi birləşdirək. Ümumi maraqları nəzərə alaraq, "Homo sapiens" insan növündən – "Homo culturalis" insan növünə keçidi təmin edən beynəlxalq kulturoloji proqramlar və layihələr işləyib hazırlamaq və onları həyata keçirmək məqsədəuyğun olardı. Bu, qarşılıqlı anlaşmaya, beynəlxalq mədəni identikliyin formalaşdırılmasına, həmrəyliyə, mədəniyyətlərin yaxınlaşmasına və sivilizasiyaların əməkdaşlığına, məhsuldar dialoquna və tərəfdaşlığına aparan xeyirli yoldur. Bu, dünyanı yaxşılığa doğru dəyişməyə imkan verən yoldur.

**Fuad Məmmədov**

## İstifadə olunmuş və tövsiyə edilən ədəbiyyat


1. Аббасгулу Ага Бакиханов: Сочинения, записки, письма. Баку, 1983.
2. Агости Э.П., Эктор П.: Нация и культура. Москва, 1963.
3. Адаир Джон. Искусство управлять людьми и самим собой. Москва, 2007.
4. Адам Смит. Исследование о причинах богатства народов. В 2-х томах, Москва, 1935.
5. Алакбаров У.К. Основы управления устойчивым развитием и экологической цивилизацией. Баку, Азполиграф, 2017, 192 стр.
6. Алакбаров Урхан. Основы человеческого развития. Баку: Azpoliqraf, 2017.
7. Ананьев Б.Г. О проблемах современного человекознания. Москва, 1977.
8. Ансофф И. Стратегическое управление: Пер. с англ. Москва, 1989.
9. Античная цивилизация. Москва, 1973.
10. Аристотель. Собрание сочинений в 4-х томах. Москва, 1975.
11. Астафьева О.Н. и др. Культурология в условиях новых вызовов XXI века: новые тренды в образовании. Екатеринбург, 2024.
12. Астафьева О.Н. и др. Многогранность человеческого капитала: культурные и социальные основания. Москва, 2019.
13. Астафьева О.Н. и др. Социокультурная политика в Российской Федерации: стратегии, уровни, инновации. Симферополь, 2029.
14. Астафьева О.Н., Грушевицкая Т.Г., Садохин А.П. Культурология. Теория культуры. Москва, 2015.
15. Атаев А.А. Управленческая деятельность. Москва, 1990.
16. Атаманчук Г.В. Теория государственного управления. Москва, 2004.
17. Афанасьев В.Г. Научное управление обществом. Москва, 1973.
18. Ахундов М.Ф. Избранные философские произведения. Баку, 1982.
19. Бачило И.Л. Организация государственного управления: правовые проблемы. Москва, 1994.
20. Бернал Дж. Наука в истории общества. Москва, 1956.
21. Библия. Москва, 1995.
22. Блондель Ж. Политическое лидерство. Путь к всеобъемлющему анализу. Москва, 1992.
23. Богатин Ю.В., Швандар В.А. Экономическое управление бизнесом. Москва, 2001.
24. Бойс Мэри. Зороастрийцы. Москва, 1988.
25. Бэкон Фрэнсис. Сочинения в 2-х т. Москва,1972.
26. Василенко И.А. Административно-государственное управление странах Запада. Москва, 2000.
27. Васильев Л.С. История религий Востока. Москва,1983.
28. Введение в государственное управление: В 3-х кн. Москва, 1998.
29. Вебер М. Избранные произведения: Москва, 1990.
30. Великие мысли великих людей. Москва, 2002.

31. Вербицкий И. Япония на пороге XXI. Москва, 1989.
32. Винер Н. Человек управляющий: Пер. с англ. Санкт-Петербург, 2001.
33. Владимиров С.В., Волков В.А. Разум против догмы. Москва, 1982.
34. Волков Г.Н. Три лика культуры. Москва, 1986.
35. Всемирное писание. Сравнительная антология священных текстов. Москва, 1995.
36. Галерея Уффици. Флоренция. Москва, 1968.
37. Гарнер Д. Великобритания: центральное и местное управление: Пер. с англ. Москва, 1984.
38. Гвишиани Д.М. Организация и управление. 2-е изд., доп. Москва, 1972.
39. Геккель Э. Мировые загадки. Санкт-Петербург, 1906.
40. Гердер И.Г. Идеи к философии истории человечества. Москва, 1997.
41. Гете И.В. Избранные философские произведения. Москва, 1964.
42. Геюшев З.Б. Этическая мысль в Азербайджане. Баку, 1968.
43. Глазунова Н.И. Государственное управление как система. Москва, 2001.
44. Государственное управление: основы теории и организации. Москва, 2000.
45. Гумилев Л.Н. Ритмы Евразии: эпохи и цивилизации. Москва, 1993.
46. Гурней Б. Введение в науку управления. Москва, 1989.
47. Гусейнов А.А. Золотое правило нравственности. Москва, 1988.
48. Гусейнов Г. Из истории общественной и философской мысли в Азербайджане XIX века. Баку, 1949.
49. Дейл Карнеги. Как завоевывать друзей и оказывать влияние на людей. Как перестать беспокоиться и начать жить. Москва, 1989.
50. Джавахарлал Неру. Открытие Индии. Москва, 1955.
51. Джон Темплтон, Всемирные законы жизни. Москва, 2007.
52. Древние цивилизации. Москва, 1989.
53. Елена Борисова. Поведенческие ошибки при проведении аттестации. Москва, 2001.
54. Жан-Жак Руссо. Трактаты. Москва, 1969.
55. Зайцев В. Япония. Москва, 1989.
56. Здравомыслов А.Г. Потребности. Интересы. Ценности. Москва, 1986.
57. Игнатенко А.А. Ибн-Халдун. Москва, 1980.
58. Играр Алиев. История Мидии. Баку, 1960.
59. История Азербайджана. В 3-х томах. Баку, 1958-64.
60. История дипломатии. В 3-х т. Москва, 1941-1945.
61. История человечества. Т.5. Санкт-Петербург, 1896.
62. Иэнага Сабуро. История японской культуры. Москва,1972.
63. Караев Я. Мирза Алекпер Сабир. Баку, 1987.
64. Кабуснамэ. Мсква, 1958.
65. Каган М.С. Человеческая деятельность. Москва, 1974.
66. Как добиться успеха. Москва, 1991.
67. Клиланд Д., Кинг У. Системный анализ и целевое управление:

Пер. с англ. Москва, 1974.
68. Князева М. Ключ к самопознанию. Москва, 1990.
69. Конрад Н.И. Запад и Восток. Москва, 1972.
70. Концепция самоорганизации в исторической перспективе. Москва, 1994.
71. Коран (перевод мыслов и комментарии Валерии Пороховой). Каир, 1997.
72. Крылова Н.С. Английское государство. Москва, 1981.
73. Культура Советского Азербайджана. Баку, 1980.
74. Культура эпохи Возрождения и Реформация. Ленинград, 1981.
75. Культура, человек и картина мира. Москва, 1987.
76. Культурология сегодня: основы, проблемы, перспективы. Москва,1993.
77. Кунц Г., О’Доннел С. Управление: системный и ситуационный анализ управленческих функций: Пер. с англ. Т. 1, 2. Москва, 1981.
78. Ласло Маккаи. Мир ренессанса. Будапешт, 1980.
79. Липин Л., Белов А. Глиняные книги. Ленинград, 1956.
80. Липперт Ю. История культуры. Санкт-Петербург, 1908.
81. Макиавелли Н. Государь. Москва, 2007.
82. Маковельский А.О. Авеста. Баку, 1960.
83. Макс Вебер. Критические исследования в области логики наук о культуре. Пер. с нем. Москва, 1990.
84. Массон В. Первые цивилизации. Ленинград. 1989.
85. Методы и формы государственного управления. Москва, 1977.
86. Милтс А.А. Гармония и дисгармония личности. Москва, 1990.
87. Мировой опыт в управлении персоналом. Обзор зарубежных источников. Москва, 1998.
88. Мифологический словарь. Москва, 1991.
89. Мишель Монтень. Об искусстве жить достойно. Москва, 1973.
90. Мурад Аджи. Европа, тюрки, Великая степь. Москва, 2006.
91. Мы живем среди людей. Москва, 1989.
92. Мэри Пат Фишер. Живые религии. Москва, 1997.
93. Низами Гянджеви. Сочинения в 3-х томах. Баку, 1990.
94. О. Бисмарк. Мысли и воспоминания. В 3-х томах. Т.I, Москва, 1939, т.II Москва, 1940, т.III. Москва, 1941.
95. Оскар Егер. Всеобщая история стран и народов мира. Москва, 2022.
96. Правовые системы современности. Москва, 1990.
97. Петров М.К. Язык, знак, культура. Москва, 1991.
98. Печчеи А. Человеческие качества: Пер. с англ. Москва, 1985.
99. Питер Ф. Друкер. Задачи менеджмента в XXI веке. Москва, 2007.
100. Планкетт Л., Хейл Г. Выработка и принятие управленческих решений: Пер. с англ. Москва, 1984.
101. Платон и его эпоха. Москва, 1979.
102. Платон. Государство. Кн.6. Платон Собрание сочинений, в 4-х т. Т.3. Москва, 1994.

103. Плутарх. Избранные жизнеописания. Москва, 1987.
104. Поппер К. Открытое общество и его враги: Пер. с англ. Т. 1, 2. Москва, 1992.
105. Пригожин И., Стенгерс И. Порядок из хаоса: новый диалог с природой: Пер. с англ. Москва, 1986.
106. Производительность труда «белых воротничков»: Пер. с англ. Москва, 1989.
107. Психологические аспекты управления. Москва, 1984.
108. Размышления и афоризмы французских моралистов XVI-XVIII веков. Ленинград, 1987.
109. Рафик Алиев. В тайниках бытия. Баку, 2024.
110. Рафик Алиев. Все важное внутри меня. Баку, 2019.
111. Рафик Алиев. Дитя романтики. Баку, 2024.
112. Рафик Алиев. Основы религии. Баку, 2003.
113. Рафик Алиев. Посетившие меня мысли. Баку, 2021.
114. Рена Мамедова. Методологические основы музыкальной тюркологии. Баку, 2024.
115. Рена Мамедова. Россия и Кавказ. Баку, 2010.
116. Рутенбург В.И. Культура эпохи Возрождения и Реформация. Лениград, 1986.
117. Сарагоса Ф.М. Завтра всегда поздно: Пер. с исп. Москва, 1989.
118. Саямов Ю.Н. «Международные отношения в контексте глобальных процессов». Москва, 2018.
119. Саямов Ю.Н. «Дипломатия в современном мире». Москва, 2022.
120. Саямов Ю.Н. «На диломатической стезе». Москва, 2021.
121. Семенов Ю.И. На заре человечской истории. Москва, 1989.
122. Сиясетнаме. Книга о правлении вазира XI столетия Низам ал-Мулька. Москва-Ленинград, 1949.
123. Служение развитию духовной культуры. Коллективная монография. Ассоциации культуры Азербайджана «Симург». Баку, 2023.
124. Сорокин П.А. Человек. Цивилизация. Общество. Москва, 1992.
125. Социальная фиилософия франкфуртской школы. Москва, 1978.
126. Сто великих людей. Москва, 2006.
127. Сто великих мыслителей. Москва, 2002.
128. Страссман П. Информация в век электроники. Проблемы управления: Пер. с англ. Москва, 1987.
129. Сухейль Фарах, Фуад Мамедов. Диалоги с мудрецами. Монография. Москва: ИД Академии Жуковского, 2023.
130. Тагиров Э.Р. Творение тишины. Человечество у порога Мира. Казань 2022.
131. Тагиров Э.Р. Устойчивость планеты-историческая надежда человечества. Казань 2016.

132. Тагиров Э.Р. Факел миротворчества. Казань 2020.
133. Тагиров Э.Р. Феномен культуры на фоне разлома истории. Казань: Логос-Пресс, 2023.
134. Тайлор Э.Б. Введение к изучению человека и цивилизации (Антропология). Москва, 1924.
135. Таранов П.С. Золотая книга руоводителя. Москва, 2007.
136. Тейлор Ф.У. Принципы научного менеджмента: Пер. с англ. Москва, 1991.
137. Тейяр де Шарден П. Феномен человека. Москва, 1987.
138. Теория государства и права. Москва, 1967.
139. Тетчер М. Искусство управления государством. Стратегия для меняющегося мира: Пер. с англ. Москва, 2003.
140. Тихомиров ЮА. Теория компетенции. Москва, 2001.
141. Тихонов Р.Е. От замысла — к воплощению: о подготовке кадров государственного управления. Москва, 1992.
142. Тойнби А. Постижение истории. Москва, 1991.
143. Тэнасе А. Культура и религия. Москва, 1975.
144. Уайт Л.Д. Введение в науку государственного управления // Классики теории государственного управления: американская школа. Москва, 2003.
145. Управление персоналом. Москва, 2002.
146. Управление, информация, интеллект. Москва, 1987.
147. Флиер А.Я. Культурогенез. Москва, 1996.
148. Фрэзэр Д.Д. Золотая ветвь. Москва, 1986.
149. Фуад Мамедов. Культура управления. Опыт зарубежных стран. Баку, 2013.
150. Фуад Мамедов. Культурология как путь к эффективной жизнедеятельности. Баку, 2006.
151. Фуад Мамедов. Культурология, культура, цивилизация. Баку, 2015.
152. Фуад Мамедов. Культурология. Вопросы теории и истории. Баку, 2002.
153. Фуад Мамедов. Культурология: ответы на вызовы XXI века. Казань, 2019.
154. Хайраттин Ивгин. Манас. Анкара, 2011, 2016, 2020.
155. Шишков А.М. Средневековая интеллектуальная культура. Москва, 2003.
156. Шпенглер О. Закат Европы. В 2-х томах. т.1, Москва, 2003, т.2, Москва, 2004.
157. Энгельс Ф. Происхождение семьи, частной собственности и государства. Маркс К. и Энгельс Ф. Соч., т.21. Москва, 1961.
158. Эразм Роттердамский и его время. Москва, 1989.
159. Эрхард Л. Благосостояние для всех: Пер. с нем. Москва, 1991.
160. Эффективность государственного управления: Пер. с англ. Москва, 1998.
161. Яковец Ю.В. Циклы. Кризисы. Прогнозы. Москва, 1999.
162. Япония. Экономика, политика, история. Москва, 1989.
163. Ясперс К. Смысл и назначение истории: Пер. с нем. Москва, 1994.

## *Azərbaycan dilində*

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 20 cilddə. Bakı, 1997-2007. “Simurq” Azərbaycan mədəniyyət Assosiasiyasının tarixi. 1990-2015”. Bakı, 2016.
2. Əhməd Ağaoğlu. Üç mədəniyyət (elmi redaktoru Vaqif Sultanlı). Bakı, 2006.
3. Əliyev R.Y. İslam və Azərbaycan mədəniyyəti. Bakı, 1998.
4. Fuad Məmmədov. İdarəetmə mədəniyyəri. Xarici ölkələrin təcrübəsi. İkinci, tamamlanmış nəşri. Dərs Vəsaiti. Bakı, 2013.
3. Fuad Məmmədov. Kulturologiya effektiv həyat fəaliyyətə aparan yol kimi. Bakı, 2006.
4. Fuad Məmmədov. Kulturologiya və insan inkişafı. Bakı, 2019.
5. Fuad Məmmədov. Kulturologiya, mədəniyyət, sivilizasiya. Bakı, 2016.
6. Həsənli Hacı Sabir. İslam mədəniyyətində elm. Bakı, 1998.
7. Kitabi Dədə Qorqud. Bakı, 1998.
8. Qasımzadə F. “Qəm karvanı” yaxud zulmətdə nur (Füzulinin dünya görüşü). Bakı, 1968.
9. Quluzadə Musa. Azərbaycanda dövlət və din münasibətləri. Bakı, 2002.
10. Nəsirəddin Tusi. Əxlaqi-Nasiri (Farscadan Azərbaycan dilinə tərcümə, müqəddəmə və şehri R. Sultanovundur). Bakı, 1980.
11. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, 1983.
12. Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modelinin axtarışı. Bakı, 2004.
13. Süleymanlı Mübariz. Azərbaycan kulturoloji fikir tarixindən (XX əsrin əvvəlləri). Monoqrafiya. Bakı, 2011.
14. Süleymanlı Mübariz. Kulturoloji irsin tədqiqi problemləri (XX əsrin əvvəllərinin mənbələri əsasında). Monoqrafiya. Bakı, 2011.
15. Ziyad Səmədzadə. Çin qlobal dünya iqtisadiyyatında. Bakı, 2009.
16. Nəriman Həsənzadə. Kulturologiya. Bakı, 2005.
17. İlham Əliyev. İnkişaf – məqsədimizdir. 1-3 cildlər. Bakı, 2008-2009.

## *Xarici dillərdə*

1. Abraham Maslow. Motivation and Personality. N.Y., 1987.
2. Abraham Maslow. Motivation and Personality. N.Y., 1987.
3. Alakbarov U.K.Fundamentals of Inclusive development management. Baku, 2019.
4. Boas F. The Aims of Ethnology. 1888.
5. Cassirer E. Philosophie der symbolischen Formen. Bd. 1-3. Darm., 1980-85.
6. Hayrettin İVGİN. Altay Dağlarının Kaplanı: Manas. Ankara, 2016.
7. Hayrettin İVGİN. Derin mitoloji. Ankara, 2019.

8. Hayrettin İVGİN. Manas. Tashkent, 2022.
9. Hungtington S.F. The Clash of Civilizations? Foreign Affairs. 1993. V.72. №3.
10. Xorkheimer M. Kritische Theorie. Bd. I-II. Fr./M., 1968.
11. International conference on cultural policy research. November 10-12 - 1999 Bergen, Norway.
12. Kroeber A.L. Anthropology. N.Y. 1923.
13. Margaret Mead. National Character. Anthropology Today. Ed. By A.L. Kroeber. Chi., 1953/
14. Maritain Jaques. Religion et culture. P., 1991.
15. Murdock Dj. P. Culture and Sociery. Pitsburg, 1965.
16. Parsons T. The Social System. Gleoncoe, III., 1951.
17. Politiqe culturelle: vingt et un enjeux strategiques. Unite de Recherche et de Development sur les Politiques Culturelles. Strasburg, Conseil de L'Europe,1999.
18. Promoting Cultural Researsh for Human Development. Stockholm Sweden, 1998.
19. Radkliffe-Brown A.R. Method in Social Anthropology. Chi., 1958.
20. Sayamov Y.N. A City in the Globalizing World. Hong Kong, 2016.
21. Toffler A. The Third Wave. N.Y., 1980.
22. White L. The Science of Culture. N.Y., 1949.
23. Williams R. Culture and Sosiety. L., 1968.
24. Zadeh L.A.. From Computing with Numbers to Computing with Words – From Manipulation of Measurements to Manipulation of Perceptions. In: P.P. Wang (ed.), Computing with Words, Wiley series on Intelligent Systems, Wiley and sons, New York (2001), p.p. 35-68.
25. Zadeh L.A.. Fuzzy Logic = Computing with Words. IEEE – Trans on Fuzzy Systems, 4, 2 (1996), p.p. 103-111.
26. Zadeh L.A.. Probability measures of fuzzy events. Journal Math. Analysis and appl., 10 (1968), p.p. 421-427
27. Zadeh L.A.. The Role of Fuzzy Logic in the Management of Uncertainty in Expert Systems. Fuzzy Sets and Systems, 11 (1983) p.p. 199-227.
28. Zadeh L.A.. Toward a Theory of Fuzzy Information Granulation and its Centrality in Human Reasoning and Fuzzy Logic. Fuzzy Sets and Systems, 90 (1997), p.p. 111-127.

## REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ HAQQINDA MƏLUMAT

Rafiq Yəhya oğlu Əliyev – fəlsəfə elmləri doktoru, professor, "İrşad" İslam Araşdırmaları Mərkəzinin yaradıcısı və direktoru, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birinci sədri (2001-2006-cı illər). Azərbaycan Respublikası.

Maksim Valentinoviç Andreyev – hüquq elmləri doktoru, professor, İnnovativ Texnologiyalar Mərkəzinin direktoru, "Böyük Volqa Yolu" Beynəlxalq İctimai Təşkilatının prezidenti. Tatarıstan, Rusiya Federasiyası.

Olqa Nikolayevna Astafyeva – fəlsəfə elmləri doktoru, professor, RF Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasının Elm-tədris mərkəzinin direktoru, Rusiya Federasiyası ali məktəbinin əməkdar işçisi, Rusiya Federasiyası Hökumətinin mədəniyyət sahəsində mükafatının laureatı, Rusiya Kulturologiya Cəmiyyətinin Rəyasət Heyətinin sədri.

Nəriman Əliməmməd oğlu Nərimanzadə – Beynəlxalq Elmlər Akademiyasının akademiki, professor, Azərbaycanın xalq şairi, Azərbaycan Milli Aviasiya Akademiyasının Dil və ictimai fənlər kafedrasının müdiri.

Nizami Qulu oğlu Cəfərov – Azərbaycan Milli Elmlər Akademiyasının akademiki, filologiya elmləri doktoru, professor, Milli Məclisin deputatı, Azərbaycan Respublikası Atatürk Mərkəzinin direktoru.

Nina Aleksandrovna Koçelayeva – tarix elmləri üzrə fəlsəfə doktoru, dosent, Moskva Beynəlxalq Kino Festivalının üzvü, "Kazan beynəlxalq müsəlman filmləri festivalının" proqram direktoru, Ümumrusiya Dövlət Kinematoqrafiya Universitetinin aparıcı elmi əməkdaşı. Rusiya Federasiyası.

Rəna Azər qızı Məmmədova, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, sənətşünaslıq üzrə elmlər doktoru, professor, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun İncəsənətin qarşılıqlı əlaqələri şöbəsinin müdiri, Bəstəkarlar İttifaqının İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Rəssamlar İttifaqının üzvü.

Yuri Nikolayeviç Sayamov – Ümumdünya Elm və İncəsənət Akademiyasının akademiki, siyasi elmlər doktoru, professor, M.V. Lomonosov ad. MDU-nun Qlobal proseslər fakültəsinin YUNESKO kafedrasının müdiri, Roma klubunun üzvü. Rusiya Federasiyası.

Gülçöhrə Nadırovna Seyidova – Beynəlxalq Humanitar "Avropa-Asiya" Akademiyasının akademiki, fəlsəfə elmləri namizədi, dosent, Dağıstan Respublikası-

nın əməkdar müəllimi, Qafqaz Xalqlarının Dostluğu İnstitutunun (Stavropol ş.) elmi iş və beynəlxalq əlaqələr üzrə prorektoru, YUNESKO kafedrasının Şimali Qafqazda mənəvi ənənələrin, mədəniyyətlər və dinlərarası dialoqun xüsusiyyətlərinin komparativ tədqiqatları üzrə bölməsinin rəhbəri, "Dünya mədəniyyətləri və dinlərinin tarix muzeyi" (Dağıstan Respublikası Dövlət büdcəsi müəssisəsi) elmi məsləhətçisi, Dağıstan Respublikası İcmalar Palatasının eksperti. Rusiya Federasiyası.

Mübariz Aslan oğlu Süleymanlı – fəlsəfə elmləri doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru. Azərbaycan Respublikası.

Sühəyl Fərəh, Rusiya Təhsil Akademiyasının akademiki, fəlsəfə elmləri doktoru, professor, "Sivilizasiyaların dialoqu" Açıq Universitetinin prezidenti. Livan.

Engel Rizakoviç Tahirov – akademik, tarix elmləri doktoru, professor, YUNESKO-nun Sülh Mədəniyyəti İnstitutunun rektoru, Beynəlxalq Humanitar "Avropa-Asiya" Akademiyasının prezidenti, Rusiyanın BMT-yə Yardım Assosiasiyasının rəyasət heyətinin üzvü, Mədəniyyət səfiri, Ümumdünya Sülh Federasiyasının (UPF) sülh səfiri. Tatarıstan, Rusiya Federasiyası.

Xeyrəddin İvgin – akademik, filologiya elmləri doktoru, Türkiyə Ankara Təhsil İnstitutunun və Anadolu Universitetinin professoru, Dünya Söz Akademiyasının prezidenti. Türkiyə

Ömər Həsən oğlu Eldarov – Azərbaycan Milli Elmlər Akademiyasının akademiki, Azərbaycan Respublikasının xalq rəssamı, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının fəxri prezidenti.

Yuri Vladimiroviç Yakovets – Rusiya Təbiət Elmləri Akademiyasının akademiki, iqtisad elmləri doktoru, professor, Pitirim Sorokin-Nikolay Kondratyev Beynəlxalq İnstitutunun prezidenti, Yalta Sivilizasiya Klubunun sədri. Rusiya Federasiyası.

Alla Nikolayevna Yanıkina – fəlsəfə elmləri namizədi, Kazan Dövlət Mədəniyyət İnstitutunun Muzeyşünaslıq, kulturologiya və sənətşünaslıq kafedrasının dosenti.

**Fuad Məmmədov**

YÜKSƏK MƏDƏNİYYƏTLİ

# İNSAN

Format: 70x100 1/16
Ofset kağızı. Ofset çap üsulu.
Həcmi: 18,75 c.v.  Sayı: 500

“OL” MMC-nin mətbəəsində çap olunub .
AZ 1009 Bakı, Mirzə İbrahimov 43. Tel: (012) 497-36-23
E-mail: olnpkt@gmail.com



Fuad Teyyub oğlu Məmmədov – kulturoloq, tarix elmləri doktoru, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının professoru, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti, Beynəlxalq Humanitar "Avropa-Asiya" Akademiyasının vitse-prezidenti, "Simurq" Beynəlxalq kulturoloji jurnalının (Dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsi məsələləri) təsisçisi və baş redaktoru, Azərbaycan Əsilzadələr Məclisinin üzvü.

Azərbaycan elmində yeni istiqamətin – kulturologiyanın banisidir. 300-dən artıq elmi və elmi-maarifləndirici əsərlərin, o cümlədən beynəlxalq səviyyədə tanınmış konsepsiyaların, monoqrafiyaların və tədris vəsaitlərinin: "Kulturologiya: Nəzəriyyə və tarix məsələləri" (Bakı, 2002), "Kulturologiya effektiv həyat fəaliyyətinə aparan yol kimi" (Bakı, 2006), "İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi" (Bakı, 2009, 2013), "Kulturologiya, mədəniyyət, sivilizasiya" (Bakı, 2015), "Kulturologiya: XXI əsrin çağırışlarına cavablar" (Kazan, 2019), "Dünyanı mədəniyyət xilas edəcək!" (həmmüəllifliyi ilə, Moskva, 2021, Dəməşq, 2022), "Ruhi mədəniyyətin inkişafına xidmət" (kollektiv monoqrafiya, Bakı, 2023) və digər əsərlərin müəllifidir.

Fuad Məmmədov Rusiya, ABŞ, Almaniya, Norveç, Fransa, Belçika, Cənubi Koreya, Tailandda, Misirdə, Yunanıstanda, Türkiyədə, İranda, Kosta-Rikada, Rumıniyada, Macarıstan və başqa ölkələrdə keçirilmiş beynəlxalq forumlarda, cəmiyyətlərdə və səfirliklərdə məruzələrlə çıxış edib. Müəllifin monoqrafiyalarından bəziləri Rusiya, Fransa, Avstriya, Birləşmiş Krallıq, Yaponiya, Çin, Macarıstan, Estoniya və digər ölkələrin dövlət kitabxanalarında, eləcə də BMT, YUNESKO, Roma Klubu, ABŞ Konqresinin kitabxanalarında saxlanılır.

"İntellektual inkişaf problemləri" Beynəlxalq Elmlər Akademiyasının (2002), Beynəlxalq Pedaqoji və Sosial Elmlər Akademiyasının (2004), Beynəlxalq Humanitar "Avropa-Asiya" Akademiyasının (2013), Beynəlxalq Qlobal Tədqiqatlar Akademiyasının (2018) həqiqi üzvü, Dünya Söz Akademiyasının fəxri üzvü (2018), Rusiya Təbiət Elmləri Akademiyasının xarici üzvü (2021) seçilmişdir.

Onun Azərbaycan və dünya kulturologiya elminə verdiyi töhfə "Humay", "İntellekt" Milli ictimai mükafatları ilə, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanları ilə, AR Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsinin diplomu ilə, AR Təhsil Nazirliyinin, Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Respublika Komitəsinin və Azərbaycan Respublikasının Ombudsmanının döş nişanları ilə, Misir Təhsil Nazirliyinin qızıl medalı ilə, Moskva Hökumətinin "Beynəlxalq əməkdaşlığa töhfəyə görə" medalı ilə, YUNESKO-nun Sülh Mədəniyyəti İnstitutunun və Beynəlxalq Humanitar "Avropa-Asiya" Akademiyasının "Sülh qızılgülü" və "Mərhəmət" qızıl medalları, "Simurq" beynəlxalq medalı, "Brahma Kumaris" Ümumdünya Ruh Universitetinin "Cisimsiz ali ruh" ali mükafatı, "Dövrün yaradıcısı" beynəlxalq ordeni, Pitirim Sorokin-Nikolay Kondratyev Beynəlxalq İnstitutunun "Pitirim Sorokin" qızıl medalı, Dünya Söz Akademiyasının "Qlobus" mükafatı, Azərbaycanın "Şəms" Milli mükafatı, "Mədəniyyət səfiri" və "Sülh səfiri" fəxri adları, bir sıra başqa milli və beynəlxalq ictimai təşkilatların mükafatları ilə təltif edilib.

ISBN 978-9952-8552-1-0
9789952855210

OL NPKT